ISSN 2218-4783

AZƏRBAYCAN
MİLLİ ELMLƏR AKADEMİYASI
NAXÇIVAN BÖLMƏSİ

НАХЧЫВАНСКОЕ
ОТДЕЛЕНИЕ НАЦИОНАЛЬНОЙ
АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА

AZERBAIJAN NATIONAL
ACADEMY OF SCIENCES
NAKHCHIVAN BRANCH OFFICE

XƏBƏRLƏR

İctimai və humanitar elmlər seriyası

ИЗВЕСТИЯ

СЕРИЯ ОБЩЕСТВЕННЫХ И
ГУМАНИТАРНЫХ НАУК

PROCEEDINGS

THE SERIES OF SOCIAL AND
HUMANITIES SCIENCES

2018, № 1

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NAXÇIVAN BÖLMƏSİ

ISSN 2218-4783

XƏBƏRLƏR

İctimai və humanitar elmlər seriyası

№ 1

13007



Naxçıvan, "Tusi" – 2018, Cild 14

Redaksiya heyəti:

Akademik **İ.M.Hacıyev** (baş redaktor), akademik **İ.Ə.Həbibbəyli**, akademik **N.M.Vəlixanlı**, AMEA-nın müxbir üzvü **Ə.A.Quliyev** (baş redaktorun müavini), AMEA-nın müxbir üzvü **Q.İ.Qədirzadə**, Akademik **Y.M.Mahmudov**, filologiya elmləri doktoru, professor **Mustafa Kaçalin** (Türkiyə), tarix elmləri doktoru, professor **Mətin Hülagu** (Türkiyə), AMEA-nın müxbir üzvü **V.H.Əliyev**, AMEA-nın müxbir üzvü **Ə.X.Nuriyev**, AMEA-nın müxbir üzvü **F.Y.Səfərli** (baş redaktorun müavini), AMEA-nın müxbir üzvü **V.B.Baxşəliyev** (məsul katib), AMEA-nın müxbir üzvü **Z.Ə.Şahverdiyev**, iqtisad elmləri doktoru, professor **N.H.Əhmədov**, filologiya üzrə elmlər doktoru **F.Y.Xəlilov**.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin
"Xəbərlər"i, 2018, № 1, s. 302

Jurnal 25 noyabr 2004-cü ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir (şəhadətnamə № 1140)

© "Tusi" nəşriyyatı, 2018

MÜNDƏRİCAT

TARİX

İsmayıl Hacıyev. Naxçıvanın Atropatena dövlətində yeri və roluna dair.....5
Fəxrəddin Səfərli. 2018-ci il üçün islam mədəniyyətinin paytaxtı – Naxçıvan şəhəri.....12
Fəxrəddin Cəfərov, Yaşar Rəhimov. Naxçıvanda kənd təsərrüfatının kollektivləşdirilməsinin gedişi (I məqalə).....22
Emin Şıxəliyev. Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı qərb dövlətlərinin ikili standartlar siyasətinin pərdəarxası.....30
Musa Quliyev. Naxçıvan Xan Sarayı.....38
Elman Cəfərli. Aland adaları muxtariyyəti: yaranma tarixi və hüquqi statusu.....43
Xalid Niyazov. Dövlət informasiya siyasətinin struktur elementləri.....53
İlhami Əliyev. Naxçıvan bölgəsindəki imamzadələr islam mədəniyyəti abidəsi kimi.....59
Sara Hacıyeva. XVIII-XIX əsrlərdə Naxçıvanda bağçılıq və bostançılıq.....64
Sevinc Babayeva. Naxçıvanın təsərrüfat həyatı orta əsr səyyahlarının qeydlərində (XVI-XVII əsrlər).....71
Asəf Orucov. Ordubad şəhərinin tarixi-memarlıq abidələri (XIX-XXI əsr).....75

ARXEOLOGİYA VƏ ETNOQRAFİYA

Vəli Baxşəliyev. Naxçıvan təpə yaşayış yerində arxeoloji qazıntılar.....80
Toğrul Xəlilov. Naxçıvanın Tunc dövrü dulusçuluq emalatxanası və kürələri haqqında (I Kültəpə və II Kültəpənin materialları əsasında).....89
Vedat Evren Belli. Assur mənbələri Şərqi Anadolunun erkən dəmir dövrü tayfaları haqqında.....97

AZƏRBAYCAN DİLİ

Əbülfəz Quliyev. Məhəmməd Şahtaxtlı və türk romançısı Əhməd Midhət əfəndi.....100
Nicat Yaqubov. Sözlərin işlənmə tezliyinin zəifləməsinə səbəb olan amillər.....107
Rəşad Zülfüqarov. Naxçıvan dialekt və şivələrində işlənən bəzi köməkçi nitq hissələri haqqında.....112
Nuray Əliyeva. Naxçıvan dialekt və şivələrinin leksikasına ərəb dilindən keçən sözlər.....117
Leyla Səfərova. Azərbaycan dilinin Culfa şivələrində açıq və qapalı sait əvəzlənmələri.....123
Kübra Vəliyeva. Ərəb dili və onun dünya dilləri içərisində yeri.....130
Cəmilə Məhərrəmova. İrəvan əyalətinə daxil olan oronomik oykonimlərin linqvistik xüsusiyyətləri (qədim Naxçıvan ərazisi).....135
Nüşabə İsgəndərova. Mətnin semantikası ədəbiyyat.....141

FOLKLOR VƏ ƏDƏBİYYAT

Fərman Xəlilov. Seyid Səbrinin felyetonları.....148
Abid Tahirli. Abay Dağlının "Füzuli" pyesi – "...milli duyğunun mümtaz məhsulu".....153
Elxan Məmmədov. Muxtar Qasımzadənin "Nuhçıxandan gəlirəm" və "Yaddaş çırağı" şeirlər silsiləsində Naxçıvan abidələrinin bədii əksi.....160
Ramiz Qasımov. Azərbaycan tənqidi realizmində üslub və ana dilindən istifadə.....167

Çinarə Rzayeva. Azərbaycan və digər türk xalqları bayatılarında variantlılıq məsələləri....173
Nazirə Əsgərova. Məişət nağıllarının səciyyəvi xüsusiyyətləri....179
Səbuhi İbrahimov. XIX əsrin sonu – XX əsrin əvvəlləri Naxçıvana dair bəzi tarixi əlyazma salnamələri....184
Fəxrəddin Eylazov. Ordubadlı müəllifin nücüm elminə aid bir əlyazması haqqında....189
Nicabət İslamova. Fəzlullah Səid Təqi Firuzabadi əs-Şirazi....194
Aygün Orucova. Hüseyn Cavidin Keykavusu haqqında bir neçə söz....198
Sahab Əliyeva. Hüseyn Cavidin fəaliyyətinin Türkiyə dövrü və yaradıcılığında türkiyə mövzusu....203
Əli Həşimov. Məşrutə hərəkatından bəhs edən iki tarixi povest....210

İNCƏSƏNƏT

Əli Qəhrəmanov. Naxçıvan teatrının aktyoru və rejissoru İsa Musayev....216
Ələkbər Qasımov. Naxçıvan teatrının baş rejissorları....224
Brilliant Cəfərli. Cavid ölməzliyinə layiqli töhfə – Hüseyn Cavid məqbərəsi....233
Fizzə Quliyeva. Naxçıvanın son tunc və erkən dəmir dövrü bəzək əşyaları....240
Nuray Bəktaşi. Naxçıvan yallıları: Köçəri yallısı....247

İQTİSADİYYAT

Sevinc Cabbarova. Azərbaycanın iqtisadi rayonlarının Naxçıvan Muxtar Respublikası ilə artım sürəti indekslərinə görə müqayisəli təhlili....253
Elşən İbrahimov. Maliyyə böhranları və onların davamlı iqtisadi inkişafa təsiri....258
Cavadxan Qasımov. Naxçıvan Muxtar Respublikası: istehsal potensialı və perspektivlər....265
Məhəmməd Süleymanov. Qastronomiya turizminin Naxçıvan Muxtar Respublikasında inkişaf perspektivləri....272
Həsən Məmmədov. Sahibkar subyektlərdə infrastrukturların innovativ yolla modernləşdirilməsi....277
Eltun İbrahimov. Sosial siyasətin əsas istiqamətlərinin təhlili və qiymətləndirilməsi....291

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2018, № 1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2018, № 1

PROCEEDINGS OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES NAKHICHIVAN BRANCH OFFICE
The series of social sciences and humanities, 2018, № 1

TARİX

İSMAYIL HACIYEV
AMEA Naxçıvan Bölməsi
E-mail: ismayıl_haciyev@yahoo.com

NAXÇIVANIN ATROPATENA DÖVLƏTİNDƏ YERİ VƏ ROLUNA DAİR

Məqalədə Əhəmənilər monarxiyasının süquta uğramasından sonra Naxçıvanın yeni yaranan Atropatena dövlətinin tərkibində qalması, bunun ən azı e.ə.III-I əsrlərdə davam etməsi, Atropatena dövlətinin yaradıcısı Atropatın fəaliyyəti, Atropatena dövlətinin ərazisi, onun təkcə Cənubi Azərbaycan ərazisini deyil, Şimali Azərbaycanın da müəyyən ərazilərini, xüsusilə Naxçıvanı əhatə etməsi tarixi faktlara, ilkin mənbələrə istinad edilərək əsaslandırılmışdır.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Atropatena dövlətinin fəaliyyəti dövründə Naxçıvan bölgəsi onun həyatında mühüm rol oynamış, Naxçıvan bu dövlətin əsas əyalətlərindən, iqtisadi və mədəni mərkəzlərindən biri olmuş, Yaxın Şərq şəhərləri ilə iqtisadi-mədəni əlaqələr yaratmış, Atropatenaya şimaldan olan basqınların qarşısını almış, dövlətçiliyin möhkəmlənməsində tarixi rol oynamışdır.

Açar sözlər: *Atropatena, Atropat, Naxçıvan, satrap, ellin dövlətləri, Parfiya, Arşakilər.*

Azərbaycanın tarixi torpaqlarında baş verən siyasi proseslər nəticəsində e.ə. IV əsrdə onun şimalındakı ərazidə Albaniya, cənubunda isə Atropatena dövləti meydana gəldi. Azərbaycanın cənubunda dövlətçilik ənənələrinin e.ə. III minillikdən genişlənməsi və Naxçıvanın cənub ərazidəki siyasi qurumlarla siyasi münasibətləri onu burada cərəyan edən hadisələrlə sıx əlaqələndirmişdir. Bunun nəticəsi idi ki, Atropatena dövləti meydana gəldikdə Naxçıvan onun tərkibinə daxil olmuşdur.

Albaniya dövlətindən fərqli olaraq, Atropatena dövlətinin mənbəşünaslığı və tarixşünaslığı elə də geniş deyil. Bu sahədəki tədqiqatlar içərisində İqrar Əliyevin rus dilində nəşr edilmiş "Atropatena tarixinin oçerki" və Abdulla Fazilinin "Atropatena e.ə. IV-e. VIII əsri" kitablarını qeyd etmək olar. Birinci kitab xronoloji cəhətdən e.ə. IV-e. I əsrlərini, ikinci kitab isə adından göründüyü kimi e.ə. IV-e. VII əsrlərini əhatə edir [1; 13]. İqrar Əliyevin monoqrafiyası tarixşünaslıqda ətraflı təhlil edilmiş və müsbət qiymətləndirilmişdir [14]. F.Əliyeva antik Azərbaycanın mədəniyyətinə həsr etdiyi kitabında Midiya Atropatenası və Qafqaz Albaniyasının mədəniyyətini birlikdə araşdırmışdır [12]. Atropatena tarixinə yeddi cildlik Azərbaycan tarixində də xeyli yer ayrılmışdır. Əsasən İqrar Əliyevin müəllifi olduğu həmin hissələrdə Atropatena tarixi ümumiləşdirilmiş şəkildə nəzərdən keçirilmişdir. Ə.Sumbatzadə "Atropatena tarixi" məqaləsində dövlətin yaranması və fəaliyyətindən bəhs etmişdir [11]. Naxçıvanın Atropatena dövrü tarixi üçcildlik Naxçıvan tarixinin birinci cildində ümumiləşdirilmişdir. Bu hissə əsas etibarı ilə arxeoloji materiallar əsasında yazılmışdır [10, s. 92-95].

Sovet dövrü tarixi tədqiqatlarda Atropatena ilə Naxçıvanın əlaqələrindən bəhs edərkən qeyd edirlər ki, Naxçıvan Atropatenanın yox, Albaniyanın tərkibində olmuşdur. Lakin müstəqillik dövrü tarixi tədqiqatlarda, xüsusilə V.Əliyev, V.Baxşəliyev, S.Qaş-

qay, R.Məlikov, B.Tuncay və b. tədqiqatçıların araşdırmalarında tarixin müəyyən mərhələlərində (məs. e.ə. III-I əsrlərdə) Naxçıvanın Atropatenanın tərkibində olduğunu əsaslandırmışlar. Azərbaycan Milli Ensiklopediyasının xüsusi cildində verilmiş xəritədə (s. 174) Naxçıvan Atropatenanın tərkibində göstərilmişdir.

Makedoniyalı İsgəndərin ölümündən sonra dünya tarixində ellinizm adlanan dövr başlayır. Bu dövr xronoloji cəhətdən e. 30-cu illərinədək davam edir. Naxçıvanın Atropatena dövrü tarixinin, eyni zamanda, ellinizm kontekstində nəzərdən keçirilməsi onun ellin dövrü dövlətləri sistemində mövqeyi kimi vacib problemi ortaya çıxarır.



Atropatena dövlətinin meydana gəlməsi Əhəməni satrapı Atropatın adı ilə bağlıdır. Tədqiqatçılar yazır ki, nəinki Cənubi Azərbaycan eləcə də Şimali Azərbaycanın xeyli hissəsi Atropata tabe idi [13, s. 52]. Atropatena dövlətinin ərazisinə Urmiya gölü ətrafında və Arazboyu (müasir Cənubi Azərbaycan), İran Kürdüstanı və müxtəlif dövrlərdə Şimali Azərbaycanın bəzi torpaqları daxil idi. Atropatena dövlətinin banisi Atropat Əhəməni Şahı III Daranın dövründə Madanın satrapı idi [1, s. 172]. Atropat e.ə. 331-ci ildə Makedoniyalı İsgəndərin Əhəməni hökmdarı III Daraya qarşı Qavqamela döyüşündə iştirak etmişdir. Döyüş III Daranın məğlubiyyəti ilə başa çatmış, Əhəmənilər dövləti dağılmışdır. Bütün bunlara baxmayaraq, məharətli dövlət xadimi olan Atropat Makedoniyalı İsgəndər ilə münasibətləri qaydaya sala bilmiş, yenidən satrap təyin edilmişdir. Makedoniya qoşunlarının Hindistana yürüşü zamanı Böyük Madada e.ə. 324-cü ildə baş vermiş üsyanı yatıran Atropat üsyançıların başçısı Bariaksı Makedoniyalı İsgəndərin yanına göndərmiş və bununla da fatehin daha çox etibarını qazanmışdı. Atropat İsgəndərə süvari amazonlardan ibarət 100 nəfərlik dəstə bağışlamış, qızını onun görkəmli sərkərdələrindən olan Perdikkaya ərə vermişdi [3, s. 78].

Atropatena dövlətinin meydana gəlməsi, siyasi tarixi və s. məsələlər barəsində Strabon məlumat verir. Onun yazdığına görə Midiya iki hissəyə ayrılır. Bir hissəsini Böyük Midiya adlandırırlar ki, baş şəhəri Midiya dövlətinin paytaxtı olmuş böyük şəhər Ekbatandır... İkinci hissə – Atropat Midiyasıdır. O öz adını sərkərdə Atropatdan alıb, hansı ki, bu ölkənin, Böyük Midiya kimi makedoniyalılara tabe olunmasına yol vermədi. Doğrudan da, təntənə ilə çar elan edilən Atropat öz hökmü ilə bu ölkəni müstəqil elan etdi və indi də varislik onun ailəsində qalır... Bu ölkə Ermənistan və Matiandan şərqdə, Böyük Mitianadan qərbdə və hər iki ölkədən şimalda yerləşir; o cənubdan Matianaya və Hirkan dənizinin çuxurunun yanındakı vilayətlərlə qonşudur [4, s. 23-24].

Yeni yaranan dövlət ilk vaxtlar Mada adlandırılsa da, sonralar banisinin adı ilə Atropatena adlandırılmağa başlandı. Bəzi versiyalara görə Azərbaycan sözü də mənşə etibarı ilə Atropatenaya gedib çıxır [5, s. 288-289].

Atropatena dövləti ellin dövlətləri sistemində mühüm yer tuturdu. Makedoniyalı İsgəndərin ölümündən sonra yaranan dövlətlərdən biri Selevkilər dövləti (e.ə. 312-64-cü illər. Roma tərəfindən dağıdılmışdır) idi. Ornot çayı üzərindəki Antioxiya onun mərkəzi şəhəri idi. E.ə. IV əsrdə I Selevk şərqə Atropatenanın sərhədlərinə qədər irəliləmişdi. Atropatena dövləti I Selevkin varislərinə ciddi müqavimət göstərdi. Bundan əlavə, Atropatena çarı Artabazan e.ə. III əsrin 20-ci illərində öz ərazisini genişləndirdi. Onun vaxtında ərazi Xəzər dənizindən Kiçik Asiyaya qədər uzanırdı. Selevkilər dövləti sonralar parçalanmış, onun tərkibindən Parfiya (e.ə. 250-e.ə 224-cü illər. Sasanilər tərəfindən dağıdılmışdır) və Yunan-Baktriya dövləti (e.ə. 250-e.ə. 125-ci illər) ayrılmışdır. Az bir müddət ərzində parfiyalılar mövqelərini xeyli möhkəmləndirməyə nail olmuş, asılı ölkələrdə Parfiya Arşakilərinin kiçik qolları hakimiyyətə gəlmişdir. Bu zaman dövrün siyasi hadisələrində əsas faktorlardan biri də Roma imperiyası idi.

Atropatena dövləti siyasi sisteminə görə monarxiya idi. Burada e.ə. IV-e.ə. I əsrin əvvəllərində dövlətin banisi Atropatdan sonra, Atropatilər sülaləsindən olan Artabazan, Mitridat (Mehradad), Dara (Daryuş), I Aryabarzan və I Artavard hökmranlıq etmişdir. Atropatenanın yay paytaxtı Qazaka, qış paytaxtı isə Vera adlı qüdrətli qala olmuşdu. Atropatena dövlətində öz dili olan Atropaten xalqı formalaşmışdı.

Atropatilər sülaləsindən sonra Arşakilərin kiçik qolu hakimiyyətə gəlmiş Vanon, III Artaban, IV Artaban (Küdarz) Küdarz Horavda Vanon, II Pakor, II, III, IV Valagez, V Artaban və V Valagez hökmranlıq etmişdir [1, s. 144]. Atropatenanın dövlət həyatında mühüm rola malik olan ordusu var idi. Strabonun yazdığına görə, bu ölkə hərbi qüvvə baxımından kifayət qədər böyükdür. Belə ki, o Apollonidin dediyinə görə, (döyüşə), 10000 atlı və 40000 piyada çıxara bilir [4, s. 24]. Atropatena inkişaf etmiş pul dövriyyəsinə malik idi [13, s. 115].

Atropatena tarixinin e.ə. I əsrin əvvəllərinədək olan tarixi haqqında məlumatlar azdır, lakin Atropat dövründən sonra dövlətin həyatına dair mənbələrin məlumatının nisbətən genişləndiyi e.ə. I əsrin ikinci yarısı-e. 30-cu illərinə aid tarixi hadisələr, xüsusilə xarici siyasi həyata dair faktlar onun bölgədə ciddi rola malik olduğunu göstərir. Bu dövrün əsas məzmununu Parfiya və Şərqə nüfuzu getdikcə möhkəmlənən Roma arasında mübarizə təşkil edirdi. Atropatena Antoninin məşhur "Partiya ekspedisiyası" zamanı (e.ə. 38-ci il) Parfiya ilə bir əhdə çıxış etmiş, müttəfiqlər qalib gəlmişdilər [13, s. 90-97]. Bu qələbə müttəfiqləri daha da birləşdirmək əvəzinə, tezliklə onlar arasında düşmənçiliyə səbəb oldu. Parfiya Atropatenanın ərazisini ələ keçirmək fikrinə düşdü. Vəziyyəti belə görən Atropatena hökmdarı Artavazd Roma ilə yaxınlaşmağa başlayır. Hadisələrin sonrakı gedişi dramatizmi və siyasi dinamikliyi ilə diqqəti cəlb edir. Atropatena hökmdarı nəhayət, romalıların köməkliyi ilə Ermənistanda hakimiyyətə (e.ə. I əsr) nail ola bilir.

Məlumdur ki, e.ə. 321-ci ildə Atropatena dövləti meydana gələndə Naxçıvan onun hüdudlarına daxil olmuşdu. E.ə. 189-cu ildə yaranan Ermənistan çarlığının (Ermənistan çarlığı Van gölünün qərb sahillərində yaranmışdır – İ.H.) Artaksi və Zariadri təqribən e.ə. II əsrin 70-60-cı illərində Strabonun məlumatına görə, "midiyalılardan (atropatenalılardan – İ.H.) Kaspiana, Favnitida və Basoropedanı (sonrakı Vaspurakan – Van gölü ilə Urmiya gölü arasındakı ərazidə yerləşən vilayət) tutub almışlar [9, s. 56]. Lakin az sonra Arteşesin (Artaksinin) qoşununda güclü üsyan baş vermiş və e.ə. 160-cı ildə Artaşes öldürülmüşdür. Bu hadisədən sonra Ermənistan tərəfindən zəbt edilmiş torpaqlar Atropatenaya və başqa dövlətlərə qaytarılmışdır.

Ermənilərin Atropatena hökmdarlarına qarşı çıxışları Roma-Atropatena qüvvələri tərəfindən yatırılmışdı. Ermənistanda Parfiyaya meylin güclənməsi və Roma əleyhinə çıxışlarla əlaqədar olaraq e.ə.20-ci ildə romalılar bu ölkəyə qoşun yeritdilər. Onlar əvvəlcə atropatenalı Arttrobazdı, sonra isə II Ariobarzanı Ermənistan çarı elan etdilər. Mənbələrdə bu hadisədən bəhs edilərkən göstərilir ki, Ermənistanda qayda yaratmaq üçün Qay Sezar oraya göndərildi. Ermənilərin razılığı ilə o, əslən midiyalı olan Ariobarzanı onlara çar təyin etdi [9, s. 57]. Atropatena şahı II Ariobarzanın Ermənistan üzərində hökmranlığı eramızın ikinci ilinədək davam etdi.

Eramızın I əsrində Romada baş verən siyasi hadisələr nəticəsində onların mövqelərinin zəifləməsi, Atropatenaya da mənfi təsir göstərir. Eramızın 20-ci illərində Atropatilərin mövqeyinin zəifləməsi o dərəcəyə çatır ki, bu sülalənin hakimiyyətinə son qoyulur. Hakimiyyət Partiya Arşakilərinin kiçik qoluna keçir [13, s. 103-104]. Yeni sülalə sasanilərədək (e. III əsri) Atropatenanı idarə edir.

Qeyd etmalık ki, son illərə qədər Azərbaycan tarixşünaslığında möhkəmlənmiş fikrə görə, guya Atropatena Arazdan cənubda mövcud olmuşdur. Əslində, bu kökündən yanlış fikirdir. Məsələ burasındadır ki, Polibinin yazdığına görə, Atropatenanın bir hissəsi Fazisdən (Gürcüstandakı Rioni çayı) yuxarıda Pont (Qara dəniz) dənizinə, digər hissəsi isə Qirkan (Xəzər) dənizinə qədər uzanırdı: "...Bu sonuncu (Atropatena şahı Artabazan) bütün hökmdarlar içərisində ən qüdrətlisi və ən müdriki hesab edilirdi, atropatenalılar və qonşu xalqlar üzərində hökm edirdi... Qərar qəbul edildikdən sonra ordu dağları aşaraq Artabazanın Midiyanın qonşuluğunda yerləşən, ondan ortadakı dağlarla ayrılan, Fasidadan yuxarıda yerləşən hissəsi Pont üzərində yüksələn, digər hissəsi isə Qirkan dənizinə qədər uzanan ölkəsinə soxuldu. Bu ölkənin sərhədləri içərisində döyüşkən və özü-özünü at və müharibədə lazım olan digər şeylərlə təmin edən xalq yaşayır. Bu şahlıq hələ farsların dövründə mövcud idi və İsgəndərin dövründə o diqqətdən kənarda qalmışdı" [6].

Atropatenanın Arazdan cənubda olmasına dair fikirlər həm də siyasi məqsədlərlə bağlıdır. Burada əsas məqsəd növbə ilə Qarabağı, ardınca isə bütün Kür-Araz ovalığını türklərdən təmizləyərək ermənilərə hədiyyə etmək idi. Madam ki, Atropatena, yəni Azərbaycan Arazdan cənubda yerləşmişdir və antik müəlliflər Araz çayının Ərməniyyə (Ermənistan) ilə Atropatena (Azərbaycan) arasında sərhəd olduğunu, Albaniyanın isə Kürdən şimalda yerləşdiyini və Kür-Araz ovalığının yalnız III-IV əsrlərdən etibarən Albaniyanın tərkibinə keçdiyini söyləmişlər, deməli, o dövrə qədər Kür-Araz ovalığının "Ermənistan" olduğu və ərazilərdə guya ermənilərin yaşadıqları heç bir şübhə oyatmayacaq.

Son illərdə Azərbaycanda aparılan tədqiqatlar qeyd olunan fikrin tamamilə əsassız olduğunu təsdiq etmişdir. Naxçıvan ərazisindən əldə edilən maddi mədəniyyət nümunələrinin Atropatena dövlətinin ərazisindən əldə edilən müvafiq nümunələrlə müqayisəsi təsdiq edir ki, Naxçıvan bu dövlətin tərkibində olmuşdur. V.Əliyev yazır ki, "Əhəmənilər monarxiyası Makedoniyalı İsgəndər tərəfindən süquta yetirildikdən (e.ə. IV əsrdə)

sonra, Naxçıvan yeni-yeni əmələ gələn Atropatena (Kiçik Midiya) dövlətinin tərkibində qaldı. Naxçıvan ərazisi e.ə. III-I əsrlərdə Atropatena dövlətinin tərkibində olmuşdur" [7, s. 37]. Naxçıvan tarixinin birinci cildində qeyd edilir ki, "Oğlanqala şəhərindən əldə edilmiş maddi mədəniyyət nümunələri Atropatena dövləti üçün xarakterik olmaqla Naxçıvanın Atropatenanın tərkib hissəsi olduğunu təsdiq edir" [10, s. 95]. Naxçıvan şəhərində, Xaraba Gilanda, Oğlanqalada və bir çox kənd tipli yaşayış yerlərində Atropatena mədəniyyətinə aid abidələr, eləcə də Makedoniyalı İsgəndərin adına kəsilmiş gümüş sikkələr-draxma və tetradraxmalar aşkara çıxarılmışdır [7, s. 37-38].

Atropatena dövründə Naxçıvan bölgəsi də digər bölgələr kimi dövlətin həyatında mühüm rol oynamış, lakin Naxçıvanın təbii-coğrafi şəraiti və siyasi nüfuzu dövlət həyatında xüsusi önəm daşımışdır. Bu məsələyə diqqəti cəlb edən tədqiqatçı qeyd edir ki, "Azərbaycan xalqının qədim təşəkkül tarixində Atropatena dövrü çox mühüm bir mərhələ olmuşdur. Naxçıvan bu dövlətin əsas əyalətlərindən, iqtisadi və mədəni mərkəzlərindən biri olmuşdur. Azərbaycanın iki mühüm iqtisadi regionu – Urmiya ilə Naxçıvanın yaxınlığı, əlaqələri daha da möhkəmlənmişdir... Naxçıvan və Qazaka (Atropatenanın paytaxtı – İ.H.) şəhərləri Makedoniyalı İsgəndərə tabe olan Yaxın Şərq şəhərləri ilə geniş iqtisadi-mədəni əlaqə yaratmışdılar" [7, s. 37].

Naxçıvan Atropatena dövlətinin siyasi tarixinin ən mühüm hadisələrində də fəal iştirak etmişdir. Oğlanqaladan eramızın əvvəlinə aid əldə edilmiş tapıntılar romalıların yuxarıda təsvir etdiyimiz yürüşləri zamanı Naxçıvanın bu prosesdəki yerini müəyyən etməyə imkan verir. Oğlanqalanın ikinci dövrünə aid yerli adama məxsus iki qulplu küp qəbirdə aşkar edilmiş tapıntılar bu fikri təsdiq edir. Bu tapıntılar Naxçıvanın Atropatena dövlətinin siyasi-iqtisadi həyatındakı rolunu aydın şəkildə ifadə edir. Arxeoloji qazıntılar zamanı qəbirdən dörd gümüş sikkə tapılmışdır. Sikkələrin üz tərəfində Roma imperatoru Oktavian Avqustun portreti var idi. Ətrafında "CAESAR AVGVSTS DİVİ F PATER PATRİAE" sözləri verilmişdir. Sikkənin arxa tərəfində isə öndən arxasında nizələr olan qalxana söykənmiş vəziyyətdə Sezar Qayus və Lusiusun təsvirləri vardır. Onun ətrafında isə "VGVSTİ F COS DESİG PRİNC İVVENT, CL CAESARES" yazılmışdır. Tədqiqatçının fikrinə görə, "sikkələrin üçü numizmatik araşdırmalardan yaxşı məlumdur və ehtimal ki, e.ə. 2-ci il və bizim eranın 12-ci ilində kəsilmişdir. Digər hissələr isə daha kiçik diapazona malik olub e.ə. 2-ci il, bizim eranın 4-cü ili ilə tarixlənir" [10, s. 94-95]. Şahbuz rayonunun Ağbulaq kəndində aşkar olunan küp qəbirdən tapılmış Arşaki (Parfiya) hökmdarı I Qotarza adi mis sikkə və Naxçıvan yaxınlığındakı Urud (Arşaki hökmdarı Orodun adını əks etdirir) toponimi isə Parfiya ilə olan əlaqələri əks etdirir [10, s. 95].

Naxçıvanın Atropatenanın digər bölgələrindən fərqli xüsusiyyətlərindən biri də ondan ibarət idi ki, o eyni zamanda Azərbaycanın şimalında baş verən hadisələrin də təsirinə məruz qalır, şimaldan olan hücumların qarşısında dayanmaqla, dövlətçiliyin möhkəmlənməsinə köməklik göstərirdi. Azərbaycan tarixindən məlumdur ki, "Albaniyanın və bitişik vilayətlərin ərazisinə şimaldan köçəri tayfaların girməsi eramızın hüdudunda və ilk orta əsrlərdə xüsusilə güclənirdi. Yazılı qaynaqlar və arxeoloji məlumatlar bu zaman Albaniya ərazisinə sarmat-massaget-alan tayfalarının soxulduğunu sübut edir. I əsrin son sülsündə Mingəçevir zonasında yeni qəbir tipləri və dəfn adətləri meydana gəlir. Burada ölüləri küplərdə dəfn etmək adəti qalmaqla bərabər, katakomba qəbirlərə, deformasiya olunmuş kəllələrə təsadüf olunur ki, bu da alanlara xas olan etnik əlamətlərdir" [5, s. 430]. Naxçıvanda aparılan arxeoloji qazıntılar zamanı bu tayfaların Naxçıvana da hücumunu təsdiq edən materiallar aşkar edilmişdir. Kəngərli rayonunun Böyükdüz kəndi yaxınlığında daş qutu qəbirlər sarmat-alan yürüşləri ilə bağlanır. Bu fikir Bi-

çənək (Şahbuz) və Göynük (Babək) kəndlərindən aşkar edilmiş tapıntılara da aid edilir. Sarmar-alanlar içərisində peçeneq və digər tayfalar da olmuşdur. Toponimik tədqiqatlar Biçənək kəndinin adının peçeneqlərlə əlaqəli olduğunu bildirir [10, s. 95-96].

Eramızın I əsrində Azərbaycan dövlətləri olan Atropatena və Albaniyanın siyasi həyatında mühüm dəyişiklik baş vermişdi. Həm Atropatena, həm də Albaniyada hakim sülalələr dəyişmişdi. Atropatena və Albaniyada yerli sülalələri Partiya Arşakilərinin kiçik qolları əvəz etmişdi. Bu Parfiya dövlətinin siyasi idarəetmə xətti ilə bağlı idi. Parfiyalılar yerli dövlətləri mərkəzi hakimiyyətə tabe etməkdən daha çox, burada siyasi idarəetməni hakim Arşakilərin kiçik qollarına verməyi üstün tuturdular.

Azərbaycanda (Atropatena və Albaniya dövlətləri) Arşakilərin hakimiyyəti dövründə (I-III əsrlərdə) Naxçıvan Sünik vilayətinə daxil idi. F.Məmmədovanın yazdığına görə, görünür ki, Sünik alban qəbilələrinin ilkin birliyinə daxil olmayıb. Sünik siyasi cəhətdən müəyyən dövrlərdə (Ermənistanın 387-ci ildə bölüşdürülməsindən sonra) ya Albaniyadan, ya da Atropatenadan asılı olur, bəzi zamanlarda isə müstəqil olurdu [15, s. 159].

Beləliklə, aydın olur ki, Naxçıvan Azərbaycanın qədim dövlətlərinin tərkibində olmuş, onlarla müəyyən münasibət və əlaqələr qura bilmişdir. Naxçıvan eyni zamanda Azərbaycanın dövlətçilik tarixində xüsusi mərhələ olan Atropatena dövlətinin həyatında mühüm yer tutmuş, onun tarixinin bütün dövrlərini özündə əks etdirmiş, bu dövlət üçün həm cənubdan, həm də şimaldan olan yadelli hücumlarının qarşısının alınmasında fəal iştirak etmiş, onun xarici iqtisadi əlaqələrində, mədəniyyətinin inkişafında vacib rola malik olmuşdur. Arşakilər dövründə də Naxçıvan siyasi hadisələrdə fəal iştirak etmiş və Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində də mühüm rol oynamışdır.

ƏDƏBİYYAT

1. Fazili A. Atropatena e.ə. IV-e. VII əsri. Bakı: Elm, 1992, 216 s.
2. Azərbaycan Milli Ensiklopediyası. "Azərbaycan" cildi. Bakı: AMEA Elmi Mərkəzi, 2007, 884 s.
3. Azərbaycan tarixi. Uzaq keçmişdən 1970-ci illərə qədər. Bakı: Azərbaycan, 1996, 872 s.
4. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı: Çıraq, 2007, 400 s.
5. Azərbaycan tarixi. Yeddi cilddə, birinci cild. Bakı: Elm, 1992, 216 s.
6. Bəxtiyar T. Erməni "tarixçi"lərinə cavab və ya Azərbaycan (Atropatena) dövlətinin tarixi coğrafiyası və etnik tərkibi barədə bir neçə söz. Olaylar, 2009, 18 noyabr.
7. Əliyev V. Naxçıvan Azərbaycanın tarixi diyarıdır. Bakı: XXI-YNE, 2002, 320 s.
8. Qədim Azərbaycan dövlətləri. "Kommunist" qəz., 1989, 18 iyul.
9. Məlikov R. Azərbaycanın Naxçıvan bölgəsi qədim dövrdə və erkən orta əsrlərdə (yazılı mənbələr əsasında) // Naxçıvan: İlkin şəhər və Duzdağ (27-28 iyul 2012-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Naxçıvan, 2013, s. 55-60.
10. Naxçıvan tarixi. Üç cilddə, birinci cild. Naxçıvan: Əcəmi NPB, 2013, 452 s.
11. Sumbatzadə Ə. Atropatena tarixi. Azərbaycan EA Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası. Bakı, 1978, № 3, s. 51-72.
12. Алиева Ф. Культура античного Азербайджана – Мидийской Атропатены и Кавказской Албании (IV в. до н.э. – III в.н.э.). Баку, 2007, 162 с.
13. Алиев И. Очерки истории Атропатены. Баку: Азернешр, 1989, 160 с.
14. Дандамаев М.А. Рец. на: Играр Алиев. Очерки истории Атропатены. Баку, 1989, 160 с. – Вестник древней истории, 1992, № 1; Меликов Р. Этническая картина Азербайджана в период ахеменидского владычества (VI – IV вв. до н.э.). Баку, 2003, с. 34-37.

15. Мамедова Ф. Политическая история и историческая география Кавказской Албании (III в. до н. э. – VIII в.н.э.). Баку: Элм, 1986, 284 с.

Исмаил Гаджиев

О РОЛИ И МЕСТЕ НАХЧЫВАНА В ГОСУДАРСТВЕ АТРОПАТЕНА

В статье на основе исторических фактов и первичных источников обосновывается существование Нахчывана в составе государства Атропатена после распада монархии Ахеменидов, что продолжалось до III-I тысячелетий до н.э., о деятельности основоположника государства Атропатена – Атропата, о территории государства Атропатена, о вхождении в его состав не только территории Южного Азербайджана, а также части территорий Северного Азербайджана, особенно Нахчывана.

В результате исследования выявлено, что Нахчыванская область играла важную роль в жизни государства Атропатена весь период его существования, Нахчыван был одной из главных провинций, экономическим и культурным центром этого государства, важным звеном в торговле с городами Ближнего Востока, а также в предотвращении набегов с севера, и в целом сыграл историческую роль в укреплении государственности.

Ключевые слова: *Атропатена, Атропат, Нахчыван, сатрап, Эллинские государства, Парфия, аршакиды.*

Ismayil Hajiyev

ABOUT THE PLACE AND ROLE OF NAKHCHIVAN IN THE ATROPATENE STATE

In the article on the basis of the historical facts and the first sources the author speaks about the staying of Nakhchivan under the rule of the Atropatene state after the empire of the Achaemenids declined, continuing of this situation till the III-I centuries B.C., activity of Atropates, the founder of Atropatene state, the territories of Atropatena state, it was not only surrounding the territories of the South Azerbaijan but also some areas of North Azerbaijan, especially Nakhchivan.

Result of the investigation it was determined that during the activity of the Atropatene state Nakhchivan region played an important role in his life, also Nakhchivan was one of the main province, economic and cultural center of this state. There exist close economic-cultural relations with the Nearest East cities and Nakhchivan. Nakhchivan prevented the attacks to Atropatene from North and played a historical role strengthening the statehood.

Keywords: *Atropatene, Atropates, Nakhchivan, satrap, Hellenic states, Parfia, Arsacids.*

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2018, № 1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2018, № 1

PROCEEDINGS OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES NAKHCHIVAN BRANCH OFFICE
The series of social sciences and humanities, 2018, № 1

FƏXRƏDDİN SƏFƏRLİ
AMEA Naxçıvan Bölməsi
E-mail: hacifexreddin@yahoo.com.tr

2018-Cİ İL ÜÇÜN İSLAM MƏDƏNİYYƏTİNİN PAYTAXTI – NAXÇIVAN ŞƏHƏRİ

Məqalədə 2018-ci il üçün islam mədəniyyətinin paytaxtı seçilən Naxçıvan şəhəri haqqında bəhs edilir. Qeyd olunur ki, 2009-cu ildə bu haqda qərar qəbul edilməsi heç də təsadüfən olmamışdır. Naxçıvan şəhəri tarixən böyük inkişaf yolu keçmiş, orta əsrlər zamanı islam intibahının mərkəzlərindən biri olmuşdur. Burada Azərbaycan, bütövlükdə islam mədəniyyətinin möhtəşəm nümunələri yaradılmışdır. Bu abidələr müasir dövrdə yüksək dövlət qayğısı ilə əhatə olunmuşdur. Məqalədə, həmçinin bu möhtəşəm tədbirin keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə yaradılan Təşkilat Komitəsi, Təşkilat Komitəsinin ilk iclası və həyata keçirilən tədbirlər haqqında məlumat verilir.

Açar sözlər: *Naxçıvan, islam mədəniyyəti, paytaxt, sərəncam, Məminə xatın.*

İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin 2009-cu ilin oktyabr ayında Bakı şəhərində keçirilən VI konfransında Naxçıvan şəhəri 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunmuşdur. Əlbəttə, bu qərar heç də təsadüfən, birdən-birə verilməmişdir. Bu qərarın hansı səbəbdən verilməsini aydınlaşdırmaq üçün İslam mədəniyyətinin yaranmasına, Naxçıvan şəhərinin keçdiyi tarixi inkişaf yoluna, ərazidəki tarix-mədəniyyət abidələrinə nəzər yetirmək lazımdır.

VII əsrin əvvəllərində tarix səhnəsinə çıxan İslam dini qısa müddət ərzində Ərəbistan yarımadası çərçivəsində hakim ideologiyaya çevrildi. 632-ci ildə islamın banisi Məhəmməd peyğəmbərin vəfatından sonra ərəblərin tutduğu torpaqlar hesabına yaranan Xilafət adlı dövlət dünya tarixində xüsusi iz buraxdı. Xilafətin yaranması ilə onun tərkibinə daxil olan müxtəlif xalqların mədəniyyətlərini özündə birləşdirən islam mədəniyyəti formalaşdı. Özünəməxsus cəhətləri ilə seçilən, dünya mədəniyyətinin müəyyən bir dövrünü, xüsusilə VIII əsrdən XIII əsrə qədər bir zaman çərçivəsini əhatə edən mərhələsində islam mədəniyyəti özünü daha çox qabarıq göstərdi və bütün mədəniyyətləri inkişaf səviyyəsi baxımından geridə qoydu. Müsəlman adı altında birləşən, ancaq müxtəlif xalqların içərisindən çıxmış adamlar tərəfindən yaradılan ədəbi-mədəni nümunələr, xüsusilə bədii əsərlər Xilafətin dövlət dili olan ərəb dilində yazıldığından və yayıldığından o zaman olduğu kimi, bəzən müasir dövrdə də həmin mədəniyyətə ərəb mədəniyyəti də deyilir. Bu mədəniyyətin əsas hərəkətverici qüvvəsi olan dil və din ərəb istilasına məruz qalan digər yerlər kimi Azərbaycana da işğallarla bir gəldi və xalqın mənəvi mədəniyyətinin və adət-ənənələrinin formalaşmasında böyük rol oynadı [24, s. 102].

Orta əsr ərəb mədəniyyəti tarixində ən məhsuldar çağın başlandığı bu dövrdə "ərəb" ifadəsi öz məzmununu dəyişdi. Xilafətin ərəb dilini həm ədəbi, həm danışıq dili kimi qəbul edərək, son nəticə olaraq ərəbləşmiş xalqları (suriyalılar, misirlilər və s.) ərəb-müsəlman mədəniyyətinin yaranması prosesinə fəal surətdə qoşulub, bu mədəniyyəti qədim şərq və antik dünya xalqlarından onlara irs qalmış ənənələrlə zənginləşdirdilər. Bununla yanaşı, xilafətin ərəbləşməyib, yalnız müsəlmanlaşmış bir çox xalqı, o cümlədən azərbaycanlılar tədricən ərəblərin dini ilə birlikdə onların dillərini də mənimsəyərək, az qala XI əsrədək elmi, dini və ədəbi yaradıcılıqda bu məqsədlə latın dilindən istifadə edən avropalılar kimi ərəb dilini işlətməyə başladılar [4, s. 259]. İslam mədəniyyəti X əsrdə yüksək inkişaf səviyyəsinə çatdı, çiçəklənmə dövrü keçirdi, Himalay dağlarından Pireney yarımadasınadək, Qara dənizdən Ədən körfəzinə qədər yayılan bütün islam dünyasına nüfuz etdi.

VII yüzilliyin ortalarından etibarən bir sıra ölkələr kimi Azərbaycan ərazisi də ərəblər tərəfindən tutuldu, VIII yüzilliyin əvvəllərinədək olan müddətdə əhali islam dinini qəbul etdi və islamlaşdı. Beləliklə, Azərbaycan yenicə tarix səhnəsinə çıxmış Xilafət adlı dövlətin tərkibinə daxil oldu. Bununla əlaqədar xalqımızın həmin vaxtadək minilliklər boyu əldə etdiyi elmi-mədəni nailiyyətlər də xilafətin yaranması ilə formalaşan ümumislam mədəniyyətinə inteqrasiya olundu və onun tərkib hissəsinə çevrildi. Bundan sonra Azərbaycanda əldə olunan mədəni-elmi nailiyyətlər həm də islami mahiyyət kəsb etdi. Bu cəhətdən Əməvi xəlifəsi Əbdülməlikin (685-705-ci illər) həyata keçirdiyi əlifba və dil islahatı xüsusi rol oynadı. Belə ki, xəlifənin fərmanına əsasən Xilafətin əhatə etdiyi ərazilərdə kargüzarlıq işləri ərəb dilində ərəb əlifbası ilə aparılmağa başladı. Bununla da Xilafətin tərkib hissəsi kimi Azərbaycanda, o cümlədən Naxçıvanda bütün yazı işləri ərəb dilində ərəb əlifbası ilə aparılmağa başladı. Təhsilin də ərəb dilində keçirildiyi ərazidə bütün elmi, dini, ədəbi və mədəni nailiyyətlər ərəb dilində ərəb əlifbası ilə ifadə olunmağa başladı. Xilafətin hər yerində olduğu kimi Azərbaycanda da ərəb dili dövlət, elm və təhsil dilinə çevrildi. Xilafətin hər yerində olduğu kimi Azərbaycanda da bu dili bilmək mədəniyyət göstəricisinə çevrildi (4, s. 259; 21, s. 74). Əməvilər sülaləsinin süqutuna, yəni 750-ci ilədək Azərbaycanda ərəb dili ilə yanaşı fars dili də işlənsə də, bu dövrdən sonra ərəb dili hakim oldu. Xilafətə daxil olan ölkələr vahid bir din bayrağı altında sıx birləşərək islami qaydalar əsasında idarə olunduğu üçün bu dövrdə milli-etnik baxımdan sərhədlər ləğv edilərək yox olmaq səviyyəsinə çatdı. Bu isə Azərbaycanda türk dilinin inkişafı prosesini zəiflətdi. Bununla belə Xilafətin vahid dili olan ərəb dili elmi-mədəni nailiyyətlərin imperiyaya daxil olan xalqlar, o cümlədən azərbaycanlılar arasında yayılmasında mühüm rol oynadı.

Yenicə tarix səhnəsinə çıxan İslam mədəniyyəti Abbasilərin xilafəti dövründə daha geniş şəkildə inkişaf etməyə başladı. Paytaxtın Bağdada köçürülməsi ilə iqtisadi və fikri həyat daha yüksək bir mahiyyət kəsb etdi. İkiçayarasında və Orta Şərq ticarət yollarının keçdiyi yerdə qurulan Bağdad, saraylarının göz qamaşdıran ehtişamı ilə bütün insanlarını və dünya sərvətlərini çəkən cazibəsi ilə böyük dünya şəhərlərinin ən böyüyü və gözəli idi [25, s. 378]. Artıq xilafətin inzibati-siyasi mərkəzinə çevrilən bu şəhər, Ərəb Şərqinin digər mədəni mərkəzləri olan Kufə, Bəsrə, Dəməşq, Qahirə və başqa şəhərlərlə birlikdə həm də dövlətin ən böyük elm, təhsil və mədəniyyət mərkəzi idi. Xilafətin hər yerindən, o cümlədən Azərbaycandan çoxlu adamlar təhsil almaq, çalışmaq üçün bu şəhərə gəlirdi. Qaynaqlarda Bağdadın elm və təhsil müəssisələrində çalışan və fəaliyyət göstərən çoxlu görkəmli azərbaycanlı şəxsiyyətlərin adları gəlib çatmışdır.

15 milyon oxucusu olan, Amerikadan əlavə İngiltərədə, Avstraliya və Kanadada ingiliscə, Fransada və Kanadada fransızca yayılan, Danimarka, Finlandiya, Almaniya, İspaniya, İtaliya, Yaponiya, Koreya, Norveç, İsveç və Portuqaliyada nəşr olunan, hətta korlar üçün qabartma buraxılışı da olan Readers Digest aylıq məcmuəsi, Qərb aləminin müsəlmanlığı çox yanlış anladığına dair diqqətəlayiq bir məqalə nəşr etdirmişdir. Məqalədə deyilir ki, bugünkü, dünyanın ən qəribə hallarından biri haqq yolu olaraq xristianlıq və musəviliklə eyni hədəfləri təqib edən müsəlmanlığın Amerika və Avropada çox yan-

lış bir şəkildə anlaşılmasıdır. İslam diqqətəlayiq bir din və sarsılmaz bir imandır. Müsəlmanlar dünyanın strateji baxımdan mühüm nöqtələrinə hakimdirlər. Ona görə də mütləq xətalardan qurtulub onları daha yaxşı anlamağa çalışmağımız lazımdır [25, s. 380-381].

Orta əsr qaynaqları, həmçinin görkəmli tədqiqatçıların fikirləri də təsdiq edir ki, məhz bu zamandan, Abbasilərin 750-ci ildə xilafətdə hakimiyyətə gəlməsindən sonrakı təxminən beş yüz illik bir dövrdə İslam mədəniyyəti yüksək səviyyədə inkişaf etmiş, hətta intibah dövrü keçirmiş, dünya mədəniyyəti xəzinəsinə çoxlu töhfələr vermişdir. Hətta islam dininə nə qədər qara yaxsalar da, bunu Amerika və Qərbin bir sıra görkəmli alimləri də etiraf etməyə məcbur olmuşlar.

Xilafətin tərkibində olduğu müddətdə Yaxın və Orta Şərqin inkişaf etmiş mədəniyyət mərkəzləri ilə yaradılan və tədricən inkişaf etdirilən qarşılıqlı əlaqələr və münasibətlər Azərbaycanda mədəniyyətin inkişafına çox müsbət təsir göstərdi. Ona görə də orta əsr Azərbaycanının ictimai-siyasi və mədəni həyatında baş verən bütün hadisələrdə və dəyişikliklərdə, əldə olunan nailiyyətlərdə islam ideologiyasının təsiri vardır. Buna görə də bütövlükdə orta əsr Azərbaycan mədəniyyətini, o cümlədən elmini, təhsilini, ədəbiyyatını, memarlığını, incəsənətini və s. islam dinindən kənarda təsəvvür etmək olmaz.

İslam mədəniyyəti tarixində xüsusi yer tutan Azərbaycan xalqı və xalqın içərisindən çıxan mütəfəkkirlər geniş əraziləri əhatə edən Xilafətin sərhədləri daxilində səmərəli fəaliyyət göstərərək "Müsəlman intibahı" adlanan mədəni oyanışın baş verməsində yaxından iştirak etdi. İslamı qəbul etmiş və xilafət adlı dövlətdə birləşmiş bütün xalqlar kimi o zaman dini-etnik anlamlı ümum "müsəlman" məfhumu ilə birləşmiş azərbaycanlılar da IX əsrin ortaları-X əsrlərdə tərəqqi, X-XII əsrlərdə çiçəklənmə dövrünü keçirən müsəlman mədəniyyətinin inkişafı prosesində iştirak edirdilər [4, s. 260; 21 s. 60]. Məhz həmin dövrlərdə Azərbaycan müxtəlif xalqları özündə birləşdirən Xilafətin ən böyük mədəniyyət mərkəzlərindən birinə çevrildi. Həmin yaxt müsəlman dünyasında yetişmiş əl-Biruni, İbn Sina, Rudəki, əl-Fərabi, Firdovsi, ət-Təbəri, əl-İstəxri, əl-Kindi, Əbül-Vəfa və onlarla başqaları kimi görkəmli mütəfəkkirlər Azərbaycanda qədərincə tanınırdılar. Həmçinin Azərbaycandan, o cümlədən Naxçıvandan çıxmış bir sıra görkəmli şəxsiyyətlər Azərbaycanın, bütünlükdə Yaxın və Orta Şərqin bir sıra tanınmış elm, təhsil və mədəniyyət mərkəzlərində çalışır, fəaliyyət göstərirdilər. "Müsəlman intibahı" kimi xarakterizə edilən mədəni oyanışın ən mühüm mərkəzlərindən olan Azərbaycandan çıxmış Məkki ibn Əhməd əl-Bərdəyi, Səid əl-Əzdi, Əbdüləziz əl-Bərdəyi, Bəhmənyar ibn Mərzban, Məhəmməd ibn Həsən Naxçıvani və başqaları imperiya daxilində kifayət qədər tanınırdılar. Azərbaycan artıq XII yüzillikdə dünya mədəniyyəti tarixinə Nizami Gəncəvi, Əcəmi Naxçıvani və s. kimi dahilər bəxş etmişdi.

Ərazidə qədim zamanlardan memarlıq sahəsində başlanan inkişaf orta əsrlər zamanı yüksək inkişaf səviyyəsinə çatmışdır. Azərbaycanda bütün quruculuq işləri, o cümlədən memarlıq abidələri özündə yerli türk ənənələrini saxlamaqla bərabər həm də islami xarakter daşımağa başlamışdır. Memarlıqda yaranan qədim ənənələri qoruyub saxlayan və yaradıcılıqla inkişaf etdirən orta əsr Azərbaycan sənətkarları yaranmış yeni şəraitdə bu ənənələri ümumislam mədəniyyətinə xas çalarlarla bacarıqla zənginləşdirmiş, onların sintezinə nail olmuş, nəticədə Azərbaycan memarlığı abidələri həm də ümumislam mədəniyyətinin tərkib hissəsinə çevrilmişdir. Məhz bütün bunları nəzərə alaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi ili" elan edilməsi haqqında 10 yanvar 2017-ci ildə imzaladığı Sərəncamın preambula hissəsində qeyd etmişdir ki, "Azərbaycan uzun əsrlərdən bəri islam sivilizasiyasının mərkəzlərindən biri olmuşdur. O islam dininin yayılmasında və eyni zamanda müsəlman intibahının bərqərar olmasında mühüm rol oynamışdır. Bütün bunlar Azərbaycan ərazisində ilk vaxtlardan islam dininin maddi və qeyri-maddi irsinin formalaşmasına zəmin yaratmışdır" [1].

Ərəb dili və yazısının, bununla birlikdə islam mədəniyyətinin Azərbaycan xalqının həyatına, məişətinə güclü surətdə daxil olması digər sahələrdə olduğu kimi epiqrafikada da özünü qabarıq surətdə büruzə verdi. Memarlıq və qəbirüstü xatirə abidələri üzərində yazılan kitabələr ərəb dilində ərəb əlifbası ilə qeyd olunmağa başladı. Bu zaman kitabələrin mətni də dini məzmun kəsb etdi. Onların mətnlərində xarakterinə uyğun olaraq Allaha aid kəlamlardan, Qurani-Kərimin ayələrindən geniş şəkildə istifadə olunmağa başladı. Bunun ən bariz nümunəsini biz XII yüzillikdə Naxçıvan şəhərində Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən inşa edilən abidələrdə görürük. Naxçıvan şəhərində 1186-cı ildə ucaldılan Möminə xatın türbəsinin tağlarının baş tərəfində Qurani-Kərimdən götürülmüş "Hakimiyyət vahid, qadir Allaha məxsusdur!" ayəsi 10 dəfə təkrar yazılmışdır. Yaxud da Möminə xatın türbəsinin üzərində birinci dəfə I-V üzlərdə, II dəfə isə VI-X üzlərdə olmaqla Qurani-Kərimin 83 ayədən ibarət olan "Yasin" surəsi 2 dəfə təkrar yazılmışdır. Türbənin günbəzinin daxili divarında yerləşdirilən 4 ədəd iri həcmli qönçə daxilində çox ustalıqla "Allah", "Məhəmməd", "Əbubəkr", "Ömər", "Osman", "Əli", "Fatimə", "Həsən" və "Hüseyn" adları həkk olunmuşdur. Ümumiyyətlə, türbə üzərində yerləşdirilən təxminən 500 metr uzunluğunda kitabə motivlərinin böyük əksəriyyəti Quran ayələrindən və dini xarakterli kəlamlardan ibarətdir [20, s. 73-74; 26, s. 377; 27, s. 53-56].

Bu vəziyyətə Naxçıvan bölgəsindəki digər memarlıq abidələrinin üzərində yazılan kitabələrdə də rast gəlinir. Kəngərli rayonunun Qarabağlar kəndindəki türbənin üzərində Qurani-Kərimdən bir neçə ayə (XL–16; LXVII–1-6) yazılmış, türbənin gövdəsində kaşılı kərpiclərin ustalıqla düzülməsi nəticəsində yaradılan romblar içərisində dəfələrlə təkrar olunan islam doktrinası – "Allahdan başqa Allah yoxdur! Məhəmməd Allahın elçisidir! Allahın ona salavatı olsun!" – sözləri yazılmışdır [20, s. 87; 26, s. 388-389; 27, s. 59]. Daha sonrakı dövrlərdə də bu ənənə özünü saxlamışdır. Məsələn, Naxçıvan şəhərinin cənub tərəfində yerləşən İmamzadə kompleksinin əsasını taşkil edən və Səfəvi şahı II Şah Təhmasibin dövründə (1722-1732-ci illər) inşa edilən türbənin gövdəsi dəfələrlə təkrarlanan kitabə motivi – "Allah" kəlməsi ilə doldurulmuşdur [20, s. 100; 14, s. 209; 16, s. 326]. Çox güman ki, möhtəşəm memarlıq abidələri üzərində "Allah" kəlməsinin, Allaha aid kəlamların, Qurani-Kərimdən müxtəlif ayələrin həkk edilməsi digər səbəblərlə yanaşı, müharibələr zamanı ərazilər əldən ələ keçərkən bu dini kəlam və Quran ayələrinin xatirinə abidələrin dağıdılmaması səbəbindən irəli gəlmişdir.

Zəngin tarixi keçmişimizi vərəqlərkən başər sivilizasiyasının ən qədim mərkəzlərindən biri olan, qaynaqlarda Naksuana, Nəxcuan, Nəşəva, Nəşəvi və s. şəkildə xatırlanan Naxçıvan şəhərinin Azərbaycanın qədim və orta əsrlər dövrü ictimai-siyasi və mədəni həyatında tutduğu mühüm mövqe və yer çox aydın görünür. Naxçıvan ərazisində son illərdə aparılan tədqiqatlar təsdiq etmişdir ki, adını Dünya tufanı zamanı Nuh peyğəmbərin gəmisinin Ordubad rayonundakı Gəmiqaya ərazisində quruya oturması və nuhçuların burada torpağa çıxmasından götürən Naxçıvan (Nuhçıxan-Naxçıvan) şəhərinin adı sonralar daha geniş məna kəsb etmiş, böyük bir bölgənin adını bildirmişdir.

Naxçıvan şəhəri ilk orta əsrlər zamanından başlayaraq çox yüksək inkişaf səviyyəsinə çatmış, bu səbəbdən də dövrə aid qaynaqlarda şəhər "yer üzündə bundan daha çox əhalisi olan şəhər yoxdur", "Təbriz və Bağdaddan sonra Naxçıvan kimi, cəlallı və əzəmətli şəhər yoxdur", "şəhərdə çoxlu saray, köşk və eyvan vardır... Köşklərin çoxu qəsrlər kimi üç-dörd mərtəbəlidir" və s. bu kimi ifadələrlə tərənnüm olunmuşdur [5, 6, 12, 13].

Şəhər mənqollaın, teymurilərin hücumları, Səfəvi-Osmanlı müharibələri zamanı böyük talanlara, dağıntılara məruz qalsa da, yenidən öz əzəmətini qismən bərpa edə bil-

mişdir. XVII yüzilliyin ortalarında şəhərdə olan türk səyyahı Övliya Çələbi orada 10200 ev, 70 came məscidi, 40 məscid, 20 mehmanxana, 7 gözəl hamam, təqribən 1000 dükan olduğunu yazmışdır [10, s. 12].

Məhz bütün bu üstün cəhətlərini, xüsusilə hərbi-strateji əhəmiyyətini nəzərə alaraq bir sıra hökmdarlar Naxçıvanı özlərinin mərkəzi şəhəri kimi seçmişlər. Hələ ilk orta əsrlər zamanı ərəblər bölgəni tutduqdan sonra özlərinin iqamətgahını Naxçıvan şəhərində yerləşdirməklə şəhəri hərbi-inzibati mərkəzə çevirmişdilər. Azərbaycan ərazisində müxtəlif vaxtlarda yaranmış bir sıra feodal dövlətlərin tərkibində olan bu ərazidə tariximizdə "Naxçıvanşahlıq" adı ilə tanınan feodal dövləti yaranmışdır. Naxçıvanşahlığın paytaxtı Naxçıvan şəhəri [22, s. 99; 23, s. 82] az sonra daha qüdrətli bir dövlətin – 1136-cı ildə tarix səhnəsinə çıxan Azərbaycan Atabəyləri dövlətinin paytaxtına, eyni zamanda dövlətin ən mühüm elm, təhsil və mədəniyyət mərkəzlərindən birinə çevrilmişdi [8, s. 189-191]. XIII əsrin ortalarından Hülakülərin yaratdığı yeni inzibati ərazi bölgüsünə görə yaradılan "Naxçıvan tüməni"nin də mərkəzi Naxçıvan şəhəri olmuşdur [11, s. 16; 28, s. 51; 18, s. 23-24].

Naxçıvan şəhəri Səfəvilər dövründə (1501-1536-cı illər) mühüm inkişaf yolu keçmiş, ərazi osmanlılar tərəfindən tutulduqdan sonra 1724-cü ildə Naxçıvan şəhəri mərkəz olmaqla "Naxçıvan sancağı" inzibati ərazi bölgüsü yaradılmışdır [15]. Bölgənin ən inkişaf etmiş ticarət, iqtisadi, elm, təhsil və mədəniyyət mərkəzi olan Naxçıvan şəhəri sonralar da öz qabaqcıllığını saxlamış, 1747-1828-ci illərdə mövcud olan Naxçıvan xanlığının, [7, s. 78; 9, s. 23] 1918-ci ilin noyabrında yaradılan və 1919-cu martınadək mövcud olan Araz-Türk Respublikasının paytaxtı olmuşdur [11]. Hazırda şəhər 9 fevral 1924-cü ildə yaradılan Naxçıvan Muxtar Respublikasının paytaxtıdır.

Qeyd olunan bu faktlar təsdiq edir ki, Naxçıvan şəhəri bütün dövrlərdə, xüsusilə islamlaşmadan sonra, islamın intibah dövründə həmişə Azərbaycanın ictimai-siyasi və mədəni həyatında mühüm rol oynamış, ticarət-iqtisadi cəhətdən xeyli inkişaf etmiş, Azərbaycan Atabəyləri, Hülakülər, Qaraqoyunlular, Ağqoyunlular və Səfəvilər dövründə ölkənin inkişaf etmiş şəhərləri ilə bir sırada dayanmışdır. Təsadüfi deyildir ki, zəngin təbiətə, gözəl və möhtəşəm memarlıq abidələrinə (türbələr, məscidlər, xanəgahlar, mədrəsələr, hamamlar, buzxanalar, mülki binalar və s.) malik olan Naxçıvan şəhərini orta əsr müəllifləri obrazlı şəkildə "Nəqşi-Cahan" ("Dünyanın bəzəyi") adlandırmışlar.

Orta əsrlər zamanı sənətkarlarımız tərəfindən Azərbaycanda memarlıq sahəsində çox zəngin bir mədəni irs yaradılmışdır. Azərbaycanın hər yerində olduğu kimi, onun qədim mədəniyyət mərkəzlərindən olan Naxçıvanda da yaranmış, bir qismi zəmanəmizədək salamat və ya yarımdağılmış vəziyyətdə gəlib çatan bu irsə keçən yüzilliklərdə, ateizm təbliğatına geniş meydan verilən sovet hakimiyyəti illərində biganə və ögey münasibət bəslənilmiş, hətta şəxsiyyətə pərəstiş illərində onların bir qismi qəsdən dağıdılmışdır. Bu abidələrə soyuq və laqeyd münasibət sonralar da, Sovet İttifaqının dağılmasınadək davam etdirilmişdir. Ancaq Azərbaycan 18 oktyabr 1991-ci ildə öz müstəqilliyini bərpa etdikdən, "Dini etiqad azadlığı haqqında Qanun" qəbul edildikdən, xüsusilə ümummilli lider Heydər Əliyevin respublikada ikinci dəfə hakimiyyətə qayıdışından sonra xalqımızın keçmiş mədəni irsinə münasibət dəyişmişdir. Beləliklə, tarix-mədəniyyət abidələri, o cümlədən memarlıq nümunələri, geniş mənada ümumilsəm mədəniyyətinə aid olan bütün abidələr lazımi dövlət qayğısı ilə əhatə olunmuşdur. Bu qayğının nəticəsi olaraq həmin abidələrin böyük bir qismi yüksək səviyyədə bərpa olunaraq xalqa qaytarılmış, ölkədə və beynəlxalq miqyasda geniş təbliğ olunmuşdur.

Bu baxımdan Azərbaycanın tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da çox böyük işlər görülmüşdür. Bu sıradan həyata keçirilən digər işlərlə yanaşı ilk növbədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun 6 dekabr 2005-ci ildə imzaladığı "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" Sərəncamdan [3] irəli gələn vəzifələrə uyğun olaraq Naxçıvan bölgəsində indiyədək gəlib çatan 1200-dən artıq tarix-mədəniyyət abidəsinin qeydə alınaraq pasportlaşdırılmasını xüsusilə qeyd etmək lazımdır. Böyük bir qismi orta əsrlər dövrünə, başqa sözlə desək Azərbaycanda islamın qəbul edilməsindən sonrakı vaxtlara aid olan bu abidələr əsasında "Naxçıvan abidələri ensiklopediyası" hazırlanaraq 2008-ci ildə Azərbaycan və ingilis dillərində nəşr etdirilmişdir [14].

Yarandıqları vaxtdan keçən müddət ərzində bu abidələrin əksəriyyəti təbii qüvvələrin təsirindən və başqa səbəblərdən aşınaraq məhv olmuş, zəmanəmizədək yarımdağılmış vəziyyətdə gəlib çatmışdır. Ona görə də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə 60-dan artıq müxtəlif təyinatlı tarix-mədəniyyət abidəsi bərpa olunaraq əvvəlki görkəminə salınmış, onlara yeni həyat verilmiş, tədqiqi və təbliği sahəsində bir sıra mühüm tədbirlər həyata keçirilmişdir. Bu abidələrin əksəriyyəti məscidlər, imamzadələr, xanəgahlar, türbələr və s. islamla sıx əlaqədar olan abidələrdir. Buna ən gözəl nümunə kimi Naxçıvan şəhərində Nuh peyğəmbərin VIII əsrdə inşa olunmuş, XII yüzilliklərdə bərpa olunmuş məzarüstü türbəsinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə bərpa olunaraq əvvəlki görkəminə qaytarılmasını göstərmək olar. Bu istiqamətdə işlər indi də sistemli şəkildə uğurla davam etdirilir. Qeyd etmək kifayətdir ki, təkcə 2016-cı ildə Azərbaycan xalqının məğlubedilməzlik rəmzi olan Culfa rayonundakı Əlincəqalada, XII əsr Azərbaycan memarlığının təkrarolunmaz nümunələrindən sayılan Gülüstan türbəsində, Şərur rayonunun Xanlıqlar (Parçı) kəndindəki imamzadədə bərpa işləri başa çatdırılmış, Babək rayonunun Nehrəm kəndində möhtəşəm məscid inşa edilərək əhalinin istifadəsinə verilmiş, Kəngərli bölgəsində XII-XIV yüzilliklərə aid Qarabağlar Türbə Kompleksində, Şərur rayonunun Yengicə kəndindəki hamamda bərpa işlərinə başlanmışdır. Həmçinin son illərdə muxtar respublikada bir sıra yaşayış məskənlərində möhtəşəm islam memarlığı abidələri, xüsusilə məscidlər inşa edilərək əhalinin istifadəsinə verilmişdir. Bütün bunlar isə dünyanın müxtəlif yerlərindən, o cümlədən müsəlman ölkələrindən muxtar respublikaya gələn alimlərin, turistlərin, dövlət nümayəndələrinin və başqa insanların diqqətindən yayınmır.

Naxçıvan Muxtar Respublikası, həmçinin onun paytaxtı Naxçıvan şəhərində zəmanəmizədək bir sıra möhtəşəm memarlıq abidələri – türbələr, məscidlər, buzxanalar, körpülər, məscidlər, mədrəsələr və s. gəlib çatmışdır. Əsası çox qədim zamanlara söykənən Naxçıvan mədəniyyəti orta əsrlər zamanı, xüsusilə müsəlman intibahı dövründə daha da inkişaf etmiş, burada Azərbaycan memarlığının ən möhtəşəm qollarından biri olan Naxçıvan məktəbi yaranmış, bu məktəb memarlıq tariximizə Əcəmi Əbubəkr oğlu Naxçıvani kimi görkəmli memar bəxş etmişdir. Əcəmi Naxçıvaninin Naxçıvan şəhərində ucaltdığı Məminə xatın, Yusif Küseyir oğlu türbələri, Qoşa minarəli baştağ, Came məscidi, Hökumət evi və s. Azərbaycan memarlığının möhtəşəm nümunələri olmaqla yanaşı, həm də islam mədəniyyətinin çox gözəl örnəkləridir. Bəzi oxşar cəhətlərinə əsasən Əcəmi yaradıcılığına aid edilən Nuh türbəsinin də daxil olduğu Naxçıvan memarlıq məktəbi nəinki Azərbaycanın, hətta ətraf ölkələrin də memarlığına böyük təsir göstərmiş, Yaxın Şərqin bir sıra memarları Əcəmi Naxçıvani sənətindən bəhrələnmişlər. Hətta görkəmli türk memarı Sinan Sultan Süleyman Qanuninin Azərbaycana 1535-ci il yürüşü zamanı mühəndis kimi ordunun tərkibində Naxçıvanda olarkən Əcəmi yadigarlarını görmüş və bu abidələrin təsiri Sinan yaradıcılığında özünü daima göstərmişdir [20, s. 16].

23007

Azərbaycan Milli Kitabxanası

Əcəmi Naxçıvanidən sonra Naxçıvan memarlıq məktəbinə mənsub bir çox memarlar, o cümlədən Əhməd Əyyub oğlu əl-Hafiz Naxçıvani, Xacə Cəmaləddin, Şeyx Cühənnah oğlu və başqaları kimi görkəmli sənətkarlar yetişmişdir. Onlar Naxçıvan bölgəsində çoxlu memarlıq nümunələri, o cümlədən Qarabağlar kəndində memarlıq kompleksi, Culfa bölgəsində Əlincəçay xanəgahı, Ordubad rayonunun Darkənd kəndində türbə, Naxçıvan və Ordubad şəhərlərində buxsana, Ordubad rayonunun Aza, Culfa rayonunun Qazançı, Ləkətağ kəndlərində körpü, Naxçıvan şəhərində, Babək rayonunun Nehrəm və Şərur bölgəsinin Parçı (hazırda Xanlıqlar kəndinə birləşmişdir) kəndlərində imamzadə və s. kimi yüzlərlə abidələr yaratmışlar.

XX yüzilliyin böyük bir hissəsini təşkil edən sovet hakimiyyəti illərində bu qəbildən olan abidələr inşa edilməsə də müstəqillik illərində Azərbaycan və islam mədəniyyəti nümunələrinin bərpası və inşasına geniş yer verilmişdir. Təkcə Naxçıvan şəhərində Möminə xatın türbəsi, İmamzadə kompleksi, Miryaqub xanəgahı, Buzxana, Xan Sarayı, Xan Sarayinin yardımçı binası, Şəhər Came məscidi, Pirqəmiş məscidi, Zaviyə-mədrəsə kompleksi və s. bərpa olunmuş, Kazım Qarabəkir paşa və Həzrəti Zəhra məscidləri tikilib əhalinin istifadəsinə verilmişdir.

Sadalanan bütün bu və digər abidələr Naxçıvan Muxtar Respublikasında yüksək dövlət qayğısı ilə əhatə olunmuşdur. Bu qayğının nəticəsində həmin abidələrin bərpası, tədqiqi sahəsində mühüm işlər görülmüş və görülməkdədir. Məhz bütün bunlara və sadalamadığımız digər səbəblərə görə İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin 2009-cu ilin oktyabr ayında Bakı şəhərində keçirilən VI konfransında Naxçıvan Muxtar Respublikasının paytaxtı Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunması ilə əlaqədar qərar qəbul edilməsi təbii görünür.

Şübhəsiz ki, belə bir mühüm, şərəfli və məsuliyyətli qərar heç də birdən-birə, göydəndüşmə şəkildə qəbul edilməmişdir. Bu qərarın qəbul olunmasında Naxçıvan şəhərində, bütövlükdə muxtar respublikada iyirmi ildən bəri aparılan məqsədyönlü işlər, xüsusilə geniş miqyaslı abadlıq və quruculuq işləri, milli və dini dəyərlərə hörmət və ehtiram, yüksək dövlət qayğısı sayəsində onların qorunması, inkişaf etdirilməsi, Azərbaycan, eyni zamanda islam mədəniyyətinə mənsub abidələrin bərpası, qorunub saxlanması, bu işlərin yüksək səviyyədə təbliği, beynəlxalq ictimaiyyətə çatdırılması xüsusi rol oynamışdır. Fikrimizcə, bu qərarın qəbul edilməsində Naxçıvana gələn əcnəbi qonaqların, xüsusilə müsəlman ölkələrindən gələn dövlət xadimlərinin, turistlərin, ümumiyyətlə şəhərimizin qonaqlarının Naxçıvanda aparılan işləri yerindəcə görməsi, tanış olması və qiymətləndirməsi də öz bəhrəsini vermişdir.

Məlumdur ki, İslam Ölkələri Elm, Təhsil və Mədəniyyət Təşkilatının (İSESKO) təklifi ilə İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin mədəniyyət nazirlərinin 2004-cü il dekabrın 15-17-də Əlcəzairdə keçirilmiş IV konfransında təsdiqlənmiş "İslam Mədəniyyətinin Paytaxtları" proqramına əsasən hər hansı bir şəhərin İslam Mədəniyyətinin Paytaxtı elan olunması üçün həmin keyfiyyətlər paytaxt ölkə və region səviyyəsində mühüm tarixi keçmişə, islam və bəşər mədəniyyətində elm, incəsənət, ədəbiyyat sahəsində töhfələrə, elmi tədqiqat, arxeoloji təhsil mərkəzlərinə, fərdi və kollektiv şəkildə mədəni tədbirlər təşkil edən mədəni qurumlara malik olmalıdır. İnanırıq ki, sadalanan bütün bu əlamətləri özündə birləşdirən, öz qədimliyi və müasirliyi ilə bütün bu qayda və prinsiplərə cavab verən, dini, milli və etnik tolerantlıq ənənələri ilə seçilən, həmçinin artıq bir sıra beynəlxalq miqyaslı möhtəşəm tədbirlərə ev sahibliyi edən və bu sahədə böyük təcrübə qazanan Naxçıvan şəhəri 2018-ci il üçün İslam Mədəniyyətinin

Paytaxtı kimi orada keçirilməsi nəzərdə tutulan tədbirlərin yüksək səviyyədə gerçəkləşməsinə nail olacaqdır.

Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi və mədəni həyatında çox böyük əhəmiyyəti olan bu tədbirlərin keçirilməsi münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2 iyun 2016-cı ildə "Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında" Sərəncam imzalamışdır [2]. Sərəncamın preambula hissəsində qeyd olunur ki, "həmin qərar sivilizasiyalararası dialoqa mühüm töhfələr verən Azərbaycanın bu qədim diyarındakı zəngin mədəni-mənəvi irsə yüksək qiymətin təzahürüdür. Tarixən Yaxın və Orta Şərqin əzəmətli şəhərlərindən biri kimi Naxçıvan bütün böyük keçmişi ərzində islam mədəniyyətinin çoxəsrlik nailiyyətlərinin layiqincə qorunub yaşadılmasında özünəməxsus rol oynamışdır".

Şübhəsiz ki, ölkə başçısı İlham Əliyev cənablarının imzaladığı bu Sərəncam 2018-ci ildə islam mədəniyyətinin paytaxtına çevriləcək Naxçıvan şəhərində, bütövlükdə Naxçıvan Muxtar Respublikası ərazisində son illərdə geniş meydan verilən milli-mənəvi dəyərlərin, əsrlərdən bəri qorunub yaşadılan və yüksək dövlət qayğısı ilə əhatə olunan islami dəyərlərin, islam mədəniyyəti abidələrinin qorunub saxlanması, bərpası, inkişaf etdirilməsi və təbliği sahəsində aparılan işlərin daha yüksək səviyyəyə çatdırılmasında mühüm rol oynayacaqdır.

Sərəncamla Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun sədrliyi ilə yaradılan Təşkilat Komitəsinin 25 noyabr 2016-cı ildə ilk iclası keçirilmişdir. İclasda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin sədri Vasif Talıbov çıxış edərək Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunmasına dair qəbul olunan qərar haqqında demişdir: "Bu qərar əsaslıdır. Ona görə ki, Azərbaycanın 5 min illik tarixə malik qədim şəhəri olan Naxçıvan islam mədəniyyəti nümunələri ilə zəngindir və bəşər sivilizasiyasına dəyərli töhfələr vermişdir" [17].

Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri çıxışında bu möhtəşəm tədbirlə əlaqədar qarşıda duran vəzifələrdən bəhs edərkən bir sıra məsələlərlə yanaşı muxtar respublikanın türk-islam mədəniyyəti nümunələri, dini abidələrlə zəngin olduğunu, bu abidələrin tanıdılması ilə bağlı onlardan bəzilərinin İSESKO-nun siyahısına salınması istiqamətində iş aparılmasını, Loqotipin hazırlanması, muxtar respublikanın dini abidələri, məscid və ziyarətgahları haqqında kitablar nəşr olunmasının nəzərdə tutulduğunu da vurğulamışdır. Artıq bu istiqamətdə bir sıra işlər görülməyə başlamışdır. Ali Məclis Sədrinin tapşırıqlarına əsasən keçən müddət ərzində bu möhtəşəm tədbirin Loqotipi hazırlanmış və qəbul olunmuşdur. "İslamda müdrik kəlamlar" və "Naxçıvanın: türk-islam mədəniyyəti abidələri" kitabları hazırlanmışdır. Həmçinin 2017-ci il iyul ayının 7-8-də Naxçıvan şəhərində "Naxçıvanın Türk-İslam mədəniyyəti abidələri: tarixdə və günümüzdə" mövzusunda beynəlxalq konfrans keçirilmişdir.

Qarşıda duran vəzifələrin müəyyən bir hissəsinin yerinə yetirilməsi alimlərin, xüsusilə tarixçilərin üzərinə düşür. Ona görə də bütün Azərbaycan alimləri, xüsusilə Naxçıvan Muxtar Respublikasında yaşayan və çalışan tədqiqatçılar, həmçinin aid təşkilatların nümayəndələri qarşıda duran vəzifələrin icrası və uğurlu həllinə nail olmaq üçün səylə çalışmalıdırlar.

ƏDƏBİYYAT

1. "2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. "Azərbaycan" qəz., 2017, 11 yanvar.
2. "Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. "Azərbaycan" qəz, 2016, 3 iyun.
3. "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı. Rəsmi sənədlər. 1996-2011. Naxçıvan: Əcəmi, 2012, s. 172-176.
4. Azərbaycan tarixi: 7 cilddə, II c. Bakı: Elm, 1998, 596 s.
5. Babayev S. Səyyahlar Naxçıvan haqqında. Azərbaycan tarixində Naxçıvan (Tarixi oçerklər). Bakı: ADPU, 1996, s. 42-55.
6. Baxşəliyeva G. Orta əsrlər ərəb mənbələrində Naxçıvan haqqında məlumatlar. Nuh peyğəmbər: Dünya tufanı və Naxçıvan (24-25 aprel 2009-cu ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Naxçıvan: Əcəmi, 2010, s. 214-219.
7. Budaqova S. Naxçıvan diyarının siyasi tarixi. Bakı: Elm və təhsil, 2014, 112 s.
8. Bünyadov Z. Azərbaycan Atabəyləri dövləti (1136-1225-ci illər). Bakı: Elm, 1984, 268 s.
9. Əliyev F., Əliyev M. Naxçıvan xanlığı (1747-1828). Bakı: Azərnəşr, 1996, 106 s.
10. Evliya Ç. Səyahətnamə (Azərbaycan tarixinə dair seçmələr). Bakı: Azərnəşr, 1997, 92 s.
11. Hacıyev İ. Araz-Türk Respublikası. Qarapapaqlar. Aylıq elmi-kütləvi dərgi. № 1(100), yanvar-iyun, 2016, s. 19-21.
12. Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı: Elm, 1977, 160 s.
13. Məmmədov R. Yaxın Şərq və Qərbi Avropa səyyahları Naxçıvan şəhərinin orta əsrlər tarixi haqqında. Azərbaycan SSR EA Xəbərləri. İctimai elmlər seriyası, 1962, № 4, s. 11-22.
14. Naxçıvan abidələri ensiklopediyası. Naxçıvan, 2008, 521 s.
15. Naxçıvan sancağının müfəssəl dəftəri. Araşdırma, qeyd və şərhlərin müəllifi Hüsaməddin Məmmədov (Qaramanlı). Tərcümə edənlər: Ziya Bünyadov və Hüsaməddin Məmmədov (Qaramanlı). Bakı: Elm, 2001, 376 s.
16. Naxçıvan tarixi: 3 cilddə, I c. Naxçıvan: Əcəmi, 2013, 452 s.
17. Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin ilk iclası keçirilmişdir. "Şərq qapısı" qəz., 2016, 26 noyabr.
18. Piriyev V. Naxçıvan tarixindən səhifələr. Bakı: Müəllim, 2004, 126 s.
19. Səfərli F. Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər. Bakı: Nurlan, 2003, 392 s.
20. Səfərli H. Naxçıvanın türk-islam mədəniyyəti abidələri. Naxçıvan: Əcəmi, 2017, 216 s.
21. Vəlixanlı N. Ərəb xilafəti və Azərbaycan. Bakı: Azərnəşr, 1993, 157 s.
22. Vəlixanlı N. Naxçıvan – ərəblərdən monqollaradək (VII-XII). Bakı: Elm, 2005, 152 s.
23. Vəlixanlı N. Naxçıvanın VII-XII əsrlər dövrü tarixdə və tarixşünaslıqda. Naxçıvan: Əcəmi, 2015, 180 s.
24. Vəlixanlı N. Azərbaycan VII-XII əsrlərdə: tarix, mənbələr, şərhlər. Bakı: Elm və təhsil, 2016, 480 s.

25. Gürkan A. İslam kültürünün Qarbi medenileştirmesi. Ankara: Nur yayınları, 396 s.
26. Алескерзаде А. Надписи архитектурных памятников Азербайджана эпохи Низами. Архитектура Азербайджана эпохи Низами. Москва-Баку, 1947, с. 369-390.
27. Неймат М. Корпус эпиграфических памятников Азербайджана. Том III, Баку: XXI – Yeni Nəşrlər Evi, 2001, 216 с.
28. Казвини Х. "Нузхат ал-кулуб". Перевод с английского З.М.Буниятова, перевод с персидского И.П.Петрушевского. Баку: Элм, 1983, с. 37-65.

Фахреддин Сафарли

ГОРОД НАХЧЫВАН – СТОЛИЦА ИСЛАМСКОЙ КУЛЬТУРЫ НА 2018 ГОД

В статье говорится о городе Нахчыван, избранном Столицей Исламской Культуры на 2018 г. Отмечается, что принятие постановления об этом в 2009 г. не случайно. Город Нахчыван исторически прошел долгий путь развития, в средние века он являлся одним из центров исламского возрождения. Здесь были созданы великолепные образцы исламской культуры. В настоящее время все эти памятники находятся под защитой государства. В статье также даются сведения об Организационном Комитете, созданном по указу Президента Азербайджанской Республики для проведения этого грандиозного мероприятия, о первом заседание Оргкомитета и принятых им мерах.

Ключевые слова: *Нахчыван, исламская культура, столица, указ, Момине хатун.*

Fakhraddin Safarli

THE CITY OF NAKHCHIVAN AS THE ISLAMIC CULTURE CAPITAL FOR 2018

The paper refers to the city of Nakhchivan, elected the Capital of Islamic Culture for 2018. It is noted that the adoption of a resolution on this in 2009 is not accidental. The city of Nakhchivan has historically passed a long way of development, in the Middle Ages it was one of the centers of Islamic revival. Great examples of Islamic culture were created here. Currently, all these monuments are under the protection of the state. The article also provides information on the Organizing Committee established by the decree of the President of the Republic of Azerbaijan for this grandiose event, about the first meeting of the Organizing Committee and the measures it has taken.

Keywords: *Nakhchivan, Islamic culture, capital, order, Monina khatun.*

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2018, № 1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2018, № 1

PROCEEDINGS OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES NAKHCHIVAN BRANCH OFFICE
The series of social sciences and humanities, 2018, № 1

FƏXRƏDDİN CƏFƏROV
Naxçıvan Dövlət Universiteti,
YAŞAR RƏHİMOV
AMEA Naxçıvan Bölməsi
Email-yaarrahimov@yahoo.com.tr

NAXÇIVANDA KƏND TƏSƏRRÜFATININ KOLLEKTİVLƏŞDİRİLMƏSİNİN GEDİŞİ (I məqalə)

Məqalədə maraqlı və aktual bir məsələ – Naxçıvanda kəndli təsərrüfatlarının kollektivləşməsi məsələsi tədqiq edilmişdir. XX əsrin 20-ci illərin əvvəllərində Naxçıvanda fərdi kəndli təsərrüfatlarının ləğvi və kollektiv təsərrüfatların yaradılmasına keçid istiqamətində müxtəlif tədbirlər həyata keçirilirdi. 20-30-cu illərdə yeni yaranan hökumətin həyata keçirdiyi siyasət və mövcud olan real vəziyyət yeni müstəvidə araşdırılmışdır. Məqalə yeni arxiv sənədləri və faktlar əsasında hazırlanmış və belə bir nəticəyə gəlinmişdir ki, burada da könüllülük prinsipinə əməl edilməmiş, zorakı vasitələrlə fərdi kəndli təsərrüfatları kollektiv təsərrüfata cəlb edilmişdir.

Açar sözlər: *muxtar respublika, mexanikləşdirmə, kənd təsərrüfatı alətləri, kooperativ, traktor, su təsərrüfatı, kolxoz, MTS.*

Naxçıvan MSSR Xalq Torpaq Komissarlığının 1925-ci il məlumatına görə respublikada 135 kənd təsərrüfatı şirkəti təşkil edilmişdi. Şirkətləri maliyyələşdirən idarələrin köməyilə kənd təsərrüfatının 40%-i kooperativləşdirildi. 120 torpaq şirkətinə əkin sahəsi vermək üçün 223.980 desyatin torpaq sahəsi ölçülüb nəzərdən keçirilmişdir. Gələcəkdə şirkətlərin sayının artması nəzərə alınaraq dövlətin tabeliyində olan torpaqdan 31.891 desyatin sahə ayrılmış, eyni zamanda 185.528 desyatin torpaq sahəsində kəşfiyyat işləri aparılmışdır. Hökumət tərəfindən yaradılmış komissiya müəyyən etmişdir ki, mal-qara şirkətlərinin təşkil ediləcəyi təqdirdə yay otlaqları üçün 23.216 desyatin torpaqdan istifadə etmək mümkündür. Elə bu məqsədlə 1924/25-ci büdcə ilində kənd təsərrüfatının kooperativləşdirilməsinə 580 min manat pul vəsaiti buraxılmışdır ki, onun da 205 min manatı uzun müddətli (maşın, iş malı, tikinti materialı almaq, barama toxumu hazırlamaq və s.) borc (kredit), 75 min manatı qısa müddətli (kiçik alətlər almaq və s.) borc (kredit), qalan 300 min manatı isə xüsusi fond hesab edilirdi [9, v. 5-6].

Kəndliyə kollektiv təsərrüfatların "üstünlük"lərini göstərmək və onu işdə sübut etmək məqsədilə 1925-ci ilin iyulunda Azərbaycan kənd təsərrüfatı bankı tərəfindən Naxçıvana 3 "Ferdzon" markalı traktor göndərilmişdir. Lakin bu yüngül traktorların məhdud sayda olması kənd təsərrüfatına lazım olan effekti verə bilmirdi. Buna görə də 1925-ci il avqust ayının 5-də keçirilən V Sovetlər qurultayında "Naxçıvan ölkəsində kənd təsərrüfatının kooperativləşdirilməsi əsasında mexanikləşdirilməsi" məsələsi müzakirə edildi. Qurultayın qərarında deyilirdi: Fövqəladə sovetlər qurultayı qeyd edir ki, kooperativləşdirilmə kənd təsərrüfatının inkişafında qüvvətli bir dayaqdır və kənd təsərrüfatı kooperasiyasının təxirəsalınmaz surətdə genişləndirilməsini diqqət mərkəzində tutur. ... Qurultay Naxçıvan ölkəsinə kənd təsərrüfatı alətlərinin, traktor və kəndliyə lazım olan predmetlərin (əşyaların) gətirilməyə başlamasını təbrik edir [9, v. 3-4]. Qurultaydan az sonra kooperasiya quruluşunda böyük yüksəliş başlandı. Elə həmin il, yəni 1925-ci ildə kənd təsərrüfatı kooperasiyasına cəlb edilən üzvlərin sayı artaraq 5763-dən 1926-cı ildə 8088-ə çatır və 12 borc buraxan (kredit verən) şirkət təşkil edilir [10, v. 17].

Aparılan araşdırmalara əsasən kənd təsərrüfatının kooperativləşdirilməsi işində kənd təsərrüfatı Bankının və Keybirliyinin (kənd təsərrüfatı kooperasiya mərkəzi) təşkili böyük nəticələrə səbəb olmuşdu. 1925-ci il 17 oktyabr tarixdə kənd təsərrüfatı Bankının Naxçıvan MSSR Keybirliyinə buraxdığı pul məbləği şirkətlərin təsərrüfat cəhətdən möhkəmləndirilməsində mühüm rol oynamışdır. Kənd təsərrüfatı Bankı tərəfindən Keybirliyinə buraxılan pul şirkətlər arasında aşağıdakı kimi bölünmüşdü: Şərur rayonunda Bünyadzadə adına sovxozun ehtiyacı üçün 1500 manat, at zavodundan cins atların alınmasına 5000 manat, şirkətlərin əkilməsi üçün yem, pambıq və başqa toxumların alınmasına 600 manat, iş malı və avadanlıq almaq məqsədilə Əbrəqunus şirkətinə 15000 manat, Aza şirkətinə 10000 manat və Ordubad barama toxumu hazırlayan stansiyaya 3600 manat pul buraxılır [10, v. 17].

Kənd təsərrüfatının bərpa və inkişafında şirkətlərin oynadığı mühüm rol nəzərə alınaraq dövlət tərəfindən edilən maliyyə yardımı ildən-ilə artırdı. Belə ki, 1925-ci ildə Keybirliyi tərəfindən buraxılan 80 min manatdan 25 min manatı maşın təchizatına sərf olunmuşdu. Bundan başqa dən məhsulları almaq üçün koopittifaq tərəfindən şirkətlərə 20 000 manat pul buraxılmışdı və s.

Ölkənin iqtisadiyyatında su təsərrüfatı daha mühüm rol oynayırdı. Naxçıvan MSSR-in bütün mövcud su ehtiyatları suvarmaya olan tələbatın yalnız 60-65 faizini təmin edə bilirdi. Naxçıvan MSSR-də su məsələsi 20-ci illərə qədər həll edilməmişdi. Azərbaycan SSR Su Təsərrüfatı Nazirliyi tərəfindən təşkil edilmiş müxtəlif axtarış və ekspedisiyalar su ehtiyatlarını araşdırmaq üçün çox böyük imkanlar olduğunu göstərirdi. Lakin yerli orqan və kolxozların gücü və vaxtilə həyata keçirmək istədikləri kiçik su təsərrüfat tədbirləri kolxoz və kolxozçuların bütün əkin sahələrini və meyvə bağlarını su ilə tamamilə, yaxud kifayət qədər təchiz edilməsi məsələsini həll edə bilməzdi [5, s. 74-75]. Azərbaycan K(b)P MK katibi Ə.Qarayev Naxçıvan ölkəsində 1926-cı ilin təsərrüfat fəaliyyətinə yekun vuraraq bildirirdi ki, "...ölkədə kəndliləri daha çox narahat edən su problemidir. 1925-ci ildə 50 km uzunluğunda 18 tunelə malik olan Şəngirey arxı istifadəyə verilib, Fərhad arxı çıxarılır. Böyükdüzdə 8500 hektar torpaq sahəsinin tədqiqatı başa çatdırılır. 100 kəhrizdən 89-u işə salınıb. Şərurun suvarılması, Göy-gölün (Ordubad rayonunda) tədqiqatı, Züvvər arxın (Ordubad rayonu) təmiri və s. üçün güclü maliyyə vəsaiti tələb edilir. Bunsuz dağılmış ölkəni bərpa etmək olmaz" [11, v. 3]. Bölgədə xam torpaqları mənimsəmək üçün başlıca olaraq su təsərrüfatı məsələlərini həll etmək qarşıda duran təxirəsalınmaz vəzifə idi. Muxtar Respublikada su təsərrüfatı işinə əsaslı kömək məqsədilə Naxçıvan MSSR Su İdarəsi Azərbaycan Su Təsərrüfatı idarəsinin tərkibindən çıxarıldı və muxtar respublikanın Konstitusiyasına uyğun olaraq Naxçıvan Su Dairəsi İdarəsi adlandı ki, onun da hüquqları genişləndirildi. Mövcud hüquqlara diyarın istismarı, quruculuq işləri və b. da əlavə edildi. Naxçıvan Su Dairəsi İdarəsi Naxçıvan MSSR XKS-in nəzdində idi.

Diyarda su təsərrüfatı əmiyyətləri şəbəkəsi genişləndirilirdi: 1925-ci ilin iyununda 400 kəhriz 8 su təsərrüfatı əmiyyətinin sərəncamında olmuşdur. 1928-ci ilin sonunda Naxçıvan diyarında su təsərrüfatı əsasən bərpa edilmiş, bəzi rayonlarda isə yeni xətlər çəkilmişdi [21, s. 125-126].

Tarixdən məlum olduğu kimi, Azərbaycan K(b)P MK tərəfindən muxtar respublikanın xalq təsərrüfatı və sovet təşkilatlarının işini canlandırmaq üçün Həmid Sultanov başda olmaqla Naxçıvana xeyli miqdarda partiya, sovet, komsomol, maarif və kənd tə-

səərrüfatı işçiləri göndərilmişdi. H.Sultanov 28 fevral 1925-ci ildən 13 noyabr 1926-cı ilə kimi Naxçıvan MSSR Xalq Komissarları Şurasına rəhbərlik etmişdir. Qeyd edək ki o, tədqiqata cəlb etdiyimiz və dövrün mənbəsi sayılan bölgənin xalq təsərrüfatından bəhs edən «Нахкрай и его экономика» əsərini (1927 ci il) nəşr etdirmişdir.

Naxçıvan MSSR-də kənd təsərrüfatının mexanikləşdirilməsi üçün əsaslı işlər görülürdü. Belə ki, 1925-1926-cı illərdə Naxçıvan ölkəsinə göndərilən traktorların miqdarı xeyli artırılaraq 1926-cı ildə 21 ədədə, 1929-cu ildı 29 ədədə çatdırılır [12, v. 3]. Aparılan araşdırmalara əsasən muxtar respublikada traktorların müntəzəm iş fəaliyyəti 1929-cu ildən başlayır. Maşınların miqdarı ildən-ilə artır və onların əhatə dairəsi genişlənirdi.

1925-ci ildə Naxçıvan ölkəsində cəmi 9 traktor işlədiyi halda, 5-6 ildən sonra, 1931-ci ildə onların sayı 68-ə çatdırıldı. Respublikada olan 68 traktordan 34-ü Noraşen MTS-də, 27-i Naxçıvan MTS-də, 7-i Bünyadzadə adına Sovxozda işləyirdi. 1932-ci ildə Naxçıvan respublikasında traktorların sayı 82 ədədə çatdırılır [12, v. 4]. Kollektivləşmə daha çox pambıqçılıq sahəsini, qismən də taxılçılıq və heyvandarlıq sahələrini əhatə etmişdi ki, bu da həmin sahələrdə kənd təsərrüfatı maşınlarının tətbiqi və mexanikləşdirmə üçün böyük perspektivlə bağlı idi [5, s. 31].

1924-cü ildə muxtar respublikada əkin sahələrinin bütün təsərrüfat kateqoriyaları üzrə 45 min hektar kənd təsərrüfatına yararlı torpaq sahəsi olmuşdur. 1925-ci ildə 36275 hektar əkin sahəsinin 19770 hektarı buğda, 7675 hektarı arpa, 7583 hektarı pambıq, 365 hektarı çaltik, 78 hektarı bostan, 804 hektarı isə digər əkinlərin payına düşmüşdür. 1926-cı ildə əkin sahəsi 5339 hektar artaraq 41614 hektar olmuşdur ki, bu artım buğda əkinlərində 830 hektar, pambıq əkinlərində 789 hektar, bostan əkinlərində 1765 hektar, çaltik əkinlərində isə 7 hektar olmuşdur.

1930-cu illərdə kollektiv təsərrüfatların (kolxozların) yaradılması, kənd təsərrüfatının yeni qaydada idarə olunması bu sahənin inkişafında yeni mərhələnin başlanğıcı olmuşdur [3, s. 41].

Qeyd etmək olar ki, sovet hakimiyyəti illərində muxtar respublikanın əkinə yararlı torpaqlarının əsas istifadəçiləri kolxoz və sovxozlar olmuşdur. Bundan əlavə dövlət fondlarından torpaqların əsas hissəsini təşkil edən yaylaq və qışlaq otlaqlar da uzun müddətli istifadə üçün kolxozlara təhkim edilmişdir. Demək olar ki, kənd təsərrüfatına yararlı torpaqlar kolxoz və sovxozların ixtiyarında idi.

Muxtar respublika ərazisində sovet hakimiyyəti illərində mövcud olan 30 min hektardan artıq (42%) sahə əkin dövriyyəsinə cəlb edilməmişdir. Bu qədər torpağın istifadə olunmaması kolxozları hər il xeyli miqdarda məhsul götürməkdən məhrum edirdi [5, s. 64-65].

Birinci beşillikdə Naxçıvan respublikasında kolxozların, kollektiv təsərrüfatların və əkin sahələrinin miqdarı aşağıdakı kimi idi: 1927-ci ildə 43 təsərrüfatı birləşdirən və 110 hektar torpaq sahəsini əhatə edən 2 kolxoz (kollektiv. təsərrüfat. faizlə – .0,3%), 1928-ci ildə 580 təsərrüfatı birləşdirən və 1770 hektar torpaq sahəsini əhatə edən 20 kolxoz (kollektiv. təsərrüfat. faizlə – 3,0%), 1929-cu ildə 790 təsərrüfatı birləşdirən və 2143 hektar torpaq sahəsini əhatə edən 36 kolxoz (kollektiv. təsərrüfat. faizlə – 4,2%), 1930-cu ildə 5454 təsərrüfatı birləşdirən və 2314 hektar torpaq sahəsini əhatə edən 73 kolxoz (kollektiv. təsərrüfat. faizlə – 11%), 1931-ci ildə 7234 təsərrüfatı birləşdirən və 6008 hektar torpaq sahəsini əhatə edən 161 kolxoz (kollektiv. təsərrüfat. faizlə – 45%), 1932-ci ildə 8941 təsərrüfatı birləşdirən və 9342 hektar torpaq sahəsini əhatə edən 184 kolxoz (kollektiv. təsərrüfat. faizlə – 56,7%) [13, v. 4].

Naxçıvan respublikasına gətirilən digər kənd təsərrüfatı alətlərinin də miqdarı ildən-ilə artırdı. Gətirilən müxtəlif kənd təsərrüfatı alətləri 1927-ci ildə 150-dən 1929-cu ildə 486 ədədə çatdırılır. Kollektivləşmənin genişlənməsi ilə əlaqədar olaraq ölkəyə gə-

tirilən digər kənd təsərrüfatı alətlərinin miqdarı (traktorlardan başqa) 1930-1932-ci illərdə daha çox olmuşdur. 1930-cu ildə kənd təsərrüfatı alətləri 1321 ədəddən, 1932-ci ildə 3628 ədədə çatdırılmışdır [14, v. 9]. Bütün bunlar regionda kollektivləşdirilmə prosesinin gedişinə öz təsirini göstərirdi.

Başqa yerlərdə olduğu kimi Naxçıvan MSSR-nin kolxozlarının təşkili işində baş verən səhvliklərə, sol əyintilərə son qoymağa çalışılır, kolxozdan getmiş ortabab kəndlilər kolxozlara cəlb edilirdi. Bu sahədə məsul işçilərin üzərinə mühüm vəzifələr düşürdü. Naxçıvan MSSR-də bu məsələ ilə Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin sədri Q.Musabəyov şəxsən məşğul idi. Qeyd edək ki, 1930-cu il yaz aylarının sonunda Naxçıvana gələn Q.Musabəyov kolxozlardan getmiş ortabab kəndlilərin kollektiv təsərrüfatlara qayıtmalarına şərait yaradılması sahəsində müəyyən işlər görmüşdür. Eyni zamanda proletar hakimiyyətinin polad qanunları ilə "qolçomaq" adlandırılan kəndlilərin müqavimətı sındırılır, onların bir sinif kimi ləğv edilməsi prosesi sürətləndirilirdi. Bütün bunlar həmin dövrdə yeni yaradılan hakimiyyətin və mövcud hegemon partiyanın yeritdiyi siyasətə uyğunlaşdırılaraq həyata keçirilirdi.

Partiya və hökumət tərəfindən görülən təsərrüfat, maliyyə və təşkilati tədbirlər nəticəsində kolxoz quruculuğu-kollektivləşdirilmə prosesi sürətləndirilirdi. Buna görə də əksər təsərrüfat sahələrində-üzümçülük, ipəkçilik, bağçılıq və s. sahələrdə əhəmiyyətli yüksəliş başlandı. Bunlarla bərabər kolxoz quruculuğu sahəsində yol verilən sol əyintiləri tamamilə aradan qaldırmaq və ortabab kəndlilərin kolxozlara girməsini təmin etmək məsələsinə xüsusi diqqət yetirilirdi. Bölgənin kənd təsərrüfatında mühüm rol oynayan üzümçülüyə 20-ci ilin ikinci yarısından diqqət və qayğı artmağa başlamışdır. 1925-ci ildə üzüm bağının sahəsi 1488 hektar olmuşdur. Naxçıvanda bağlardan götürülən məhsul isə 150.000 pud olmuşdu ki, ondan 11-12 faizli 87000 vedrə çaxır istehsal olunurdu [1, s. 133]. 1927-ci ildə muxtar respublikada üzümçülük sahələri 1.247 hektar olmuşdu. 1929-cu ildə Naxçıvanın kolxozlarında cəmi 1231 hektar üzüm sahəsi mövcud idi (8, s. 28). 1936-cı ildə üzüm sahələri 2.700 hektara çatdırıldı [15, v. 7]. Göstərilən dövrdə üzümçülük bir çox kəndlərin iqtisadi inkişafının əsasını təşkil edirdi. Üzümçülüyün muxtar respublika iqtisadiyyatı üçün səmərəliliyi nəzərə alınaraq 1931-ci ildə 1442 hektarlıq üzümçülük sahəsini daha 1000 hektar artırmaq haqqında qərar qəbul edilmişdi. Azərbaycan SSR Xalq Komissarları Soveti 1929-1932-ci illərdə Naxçıvan, Əbrəqunus və Şahbuz şərab zavodlarını inşa edərək istifadəyə vermişdi. 1929-1930-cu illərdə təkcə üzümçülüklə məşğul olan fərdi təsərrüfatçılar dövlət tədarük məntəqələrinə 18,9 min sentner üzüm satmışdılar. 1931 və 1932-ci illərdə üzümçülüklə məşğul olan kəndlərdə də kolxozların təşkilinə başlanmışdı. Artıq 1932-ci ildə muxtar respublikada bağçılıq və üzümçülüklə məşğul olan 13 kolxoz var idi [20, s. 82-83].

Naxçıvan MSSR-də becərilən bitkilərdən biri də tütün idi. Şərur rayonunun dağətəyi zonasında olan 5 böyük kolxoz, demək olar ki, tamamilə tütün istehsalına görə ixtisaslaşmışdır [5, s. 140]. 1932-ci ildə 500 hektar sahədə tütün əkildiyi halda, 1936-cı ildə tütün sahəsi 1300 hektara çatdırılmışdır. 1940-cı ildə Naxçıvan MSSR-də bütün təsərrüfat dərəcələrində əkilən 596 hektar tütün sahəsinin hamısı Şərur rayonunda idi. Bunun 550 hektarı rayonun kolxozlarında, qalanı isə şəxsi təsərrüfatlarda idi [18, s. 52]. Fakt və rəqəmlərdən göründüyü kimi muxtar respublikada tütünün daha çox becərildiyi ərazi Şərur rayonu olmuşdur.

Tədqiqatlar belə deməyə əsas verir ki, kənd təsərrüfatının mühüm sahələrindən olan meyvəçiliyin və meyvə bağlarının bərpa edilməsinə 1924-1925-ci illərdə başlanılmışdır. Naxçıvan Muxtar Respublikasında 1925-ci ildə meyvə bağlarının sahəsi 554 hektar olmuşdur [23, s. 42].

Kənd təsərrüfatının əsas sahələrindən biri olan tərəvəzçilik və bostançılıq əhalinin tələbatının ödənilməsində mühüm yer tutur. Tərəvəzçilik öz yüksək əhəmiyyətilə kolxozçuların əmək gününə pul gəlirini artırır. Muxtar respublikada tərəvəzçiliyin inkişafı üçün kolxozlarda tərəvəz növbəli əkin sistemi tətbiq edilmişdi [5, s. 171]. Muxtar respublikada bostançılığın əmtəəlik məhsulları kolxoz təsərrüfatının ümumi gəliri içərisində özünəməxsus yer tuturdu. Bostançılıq öz yüksək əhəmiyyətilə kolxozçuların əmək günlərinə düşən pul gəlirini də artırırdı. Bostançılığın inkişafı üçün kolxozlarda növbəli əkin sistemi tətbiq edilsə də, təsərrüfatın digər sahələri kimi bostançılığın inkişafı üçün tələb olunan sərmayə (kapital) qoyulmamışdı [5, s. 175].

1921-ci ildən etibarən Naxçıvanda ipəkçilik tədricən canlanmağa başlamışdı. 1923-cü ildə Naxçıvan Respublikası üzrə ipəkçilik aşağıdakı rəqəmlərlə ifadə olunurdu: 804 qutu barama toplanmış, yerli zavodlarda 295 pud barama açılmış, 85 pud ipək və 30 pud frizon alınmışdır. 1924-cü ildə 818 pud quru barama toplanmış, 133 pud ipək və 40 pud firzon əldə edilmiş, 2 baramaçan zavod fəaliyyət göstərmişdir [6, s. 225].

Əvvəlki illərlə müqayisədə 1933-1937-ci illərdə çox illik əkmələrin (meyvə-tərəvəz bağları, üzüm, tut əkin sahəsi) əhatə etdiyi ərazilər maraq doğuran məsələlərdəndir. İkinci beşilliklə Naxçıvan MSSR-də çox illik əkmələrin artımı aşağıdakı kimi olmuşdur: 1933-cü ildə 121,4%, 1934-cü ildə 143,6%, 1935-ci ildə 175,5%, 1936-cı ildə 208,4%, 1937-ci ildə 262,8% [15, v. 7]. Göründüyü kimi regionda ötən əsrin 30-cu illərində əvvəlki illərə nisbətən çox illik əkmələrin ərazisi xeyli genişləndirilmişdir.

Zaqafqaziya İttifaq Sovetinin qərarı ilə yaz əkini dövründə Naxçıvan kəndlilərinə toxumdan başqa pulsuz olaraq hər ay 10 min pud taxıl verilirdi [7, s. 40]. Buğdanın ən yüksək məhsuldarlığına Arazboyu düzənlikdə yerləşən kolxozlar nail olurdular. Buranın bir çox kolxozları məhsuldarlığı artıraraq 15-18 sentnerə çatdırırdılar [5, s. 113]. 30-cu illərin sonunda taxıl istehsalı artmağa başlamışdı. Muxtar respublikada 1940-cı ildə 27,3 min ton taxıl istehsal edilmişdir [19, s. 353].

1934-cü ildə Naxçıvan MSSR Torpaq Komissarlığının verdiyi plana əsasən 43.757 hektar ümumi əkin sahəsindən 18.101 hektar buğda, 10.012 hektar arpa, 207 hektar darı, 690 hektar paxlalı bitkilər, 80 hektar çəltik (Şərurda, qismən Culfa rayonunun Yaycı, Ordubad rayonunun Aza kəndlərində), 9.100 hektar pambıq, 405 hektar tütün (Şərurda), 690 hektar tərəvəz, 4.517 hektar ot bitkiləri əkilmişdir [16, v. 2]. Pambıq əkilən sahələrin həcmində artım müşahidə edilir. Belə ki, pambıq əkin sahəsi inqilabdan əvvəlki pambıq əkin sahəsindən 6433 hektar artıq olmuşdur.

1932-1935-ci illərdə Naxçıvan MSSR-də əldə edilmiş kənd təsərrüfatı məhsullarının hər hektarından sentnerlə artım olmuşdur. Həmin artım belə idi: 1932-ci ildə (hər hektardan sentnerlə) taxıl məhsulları 8,4, pambıq 7,4, bağ və bostan məhsulları 97, meyvə bağları 44, üzüm bağları 32,4, tütün 8,8, quru ot 46; 1933-cü ildə taxıl məhsulları 9,5, pambıq 8,0, bağ və bostan məhsulları 105, meyvə bağları 27, üzüm bağları 34,3, tütün 10,0, quru ot 60; 1934-cü ildə taxıl məhsulları 9,8, pambıq 8,8, bağ və bostan məhsulları 114, meyvə bağları 52, üzüm bağları 40,0, tütün 10,5, quru ot 56,0; 1935-ci ildə taxıl məhsulları 10,6, pambıq 9,7, bağ və bostan məhsulları 128,8, meyvə bağları 33, üzüm bağları 46,6, tütün 11, quru ot 64,0. Başqa sözlə, 1932-ci illə müqayisədə 1937-ci ilin axırlarında kənd təsərrüfatı məhsullarının hər hektarından sentnerlə artım faizi (%-lə) aşağıdakı kimi idi: taxıl məhsulları (hər hektardan sentnerlə) 50%, pambıq 62,2%, bağ və bostan məhsulları 44,3%, meyvə bağları 40,0%, üzüm bağları 87,8%, tütün 36,4%, quru ot 85% [15, v. 7].

Kollektivləşdirilmə tədbirləri, onun gedişi və həyata keçirilməsini sürətləndirmək məqsədilə müxtəlif qurultaylar (zərbəçi kolxozçuların qurultayları, komsomolçu kolxozçuların qurultayı və s.), plenumlar və yığıncaqlar keçirilməsi ənənəvi hal almışdı. Belə ki, 1933-cü ilin fevralında zərbəçi kolxozçuların I, iki il sonra 1935-ci ilin fevralında II qurultayı keçirildi. Həmin qurultaylarda kolxozları bolşevik kolxozu, kolxozçuları isə varlı etmək vəzifəsi irəli sürüldü. İ umumittifaq qurultayda kolxoz və sovxozların möhkəmləndirilməsi üçün partiya MTS-lər və sovxozlar nəzdində siyasi şöbələr yaratdı. 25 min ən yaxşı partiya işçisi şöbələrə göndərildi [17, v. 6].

İkinci beşilliklə başlıca diqqət kolxozların təşkilat-təsərrüfat və siyasi cəhətdən möhkəmləndirilməsinə verilirdi. Bu tədbirlərin həyata keçirilməsində ÜİK (b) MK-nın 1933-cü il Yanvar Plenumunun qəbul etdiyi qərarın mühüm əhəmiyyəti oldu. Yanvar Plenumunun qarşıya qoyduğu vəzifələrlə əlaqədar Naxçıvan Vilayət Partiya Komitəsinin Nəzarət Komitəsi ilə birləşmiş plenumu çağırıldı. Plenum Şərur və Naxçıvan MTS-ləri yanında siyasi şöbələr yaratdı [5, s. 97]. Siyasi şöbələrin təşəbbüsü ilə "1934-cü ilin yaz əkin kampaniyasına qədər qısa müddətli kurslar vasitəsilə 20 nəfər kolxoz sədri, 115 nəfər mühasib, 130 nəfər briqadir və b. hazırlanmışdı. 1934-cü ildə bütövlükdə isə Naxçıvan (Babək), Şərur, Ordubad, Şahbuz, Əbrəqunus və Culfa rayon torpaq şöbələri, həmçinin Naxçıvan və Şərur MTS-ləri nəzdindəki kursları 952 nəfər belə yüksək ixtisaslı kənd təsərrüfatı işçiləri, habelə 93 nəfər mexanizator bitirmişdi. Naxçıvan, Şərur, Şahbuz, Əbrəqunus, Ordubad rayonlarına göndərilən təkcə kolxoz sədrlərinin sayı 66 nəfər olmuşdu. 1934-cü ilin payız və 1935-ci ilin yaz əkini kampaniyaları dövründə daha 314 nəfər qısa müddətli kursları bitirmiş və kolxozlara göndərilmişdi. 1932-ci ildə Naxçıvan MR-da kolxoz istehsalat briqadalarının sayı 80 olduğu halda, 1934-cü ilin yaz əkini kampaniyası zamanı rayon torpaq şöbələri və MTS-lər yanında təşkil olunmuş kurslar vasitəsilə daha 146 nəfər istehsalat briqadiri hazırlanmış və beləliklə istehsalat briqadirlərinin sayı 266-ya çatdırılmışdı. 1934-cü ilin yaz əkini kampaniyası ərəfəsində muxtar respublika kolxozlarına kömək məqsədilə normadan əlavə daha 20 traktor göndərilməsi məsələsi müsbət həll edilmişdi. Hətta Naxçıvan MR-da xidmət edən sərhədçi əsgərlər belə kolxozlara hamilik işinə cəlb edilmişdilər. Naxçıvan sərhəd məntəqələri 24 nəfərlik tərkibdə iki briqada yaratmış və onları Şərur və Naxçıvan MTS-lərinə təhkim etmişdilər. Onlar kolxozlarda kənd təsərrüfatı maşınlarını təmir edir, traktor parklarının pasportlarını qaydaya salırdılar" [20, s. 87].

1930-cu il martın 3-5-də kolxozçu gənclərin I qurultayı keçirildi. Qurultayın qətnaməsində komsomol təşkilatlarından kolxoz hərəkatında daha yaxından iştirak etmək, muzdur və yoxsul gəncləri kolxoza cəlb etmək üçün geniş təbliğat və təşviqat işləri aparmaq tələb edilirdi. Qurultaydan sonra müxtəlif dairələrdə keçirilmiş komsomol müşavirələrində gəncləri partiyanın aqrar siyasətinə səfərbər etmək üçün müxtəlif dərnək və kursların təşkil edilməsi haqqında qərarlar qəbul edildi, komsomol özəklərindən kolxoz quruculuğunda təşəbbüsü öz əllərinə almaq tələb olundu. Təkcə Naxçıvan MSSR-də komsomol özəklərinin təşəbbüsü ilə 32 kolxoz təşkil edilmişdi. Artıq 1930-cu ilin əvvəllərində respublikada olan fərdi təsərrüfatçı komsomolçuların 65,7 faizi kolxozlara yazılmışdı; bu zaman kolxoz idarə heyəti üzvlərinin 15 faizi komsomolçu idi [2, s. 94].

Beləliklə, milyonlarla Sovet vətəndaşının ölümünə yol açan kollektivləşdirmə siyasətinə keçidlə Lenin dövründən başlayan NEP (novaya ekonomiçeskaya politika) – yeni iqtisadi siyasət dayandırılmış, fərdi təsərrüfatlar ləğv edilməyə, xalqın əlindəki istehsal vasitələri və torpaqlar birləşdirilib "kolxoz" adı verilən rəsmi dövlət təsərrüfatlarına çevrilməyə başlamışdı.

Kəndlilərdən artıq taxılın zorla əlindən alınması, onların əmlakının və mülkünün müsadirə edilməsi və s. sovet rejiminə və kollektivləşməyə qarşı kütləvi müqavimət hərəkatına gətirib çıxarırdı.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixində Naxçıvan (S.Məmmədov, İ.Bağırovun redaktorluğu ilə). Bakı: ADPU-nun mətbəəsi, 1996, 142 s.
2. Cəfərov H. Azərbaycanda gənclər hərəkatı (XX əsr). Bakı: Nurlan, 2009, 457 s.
3. Hacıyev İ., İsmayılov B. Naxçıvan Muxtar Respublikası-90. Naxçıvan: Əcəmi, 2014, 184 s
4. Hacıyev İ. Naxçıvanda kənd təsərrüfatının kollektivləşməsi: əyintilər, səhvlər, nəticələr // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, Naxçıvan: Tusi, c. 7, № 3, 2011, s. 21-28.
5. Hüseynov X. Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının inkişafı (1924-2014-cü illər). Naxçıvan: Əcəmi, 2016, 352 s.
6. İvanov R. Basqın. Bolşeviklərin sovet torpağı qədim Naxçıvanda azğınlıqları haqda acı həqiqətlər. Naxçıvan: Əcəmi, 2009, 464 s.
7. Quliyev C., Mədətov Q., Nadirov A. Sovet Naxçıvanı. Bakı: Azərnəşr, 1984, 138 s.
8. Məmmədov X. Naxçıvan MSSR 40 ildə. Bakı: Azərnəşr, 1960, 54 s.
9. NMRDA: f. 40, siy. 4, arx. 96.
10. NMRDA: f. 40, siy. 4, arx. 10.
11. NMRDA: f. iP, siy. 1, arx. 434.
12. NMRDA: f. 40, siy. 4, arx. 7.
13. NMRDA: f. 40, siy. 2, arx. 52.
14. NMRDA: f. 40, siy. 2, arx. 97.
15. NMRDA: f. 221, siy. 1, arx. 150.
16. NMRDA: f. 221, siy. 4, arx. 1.
17. NMRDA: f. 34, siy. 1, arx. 525.
18. Naxçıvan MSSR xalq təsərrüfatının inkişafı. Statistik məcmuə. Bakı: Birləşmiş nəşriyyat mətbəəsi, 1964, 142 s.
19. Naxçıvan Muxtar Sovet Sosialist Respublikası (Akademik H. Abdullayevin redaktorluğu ilə). Bakı: Elm, 1975, 360 s.
20. Sadiqov S. Naxçıvan Muxtar Respublikasının tarixindən. Bakı: İrşad mərkəzi, 1995, 144 s.
21. Магеррамов Э. Газета «Коммунист» (на азерб.языке) и вопросы восстановления сельского хозяйства Азербайджанский ССР (1921-1928 гг.). Баку: Нурлан, 2004, 344 с. + иллюстрации.
22. Сокольский Н. Материалы по изучению Нахичеванской ССР. Тифлис, Зак-Гиз, 1933, 184 с.
23. Султанов Г. Нахкрай и его экономика. Баку, 1927, 249 с.

Фахреддин Джафаров, Яшар Рагимов

ХОД КОЛЛЕКТИВИЗАЦИИ СЕЛЬСКОГО ХОЗЯЙСТВА В НАХЧЫВАНЕ (статья I)

В статье исследована интересная и актуальная проблема – коллективизация сельского хозяйства в Нахчыване. В начале 20-х годов прошлого века в Нахчыване проводились различные мероприятия с целью ликвидации личных крестьянских хозяйств и создания коллективных. В новой плоскости изучена политика в этой области, проводившаяся вновь созданным государством в 20-30-е годы и

существовавшее реальное состояние дел. Статья написана на основе фактов и архивных документов, сделан вывод, что принцип добровольности здесь не соблюдался, и личные крестьянские хозяйства привлекались к коллективизации насильственными методами.

Ключевые слова: *автономная республика, механизация, сельскохозяйственный инструмент, кооператив, трактор, водное хозяйство, колхоз, МТС.*

Fahraddin Cafarov, Yashar Rahimov

THE COURSE OF AGRICULTURE COLLECTIVIZATION IN NAKHCHIVAN (paper I)

The paper is devoted to an interesting and topical problem - the collectivization of agriculture in Nakhchivan. In the early 20-ies of the last century in Nakhchivan various measures were carried out with the goal of liquidating personal peasant farms and creating collective farms. In a new plane, the policy in this field was studied, conducted by the newly created state in the 1920s and 1930s and the existing state of affairs. The article is written on the basis of facts and archival documents, it is concluded that the principle of voluntariness was not observed here, and personal peasant farms were involved in collectivization by violent methods.

Keywords: *autonomous republic, mechanization, agricultural tools, cooperative, tractor, water economy, collective farm, MTS.*

(Akademik İsmayıl Hacıyev tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2018, № 1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2018, № 1

PROCEEDINGS OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES NAKHCHIVAN BRANCH OFFICE
The series of social sciences and humanities, 2018, № 1

EMİN ŞIXƏLİYEV
AMEA Naxçıvan Bölməsi
E-mail: emin.amea@yahoo.com

ERMƏNİSTAN-AZƏRBAYCAN MÜNAQİŞƏSİ İLƏ BAĞLI QƏRB DÖVLƏTLƏRİNİN İKİLİ STANDARTLAR SİYASƏTİNİN PƏRDƏARXASI

Ermənistanın yeritdiyi təcavüzkar siyasət 30 ilə yaxındır ki, dünya ictimaiyyətinin gözü qarşısında həyata keçirilir. Mono-etnik dövlət yaratmağa nail olan Ermənistan rəhbərliyi silahlı təcavüz nəticəsində Dağlıq Qarabağı və 7 rayonu işğal etmişdir. Bütün bu ərazilər etnik təmizləməyə məruz qalmışdır. Bu baxımdan məqalənin əsas məqsədi Qərb dövlətlərinin Ermənistan-Azərbaycan münaqişəsində yeritdikləri ikili standartlar siyasətinin səbəblərini və pərdəarxası tərəflərini, əsas vasitəçilər kimi onların münaqişədə səmərəsiz rolunu araşdırmaqdır. Müəllif məqalədə ikili standartlar siyasətinin səbəbini keçmişdən bəri davam edən Qərb ilə Türk-İslam sivilizasiyaları arasındakı tarixi toqquşma ilə izah etmişdir.

Açar sözlər: *Ermənistan, Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, böyük güclər, ikili standartlar siyasəti, sivilizasiyaların toqquşması.*

Keçmiş SSRİ ərazisində baş vermiş genişmiqyaslı və həlli yolları düyünə salınan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zaman içərisində daha çox dövlətlərarası və qlobal problem xarakteri almışdır. XX yüzilliyin 80-ci illərinin sonunda Sovetlər İttifaqının siyasi məkanında meydana gəlmiş bu münaqişə ittifaq dağılandan sonra avtomatik olaraq iki yeni müstəqil dövlətin – Azərbaycan Respublikasının və Ermənistan Respublikasının dövlətlərarası probleminə çevrildi. Üzərindən 30 ilə yaxın müddət keçsə də, münaqişə öz siyasi və hüquqi həllinə hələ də qovuşmamışdır. Əvvəla, hər iki ölkədə qarşı tərəfə münasibətdə düşmən obrazı möhkəm yer almışdır. İkincisi, Ermənistan ilə Azərbaycan arasında "nə müharibə, nə də sülh" kimi qeyri-müəyyən vəziyyət davam edir. Hər iki variantın da nizama salınması mümkün olmadığına görə, problemin beynəlxalq hüquq normaları çərçivəsində həlli tələb edilir. Dünyanın aparıcı dövlətləri bu münaqişəyə münasibətdə müxtəlif mövqelərdə durduqlarından bu variant da real nəticə vermir. Münaqişənin həllinin Rusiyadan asılı olduğu inkaredilməz həqiqətdir. Lakin Ermənistan-Azərbaycan münaqişəsinin davam etməsi əslində Qərbin aparıcı dövlətlərinin də maraqlarına uyğundur.

Demokratiyanı əldə silah tutaraq, bütün dünyaya yaymağa çalışan Qərbin aparıcı dövlətlərinin münaqişə ilə əlaqədar ikili standartlar mövqeyindən çıxış etmələri, ATƏT-in Minsk Qrupunun yeritdiyi fəaliyyətlərin səmərəsiz nəticə verməsi, Ermənistanın humanitar və hərbi yardımlara "layiq" görülməsi, işğalçının təcavüzkar kimi tanınmaması, beynəlxalq təşkilatların münaqişəyə lazımi qiymət verməmələri və digər məsələlərin cavabı müəmmalı görünsə də, mahiyyətini açmaq mümkündür.

Qeyd etmək lazımdır ki, Avropa dövlətləri münaqişəyə sırf lokal Ermənistan-Azərbaycan konflikti müstəvisində deyil, daha çox ümumi türkçülük nöqteyi-nəzərindən yanaşırlar. Yəni münaqişə qlobal erməni məsələsi çərçivəsində diqqəti cəlb edir. Bu dəyərləndirmələrlə tanışlıq onu deməyə əsas verir ki, Avropa dövlətlərinin parlamentləri Azərbaycanın ərazi bütövlüyünü tanısalar da, Ermənistanın nəinki işğalçı dövlət olduğunu qəbul və işğal etdiyi ərazilərdən çəkilməsini tələb etmirlər, əksinə konflikt tərəflərinin güzəştə getmələrini məqsədəuyğun hesab edirlər. Təbii ki, bu, real çıxış yolu deyil və əslində problemin həlli prosesinin yeni çətinliklərlə üzləşəcəyindən xəbər verir. Nə qədər ki, işğal edilmiş ərazilər azad edilməyib, Azərbaycanla Ermənistan arasında hər hansı əməkdaşlıqdan söhbət gedə bilməz və qətiyyən mümkün deyil. Müharibə şəraitində əməkdaşlıq etmək tamamilə cəfəngiyatdır. Əməkdaşlıq etmək üçün Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımalıdır. Bu baxımdan Avropa dövlətlərinin münaqişənin həlli ilə bağlı göstərdikləri təşəbbüslər nəticəsiz qalmaqdadır. Əslində bu təşəbbüslərin nəticəsiz qalmasının da əsl səbəbi Qərb dövlətlərinin münaqişənin həlli ilə bağlı yeritdikləri siyasətin onların "münaqişənin həlli mexanizmləri"nin icrası ilə deyil, "münaqişənin idarə edilməsi" ilə məşğul olmalarından qaynaqlanır. Şübhəsiz ki, ortada ciddi səbəblər var və bu məqalədə həmin səbəblərə aydınlıq gətirməyə çalışacağıq.

Son zamanlarda elmi dairələrdə daha çox müzakirə olunan məsələ dünyada baş verən bir çox münaqişə və qarşıdurmaların başlıca səbəbinin sivilizasiyaların toqquşması ilə əlaqələndirilməsidir. Bu düşüncənin qeyri-real olduğunu iddia edənlər də ola bilər və şübhə yoxdur ki, mövcuddur. Lakin tarixi faktlara və analitik təhlillərə əsaslanaraq Ermənistan-Azərbaycan münaqişəsinin Qərb və Türk sivilizasiyalarının toqquşmasından qaynaqlandığını sübut etmək mümkündür. Həmin təhlillər əsasında ortaya çıxan məqam bundan ibarətdir ki, Qərb dövlətlərinin münaqişəyə dair mövqeyi və ikili standartlar siyasəti həmin sivilizasiyaların toqquşması ilə birbaşa bağlantılıdır.

Tarixi proseslərin təhlilinə əsaslanaraq milli, dini, psixoloji baxımdan Qərb sivilizasiyası ilə Türk sivilizasiyası arasındakı münasibətlərin hansı səviyyədə olduğunu müəyyənləşdirmək mümkündür. Bu bir həqiqətdir ki, Qərb ilə Türk sivilizasiyaları arasındakı münasibətlər tarix boyu həmişə gərgin və münaqişəli olmuşdur. Uzun illər Qərb dünyasında mövcud olan milli və dini əsasa söykənən **"səlib yürüşləri"** zehniyyəti halhazırda fərqli adlar altında formalaşır. Qeyd etmək lazımdır ki, bu zehniyyət yalnız İslama qarşı deyil, daha dəqiq bir ifadə ilə, İslamı özündə bütünləşdirən və tamamlayan Türk sivilizasiyasına qarşı yönəldilmişdir ki, bunun da əsaslı səbəbləri vardır. Qərbdə türklərə qarşı nifrət hissinin güclənməsində keçmişdən miras qalan milli, dini və psixoloji amillər əsas rol oynayır. Heç təsadüfi deyildir ki, erməni məsələsi də Qərb və Türk sivilizasiyaları arasındakı toqquşmanın törəməsi kimi ortaya çıxmışdır. Hər iki sivilizasiya arasında keçmişdən günümüzə qədər davam edən toqquşma bilavasitə Ermənistan-Azərbaycan münaqişəsinə də öz təsirini göstərmiş, nəticədə Türk-İslam sivilizasiyasının daşıyıcılarından biri kimi Azərbaycan bundan ciddi yaralar alaraq təhdid altında olan ölkələr sırasına daxil olmuşdur.

Bu sahəni tədqiq edən Qərb sivilizoloqları və analitikləri sivilizasiyaları təsniflərdirərkən heç bir halda Türk sivilizasiyasını ayrıca bir sivilizasiya olaraq nəzərdən keçirməmişlər. Nə Samuel Hantinqtonun, nə Arnold Toynbinin, nə Frensis Fukuyamanın, nə Harald Müllerin, nə də başqalarının əsərlərində və ifadələrində Türk sivilizasiyası anlayışına müstəqil bir sivilizasiya növü kimi rast gəlinmir. Türk sivilizasiyası İslam sivilizasiyasının bir parçası, ən yaxşı halda isə onun subsivilizasiyası olaraq qəbul edilib göstərilməkdədir. Təbii ki, İslam sivilizasiyası Türk sivilizasiyası üçün başlıca xüsusiyyətlərdən biridir. İslami dəyərləri özündə ehtiva etməsinə baxmayaraq, Türk sivilizasiyasına Ərəb və İran sivilizasiyaları kimi müstəqil bir tip kimi baxılmalıdır. Ərəstü Həbibbəyli, Rahid Ulusel kimi azərbaycanlı tədqiqatçılar Türk sivilizasiyasına tamamilə İslam sivilizasiyası daxilində baxılması məsələsinin yanlış olduğunu qeyd edirlər [6, s. 38; 10, s. 15].

Olduqca doğru bir mövqe! Çünki məsələyə bu aspektdən yanaşılsa, türklərin is-

lamaqədərki ən azı minillik inkişaf tarixi nəzərdən qaçırılmış olar. Türklərin İslamı qəbul etdikdən sonrakı dövrlərdə Qərb ilə Türk sivilizasiyaları arasındakı münasibətlər Xristian-İslam kontekstində inkişaf etmişdir. Günümüzdə Qərb sivilizasiyası deyildiyi zaman ilk növbədə xristian dünyası başa düşülür. Türklər də İslamı qəbul etdikdən sonra bu dinin əsas dayağı olmuş və İslamın yayılmasında müstəsna rol oynamışlar. Daha dəqiq bir ifadə ilə, İslam məhz türklərin sayəsində öz ehtişamını və gücünü qoruyub saxlamışdır.

Qərb və Türk sivilizasiyaları arasındakı münasibətlər tarix boyu həmişə gərgin və münaqişəli olmuşdur. Bu münaqişə günümüzdə də davam edir. Məşhur türk tədqiqatçısı Mətin Aydoğan haqlı olaraq göstərir ki, Qərbdə antitürk bir düşüncənin yaygın olduğu həqiqətdir və bu düşüncə artıq tarixi ənənəyə çevrilmişdir. Türklərin Qərblə münasibətləri 1600 illik müharibə və münaqişələrlə dolu bir keçmişə sahibdir. Orta Asiyadan gələn şimallı Hun axınçıları Qərbi Roma imperiyasının süqutuna səbəb olaraq kölə hegemonluğuna əsaslanan İlk Çağı sona çatdırdılar və Orta Əsrlər dövrünü başladılar. Fateh Sultan Mehmet isə Şərqi Roma imperiyasının (Bizansın) varlığına son verərək çözülməyə başlayan və qul hegemonluğuna əsaslanan Orta əsrlərin çöküşünü sürətləndirdi və Yeni dövr dönəmini başlatdı. Türklər Qərbi Roma imperiyasının süqutundan 1699-cu il Karlovitsa müqaviləsinə qədər tam 1300 il Qərb üzərində qəti üstünlüyünü qoruyub saxladı. Avropalıların xristianlıq uğrunda təşkil etdikləri 8 xaçlı səfərinin hamısına türklər sinə gərdi və onları ağır məğlubiyyətə uğratdılar [1, s. 181-182].

Xaçlı səfərlərinin hansı sivilizasiyaların daşıyıcılarına qarşı yönəlməsi ilə bağlı ortaya belə bir sual çıxır: bu səfərlərin qarşısında Türk, yoxsa Ərəb sivilizasiyasının təmsilçiləri dayanmışdılar?

Türk tədqiqatçıları Əli Çimen və Göknur Göğebakanın bu məsələ ilə bağlı fikirləri çox qətidir: *"Səlib yürüşlərini təşkil edənlər uzaq diyarlardan gələn qərblilər idi, lakin bu səfərlərə qarşı əvvəlcədən mübariz aparanlar isə türklər olmuşlar. Səlibçilərin 200 ilə yaxın davam edən hakimiyyətlərinə son verənlər də türklər idilər. Bu mübarizə Şərq ilə Qərb arasındakı körpü vəziyyətindəki Anadolu üzərindən gerçəkləşmiş, bölgədəki iqtidar boşluğunu doldurmaq yarışı türklər ilə German-Latın toqquşmasına səbəb olmuşdu"* [3, s. 111].

Tarixi proseslərin təhlilinə əsaslanaraq qeyd etmək mümkündür ki, səlib müharibələri ümumilikdə Qərbin qeyri-xristianlara qarşı yürüşləri olsa da, konkret olaraq məhz xristian Latın-Germanların müsəlman türklərlə toqquşmasıdır. Bu, daha çox üzərində durduğumuz bir iddiadır. Çünki bütün səlib yürüşlərində Qərbin qarşısına çıxanlar hər zaman türklər olmuşlar.

Beləliklə, qəti olaraq demək mümkündür ki, səlib yürüşləri Qərb sivilizasiyasının Türk sivilizasiyasına qarşı mübarizəsi, daha dəqiq bir ifadə ilə, müharibəsi olmuşdur. Türk sivilizasiya daşıyıcılarından tarixdə ən uzunömürlü dövlət olan Osmanlı (1299-1922) dövründə də Türk-Qərb münasibətləri İslam-Xristian qarşıdurması kontekstində davam etmişdir. Artıq XIV əsrdən Osmanlıların Avropa dövlətləri ilə müharibəsində Qərb təmsilçiləri "xaçlı birliyi"ni yaratmışdılar. Türklərin Anadoludan Avropaya hücumunun qarşısında uzun müddət Konstantinopol (İstanbul) dayanmışdır. Sultan Bəyazidin dövründə 1396-cı ildə bütün cəhdlərə baxmayaraq, İstanbul fəth oluna bilməmişdi. Lakin 1453-cü ildə Fateh Sultan Mehmet tərəfindən İstanbul fəth edilmiş və bununla da Türk sivilizasiya tarixində ən böyük hadisələrdən biri baş vermişdir. Zaman-zaman fəthlər genişlənmiş, xüsusilə Sultan Süleymanın dövründə Macarıstanadək ərazilər işğal olunmuş, hətta Vyana mühasirəyə alınmışdı, lakin sonralar Osmanlı ordusu əksər işğal etdiyi ərazilərdən çıxarılmış, amma İstanbul əldən verilməmişdir [6, s. 132-133]. Vyana

mühasirəsinin Türk-Qərb sivilizasiyaları arasındakı münasibətlərdə tarixi rolu ilə bağlı Prof. Dr. Əhməd Davudoğlu qeyd edir ki, Vyana mühasirəsi Avropa üçün bir dönüş nöqtəsi olmuşdur və Osmanlı qarşısında yaradılan koalisiya ilk avropalılıq şüuru və fikrinin yaranmasında mühüm rol oynamışdır [4, s. 66].

Məhz bu baxımdan qeyd etmək lazımdır ki, Qərb sivilizasiyası türklərin bu zəfər yürüşünü heç zaman unutmamış və onların gözündə müsəlman türk dövləti o zamanlardan bəri ən böyük rəqib və hətta düşmən olmuşdur. Hal-hazırda İslamla birlikdə Türk sivilizasiyasına qarşı səlib zehniyyətinin formalaşması göründüyü kimi, heç də təsadüfi deyildir. Hələ Orta Əsrlər dövründə avropalı hökmdarların, ümumiyyətlə, bütün Avropanın nəzərində **"Tanrının qırmancı"** *(Scorge of God)* kimi qəbul edilən türklər Qərbin şüuraltında insan kimi deyil, vəhşi varlıqlar, hər cür qəddarlığı və amansızlığı törədə biləcək məxluqlar olaraq tanınırdılar [9, s. 103-104].

XIX əsrin sonlarında Böyük Britaniyanın Baş naziri Qladstonun türklər haqqında dediyi sözlərə nəzər salaq: *"...Türk millətı nə idi və hal-hazırda nədir? Bu, sadəcə İslam problemi deyil, İslamın bir millətə xas xarakteri ilə birləşməsi, bütünləşməsidir. Türklər Avropaya ayaq basdığı o ilk qara gündən indiyə qədər başarıyyətin ən böyük insanlıqdan uzaq növünü təşkil ediblər. Haraya getdilərsə, arxalarında geniş qanlı yol qoydular və onların hökmranlığının qurulduğu yerlərdə mədəniyyət yox oldu. Başarıyyətin insanlıqdan uzaq yeganə məxluqu məhz türklərdir..."* [1, s. 185; 8, s. 79].

1919-cu ildə də Böyük Britaniyanın Baş naziri Lloyd Corc isə belə deyirdi: *"...barbar və talançı bir millət olan türklər başarıyyətin yoluxduğu xərçəng xəstəliyidir. Onlar idarə etdikləri torpaqların ətinə keçmiş bir yaradır..."* [1, s. 185].

Yaddaşlarda kök salmış bu cür mifik düşüncələrin və zehniyyətin, keçmişdəki hadisələrin nəticəsidir ki, Qərbdə türklərə qarşı həm qorxu, həm də nifrət psixologiyası bu gün də hakimdir. Belə bir zehniyyəti Avropa İttifaqına da şamil etmək olar və deyilənləri bir daha əsaslandırmaq üçün Avropa İttifaqının yeritdiyi siyasətə və bu qurum haqqında söylənən fikirlərə nəzər salmaq kifayətdir. Hələ 27 may 1999 tarixində Parisdə keçirilən "Avropa Solu" zirvəsində toplantının "memarı" və Fransanın sabiq Mədəniyyət naziri Cek Lanq deyirdi ki, Avropa İttifaqı sadəcə iqtisadi maraqlar və nizamlamalardan ibarət deyil. Demokratiyaya və bəşəriyyətə verdiyimiz dəyərləri yalnız sərhədlərimizin daxilində deyil, hüdudlarımızdan kənarda da müdafiə edəcəyik.... Bizim bu mübarizəmizin qarşısını heç kəs ala bilməz... [1, s. 118].

Bu ifadələr hər nə qədər xoş səslənsə də, Avropa İttifaqının günümüzdə izlədiyi xətt real görünmür. Bu ittifaq iqtisadi, siyasi və sosial birlik modeli ilə yanaşı, eyni zamanda dini təməllərə də söykənir. Alman Xristian Demokrat Birliyinin sədri G.Şebl "bu xristian birliyində heç bir müsəlman ölkənin yer almayacağı"nı xüsusilə vurğulayırdı [1, s. 349].

Katolik kilsəsinə bağlı italyan yepiskoplarının mətbuat orqanı olan "L'Avvanire" qəzetinin 3 yanvar 2000-ci il tarixli sayında müsəlman Türkiyənin Avropa İttifaqına üzvlüyü barəsində aşağıdakı qeydlər yer alır: *"Müsəlman Türkiyənin Avropa İttifaqına daxil olması bizim kimliyimizə kölgə sala bilər. Bu üzvlük birlikdə inkişaf edən xristian ənənələri əsasında formalaşan Avropa mədəniyyətlərinin təməlindəki ittifaqları sarsıdar. Unudulmamalıdır ki, "avropalı fikri" birbaşa "düşmən türklərə" və bütövlükdə Türk-İslam sivilizasiyasına qarşı formalaşıb"* [2].

Məşhur alman alimi Fritz Numark bütün Avropanın və avropalıların türklərə və İslama qarşı münasibətini bu şəkildə açıqlayırdı: *"Səmimiyyətlə etiraf etməliyik ki, avropalılar türkləri sevməz, hətta sevməsi mümkün deyil. Türk və İslam düşmənçiliyi yüz illərdir ki, xristianların və kilsənin damarlarına və hüceyrələrinə hopmuşdur. Avropalılar*

türkləri müsəlman olduqları üçün sevməzlər. Türkiyədəki dünyəvilik bir tərəfə dursun, hətta Türkiyə xristian bir ölkə olsa belə onlara yenə düşmən gözüylə baxarlar" [1, s. 182].

Bu baxımdan məsələyə milli və dini olmaqla iki aspektdən yanaşmaq lazım gəlir. "Avropalı fikrinin düşmən türklərə qarşı formalaşması" məntiqindən yola çıxsaq görərik ki, Qərbdə həqiqətən də sırf milli baxımdan antitürk bir düşüncə və nifrət psixologiyası hakimdir. Bu da keçmişdən miras qalan hadisələrlə əlaqədardır. Digər bir tərəfdən, dini baxımdan "yüz illərdir ki, İslam düşmənçiliyi xristianların və kilsənin damarlarına və hüceyrələrinə hopmuşdur" kimi fikirlərin səslənməsi də heç də təsadüfi deyil. Bu vəziyyət bilavasitə sivilizasiyaların toqquşmasına rəvac verən əsas amildir. Halbuki Hz. İsa xristianlara hər kəsi, hətta düşmənlərini belə sevməyi əmr etmişdir. İsa peyğəmbərin yüksək əxlaqi fikirlərinə əsaslanan amerikan tədqiqatçısı Maykl Hart Matta İncilindən sitat gətirərək **(5: 43-44)** yazır: *"Hz. İsa bizə bunları əmr etmişdir ki, düşmənlərinizi sevin, sizdən nifrət edənlərə yaxşılıq edin. Pisliyə pisliklə cavab verməyin. Sağ yanağınıza bir sillə atana digər yanağınızı da çevirin. Təəssüflər olsun ki, bu sözlər bizim tərəfimizdən yayğın şəkildə qəbul edilmir. Xristianların əksəriyyəti "düşmənlərinizi sevin" əmrini yaşadığımız real dünyada əsas tutulacaq məntiqli bir yol olaraq deyil, bəlkə də qüsursuz bir dünyada gerçəkləşə biləcək ideya olaraq dəyərləndirir. Biz ümumiyyətlə, bu əmrə riayət etmir və digərlərinin tətbiq etməsini də gözləmirik"* [5, s. 17-18].

"Düşmənlərinizi sevin" məntiqindən məsələyə yanaşsaq, həqiqət budur ki, İslam əhli-kitab ənənəsinə sadiq qalaraq xristianlığa heç vaxt düşmən münasibət göstərməmiş, nəinki xristianlığa, digər dinlərə də həmişə hörmətlə yanaşmış, fərqli dinlərə mənsub olan insanların öz məbədlərində ibadət etmələrinə heç bir qadağa qoymamış, hətta kilsələrin və sinaqoqların inşa və təmir edilmələrinə şərait yaratmışdır. Qeyd etmək lazımdır ki, Türk-İslam sivilizasiyasının daşıyıcısı olan Azərbaycanda da dini tolerantlıq yüksək səviyyədədir. Lakin təəssüflər olsun ki, əsasən Qərb dünyasında və hətta Ermənistanda tolerantlıq məsələsi sual olaraq qalmaqdadır. Bu gün Ermənistanda nəinki tolerantlıq yoxdur, əksinə azərbaycanlılara məxsus Türk-İslam abidələri və məzarlıqları dağıdılmışdır.

Ümumiyyətlə, gətirilən bu kimi faktlar adi bir qəzet xəbəri və ya analizlər deyil, Qərb dövlətlərinin siyasətinin başlıca meyarlarıdır. Günümüzdə İslama və Türk sivilizasiyasına qarşı aparılan siyasət Yeni Dünya Nizamının və sivilizasiyaların toqquşmasının əsas nəticələridir. Dünyanın aparıcı dövlətlərinin, xüsusilə Qərbin müzakirə obyektinə çevrilən erməni məsələsi, soyqırımı iddiaları, Ermənistan-Azərbaycan münaqişəsində müxtəlif beynəlxalq qurumların, o cümlədən ATƏT-in Minsk Qrupunun qətiyyətsizliyi, bu münaqişədə Qərb dövlətlərinin ikili standartlardan çıxış etmələri və digər məsələlər məhz bu aspektdə dəyərləndirilməlidir.

Məşhur sivilizoloq alim Samuel Hantinqtonun *"Sivilizasiyaların toqquşması və dünya nizamının yenidən qurulması"* adlı kitabı nəşr edildikdən sonra müəllifin "ortaya çıxmaqda olan qlobal siyasətin başlıca və ən təhlükəli miqyasının fərqli sivilizasiyaların daşıyıcıları arasındakı münaqişələr olacağı" ilə bağlı düşüncəsindən sonra insanlar son dərəcə təəccübləndiyi və qorxmuşlar. Hantinqtonun fikirləri olduqca fərqli bir şəkildə qəbul olunmaqda və analitiklər tərəfindən həddən artıq tənqid edilməkdədir. **"Sivilizasiyaların toqquşması"** ifadəsinin insanları qorxutduğu danılmaz bir həqiqətdir. Lakin Hantinqtonun bu iddiası fikrimizcə, o qədər də yanlış deyil. Təbii ki, bu bizim subyektiv fikrimizdir. Bu gün qlobal siyasətdə başlıca yeri sivilizasiyalararası münasibətlər tutur. Digər sivilizasiyalar bir tərəfə, Qərb sivilizasiyası ilə Türk-İslam sivilizasiyaları arasında qarşıdurmanın cərəyan etdiyi bir reallıqdır.

Samuel Hantinqton qeyd edir ki, fərqli sivilizasiyaların daşıyıcıları arasındakı münasibətlər, əgər belə demək mümkündürsə, heç vaxt yaxın olmayacaq və ümumiyyətlə, soyuq və düşmən olaraq qalacaqdır [7, s. 305].

Müəllif eyni zamanda sivilizasiyalararası münaqişəni 1) lokal və ya mikro səviyyə, 2) qlobal və ya makro səviyyə olmaqla iki fərqli formada izah edərək yazır ki, lokal və ya mikro səviyyədə olan münaqişələr fərqli sivilizasiyalara mənsub olan qonşu dövlətlər və həmçinin bir dövlətin içində fərqli sivilizasiyaların daşıyıcıları arasında baş verir ki, belə münaqişələr xüsusilə müsəlmanlar və qeyri-müsəlmanlar arasında yayğındır. Qlobal və ya makro səviyyədə olan münaqişələr isə fərqli sivilizasiyaların böyük dövlətləri arasında baş verir [7, s. 306].

Fərqli sivilizasiyaların böyük dövlətləri arasında baş verən, yəni qlobal və ya makro səviyyəli münaqişələrin öz növbəsində fərqli sivilizasiyaların daşıyıcıları olan qonşu dövlətlər arasında yaranan, yəni lokal və ya mikro səviyyəli münaqişələr üzərində təsiri isə inkaredilməzdir. Bu münaqişələrdəki düyünlər beynəlxalq siyasətin klassik problemlərindəndir. Şübhəsiz ki, bu məsələlər tarix boyunca dövlətlər və millətlər arasında cərəyan etmiş münaqişələrin qaynağıdır. Fərqli sivilizasiyalara mənsub qonşu dövlətlər arasında baş verən münaqişələr eyni zamanda sivilizasiyalar arasındakı qlobal güc balansında yaranan dəyişikliklər səbəbi ilə də ortaya çıxa bilər. Ermənistan-Azərbaycan münaqişəsi də sivilizasiyalararası toqquşmanın, daha doğrusu Qərb-Türk sivilizasiyaları arasındakı toqquşmanın potensial qaynaqlarından biridir.

Samuel Hantinqton digər bir yerdə də göstərir ki, İslam İslam olaraq, Qərb də Qərb *(xristian)* olaraq qaldığı müddət içərisində iki böyük sivilizasiya arasındakı qarşıdurma ötən 14 əsrdə olduğu kimi, gələcəkdə də davam edəcəkdir [7, s. 312-313].

Müəllifin dediklərindən yola çıxsaq, belə bir məqamla qarşılaşarıq: hər iki böyük sivilizasiya arasında ziddiyyət davam edərsə, fərqli sivilizasiyaların daşıyıcıları olan Ermənistan ilə Azərbaycan arasında da münaqişə davam edəcəkdir. Əgər Ermənistan və Azərbaycan kimi, yer üzündə mövcud olan digər dövlətlər, daha doğrusu fərqli sivilizasiyaların və dinlərin mənsubları olan xalqlar arasında münaqişələr davam edərsə, belə bir vəziyyətdə hansı nizamlayıcı dialoqdan söhbət gedə bilər?

Samuel Hantinqtonun sivilizasiyaların təsnifatına dair mülahizələrindən aydın olur ki, o, ümumiyyətlə, əsas faktor kimi din amilinə üstünlük verir. Doğrudur, dinləri sivilizasiyaların məhsulu kimi qəbul etmək olar və sivilizasiyalararası münasibətlərdə başlıca rol oynadığı danılmaz həqiqətdir. Lakin sivilizasiyaların əsasında dayanan faktorlar arasında milli amilin yeri xüsusilə birinci olaraq qeyd edilməlidir. Qərb və Türk sivilizasiyaları arasındakı münasibətlərdə məhz milli və dini amillər əsas rol oynayır. Bu prizmadan məsələyə yanaşılsa, aydın görünər ki, Qərb dövlətlərinin istər qlobal səviyyədə diqqət çəkən erməni məsələsində, istərsə də Ermənistan-Azərbaycan münaqişəsində tutduğu ikili mövqe Qərb ilə Türk sivilizasiyaları arasındakı toqquşmadan qaynaqlanır. Ermənilər də öz növbəsində Qərbin türk düşmənçiliyindən yararlanmağa çalışaraq öz iddialarını dini, siyasi müstəviyə oturdurlar. Onlar "yer üzünün ilk xristian milləti" kimi gülünc iddialarla dünya ictimaiyyətinin beynini qarışdıraraq, Azərbaycanın tarixi ərazilərindəki dini abidələri erməni abidələri şəklində tanıtdırmaqda və tarixi həqiqətləri saxtalaşdırmaqdadırlar. Bu cür iddialar ermənilərin Azərbaycan torpaqları üzərindəki ekspansionist əməllərinə vasitə xarakteri daşıyır. Şübhəsiz ki, ortada dini təəssübkeşlik də olduğuna görə, Azərbaycan üzərindəki beynəlxalq təzyiqlər də artmaqdadır.

Qənaətimizcə, Ermənistanın Qərb dünyasında dəstəklənməsi və xristian təəssübkeşliyi məsələsi ümumi antitürk və antiislam mövqeyi çərçivəsində dəyərləndirilə bilər

ki, bunun səbəblərini də Qərb sivilizasiyası ilə Türk sivilizasiyası arasındakı toqquşmada axtarmaq lazımdır.

Ermənistan-Azərbaycan münaqişəsində Qərb dövlətlərinin ikili standartlar mövqeyindən çıxış etmələrinin səbəbini də məhz bu amillərdə axtarmaq lazımdır. Düzdür, keçmişdən miras qalan milli düşmənçilik hissləri Azərbaycandan daha çox Türkiyəyə şamil olunur. Lakin ortada qlobal erməni məsələsi olunca, bu amil dolayı olaraq öz növbəsində Azərbaycana da təsir edir. Bir tərəfdən Azərbaycan Türk və İslam dünyasının bir parçasıdır, digər tərəfdən də müharibə Qərbin maraqlarına cavab verən Ermənistanla aparılır. Məhz bu baxımdan Ermənistan-Azərbaycan münaqişəsində əsas diqqət və dəstək Ermənistana verilir. Azərbaycanın cəlb olunduğu münaqişə lokal Ermənistan-Azərbaycan münaqişəsi çərçivəsində deyil, qlobal erməni məsələsi çərçivəsində diqqəti cəlb edir. Əslində bu, keçmişdən miras qalan Qərb-Türk sivilizasiyaları arasındakı qarşıdurmanın əsas tərkib hissəsidir. Burada Ermənistan Qərb dövlətlərinin maraqlarının icraçısı, Azərbaycan isə əsas məqsəd, yəni onların maraqlarının gerçəkləşməsi yolunda kiçik bir maneədir. Əgər münaqişədə Azərbaycan lehinə qərarlar qəbul edilərsə və ya Ermənistana təzyiqlər göstərilərsə, o zaman "erməni kartı" qismən də olsa zəifləyə bilər. Yəni din amili sırf xristian ermənilərə göstərilən rəğbətdən deyil, türklərə qarşı, Türk sivilizasiyasına qarşı milli və dini əsası olan zehniyyətdən qaynaqlanır.

ƏDƏBİYYAT

1. Aydoğan M. Bitmeyen oyun: Türkiye'yi bekleyen tehlikeler. İstanbul: Kumsaati yayınları, 2003, 422 s.
2. Cerrahoğlu N. Kilise Türkiye'nin AB adaylığına karşı. "Milliyet" gazetesi, 2000, 10 Ocak.
3. Çimen A., Göğebakan G. Tarihi değiştiren savaşlar. İstanbul: Timaş yayınları, 2009, 432 s.
4. Davutoğlu A. Stratejik derinlik: Türkiye'nin uluslararası konumu. İstanbul: Küre yayınları, 2010, 584 s.
5. Hart M.H. En etkin 100. İstanbul: Sabah kitapları, 1995, 489 s.
6. Həbibbəyli Ə. Sivilizasiyaların kəsişməsində türk dünyası. Bakı: Elm və təhsil, 2011, 256 s.
7. Huntington S.P. Medeniyetler çatışması ve dünya düzeninin yeniden kurulması. İstanbul: Okuyan Us yayınları, 2005, 536 s.
8. Laçıner S., Bal İ. İngiltere ermenileri, lobicilik ve ermeni sorunu // Ermeni Araştırmaları Dergisi, 2002, sayı: 7, s. 71-124.
9. Laçıner S. Ermeni iddiaları ve terör / Ermeni sorunu el kitabı. Ankara: Ankara Üniversitesi basımevi, 2003, s. 95-122.
10. Ulusel R.S. Qloballaşma və Türk sivilizasiyası. Bakı: Çaşıoğlu, 2005, 152 s.

Эмин Шихалиев

СУЩНОСТЬ ПОЛИТИКИ ДВОЙНЫХ СТАНДАРТОВ ЗАПАДНЫХ ДЕРЖАВ В СВЯЗИ С АРМЯНО-АЗЕРБАЙДЖАНСКИМ КОНФЛИКТОМ

Уже более 30 лет провидимая Арменией агрессивная политика осуществляется на глазах мировой общественности. В результате военной агрессии руководство Армении добилось создания моноэтнического государства. Оккупировало Нагорный Карабах и 7 районов. Все эти территории подверглись этнической чистке со стороны армян. Но ведущие западные державы по-прежнему молчат. Поэтому в статье исследуются причины и темные аспекты политики двойных стандартов, проводимой западными державами, неэффективная роль этих держав, как главных посредников в армяно-азербайджанском конфликте. Автор видит причину политики двойных стандартов в историческом столкновении западной и тюркско-исламской цивилизаций, продолжавшемся на протяжении столетий.

Ключевые слова: *Армения, Азербайджан, нагорно-карабахский конфликт, западные державы, политика двойных стандартов, столкновение цивилизаций.*

Emin Shikhaliyev

THE ESSENCE OF THE WESTERN POWERS' POLICY OF DOUBLE STANDARDS IN CONNECTION WITH THE ARMENIAN-AZERBAIJANI CONFLICT

For more than 30 years, the aggressive policy pursued by Armenia has been carried out before the eyes of the world community. As a result of military aggression, the Armenian leadership achieved the creation of a mono-ethnic state, occupied Nagorno-Karabakh and 7 districts. All these territories were subjected to ethnic cleansing by the Armenians. But the leading Western powers remain silent. Therefore, the article explores the causes and dark aspects of the double standards policy pursued by the Western powers, the ineffective role of these powers as the main intermediaries in the Armenian-Azerbaijani conflict. The author sees the reason for the policy of double standards in the historical clash of Western and Turkic-Islamic civilizations, which lasted for centuries.

Keywords: *Armenia, Azerbaijan, Nagorno-Karabakh conflict, Western powers, policy of double standards, clash of civilizations.*

(Akademik İsmayıl Hacıyev tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2018, № 1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2018, № 1

PROCEEDINGS OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES NAKHCHIVAN BRANCH OFFICE
The series of social sciences and humanities, 2018, № 1

MUSA QULİYEV
AMEA Naxçıvan Bölməsi
E-mail: kuliyevm@yandex.ru

NAXÇIVAN XAN SARAYI

Məqalədə Naxçıvanın tarixi abidələrlə zəngin olmasından söhbət açılır. Onlardan biri Naxçıvan xanlarının sarayıdır. Əvvəllər bu saray I Kalbalı xana, sonralar isə onun varislərinə məxsus olmuşdur. Tədqiqatçı ilk dəfə sənədlər əsasında səyyahların Naxçıvan xanlarının saraylarını necə təsvir etmələrindən də ətraflı söhbət açmışdır.

Açar sözlər: *Xan sarayı, I Kalbalı xan, səyyahlar, vadi, Naxçıvan, Sankt-Peterburq, güzgülü salon.*

Azərbaycanın qədim şəhərlərindən biri olan Naxçıvan öz tarixi abidələri ilə məşhurdur. Həmin abidələrdən biri də Naxçıvan şəhərinin Xan dikində yerləşən Xan Sarayıdır. Naxçıvan xanı I Kalbalı xan Kəngərliyə və onun varislərinə məxsus olan bu saray Azərbaycanın orta əsrlər türk-islam memarlığının nadir incilərindən biridir. Xüsusi qaydada inşa edilən və xalq tətbiqi sənətinin bir çox növlərinin birləşdiyi Xan Sarayı orijinal memarlıq üslubu ilə seçilir. Araşdırmaların nəticəsi olaraq demək olar ki, saray 1785-ci ildə inşa edilmişdir. Qeyd edək ki, Naxçıvan xanlığının əsasını qoyan Heydərqulu xan və onun varisləri yaşayan saray kompleksi Xan dikinin şimal-şərqindəki ərazidə yerləşirdi.

Sonuncu Naxçıvan xanı Kərim xan Abbasqulu xan oğlu Kəngərlinin mülkü isə I Kalbalı xanın sarayının yanında idi. 1830-cu illərə aid litoqrafik şəkillərdə həmin mülkün də təsviri vardır [3, s. 71].

Naxçıvan şəhəri Şərq və Yaxın Şərq ölkələrinə gedən yolların üzərində yerləşdiyindən səyyahların və diplomatik heyətlərin diqqətini cəlb etmiş, onlar yazdıqları əsərlərdə bu saray haqqında məlumat vermişlər.

I Kalbalı xanın tikdirdiyi Xan Sarayı haqqında məlumatlar XIX yüzilliklə Naxçıvanda olmuş hərbi şərqşünasların, diplomatların yazdıqları kitablarda, gündəliklərdə, memuarlarda öz əksini tapmışdır.

İsveçrəli səyyah Dyubua de Monpere öz dövrünün məşhur geoloqu, təbiətşünası və arxeoloqu olmuşdur. O, 1834-cü ildə Naxçıvanda olmuş və tədqiqatlar aparmışdır. 1839-1844-cü ildən başlayaraq isə Parisdə "Qafqaz ətrafında səyahət" adlı 6 cildlik əsərini yazaraq nəşr etdirmişdir.

Azərbaycan memarlığının şah əsərləri olan Naxçıvan abidələrinə yüksək qiymət verən Dyubua de Monpere yazırdı: "Bu qədim abidələr arasında Naxçıvanın indiki hakimi Ehsan xan özünün İran dəbinə uyğun bir neçə həyət və xeyli bəzədilmiş zəngin otaqlardan ibarət sarayını tikdirmişdir" [5, s. 95].

Naxçıvana gələn de Monpere də yanlış olaraq sarayın I Ehsan xan tərəfindən inşa etdirildiyini yazmışdır. Elə bu səbəbdən biz bir qədər geriyə qayıdaraq XIX əsrin əvvəllərində yazılmış bir tarixi sənəddə əks olunanları nəzərdən keçirək. Rus ordusunun mayoru Matuşeviç Artikdən Təbrizədək olan yolların təsvirini verərkən yazır ki, Xan Sarayı Naxçıvan qalasının iç qalasında yerləşir. İç qalanın ətrafında qüllələrin də olduğunu qeyd edən hərbçi Xan Sarayını dövrələyən hasarın o qədər də möhkəm olmadığını diqqətə çatdırır. Mayor Matuşeviç qalanın dik sıldırımın üzərində tikildiyini müdafiə baxımından əlverişli olduğunu da yazır. Onun hərbi mühəndisə məxsus qeydləri 10 sentyabr 1806-cı ilə aiddir [4, s. 371-372]. Ehtimal edirik ki, o, həmin illərdə Naxçıvan qalasının və onun iç qalasında tikilən Xan Sarayının planını da tərtib etmişdir.

Həmin vaxt I Kalbalı xan sağ idi, Naxçıvana hakimlik edirdi. Oğlanları da onun sarayında yaşayırdılar. Bu qalanın təsviri Kəngərli xanlarının nəslinin gerbində əks olunmuşdur. Bir çox xroniki təsvirlərdə qeyd edilib ki, I Kalbalı xanın süvari qoşunları qalanın yerləşdiyi uçurumun aşağısındakı düzənlikdə düşmən qoşunları ilə vuruşub onları məğlub etmişlər [3, s. 20]. Naxçıvanın Xan Sarayındakı böyük salonda Rusiya elçiliyini təntənəli rəsmi şəkildə qəbul edən I Kalbalı xan haqqında həmin missiyada olan rus hərbçiləri də yazmışlar. Bunlardan N.N.Muravyovu, A.F.Neqrini və digərlərini qeyd etmək olar. Söhbət 1817-ci ilin mayında İrana gedən Rusiya diplomatik heyətinin üzvlərindən gedir. Bu elçilik missiyasına general A.P.Yermolov başçılıq edirdi.

Çox təəssüflər ki, I Kalbalı xanın dövrünü yaxşı öyrənməyən yazıçılar bədii əsərlərində rəsmi görüşlərin guya çadırda (alaçıqda) aparıldığını yazırlar. Qətiyyən doğru deyil. I Kalbalı xan intizamlı sərkərdə və dövlət xadimi idi. Əla döyüş qabiliyyəti və naxçıvanlılara məxsus yüksək zövqü vardı. Başqa dövlətlərin rəsmi nümayəndələrini necə qarşılayırsa, sənədlərdə yazılıb və şükürlər olsun ki, hələ yazılanlar qalır [1, s. 108-112].

Məqamındaca qeyd edək ki, əslən yunan olan Aleksandr Neqri (1784-1854) maraqlı məlumatlarla zəngin olan gündəlik yazmışdır. O, 1818-ci ildən 1837-ci ilədək bütün hərbi əməliyyatlarda (Naxçıvan-İrəvan və Türkiyədə) iştirak etmiş və bu iştirakın gündəliyini tutmuşdur.

XIX əsrdə rus etnoqrafı, şərqşünası N.V.Xanıkov, Qrant qardaşları, rus diplomatı A.Qriboyedov və qəza dövründə Naxçıvanda müəllim işləyən K.A.Nikitin, hərbçi şərqşünas İ.Şopen və digərləri də bu sarayda qonaq olmuşlar. Hətta qraf İ.F.Paskeviç bir müddət burada yaşamışdır. Təəssüflər olsun ki, XX yüzilliyin ortalarında bu nadir memarlıq abidəsi, taleyüklü tarixi hadisələrin şahidi olan Xan Sarayı haqqında elmi tədqiqatlar aparılmamış, hətta saray müəyyən qədər dağıntılara məruz qalmışdır. Ona görə də sonralar tariximəzin xanlıqlar dövründə olan səhifələrini araşdırmaqda müəyyən çətinliklər yaranır.

XX əsrin əvvəllərində Naxçıvana gələn italyan tarixçisi, diplomatı və səyyahı Villari Luici 1905-ci ilin yayının son aylarında və payızın əvvəllərində Naxçıvanda olarkən erməni-müsəlman toqquşmalarının nəticəsində şəhərin dağıntılarını da görmüş və bu vəziyyət 29 yaşlı gəncdə kədərli təəssürat yaratmışdı. Sonralar o, "Rusiya böyük çevrilişdən sonra. Qafqazda od və qılınc" adlı kitabda yol qeydlərini nəşr etdirmişdir. Tarixçi səyyah bu əsərdə Naxçıvandakı Xan Sarayı haqqında da yazmışdır: "Mən əvvəlcə Rəhim xanla görüşdüm...

Onun evi, sözsüz ki, Naxçıvanda ən gözəldir. Əgər bu saray ən sivilizasiyalı şəhərdə olsaydı, yenə də belə möhtəşəm olacaqdı. Saray şəhərin kənarındakı qayanın yanında yerləşir. Buradan geniş Araz vadisinə eniş yol başlanır. Həyətdəki bağ çox sıx deyil. Yəqin ki, iqlim imkan vermir ki, hər növ gül kolları əkilsin. Ancaq evin içərisi tamamilə bərbəzək içindədir. Qonaq otağı (söhbət böyük salondan gedir – müəllif) bahalı Avropa mebelləri ilə doludur, bəzilərini çıxmaqla, mebellərə söz ola bilməz. Bütün

divarlara İran, Türkiyə və Qafqaz xalçaları asılıb. Tavan isə kiçik güzgülərlə bəzədilib. Belə analoji mozaikaları mən İrəvan sərdarının sarayında görmüşəm. Bəzək üçün materiallar hamısı uzaqdan dəmir yolu ilə gətirilib. Hamısı da qiymətinin nə qədər olmasına baxmayaraq, alınıb. Bunlar hamısı ona görədir ki, gələn insanlarda Naxçıvanskilər ailəsinin necə varlı və ləyaqətli olduğu təəssüratını yarada bilsinlər" [3, s. 213-215].

Daha sonra diplomat-səyyah Cəfərqulu xanla öz evində görüşür. Onun da malikanəsini və xanın özünü məhəbbətlə təsvir edir.

Azərbaycanda sovet hökuməti qurulandan sonra – 1926-cı ildə Naxçıvana elmi axtarışlara gələn arxeoloq V.M.Sısoyev "Araz üstdə Naxçıvan" əsərində yazır: "Hazırda (1926-cı il, yay) Atabəy qülləsindən cənub-qərbdə geniş bağ və tikililərdən sonra böyük ikimərtəbəli ev – keçmiş Naxçıvan xanlarının sarayı yerləşir. Yəqin ki, bu, həmin saraydır ki, haqqında Dyubua de Monpere söhbət açıb. Güman ki, bu sarayı Naxçıvan xanı Ehsan xan tikdirib (ola bilər ki, yenidən bərpa etdirib?) Yuxarı mərtəbədə bir neçə kiçik otaqlar var, ancaq binada çox böyük salon var. Divarların bir hissəsi güzgülərlə bəzədilib. Bundan əlavə, həm içəri, həm də eşik divarlarda pəncərələrdəki şüşələr rənglidir. İndi bu binada məktəb yerləşir" [5].

Alimin yazdıqlarından məlum olur ki, hələ 1926-cı ilədək Xan Sarayı müəyyən qədər əvvəlki vəziyyətini saxlayıbmış. Sarayın kim tərəfindən tikdirildiyini bilməyən V.M.Sısoyev ehtimalla yazıb ki, Ehsan xan tikdirib. Əlavə edib ki, bəlkə, o, yenidən bərpa işləri aparıb? Müəllif ikinci fikrində dəqiqdir: 1830-cu ildən sonra I Ehsan xan atasının tikdirdiyi sarayı təmir etdirib, əlavə tikililər tikdirib. 1930-1940-cı illərdə sökülən həmin hissədə onun böyük qardaşı Nəzərəli xan yaşayırdı. I Ehsan xanın böyük oğlu İsmayıl Xan Naxçıvanın mərkəzində – Bazarçayın sahilindəki mülkdə yaşayırdı. Məşhur süvari generalı olandan sonra İsmayıl xan inşa etdirdiyi hamamın yaxınlığındakı mülkün yerində bir saray tikdirib. O sarayın orijinal fotoşəkli bizdədir. I Ehsan xanın vəfatından sonra Naxçıvana qayıdan II Kalbalı xan həmin sarayda yaşayırdı. Onun oğlu Cəfərqulu xan özünə füsunkar bir malikanə tikdirmişdi. İndi o binanın bir hissəsində C.Naxçıvanski adına muzey yerləşir. Sovet hakimiyyəti illərində oranı ambulatoriyaya, sonralar isə şəhər poliklinikasına çevirmişdilər. Xatirimdədir, biz orta məktəbdə oxuyanda hərbi çağırış zamanı bizi oraya tibbi yoxlamaya aparmışdılar. Binaya çox möhkəm inşa edilmiş tağlı yeraltı keçiddən daxil olduq. İkitaylı darvaza qapısı var idi. İndi həmin yeraltı keçiddə mağaza yerləşir.

II Kalbalı xanın digər oğlu Rəhim xan isə Xan Sarayında yaşayırdı. Bu məlumatları bizə Rəhim xanın oğlu İskəndər xanın dostu, sonralar qürbətdə – Moskva ətrafında, bir növ, gizli yaşayan alim Hüseyn Teymurlu (Bənəniyarski) yazıb göndərmişdi (o, 1992-ci ildə vəfat edib). Onun yazdığına görə, 1920-ci ildə rus kazakları bu sarayı kazarmaya çevirmiş və məşhur güzgülü salonu dağıtmışlar. Hüseyn Teymurlu (Bənəniyarski) bütün bu hadisələrin canlı şahidi olmuşdur [6].

Qeyd edək ki, Naxçıvan Xan Sarayı Azərbaycanın memarlıq nümunələrindən ən orijinalıdır. Uçurumun kənarında, qalanın içərisində inşa edilən saraydan Araz çayının sağ və sol vadiləri aydınca görünür. Xan Sarayı I Kalbalı xanın tərəfindən inşa etdirilmiş, sonralar oğlu I Ehsan xan tərəfindən əlavələr olunmaqla təmir olunmuş, dövrünün diqqətçəkən saray binası kimi təkmilləşdirilmişdir. Vaxtı ilə tədqiqatlar aparılmadığından sarayı inşa edən memarın adı məlum deyil. Aparılan araşdırmaların nəticələrinə görə deyə bilərik ki, Xan Sarayının ətrafında digər saraylar da tikilmişdir. Bu tikililər hamısı Saray kompleksini əmələ gətirmişdir.

Naxçıvan Xan sarayının daxili və bədii tərtibatı, xarici quruluşu və məşhur güzgülü salon, həmçinin üçüncü mərtəbədə yerləşən iki yay köşkü vardır (bu köşklər fasad

tərəfdəki girişdəki köşklərə paralel olaraq tikilib). Naxçıvanlı ağsaqqallardan vaxtı ilə eşitdiklərimizdən məlum olur ki, sarayın şimal-qərbində saraya bitişik saray binaları olmuşdur. Sovet hakimiyyəti illərində baxımsızlıq üzündən uçub dağılmışdır.

Böyük salonun tavanının başdan-başa bəzəyə qərq olması səyyahları və rəssamları valeh etmişdir. Saray düzbucaqlı formasında tikilmişdir.

Naxçıvan Xan Sarayı Təbriz və İrəvan memarlıq məktəbinin nümunələri olan xan saraylarına kompozisiya baxımından oxşasa da, tamamilə eyniyyət təşkil etmir. Araşdırmalar göstərir ki, İrəvan Xan Sarayında olan ornamental pannolar, portret təsvirləri və sair Naxçıvan Xan Sarayında olmamışdır. Bəlkə də, bu, Naxçıvan xanlarının süvari döyüşçüləri olması ilə bağlıdır?! Çünki onlar bərbəzəyi çox sevməyiblər.

Xan Sarayında divar rəsmlərinin – portretlərin və dekorativ pannoların olması haqqında məlumatlara rast gəlinmir.

Naxçıvan xanlığında zəngin ədəbi mühit olmuşdur. Həmin yazılı nümunələrin çoxu bolşeviklər tərəfindən məhv edilsə də, bəziləri qonşu dövlətlərin arxivlərində və kitabxanalarında saxlanılır. Xan dikində olan "Cümə" məscidində saxlanılan əlyazmalar yandırılmış, bir qismi isə İrəvandakı erməni əlyazmalar institutuna – Matenadarana və Sankt-Peterburqdakı Rusiya Dövlət Ermitajına, Saltıkov-Şedrin kitabxanasına aparılmışdır.

Bilirik ki, Azərbaycan xanlıqlarında ən zəngin tarixi arxiv Naxçıvan xanlığında olmuşdur. Bu zəngin Kəngərli arxivi Naxçıvan Xan Sarayında saxlanılırmış. Tapılan sənədlərdən məlum olur ki, burada toplanan sənədlər 1500-1828-ci illəri əhatə edir. Xan sarayının qonşuluğunda yaşayan milyonçu Heydər Nəsirbəyovun qızı Fatma xanım bu saray haqqında maraqlı məlumatlar söyləyirdi. Onun dediyinə görə, xanlığa aid sənədlər böyük salonun yaxınlığındakı otaqda saxlanılırdı. Yəqin ki, bura həm də xanlıq münşisinin (katibinin) işlədiyi yer imiş. 1920-ci ildən sonra Kəngərli arxivi Şahbaz ağa tərəfindən qorunmuşdur. Onun mülkündəki (indiki 2 nömrəli məktəbin arxasındakı) zirzəmidə saxlanılan arxivi rus tədqiqatçısı və kəşfiyyatçısı K.N.Smirnov Tiflisə aparmışdır. Onun yazdığı məlumatdan da aydın olur ki, arxiv Şahbaz ağanın atası İsmayıl ağaya məxsus bu mülkdəki zirzəmidə imiş. Naxçıvan xanlarının zəngin Kəngərli arxivinin də taleyi onun bayraqlarının taleyi kimidir. Azərbaycanlı tədqiqatçılardan gizlədilən Kəngərli arxivinin və xanlıq bayraqlarının axtarışındayıq.

Xan Sarayının birinci mərtəbəsində xidmətçilərin yaşadığı otaqlar və divanxana yerləşirmiş. İkinci mərtəbənin birinci girişdən sağda və solda yerləşən otaqlar xan ailəsi üçün, ikinci girişdən sağdakı güzgülü salon isə rəsmi qəbullar üçün istifadə olunurdu. Daxili pilləkənlərlə çıxılan üçüncü mərtəbədəki köşklü otaqlar "qonaq otağı" adlanırdı.

Aparılan araşdırmalar göstərir ki, Naxçıvan xanları Naxçıvan şəhərindəki İmamzadə kompleksində solda olan xüsusi bitişik sərdabədə dəfn olunmuşlar [5, s. 107-108, 125].

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin sədaqətli və uzaqgörən davamçılarından, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və yeni Naxçıvanın qüdrətli qurucusu, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tariximizə göstərdikləri böyük qayğı biz tədqiqatçıları həmişə yeni elmi axtarışlara ruhlandırır. Bu böyük qayğının ən bariz nümunələrindən biri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyinin yaradılması haqqında" 2010-cu il 23 oktyabr tarixli Sərəncamıdır [2].

Keçmiş Naxçıvan xanlarının sarayında fəaliyyətə başlayan muzeyin birinci mərtəbəsində iş otaqları, elmi fond və digər yardımçı sahələr, ikinci və üçüncü mərtəbələrində isə 10 salondan ibarət ekspozisiya – sərgi zalları vardır. Muzeydə qeydə alınan 300-ə yaxın eksponatın 210 ədədi ekspozisiyada nümayiş etdirilir.

Cəsur döyüşçülər olan xan Naxçıvanskilər indi əzəmətli Xan Sarayını ziyarətə gələn tamaşaçılara layiqincə təbliğ olunur. Adlarını öz qəhrəmanlıqları ilə tariximizə yazan xan Naxçıvanskilər bu etimada tam layiqdirlər.

ƏDƏBİYYAT

1. Муравьев Н.Н. Записки // Русский Архив. Москва, 1889, Кн. 3, в. 11, с. 475-483.
2. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun 23 oktyabr 2010-cu il tarixli sərəncamı. "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyinin yaradılması haqqında. "Şərq qapısı" qəz., 26 oktyabr, 2010, № 200.
3. Нагдалиев Ф. Ханы Нахичеванские в Российской Империи. Москва: Новый Аргумент, 2006, 432 с.
4. Присоединение восточной Армении к России. Сбор документов, т. I (1801-1813), Ереван, 1972, 715 с.
5. Сысоев В.М. Нахичевань на Араксе и древности Нах. АССР. Баку, 1926, 316 с.
6. Teymurlu H.H. (Bənənyarski). Naxçıvan xanları haqqında xatirələr (əlyazma) (Mənim şəxsi arxivimdədir). Moskva, 1990, 8 s.

Муса Кулиев

НАХЧЫВАНСКИЙ ХАНСКИЙ ДВОРЕЦ

В статье говорится, что Нахчыван богат историческими памятниками. Один из них – Дворец Нахчыванских ханов, который в свое время принадлежал хану Калбалы I Кенгерли, а в последствии его потомкам. Исследователь впервые на основе документов подробно рассказал о том, как описывали путешественники Дворец Нахчыванских Ханов.

Ключевые слова: *Ханский Дворец, Калбалы хан, путешественники, долина, Нахчыван, Санкт-Петербург, зеркальный салон.*

Musa Kuliyev

THE KHAN PALACE IN NAKHCHIVAN

The paper reports that Nakhchivan is rich in historical monuments. One of them is the Palace of the Nakhchivan Khans. This palace had formerly belonged to Kalbali khan I, then to his successors. Basing on the documents, the investigator has dealt with the travellers who had described the Palaces of the Nakhchivani khans for the first time.

Keywords: *Khan's Palace, Kalbali khan I, travellers, valley, Nakhchivan, Saint Petersburg, mirrored living room.*

(Akademik İsmayıl Hacıyev tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2018, № 1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2018, № 1

PROCEEDINGS OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES NAKHCHIVAN BRANCH OFFICE
The series of social sciences and humanities, 2018, № 1

ELMAN CƏFƏRLİ
Naxçıvan Dövlət Universiteti
E-mail: ecaferli@mail.ru

ALAND ADALARI MUXTARİYYƏTİ: YARANMA TARİXİ VƏ HÜQUQİ STATUSU

Unitar Finlandiya Respublikasının tərkibində olan Aland adaları siyasi muxtariyyətdir. Əhalisinin 95%-i isveçlilərdən ibarət olan adaların hüquqi statusu 1917-ci ildə Finlandiya öz dövlət müstəqilliyinə nail olduqdan sonra həll edilmişdir. 1920-ci ildə Millətlər Cəmiyyətinin qərarı ilə Aland arxipelaqı Finlandiyanın tərkib hissəsi kimi tanınmış, fin dövləti qarşısında adalara muxtariyyət verilməsi tələbi qoyulmuşdur. Finlandiya 1920-ci ildə muxtariyyətin statusu haqqında ilk, 1951-ci ildə isə ikinci aktı qəbul etmişdir. Hazırda Aland adalarının hüquqi statusu 1991-ci ildə qəbul edilmiş "Aland adalarının Muxtariyyət Aktı" ilə tənzimlənir. 6554 adadan ibarət arxipelaq yüksək siyasi muxtariyyət əldə etmişdir. Bu adalardan cəmi 50-si məskunlaşmışdır. Arxipelaq 1856-cı ildən bəri imzalanan bir neçə müqavilədə daim silahsızlaşdırılmış və neytral zona kimi tanınmışdır. Adalarda məskunlaşma hüququ 5 il daimi yaşadıqdan sonra verilir. Burada yeganə rəsmi dil isveç dilidir. Muxtariyyətin özünün bayrağı və poçt markaları vardır. Aland sakinləri hərbi xidmətdən azaddırlar. Muxtariyyətdə yeganə şəhər paytaxt Mariehamn şəhəridir və burada adaların əhalisinin 40%-i yaşayır. Alandın əsas idarəetmə orqanları – Laqtinq (parlament) və Landskapstirelsdir (hökumət). Bundan başqa, Finlandiya Prezidenti tərəfindən təyin edilən Qubernator ölkə hökumətini muxtariyyətdə təmsil edən vəzifəli şəxsdir. Həmçinin muxtariyyətlə dövlətin birgə orqanı olan Aland Heyəti təsis olunmuşdur. Bu özünüidarəetmə sistemi Aland adaları muxtariyyətini bütün dünyada etnosiyasi konfliktlərin uğurlu həll nümunəsinə və optimal siyasi muxtariyyət modelinə çevirmişdir.

Açar sözlər: *unitar dövlət, Finlandiya, İsveç, siyasi muxtariyyət, Aland adaları, Laqtinq, Landskapstirels, Avropa İttifaqı.*

Unitar dövlət olan Finlandiya Respublikasının tərkibində Aland adaları siyasi muxtariyyəti vardır. 6554 adadan ibarət olan bu arxipelaq Baltik dənizindən Botnik körfəzinə girişdə, Finlandiya ilə İsveç arasında yerləşir. Dünyanın ən böyük adalar yığımı olan arxipelaqın cəmi 50 adası məskunlaşmışdır. Alandın ümumi sahəsi 6784 km^2, torpaq sahəsi 1552 km^2-dir ki, bunun da 27 km^2-ini çaylar və göllər təşkil edir. Muxtariyyətin 30 min nəfərlik əhalisinin 95%-dən çoxu isveçlilər, 4%-i isə finlərdir. Arxipelaqın ən böyük adası Alanddır (sahəsi 685 km^2), burada əhalinin 90%-i yaşayır. Muxtariyyət 1954-cü ildən öz bayrağına, 1984-cü ildən isə poçt markalarına malikdir. 2002-ci il yanvarın 1-dən adalarda rəsmi pul vahidi avrodur. 1861-ci ildə salınan, adaların yeganə şəhəri olan paytaxt Mariehamnda əhalinin təxminən 40%-i (11 min nəfər) yaşayır. Qalan əhalinin 15 min nəfərdən çoxu kənd əhalisidir [3, s. 9; 11; 15]. Adaların əhəmiyyətli geostrateji mövqeyi onun tarixini müəyyənləşdirmişdir.

1150-1809-cu illərdə İsveç hakimiyyəti dövründən sonra Finlandiya Rusiya ağalığı (1809-1917) altına keçdi. Son Rusiya-İsveç müharibəsi (1808-1809) nəticəsində Fredrikşamn müqaviləsi (1809) ilə arxipelaq Böyük Finlandiya Knyazlığının tərkibində Rusiyaya birləşdirildi [14]. Krım müharibəsinin (1853-1856) nəticələrinə dair sülh danışıqlarında İsveç Aland məsələsi üzrə üç təklif irəli sürmüşdü: "1) Aland adaları İsveçə birləşdirilir və ya 2) adalar İngiltərə nümunəsində azad dövlətə çevrilir və ya Fransa

nümunəsində İsveç-Norveç müdafiəsi altında olur və 3) arxipelaq demilitarizasiya edilir" [8, s. 467]. Lakin 1856-cı ildə bağlanmış Paris sülh müqaviləsi ilə adalar Rusiyanın tərkibində qaldı və silahsızlaşdırılmış zonaya çevrildi.

Rusiyada 1917-ci il fevral burjua və oktyabr sosialist inqilablarından sonra Finlandiyada siyasi vəziyyət dəyişdi. E.Svinhufvudun başçılığı altında yaradılan hökumət dekabrın 6-da Finlandiya Respublikasının yaradıldığını elan etdi. 1917-ci il dekabrın 31-də Rusiyanın bolşevik hökuməti [7, s. 29], 1918-ci il yanvarın 4-də isə İsveç, Almaniya və Fransa Finlandiyanın müstəqilliyini tanıdı [5, s. 268].

Alandın İsveçə birləşdirilməsi məsələsi Finlandiya müstəqil dövlət olduqdan sonra gündəliyə gəldi və arxipelaq əhalisi birləşmək məqsədi ilə iki dəfə İsveç kralına müraciət ünvanladı [9, s. 4]. Bu məsələ fin dövlətinin qarşısında dayanan ilk təhlükəsizlik problemi oldu. Adalardakı kommunaların nümayəndələrinin Finstrem yığıncağı (1917, 20 avqust) qərara aldı ki, arxipelaqın İsveç Krallığı ilə birləşmək istəyi İsveç hökuməti və parlamentinə çatdırılsın. 1917-ci il dekabrın 31-də adalarda keçirilən plebissitdə iştirak edənlərin 95%-i İsveçlə birləşməyə səs verdi [5, s. 268-269]. İsveç kralı ümidini belə ifadə etdi ki, Finlandiyanın müstəqil dövlət olması Aland məsələsini həll etməyə imkan verəcəkdir. Lakin İsveç adalara ordu göndərdi və buradakı rus qoşunlarını tərksilah etdi. Finlandiya bunu öz daxili işlərinə müdaxilə kimi qiymətləndirdi. İsveç isə öz müqəddəratını təyin etmə prinsipini irəli sürərək adalara tarixi hüquqlarının olduğunu və onun müdafiəsi üçün zərurət yarandığını bildirdi. Fin hökuməti arxipelaqdakı separatçı hərəkatın liderlərini həbs etdi. İsveç isə Alandın hərbisizləşdirilmiş zona olması və arxipelaqa geniş muxtariyyət verilməsi şərti ilə onun Finlandiyanın tərkib hissəsi olması ilə razılaşdı [7, s. 39]. Brest-Litovsk müqaviləsinə uyğun olaraq, rus ordusu Aland adalarından çıxarıldı. Martın 7-də Almaniya ilə Finlandiya arasında bağlanmış Berlin müqaviləsinin 30-cu maddəsi Brest-Litovsk müqaviləsinin 6-cı maddəsinin şərtlərini təkrar etdi [2, s. 69-75].

1919-cu ildə Finlandiya ilk Konstitusiyasını qəbul etdi, bir il sonra isə Millətlər Cəmiyyətinə üzv oldu. 1920-ci ildə Millətlər Cəmiyyətinin qərarı ilə, isveçdilli əhaliyə geniş muxtariyyət verilməsi şərti ilə, arxipelaq Finlandiyanın tərkibinə verildi. Finlandiyanın tərkibində muxtariyyətin yaradılması demokratikləşmə və əksmərkəzləşdirmənin deyil, uzun sürən siyasi prosesin nəticəsi oldu. Adaları itirməmək üçün ona müəyyən səviyyədə muxtariyyət verilməsi təklifini qəbul edən Finlandiya Aland əhalisinə isveç dili, mədəniyyəti və milli adətlərinin qorunması barədə zəmanət verdi. Finlandiya İsveçlə zəmanətin necə həyata keçirilməsi razılığa gəldi (1920, 7 may) və bu barədə müqavilə (1921, 7 iyun) imzaladı [1, s. 189]. Hər iki ölkə Aland adalarının neytrallığını və silahsızlaşdırılmış zona olmasını tanıdı.

Tarix bu qərarın məsələnin ən optimal həlli olduğunu təsdiqlədi. Finlandiya – Aland adaları üzərində suverenlik, alandlılar – özünüidarəetmə, İsveç – adaların özü üçün hərbi təhlükə təşkil etməyəcəyi zəmanətini aldı. Fin hökumətinin alandlıların prerоqativinə hörmət bəsləməsi, ölkənin İsveçlə təxminən bərabər sosial-iqtisadi inkişafı və həyat səviyyəsi, finlərin öz isveçdilli vətəndaşlarına olan hörməti, iki xalq arasında işgüzar münasibətlərdəki təcrübə, isveçlilərin hüquqlarına dair qanunvericiliyin gözlənilməsi millətçi tendensiyaların aradan qalxmasına səbəb oldu [13].

Finlandiyada isveçdilli azlığın sayı təxminən 300 min nəfər olub, əhalinin 5,5-6%-ini təşkil edir. Azlığın dil hüquqları Konstitusiya və 1922-ci ildə qəbul edilmiş dil haqqında qanunla qorunur. İsveç dilində danışanlar əsasən ikidilli bələdiyyələrdə yaşayırlar. Eyni zamanda Ostrobotniya regionunda və ölkənin cənub-qərbində isveç dilində danışanların çoxluq təşkil etdiyi bələdiyyələr də vardır. Bələdiyyə əhalisinin 8%-dən çoxu və

ya 3 min nəfər sakini isveç dilində danışırsa, həmin bələdiyyə ikidilli hesab edilir [4, s. 110]. Ölkənin materik hissəsindəki isveçdilli əhalinin vəziyyəti Alandda yaşayanlardan fərqlənir: adaların əhalisinə hüquqi-sosioloji cəhətdən xüsusi etnik qrup kimi baxılır. Burada danışılan isveç dili standart isveç dilinə çox yaxındır, əhali əsasən monodillidir. Adalarda etnik azlığın dili faktiki olaraq fin dilidir.

Alandlılar ölkə əhalisinin 0,5%-ini təşkil edən milli azlıq sayılır. İlk fin Konstitusiyası qəbul edilərkən Alandın muxtariyyət məsələsi tam həllini tapmamışdı. Məsələ konstitusion səviyyədə ölkənin 1999-cu ildə həll olundu. Arxipelaq Finlandiya Konstitusiyası [12] ilə müəyyən edilən yüksək muxtariyyət əldə etdi: "Aland adalarının ərazisi Aland adalarının muxtariyyəti haqqında xüsusi qanuna müvafiq olaraq muxtariyyətə malikdir". Adaların Laqtinqinin qanunvericilik təşəbbüsü hüququ vardır. Ölkədə fin və isveç dilləri rəsmi dövlət dilləridir. Finlandiya parlamentində (Eduskunt) bütün qanunlar fin və isveç dillərində qəbul və dərc edilir.

Aland adaları ölkə parlamentinə seçkilərdə vahid dairə təşkil edir və muxtariyyəti Eduskuntda həmin dairədən seçilən bir nümayəndə təmsil edir. Finlandiya Prezidenti Dövlət Şurası (ölkə hökuməti) ilə razılaşdırmadan "yerli iqtisadiyyatla bağlı məsələlər də daxil olmaqla, Aland adalarının özünüidarəetməsinə dair" qərarlar qəbul edə bilər. Bu zaman qərarın aid olduğu məsələlər Prezidentə həmin məsələlərin idarəçiliyinə cavabdeh olan nazir tərəfindən məruzə edilir.

Alandın hüquqi statusu 1991-ci il avqustun 16-da qəbul edilən və 1993-cü il yanvarın 1-də qüvvəyə minən, qəbul edildiyi anda 11 fəsil, 79 maddədən ibarət olan "Aland adalarının muxtariyyəti haqqında" Aktla [10] tənzimlənir. Hazırda faktiki 84 maddəsi olan Akta 4 dəfə (1994, dekabr; 1996, iyul; 2000, yanvar; 2004, yanvar) bir sıra dəyişiklik və əlavələr edilmiş, bəzi müddəalar çıxarılmışdır. Adaların bundan əvvəl iki (1920, 1951) belə konstitusion sənədi olmuşdur. Lakin birinci aktı Aland əhalisi qəbul etməmiş, ikinci akt isə 1991-ci ildə yenilənmişdir.

Akt özünüidarəetmə fəaliyyətinin bütün məsələlərini ətraflı nəzərdən keçirir. Onun qəbul edilməsi və ləğvi proseduru Aktın hüquqi təbiətinə görə sadə hüquqi aktdan daha yüksəkdə durduğunu təsdiqləyir. O, yalnız Eduskunt bəyəndiyi halda təfsir edilə, dəyişilə və ya ləğv edilə bilər. Lakin Eduskuntun təsdiqindən Aland parlamentinin – Laqtinqin 2/3 səs çoxluğu ilə müvafiq qərar qəbul etməsi tələb olunur. Beləliklə, Muxtariyyət Aktı adaların konstitusiyası rolunda çıxış edir. Onun qəbulu və ləğvi proseduru maraqların tarazlığı sisteminin mövcud olduğunu göstərir: muxtariyyət öz səlahiyyətlərini ölkə parlamentinin razılığı olmadan genişləndirə bilmir, Eduskunt isə Alanda öz mövqeyini qəti şəkildə diqtə edə bilmir.

Aktın ilk fəslində Aland adalarının muxtariyyət statusu, əhatə etdiyi quru və su ərazisi müəyyən edilir. Muxtariyyət məsələlərində arxipelaq xalqını Aland parlamenti təmsil edir, inzibati idaraçilik adaların hökuməti tərəfindən həyata keçirilir. Qubernator – Finlandiya Hökumətini muxtariyyətdə təmsil edən vəzifəli şəxsdir. Həmçinin muxtariyyətlə dövlətin birgə orqanı olan Aland Heyəti təsis olunur.

Arxipelaqda daimi məskunlaşma hüququ Aktın qüvvəyə mindiyi anda 1951-ci il Aktı ilə məskunlaşma hüququ olan şəxslərə, atası və ya anası məskunlaşma hüququna malik 18 yaşınadək olan Finlandiya vətəndaşı və Aland sakinlərinə verilir. Bundan başqa, muxtar hökumət ən azı 5 il adalarda fasiləsiz yaşayan, isveç dilini bilən ölkə vətəndaşlarına bu hüququ verir. Xüsusi səbəblər olduqda, 5 illik məskunlaşma senzi və isveç dilini bilmə şərti nəzərə alınmadan da müvafiq hüquq verilə bilər. Belə hüququ olan şəxsə Alandda verilmiş pasportda "Aland" sözü qeyd edilir. Övladlığa götürülmüş uşağın məskunlaşma hüququ övladlığa götürənin hüquqi vəziyyətinə görə müəyyən edilir.

Ölkə vətəndaşlığından çıxarılan şəxs adalarda məskunlaşma hüququndan məhrum edilir. Beləliklə, faktiki olaraq ikili vətəndaşlıq mövcud olduğu halda, Akt "Finlandiya vətəndaşlığı" və "Alandda məskunlaşma hüququ" anlayışlarından istifadə edərək "ikili vətəndaşlıq" məfhumunu işlətmir ki, bu da unitar dövlətçilik prinsipinə uyğundur.

Məskunlaşma hüququ Aland adalarında seçmək və seçilmək, mülkiyyətə və ya daşınmaz əmlaka sahib olmaq və biznesləmaşğul olmaq imkanı verən hüquqdur [15]. Alandın və yerli hakimiyyət orqanlarının seçkili vəzifələrinə seçilmək hüququ yalnız məskunlaşma hüququ olan şəxslərə məxsusdur. Belə hüququ olmayan Finlandiya, İslandiya, Norveç, İsveç və Danimarka vətəndaşlarına da bələdiyyə seçkilərində seçmək və seçilmək hüququ verilir. Həmin ölkələrin vətəndaşları Alandın orqanlarında və ya bələdiyyələrində vəzifə tuta bilər. Digər ölkə vətəndaşlarına da bu qayda üzrə seçki hüququ tanına bilər. Muxtariyyətin polisində isə yalnız Finlandiya vətəndaşı işləyə bilər. Alandda dövlət qulluğunda işə qəbul üçün muxtariyyətdə daimi yaşamaq və ya arxipelaqın yerli şəraiti barədə biliklərə malik olmaq zəruri şərtdir.

Daşınmaz əmlak əldə etmək hüququ 1975-ci il yanvarın 3-də qəbul edilmiş "Alandda daşınmaz əmlak alınması haqqında" qanunla tənzimlənir. Məskunlaşma hüququ olan şəxslərə məhdudiyyətlər tətbiq edilmir. Belə hüququ olmayan şəxsin məqsədlərlə ticarət etmək hüququ qanunla məhdudlaşdırıla bilər. Aktın qüvvəyə mindiyi anda adalarda 5 il fasiləsiz yaşayan muxtariyyət sakini ticarət hüququ əldə etmiş olur. Əvvəlki Akta uyğun olaraq ticarətlə məşğul olan mülki şəxslər, şirkətlər, kooperasiyalar, assosiasiya və fondlar həmin hüququ saxlayırlar.

Məskunlaşma hüququ olan şəxslər hərbi xidmət əvəzinə losman kimi mayakda və ya digər mülki müəssisələrdə analoji xidmət keçə bilər. Bu qayda muxtariyyətdə 12 yaşından sonra məskunlaşan şəxslərə şamil edilmir. Başqa sözlə, Aland adalarında yalnız 12 yaşınadək məskunlaşmış şəxslər hərbi xidmətdən azad edilirlər [15].

Konstitusiya hər iki (fin və isveç) dilə rəsmi status tanıdığı halda, linqvistik özünəməxsusluğu qorumaq naminə yalnız isveç dili Alandın rəsmi dili elan olunmuşdur. Məktəblərdə təhsil və bütün işgüzar yazışmalar isveç dilində aparılır. Dövlət məktəblərində isveç dili rəsmi təhsil dilidir, ingilis dili isə xarici dil kimi məcburi qaydada keçilir, fin dili isə seçmə dil statusundadır [4, s. 110]. Arxipelaqda ali təhsil müəssisəsi yoxdur. Buna görə də orta təhsilini başa vuranlar İsveçin, Finlandiyanın və ya başqa xarici dövlətin ali təhsil müəssisələrinə üz tuturlar. Həmin universitetlərin məzunları olan gənclərin əksəriyyəti bir çox hallarda muxtariyyətdəki əmək bazarının məhdudluğu ucbatından geri qayıtmır [1, s. 195].

Akt arxipelaqda isveç dilinin tətbiqi ilə bağlı məsələləri ayrıca fəsildə (6-cı fəsil) tənzimləyir. Finlandiya vətəndaşlarına adalarda məhkəmə və digər vəzifəli şəxslər qarşısında fin dilindən istifadə etmək hüququ verilir. Əgər sənədlər fincə yazılıbsa, müvafiq vəzifəli şəxs zəruri hallarda sənədin isveç dilində tərcüməsini də almalıdır. Hər bir şəxs vəzifəli şəxs tərəfindən baxılan məsələlər üzrə sənədin surətini isveç dilinə tərcümədə almaq hüququna malikdir və dil haqqında ümumi qanunvericiliyə əsasən müvafiq sənəd həmçinin fin dilində olmalıdır. Dövlət özünün Alanddakı vəzifəli şəxslərinin isveç dilini öyrənməsini təmin edir.

Arxipelaqda qanunvericilik səlahiyyətlərinin həyata keçirilməsi üçün parlament – Laqtinq yaradılmışdır. Laqtinq – 30 üzvdən ibarət tərkibdə ümumi, bərabər, birbaşa və gizli səsvermə ilə 4 il müddətinə seçilən birpalatalı parlamentdir. Laqtinqin ilk iclası Finlandiya Prezidenti və ya onun tapşırığı ilə Qubernator tərəfindən açılır və bağlanır. Qubernator Prezidentin Aland parlamentinə təkliflərini, bəyanatını çatdırır. Laqtinqə ilk seçkilər 1922-ci ildə keçirilmişdir.

Alandın qanunverici səlahiyyətləri iki qrupa bölünür: öz səlahiyyətləri və ötürülmüş səlahiyyətlər. Qanunvericilik hüququ Laqtinqin yerli qanunlar qəbul etməsi vasitəsi ilə həyata keçirilir. Belə aktlar Aland Heyətinin rəyi nəzərə alınmaqla, Finlandiya Prezidentinə təqdim edilir. Prezident, Ali məhkəmənin qərarına görə Laqtinq öz səlahiyyətlərini aşdıqda, qanun layihəsini qismən və ya tamamilə ləğv edə bilər. Yəni hüquqyaratma mövcud səlahiyyətlər daxilində həyata keçirilməli, dövlətin maraqlarına ilə zidd olmamalıdır. Laqtinqin qəbul etdiyi bütün qanunlar 4 ay ərzində Finlandiya Prezidenti tərəfindən imzalanır [4, s. 109].

Alandın qanunvericilik səlahiyyətlərinə Laqtinqin təşkili və vəzifələri, hökumətin, vəzifəli şəxslərin və tabe orqanların seçilməsi, bayraq və gerbin qəbulu, onlardan istifadə edilməsi qaydaları, yerli orqanların struktur və səlahiyyətlərinin formalaşdırılması, bələdiyyələrin sərhədləri, seçilməsi və idarəçiliyi, planlaşdırmanın təşkili, təbiətin və ətraf mühitin, tarixi abidələrin və əsərlərin, mədəniyyət obyektlərin və mədəni-tarixi dəyərlərin mühafizəsi, əlavə və müvəqqəti vergilər, kənd təsərrüfatı, faydalı qazıntılar, ovçuluq, balıq sənayesi, yol infrastrukturunun tənzimlənməsi, təhsil, təlim, idman və gənclərlə iş, işsizliyin, sosial rifah məsələlərinin həlli, ictimai asayiş və təhlükəsizlik, tikinti və torpaq, daşınmaz əmlak, baytarlıq, poçt və radioteleqraf, ticarət, muxtariyyətin səlahiyyətlərinə aid olan məsələlərə münasibətə görə cinayət, cəza, cərimə və s. məsələlər daxildir. Alandın qanunvericilik səlahiyyətlərinin əsasında "dövlətin müstəsna səlahiyyət sahəsinə daxil olmayan hər şeyə icazə vardır" prinsipi dayanır.

Mərkəzi hökumətin müstəsna səlahiyyətlərinə isə Konstitusiyanın qəbulu, dəyişilməsi və ya ləğvi, silahlı qüvvələrin, xarici ticarətin və ixrac siyasətinin təşkili, ölçü vahidlərinin və standartlaşdırma üsullarının müəyyənləşdirilməsi, qiymətli metallar istehsalı, pul və valyuta siyasəti, müəlliflik, patent, varislik, ailə-nikah hüququ məsələləri, vətəndaşlıq, əcnəbilərə dair qanunvericilik, pasportlar, silahlar və döyüş sursatları, milli təhlükəsizlik məsələləri, beynəlxalq münasibətlər, əsas insan hüquq və azadlıqları daxildir. Bu səlahiyyətlər muxtariyyətə verilə bilməz.

Muxtar qurumun idarəçilik orqanlarına ötürülən səlahiyyətlər dövlətin müxtəlif səlahiyyətlərinin transfer edilməsində özünü göstərir. Bank və kredit xidmətləri, əhalinin qeydiyyatı, ticarət və birliklərin reyestri, dəniz registri, bələdiyyələrin seçkili vəzifəli şəxslərinin və bələdiyyə işçilərinin əmək pensiyaların ödənilməsi və sosial sığorta, spirtli içkilər, həmçinin müəssisələrlə əməkdaşlıq belə səlahiyyətlərdir.

Konstitusiyaya və digər dövlət aktlarına dəyişikliklər adalarda yalnız Laqtinqin razılığı ilə qüvvəyə minir. Müvafiq razılıq həmçinin Alandın hakimiyyət səlahiyyətlərinə aid məsələlərin əks olunduğu beynəlxalq müqavilənin muxtariyyətdə qüvvəyə minməsi üçün də tələb olunur.

Beləliklə, Laqtinq geniş qanunvericilik səlahiyyətlərinə malikdir. Finlandiya Prezidentinin Laqtinqi buraxmaq və yeni seçkilərin keçirilməsini tələb etmək səlahiyyəti bir tərəfdən tarazlaşdırma prinsipinin təzahürüdürsə, digər tərəfdən mərkəzləşdirilmiş unitar dövlətçiliyin əlamətidir. Prezidentin Aland qanunlarına münasibətdə veto hüququ vardır.

2004-cü ildə muxtar hökumətə dair müddəalar Aktdan çıxarılmışdır. Hazırda hökumətin formalaşdırılması qaydası ayrıca regional aktla tənzimlənir. Bununla belə, Aktda hökumətlə bağlı müəyyən müddəalar yer almışdır. Hökumət – Landskapstirels Laqtinq qarşısında cavabdehlik daşıyır və geniş səlahiyyətlərə malikdir. Hökumət üzvlərinin sayı 8 nəfərdən çox olmamalıdır. Parlament idarəçiliyi prinsipinə uyğun olaraq Laqtinqdə seçilən hökumətin başında Lantrodet (isveç dilində "Lantrådet" – "Əyalət müşaviri" – E.C.) dayanır. Hökumət 6 sahə üzrə departamentdən ibarət inzibati aparata malikdir [11; 15].

Muxtariyyətin inzibati idarəçiliyi Aland hökumətinə və onun vəzifəli şəxslərinə məxsusdur. Bu sahədə hər şeydən əvvəl muxtar hökumətin xüsusi səlahiyyətlərini və dövlətin razılığı ilə həyata keçirdiyi səlahiyyətləri fərqləndirmək lazımdır. Başqa bir qrup səlahiyyətlər də vardır ki, dövlətin idarəetməsinə aiddir, lakin onların həyata keçirilməsi yalnız Aland hökumətinin razılığı ilə mümkündür. Məskunlaşma hüququnun verilməsi hökumətə məxsusdur.

Dövlət orqanları muxtariyyətdə özlərinin qanunvericilik səlahiyyətlərinə aid olan müəyyən məsələlərin icrası zamanı yerli hökumətin müvafiq razılığını almalıdır. Buraya nüvə enerjisi ilə bağlı, AES tikintisi, istismarı, mülki müdafiə, muxtariyyət əhalisinin evakuasiyası, telekommunikasiya, dəniz ticarəti üzrə yeni xətlərin açılması, kənd təsərrüfatı və balıqçılıq sənayesi məhsullarının ixracı, lisenziyalaşdırılmış ticarət, dövlətin yerli inzibati orqanlarının bağlanması daxildir. Öz növbəsində Aland hökuməti əcnəbilərə və xarici şirkətlərə arxipelaqda mülkiyyətə sahib olmaq və ticarətlə məşğul olmaq hüququ verməzdən əvvəl müvafiq dövlət orqanının rəyini almalıdır. Prezident, Dövlət Şurası, nazirlik və ya digər səlahiyyətli orqan Aland üçün xüsusi əhəmiyyəti olan qərar qəbul etdikdə muxtar hökumətin razılığını almalıdır. Dövlət Şurasında muxtariyyətin idarəçiliyi ilə bağlı məsələləri ölkənin Ədliyyə Nazirliyi, Alandın iqtisadiyyatı ilə bağlı məsələləri Maliyyə Nazirliyi təqdim edir.

Səlahiyyətlərin bu cür bölünməsi – arxipelaqın normal inkişafına təminat yaradan dövlət suverenliyinin mütləqləşdirilməsinin effektiv balanslaşdırma mexanizmidir. Dövlətin idarəçilik səlahiyyətlərinin Aland hökumətinin rəyinin soruşulması ilə icra olunması və muxtar hökumətin öz səlahiyyətlərini dövlətin mövqeyinin mütləq nəzərə alınması ilə həyata keçirilməsi dövlət-muxtariyyət münasibətlərində balanslaşdırma prinsipinin mövcudluğunu ifadə edir.

Aland hökumətinin razılığı ilə uzlaşdırılmış dekretlər verilməklə dövlətin inzibati səlahiyyətlərinə aid olan vəzifələr Prezidentin imzaladığı uzlaşdırılmış sərəncamla müəyyən müddətə və ya bununla bağlı növbəti xəbərdarlıq edilənədək yerli hakimiyyətə ötürülür. Və əksinə, Alandın idarəçiliyinə daxil olan vəzifələr də dövlətin vəzifəli şəxslərinin idarəçiliyinə verilə bilər.

Finlandiya 1 yanvar 2011-ci ildən, Aland da daxil olmaqla, inzibati cəhətdən 19 regiona bölünür və bu regionların hər birinə birbaşa qubernator təyin edilir. Yalnız xüsusi statuslu region kimi Alanda Qubernator Prezident tərəfindən Laqtinqin sədri ilə razılaşdırılmaqla təyin olunur və adaların idarəetmə orqanları sistemində xüsusi yer tutur. Bu vəzifəyə namizəd haqqında konsensus əldə edilmədikdə, Laqtinqin təklif etdiyi 5 namizəddən biri Qubernator təyin edilir. Qubernatorun vəzifədən azad edilməsi də muxtariyyət parlamenti sədrinin rəyi nəzərə alınmaqla həyata keçirilir. Qubernatorun əsas vəzifəsi ictimai asayişin və təhlükəsizliyin təmin edilməsidir.

Muxtariyyətin idarəetmə orqanları sistemində Aland Heyətinin xüsusi yeri var. Heyətin 6 nəfərlik tərkibinə Dövlət Şurasının iki nümayəndəsi və Laqtinqin seçdiyi iki deputat və onların hər biri üçün bir müavin daxildir. Heyətin kvorumu onun bütün üzvlərinin iştirakını nəzərdə tutur. Heyətə sədrliyi Prezidentin Laqtinqin sədri ilə razılaşdıraraq təyin etdiyi Qubernator və ya başqa şəxs həyata keçirir. Aland Heyəti dövlətlə muxtariyyətin birgə orqanı olub, mərkəzlə arxipelaq arasında ziddiyyətlərin tənzimlənməsində məsləhətçi-əlaqələndirici rolunu oynayır. Mərkəzlə Laqtinq arasında razılaşdırılmış qanunvericilik aktları qəbul edilərkən Heyətin təklifləri nəzərə alınır, o, adalarda bir sıra mübahisəli məsələləri həll edir, muxtariyyətin xərclərinin ödənilməsi üçün dövlət fondlarından alınacaq vəsaitin məbləğini müəyyən edir və s. Heyətin əsas fəaliyyəti maliyyə-xəzinə məsələləri ilə bağlı olub, bu sahədə əlaqələndirici mahiyyət daşısa

da, o, adalara verilmiş imtiyaz və hüquqlara riayət edilməsində münsif-nəzarətçi funksiyasını da həyata keçirir.

Muxtariyyətin əsas səlahiyyətlərindən biri özünü maliyyə sərbəstliyində göstərir. Laqtinq yerli büdcəni təsdiqləyir və büdcədə dövlətin digər vətəndaşları ilə eyni sosial güzəştlərin nəzərdə tutulmasını təmin edir. Hər il arxipelaqa dövlət tərəfindən ayırmalar edilir. Bu maliyyə dəstəyi Alanda öz səlahiyyətlərini həyata keçirməklə yanaşı, həyat səviyyəsini bütün ölkə ilə eyni səviyyədə saxlamağa imkan yaradır. Çünki ərazi məhdudiyyəti, əhali azlığı və s. kimi səbəblərə görə Aland lazımi dərəcədə iqtisadi potensiala və zəruri infrastruktura malik deyil. Bu səbəbdən muxtariyyət hər il xərclərin ödənilməsi üçün ölkə büdcəsinin gəlirlərinin 0,45%-i həcmində tənzimləmə məbləği adlanan pul vəsaiti alır. Xərclər artdıqda tənzimləmə məbləği artırılır, azaldıqda isə azaldılır. Məbləğin dəyişdirilməsi Laqtinqin razılığı ilə qəbul edilən dövlət aktı ilə təsdiqlənir. Tənzimləmə məbləğinin bu həddi kifayət qədər böyük vəsaitdir. Belə ki, məsələn, 2011-ci ildə dövlət büdcəsindən Aland adalarına ayırmalar 195 milyon avro təşkil etmişdi [11]. Bundan başqa, muxtariyyətə Alandın büdcəsinə daxil olmayan, birdəfəlik fövqəladə dotasiyalar və subsidiyalar ayrıla, adaların ehtiyaclarına görə ona güzəştli və digər növ kreditlər verilə bilər.

Muxtariyyətin vergilər məsələsində də bir sıra səlahiyyətləri vardır. Laqtinq əlavə vergilər (o cümlədən ticarət və əyləncə) və yığımlar müəyyən etmək hüququna malikdir. Həmçinin Alandın dövlətin özü ilə eyni səviyyədə vergi və analoji mənfəətlərdən azad olunmaq hüququ vardır. Adalarda yığılan gəlir vergisi və əmlak vergisi ölkə üzrə yığılan analoji vergilərin həcminin 0,5%-ini aşdıqda, vergilərin həmin həddən artıq hissəsi muxtariyyətə qaytarılır.

Akt dövlətin beynəlxalq münasibətlərində Alandın iştirakı imkanlarını nəzərdən keçirir. Muxtar hökumət adaların səlahiyyət dairəsinə daxil olan məsələlər üzrə beynəlxalq müqavilələr bağlanarkən məlumatlandırılır, xüsusi səbəblər olduqda isə danışıqlarda iştirak edir. Beynəlxalq müqavilə və öhdəliklər muxtariyyətin səlahiyyətinə aid olan məsələləri əhatə etdikdə, həmin beynəlxalq sənədin Alandda qüvvəyə minməsi üçün Laqtinqin razılığı tələb olunur. Müqavilə və ya öhdəlikdəki məsələ Akta zidd olduqda, belə sənəd Laqtinqin 2/3 səlahiyyətli səs çoxluğu ilə təsdiqlənir və Eduskuntda beynəlxalq müqavilələrin təsdiqi prosedurunu keçdikdən sonra qüvvəyə minir.

Finlandiyanın Avropa İttifaqına (Aİ) üzvlüyü (1995, 1 yanvar) ilə ölkənin və Alandın qanunvericilik səlahiyyətlərinin bir qisminin Aİ-nin müvafiq institutlarına ötürülməsi prosesi başlandığına görə quruma üzvlük üçün muxtariyyətin razılığı tələb olunurdu. Bu məqsədlə adalarda keçirilən iki ayrı plebissitdə əhali öz rəyini ifadə etdi və qərara alındı ki, Alandın Finlandiyanın tərkibində Aİ-yə üzvlüyü ayrıca protokolla rəsmiləşdirilsin. Həmin protokola görə Aland dolayı vergitutma məsələsində üçüncü tərəf kimi çıxış edir. Protokol daşınmaz əmlakın alınması və bizneslə məşğul olmaq haqqında bəzi xüsusi qaydaları da ehtiva edir və arxipelaqın xüsusi statusunu təsdiqləyir [15]. Aİ-nin bəzi qərarları, məsələn, vahid gömrük məkanı haqqında qərar, arxipelaqa şamil olunmur. Protokolda arxipelaqın silahsızlaşdırılmış zona olması da əks olunmuşdur və burada heç bir hərbi baza yerləşdirilə bilməz [1, s. 197].

2004-cü ilin yanvarında Muxtariyyət Aktına əlavə edilən ayrıca bölməyə ("Avropa İttifaqı ilə bağlı məsələlər") görə Aland özü ilə əlaqədar məsələlərdə Aİ-də milli mövqelərin müəyyənləşdirilməsində iştirak edir. Aİ-nin muxtariyyətə aid qərarları ilə bağlı Aland dövlətlə qanunverici və icraedici səlahiyyətləri bölüşür, qərarlar bir-birindən asılı olduqda, onlar bu barədə məsləhətləşirlər. Belə qərarlar qəbul edildikdə Aland hökumətinin Aİ Komissiyasına müraciət etmək hüququ vardır. Aland hökumətinin təyin et-

diyi şəxs Finlandiya nümayəndələrindən biri kimi Aİ Regionlar Komitəsində iştirak edir. Bundan başqa, Brüsseldə Aİ yanında Finlandiya daimi nümayəndəliyində Alandın təmsilçisi vardır. Lakin o, səfir statusunda olmayıb, əlaqələndirici funksiya daşıyır [1, s. 197]. Aland Adalarının Sülh İnstitutu ECOSOC (BMT-nin iqtisadi və sosial təşkilatı) yanında məşvərətçi statusa malikdir [6, s. 58]. 1952-ci il martın 16-da Norveç, İsveç, Finlandiya, İslandiya, Farer adaları, Qrenlandiya və Aland adaları tərəfindən beynəlxalq hökumətlərarası təşkilat hüququnda qurulan Şimal Şurasında Aland digər üzvlərlə eyni səviyyədə tamhüquqlu üzvdür. Alandın baş naziri həmin qurumun nazirlər şurasının iclaslarında iştirak edir [4, s. 111].

Aİ ilə bağlı Alandın üzərində müəyyən məsuliyyət və öhdəliklər də vardır. Muxtariyyətin hərəkətinə görə Avropa Məhkəməsinin Finlandiyanın kompensasiya ödəməsi haqqında qərarına görə Aland məsuliyyət daşıyır. Alandla bağlı olan vəsaitlərin dövlət tərəfindən Aİ-yə qaytarılması məcburiyyəti yarandıqda və fiziki şəxsə Aİ qərarları ilə verilmiş hüquqların adaların səlahiyyətində olan məsələlərlə bağlı natamam icrası və ya düzgün həyata keçirilməməsi nəticəsində vurulan maddi ziyana görə muxtariyyət məsuliyyət daşıyır və müvafiq vəsaiti ödəyir. Aland öhdəliklər üzrə mübahisələrə görə İnzibati Məhkəməyə müraciət edə bilər. Aland Aİ-nin normativ-hüquqi aktlarına qoşulmaqdan, hətta Finlandiya qoşulduğu halda belə, sərbəst şəkildə imtina edə bilər.

Beləliklə, geniş səlahiyyətləri özündə ehtiva edən daxili siyasi muxtariyyət yerli əhəmiyyətli məsələlərin həllində geniş sərbəstlik verir və milli konsensusu təmin edir. Muxtariyyətin özünün qanunvericiliyi və maliyyəsi, iqtisadi stabilliyi, yerli istehsalın müdafiə mexanizmi adalarda idarəetmənin səmərəliliyini şərtləndirən əsas amillərdir. Lakin muxtar hökumət bütün problemləri təkbaşına həll etmək səlahiyyətinə malik deyildir, belə ki, həmişə dövlətin mövqeyinin nəzərə alınmalı olduğu sahələr mövcuddur. Dövlət və yerli maraqların qarşılıqlı nəzərə alınması naminə Aland hökumətinə uzlaşdırılmış səlahiyyətlər də verilmişdir.

Aland adaları muxtariyyəti beynəlxalq təcrübədə etnosiyasi ərazi konfliktləri üçün uğurlu həll modeli sayılır. Bu həll özünüidarəetmə, demilitarizasiya və neytralizasiya, dilin və mədəniyyətin mühafizəsi kimi üç əsas komponenti özündə ehtiva edir. Aland – ada siyasi və inzibati-ərazi muxtariyyətinin nümunəsi olub, digər ölkələrdəki (Danimarka, Portuqaliya və s.) analoji qurumların bütün əlamətlərini özündə ehtiva edir. Finlandiya Konstitusiyası Alandın hüquqi statusunu müəyyən etmir, sadəcə onun çərçivə normalarını müəyyənləşdirir. Beləliklə, siyasi (dövlət-ərazi) muxtariyyətin "Aland modeli" milli azlıq probleminin həlli – siyasi muxtariyyətin işlək modelinin yaradılmasının parlaq nümunəsidir.

ƏDƏBİYYAT

1. Benedikter Thomas. Modern Özerk Sistemler. Dünya Özerklik Örnekleri. İstanbul: Nika Yayınevi, I Baskı, Mayıs 2014, 512 s.
2. Barros James. The Aland Islands Question: Its Settlement by the League of Nations. New Haven and London: Yale University Press, 1968, xiii+362 p.
3. Benedikter Thomas. The working autonomies in Europe. Territorial autonomy as a means of minority protection and conflict solution in the European experience - An overview and schematic comparison. Bolzano / Bozen, 19. June 2006, 42 p.
4. Benedikter Thomas. The World's Modern Autonomy Systems. Concepts and Experiences of Regional Territorial Autonomy. Bozen / Bolzano: 2009, 305 p.
5. Brown Philip Marshall. The Aaland Islands Question. American Journal of International Law. Vol. 15, № 2 (April, 1921), pp. 268-272.

6. Constitutions, Autonomies and the EU. Sia Spiliopoulou Åkermark (ed.), Eduardo J. Ruiz Vieytez, Iñigo Bullain, Sören Silverström, Susanne Eriksson, Roger Nordlund. Report from the Åland Islands Peace Institute, Mariehamn, Åland, Finland, № 3, 2008, 58 p.
7. Finland: A Country Study. Federal Research Division Library of Congress. Edited by Eric Solsten and Sandra W. Meditz. Research Completed December 1988. Second Edition, 1990, U.S. Government Printing Office Washington, xxiii+69 pp.
8. Padelford Norman J. and Andersson K. Gösta A. The Aaland Island Question. American Journal of International Law, Vol. 33, № 3 (July, 1939), Washington, pp. 465-487.
9. Suksi Markku. Ålands konstitution: en sammanställning av material och tolkningar i anslutning till självstyrelselag för Åland. Åbo: Åbo Akademis Förlag, 2005, xvii+566 p.
10. Акт об автономии Аландских островов Финляндии http://worldconstitutions.ru/?p=977
11. Аландские острова – самоуправляемая провинция http://www.aland.ax/assets/uploads/3205f2637a4ba827a4bd1f83ef748876.pdf
12. Конституция Финляндии www.finlex.fi/fi/laki/kaannokset/1999/ru19990731.pdf
13. Лукашева Я.В. Правовой статус Аландских островов http://worldconstitutions.ru/?p=604
14. History of Finland http://www.historyworld.net/wrldhis/PlainTextHistories.asp?historyid=ad02
15. http://www.aland.ax

Эльман Джафарли

АВТОНОМИЯ АЛАНДСКИХ ОСТРОВОВ: ИСТОРИЯ СОЗДАНИЯ И ПРАВОВОЙ СТАТУС

Аландские острова, являющиеся частью унитарной Финляндской Республики, – это политическая автономия. Правовой статус островов, где около 95% населения составляют шведы, разрешился в 1917 году, после того, как Финляндия получила государственную независимость. В 1920 году Лигой Наций архипелаг Аланд был признан неотъемлемой частью Финляндии и перед финским государством поставлено условие – предоставить автономию островам. В 1920 году Финляндия приняла первый акт о статусе автономии, а в 1951 году – второй акт. В настоящее время правовой статус островов Аланда регулируется Актом об автономии Аландских островов, принятым в 1991 году. Архипелаг, состоящий из 6554 островов, получил высокую политическую автономию. Но только 50 из этих островов заселены. Архипелаг признавался демилитаризованной и нейтральной зоной в нескольких договорах, начиная с 1856 года. Право поселения на островах предоставляется после 5 лет постоянного проживания. Единственным официальным языком Аланда является шведский язык. Автономия имеет свой собственный флаг и почтовые марки. Жители Аланда освобождены от военной службы. Единственный город автономии – столица Мариехамн, где проживает около 40% населения островов. Основными руководящими органами области являются Лагтинг (парламент) и Ландскапстирелс (правительство). Кроме того, Губернатор, назначенный Президентом Финляндии, является официальным представителем правительства страны в автономии. Также была создана Делегация Аланда, кото-

рая является совместным органом государства и автономии. Эта система самоуправления превратила автономию Аландских островов в успешный образец решения этнополитических конфликтов и оптимальную модель политической автономии во всем мире.

Ключевые слова: *унитарное государство, Финляндия, Швеция, политическая автономия, Аландские острова, Лагтинг, Ландскапстирелс, Европейский Союз.*

Elman Jafarli

AUTONOMY OF THE ALAND ISLANDS: HISTORY OF ESTABLISHMENT AND LEGAL STATUS

The Åland Islands, which are part of the unitary Republic of Finland, are political autonomy. The legal status of the islands, where about 95% of the population is Swedes, was resolved in 1917, after Finland gained state independence. In 1920, the League of Nations, the Aland archipelago, was recognized as an integral part of Finland and the Finnish state was given the condition of granting autonomy to the islands. In 1920, Finland adopted the first act on the status of autonomy, and in 1951 – the second act. Currently, the legal status of the islands of Alanda is regulated by the Autonomy Act of the Åland Islands, adopted in 1991. The archipelago, consisting of 6,554 islands, received high political autonomy. But only 50 of these islands are inhabited. The archipelago was recognized as a demilitarized and neutral zone in several treaties, beginning in 1856. The right of settlement on the islands is granted after 5 years of permanent residence. The only official language of Aland is Swedish. Autonomy has its own flag and postage stamps. The inhabitants of Alanda are exempt from military service. The only city of autonomy is the capital of Mariehamn, home to about 40% of the island's population. The main governing bodies of the region are the Lagting (Parliament) and the Landskapsregering (government). In addition, the Governor appointed by the President of Finland is the official representative of the government of the country in the autonomy. Also, the Delegation of Aland was created, which is a joint body of the state and autonomy. This system of self-government has transformed the autonomy of the Åland Islands into a successful model for solving ethnopolitical conflicts and an optimal model of political autonomy throughout the world.

Keywords: *unitary state, Finland, Sweden, political autonomy, the Åland Islands, Lagting, Landskapsregering, European Union.*

(Akademik İsmayıl Hacıyev tərəfindən təqdim edilmişdir)

XALİD NİYAZOV
AMEA Hüquq və İnsan Haqları İnstitutu
E-mail: xalid-555@mail.ru

DÖVLƏT İNFORMASİYA SİYASƏTİNİN STRUKTUR ELEMENTLƏRİ

Dövlət informasiya siyasətinin məzmunu – onun məqsəd və vəzifələrinin, həmçinin mövcud siyasəti formalaşdırıb həyata keçirən hakimiyyət orqanları və dövlət rəsmi şəxslərinin fəaliyyətinin prinsip və istiqamətlərinin məcmusunu nəzərdə tutur.

Dövlət informasiya siyasətinin məqsədi həmin siyasətin məzmununu təşkil edən ən vacib elementlərdən biridir. Dövlət informasiya siyasətinin obyekti qismində informasiya sferasındakı münasibət və proseslərdən bəhs etmək mümkündür.

İnformasiya siyasətinin əsas mühiti informasiya məkanıdır.

Açar sözlər: *informasiya siyasəti, informasiya mühiti, informasiya ehtiyatları, informasiya təhlükəsizliyi, İnformasiya siyasətinin vəzifələri.*

Bütövlükdə dünya birliyinin, eləcə də ayrı-ayrı milli dövlətlərin müasir vəziyyətini xarakterizə edən üstün fərqli xüsusiyyət informasiya məkanının fəal, dinamik və bəlkə də bir qədər qabaqlayıcı inkişaf xəttində ifadə olunur. Bu tendensiya XX əsrin ikinci yarısı XXI əsrin əvvəllərinə təsadüf edən və sosial quruluşun ənənəvi modelindən informasiya cəmiyyətinə keçidlə müşayiət olunan qlobal tendensiyanın təcəssümü kimi təzahür edir.

Modern dünyanın inkişaf hədəfləri ilə səsləşən həmin təmayül müasir Azərbaycan cəmiyyətinin fəaliyyət qabiliyyətli bütün sahələrinə təsir etməklə nəinki iqtisadi, həmçinin siyasi və sosiomədəni sferalarda da ciddi dəyişiklikləri şərtləndirən mühüm faktorlardan birinə çevrilmişdir.

Siyasətin tərifi azacıq fərqlə müxtəlif cür səslənsə də ümumi definisiya eynidir: siyasət – hakimiyyət institutlarının köməyilə ictimai maraqların həyata keçirilməsinə hesablanmış sosial subyektlərin fəaliyyətində daha parlaq təzahürünü tapır. Siyasət insanlar arasındakı davranışın məxsusi tipi olmaqla yanaşı, ictimai proseslərin idarə olunması sənəti kimi də çıxış edir. Siyasətin fərqli şəkildəyişmələri heç də bu hadisənin qeyri-müəyyənliyinə dəlalət etmir. Onun əsas mahiyyəti özünü "hakimiyyət" kateqoriyası üzərindən açıqlayır.

Ümumi siyasət təsərrüfatının çox mühüm seqmentlərindən sayılan informasiya siyasəti isə ixtiyari subyektin cəmiyyətdə bütün növ informasiyaların formalaşdırılması, qorunması və ötürülməsi yolu ilə öz maraqlarını həyata keçirməsi fəaliyyətidir. İnformasiya siyasəti insanların həyat və fəaliyyətinin ictimai institutlar və sosial qrupların maraqlarını təmin edən informasiyaların istehsal olunması və yayılması ilə bağlı olan məxsusi bir sferasıdır.

V.D.Popov qeyd edir ki, informasiya siyasətinin mahiyyətini "informasiya hakimiyyəti" kateqoriyası vasitəsilə ifadə edərkən söyləmək olar ki "... informasiya siyasəti –

informasiya vasitəsilə siyasət subyektlərinin dövlətin və vətəndaş cəmiyyətinin maraqları naminə insanların psixika və şüuruna, onların davranış və fəaliyyətinə təsir göstərmək imkan və qabiliyyətidir" [1, s. 20].

Elmi bilik sahəsi (informasiologiya-!) kimi informasiya siyasətinin predmetini informasiya sferasının, "ictimai informasiya münasibətlərinin", informasiya proseslərinin tendensiya və qanunauyğunluqları, onların inkişafının təhlil və proqnozlaşdırma metodları, o cümlədən kütləvi informasiya və kütləvi kommunikasiya vasitələrinin ictimai şüura, vətəndaş cəmiyyəti və dövlətə təsirinin səmərəsinin aşkar olunması təşkil edir [1, s. 10-11].

Biz informasiya siyasətinin mahiyyətindən bəhs edərkən yəqin ki, bir daha həmin siyasətin definisiyasına müraciət etməliyik. Nə deməkdir informasiyalaşma siyasəti? – İlk növbədə bu, cəmiyyət həyatında, onun iqtisadi, siyasi və sosiomədəni strukturunda mütərəqqi xarakterli köklü dəyişiklikləri şərtləndirən, insan həyatının ümumi səviyyə və keyfiyyətinə ciddi təsir göstərə bilən məlumatların toplanması, işlənməsi, ötürülməsi və qorunması ilə müşayiət olunan bir fəaliyyətdir.

Dövlət informasiya siyasətinin mahiyyəti onun forma və məzmunu ilə təyin olunur.

Dövlət informasiya siyasətinin məzmunu – onun məqsəd və vəzifələrinin, həmçinin mövcud siyasəti formalaşdırıb həyata keçirən hakimiyyət orqanları və dövlət rəsmi şəxslərinin fəaliyyətinin prinsip və istiqamətlərinin məcmusunu nəzərdə tutur.

Dövlət informasiya siyasətinin məqsədi həmin siyasətin məzmununu təşkil edən ən vacib elementlərdən biridir. Həmin məqsəd əlində dövlət hakimiyyəti rıçaqlarını cəmləşdirmiş subyekt tərəfindən müəyyənləşdirilir və onun əldə olunmasına dövlət müvafiq kadr, maliyyə, texniki-metodik potensialı ilə dəstək verməklə paralel, eyni zamanda özünün ideoloji proqramının reallaşdırılmasını da təmin etmiş olur [2, s. 24].

Bir elmi fənn kimi informasiya siyasətinin məqsədi ölkənin və vətəndaşların informasiya-psixoloji təhlükəsizliyini qorumaq üçün biliklər sisteminin əldə olunmasından, dövlət siyasətinin informasiya-analitik təminatından, dövlət tərəfindən qəbul edilmiş qərar və proqramların idarəetmənin əsas subyekti kimi əhaliyə çatdırılmasından ibarətdir.

Dövlət informasiya siyasətinin predmetini informasiya-psixoloji sferada cəmiyyətin sosial-siyasi münasibətlər sistemi təşkil edir.

İnformasiya siyasətinin tədqiq etdiyi predmetlə yanaşı, məşğul olduğu obyekt və subyekt də mövcuddur.

Dövlət informasiya siyasətinin obyekti qismində informasiya sferasındakı münasibət və proseslərdən bəhs etmək mümkündür.

İnformasiya məkanının istənilən komponenti yaxud seqmenti obyekt kimi çıxış edə bilər. Məsələn: vətəndaşların kütləvi və fərdi şüuru; sosial-siyasi sistem və proseslər; informasiya infrastrukturu; informasiya ehtiyatları; psixoloji resurslar [3, 28].

Dövlət informasiya siyasətinin obyektini iki əsas kateqoriyaya ayırmaq olar:

1. Təşkilatlar: dövlət orqanları və strukturları; qeyri-dövlət ictimai-siyasi təşkilatları; dini təşkilatlar; iqtisadi fəaliyyətin qeyri-dövlət təşkilatları; KİV və KK (kütləvi kommunikasiyalar).

2. Ayrı-ayrı vətəndaşların və aşağıdakı kateqoriyalarla fərqləndirilən sosial qrupların daxil olduğu əhali qrupu: yaş; cins; təhsil səviyyəsi; sosial vəziyyət; iqtisadi fəallıq; sosial fəaliyyətin növ və istiqamətləri; informasiya fəallığının formaları (fəal və passiv).

Məzmun və xarakterinə görə bu cür fərqli kateqoriyaların mövcudluğu dövlət informasiya siyasətinin ayrı-ayrı sahələrinin formalaşdırılmasının zəruriyyətini əsaslandırır.

Alim və tədqiqatçılar dövlət informasiya siyasətinin obyektinə münasibətdə şərti olaraq beş fərqli nöqteyi-nəzərdən çıxış edirlər.

Birinci qrupa daxil olan mütəxəssislər hesab edirlər ki, dövlət informasiya siyasətinin obyekti cəmiyyətin informasion inkişaf prosesləridir.

İkinci qrupu təmsil edənlər bu məsələdə insan hüquqlarının prioritetinə söykənərək dövlət informasiya siyasətinin obyekti qismində kütləvi informasiyanın azadlığını və informasiyanın əldə olunmasında insan və vətəndaşın hüquq və azadlıqlarına dövlət zəmanətini qəbul edirlər.

Növbəti mövqe informasiyanın vətəndaş üçün əlçatanlığına şərait yaradan informasiya məkanı və informasiya infrastrukturunun inkişafını dövlət informasiya siyasətinin obyekti kimi səciyyələndirənlərə məxsusdur.

Dördüncü nöqteyi-nəzəri bölüşən siyasətşünaslar dövlət informasiya siyasətinin obyekti təsnifatına bütün sosial qrupları, vətəndaş cəmiyyətinin elementlərini, milli və beynəlxalq strukturları, qarşılıqlı münasibətlərdə iştirak edən dövlət və onların koalisiyalarını daxil edirlər.

Sonuncu qrupa aid edilən alimlər isə hesab edirlər ki, dövlət informasiya siyasətinin əsas obyektləri qismində ilk növbədə konkret siyasi liderlər, siyasi tədbirlər və müəyyən siyasi qüvvələr çıxış edirlər.

Bununla yanaşı qeyd olunmalıdır ki, dövlət informasiya siyasəti anlayışı bütövlükdə siyasətşünaslıq elmi üçün hər nə qədər yeni anlayış olsa da müasir dövrün obyektiv gerçəklikləri həmin təsnifata kiçik bir təshih edərək dövlət informasiya siyasətinin obyektinin daha bir – altıncı formasını da aktuallaşdırmışdır – kütləvi informasiya vasitələri (qəzet və jurnallar, kitab nəşri); elektron KİV (televiziya və radio, internet); rabitə vasitələri; mövcud çoxşaxəli informasiya münasibətlərini tənzimləyən informasiya hüququ; informasiya təhlükəsizliyi.

İnformasiya siyasətinin subyektlərindən bəhs edərkən bu sırada müstəsna yeri olan dövlətin adı çəkilməlidir. Belə bir müstəsnalıq onun cəmiyyətin siyasi sisteminin fəaliyyətinin təmin edilməsindəki məxsusi statusu ilə şərtlənir. Dövlət mexanizmi siyasətlə yanaşı həmçinin siyasi mübarizənin fəal subyekti kimi çıxış etməklə həmin mübarizənin qayda, sərhəd və formalarını qanunvericilik əsasında təmin edir, bu sahədə hüquq-mühafizə və hüququn tətbiqi praktikasını həyata keçirir, həmçinin bu mübarizədə qanunun imkan verdiyi çərçivədə dövlət hakimiyyətinə malik subyektin tərəfində çıxış edir [4, s. 164].

İnformasiya siyasətinin subyektləri qismində ayrı-ayrı şəxslər və sosial qruplar, kommersiya şirkətləri və müəssisələr, vətəndaş cəmiyyətinin subyektləri çıxış edə bilsələr də, onun özü dövlət siyasətinin ayrıca bir istiqaməti kimi öyrənilmir. Belə ki, konkret halda siyasət dedikdə ictimai və dövlət həyatı ilə bu və ya digər şəkildə əlaqəsi olan bütün hadisə və məsələlər nəzərdə tutulur. Siyasət dedikdə, ənənəvi olaraq insanların hakimiyyətlə münasibətləri, dövlət quruluşu və sosial institutlarla əlaqədə olan məxsusi fəaliyyət sferası nəzərdə tutulduğuna görə, informasiya siyasətinin subyektini də ölkənin ictimai quruluş və iqtisadi strukturunu təcəssüm etdirən dövlət hakimiyyəti orqanları və dövlət idarəetməsinin məxsusi fəaliyyət məkanı kimi nəzərdə tutmaq lazımdır.

Hesab edirik ki, fəal şəkildə sosial-siyasi həyatda iştirak edən və qarşıya qoyduqları vəzifələrə çatmaq məqsədilə informasiya-kommunikasiya texnologiyalarından istifadə edən bütün sosial-siyasi təsisatlar və institutlar dövlət informasiya siyasətinin subyekti sayıla bilərlər.

Lakin burada bir istisna da var; heç də bütün subyektlər informasiya və siyasi fəaliyyət sferasında fəallıqları və peşəkarlıqları ilə fərqlənə bilmirlər. Son dövrdə infor-

masiya proseslərinin yeni və daha dinamik iştirakçıları peyda olublar; məsələn, ənənəvi və elektron KİV, internet mediası, transmilli quruluşlar, müxtəlif lobbi qrupları və s. Bəzən onların sıralarına qeyri qanuni təşkilatlar da sıza bilirlər. Belə bir şəraitdə informasiya prosesi dövlətin daimi nəzarət və tənzimlənməsinə ehtiyac duyur.

Şərti olaraq informasiya siyasətinin subyektlərini iki yerə ayırmaq mümkündür:

1) cəmiyyətin siyasi həyatında birbaşa iştirak edənlər (dövlət strukturları, beynəlxalq təşkilatlar, ictimai-siyasi təşkilat və hərəkatlar);

2) siyasətlə dolayısıyla bağlılığı olanlar (KİV, müxalifət, lobbiçi strukturlar, beynəlmiləl korporasiyalar).

Dövlət informasiya siyasətinin subyektləri cərgəsinə səlahiyyətlərinə informasiya-psixoloji sferada sosial-siyasi münasibətlərin tənzimlənməsi aid olan dövlət hakimiyyəti və idarəetmə orqanları, həmçinin bu sahədə mövcud dövlət tənzimlənməsi məsələlərini həyata keçirən qeyri-dövlət subyektləri daxildir.

Onların iki kateqoriyasını fərqləndirmək mümkündür:

1. Dövlət informasiya siyasətinin dövlət subyektləri.

2. Kütləvi informasiyalaşdırma və kommunikasiya subyektləri.

Daha əlçatan olsun deyə informasiya siyasətinin subyektlərini aşağıdakı kimi də təsnifləşdirə bilərik:

- dövlət, dövlət orqanları, vətəndaş cəmiyyəti institutları, mediaholdinqlər, KİV və KK, fərdi şəxslər;

- hakimiyyət və siyasi münasibətlərin aktorları, dövlət xidməti.

Qeyd etməliyik ki, müasir Azərbaycanda dövlət və hər üç ampluasında əsas informasiya daşıyıcısı olan media arasında xoş mərama və qarşılıqlı anlaşmaya əsaslanan pozitiv münasibətlər formalaşmışdır. Heç şübhəsiz, ölkəmizə simpatiyası və xeyirxah məramı ilə fərqlənməyən bəzi beynəlxalq güc mərkəzlərinin qısqanclıqla yanaşdığı və bəzən də hər vasitə ilə pozmağa çalışdığı belə bir konsensusun əldə olunmasında dövlətin iradəsi ilə yanaşı ölkənin media camiəsinin də şəksiz rolu vardır. Buna görə də dövlətlə kütləvi informasiya vasitələrinin qarşılıqlı əlaqəsi dövlət informasiya siyasətinin çox mühüm tərkib hissəsini təşkil edir.

Müasir mərhələdə Azərbaycanda informasiya siyasəti məkanının iki modusunu fərqləndirə bilərik: ictimai (cəmiyyət-KİV-dövlət) və dövlət (dövlət-KİV-cəmiyyət).

Həmin üçbucaq çərçivəsində mövcud olan informasiya-kommunikasiya məkanı vətəndaş strukturları, massmedia və hakimiyyət orqanlarının birgə təmas platforması kimi çıxış edir. Belə bir səmimi və işgüzar tərəfdaşlığın formalaşmasının substansional faktorları cəmiyyət və hakimiyyət institutları ilə media seqmentinin qarşılıqlı tolerant və milli maraqlar müstəvisində köklənmiş fəaliyyəti ilə şərtlənməkdədir. Həmin faktorlar hansılardır?

1. Vətəndaş institutlarının KİV-in yardımı ilə həyata keçirdiyi ictimai informasiya siyasəti; kütləvi informasiyaya olan sosial sifarişin reallaşdırılması vasitəsilə vətəndaşların informasiyaya olan tələbatının ifadəsi; xüsusi informasiya siyasəti (ayrı-ayrı şəxslərin informasiya maraqları, kütləvi informasiyaya olan fərdi sifarişlər).

2. Hakimiyyət orqanları və onlara məxsus mətbuat xidmətlərinin KİV vasitəsilə həyata keçirdiyi dövlət informasiya siyasəti (institusional və idarəetmə ilə bağlı informasiya maraqları. Rəsmi sifarişin həyata keçirilməsi).

3. Korporativ (media) informasiya siyasəti – nəşrlərin təsisçiləri və jurnalist heyəti (mediaholdinqlər və sahibləri), sosial-korporativ infomaraqlar, kütləvi informasiyaya fərdi sifarişlərin reallaşdırılması.

Dövlət informasiya siyasətinin vəzifəsi hakimiyyət orqanları və vəzifəli şəxslərin informasiya sferasında ictimai inkişafın müəyyən zaman kəsiyində dövlətin informasiya

siyasətinin qarşısında duran məqsədlərin təmin olunmasına yönəlmiş fəaliyyətinin arzu edilən nəticəsidir.

Bununla əlaqədar dövlət tərəfindən konkret səlahiyyətlərlə mükəlləf edilmiş subyekt dövlət informasiya siyasətinin məqsədlərinin həyata keçirilməsi üçün mütəmadi olaraq siyasi vəzifələri təshih etməli, mövcud siyasətin prinsip, metod və istiqamətlərini dəqiqləşdirməlidir.

Müasir şəraitdə informasiyalaşma siyasəti dövlət informasiya siyasətinin nüvəsini, informasiya təhlükəsizliyi siyasəti isə onun xarici qılafını təşkil edir [5].

Beləliklə, dövlət informasiya siyasətinin mahiyyəti bu hadisəyə istər siyasətin subyektləri, istərsə də cəmiyyətin maraqları nöqteyi-nəzərindən yanaşan hər bir tədqiqatçının fərdi mövqeyindən asılıdır.

Ölkənin media sənayesi və onun istehsal etdiyi informasiya məhsulu Azərbaycanda demokratiya, aşkarlıq, söz və fikir azadlığı kimi fundamental hüquq və bəşəri prinsiplərin keyfiyyət və miqyas ölçülərini göstərən ən dəqiq indikatorlardan biri olmaqla qalmayıb həm də informasiya-kommunikasiya texnologiyalarının inkişaf səviyyəsini göstərən parametrə çevrilmişdir.

Ölkənin informasiya mühitini bu gün üçün ənənəvi olaraq çap, elektron və internet mediası müəyyənləşdirir. Postsənaye dövrü, informasiya cəmiyyətinin təşəkkülü və cəmiyyət həyatının istisnasız olaraq bütün sahələrində cərəyan edən modernləşmə prosesləri informasiya mənbələrinin və ehtiyatlarının da diversifikasiyasını diktə edir.

Beləliklə, növbəti informasiya inqilabının nəticəsi kimi təzahür etmiş postsənaye cəmiyyəti şəraitində informasiya siyasətinin mahiyyət və strukturuna nəzəri yanaşmaları öyrənməklə, beynəlxalq təcrübə müstəvisindən onun ən müxtəlif aspektlərini nəzərdən keçirməklə informasiya siyasətinin həyata keçirilməsi istiqamətində nisbətən təzə olsa da bütövlükdə konkret təcrübəsi və uğurları olan Azərbaycan Respublikasının dövlət informasiya siyasətinin təhlilinə müraciət etmək olar.

İnformasiya siyasətinin əsas mühiti informasiya məkanıdır. Onun mahiyyəti isə tədqiqatçının yanaşma metodologiyasından asılı olaraq fərqlənə bilər. Hesab edirik ki, informasiya siyasətinin strukturunu subyekt-obyekt münasibətləri müstəvisindən sərfnəzər etmək mümkündür.

İnformasiya siyasəti hər bir dövlət kimi Azərbaycan Respublikasının da siyasətinin vacib istiqamətlərindən biridir. Dövlət mexanizmi siyasətlə yanaşı həmçinin siyasi mübarizənin fəal subyekti kimi çıxış etməklə həmin mübarizənin qayda, sərhəd və formalarını qanunvericilik əsasında təmin edir, bu sahədə hüquq-mühafizə və hüququn tətbiqi praktikasını həyata keçirir, həmçinin həmin mübarizədə qanunun imkan verdiyi çərçivədə dövlət hakimiyyətinə malik subyektin tərəfində çıxış edir.

ƏDƏBİYYAT

1. Попов В.Д. Государственная информационная политика: состояние и проблемы формирования. Массовые информационные процессы в современной России: Очерки / Отв. ред. А.В. Шевченко. Москва: Изд-во РАГС, 2002, с. 20.
2. Тризно Т.А. Государственная информационная политика Канады сквозь призму электронного правительства: теория и практика реализации. Монография / Т.А.Тризно, Е.Е.Рябцева. Астрахань: Астраханский государственный университет, Издательский дом «Астраханский университет», 2014, 142 с.
3. Крат Ю.Г., Шрамкова И.Г. Основы информационной безопасности: учеб. пособие / Хабаровск: Изд-во ДВГУПС, 2008, 112 с.

4. Niyazov X.Q. Dövlət informasiya siyasəti (KİV timsalında), Bakı: Elm və təhsil, 324 s.
5. Нисневич Ю. А. Национальная безопасность: информационная составляющая. Москва, 2005, 156 с.

Халид Ниязов

СТРУКТУРНЫЕ ЭЛЕМЕНТЫ ГОСУДАРСТВЕННОЙ ИНФОРМАЦИОННОЙ ПОЛИТИКИ

Суть государственной информационной политики определяется ее формой и содержанием, предусматривающим совокупность целей и задач, а также принципов и направлений деятельности органов власти и государственных должностных лиц, формирующих и осуществляющих текущую политику.

Цель государственной информационной политики является одним из важнейших элементов содержания данной политики. В качестве объекта государственной информационной политики можно рассматривать отношения и процессы в информационной сфере.

Основной средой информационной политики является информационное пространство.

Ключевые слова: *информационная политика, информационная среда, информационные ресурсы, информационная безопасность, задачи информационной политики.*

Khalid Niyazov

STRUCTURAL ELEMENTS OF STATE INFORMATION POLICY

The essence of the state information policy is determined by its form and content, providing for a set of goals and objectives, as well as the principles and directions of activities of government bodies and government officials that form and implement current policies.

The purpose of the state information policy is one of the most important elements of the content of this policy. As an object of the state information policy, one can consider relations and processes in the information sphere.

The basic information policy environment is the information space.

Keywords: *information policy, information environment, informational resources, information security, objectives of information policy.*

(Akademik İsmayıl Hacıyev tərəfindən təqdim edilmişdir)

İLHAMİ ƏLİYEV
AMEA Naxçıvan Bölməsi
E-mail: ilhamialiyev@yahoo.com.tr

NAXÇIVAN BÖLGƏSİNDƏKİ İMAMZADƏLƏR İSLAM MƏDƏNİYYƏTİ ABİDƏSİ KİMİ

Məqalədə Naxçıvan Muxtar Respublikası ərazisindəki İslam mədəniyyəti abidələri sırasına daxil olan Naxçıvan şəhər, Nehrəm və Parçi imamzadələrindən bəhs olunur. Qeyd edilir ki, bu imamzadələr öz vətənlərindən didərgin düşmüş imam övladları üçün tikilmişdir və əsrlərdir ki, yerli əhali tərəfindən hörmətlə yad edilir. Özündə yerli və İslam mədəniyyətinə xas memarlıq xüsusiyyətlərini birləşdirən bu dini, tarixi abidələr əsasən Səfəvilər dövründə ucaldılmışdır. Səfəvilər dövlətinin dini siyasətinə uyğun olaraq formalaşdığına görə imamzadə kompleksləri əsasən bu dövlətin əhatə etdiyi torpaqlarda inşa edilmişdir.

Açar sözlər: *islam, imamzadə, abidə, mədəniyyət, memarlıq kompleksləri.*

Azərbaycanın qədim tarixə malik, zəngin mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan Muxtar Respublikası ərazisində günümüzədək qalan İslam mədəniyyəti abidələrdən biri də imamzadələrdir. Səfəvilər dövrünə aid olan bu memarlıq abidələri – Naxçıvan şəhər imamzadəsi, Nehrəm imamzadəsi, Parçi imamzadəsi və s. bu günümüzədək gəlib çatmışdır. İmamzadə "imam" ərəb, "zadə" fars sözlərinin birləşməsindən yaranan imam oğlu və ya övladı deməkdir. İmam övladlarının Azərbaycanda, xüsusilə də Naxçıvanda dəfn edilməsinə gəldikdə isə şiələrin yeddinci imamı Museyi-Kazım hicri-qəməri 183-cü ildə (miladi 799-800-cü ildə) xəlifə Harun ər-Rəşid zamanında zəhərlənib öldürüldükdən sonra onun övladları təqib olunmuş və onlar canlarını qurtarmaq üçün didərgin düşüb müxtəlif yerlərə qaçmışlar [6, s. 57]. Azərbaycanda həmin yerlərin arasında Naxçıvan bölgəsi də olmuşdur. İslam dünyasında Məhəmməd peyğəmbərin nəslindən olan və bu nəslin davamçıları sayılan imamların övladları xalq arasında böyük nüfuz sahibi olduqları üçün onlar öləndən sonra da qəbirləri əsrlərdir ki, yerli əhali tərəfindən müqəddəs tutularaq ziyarət yerlərindən birinə çevrilmişdir. Bu qəbirlərin üzərində insanlar sonralar İslam memarlığına xas türbələr inşa etmiş, bu türbələri imam övladları üçün olduğundan imamzadə adlandırmış və hər zaman onları müqəddəs məkana çevirmişlər.

AMEA-nın müxbir üzvü H.Səfərli qeyd edir ki, orta əsrlər zamanı bu müqəddəs yerlərin funksiyası təkcə ziyarətgah olmaqla məhdudlaşmamış, onlar həm də ərazidə fəaliyyət göstərən müxtəlif sufi təriqətlərinə mənsub dərvişlərin yığıncaq, ibadət, zikr və yaşayış yeri olmuşdur [8, s. 99]. Görünür, bu abidələr həm də İslam ayinlərinin və ibadətlərin həyata keçirilməsi üçün nəzərdə tutulmuşdur.

Bölgə ərazisində günümüzədək gəlib çatmış imamzadələrdən biri Naxçıvan şəhər imamzadəsidir. İmamzadə kompleksi şəhərin cənub-şərq hissəsində, qədim Naxçıvan-qalanın qərb tərəfində yerləşir. Bu dini memarlıq abidəsi 3 binadan ibarətdir. Abidənin cənub tərəfində yerdən dördbucaqlı formada yuxarısı silindr şəkilli inşa edilən türbə

onun əsas hissəsini təşkil edir. Onun üzərində Bərdə türbəsi və Şeyx Səfi türbəsində olduğu kimi xalını xatırladan bəzək ünsürü və kufi xətti ilə dəfələrlə təkrarlanan "Allah" sözü işlənmişdir [7, s. 179]. Türbənin içərisində uzunluğu 150 sm, hündürlüyü 88 sm, eni 115 sm olan, sənduqə tipli bir qəbir vardır. Bu məzarın üzərində onun kimə məxsus olması haqqında məlumat yoxdur. Yerli əhalinin bildirdiyinə görə bu şiələrin səkkizinci imamı İmam Rzanın oğlunun qəbridir. Bu fikri rus alimi V.M.Sısoyev də qeyd etmişdir [10, s. 107]. O, həmçinin burada olan böyük qəbrin üzərindəki yazısı olan sarı mərmər daşdan sinə daşı və qəbrin yanında əhali tərəfindən müqəddəs sayılan iki ədəd qara daşın olduğunu da yazmışdır. Təəssüf ki, həmin kitabə günümüzədək gəlib çatmamışdır. İndiki vəziyyətdə qəbir qara mərmər daşla üzlənmişdir. Qəbrin səkkizinci imamın oğluna aid olması fikrinin doğru olmasına gəldikdə isə onun xalq arasında imamzadə adlandırılması bu fikri deməyə əsas verir. Bu məlumatın düzgünlüyünün bir səbəbi isə yerli şiə əhalinin imamlara böyük hörmətinin olması ilə bağlıdır. İmamzadənin əsasını təşkil edən bu türbənin inşa edilmə tarixinə gəldikdə isə keçən əsrin 20-ci illərində "Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyəti"nin göndərişi ilə Naxçıvanda olmuş epiqraf İ.Əzimbəyovun tədqiqatlarından aydın olur ki, vaxtilə onun üzərində – şimal-qərb tərəfində nəsx xətti ilə yazılmış kitabəsi olmuşdur [9, s. 310-311]. Həmin kitabədən aydın olmuşdur ki, bu abidə Səfəvi şahı II Təhmasibin zamanında, yəni 1722-1732-ci illərdə Hacı Fulad bəyin oğlu Həzrət Rufai bəy tərəfindən inşa etdirilmişdir [7, s. 180-181]. Kitabə sonradan yox olduğundan son illərdə türbə təmir edilərkən İ.Əzimbəyovun məqaləsindən istifadə edilərək kitabənin yerinə yenisi qoyulmuşdur.

Bu türbəyə bitişik kompleksin dördbucaqlı formasında olan birinci salonu ondan şimalda yerləşir. Türbədən ona təxminən 1,5 m ucalığında olan giriş qapısı vardır. Yəni türbəyə giriş onun şimal tərəfindən olan yeganə qapısındandır. Birinci salondan şimalda isə ona bitişik, həm eni, həm də uzunluğuna görə ondan nisbətən böyük ikinci salon yerləşir. Birincidən fərli olaraq ikinci salonun mərkəzində böyük günbəzi vardır. Çöldən kompleksə giriş qapısı bu salonun qərb tərəfindəndir. Türbədəki məzardan başqa imamzadə kompleksində başqa bir qəbir yoxdur. Amma V.M.Sısoyevin yazdığına görə bu hissədə Naxçıvan xanlarının məqbərəsi olmuşdur. Müəllif Naxçıvan xanlarından Abbasqulu xanın oğlu Mustafa Qulu xan Naxçıvanskinin orada dəfn edildiyini qeyd etmiş, yan divarlarda taxçalar, şimal divarda buxarı olduğunu yazmışdır [10, s. 108]. İndiki vəziyyətdə divarlardakı taxçalar qalır, buxarı isə yoxdur. Yerli əhali buradakı qəbri ziyarət edərkən kişilər birinci salonda, qadınlar isə ikinci salonda ibadət edirlər.

İmamzadə kompleksindən şimalda ondan bir neçə metr yüksəkdə yerdən dördbucaqlı formada, həmin dördbucağın üzərində altı bucaqlı və başı soğanvari formada olan bir türbə vardır. Üzərində heç bir kitabəsi olmayan bu türbənin iki qapısı vardır. Daha doğrusu onun alt zirzəmi hissəsinə giriş qərb tərəfindən üst hissəsinə giriş isə şimal tərəfindəndir. İçərisində qəbir yoxdur. Nisbətən daha salamat qalmış bu türbədə alt zirzəmi hissə sərdabə ola bilər. Belə ki, bu haqda V.M.Sısoyev yazır ki, imamzadəyə yaxın, çox da böyük olmayan, bir məzarüstü tikili vardır. Onun içində, torpağın üzərində üstünə mumiya çəkilmiş cəsədin bütöv bir skeleti vardır. Ardınca müəllif yazır, deyirlər ki, əvvəllər cəsədi çıxarıb Kərbəla və ya Nəcəfə aparmaq istəmişlər, 1918-ci il hadisələri buna mane olmuş və cəsəd bu vəziyyətdə qalmışdır [10, s. 108]. Buradan aydın olur ki, bu türbənin alt qatı, yəni zirzəmi hissəsi qəbir yeri olmuşdur.

Qeyd edək ki, imamzadə kompleksində və onun yaxınlığında yerləşən hər iki türbə orada dəfn edilmiş müqəddəs insanların şərəfinə inşa edilmişdir. Bu həmin müqəddəslərə onları tanıyan və onlara böyük hörməti olan insanların və dövrün hakim dairələrinin istəyindən yaranmışdır. Yəni əvvəl qəbirüstü türbələr, sonra isə birinci türbəyə bitişik

digər yardımçı binalar tikilmişdir [4, s. 191]. Yardımçı binaların Kəngərli xanlarının qəbirləri üzərində və türbəyə gələn ziyarətçilər üçün tikildiyini də demək olar.

Hazırda imamzadə kompleksində təmir işləri aparılır.

Naxçıvan bölgəsi ərazisində yerləşən digər böyük imamzadələrdən biri də muxtar respublikanın iri yaşayış yerlərindən biri olan Babək rayonun Nehrəm kəndindədir. İndi də dəfn mərasimləri keçirilən qəbiristanlığın mərkəzində yerləşən bu imamzadə türbə, məscid, təkyə və başqa yardımçı binalardan ibarət böyük bir kompleksdir [7, s. 183]. Burada da kompleksin əsasını türbə (eni 8 m, uzunu 9,5 m, hündürlüyü 4,5 m, günbəzinin hündürlüyü 6 m [2, s. 144]) təşkil edir.

Onun içərisində bir qəbir vardır. Bu qəbirin üzərində heç bir kitabə olmadığından onun kimə məxsus olması dəqiq müəyyən edilməmişdir. Yalnız kənd əhalisinin dediklərindən belə məlum olur ki, bu məzar yeddinci imam Museyi-Kazımın oğlu Seyyid Əqilə məxsusdur. O, da Abbasilərin zülmündən qaçaraq, bölgənin bu iri yaşayış yerinə pənah gətirmiş, burada əhali arasında bir imam övladı kimi böyük hörmət qazanmış, ölümündən sonra qəbri müqəddəs ziyarətgaha çevrilmiş və üzərində türbə inşa edilmişdir.

Qeyd edək ki, Seyyid Əqilin qardaş və bacıları da Azərbaycan və qonşu ölkələrin ərazisində dəfn edilmişlər. Belə ki, onun qardaşları Səfi (Səffan) Ordubadın Düylün kəndində, İbrahim Şərurun Xanlıqlar (Parçı) kəndində, Əhməd Zəngəzurun (Mehri rayonunda) Buğakar kəndində [5, s. 11], Qasım Təbriz şəhəri yaxınlığında Sofiyan qəsəbəsində, bacıları Hökümə xanım Abşeron rayonundakı Şıx kəndində, Rəhimə xanım Sabunçu rayonundakı Nardaran qəsəbəsində dəfn olunmuşlar.

Bölgə əhalisinin ən çox sevdiyi və ziyarət etdiyi müqəddəs yerlərdən birinə çevrilmiş bu imamzadə türbəsi və onun digər binaları olan məscid, təkyə və sairənin heç bir kitabəsi günümüzədək qalmamışdır. Yalnız türbənin daxili divarlarında dini məzmunlu sözlər yazılmışdır. Divarlarda gəc və kaşı üzərində yazılan bu kəlmələri AMEA-nın müxbir üzvü, professor H.F.Səfərli oxuyaraq tədqiq etmiş və belə nəticəyə gəlmişdir ki, həmin yazılar hicri-qəməri 1138-ci ildə (miladi 1725-ci ildə) Mehdi adlı xəttat tərəfindən yazılmışdır [5, s. 12].

İmamzadə binasında 2006-2007-ci illərdə aparılan bərpa işləri zamanı abidənin eyvanı hörülərək dəhlizə çevrilmiş, insanların ibadət etmələri üçün binanın qərb tərəfinə düzbucaqlı formalı məscid və qoşa minarə əlavə edilmişdir. Bişmiş kərpicdə inşa olunmuş bina kompleks halına salınmışdır [2, s. 144]. Hazırda imamzadədə təmir işləri aparılır.

İmamzadə Naxçıvan imamzadəsi ilə bir dövrdə – Səfəvi şahı II Təhmasibin zamanında inşa edilmişdir [7, s. 186].

Bölgə ərazisində günümüzədək qalan imamzadələrdən biri də Şərur rayonunun Xanlıqlar kəndindədir. Əslində bu imamzadə keçən əsrdə Xanlıqlar kəndi ilə birləşən Parçı kəndində yerləşir. Elə kəndin adı ilə Parçı imamzadəsi adlanır. Yerli əhali tərəfindən böyük hörmətlə ziyarət edilən bu dini abidə kəndin şimal tərəfində tikilmişdir. Günbəzi böyük olan bu imamzadənin mərkəzi salonunda bir qəbir yerləşir. Son dövrlərdə aparılan təmir işləri zamanı qəbrin üstü götürülmüş, başdaşı və sinədaşı qoyulmuşdur. Lakin üzərində heç bir kitabə yoxdur. 1925-1928-ci illərdə "Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyəti"nin Naxçıvan şöbəsi tərəfindən aparılan araşdırmalar zamanı Parçı kəndindəki bu abidə də qeydə alınmışdır. Belə ki, 1928-ci ilə aid 40 №-li protokolda göstərilmişdir ki, Xanlıqlar kəndinə yapışıq Parçı kəndində üstündə böyük günbəzi və böyük həyəti olan bir pir vardır ki, camaat onu "Şahzadə İbrahin ibn Musa" ziyarətgahı adlandırır [1, s. 66]. Həmin cəmiyyətin üzvlərindən olan Məhəmməd Rasizadə bu haqda nəşr etdirdiyi məqaləsində göstərmişdir ki, qəbirin kitabəsində "İbrahim ibn Musa" ya-

zılmışdır [3, s. 81]. Həmin illərdə qəbrin üzərində olmuş tarixi kitabəsi onun İbrahim Musa oğluna aid olduğunu göstərirdi. Təəssüf ki, günümüzədək bu məlumatı bildirən kitabə qalmamışdır. Atasının adından, imamzadə adlandırılmasından və yerli əhalinin dediklərindən aydın olur ki, bu qəbir yeddinci imam Museyi-Kazımın oğlanlarından biri olmuş İbrahimə məxsusdur [7, s. 188]. O, bu kənddə məskunlaşmış və burada da dünyasını dəyişərək dəfn edilmişdir. Əsrlərdir ki, bölgə əhalisi onun xatirəsinə tikilmiş bu imamzadəyə gələrək onun qəbrini ziyarət edir.

Əsaslı şəkildə təmir edildikdən sonra, 2016-cı ilin fevralında açılışı olan Parçı imamzadəsinin tarixi görkəmi və qədim memarlıq elementləri qorunub saxlanmışdır.

İslam mədəniyyəti abidələri sırasına daxil olan imamzadələr tarixi Azərbaycan ərazisində, xüsusilə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsində Səfəvilər dövründə bu dövlətin dini siyasətinə uyğun olaraq formalaşmışdır. Belə komplekslərin səciyyəvi xüsusiyyətləri əvvəllər mövcud olmuş dəfn tikililərini təmir-bərpa və yenidənqurma yolu ilə abadlaşdırılmasından və bərpa olunmuş məqbərəyə bitişik, məscid, təkyə və digər xidmət otaqları tikilməsi yolu ilə dini kompleksin yaranmasından ibarət olmuşdur [4, s. 191]. Bu dövrdə formalaşdığına görə imamzadə kompleksləri əsasən Səfəvilər dövlətinin ərazisində dəfn edilmiş imamlar və onların övladlarının xatirəsinə inşa edilmişdir.

ƏDƏBİYYAT

1. Xəlilov F. Naxçıvanı öyrənən elmi cəmiyyət. Bakı: Nurlan, 2005, 196 s.
2. Qənbərova G. Naxçıvanın Arazboyu türbələrinin bədii xüsusiyyətləri və memarlıq quruluşu / II Uluslararası Aras havzası sempozyumu. 13-15 Aralık 2011- Iğdır. Erzurum: Zafer Ofset Ltd., 2012, s. 139-149.
3. Rasizadə M. Şərur dairəsinə səyahət haqqında qeydlər / "Azərbaycanı öyrənmə yolu",. № 4-5, Bakı, 1930, s. 81-83.
4. Salamzadə Ə.V., Məmmədzadə K.M. Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri. Bakı: Elm, 1985, 268 s.
5. Səfərli H.F., Cəfərov H.R. Naxçıvan ziyarətgahları. Bakı: Qorqud, 1998, 84 s.
6. Səfərli H.F. Naxçıvan imamzadəsinin kitabələri / Azərbaycanda elmin inkişafı və regional problemlər (28 fevral – 1 mart 2005-ci il tarixdə keçirilmiş elmi konfransın materialları). Bakı: Nurlan, 2005, s. 56-63.
7. Səfərli H.F. Naxçıvanda sufiliklə bağlı mərkəzlər. Bakı: Elm və təhsil, 2013, 328 s.
8. Səfərli H. Naxçıvanın türk-islam mədəniyyəti abidələri. Naxçıvan: Əcəmi, 2017, 216 s.
9. Азимбеков И. Мусульманские надписи Тифлиса, Эривани и Нах. ССР // Известия «Азкомстарис»а, вып. 4 (тетрадь 2). Баку, 1929, с. 295-311.
10. Сысоев В.М. Нахичевань на Араксе и древности Нах. ССР (отчет о поездке летом 1926 г.). Известия «Азкомстарис»а, вып. 4 (тетрадь 2). Баку, 1929, с. 87-121.

Ильхами Алиев

ИМАМ-ЗАДЕ В НАХЧЫВАНСКОМ РЕГИОНЕ КАК ПАМЯТНИК ИСЛАМСКОЙ КУЛЬТУРЫ

В статье описываются расположенные на территории Нахчыванского региона исламские культурные памятники Имам-заде (места захоронения потомков имамов): в городе Нахчыване, в селе Неграм, в селе Парчы и др. Отмечается, что эти Имам-заде воздвигнуты в честь имамов или их потомков, которые не по своей

воле покинули родину. Эти исторические религиозные памятники были построены в эпоху Сефевидов на местах погребения имамов. Мы пришли к выводу, что эти памятники существовали только на территории Сефевидского государства и соответствовали его религиозной политике.

Ключевые слова: *ислам, Имам-заде, памятник, культура, архитектурные комплексы.*

Ilhami Aliyev

IMAM-ZADEHS IN THE NAKHCHIVAN REGION AS MONUMENTS OF THE ISLAMIC CULTURE

The paper describes Islamic cultural monuments of Imam-zadeh (places of burial of imams' descendants) located in the Nakhchivan city, in the village of Nehram, in the village of Parchy located in the territory of the Nakhchivan region. It is noted that these Imam-zadehs were erected in honor of the imams or their descendants, who did not voluntarily leave their homeland. These historical religious monuments were built during the Safavid era at the burial ground of the Imams. We came to the conclusion that these monuments existed only in the territory of the Safavid state and corresponded to its religious policy.

Keywords: *Islam, Imam-zadeh, monument, culture, architectural complexes.*

(AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2018, № 1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2018, № 1

PROCEEDINGS OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES NAKHCHIVAN BRANCH OFFICE
The series of social sciences and humanities, 2018, № 1

SARA HACIYEVA
AMEA Naxçıvan Bölməsi
E-mail: hacyevasara@ yahoo.com

XVIII-XIX ƏSRLƏRDƏ NAXÇIVANDA BAĞÇILIQ VƏ BOSTANÇILIQ

Məqalədə XVIII-XIX əsrlərdə Naxçıvanda bağçılığın və bostançılığın inkişafına mane olan ictimai-siyasi vəziyyətə nəzər salınmışdır. Qeyd edilmişdir ki, dövrün çətinliklərinə baxmayaraq əhali kənd təsərrüfatının bu sahəsinə mühüm əhəmiyyət vermişdir. İnsanların həyat tərzinin yaxşılaşdırılması üçün bağçılıq və bostançılıq nəinki kəndlərdə, həmçinin şəhərətrafi yerlərdə də inkişaf etdirilmişdir. Bu isə bölgə əhalisinin bağ və bostan məhsullarına olan tələbatının ödənilməsində xüsusi əhəmiyyətə malik olmuşdur.

Açar sözlər: *Naxçıvan, kənd təsərrüfatı, bağçılıq, bostançılıq, üzümçülük.*

XVIII-XIX əsrlərdə əvvəllər olduğu kimi, Naxçıvan diyarının kənd təsərrüfatında bağçılıq və bostançılıq mühüm rol oynayırdı. Bu bölgənin təbii coğrafi şəraiti burada bağ və bostançılıq təsərrüfatının inkişafı üçün münbit şərait yaradırdı. Lakin bölgədə gedən ictimai-siyasi vəziyyət təsərrüfat sahələrinin inkişafına gah mənfi, gah da müsbət təsir göstərirdi. Bu isə təbii hal idi. Siyasi sabitlik təsərrüfata maraq göstərən əhalinin bu sahəni inkişaf etdirməsinə münbit şərait yaradırdısa, qeyri-sabitlik bu inkişafa mənfi təsir göstərirdi.

Qeyd edək ki, bölgənin iqlim şəraitinin əlverişli olması və bunun da əhalinin təsərrüfat həyatında mühüm rol oynaması hələ qədim və orta əsrlər dövründə yaşamış səyyah və alimlərin diqqətini çəkmişdir. Bu baxımdan XIV əsrin ikinci yarısı və XV əsrin əvvəllərində yaşamış orta əsrlər şərqinin görkəmli səyyahı, coğrafiyaşünası və astronomu Əbdürrəşid əl-Bakuvi Naxçıvan haqqında yazırdı: "Naxçıvan divarları və iç qalası olan Azərbaycanda gözəl şəhərdir. Bağlı-bostanlı, meşəli, meyvəli və çörəkli yerdir. Havası təmiz, suyu şirindir" [4, s. 132]. XVII əsrin məşhur türk səyyahı Evliya Çələbi də özünün "Səyahətnamə" əsərində bu diyarın təbiəti, suyu, meyvə bağları, üzümlükləri haqqında maraqlı məlumatlar vermişdir. Səyyah, Naxçıvan diyarının iqtisadiyyatında əkinçilik, bağçılıq, bostançılıq, tərəvəzçilik və heyvandarlığın mühüm yer tutduğunu qeyd etmişdir [19, s. 565].

Bütün dövrlərdə olduğu kimi, XVIII-XIX əsrlərdə də Naxçıvan diyarının təsərrüfat həyatında kənd təsərrüfatının digər sahələri ilə yanaşı, bağçılıq və bostançılığın inkişaf etdirilməsi əhalinin maddi ehtiyaclarının ödənilməsi üçün mühüm əhəmiyyət kəsb edirdi. Naxçıvanın təbii coğrafi şəraiti burada bir çox meyvə növlərinin yetişdirilməsinə imkan yaradırdı. Bu baxımdan da öz dadlı-ləzzətli meyvələri ilə Azərbaycanın digər bölgələrində və Yaxın Şərqdə şöhrət tapmışdı. Lakin hələ orta əsrlər dövründən bölgədə gedən ictimai-siyasi proseslər çox zaman buna ciddi mane olurdu. Burada gedən hərbi-siyasi proseslər nəticəsində bağların bir qismi dağılıb məhv olmuşdu [10, s. 107].

XVIII-XIX əsrlərdə Azərbaycanda bağçılığın ən mühüm mərkəzlərindən biri Naxçıvan diyarı idi. Bağçılıq təsərrüfatı əsasən iki sahəni əhatə edirdi. Bunlardan biri meyvə, digəri isə üzüm bağları idi. Naxçıvan diyarında bağçılıq Naxçıvan şəhərində, Ordubad mahalında, Əlincəçay mahallarında geniş yayılmışdı. Bu bölgədə nəinki dağ kəndlərində yaşayan əhali, hətta şəhərətrafi kəndlərin sakinləri də bağçılıqla məşğul olurdu. Şəhərdə kənd təsərrüfatı məhsullarının becərilməsi yerli hakimlərin mənafeyinə uyğun olduğundan onlar özləri bunun üçün şərait yaradırdılar. Dağ kəndlərində yayın qısa olması və qışın sərt keçməsi bir çox kəndlərdə bağçılıqla məşğul olmağa o qədər də imkan vermirdi [5, s. 45].

Naxçıvan diyarında bağçılıqla ən çox məşğul olan bölgə Ordubad olduğu üçün ilk əvvəl orada bağçılığın vəziyyəti haqqında müəyyən məlumat vermək lazımdır. Çünki Ordubadın təbii iqlim şəraiti, bərəkətli torpağı bağçılıq üçün daha çox sərfəli idi. Ordubad şəhərinin və eyni adlı bölgənin mahallarında bağçılıq əsas məşğuliyyət sahələrindən biri olmuşdur. Orta əsrlər dövründə yaşamış bir sıra müəlliflərin, o cümlədən də səyyahların Ordubad bağları və orada yetişdirilən meyvələr və üzüm növləri haqqında maraqlı məlumatları vardır. Burada yetişdirilən "Əlidərəsi" və "Kəsəyi" adlı üzüm növünün çox məhsuldar və dadlı üzüm olduğu haqda məlumat verilir və qeyd edilir ki, bu cür növlərə, nəinki Naxçıvan, hətta Azərbaycanın digər yerlərində belə rast gəlmək mümkün deyil [17, s. 97]. Ordubad bölgəsində yetişdirilən müxtəlif meyvə növləri və onlardan hazırlanan meyvə qurusu nəinki bölgənin özündə, həm də Azərbaycanın digər bölgələrində yüksək qiymətləndirilmişdir. Ordubadın quru meyvələri Peterburqa, Moskvaya və b. şəhərlərə göndərilirdi, Həmçinin, bu bölgənin üzümündən hazırlanan şərablar böyük şöhrət qazanmışdı [1, s. 217].

Qeyd edək ki, Ordubadda istehsal olunan məhsul hər zaman həm təzə, həm də qurudulmuş şəkildə satışa çıxarılır və bu ənənə bu gün də davam etdirilir. Araşdırmalardan belə məlum olur ki, tarixən Naxçıvan bölgəsində meyvəçiliyin ən geniş yayıldığı yer Ordubad və onun kəndləri olmuşdur. Buna görədir ki, hələ orta əsrlər dövründən Təbriz bazarlarında Ordubad meyvələri xüsusi şöhrət qazanmışdı. Belə ki, bu meyvələr arasında "Mələs" alçası və "Əbutalib" əriyinin qurusundan saraylarda və bütün mötəbər ziyafətlərdə verilən plov xuruşu üçün istifadə olunmuşdu [2, s. 48; 6, s. 50].

Hələ XIII əsrdən tanınan "Badamı" əriyinin də vətəni məhz Ordubad olmuşdur. Badamı adı ilə tanınan ərik daha çox Əndəmic və Aza (Azadkənd – S.H.) kəndlərindəki meyvə bağlarında yetişdirilmişdir. Həmçinin, bu ərik növü Naxçıvanın digər bölgələrinə də yayılaraq Şərur rayonunun Xanlıqlar, Dərvişlər, Babək rayonunun Vayxır, Sirab, Kültəpə kəndlərində də yetişdirilməkdədir. Qeyd edək ki, bu ərik 1898-ci ildə Kaliforniyada təşkil olunmuş meyvəçilik sərgisində birinci yerə layiq görülmüşdür. Ordubadda və Naxçıvan şəhərinin ətraf kəndlərində "Şalax" əriyi yetişdirilmişdir ki, bu ərik növü buradan Azərbaycanın digər bölgələrinə yayılmışdır. Lakin Naxçıvanda becərilən bu ərik sortu digər bölgələrdə becərilənlərdən özünün dadı, ətri, quraqlıq, istilik və şaxtaya davamlılığı, eyni zamanda, görünüşü ilə fərqlənir [23].

Məhz buna görədir ki, Ordubad rayonu tarixən meyvəçilik diyarı kimi tanınıb. Təsadüfi deyil ki, bu qədim yurd yerini "Bağlar diyarı" adlandırırlar. Burada yetişdirilən meyvələrin – əriyin, şaftalının dünyada misli-bərabəri yoxdur: Əbutalibi, Badamı, Şalağı, Lumu, Ərik, Ağ ərik, Növrəste, Bal yarım ərik, Şaftalı, Nazlı, Güştü, Hulu, Sələmu, Şərəlli, Tərəlli, Qərəlli, Tüklü şaftalı, Tüksüz şaftalı və s.

Tarixin bütün dövrlərində buraya yolu düşən turist və səyyahlar Ordubad meyvələri haqqında yüksək fikirlər söyləmiş, hətta buradan dünyanın bir çox ölkələrinə müxtəlif tinglər aparmışlar. Ordubadın tarixən bağlar şəhəri olması fikrini "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə verilən statistik məlumatlar da təsdiq edir. Həmin məlumatlardan aydın olur ki, XVIII əsrin əvvəllərində bu şəhərdə yaşayan əhali ən çox üzümçülük və bağçılıqla məşğul olmuşdur. Naxçıvanda, o cümlədən də Ordubad bölgəsində

üzümçülüyün də tarixi ən qədim dövrlərə gedib çıxır. Hələ çox qədimdən burada üzümdən kişmiş, mövüc, bəkməz və sair məhsullar hazırlayaraq qonşu ölkələrə ticarət məqsədi ilə aparırlar. Ordubad bölgəsi özünün üzüm bağları ilə məşhur idi. Güman etmək olar ki, üzümçülük ordubadlıların əsas gəlir mənbələrindən birini təşkil edirdi. Təkcə o faktı göstərmək kifayətdir ki, türk vergi orqanları Ordubad şəhərində hər birinin sahəsi 1 qitə olan 103 üzüm bağı qeydə almışdılar. Bu bağlardan 15-i adı göstərilməyən məhəllədə, 27-si Anbaras məhəlləsində, 17-si Mingis məhəlləsində, 29-u Sərşəhər məhəlləsində, 15-i isə İçtərəngi məhəlləsində yerləşirdi [13, s. 125-133; 11, s. 83].

Hələ qədim zamanlardan bu diyarın meyvəçiliyində şaftalı ərikdən sonra əhəmiyyətinə görə ikinci yeri tutmuşdur. Şaftalının Salami, Kəhrəba, Zəfəran, Şirvannazı, Nazlı, Ağgüştü, Məhsəti və s. sortları becərilir. Azərbaycanın, o cümlədən Naxçıvan diyarının iqlim-torpaq şəraitinin rəngarəngliyi, əlverişli təbii-coğrafi mövqedə yerləşməsi, müxtəlif meyvə bitkilərinin becərilməsi üçün çox yararlı olması meyvəçiliyin böyük iqtisadi əhəmiyyətə malik olmasına imkan yaradırdı [8, s. 50-53]. Ordubad meyvələri içərisində bu bölgənin qozu da hər zaman olduğu kimi bəhs olunan dövrdə Cənubi Azərbaycanda və İranda məşhur idi. Bütövlükdə hər il Naxçıvan xanlığında 1 mln. 300 min ədəd qoz yığılırdı [22, s. 749]. Məşhur səyyah Hacı Zeynalabdin Şirvani "Bustanüssəyahət" (Səyahət güllüyü) kitabında yazır: "Ordubad ürəkaçan gözəl bir qəsəbədir. Ora adama fərəh verən yerdir. Onun möhkəm qalası, bol suyu və çoxlu bağı vardır. Meyvəsi bol və dadlıdır. Havası insana sağlamlıq verir"... [1, s. 207].

XVIII əsrin sonu-XIX əsrin əvvəllərində də Ordubadda bağçılığın inkişafına önəm verilmişdir. Ordubad bölgəsində 200 xalvar əkin sahəsində meyvə bağları salınmışdı ki, bunun da 30 xalvarı Ordubad şəhərində və onun ətrafında yerləşirdi [3, s. 20]. V. Qriqoryevin verdiyi məlumata görə, Ordubad şəhərində olan evlərin hamısının həyətində meyvə bağı salınmışdı. Şəhərin ətrafında isə şəhər əhalisinə məxsus 193 bağ var idi [21, s. 218]. Hər il Ordubaddan Naxçıvan şəhərinə ümumi dəyəri 12 min rubl təşkil edən 20 min pud üzüm, ərik, şaftalı, alma və s. meyvələr göndərilirdi. 1857-ci ildə Ordubad şəhərində ümumi dəyəri gümüş pulla 36 min rubl olan meyvə istehsal edilmişdi. İstehsal edilmiş bu meyvənin əsas satış bazarını Naxçıvan, İrəvan, Tiflis, Aleksandropol və digər şəhərlər təşkil edirdi. XIX əsrin sonlarına aid olan məlumata görə, hər il Ordubaddan İrəvan şəhərinə 15 min pud ancaq qurudulmuş ərik göndərilirdi. Ümumiyyətlə götürdükdə, XIX əsrin 60-cı illərində Ordubaddan ixrac edilən məhsulların ümumi dəyəri gümüş pulla 60-70 min rubl təşkil edirdi ki, bunun da əsas hissəsi bağçılıq məhsullarının payına düşürdü [12, s. 13-17].

Ordubad bağçılığın əsasını təşkil edən meyvəçiliyə görə, nəinki, Azərbaycanda, eləcə də bütün Cənubi Qafqazda məşhur idi. XIX əsrin 30-cu illərinə aid məlumatda Ordubad bölgəsində 200 xalvar əkin sahəsində meyvə bağları salındığı bildirilirdi ki, onun da 30 xalvarı Ordubad şəhəri və ətrafında yerləşmişdi. XIX əsrin 70-ci illərində aparılmış təhqiqatın nəticələrinə görə burada bağlar Gilançay, Üstüpüçay, Dırnısçay, Əylisçay və Ordubadçay ərazilərində yerləşən kəndlərdə (Kələki, Biləv, Gənzə, və b.) və Ordubad şəhərində idi [18, s. 41]. Mühüm ticarət yolu ayrıcında yerləşən Ordubad Yaxın və Orta Şərq ölkələri ilə ticarət əlaqələri saxlamışdır. Ordubad öz bağları, uzunömürlü çinar ağacları ilə də məşhurdur. Bu çinarların bəzisinin 2000 ilə qədər yaşı vardır. Belə çinarlardan biri şəhərin Sərşəhər məhəlləsindədir. Gövdəsinin çevrəsinin uzunluğu 18 metr olan çinar öz nəhəngliyi ilə baxanları heyran edir [15, s. 26].

İ.Şopenin verdiyi məlumata görə, Ordubad dairəsinə daxil olan mahallar istisna olmaqla Naxçıvan xanlığında 541 üzüm və meyvə bağları var idi ki, bunların da 184-ü Naxçıvan şəhərində 166-sı Dərələyəz mahalında yerləşirdi. Naxçıvan diyarında üzümün

çox müxtəlif növlərinə rast gəlmək mümkün idi. Bu növlər bir-birindən özlərinin rəngi-nə, formasına, ölçüsünə və dadına görə fərqlənirdilər. Şopen burada qara, qırmızı, çəhrayi, yaşıl, yaşılımtıl, ağ, sarı, sarımtıl rəngli üzüm növlərinin olduğu haqda məlumat vermişdir [22, s. 745-748]. Qafqazın, o cümlədən İrəvan və Naxçıvan xanlıqlarının tarixinə, coğrafiyasına həsr etdiyi əsərində əla meyvələri – üzümü, əriyi, şaftalısı, albuxarası, heyvası olan Ordubadın Qafqazda, hətta Şərqdə şöhrət tapdığı, həmçinin sağlam iqlimi haqqında məlumat vermişdir. Ordubad bağlarından böyük heyranlıqla danışan İ.Şopen yazırdı ki, burada almanın, armudun, şaftalının və gavalının hər neçə növü yetişir. Onun yazdığına görə Ordubadın "gülabi" adlı armudu öz dadına və xüsusilə böyüklüyünə görə seçilirdi. Bu armudlar tam yetişərkən o qədər böyük olurdular ki, onların ikisini bir boşqaba yerləşdirmək mümkün olmurdu. Ordubad bölgəsində salınmış bağların ümumi sayı Naxçıvan diyarındakı bağların ümumu sayından, təxminən 2,5 dəfə çox olub 1386-ya çatırdı. Ordubad şəhərində meyvə bağları daha böyük sahəni əhatə edirdi. Burada hər bir həyətdə olan bağlardan əlavə şəhərin kənarında onun sakinlərinə məxsus sahəsi daha böyük olan 193 bağ var idi [22, s. 749].

Ordubad əriyi də məhz həmin dövrlərdə daha çox şöhrət qazanıb. Bununla bağlı "Naxçıvan tarixi" çoxcildliyinin ikinci cildində yazılır ki, həmin dövrdə Ordubad əriyi yüksək xüsusiyyətlərinə görə Cənubi Qafqazın ərik növləri içərisində ən üstün pilləyə yüksələn meyvə növü sayılırdı. Hər il orta hesabla Ordubaddan Tbilisiyə, oradan isə Ağstafa dəmir yolu vasitəsilə Rusiyanın mərkəzi şəhərlərinə 150 min pud quru ərik daşınırdı. Tarixi sənədlərdə bölgədə yetişdirilən 40 ərik növünün adı çəkilir. Bunların əksəriyyəti Ordubad əyalətinin Xanağa, Dəstə, Vənənd, Ağrı, Dizə, Düylün kəndlərində, xüsusən Vənəndçay sahillərində, eləcə də Naxçıvan ətrafında bağçılıq təsərrüfatlarında yetişdirilirdi.

Qeyd etmək olar ki, bağçılıqda üzümçülük təsərrüfatın ən geniş yayılmış sahəsidir. XVIII-XIX əsrlərdə də Ordubadla yanaşı, Naxçıvan diyarının digər bölgələri də üzümçülük təsərrüfatı ilə geniş məşğul olmuşlar. Bəhs olunan dövrdə üzümçülük və bağçılığın yüksək dərəcədə inkişaf etməsi müxtəlif növ bağçılıq məhsulları ilə ticarətin inkişafı üçün əlverişli şərait yaradırdı. 1727-ci ilə aid Naxçıvan sancağının müfəssəl dəftərində Azadciran nahiyəsinə tabe olan Ordubad qəsəbəsi [13, s. 222-283], həmin nahiyənin Yuxarı Əylis kəndi [13, s. 212-215], Mülki-Arslan nahiyəsinin Cəhri kəndi [13, s. 126-133] və Naxçıvan sancağının bir sıra digər yerlərində üzümçülüyün geniş yayıldığını sübut edən çoxlu üzüm bağlarının olduğu göstərilmişdir. Naxçıvan qəzasında əlverişli torpaq-iqlim şəraiti, ərazinin İran və Türkiyə ilə həmsərhəd olması, müxtəlif dövrlərdə bu ölkələrlə yaranan qarşılıqlı iqtisadi və mədəni əlaqələr Naxçıvanda üzümçülüyün inkişafına və bir çox qiymətli üzüm növlərinin yetişdirilməsinə səbəb olmuşdur.

Naxçıvan dairəsinin Əlincəçay mahalı da öz meyvə bağları ilə məşhur idi. Bu mahalın Əbrəqunis və Cərəcür kəndlərində meyvə bağları daha çox idi. Əbrəqunis kəndində olan 8 meyvə bağından hər il 30 batman quru meyvə, Cərəcür kəndindəki 4 bağdan isə 300 batman təzə meyvə yığılırdı. Mahalın Arazin, Bənənyar, Noraşen (Göytəpə- S.H.) və Qazançı kəndlərində də xeyli meyvə bağları var idi. Ümumiyyətlə 24 kənddən ibarət olan Əlincəçay mahalında 50-dən çox meyvə bağı var idi ki, bu bağlardan da hər il 871 batman meyvə yığılırdı [7, s. 101-106]. XVIII əsrin sonuncu onilliyində Naxçıvan xanlığında hər il 2495 pud meyvə yetişdirilirdi. Onların hər biri rəngi, böyüklüyü, forması və keyfiyyəti ilə fərqlənirdi [9, s. 86].

Naxçıvan diyarının tarixinə dair yazılı mənbələrdən biri olan "Naxçıvan şəhəri və Naxçıvan qəzası" adlı məqalədə bölgənin təsərrüfat sahələrinə aid sanballı faktlar vardır. Qəzada əkinəyararlı torpaqların 53.000 desyatin olduğunu göstərən rus müəllifi

K.Nikitin yazır: "Kənd təsərrüfatında əsas sahə bağçılıqdır. Qəzada aşağıdakı meyvə bağları vardır: ərik, alça, üzüm bağları. Naxçıvan qəzasında üzüm bağları daha geniş sahələri əhatə edir. Qafqazda çox az yer olar ki, Naxçıvanda olduğu qədər çoxlu və bol üzüm olsun. Burada özünün rənginə, böyüklüyünə, forma və keyfiyyətinə görə 60 növdə üzüm vardır" [20, s. 134]. 1840-cı ildə Naxçıvan şəhərində 50 desyatin, 1850-ci ildə 84 desyatin, 1866-cı ildə isə artıq 400 desyatin ərazidə üzüm bağları olmuşdur. 1831-ci il kameral təsvirin materiallarına əsasən hər bir kənddə becərilən üzüm bağları haqqında ətraflı məlumatlar verilir. Həmin materiallarda Əylis mahalının Yuxarı Əylis kəndində 90, Xanağa kəndində 5, Gal kəndində 1 üzüm bağı olduğu bildirilir. Dəstə mahalının Dırnıs kəndində 17 meyvə bağı var idi. Kameral təsvirin materiallarında bütövlükdə Dəstə mahalında olan bağ və bostanların ümumi sayı haqqında da konkret rəqəmlər göstərilir. Bütünlükdə Dəstə mahalında 195 meyvə bağı var idi [14, s. 65].

Şirinliyinə görə Naxçıvan üzümü xüsusilə seçilirdi. Yetişdirilmiş məhsulun xeyli hissəsi, xüsusilə kişmişi növü yeməyə sərf olunurdu. Yığılmış üzümün bir hissəsi isə istər təzə, istərsə də qurudulmuş şəkildə satışa çıxarılırdı. Məhsuldarlığın yüksək olduğu illərdə 1 xalvarlıq sahədən 400 tümən gəlir götürmək mümkün olurdu [21, s. 91]. Yerli əhali yetişməmiş üzümdən ağ rəngli sirkə hazırlayırdı. Bu sirkəni çox yüksək qiymətləndirən İ.Şopen onu hətta Moskvaya da göndərməyi məsləhət görürdü [22, s. 752]. Bölgədə olan üzüm növlərinin çoxluğu ilə yanaşı, həmçinin müxtəlif növ üzümlər ən çox yerli adlarla tanınırdılar. Məs.: Naxçıvan hüseynisi, bəndi, bənənyari, haça-baş, ağ tayfı, ağ aldərə, hənəqırna, Naxçıvan şanısı, Naxçıvan qara üzümü, sahibi, xan üzümü və s. [20, s. 134]. Bu üzümlərdən kişmiş, mövüc, sirkə, doşab hazırlanmasında istifadə edilirdi. Məhz elə buna görə də vaxtilə Naxçıvanda becərilən çoxlu sayda üzüm sortları buraya gələn səyyahların, tacirlərin diqqətini cəlb etmiş və həmin sortların bir qismi qonşu ölkələrə yayılıb, müvafiq ad və sinonimlərlə adlandırılmışdır.

Tədqiqatçıların fikrincə, Naxçıvanda bağçılığın inkişaf tarixi təqribən 3500 ildir. Məhz buna görədir ki, hələ orta əsrlər dövründən Naxçıvandan müxtəlif meyvə, üzüm növləri təzə və qurudulmuş halda bir çox daxili və xarici bazarlara çıxarılmışdır. Bəhs olunan dövrdə isə meyvə ticarətinin genişlənməsində dəmir yollarının çəkilməsi böyük rol oynamışdır. Mənbələrin məlumatına görə XIX əsrin sonu XX əsrin əvvəllərində Culfa dəmir yolu stansiyasından Peterburqa 33672 pud, Odessaya 72556 pud, Taqanroqa 20930 pud, Nikolayevə 41221 pud, Rostova 78020 pud, Novorossiyskə 32676 pud və Həştərxana 68397 pud qurudulmuş meyvə və üzüm göndərilmişdir. Beləliklə, əyalətdən ixrac olunan meyvə və üzüm qurusu 447472 pud və ya 735,5 ton təşkil etmişdir. Digər bir məlumatda isə bu məhsulların 0,8-1,2 milyon pud və ya 12800-19200 tondan çox olduğu göstərilir. Dəmir yollarının çəkilişi genişləndikcə Ordubaddan hər il İrəvan şəhərinə 15 min puda qədər ərik qaxı, Rusiya bazarlarına başqa meyvələr, xüsusən də həddindən çox tut qurusu göndərilmişdir. Əldə olunan məlumatlara əsasən meyvə əvvəllər dəvə karvanları, sonralar isə Culfa dəmir yolu vasitəsilə daxili və xarici bazarlara göndərilmişdir. Naxçıvan qəzasında əlverişli torpaq-iqlim şəraiti, ərazinin İran və Türkiyə ilə həmsərhəd olması, müxtəlif dövrlərdə bu ölkələrlə yaranan qarşılıqlı iqtisadi və mədəni əlaqələr Naxçıvanda üzümçülüyün inkişafına və bir çox qiymətli üzüm növlərinin yaranmasına səbəb olmuşdur [16, s. 73-75].

XVIII-XIX əsrlərdə Naxçıvanda əhali bağçılıqla yanaşı, bostan məhsullarının əkilib becərilməsi ilə də məşğul olurdu. Əlverişli iqlim şəraiti bu sahənin inkişafına da şərait yaradırdı. Bölgənin iqtisadiyyatında kənd təsərrüfatının digər sahələri ilə yanaşı bostançılıq da iqtisadiyyatın inkişafında başlıca yer tuturdu. Osmanlıların işğalı dövründə Naxçıvan sancağının kənd təsərrüfatına xas olan cəhətlərindən biri də bu sancaq-

da taxılçılıq, üzümçülüklə bərabər, bostançılıq və digər təsərrüfat sahələrinin də inkişaf etməsi idi. Bu da təsadüfi deyildi. Osmanlı dövləti işğal etdiyi torpaqlardan gəlir əldə etmək naminə məhsuldar qüvvələrin inkişafına ciddi nəzarət edirdi. Məhz bu baxımdan da osmanlılar qeyd edilən sahələrin təsərrüfat həyatının inkişafına fikir verməklə bərabər, əhalinin qazanc götürdüyü bütün məşğuliyyət sahələrinə vergi qoymuşdular. Ümumiyyətlə, xəzinəyə gəlir gətirən bütün obyektlərin adları daftərə salınmışdı [3, s. 12].

XIX əsrin 20-ci illərində diyarın əkilən torpaqlarının 50 xalvarında bostan əkilmişdi. Əldə olan məlumata görə, buradan yarım milyon pud bostan məhsulları yığılırdı. Əkilən bostan məhsullarından qarpız, yemiş, qovun və b. üstünlük təşkil edirdi. Kameral təsvirin materiallarına görə ərazisi 300 kv. verst olan Məvazixatun mahalının əhalisi kənd təsərrüfatı (əkinçilik, bağçılıq, maldarlıq) ilə məşğul olurdu [14, s. 63].

Naxçıvanda yemiş və qarpızın əkilməsinə aprel ayından başlanırdı və aşağıdakı qaydada aparılırdı. Əvvəlcə torpaq şumlanır və küllə gübrələnirdi. Sonra isə bir bostan üçün nəzərdə tutulan sahədə 25 arx düzəldilirdi. Adətən bir xalvarlıq sahədə (1.5 desyatin) 1000 arx olurdu. Qarpız əkildikdən 3,5 ay, yemiş isə 4 ay sonra yetişirdi. Bir xalvarlıq sahədən ildə gümüş pulla 80 manat gəlir götürmək olurdu [21, s. 90]. XVIII-XIX əsrlərdə bostançılıq Naxçıvan diyarının bütün mahallarında yüksək inkişaf səviyyəsinə çatmışdı. Naxçıvan xanlığında yetişdirilən tutma adlı yemiş daha məşhur idi. İ.Şopen yazırdı ki, bu yemiş bütün Cənubi Qafqazda yetişdirilən ən dadlı və ən böyük yemiş hesab olunurdu [22, s. 742]. Bu yemişin nadirxani, mianbab, ağca nabat, göyca nabat, qələm qaş, həsənbəyi, əsədi, buğda toxumu, narıncı, hacıibrahimi, əsgəri kimi çox müxtəlif növləri var idi [7, s. 101-106].

Nəticə olaraq qeyd etmək olar ki, kənd sakinlərinin əsas və ənənəvi məşğuliyyət sahələri bağçılıq və bostançılıq olmuşdur. Kənd təsərrüfatının faydalı sahəsi kimi bağçılıq əhəmiyyətini bu dövrdə də saxlamış və əhalinin meyvəyə olan tələbatını müəyyən qədər ödəmişdir. Bu sahədə isə Ordubad şəhəri və şəhərətrafı kəndlər xüsusilə fərqlənmişlər. Lakin qeyd edilməlidir ki, Ordubadla yanaşı Naxçıvan diyarının digər bölgələri də bağçılıqla və bostançılıqla məşğul olmuş və bu sahənin iqtisadiyyatda xüsusi əhəmiyyət kəsb etməsinə diqqət göstərilmişdir.

ƏDƏBİYYAT

1. Babayev S. Naxçıvan Muxtar Respublikasının coğrafiyası. Bakı: Elm, 1999, 298 s.
2. Bəxşıyev Ə. Ordubad Səfəvilər dövründə // "Elm və həyat" jur., 1990, № 11-12, s. 48.
3. Budaqova S. Naxçıvan diyarının tarixi coğrafiyası (XVIII əsrin II yarısı-XIX əsrin I qərinəsi). Bakı: Elm, 1995, 96 s.
4. Bakuvi Ə. Kitab təlxis əl-asar və əcaib əl-məlik əl-qəhhar ("Abidələrin" xülasəsi və qüdrətli hökmdarın möcüzələri). Bakı: Şur, 1992, 176 s.
5. Əliyev F., Əliyev M. Naxçıvan xanlığı (1747-1828). Bakı: Azərnəşr, 1996, 106 s.
6. Əliyev İ. Naxçıvan bölgəsi Səfəvilər dövründə. Bakı: Elm və Təhsil, 2014, 224 s.
7. Əliyeva E. XVIII əsrin ikinci yarısı-XIX əsrin əvvəllərində Naxçıvan xanlığında əkinçilik // Tarix və onun problemləri. 2009, № 1-2, s. 101-106.
8. Hacıyev S. Naxçıvan Muxtar Respublikasında torpaqların ekocoğrafi pasportu // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. 2007, № 4, s. 50-53.
9. Quliyev N. Naxçıvan xanlığının əhalisi (tarixi-demoqrafik tədqiqat). Bakı: Elm, 2006, 162 s.
10. Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı: Elm, 1976, 158 s.
11. Muradov V. XVIII əsrin əvvəllərində Ordubad şəhərinin iqtisadi həyatına dair // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri (İctimai elmlər seriyası), 2016, № 5, s. 13-17.

12. Muradov V. Naxçıvan diyarında sənətkarlıq və ticarət (XVIII-XX əsrin əvvəlləri). Bakı: Elm, 2017, 264 s.
13. Naxçıvan sancağının müfəssəl dəftəri. Giriş və tərcümənin müəllifləri akademik Z.Bünyadov və t.e.n. H. Məmmədov. Bakı: Elm, 2001, 376 s.
14. Rəhimov Y. Naxçıvan XIX əsr rus mənbələrində. Bakı: Elm və Təhsil, 2014, 180 s.
15. Səfərli H. Ordubad şəhərinin müsəlman epiqrafikası abidələri. Bakı: MBM, 2009, 191 s.
16. Səfərov A. Tarixi İpək yolu və Naxçıvan MR-in müasir kənd təsərrüfatının müqayisəli inkişaf tarixindən // Beynəlxalq İpək yolu konfransı. Naxçıvan, 2015, s. 73-75.
17. Süleymanov N.M. Səfəvi dövlətinin təsərrüfat həyatı. Bakı: Elm, 2006, 400 s.
18. Şahverdiyev Z. Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində. Bakı: Elm, 2008, 264 s.
19. Evliya Çelebi. Seyahatnamesi. Sadeleştiren, tevsiktemel kuran Necati Aktaş, baskıya hazırlayan Mümin Çevik: 10 cildde, I-II c., İstanbul: Üçdal Neşriyat, 1985, 767 s.
20. Никитин К.А. Город Нахичевань и Нахичеванский уезд / СМОМПК (сборник материалов для описания местностей и племен Кавказа). Т. II, Тифлис: Издание Управления Кавказского Учебного Округа, 1882, с. 109-142.
21. Статистическое описание Нахичеванской провинции. Составитель В.Григорьев. Санктпетербургъ: Типография Департамента Внешней Торговли, 1833, 284 с.
22. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской Империи. Санкт-Петербург: Типография императорской АН, 1852, 1231 с.
23. https://azertag.az/xeber/Görünüşü-dadı və etri ile seçilən-Ordubad-əriyi-870976

Сара Гаджиева

САДОВОДСТВО И БАХЧЕВОДСТВО В НАХЧЫВАНЕ В XVIII-XIX ВЕКАХ

В статье рассматривается социально-политическая ситуация, которая препятствовала развитию садоводства и бахчеводства в Нахчыване в XVIII-XIX веках. Было отмечено, что, несмотря на трудности эпохи, население придавало большое значение этой области сельского хозяйства. Садоводство и бахчеводство были развиты не только в деревнях, но и в пригородных районах для улучшения образа жизни людей. Это имело особое значение для удовлетворения потребностей населения региона в садовых и бахчевых продуктах.

Ключевые слова: *Нахчыван, сельский хозяйство, садоводство, бахчеводство, виноградарство.*

Sara Hajiyeva

GARDENING AND MELON-GROWING IN NAKHCHIVAN IN XVIII-XIX CENTURIES

The paper examines the socio-political situation that hindered the development of gardening and horticulture in Nakhchivan in XVIII-XIX centuries. It was noted that, despite the difficulties of the era, the population attached great importance to this area of agriculture. Gardening and horticulture have been developed not only in villages, but also in suburban areas to improve people's livelihoods. This was of particular importance in meeting the needs of the region's population for garden and melon plantation products.

Keywords: *Nakhchivan, agriculture, gardening, melon-growing, viticulture.*

(AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli tərəfindən təqdim edilmişdir)

SEVİNC BABAYEVA
AMEA Naxçıvan Bölməsi
E-mail: s.quliyeva@yahoo.com

NAXÇIVANIN TƏSƏRRÜFAT HƏYATI ORTA ƏSR SƏYYAHLARININ QEYDLƏRİNDƏ (XVI-XVII əsrlər)

Məqalədə XVI-XVII əsrlərdə Naxçıvanda olmuş səyyahların bölgənin təsərrüfat həyatı haqqında verdikləri məlumatlar tədqiqata cəlb olunmuşdur. Təsərrüfatın əkinçilik, ipəkçilik, bağçılıq və digər sahələri haqqındakı qeydləri araşdırılmışdır. Məlumatların təhlili onu deməyə əsas verir ki, bu dövrdə Naxçıvan bölgəsində təsərrüfat həyatı digər sahələrlə yanaşı xeyli inkişaf etmiş, bu da o dövrdə bölgəyə səfər etmiş səyyahların diqqətini cəlb etmişdir.

Açar sözlər: *Naxçıvan, səyyah, kənd təsərrüfatı, əkinçilik, bağçılıq.*

XVI əsrin əvvəlində Səfəvilər dövlətinin təşəkkül tapması ölkənin iqtisadi yüksəlişinə, əkinçilik, sənətkarlıq və ticarətin inkişafına müəyyən dərəcədə kömək etdi. İqtisadi həyatı qaydaya salmaq və dövlət xəzinəsinə vəsait axınını artırmaq məqsədilə Səfəvilər dövləti ilk vaxtlar kəndlilərin vəziyyətini yüngülləşdirməyə məcbur oldular. I Şah İsmayılın dövründə daxili feodal müharibələrinin azalması da kənd təsərrüfatının dirçəlməsinə təkan verdi. Səfəvilər dövründə Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvanda da kənd təsərrüfatının əkinçilik sahəsi daha çox inkişaf etmişdi.

XVI əsrdə sənətkarlıq və ticarət mərkəzi olan Naxçıvanın iqtisadiyyatında əkinçilik, bağçılıq və bostançılıq mühüm yer tuturdu. Buranın əlverişli təbii şəraiti kənd təsərrüfatı məhsullarını artırmağa imkan yaradırdı [9, s. 54]. Naxçıvanın iqtisadi həyatında ticarət və sənətkarlığın mühüm rol oynamasına baxmayaraq, əhalinin çox hissəsi əkinçiliklə məşğul olurdu. Bölgənin təbii-coğrafi şəraiti yarımoturaq və oturaq həyat tərzi keçirən əhalinin taxılçılıq, bağçılıq və bostançılıqla məşğul olmasına kömək edirdi [8, s. 296]. Bu dövrdə Naxçıvanda texniki bitkilərin becərilməsinə də üstünlük verilmişdir. Bunlardan pambıq, tütün, boyaq kökü və s. bitkilər bölgə ərazisində əkilib becərilirdi. XVII əsrdə yaşamış türk səyyahı Evliya Çələbi Naxçıvan ərazisində zağı, münlayi, zəfərani, ləli xas, bəyaz adları ilə tanınan yeddi növ pambıq becərildiyi haqqında məlumatlar vermişdir [4, s. 95].

Azərbaycanın təsərrüfat həyatında pambıqçılığın mühüm sahə olması haqqında alman səyyahı Adam Olearinin qeydləri də mühüm mənbələrdəndir. Onun verdiyi məlumata görə Naxçıvanda pambıq becərilməsi geniş yayılmışdı. Bu zaman Azərbaycanda, o cümlədən Naxçıvanda başlıca olaraq xırda qozaları olan pambıq becərilirdi. Oleari pambıq haqqında yazır: "Pambıq demək olar ki, bütün vilayətlərdə becərilir, bütöv ölkəyə başdan-başa pambıq səpilir, o bir qulac hündürlüyündə, topa halında bitir. Yarpaqları üzüm yarpaqlarına bənzəyir. Amma ondan xeyli kiçikdir, gövdəsinin ucunda iri, qoz boyda yumrular əmələ gəlir, yetişmək məqamı gələndə bu qozalar dörd, ya altı yerdən yanlara doğru pardaqlanır və yarıqlardan pambıq çıxır. Burada hər cür pambıq məmulatı hazırlamaq üçün son dərəcə çox pambıq istehsal olunur. Pambıq ümumiyyətlə mühüm sənaye və ticarət bitkisidir. Çoxlu şəhərlər və kəndlər ancaq müstəsna olaraq pambıqla

dolanır" [4, s. 94]. Bu dövrdə Naxçıvanla yanaşı Azərbaycanın Qarabağ, Xoy, Şirvan bölgələrində də pambıq becərilirdi.

Ölkə əhalisinin əsas və ən qədim məşğuliyyətlərindən biri iqtisadiyyatda mühüm yer tutan bağçılıq və bostançılıq idi. Orta əsrlərə aid mənbələrin verdiyi məlumata görə Səfəvi-Osmanlı müharibələri nəticəsində bağların bir qismi dağılıb məhv olmuşdu. Naxçıvanda bu vaxt bağ və bağça, o cümlədən meyvə ağacları Azərbaycanın digər şəhərlərinə nisbətən az idi. Lakin şəhərətrafı bostanlarda lətafətli qovun, qarpız və. s becərilirdi. Naxçıvan üzümü xüsusi şöhrət qazanmışdı. Naxçıvan eyni zamanda, ətraf şəhərləri də kənd təsərrüfatı məhsulları ilə təchiz edirdi. Şəhərdə kənd təsərrüfatı məhsullarının becərilməsi yerli hakimlərin mənafeyinə uyğun olduğundan onlar özləri bəzən bunun üçün şərait yaradırdılar [9, s. 55].

Naxçıvanda gözəl üzüm növləri yetişdirilirdi. Adam Oleari Səfəvi dövlətinin bütün vilayətlərində əla növ, iri salxımlı üzüm yetişdirildiyini qeyd etmişdir. O, Təbriz və Taromla yanaşı, Ordubadda da gözəl "Kəsəyi", "Xələc" və s. üzüm növlərinin yetişdirildiyini qeyd etmişdir [2, s. 76]. Səyyah adını bildirməsə də Ordubad ətrafında bitən digər bir üzüm növündən bəhs edir: "....qeyri-adi növ üzümün salxımı çox iridir, yarım qulac uzunluğundadır, giləsi İspaniya üzümü böyüklüyündədir, tutqun qırmızımtıl rəngdədir, çox şirələdir, lakin bu üzümü çox saxlamaq mümkün deyil. Elə buna görə də onu təzə-təzə yeyirlər. Bu üzüm Azərbaycandan başqa yerdə bitmir, özü ancaq Ordubadla Xudafərin körpüsü arasında yetişir, başqa heç yerdə ona rast gəlməzsən... [1, s. 167]. Adam Oleari həmçinin xüsusi bir armud növü haqqında da məlumat verir. "xüsusi bir armud var. Bu armud Ordubadda bitir, rəngi və xarici görünüşü demək olar limona oxşayır, xoşagələn iyi, çox qəribə dadı var. Fövqəladə dərəcədə sulu armuddur" [8, s. 297].

Məlum olduğu kimi Şah Abbasın Osmanlı imperiyası ilə apardığı dağıdıcı müharibələr Azərbaycan torpağına böyük müsibətlər gətirmişdir. Səfəvi hökmdarı osmanlıların Azərbaycanda möhkəmlənməsinə imkan verməmək üçün Osmanlı dövləti ilə yaxınlıqdakı sərhəd rayonları boşaltdırıb, yandırtmış, xarabazara çevirtdirmiş, su quyularını doldurtdurараq, sərhəd rayonlarının əhalisini əsrlərlə yaşadıqları torpaqlardan köçürtdürmüş, doğma yurd-yuvalarından didərgin salmışdı. O zaman Naxçıvan, Culfa kimi şəhərlərin əhalisi də bu cür çətinliklərlə qarşılaşmış və İsfahan, Qaracadağı, Dizmar ətrafına sürgün edilmişdilər. Adam Olearinin göstərdiyinə görə köçürülən əhalinin məskunlaşdığı İsfahan ətrafında altı böyük qəsəbə-rabat yaradılmışdı ki, bunlardan ən mühümü, ən böyüyü və ən gözəli 3 min evi və 12 məscidi olan Culfadır [5, s. 93].

J.Tavernye də Səfəvi-Osmanlı müharibələrinin Naxçıvana dağıdıcı təsirindən bəhs edir. XVII əsrdə sözü gedən müharibələr zamanı körpülərin xeyli hissəsi məhv edilmişdi. I Şah Abbasın əmri ilə Culfa yaxınlığında Araz çayı üzərində olan körpü də dağıdılmışdı. Tavernye yazır ki, Səfəvi qoşunları türk qoşunlarının irəliləmə istiqamətində olan bütün körpülərin məhv edilməsi tapşırığını almışdır.

Dağlıq və dağətəyi zonalarda bulaqların və çayların suyundan geniş istifadə olunurdu. J.Tavernye Culfanın cənub-şərqində dağ çaylarının suyu vasitəsilə torpaqların məhsuldarlığının artmasını təsvir edir. O göstərir ki, suvarma işində çayların suyundan intensiv istifadə olunurdu, bəzən çayın bütün suyu suvarmaya sərf olunurdu. Tavernye qeyd edir ki, ona görə də Azərbaycanda və İranda çayların suyu Avropadakından fərqli olaraq dənizə-mənsəbə çatdıqca artmaq əvəzinə azalır [4, s. 97]. Bu zaman Səfəvi dövləti ərazisində suvarmanın dörd növündən istifadə edilirdi: 1. Arəs, 2. Çay (kanalların və ehtiyat su anbarlarının köməyi ilə), 3. Kəhriz (torpaq altında olan suyun xüsusi lağımlar vasitəsilə yerin üstünə çıxarılması) və 4. Quyu. Birinci iki növ yerüstü, axırıncı ikisi isə yeraltı suvarma qurğuları ilə bağlı idi [4, s. 90].

Həmdullah Qəzvini suvarma üçün istifadə edilən çaylar sırasında Azərbaycanın ən iri çayları olan Kür və Araz çaylarının adlarını çəkir. Səfəvilər dövründə Azərbaycanda suvarma şəbəkəsi çox güman ki, XVII əsrdə də XV-XVI əsrlərdə mövcud olmuş eyni süni suvarma şəbəkəsi fəaliyyət göstərmişdir. Araz çayı ölkənin iqtisadi həyatında, xüsusilə əkinçilik təsərrüfatının inkişafında xüsusi əhəmiyyət kəsb edirdi.

XVII yüzilliklədə Azərbaycanda olan bir çox avropalı səyyahların gündəliklərində Araz çayının iqtisadi əhəmiyyəti və bu çaydan müxtəlif istiqamətlərə çəkilən su arxları barədə az da olsa məlumatlara təsadüf edilir. 1693-cü ildə Naxçıvandan Təbrizə yola düşən Qemelli Karreri Araz çayı üzərindəki on iki gözlü yaraşıqlı körpüdən keçib ucubucağı görünməyən al-yaşıl çöllə uzun müddət hərəkət etmişdir. O, gündəliyində qeyd etdiyi kimi, burada bir çox suvarma kanalları ilə qarşılaşmışdır. Səyyah yazır ki, bu kanalların suyu bulanıq, yəni palçıqlı olub, ancaq əkin və tarlalar üçün olduqca sərfəlidir [4, s. 91].

Bəhs edilən dövrdə Naxçıvan bölgəsində əhalinin məşğul olduğu kənd təsərrüfatı sahələrindən biri də ipəkçilik olmuşdur. Ümumiyyətlə, ipəkçilik və ipək parça, xüsusilə də, basma naxışlı parçalar Naxçıvan əhalisinin məişətində əsrlər boyu mövcud olmuşdur. Bölgə ərazisində təsərrüfatın bu sahəsinin geniş yayıldığı yer Ordubad olmuşdur. Buranın mülayim iqlim şəraiti ipəkqurdunun yetişdirilməsi üçün əlverişli olmuşdur. Digər tərəfdən bağçılığın geniş yayılması burada ipəkçiliyin inkişafına təkan vermişdir. Belə ki, barama qurdlarının bəslənməsi üçün lazım olan tut bağları Ordubadda daha geniş yayılmışdır. İstehsal edilən məhsul xarici ölkələrə ixrac edilirdi. Ordubaddan Moskvaya, Nijninovqorod bazarına xam və boyadılmış ipək aparılırdı [2, s. 79]. Bölgə ərazisində Ordubadla yanaşı Culfa və Əylis də ipək ixracatında əsas mərkəzlərdən sayılırdı [3, s. 50]. Həmin dövrdə Culfada beynəlxalq əhəmiyyəti olan ipək ticarəti birjası təşkil edilmişdi. Culfa tacirləri xarici dövlətlərlə ipək ticarətini öz inhisarlarına almaq üçün I Təhmasibdən rəsmi icazə almışdılar. Onlar Avropanın böyük ticarət mərkəzləri olan Marsel, Venesiya, Amsterdam kimi şəhərlərində ipək ticarəti etməyə başlamışdılar. Beləliklə, dünya bazarlarına çıxan Azərbaycan ipəyinin miqdarı ildən-ilə artır. XVII əsrdə Rusiyada Azərbaycan ipəyinə həvəs daha da artmışdı. Həmin əsrin ortalarında Rusiyanın şəhərlərinə Azərbaycandan gətirilən ipəyin miqdarı çoxalıb on minlərlə puda çatmışdı. Demək olar ki, o vaxt rus zadəganları təntənəli və dəbdəbəli yerlərə Azərbaycan ipəyindən tikilmiş paltar geyinib gedərdilər. Buradan aydın olur ki, Azərbaycan ipəyi xarici ticarətdə özünəməxsus mövqe tutmuş və öz sənətkarlarına dünya şöhrəti qazandırmışdır. Ümumiyyətlə, Naxçıvan bölgəsi tədqiq edilən dövrdə xam ipəyin – xamnanın istehsalına görə Azərbaycanın bir sıra qabaqcıl bölgələri ilə eyni sırada dururdu. Belə ki, bu dövrdə Təbriz, Marağa, Gəncə və s. bölgələrlə yanaşı, Naxçıvan iqtisadiyyatında da xamnanın geniş istehsalı böyük əhəmiyyət kəsb edirdi [2, s. 79].

Orta əsrlər boyunca Avropa səyyahlarının və diplomatlarının Azərbaycanda ipəkçilik haqqında maraqlı qeydlərini izlədikcə, xam ipəyin və ipək parçaların Avropa dövlətlərinin daimi diqqət mərkəzində olduğunu görürük. J.Tavernye yazır ki, burada istehsal olunan müxtəlif növ ipək parçalar və qiymətli saplar vardır. Bunu sübut edən faktlardan biri də bir sıra Azərbaycan şəhərlərinin ipək istehsalında ixtisaslaşması idi [3, s. 49]. Təbiidir ki, həmin şəhərlərdə ipəkçilik qədim, ənənəvi sənət sahəsi olmasaydı, orta əsrlərdə bu sahədə nəzərə çarpacaq yüksəliş olmazdı.

Nəticə olaraq deyə bilərik ki, səyyahların da qeydlərindən aydın olur ki, bəhs olunan dövrdə Azərbaycanın digər bölgələri ilə yanaşı Naxçıvanda da təsərrüfatın bir çox sahələri inkişaf edib Səfəvilər dövlətinin inkişafında mühüm yer tutmuşdur.

ƏDƏBİYYAT

1. Babayev T. Naxçıvan ənənəvi əkinçilik və müasirlik // Naxçıvan bu gün: islahatlar və perspektivlər. Bakı: Nurlan, 2008, s. 163-173.
2. Əliyev İ. Naxçıvan bölgəsi Səfəvilər dövründə. Bakı: Elm və Təhsil, 2014, 224 s.
3. Hacıyeva S. Naxçıvanda sənətkarlıq (XII-XIX əsrlər). Naxçıvan: Əcəmi, 2017, 184 s.
4. Həsənəliyev Z. Səfəvi dövləti XVII əsrdə (Avropa səyyahlarının məlumatları əsasında), Bakı, 2004, 294 s.
5. Mahmudov Y.M. Odlar yurduna səyahət. Bakı: Gənclik, 1985, 184 s.
6. Mahmudov Y.M. Səyyahlar, kəşflər, Azərbaycan. Bakı: Gənclik, 1985, 184 s.
7. Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı: Elm, 1977, 160 s.
8. Naxçıvan tarixi: 3 cilddə, I c., Naxçıvan: Əcəmi, 2013, 452 s.
9. Nəcəfli T. XV-XVI əsrlərdə Naxçıvanın ictimai-iqtisadi həyatı // Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri. İctimai elmlər seriyası, 2009, № 2, s. 51-60.

Севиндж Бабаева

ХОЗЯЙСТВЕННАЯ ЖИЗНЬ НАХЧЫВАНА В ЗАМЕТКАХ СРЕДНЕВЕКОВЫХ ПУТЕШЕСТВЕННИКОВ (XVI-XVII ВЕК)

В статье были привлечены к исследованию данные о хозяйственной жизни региона, полученные из заметок путешественников, посещавших Нахчыван в XVI-XVII веках. Рассмотрены разные сферы сельского хозяйства, в том числе земледелие, садоводство и другие отрасли. Анализ данных сведений показывает, что экономическая жизнь Нахчывана была хорошо развита, что и привлекало внимание путешественников, которые посещали регион в то время.

Ключевые слова: *Нахчыван, путешественник, сельское хозяйство, земледелие, садоводство.*

Sevinj Babayeva

ECONOMIC LIFE OF NAKHCHIVAN IN THE NOTES OF MEDIEVAL TRAVELERS (XVI-XVII CENTURIES)

Data on the economic life of the region, obtained from notes of travelers who visited Nakhchivan in the 16th-17th centuries, were brought to study in this paper. Different spheres of agriculture are considered, including agriculture, horticulture and other branches. An analysis of these data shows that the economic life of Nakhchivan was well developed, which attracted the attention of travelers who visited the region at that time.

Keywords: *Nakhchivan, traveler, agriculture, farming, gardening.*

(Akademik İsmayıl Hacıyev tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2018, № 1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2018, № 1

PROCEEDINGS OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES NAKHCHIVAN BRANCH OFFICE
The series of social sciences and humanities, 2018, № 1

ASƏF ORUCOV
AMEA Naxçıvan Bölməsi
E-mail: aseforucov@yahoo.com.tr

ORDUBAD ŞƏHƏRİNİN TARİXİ-MEMARLIQ ABİDƏLƏRİ (XIX-XXI ƏSR)

Məqalədə Ordubad şəhərində XIX-XXI əsrlərdə mövcud olan türk-islam abidələrindən bəhs edilmişdir. Bu abidələrdən Cümə məscidi, Qeysəriyyə bazarı, Saqqaxana, Ordubad şəhər hamamını qeyd etmək lazımdır. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, bu abidələr Ordubad şəhər əhalisinin sosial-siyasi, mədəni və ideoloji həyatlarında mühüm yer tutmuşdular.

Açar sözlər: *Ordubad şəhəri, Cümə məscidi, türk-islam mədəniyyəti, Saqqaxana, Qeysəriyyə.*

Ordubad tarixi-memarlıq abidələrini özündə əks etdirən qədim Azərbaycan şəhərlərindən biridir. Ordubad şəhərinin abidələri öz üzərlərində əsrlər boyu tarixə, mədəniyyətə, milli kökə bağlılığını qoruyub saxlamışdır. Ordubad elə bir şəhərdir ki, tarixən buraya yolu düşən səyyahların, coğrafiyaşünasların marağına səbəb olmuş, onun haqqında müxtəlif sözlər deyilmişdir. Məsələn, Hacı Zeynalabdin Şirvani "Bustanüs-səyahə" kitabında yazır: "Ordubad ürəkaçan gözəl bir şəhərdir. Ora adama fərəh verən yerdir. Onun möhkəm qalası, bol suyu və çoxlu bağları vardır. Meyvəsi bol və dadlıdır. Havası insana sağlıq verir. İnsanlarının siması gözəldir". Yaxud XX əsrin əvvəllərində buranı ziyarət etmiş Nefyodov adlı səyyah yazıb: "Ordubad öz daş-qaşı ilə parıldayan qənirsiz gözələ bənzəyir. Ordubad çinarları təbiət tamaşası, el yaraşığıdır. Bu yurdun çinarları da torpağı kimi qədimdir" [4].

Ordubad abidələri içərisində xüsusi yerlərdən birini məscidlər tutur. Məscidlər dini ibadətgah olmaqla yanaşı həm də mühüm təhsil mərkəzləri rolunu oynamışdırlar. Məlumatçıların verdiyi məlumata görə Ordubad şəhərində 36 məhəllə 36 məscidi vardır. XIX-XX əsrin araşdırıcısı etnoqraf alim A.Paşayev mənbələrə əsaslanaraq yazır ki, Ordubad şəhərində bir Came məscidi 63 məhəllə məscidi vardır [11, s. 71]. V.Qriqoryev 1833-cü ildə nəşr etdirdiyi kitabında bildirir ki, şəhərin bütün küçələrində xüsusi məscidlər yerləşir, ancaq onlardan ikisi böyükdür. Bu məscidlərdən biri saraya bənzəyir [10, s. 194]. XIX əsrin birinci yarısında Naxçıvan arazisində olan İ.Şopen isə Ordubad şəhərində 6 böyük, 25 kiçik məscid olduğunu qeyd edir [12, s. 482]. AMEA-nın müxbir üzvü H.Səfərli yazır ki, məscidlərin çoxluğuna görə Ordubad şəhəri Şimali Azərbaycanın digər şəhərlərini qabaqlayır [9, s. 179]. Bütün bunlar göstərir ki, tarixin bütün dövrlərində Ordubad şəhəri türk-islam mədəniyyətinin bir parçası olan məscidlərlə zəngin olmuşdur. Bir məsələni də vurğulamaq istərdik ki, Ordubad şəhər məscidlərinin heç birində minarələr yoxdur. Minarəni məscidin damında yerləşən səki əvəz edir. Topladığımız etnoqrafik məlumatlardan aydın olur ki, minarə qoyulmamasını belə izah edirlər ki, Ordubad şəhəri dağlıq ərazidə yuxarıdan aşağı maili şəkildə yerləşir. Bu vəziyyət səsin asanlıqla yayılmasına səbəb olur.

Ordubad şəhər məscidlərindən Came məscidi, Mingis məscidi, Təkəşiyi (Yəhya bəy) məscidi, Kürdətal məscidi, Yuxarı, Aşağı Anbaras məscidləri, Sərşəhər məscidi, Əngəc(ş) məscidi, Dilbər məscidi və s. qeyd etmək olar.

Bu yazıda biz təkcə Came məscidi haqqında məlumat vermək istərdik. Came məscidi Ordubad şəhərinin əsas məscidlərindən biri və ya birincisi olmuşdur. Ordubad şəhər Came məscidinin tikilməsi haqqında belə bir rəvayət mövcuddur. Rəvayətə görə Ordubad şəhərində varlı bir qadın yaşayırmış. O, mal-mülkünün çoxluğundan şikayət edir və mülkünün azalması üçün dua edirmiş. Ona məsləhət görürlər ki, o, çörəyi insanların ayağı altına töksün. Bu hərəkətinə görə Allahın qəzəbinə düçar olacaq və Allah onun mülkünü əlindən alacaqdır. Bu məsləhətə əməl etmək üçün qadın yaxınlıqdakı dağa çıxır. Burada qadın düşünür ki, çörəyi insanların ayağının altına tökməklə varının azalmasına nail olmaqdansa, həmin sərvətlə əhalinin istifadəsi üçün böyük bir məscid tikdirsə, daha yaxşı olar. Həmçinin, məlumatçılar qeyd edirlər ki, qadın məscidin tikintisinə qoyduğu vəsait qədər pulu da məscidin sütunlarının birinin içərisinə qoyur ki, məscid hər hansı bir səbəbdən dağılarsa və ya onun təmirinə ehtiyac yaranarsa, həmin puldan istifadə olunsun. Çünki Ordubad şəhər came məscidi şəhərin baş məscidi olmaqla əhalinin həyatında önəmli yer tutmuşdur. Məhz bu səbəbdən onun ətrafında fəxri dəfnlər keçirilmiş, zəmanəsinin görkəmli şəxsiyyətləri orada dəfn olunmuşdur. Nəticədə məscidin ətrafında qəbiristanlıq yaranmışdır [6, s. 116]. Məscid şəhərin əsasən baş meydanında yerləşir. Came məscidinin qapısı üzərində I Şah Abbasın nəsx xəttilə farsca beş sətirlik fərmanı həkk edilmişdir. Bu yazıda Ordubadın bütün əhalisinin vergidən azad olunduğu haqqında məlumat verilib. Məscidin plan quruluşu, bəzi elementləri və bədii tərtibatı onun ilkin əsasının daha qədim olduğunu göstərir. 1901-1902-ci ildə məsciddə təmir işləri aparılarkən tapılmış bir kərpic üzərindəki yazıdan onun əsasının hicri 111 (miladi 729-cu il) ildə qoyulduğu aydın olur. Əgər bu sübut olunsa onda Ordubad Came məscidi Azərbaycanda ilk məscidlərdən birincisi sayılır. Sübuta yetirilə bilməməsinin səbəbi isə bu kitabənin indiyədək gəlib çatmamasıdır. Onu da qeyd edək ki, məscid həmin dövrdə bərpa olunarkən ona qərb tərəfindən bir salon əlavə edilmişdir. Uzunu təxminən 25 metr, eni 6,5 metr bu salonun ayrıca mehrabı vardır. Salon qadınlar üçün nəzərdə tutulmuşdur. Məscidin yeni tikilən, qadınlar üçün salonun qərb divarında zanbaq təsviri içərisində rənglə yazılan kitabə isə xəbər verir ki, məsciddə aparılan tikinti və bərpa işləri ordubadlı Ağa Mirzə Babanın oğlu Hacı Məhəmmədqulu ağa tərəfindən yerinə yetirilmişdir [7, s. 277]. Hazırda məscidin şimal-şərq hissəsində mədrəsə, qərbində isə qeysəriyyə binaları yerləşir [3, s. 54]. Etnoqraf alim A.Paşayev öz tədqiqatlarında Came məscidi haqqında yazır ki, bu məscid şəhərin dini və inzibati mərkəzi sayılmışdır. Dini məqsədlə tikilməsinə baxmayaraq bəhs olunan məscid şəhər camaatının ən çox toplaşdığı sosial-siyasi mərkəz funksiyasını da yerinə yetirmişdir [11, s. 71].

Ölkəmiz müstəqillik əldə etdikdən sonra Came məscidi də daxil olmaqla bir çox tarixi abidələrdə, o cümlədən "Əngəc", "Qırxpilla", "Meyrəmçə" və "Yetim" məhəllə məscidlərində təmir-bərpa işləri aparılmışdır. 2005-ci ildə "Yuxarı Anbaras" və "Sultan Murad" məscidi əsaslı təmir olunmuşdu.

Ordubad şəhərində bəhs olunan dövrdə özünə məxsus memarlıq quruluşu ilə fərqlənən abidələrdən biri də hamamlardır. Toplanılan etnoqrafik materiallardan aydın olur ki, Ordubad şəhərinin ərazisində bir neçə hamam, o cümlədən şəhərin mərkəzində "Sirri-Xuda" hamamı, Mingis məhəllələrində "Məscid hamamı", mədrəsə kompleksinin yanında "Mədrəsə hamamı" olmuşdur. Ancaq bu hamamlar indiyədək gəlib çatmamışdır. Ordubad şəhərində günümüzdə bir hamam vardır. Gözəl memarlıq abidəsi olan bu hamam şəhərin Təbriz və Mingis küçələrinin kəsişdiyi yerdə, Came məscidinin yaxınlı-

ğında tikilmişdir. Memarlıq qurluşuna əsasən XVIII-XIX əsrlərə aid edilir. Hamamın ümumi sahəsi 483 m^2, divarlarının qalınlığı 1 metrdir [8, s. 154]. Şərq hamamları üslubunda tikilən Ordubad şəhər hamamı giriş, çayxana, soyunma və yuyunma zallarından, çarhovuzlu çimərlik, xəzinə (su çəni) və ocaqxanadan ibarətdir. 8 əsas xidmət sahəsi olmuşdur. Ümumiyyətlə, hamamlarda yuyunma salonlarında soyuq və isti su tutarlar – xəzinələr yerləşirdi. Yuyunma salonu döşəmənin altında quraşdırılmış xüsusi kanallar vasitəsilə isidilirdi. Suyu isitmək üçün "külxan", "ocaqxana" adlanan yer, kamera mövcud olurdu. Elə hamamlar da var idi ki, onların iki "ocaqxana"sı olurdu ki, bunlardan biri ilə suyu, digəri ilə hamamın özünü qızdırırdılar. Ocaq xəzinənin altında yerləşirdi.

Ordubad şəhər hamamının zalının divarlarında hamama gələnlərin əşyalarını qoymaq üçün 4 ədəd dərin taxça düzəldilmişdir. Məlumatçıların qeyd etdiyinə görə hamamda qadın heykəli olmuşdur. Ancaq o sonralar aradan qaldırılmışdır.

Hamamları tikərkən yerin seçilməsinə xüsusi önəm verilirdi. Bu yer suyun tutduğu ərazi olmalı idi. Hamamlar kəhriz, çay suları vasitəsilə işləyirdi. Hamamda istifadə edilən sular təmiz olardı, ora çirkab sular axıdılmazdı. Ordubad hamamının suyu Qarahovuz çeşməsindən götürülmüşdür. Hamam günlərinə gəldikdə isə həftənin bəzi günlərini qadınlar, bəzi günləri isə kişilər hamama gedərdilər. Topladığımız çöl-etnoqrafik materiallara görə Ordubad şəhər hamamında 2, 5, 7-ci günlər kişi hamam günləri, qalan günləri isə qadın hamam günləri olmuşdur. Hamam binası XX əsrdə təmir edilib və yenidən qurulmuşdur.

Qeysəriyyə Ordubad şəhərində yerləşən XVII əsrə aid ölkə əhəmiyyətli Azərbaycan memarlıq abidəsidir. Ordubad şəhərinin mərkəzində yerləşir. Qeysəriyyə orta əsrlər zamanı şəhər ticarətində mühüm əhəmiyyət kəsb edən bazarlar qrupuna aiddir. AMEA-nın müxbir üzvü, professor H.Səfərli yazır ki, bu cür bazarlar bəzən "Bədistan" da adlanır və bu bazarlar üstüörtülü bazarlar tipinə aiddir [8, s. 158].

Ümumi sahəsi 540 m^2-dir. Abidə 10×10 m olan mərkəzi səkkizbucaqlı zaldan və onun üzərini qapayan dairəvi günbəzdən, günbəzi künclərdə saxlayan mürəkkəb quruluşlu dörd ədəd dayaqdan və dayaqlarla kənar divar taxçaları arasında yerləşən keçidlərdən (eni 3,4 m) ibarətdir. Dayağın divarlarındakı taxçaların ölçüləri 1,4×1, 45×2,2 m-dir. Dayaq taxçalarından fərqli olaraq kənar divar taxçaları çatmatağ konstruksiyalı olub ölçüsü 3,4×1,37×3 m-dir. Keçidlərin tavanı 16 ədəd kiçik günbəzlərlə qapanıb. Abidə bişmiş kərpicdən inşa olunmuş, divarının qalınlığı 80 sm-dir. Abidənin mərkəzi, günbəzi də daxil olmaqla, ümumi hündürlüyü 8,5 m-dir.

Qeysəriyyə sözünün mənası keçmiş zamanlarda şahlara məxsus daş-qaş, lələ-cəvahirat satılması məqsədilə tikilmiş örtülü Şərq bazarı deməkdir. Belə bazarlara xalq arasında "Şah bazarı" da deyilir. Belə tikililərə dünyanın üç yerində rast gəlmək olar: Səmərqənd, Təbriz və Ordubad şəhərlərində. Hazırda ən görkəmlisi və abadı Ordubad şəhərində yerləşir [1]. Orta əsrlər dövründə buradan Zərbxana kimi istifadə edilmişdir. Xalq arasında "Torpaq qala" kimi də işlənmişdir. Torpaq qala adlanması ilə bağlı bir rəvayyət də vardır. Ordubad qız gəlinlərinin düşmənin əlinə keçməsin deyə Ordubadın başçılarından biri olan Yaqub xan onları doldurur Qeysəriyyəyə, üstünü isə torpaqlayır, bundan sonra buranın adı qalır Torpaq qala. Sonrakı dövrlərdə bu abidədən "Zorxana" kimi istifadə edilmişdir. Aparılan tədqiqatlardan məlum olur ki, həmin abidə (Zorxana abidəsi – A.O) bir zamanlar geniş yayılmış bu tip binaların Azərbaycan SSR-də qalmış yeganə nümunəsidir [5, s. 19]. Hətta Sovet hakimiyyəti illərində cənubda giriş qapısının yanında "Zorxana" binası olduğunu və tarixi-mədəniyyət abidəsi kimi qorunduğunu bildirən lövhə vurulmuşdur. Ancaq belə güman etmək olar ki, sonradan bu binadan Zorxana kimi istifadə edilmişdir. Belə ki, zalının döşəməsi nisbətən binanın döşəməsindən

aşağılıq olduğu üçün dağlardan yığılmış gəvən kollarını buraya doldurub üstünə narın torpaq tökərmişlər. İrandan, Türkiyədən, Həmədandan və başqa yerlərdən gələn pəhləvanlar burada öz güclərini sınayarmışlar. Kim qalib gəlirdisə, hücrələrdə əyləşən xandan mükafat kimi bir kisə qızıl alarmış.

XIX əsrin ortalarına yaxın Ordubadda yaradılmış "Əncüməni-şüəra" ədəbi məclisinin yığıncaqları burda keçirilirdi. Belə ki, "Əncüməni-şüəra" ədəbi məclisinin üzvləri Hacıağa Fəqir Ordubadi, Məhəmməd Tağı Sidqi, Qüdsi Vənəndi, Aşıq Abbas Dəhri, Usta Zeynal Nəqqaş, Hacı Əhməd Bikəs və başqaları bu binaya yığışıb öz yazdıqları əsərləri oxuyaraq kimin daha güclü yazdığını bəyan edərmişlər.

Qeysəriyyə binası çar Rusiyasının hakimiyyəti dövründə feldşer Qasımın və pinəçi İbrahimin babaları və dayıları tərəfindən qızıl pulla alınaraq ipək sarıyan sexə çevrilmişdir. Sovet hakimiyyəti dövründə binanın bir tərəfi mağaza və anbar, digər tərəfi isə aşxana kimi istifadə edilmişdir. 1978-ci ildə ordubadlı memar Zakir Haşım oğlu Babayev tərəfindən abidə yenidən bərpa edilmişdir.

Qeysəriyyə binası 1981-ci ildən Ordubad rayon Tarix-Diyarşünaslıq muzeyi kimi fəaliyyət göstərir. 14 yanvar 2011-ci il tarixdə Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yerləşdiyi Qeysəriyyə tarixi abidəsinin bərpa işlərindən sonra açılışı olub. Açılış tədbirində iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: "Azərbaycanın incisi olan Ordubadda tarixi abidələr bərpa olunur, onların gələcək nəsillərə çatdırılması təmin edilir. Hər bir yerin tarixi yalnız kitablarda deyil, onun torpağında, tikililərində, abidələrində yaşayır. Tarixini, vətənini sevən insanlar abidələri qoruyub gələcək nəsillərə ötürməlidir. Hər birimiz tariximizlə qürur hissi keçirməli, bütün dünyaya göstərməliyik ki, ulu babalarımız, əcdadlarımız belə zəngin tarixə malik olublar" [13].

Ordubad şəhərinin tarixi-memarlıq abidələrindən danışarkən şəhərin Mingis məhəlləsində yerləşən səqqaxananı da qeyd etmək lazımdır. Professor H.Səfərli abidənin belə adlanması haqqında yazır: "Ərəbcə səqqa su satan, su paylayan, su verən, su çəkən və farsca ev sözünün birləşməsindən yaranmışdır" [8, s. 160]. Deməli, səqqaxana su satılan yer anlamındadır. Səqqaxanalar dini xarakterli tikililər qrupuna daxildir. Etnoqraf alim İ.Məmmədova yazır ki, bu məkanların əksəriyyəti yaşıl rəngə boyanır və ya üzəri yeddi rəngdə kaşı ilə örtülürdü. Kaşı işləmələrində Kərbəla müsibəti, Həzrəti Əbülfəz və Həzrəti Abbas at belində, yaxud piyada, əynində zireh, sağ əlində nizə, sol çiynindən asılmış su tuluğu və s. təsvir olunurdu. Bundan başqa səqqaxananın daxili divarlarında imamların və dini ziyarətgahların çərçivəyə salınmış şəkili vurulur, ələm və qıfıllar asılır, həmçinin buraya müxtəlif rəngli parçalar niyyət edib düyünlənirdi. Bu şəkillər ona tamaşa edən hər kəsin dini hisslərini coşdururdu [2, s. 241]. İnanca görə kim səqqaxanadan su içsə, həmin xəstə şəfa tapar və o bir daha xəstələnməzdi. Ümumiyyətlə, burdan su içmək savab sayılırdı. Naxçıvan bölgəsində bu qəbil abidə demək olar ki, yox dərəcəsindədir, belə abidə ancaq Ordubad şəhərində mövcuddur.

Ordubad şəhərinin abidələri sırasına Ordubad şəhər mədrəsəsi, Malik ibn İbrahim piri və Qara pir adlanan abidələri də daxil etmək olar.

Müstəqilliyimizin bərpasından sonrakı dövrdə isə bu qədim Azərbaycan şəhərində müasir dövrün tarixini özündə əks etdirən obyektlər yaradılıb. Son 20 ildə şəhərdə onlarla yeni obyekt inşa edilərək istifadəyə verilmişdir.

Son olaraq qeyd edək ki, Ordubad şəhərində mövcud olan abidələr türk-islam mədəniyyətli abidələri sırasına daxildirlər. Belə abidələr əhalinin ictimai-siyasi, sosial-məişət həyatlarında mühüm rol oynamışlar.

ƏDƏBİYYAT

1. Məmmədov M. Ordubadın memarlıq inciləri. "Azərbaycan" qəz., 2011, 20 mart.
2. Məmmədova İ. Təbriz şəhərinin maddi mədəniyyəti. Bakı: Çaşıoğlu, 2016, 500 s.
3. Naxçıvan abidələri ensiklopediyası. Naxçıvan, 2008, 522 s.
4. Ordubad əsrarəngiz Şərq şəhəri. "Şərq qapısı" qəz., 2015, 6 mart.
5. Salamzadə Ə., Məmmədzadə K. Arazboyu abidələr. Bakı: Elm, 1979, s. 72.
6. Səfərli H. Ordubad şəhərinin müsəlman epiqrafikası abidələri. Bakı: MBM, 2009, s. 192.
7. Səfərli H. Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər. Bakı: Elm, 2003, 392 s.
8. Səfərli H. Naxçıvanın türk-islam mədəniyyəti abidələri. Naxçıvan: Əcəmi, 2017, 216 s.
9. Səfərli H. Ordubad şəhərinin məscidləri (I məqalə) // Axtarışlar, 2017, № 2, s. 179-186.
10. Григорьев В. Статистическое описание Нахичеванской провинции. Санкт-Петербург: Типография Департамента Внешней Торговли, 1833, 264 с.
11. Пашаев А. Город Ордубад в XIX-начале XX вв. Баку: Элм, 1998, 200 с.
12. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской Империи. СПб., 1852, 1231 с.
13. https://az.wikipedia.org/wiki/Qeysəriyyə-abidəsi

Асеф Оруджев

ИСТОРИКО-АРХИТЕКТУРНЫЕ ПАМЯТНИКИ ГОРОДА ОРДУБАД (XIX-XXI ВЕК)

В статье рассмотрены памятники тюркско-исламской культуры существовавшие в городе Ордубад в течение XIX-XXI вв. Из этих памятников нужно отметить мечеть Джума, рынок Гейсарийя, Саггахана, Ордубадские городские бани. По итогам исследований стало ясно, что эти памятники занимали важное место в социально-политической, культурной и идеологической жизни населения города Ордубад.

Ключевые слова: *город Ордубад, мечеть Джума, тюркско-исламская культура, Саггахана, Гейсарийя.*

Asaf Orujov

HISTORICAL AND ARCHITECTURAL MONUMENTS OF THE CITY OF ORDUBAD (XIX-XXI CENTURY)

The paper considers the monuments of the Turkic-Islamic culture that existed in the city of Ordubad during the XIX-XXI centuries. Of these monuments it is necessary to note the Juma mosque, the Geysariya market, Saggahana, Ordubad city bath-houses. According to the results of the research it became clear that these monuments occupied an important place in the socio-political, cultural and ideological life of the population of the city of Ordubad.

Keywords: *Ordubad city, Juma mosque, Turkic-Islamic culture, Saggahana, Geysariya.*

(AMEA-nın müxbir üzvü Qadir Qədirzadə tərəfindən təqdim edilmişdir)

Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir-Qrant № EİF-KETPL-2-2015-1(25)-56/47/5

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2018, № 1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2018, № 1

PROCEEDINGS OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES NAKHCHIVAN BRANCH OFFICE
The series of social sciences and humanities, 2018, № 1

ARXEOLOGİYA VƏ ETNOQRAFİYA

VƏLİ BAXŞƏLİYEV
AMEA Naxçıvan Bölməsi
E-mail: velibahshaliyev@mail.ru

NAXÇIVAN TƏPƏ YAŞAYIŞ YERİNDƏ ARXEOLOJİ QAZINTILAR

Cənubi Qafqaz mədəniyyətləri ilə Yaxın Şərq mədəniyyətləri arasındakı əlaqələrin mövcudluğu uzun müddətdir ki, qafqazşünas arxeoloqların diqqətini cəlb etməkdədir. R.M.Munçayev, O.H.Həbibullayev, İ.H.Nərimanov, T.D.Axundov və digərləri Yaxın Şərq mədəniyyətlərinin Cənubi Qafqaza yayılması ilə bağlı müxtəlif fikirlər söyləmişlər. Bu əlaqələrin mövcudluğu indiyədək tək-tək tapıntılarla təmsil olunurdusa hazırda isə arxeoloji materialların bütöv kompleksi ilə təsdiq edilir. Belə arxeoloji material verən abidələrdən biri Dalma təpə tipli keramika ilə xarakterizə olunan Naxçıvan təpə yaşayış yeridir. Araşdırmalar göstərir ki, Dalma təpə mədəniyyətinin yayılma arealı Naxçıvanı da əhatə etmişdir. Daha doğrusu, Naxçıvan bu mədəniyyətin formalaşdığı areala daxil olmuşdur. Şübhəsiz ki, gələcək araşdırmalar Urmiya hövzəsi və Naxçıvan tayfaları arasındakı əlaqələrin və qarşılıqlı münasibətlərin xarakterini daha aydın şəkildə müəyyən etməyə imkan verəcəkdir. Araşdırmalar həmçinin Dalma təpə mədəniyyətinin yaranması və formalaşması ilə bağlı məsələlərə aydınlıq gətirəcəkdir.

Açar sözlər: *Naxçıvan, Dalma təpə mədəniyyəti, boyalı keramika, barmaq basqılı keramika, köçmə maldarlıq, obsidian.*

Cənubi Qafqaz mədəniyyətləri ilə Yaxın Şərq mədəniyyətləri arasındakı əlaqələrin mövcudluğu uzun müddətdir ki, qafqazşünas arxeoloqların diqqətini cəlb etməkdədir. R.M.Munçayev [9, c. 41-52], O.H.Həbibullayev [5, c. 72], İ.H.Nərimanov [10, c. 271-277; 3, c. 32], T.D.Axundov [15, p. 95-122] və digərləri Yaxın Şərq mədəniyyətlərinin Cənubi Qafqaza yayılması ilə bağlı müxtəlif fikirlər söyləmişlər. Bu əlaqələrin mövcudluğu indiyədək tək-tək tapıntılarla təmsil olunurdusa hazırda isə arxeoloji materialların bütöv kompleksi ilə təsdiq edilir. Belə arxeoloji material verən abidələrdən biri Dalma təpə tipli keramika ilə xarakterizə olunan Naxçıvan təpə yaşayış yeridir.

Naxçıvan təpə yaşayış yerində aparılan qazıntılar zamanı iki tikinti qatına aid üç mərhələ aşkar olunmuşdur. Ən üstdəki tikinti qatı dördkünc formalı arxitektura ilə, ən altdakı qat isə yarımqazma tipli evlərlə xarakterizə olunur. Bu tikinti qatına aid olan ikinci mərhələ yalnız ocaqlarla xarakterizə olunur. Araşdırmalara əsasən demək olar ki, Naxçıvan təpə yaşayış yerinin sakinləri ilk dövrlərdə bir tərəfi ana torpaqda qazılmış, digər qismi isə kərpiclə hörülmüş yaşayış evlərindən istifadə etmişlər. Bu tip yaşayış evlərinin qalıqlarına Ovçular təpəsində [27, p. 31-87] və Yeni yol [2, s. 50] yaşayış yerində rast gəlinmişdir. Yaşayış yerində xeyli kül təbəqəsinin olmasına baxmayaraq ağac kömürünün qalıqlarına çox az rast gəlinmişdir. Bu isə yanacaq kimi ağacdan az istifadə olunduğunu göstərir.

Yaşayış yerindən aşkar olunan arxeoloji materialların əksəriyyəti keramika məmulatı və obsidian parçalarından ibarətdir.

Əmək alətləri olduqca azdır. Dən daşları tək-tək nümunələrlə təmsil olunmuşdur. Sümük alət bir nümunə ilə təmsil olunmuşdur. Çaxmaq daşından az istifadə olunmuşdur. Onlar tək-tək nümunələrlə təmsil olunmuşdur. Əmək alətləri arasında obsidian alətlər daha çoxdur. Yaşayış yerindən minlərlə obsidian parçası tapılmışdır. Amma obsidian alətlər arasında da oraq dişləri olduqca azdır. Ehtimal ki, bu əhalinin məşğuliyyəti ilə bağlı olmuşdur.



Şəkil 1. Boya naxışlı keramika.

Keramika məmulatı başlıca olaraq e.ə. V minilliyin birinci yarısı üçün xarakterikdir. Keramika məmulatının əsas xüsusiyyəti Dalma təpə tipli boyalı və basma naxışlı keramikanın olmasıdır. Bu tip keramika ilə xarakterizə edilən yaşayış yeri Cənubi Qafqazda ilk dəfədir ki aşkar olur. Naxçıvan yaşayış yerinin tədqiqi yalnız Azərbaycanın deyil, bütövlükdə bütün Cənubi Qafqazın Eneolit mədəniyyətinin ardıcıl mərhələlərini öyrənməyə imkan verir.

Keramika məmulatını yaşayış yerinin stratiqrafiyasına uyğun olaraq iki dövrə bölmək olar. Ümumiyyətlə, hər iki təbəqənin keramika məmulatı hazırlanma texnologiyası və naxışlanmasına görə bənzərdir. Onlar gil laylarını bir-birinin üzərinə yapışdırmaq və bir-birinin üzərinə qoymaqla, yəni lent üsulu ilə hazırlanmışdır. Bəzi qabların üzəri incə təbəqə ilə suvanmışdır. Araşdırma göstərir ki, bu bəzi hallarda qabların rəng tonunu dəyişmək, bəzən isə ornamentasiya ilə bağlı olmuşdur. Bu xüsusilə barmaq basqısı ilə naxışlanmış keramikaya aiddir. Araşdırmalar göstərir ki, səliqəsiz və qarışıq barmaq basqıları qabların üzərinə ayrıca layların yapışdırılması ilə bağlı olmuşdur. Fikrimizcə, bəzi tədqiqatçılar barmaq basqılı keramikanın etnoqrafik xüsusiyyətlərlə bağlı olmasını ehtimal etməkdə haqlıdırlar [22, p. 37-40]. Lakin bəzən bu üsuldan qabların təmir edilməsi üçün də istifadə olunmuşdur. Keramika məmulatı başlıca olaraq saman qarışığı olan gil-

dən hazırlanmış və qırmızı rəngin müxtəlif tonlarında bişirilmişdir. Qum qarışığı olanlar tək-tək nümunələrlə təmsil olunmuşdur. Rəng tonları sarı və qırmızının müxtəlif tonları ilə təmsil edilmişdir. Az miqdarda boz rəngli qablara təsadüf olunmuşdur.



Şəkil 2. Qırmızı boya ilə örtülmüş keramika.

Birinci dövrə üst təbəqədən aşkar olunan keramika məmulatı aiddir. Bu dövr dördkünc formalı arxitektura ilə fərqlənir. Bu təbəqədən aşkar olunan keramika məmulatını altı qrupa bölmək olar. Birinci qrupa sadə keramika məmulatı, ikinci qrupa boyalı keramika məmulatı, üçüncü qrupa qırmızı boya ilə örtülmüş naxışsız keramika, dördüncü qrupa basma naxışlı keramika, o cümlədən barmaq basqısı ilə naxışlanmış keramika, beşinci qrupa daraq basqısı ilə naxışlanmış keramika, altıncı qrupa daraqvari alətlə üfüqi zolaqlar şəklində naxışlanmış keramika aiddir.

Sadə keramika məmulatı üstünlük təşkil edir. Onlar başlıca olaraq incə saman qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmişdir. Lakin bəzən qabların divarları arasında bişməmiş boz rəngli təbəqəyə rast gəlinir. Bu tip qablardan bəzisinin üzəri sarı boya ilə örtülərək az cilalanmışdır. Bəzi qabların iç tərəfi kobud şəkildə daraqvari alətlə düzəldilmişdir. Qabların bəzisinin içərisinə qırmızı çəkilərək cilalanmışdır. Bəzi qabların qulpşəkilli çıxıntıları vardır. Bu qrupdakı qablar başlıca olaraq kasa, küpə və çölməklərdən ibarətdir. Bu qrupa gil manqallar və iri həcmli təsərrüfat qabları da bu qrupa aiddir. Bu tip keramika məmulatı Culfa Kültəpəsi [11, p. 38], Dalma təpə [19, p. 101], Dava Göz tepe [12, p. 73], Seh Gabi B [23, p. 232-236] yaşayış yerlərindən məlumdur.



Şəkil 3. Qabartma və basma naxışlı keramika.

İkinci qrupdakı qablar boyalıdır (şəkil 1). Onlar başlıca olaraq qatqısı olmayan gildən hazırlanaraq yaxşı bişirilmişdir. Bu tip keramika kəsikdə qara rəngdədir. Onlar hər iki üzdən qırmızı boya ilə örtülərək xarici səthləri qara rənglə həndəsi motivdə naxışlanmışdır. Üzərində və içərisində saman izlərinə rast gəlinməmişdir. Naxışlar olduqca müxtəlifdir. Bir-birinin içərisinə çəkilmiş üçbucaqlar üstünlük təşkil edir. Bundan başqa yolkaşəkilli, bir-biri üzərində olan kiçik üçbucaqlar, içərisi parallel xətlərlə doldurulmuş üçbucaqlar, torşəkilli və sünbülşəkilli naxışlar da vardır. Bəzən naxışlar qabların sarı rənglə boyanmış səthinə, bəzən isə boyanmamış səthinə qara rənglə çəkilmişdir. Naxışlar sünbülvari formadadır. Keramika parçalarının birinin səthi bitişik rombların içərisinə çəkilmiş üçbucaqlarla naxışlanmışdır. Bu tip boyalı keramika məmulatı Dalma təpə (19, fig. 4, A, E; fig. 7, D; fig. 10, A), Culfa Kültəpəsi [11, p. 38, fig. 10, 1-3, 5-8], Seh Gabi B [23, p. 253-304, fig. 55, 1.1, 1.2; fig. 56, 14.1, 14. 3; fig. 61, 53.1, 53.8], Lavin təpə [20, fig.7-9], Sonqar vadisi [24, fig. 6, 15-17], Hacı-Firuz [29, fig. 97] və digər yaşayış yerlərindən məlumdur.

Üçüncü qrupdakı keramika məmulatı saman qarışıq, bəzən isə qatqısız gildən hazırlanmış və hər iki üzdən, bəzən də yalnız xaricdən və ağzının kənarı içəridən qırmızı boya ilə örtülmüşdür (şəkil 2). Bu tipdəki keramikanın hər iki üzündə saman izləri vardır. Bu tip keramika Dalma təpə [19, p. 117], Seh Gabi B [23, p. 226-230], Lavin təpə [20, p. 101], Culfa Kültəpəsi [11, p. 38] digər yaşayış yerlərindən məlumdur.

Dördüncü qrup keramika saman qarışığı olan gildən hazırlanmış, bəzən yaxşı, bəzən isə qeyri-bərabər bişirilərək basma ornamentlə naxışlanmışdır (şəkil 3). Ornamentlər olduqca müxtəlifdir. Onlar xüsusi alətin basılması ilə hazırlanmışdır. Naxışların bəzisi dırnaq və barmaq basqısı ilə icra edilmişdir. Bəzi ornamentlər küt alətin basqısı ilə icra olunmuşdur. Ornamentlər arasında çərtmələr üstünlük təşkil edir. Naxışların bir qismi olduqca düzgün və səliqəlidir. Digər qismi isə qarmaqarışıqdır. Ehtimal ki, bəzi na-

xışlar dırnaq və barmaq basqısı ilə hazırlanmışdır. Bu xüsusilə üzəri suvanmış qablarda özünü göstərmişdir. Bu qrupdakı qablar istifadə edilmə sahəsinə görə də müxtəlifdir. Onlar arasında olduqca səliqəli hazırlanmış yemək, mətbəx və təsərrüfat qablarına rast gəlinir. Qabların bəzisi hər iki üzdən, bəzisi isə xaricdən qırmızı boya ilə örtülmüşdür. Bu tip keramika Dalma təpə [19, p. 101, fig. 8], Seh Gabi B [23, p. 242-251, fig. 49-54], Siahbid [23, fig. 104], Çoga Maran [23, fig. 105], Lavin təpə [20, p. 101, fig. 9, 172; fig. 10, 1069], Sonqar vadisindəki [24, fig. 3; fig. 5; fig. 7-8] abidələrdən məlumdur.

Beşinci qrup qablar daraq basqısı ilə naxışlanmışdır. Bu tip keramika nümunələri başlıca olaraq iri həcmli qabların parçalarından ibarətdir. Lakin onlar arasında incə hazırlanmış məişət qabları da vardır. Bu tip keramika məmulatının bəzisi sadə, bəziləri isə sarı, ya da qırmızı boya ilə örtülüdür. Daraq basqıları bəzən səliqəli olub müəyyən kompozisiya yaradır, bəzən isə səliqəsiz və qarışıqdır. Bu tip keramika Dalma təpə yaşayış yerindən yaxşı məlumdur [19, fig. 8, E; Pl. II, b].

Altıncı qrupdakı keramika nümunələri daraqvari alətlə naxışlanmışdır. Bu tip keramika məmulatı olduqca azdır və incə daraqvari alət vasitəsi ilə naxışlanmışdır. Onlar Ovçulartəpəsinin bənzər naxışlarından daha incə olması ilə fərqlənir. Bu tip ornament Culfa Kültəpəsinin müxtəlif təbəqələrindən [11, p. 110, fig. 9, 1; fig 13, 10; fig. 15, 4; fig. 20, 14], Naxçıvan Kültəpəsi, Uzunoba, Uçan Ağıl yaşayış yerlərindən məlumdur. Naxçıvan Kültəpəsi, Uzunoba, Uçan Ağıl yaşayış yerlərindən aşkar olunan bu tip keramika çap olunmamışdır. Bu tip keramika başlıca olaraq e.ə.V minilliyin ikinci yarısına aid abidələrdən yaxşı məlumdur [27, p. 31-87].

İkinci dövrün alt təbəqəsi dördkünc formalı yarımqazma tipli evlərlə xarakterizə olunur. Bu dövr, yuxarıda qeyd etdiyimiz kimi, iki mərhələ ilə təmsil edilmişdir. Birinci təbəqənin keramika kompleksi demək olar ki bu dövrdə də mövcud olmuşdur. Lakin müəyyən dəyişikliklər vardır. Birinci dövrə aid qırmızı boya üzərindən qara rənglə naxışlanmış keramika bu dövrdə azalmışdır. Basma naxışlı keramikanın çeşidləri artmışdır. Onlar qırmızı, bəzən də sarı rənglə boyanmışdır. Qeyd etmək lazımdır ki, Culfa Kültəpəsinin alt layları Dalma Təpə tipli boyalı keramika ilə xarakterizə olunur, lakin burada basma naxışlı keramika aşkar olunmamışdır [11, p. 38, fig. 10, 1-3, 5-8]. Ehtimal ki, bu tip keramika Culfa Kültəpəsindəki boyalılardan erkən mərhələyə aiddir. Daha çox dəyişiklik sadə keramika məmulatında izlənir. Bu dövrdə sadə keramika məmulatının bir qismi içəridən qırmızı boya ilə örtülərək yaxşı cilalanmış, şübhəsiz ki, yemək qabları kimi istifadə olunmuşdur. Bu tip keramika məmulatının bir qismi isə enli qırmızı zolaqlarla naxışlanmışdır. Təəssüf ki, bu tip naxışlar bütöv şəkildə əldə edilmədiyindən onların motivini tam şəkildə müəyyənləşdirmək mümkün deyil.

Yaşayış yerində aşkar olunan heyvan sümüklərinin analizi bu yaşayış yerindəki insanların heyvandarlıqla məşğul olduğunu, başlıca olaraq mal-qara və xırdabuynuzlu heyvan saxladıqlarını göstərir. Ovçuluq çox az istifadə olunmuşdur. At və it sümüyü yalnız bir nümunə ilə təmsil olunmuşdur. Botaniki qalıqlar hələlik yoxdur. Məsələ bundadır ki, ocaqlarda karbon qalıqları çox azdır. Karbonlaşmış bitki qalıqları isə hələlik yuyulmuş torpaqlardan aşkar olunmamışdır. Ola bilsin ki, gələcək araşdırmalar zamanı botaniki qalıqlar haqqında müəyyən fikir demək olacaqdır.

Aşkar edilmiş keramika məmulatına əsasən yaşayış yerini e.ə. V minilliyin birinci yarısına aid etmək olar. Kömür analizlərinin nəticələri yaşayış yerində həyatın e.ə. V minilliyin əvvəlində başlandığını göstərir. Bu yaşayış yerinin, həmçinin Sirabçay hövzəsində yerləşən digər abidələrin tədqiqi [6, c. 88-95; 7, c. 136-145] Cənubi Qafqazın, o cümlədən Azərbaycanın Eneolit mədəniyyətini dövrləşdirməyə imkan verir. Naxçıvan təpə yaşayış yerindən Dalma təpə keramika məmulatının aşkar olunması olduqca diqqətəlayiqdir. Dalmatəpə tipli boyalı keramika məmulatı Naxçıvanda hələlik Uzun Oba və Uçan Ağıl yaşayış yerindən tək-tək nümunələrlə məlumdur [1, s. 117-124]. Barmaq basqılı keramika isə hələlik Uçan Ağılda bir nümunə ilə təmsil olunur. Digər yaşayış yerlərində bu tip keramika hələlik yoxdur. Bu tip keramika tək-tək nümunələrlə Qarabağ abidələrindən məlumdur [16, c. 197-198, табл. 22, 1; табл. 56, 1 və b.]. Araşdırmalar Urmiya hövzəsinin yaşayış yerlərində başlıca olaraq Sünik obsidianından istifadə olunduğunu göstərir [18, p. 1956-1965]. Naxçıvan abidələrində isə əsasən Göyçə obsidianından istifadə olunmuşdur [7, c. 143]. Sünik obsidianı faiz etibarı ilə azdır və ikinci yerdədir. Ehtimal ki, Urmuya hövzəsində yaşayan tayfalar Zəngəzur dağlarındakı xammal mənbələri ilə Naxçıvançay vadisində yaşayan insanlar vasitəsi ilə əlaqə saxlamışlar. Qeyd etmək lazımdır ki, bu yaxınlarda Naxçıvançay vadisindən üzərində mis filizinin izləri olan mədən alətinin tapılması bu əlaqələrin yalnız obsidianla deyil, həm də mis yataqları ilə bağlı olduğunu göstərir.

Dalma təpə tipli keramika 1959 Charles Burney və 1961-ci ildə Cuyler Young tərəfindən tədqiq edilən Dalma təpə yaşayış yerindən aşkar olunmuşdur [19, p. 111-127]. Bu tip keramikanın həmçinin Həsənli, Hacı-Firuz [29, p. 20], Təpə Seavan [34, p. 98-117] yaşayış yerlərində mövcudluğu araşdırmalarla müəyyən olunmuşdur. Dalma təpə keramikasına İran və İraqın yaşayış yerlərində tipik Xalaf və Ubeyd keramikası ilə birlikdə rast gəlinmişdir. Bu tip keramika Zagros dağlarında kəşfiyyat xarakterli araşdırmalarla da aşkar olunmuşdur. Kanqavar vadisində Seh-Gabi [23, p. 153-169] və Qodin təpə [33, p. 80-90; 23, p. 172-173] yaşayış yerlərində qazıntı aparılmış, Mahidaştda [25, p. 39-50] isə 16 yaşayış yerinin səthində zəngin Dalma tipli keramika aşkar olunmuşdur. Bu yaşayış yerlərindən Təpə Siahbid [23, p. 305-314] və Çoqa Maran [23, p. 317] şurf qazıntısı ilə öyrənilmiş, Təpə Kuhda isə yerüstü materiallar arasında Dalma keramikası üstünlük təşkil etmişdir [22, p. 38]. Bu tip keramika İrakda Cəbəl yaşayış yerində, Kərkükdə [22, p. 39-40] Tell Abad, Keit Qasım və Yorqan Təpədə [22, p. 39-40] rastlanmışdır. Qeyd etmək lazımdır ki, Kanqavar vadisində bu tip keramika 68%, Mahidaştda isə 24% [22, p. 39] olmuşdur. Araşdırmalar bu tip keramikanın cənuba doğru irəlilədikcə azaldığını göstərir. Öncə Urmiya gölünün cənubunda və qərbində yayıldığı güman edilən bu keramika Urmiyanın şimalında [Abedi, 2017, p. 69-87], hazırda isə Naxçıvanda aşkar olunmuşdur. İran Azərbaycanında bu mədəniyyət Culfa Kültəpəsi [11, p. 33-167], Ahranjan Təpə [28, p. 7-17], Lavin Təpə [20, p. 95-117], Qoşa Təpə [21, p. 304], Idir Təpə və Baruj Tepe [13, p. 4-25; 14, p. 3-21] yaşayış yerlərinin qazıntısı zamanı aşkar edilmişdir. Hazırda bu tip keramika İran Azərbaycanında 100-dən artıq yaşayış yerindən məlumdur. Yaşayış yerlərinin bir qismi oturaq əhaliyə, bir qismi isə köçmə maldarlıqla məşğul olan insanlara məxsusdur [12, p. 80]. Tədqiqatçıların fikrinə görə bu mədəniyyət Şimal-Qərbi İranda çiçəklənmiş və Urmiya gölünün cənubuna yayılmışdır [12, p. 80]. Dalma təpə keramikasının kimyəvi analizi onun yerli istehsalın məhsulu olduğunu göstərmişdir [22, p. 40].

Belə hesab edirik ki, Dalma təpə mədəniyyətinin yayılma arealı Naxçıvanı da əhatə etmişdir. Daha doğrusu, Naxçıvan bu mədəniyyətin formalaşdığı areala daxil olmuşdur. Şübhəsiz ki, gələcək araşdırmalar Urmiya hövzəsi və Naxçıvan tayfaları arasındakı əlaqələrin və qarşılıqlı münasibətlərin xarakterini daha aydın şəkildə müəyyən etməyə imkan verəcəkdir. Araşdırmalar həmçinin Dalma təpə mədəniyyətinin yaranması və formalaşması ilə bağlı məsələlərə aydınlıq gətirəcəkdir.

ƏDƏBİYYAT

1. Bахşəliyev V.B. Kültəpə ətrafında arxeoloji araşdırmalar // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2017, № 3, s. 117-124.
2. Bахşəliyev V., Quliyeva Z., Rzayeva R. Yeni Yol yaşayış yerində arxeoloji araşdırmalar. Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri. Sosial elmlər seriyası. 2017, № 1, s. 49-56.
3. Nərimanov İ.H. Naxçıvanın erkən əkinçi-maldar əhalisinin tarixindən. Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, 2003, № 1, s. 32-33.
4. Müseyibli N. Böyük Kəsik. Eneolit dövrü yaşayış məskəni, Bakı: Nafta-Press, 2007, 328 s.
5. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм, 1982, 316 с.
6. Бахшалиев В.Б Новые энеолитические памятники на территории Нахчывана // Российская археология, 2014, № 2, с. 88-95.
7. Бахшалиев В.Б. Новые материалы эпохи неолита и энеолита на территории Нахчывана // Российская археология, 2015, № 2, с. 136-145.
8. Бахшалиев В.Б. Новые данные о поселении Кюльтепе I в Нахчыване // Российская археология, 2016, № 3, с. 38-41.
9. Мунчаев Р.М., Амиров Ш.Н. Взаимосвязи Кавказа и Месопотамии в VI-IV тыс. до н.э. Международная научная конференция, 11-12 сентября 2008, Баку: Чашыоглы, 2009, с. 41-52.
10. Нариманов И.Г. Обендские племена Месопотамии в Азербайджане. Тезисы Всесоюзной археологической конференции. Баку, 1985, с. 271-277.
11. Abedi A., Khatib Shahidi H., Chataigner CH., Niknami K., Eskandari N., Kazempour M., Pirmoham-madi A., Hoseinzadeh J. and Ebrahimi GH. Excavation at Kul Tepe of (Jolfa), North-Western Iran, 2010: First Preliminary Report", Ancient Near Eastern Studies. Vol. 51, 2014, pp. 33-167.
12. Abedi A. Iranian Azerbaijan Pathway From The Zagros To The Caucasus, Anatolia And Northern Mesopotamia: Dava Göz, A New Neolithic And Chalcolithic Site In NW Iran. Mediterranean Archaeology and Archaeometry, vol. 17, № 1 (2017) pp. 69-87.
13. Alizadeh K. and Azarnoush M. (2003a) Systematic survey of Tepe Baruj: Sampling method and statistical results (Barresi-ye Raveshmand-e Tappe-ye Baruj: Ravesh-e Numunebardari va Natayej-e Amari)," Iranian Journal of Archaeology and History 33, 2003a, pp. 4-25 (In Persian with English summary).
14. Alizadeh K. and Azarnoush M. Systematic survey of Baruj Tepe: Cultural relationship between the south and the north of the Araxes River (Barasiy-e Ravehsmand-e Tapeh Baruj: Ravabet-e Farhan-gi-e do soye Rood-e Aras), Iranian Journal of Archaeology and History 34, 2003 b, pp. 3-21 (In Persian with English summary).
15. Achundov T. Sites des migrants venus du Proche-Orient en Transcaucasie, in Les cultures du Caucase (VIe-IIIe millénaires avant notre ère). Leurs relations avec le Proche Orient, B. Lyonnet ed., Éditions Re-cherche sur les Civilisations, CNRS Éditions: Paris, 2007, p. 95-122.
16. Ахундов Т. У истоков Кавказской цивилизации Гарабагского неолита. Баку: Афполиграф, 2017, 918 с.
17. Dyson R.H. and Young T.C. Jr. (1960). The Sulduz Valley Iran: Pisdeli Tepe, Antiquity 34, 1960, pp. 19-2.

18. Khademi N.F., Abedi A., Glascock M.D., Eskandari N. and Khazaee M. Provenance of prehistoric obsidian artifacts from Kul Tepe, Northwestern Iran using X-ray fluorescence (XRF) analysis // Journal of Archaeological Science, 2013, 40, p. 1956-1965.
19. Hamlin C. Dalma Tepe, Iran, 13, 1975, pp. 111-127.
20. Hejebri N., Binandeh A., Nestani J. and Vahdati N. H. Excavation at Lavin Tepe North-west Iran, Ancient Near Eastern Studies, vol. 40, 2012, pp. 95-117.
21. Hejebri N., Purfaraj A. The investigation of cultural relationships of Ardebil province with north and northeastern Iran in Neolithic and Chalcolithic periods: Based on archaeological data of Ghosha Tepe in Shahar Yeri," in Abstracts of the International Symposium on Iranian Archaeology: Northern and Northeastern Regions, Theran: Iranian Center for Archaeological Research, 2005, p. 304.
22. Henrickson. E.F. and Vitali V. The Dalma Tradition: Prehistoric Inter-Regional Cultural Integration Highland Western Iran, Paleorient, vol. 13, № 2, 1987, pp. 37-45.
23. Henrickson E.F. Ceramic styles and cultural interaction in the Early and Middle Chalcolithic of the Central Zagros, İran. A Thesis submitted in conformity with the requirwmwnts for the degree of Doctor of philosophy in the University of Toronto. Toronto, 1983, 840 p.
24. Heyderyan M., Zeydi M., Herieyan H. Kirmanşahın Sonqar vadisində Orta Kalkolitik yaşayış yerləri // Payambastanşünas, 1392, № 19, p. 1-14.
25. Levine L.D. and Mcdonald M.M.A. The Neolithic and Chalcolithic periods in the Mahidasht. Iran, XV, 1977, 39-50.
26. Levine L.D. Archaeological investigations in the Mahidasht,western Iran, Paléorient II, 2 1975, p. 487-490.
27. Marro C., Bakhshaliyev V. and Ashurov S. Excavations at Ovçular Tepesi (Nakhichivan, Azerbaijan). First Preliminary Report the 2006-2008 seasons. Anatolia Antiqua XVII, IFEA, Paris, 2009, p. 31-87.
28. Talai H. Pottery evidence from Ahrendjan Tepe, a Neolithic site in Salmas plain, Azerbaijan, Iran. AMI (16), 1983, pp. 7-17.
29. Voigt M.M. Hajji Firuz Tepe, Iran: The Neolithic Settlement. Philadelphia: University of Pennsylvania, 1983, 396 p.
30. Young T.C. Excavations at Godin Tappeh, 1973. İn proceedings of the II Annual Symposium on Archaeological research in Iran. Ed. By Bagherzadeh F. Tehran: Centre for Archaeological Research, 1974, pp. 80-90.
31. Young T.C. An archaeological survey in Kangavar valley. İn proceedings of the III Annual Symposium on Archaeological research in İran. Ed. By Bagherzadeh F. Tehran: Centre for Archaeological Research, 1974, pp. 23-30.
32. Young T.C. Kangavar valley survey. Iran XIII, 1975, p. 191-193.
33. Young T.C., Levine D.L. Excavations of the Godin project: second progress report. Toronto: Royal Ontario Museum Art and Archaeology Occasional papers, 1974, № 26.
34. Solecki R.L. and Solecki R.S. Tepe Sevan: A Dalma period site in the Margavar valley, Azerbaijan, Iran, Bulletin of the Asia Institute of Pahlavi University, 3, 1973, pp. 98-117.

Вели Бахшалиев

АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ В ПОСЕЛЕНИИ НАХЧЫВАН ТЕПЕ

Существование связей между культурами Южного Кавказа и Ближнего Востока, в том числе Месопотамии, уже давно привлекало внимание исследователей-кавказоведов. Такие исследователи, как Р.М.Мунчаев, О.А.Абибуллаев, И.Г.Нариманов, Т.В.Ахундов и другие, говорили о распространении культур Ближнего Востока на Южном Кавказе. Если ранее существование этих связей представлялось единичными находками, то в настоящее время они подтверждаются комплексом целого ряда археологических материалов. Одним из таких памятников является поселение Нахчыван тепе, которое характеризуется Дальматепинской керамикой. Таким образом, можно заключить, что ареал формирования и распространения дальматепинской культуры охватил также территории Нахчывана. Несомненно, что последующие исследования выяснят некоторые вопросы характера взаимных связей племен бассейна Урмия и Нахчывана. Думаем, что будут выясняться также вопросы, связанные с местом зарождения культуры Дальма Тепе.

Ключевые слова: *Нахчыван, Дальматепинская культура, расписная керамика, керамика с отпечатками пальца, кочевое животноводство, обсидиан.*

Veli Bakhshaliyev

ARCHAEOLOGICAL RESEARCHES IN THE SETTLEMENT OF NAKHCHIVAN TEPE

Existence of connections between the cultures of South Caucasus and those of the Middle East (including Mesopotamia) has drawn the attention of researchers for many years. Researchers such as R.M. Munchayev, O.A. Abibullayev, I.G. Narimanov, T.I. Akhundov and others spoke about the spread and distribution of cultures of from Middle East in South Caucasus. Although the existence of these connections was sometimes demonstrated by single finds, now however these connections are demonstrated by a complex of archaeological materials. One such monument is the settlement of Nakhchivan Tepe which is characterized by Dalma Tepe ceramics. We consider that is necessary to introduce to the scientific community the fact that this cultural assemblage has been revealed for the first time in the South Caucasus, and also to define its place among the other Caucasian cultures. Thus it can be concluded that the area of formation and distribution of Dalma Tepe culture included Nakhchivan's territories. Undoubtedly, subsequent studies will clarify some questions of the nature of the mutual ties between the tribes of the basin of Urmia and Nakhchivan. We think that the issues related to the birthplace of Dalma Tepe culture will also be clarified.

Keyword: *Nakhchivan, Dalma Tepe culture, painted ceramics, ceramics with figner impression, nomadic cattle-breeding, obsidian.*

Bu iş Azərbaycan Respublikasının Prezdenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir-Qrant № EİF-KETPL-2-2015-1(25)-56/47/5

TOĞRUL XƏLİLOV
AMEA Naxçıvan Bölməsi
E-mail: x.toqrul@gmail.com

NAXÇIVANIN TUNC DÖVRÜ DULUSÇULUQ EMALATXANASI VƏ KÜRƏLƏRİ HAQQINDA (I Kültəpə və II Kültəpənin materialları əsasında)

Dulusçuluq Naxçıvanın qədim sənətkarlıq sahələrindən biridir. Naxçıvanın Tunc dövrü abidələrindən bu sənətkarlıq sahəsi ilə bağlı çoxlu arxeoloji materiallar aşkar edilmişdir. Onlar içərisində dulusçuluq emalatxanası və kürələr özünəməxsus yer tutur. Bu arxeoloji materiallar haqqında ayrı-ayrı tədqiqat əsərlərində, hesabatlarda məlumatlar verilsə də onlar kompleks şəkildə öyrənilməmişdir. Ona görə də tərəfimizdən tədqiq olunmuşdur. Tədqiqat zamanı müəyyən olunmuşdur ki, Tunc dövründə dulusçuluq inkişaf etmişdir. I Kültəpə, II Kültəpə yaşayış yerləri bu dövrdə Naxçıvanın əsas dulusçuluq mərkəzlərindən olmuşdur.

Açar sözlər: *Tunc dövrü, dulusçu, kürə, emalatxana.*

Azərbaycan arxeologiyasında özünəməxsus yer tutan, aktual məsələlərdən birini Naxçıvan diyarının Tunc dövrü dulusçuluq emalatxanalarını və kürələri öyrənmək təşkil edir. Qeyd olunan problemlə bağlı apardığımız müqayisəli araşdırmaya əsasən ehtimal etmək olar ki, dünyanın digər bölgələrində olduğu kimi Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanda da onlar təsadüfən, birdən-birə düzəldilməmişdir. Onların formalaşması dulusçuluq sənətinin inkişafı ilə bağlı olmuşdur. Dulusçu kürələri formalaşana qədər insanlar məhsulları açıq yerdə və çuxurda bişirmişlər [12; 15]. Kürədə olduğu kimi hər iki metod zamanı əsas yanacaq vasitəsi odun olmuşdur.

Açıq yerdə bişirərkən havanın küləkli olması əsas yer tutmuşdur. Bu metodla bişirilən qabların arasında isti havanın rahatca hərəkət etməsi üçün onları növbəli şəkildə qoymuşlar (şəkil 1). Bu zaman qabların arasına quru odunlar yığaraq boşluqlar yaratmışlar. Sonra kiçik odunlarla onun ətrafını örtmüşlər. Yanan odunların dağılmaması üçün bəzən ocağın ətrafını daşla, kərpiclə və ya torpaqla əhatə etmişlər. Odunlar alovlandıqdan sonra odun köz halına düşməsinə qədər onu nəzarətdə saxlamışlar. Közün yavaş-yavaş sönməsi üçün onun üzərinə çimən (yaş ot) döşəmişlər.



1. *(Sevim Çizer)*

2. *(MEGEP, 2008)*

Şəkil 1. Açıq yerdə bişirmə.

Çuxurda bişirmə zamanı ilk olaraq bişəcək məhsullar torpaqda qazılmış çuxurun içərisinə qoyulmuşdur (şəkil 2). Sonra onların üstünə çoxlu sayda odun yığmışlar. Odunlar yandıqca köz və isti kül çuxurun içərisinə düşərək məhsulları tədricən bişirmişdir. Bu metodla bişirərkən onların üzərinin isti küllə tam örtülü olması əsas şərtlərdən birini təşkil etmişdir. Buna görə də açıq yerdə bişirməklə müqayisədə bu metodda daha çox odun və digər yanacaq vasitələri istifadə edilmişdir.



(Daniel Rhodes, 2008)



(MEGEP, 2008)

Şəkil 2. Çuxurda bişirmə.

Cəmiyyət daxilində baş vermiş sosial-iqtisadi dəyişikliklər dünyanın digər bölgələrində olduğu kimi Azərbaycanda da dulusçuluğa təsir göstərmişdir. Nəticədə qədim bişirilmə metodlarının yerini yenisi tutmuşdur. Fikrimizi əsaslandırmaq üçün mənbələrə nəzər salsaq görərik ki, dünyanın müxtəlif bölgələrində dulusçu kürələri bu ardıcıllıqla formalaşmışdır. Dünyanın müxtəlif yerlərində müxtəlif formalı kürələr düzəldilmişdir. "Ağ dəniz", "Sueki", "Tamba", "Əjdaha", "Yaruk Bambu", "Novoriqama" tipli dulusçu kürələrini buna nümunə göstərmək olar. "Sueki", "Tamba", "Novoriqama" Yaponiyada, "Əjdaha" Çində, "Yaruk Bambu" Koreyada düzəldilmişdir. Digər kürələrlə müqayisədə "Ağ dəniz" tipli dulusçu kürələri daha geniş yayılma arealına malik olmuşdur. Hindistandan Misirə, Yunanıstandan İspaniyaya, Anadoludan Qafqaza qədər "Ağ dəniz" tipli dulusçu kürələri yayılmışdır [14; 15; 13, s. 38-42]. Naxçıvan bölgəsinin Tunc dövrü abidələri içərisində I Kültəpə, II Kültəpə yaşayış yerlərindən dulusçu kürələri aşkar edilmişdir. Onlar forma və xüsusiyyətlərinə görə "Ağ dəniz" tipli kürələr qrupuna aid olmuşdur. Yaxın bənzərləri Mingəçevirdən aşkar edilmişdir [9, s. 144-145].

Ehtimal etmək olar ki, dünyanın digər yerlərində olduğu kimi Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanda da dulusçuluq kürələrini düzəldərkən bişiriləcək məhsullar üçün örtülü kameranın yaradılmasına, yanma kamerası ilə bişmə kamerasının bir-birindən ayrı olmasına diqqət yetirilmişdir. Açıq yerdə bişirilmənin davamı olaraq əvvəlcə insanlar yanma kamerası ilə bişmə kamerasını bir-birindən ayırmasalar da, sonradan bunu bacarmışlar. Yəni insanlar əvvəlcə odun qalandığı yerin ətrafını dairəvi, silindrik formalı divarla hörmüşlər. Sonra od qalanan kameranı, qab bişirilən kameradan ayırmışlar. Qabların bişirildiyi kamerada istiliyin yaxşı yayılması və düzgün tənzimlənməsi üçün kürələr günbəz formasında tikmişlər (şəkil 3). Onun bişmə kamerası (qabxana) bir qayda olaraq, yanma kamerasından (ocaqxanadan) yuxarıda olmuşdur. Keramikanın bişmə kamerası ilə yanma kamerası arasındakı arakəsmədə kiçik deşiklər (dudkeş) qoyulmuşdur. Bu tip deşiklər kürənin üst hissəsində də olmuşdur. Kürənin aşağı hissəsindəki yanma kamerasında nisbətən iri deşik (küflə) qoyulmuşdur. Bu deşiklərin qoyulması kürədə odun yaxşı yanmasına, istiliyin tənzimlənməsinə imkan yaratmışdır.

Qabxana bir və ya bir neçə tağlı olmuşdur. Bişirilmə prosesi zamanı hava yanacaq qoyulan deşiklərdən girərək, kürənin üst hissəsinə yığılan məhsulların arasından keçərək, yuxarı hissədəki kiçik deşiklərdən çölə çıxmışdır. Kürənin qapısını ona görə möhkəm bağlamışlar ki, istilik bayıra çıxmasın, kürə möhkəm qızsın, məhsullar yaxşı bişsin. Bişirilmə prosesi zamanı hər hansı bir dulusçu məhsulu hazırlandığı xammalın mineraloji və kimyəvi tərkibinə görə alovun təsirindən müxtəlif rənglərdə (boz, çəhrayı və s.) olmuşdur.



(Daniel Rhodes, 2008)

Şəkil 3.

I Kültəpə abidəsində Erkən Tunc dövrünə aid iki dulusçu kürəsi qeydə alınmışdır. Onlar abidənin üçüncü və beşinci tikinti qatında aşkar edilmişdir [7, s. 87-88; 90; 10, s. 23; 11, s. 22].

Üçüncü tikinti qatındakı kürə 28 №-li binanın cənub-şərq hissəsində, giriş qapısının sağ tərəfində divara bitişik qeydə alınmışdır. Binanın diametri 5,5 m olmuşdur. O 42x18x12 sm ölçülü çiy kərpicdən hörülərək gillə suvanmışdır. Kürənin yanma kamerası günbəz tipli, bir qədər düzgün olmayan dördkünc planda tikilmişdir. Onun nisbətən salamat qalan hissəsinin uzunluğu 1,34 sm, eni 0,78 m, hündürlüyü 0,18 m olmuşdur (şəkil 4).



(Абибуллаев, 1982)

Şəkil 4. I Küləpənin üçüncü tikinti qatının planı.

Yaşayış yerinin beşinci tikinti qatındakı kürə 21 №li binanın şimal hissəsində qeydə alınmışdır. Onun divarlarının qalınlığı 40 sm, hündürlüyü 20 sm, diametri 4,5 m olmuşdur. Kürənin salamat qalmış divarının uzunluğu 0,9 m, hündürlüyü 0,18 m, eni 0,65

m olmuşdur (şəkil 5). Hər iki kürənin ətrafına kül qalıqları, keramika parçaları yığılmışdır.



(Абибуллаев, 1982)

Şəkil 5. I Kültəpənin beşinci tikinti qatının planı.

Erkən Tunc dövrünə aid II Kültəpə yaşayış yerinin yeddinci və onbirinci tikinti qatlarında da dulusçu kürələrinin qalıqları qeydə alınmışdır. Onlar odadavamlı gildən dördkünc formada tikilmişdir [10, s. 24-25; 11, s. 39-40, 47].

Yeddinci tikinti qatındakı kürə 16 №-li binanın qərb hissəsində aşkar edilmişdir (şəkil 6). O bişmiş kərpiclə tikilərək gillə suvanmışdır. Kürənin bişmə kamerası 2×2,5 m olmuşdur. Yanma kamerası şərq tərəfdə bişmə kamerasından 40 sm aşağıda qoyulmuşdur.



(Сеидов, 2002)

Şəkil 6. II Kültəpənin yeddinci tikinti qatının planı.

Onbirinci tikinti qatındakı kürə 5 №-li binanın şimal-şərq hissəsində qeydə alınmışdır (şəkil 7). Onun divarlarının eni 0,52 m, hündürlüyü 0,3 m, diametri 7 m, sahəsi 2,55×2 m olmuşdur. Bişmə kamerası 1,5×2,5 m ölçüdə tikilmişdir. Yeddinci tikinti qatındakı kürə kimi onun da yanma kamerası şərq tərəfdə bişmə kamerasından 40 sm aşağıda qoyulmuşdur.



(Сеидов, 2002)

Şəkil 7. II Kültəpənin onbirinci tikinti qatının planı.

Orta Tunc dövrünə aid II Kültəpə yaşayış yerində dulusçu kürələri qeydə alınmışdır. Abidədə həm əvvəlki dövrlərdə (1968-1975-ci illərdə) [1, s. 26-28; 8, s. 32-34], həm də son zamanlarda [2, s. 126-130; 3, s. 126-135; 4, s. 115-125, 5, s. 161-168] aparılan arxeoloji tədqiqat zamanı kürə ilə yanaşı dulusçuluq emalatxanasının qalıqları aşkar edilmişdir.

Yaşayış yerinin birinci qazıntı sahəsinin ikinci tikinti qatında dulusçu kürəsinin və emalatxanasının qalıqları qeydə alınmışdır [8, s. 32-33]. Emalatxananın sahəsi 15 m^2 olmuşdur. Onun içərisindən kül, kömür qalıqları boyalı və boyasız qabların parçaları aşkar olunmuşdur. Boyalı qablar əsasən monoxrom rəngli düzəldilmişdir. Abidədəki kürələrdən biri nisbətən yaxşı qalmışdır. O, 3×3 m sahənin ortasında möhrədən dairəvi planda tikilmişdir. İçərisi küllə dolu olan kürənin salamat qalmış divarlarının qalınlığı 12-15 sm, hündürlüyü 16-18 sm, sahəsi 1×1,2 m olmuşdur. Kürənin divarları odun təsirindən qaralmışdır.

Yaşayış yerinin dördüncü tikinti qatında qeydə alınmış dulusçuluq emalatxanasının divarları və kürənin ətrafı çay daşlarından hörülmüşdür. Kürənin ətrafında 9 m^2 sahəyə kül və kömür qalıqları yayılmışdır. Onun qab yığılan hissəsi tamamilə dağılmış, yanma kamerası isə nisbətən salamat qalmışdır. Yanma kamerasının diametri 1,2 m olmuşdur [8, s. 34]. 1968-ci ildən 1975-ci iladək yaşayış yerində 120 m^2 sahəsi olan dulusçuluq emalatxanası öyrənilmişdir [2, s. 127].

2009-2014-cü tədqiqat illərində də yaşayış yerində aparılan arxeoloji araşdırmalar zamanı dulusçuluq emalatxanası və kürələrlə bağlı yeni arxeoloji materiallar aşkar edilmişdir.

2009-cu ildə Narınqalanın şimal-qərb müdafiə divarının yaxınlığında, qazıntı sahəsinin cənub hissəsindəki I və II kvadratlarda dulusçuluq emalatxanası və kürələr qeydə alınmışdır [2, s. 127-128]. Emalatxananın özülü çay daşından, divarları isə çiy kərpicdən tikilmişdir. Kürənin tikintisində 32×32×20 sm ölçülü çiy kərpiclərdən istifadə edilmişdir. Onun divarları şərq-qərb istiqamətində qala divarına bitişik tikilmişdir. Şimal divarı üzərində Son Tunc dövründə müəyyən təmir-tikinti işləri aparılmışdır. Həm emalatxana yerindən, həm də kürənin ətrafından gil qab parçaları ilə yanaşı daşdan, heyvanların qabırğa sümüyündən düzəldilmiş daraq tipli alətlər, yanmış iri və xırdabuynuzlu heyvan sümükləri aşkar edilmişdir. Kürənin qablar düzəldilən hissəsi təmizlənərkən kül qatının altından oxra izi, içərisində sarı, çəhrayı, ağ rəngli süxur qalıqları, parıltılı minerallar, yanaraq kömürləşmiş quş sümükləri olan qab aşkar edilmişdir. Qab yastı oturacaqlı, geniş ağızlı, qabarıq gövdəli, xaricə qatlanmış ağız kənarlı düzəldilmişdir. Dağıntı nəticəsində kürənin divarları uçaraq bişirilməkdə olan qabların üzərinə töküldü-

yündən onların çoxu qırılmışdır. Kürənin içərisində gil qablar bir-birinin yanında səliqəli şəkildə düzülmüşdür. Nisbətən kiçik həcmli olanlar (çölmək, dopu və s.) qabxananın divarı boyunca düzülmüş, iri həcmlilər isə ortada qoyulmuşdur. Kürədə qabların səliqəli şəkildə düzülməsi onun bişirilmə prosesi ilə bağlı olmuşdur. Bişirilmə prosesi zamanı istilik xırda və iri həcmli bütün qablara bərabər səviyyədə yayılmışdır.

2010-cu tədqiqat ilində də yaşayış yerindən dulusçuluq emalatxanası və kürələrlə bağlı yeni arxeoloji materiallar aşkar edilmişdir. 2009-cu ildə aşkar edilmiş dulusçuluq məhəlləsində aparılan arxeoloji qazıntı zamanı 20-30 sm qalınlığındakı mədəni təbəqə təmizləndikdə dulusçuluq emalatxanasının quruluşunu müəyyənləşdirmək mümkün olmuşdur. Bu zaman həmçinin emalatxana ilə bağlı təsərrüfat tikintisinin divar qalıqları da aşkar edilmişdir. 1,8 m dərinlikdə Orta Tunc dövrünə aid mədəni təbəqədə emalatxanadan qərbdə, qala divarına bitişik düzbucaqlı formalı tikili qalıqları da qeydə alınmışdır. Bünövrəsi daşla, divarları çiy kərpiclə, gil palçıqla tikilmiş bu binalar dulusçulara məxsus evlər (2,5×2,5 m ölçüdə) olmuşdur. Onların salamat qalmış cənub divarının uzunluğu 3 m, şimal divarının uzunluğu 3,5 m, qərb divarının uzunluğu 55 sm, divarların hündürlüyü 62 sm, eni 55 sm-dir. Evlərin döşəməsi sarımtıl boz rəngli gil məhlulla suvanmışdır. Yaşayış yerində aparılan arxeoloji qazıntının gedişində 2009-cu ilin divar qalıqları götürülərkən dulusçuluq emalatxanasının ikinci bölməsinin qalıqları, çoxlu miqdarda sadə və boyalı gil qablar, iribuynuzlu və xırdabuynuzlu heyvan sümükləri aşkar edilmişdir. Sümüklərin çoxu yanaraq kömürləşmişdir. Kürə qalıqları olan sahədə aparılan qazıntı zamanı 2,4 m dərinlikdə onun arxa divarlarının qala divarına bitişik hissəsi, emalatxananın arxa (uzunluğu 2,9 m), yan (uzunluğu 3,5 m) divarları aşkar edilmişdir. Kürə çay daşları, möhrə ilə keyfiyyətli gil məhlulundan istifadə edilməklə tikilmişdir. Emalatxananın salamat qalmış divarlarının eni 60 sm, hündürlüyü 50-65 sm, giriş qapısının eni 0,55 m olmuşdur. Emalatxana qala divarı boyunca iri bir kompleks təşkil etmişdir. Oradan xeyli miqdarda sadə və boyalı qablar aşkar edilmişdir. Qabların bəzilərinin içərisi boya ilə dolu olmuşdur. Kürənin arxa divarına yaxın bütöv gil qablar, şimal divarına yaxın çoxlu miqdarda iri həcmli monoxrom boyalı küpələrin parçaları, boz və qəhrayı rəngli keramikalar aşkar edilmişdir. Oradan beş yüzdən artıq gil qab parçalarının aşkar edilməsinə əsaslanaraq tədqiqatçılar kürədə 50-60 qabın eyni vaxtda bişirildiyini, qabların bişirildiyi zaman qırıldığını qeyd etmişlər [3, s. 128-133].

2011-ci tədqiqat ilində yaşayış yerində aparılan arxeoloji tədqiqatlar zamanı dulusçuluq emalatxanasının açılmamış digər sahələri də öyrənilmişdir. Üçüb tökümüş divar qalıqları götürüldükdən sonra yeni kürə qalıqları aşkar edilmişdir. Onun tünd qəhvəyi rəngdə olan yanacaq kamerası tamam dağılmışdır. Digər kürələr kimi oradan da xeyli keramika məmulatları aşkar edilmişdir. 2010-cu ildə olduğu kimi 2011-ci ildə də emalatxana sahiblərinə məxsus yaşayış evlərinin qalıqları qeydə alınmışdır. Tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, II Kültəpədə həm Orta, həm Son Tunc dövründə dulusçuluq xeyli inkişaf etmiş, emalatxana yaxşı istehsal imkanına malik olmuşdur [4, s. 1115-117]. Dulusçuluq emalatxanası və kürələrlə bağlı yeni arxeoloji materiallar 2013-2014-cü tədqiqat ilində də aşkar edilmişdir [5, s. 161].

I Kültəpə və II Kültəpə abidələrində qeydə alınmış kürələr, II Kültəpədə aşkar edilmiş emalatxana kompleksi, içərisi boya ilə dolu küpələr, bütöv boyalı qablar, çoxlu miqdarda sadə və boyalı qab parçaları bu yaşayış yerlərinin Tunc dövründə Naxçıvanın əsas dulusçuluq mərkəzlərindən olduğunu sübut edir. Aparılan müqayisəli araşdırma göstərir ki, II Kültəpə yaşayış yerindəki dulusçuluq emalatxanası bir neçə hissədən ibarət geniş sahəli olmuşdur. O geniş fəaliyyət göstərmişdir. Məhsullar bir deyil, bir neçə kürədə bişirilmişdir. Kürələrin və emalatxananın ətrafında çoxlu miqdarda boyalı qab

parçalarının və qalın kül-kömür təbəqəsinin yığılması orada kütləvi istehsalın olması ilə bağlı olmuşdur. Emalatxanadan və kürələrin ətrafından yanaraq kömürləşmiş heyvan sümüklərinin, üzərində və ətrafında yağ izi olan gil qabların aşkar edilməsi onu da sübut etmişdir ki, kürələrdə odunla yanaşı heyvan sümükləri və digər yanacaq vasitələri də yandırılmışdır. Kürə ətrafındakı daş və sümük alətlərdən isə qabların və digər keramika məhsullarının düzəldilməsində, naxışlanmasında istifadə edilmişdir.

ƏDƏBİYYAT

1. Əliyev V.H. Azərbaycanda Tunc dövrünün boyalı qablar mədəniyyəti. Bakı: Elm, 1977, 163 s.
2. Əliyev V.H., Məmmədova A.Ə. II Kültəpə yaşayış yerində 2009-cu il tədqiqatları // Azərbaycanda arxeoloji tədqiqatlar-2009. Bakı: Xəzər Universiteti, 2010, s. 126-130.
3. Əliyev V.H., Məmmədova A.Ə. II Kültəpədə yeni tədqiqatlar (2010) // Azərbaycanda arxeoloji tədqiqatlar-2010. Bakı: Xəzər Universiteti, 2011, s. 126-135.
4. Əliyev V.H., Məmmədova A.Ə. II Kültəpədə yeni tədqiqatlar // Azərbaycanda arxeoloji tədqiqatlar-2011. Bakı: Xəzər Universiteti, 2012, s. 115-125.
5. Əliyev V.H., Məmmədova A.Ə. II Kültəpə yaşayış yerində yeni tapıntılar (2013-2014-cü illər) // Azərbaycanda arxeoloji tədqiqatlar – 2013-2014. Bakı: Xəzər Universiteti, 2015, s. 161-168.
6. Seyidov A.Q. Naxçıvan Tunc dövründə. Bakı: Nurlan, 2000, 338 s.
7. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм, 1982, 314 с.
8. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана, Баку: Элм, 1991, 256 с.
9. Асланов Г.М., Ваидов Р.М., Ионе Г.И. Древний Мингечаур. Баку: Изд. АН Азерб. ССР, 1959, 191 с.
10. Сеидов А.Г. Памятники куро-аракской культуры Нахичевани. Баку: Билик, 1993, 164 с.
11. Сеидов А.Г. Раннебронзовая культура Нахчывана. Воронеж: Воронежский государственний технический университет, 2002, 199 с.
12. MEGEP Seramik ve cam şekillendirme, antik form şekillendirme. Ankara: 2008, 56 s.
13. Daniel Rhodes. Kilns: Design, Construction and Operation. Hardcover: 2008, 291 s.
14. http://www.baserdeu.com/upload/document/1653806852d346a_Çanakkale%20örneğinde%20batı%20Anadolu%20Sermikçiliğinin%20Ege%20Adalarındaki%20Uzantıları.pdf (Sevim Çizer. Çanakkale örneğinde bati anadolu sermikçiliğinin Ege adalarındaki uzantiları).
15. https://www.academia.edu/6231124/seramikte_odunlu_pişirim_geleneği_uzakdoğunun_yüksek_derece_firinlari. (Sevim Çizer. Seramikte odunlu pişirilme geleneği uzaq doğunun yüksek dereceli firınları).

Тогрул Халилов

ГОНЧАРНЫЕ МАСТЕРСКИЕ И ГОРНЫ БРОНЗОВОГО ВЕКА В НАХЧЫВАНЕ (на основе материалов Кюльтепе I и Кюльтепе II)

Гончарное дело – одно из древнейших ремесел Нахчывана. Многочисленные археологические материалы, связанные с этой отраслью, были найдены в памятниках эпохи бронзы Нахчывана. Среди них особое место занимают мастерские и

горны. Хотя сведения об этих археологических материалах даны в отдельных трудах и отчетах, комплексно они не изучались. Поэтому мы изучили данные памятники. В ходе исследования выявлено, что гончарное дело было довольно развито в эпоху бронзы. Поселения Кюльтепе I и Кюльтепе II являлись одними из главных гончарных центров Нахчывана в этот период.

Ключевые слова: *бронзовый век, гончар, горн, мастерская.*

Togrul Khalilov

POTTERIES AND FURNACES OF THE BRONZE AGE IN NAKHCHIVAN (based on the materials of Kültepe I and Kültepe II)

Pottery is one of the ancient crafts in Nakhchivan. Numerous archaeological materials associated with this industry were found in the monuments of the Bronze Age of Nakhchivan. Among them, a special place is occupied by potteries and furnaces. Although information on these archaeological materials has been given in separate works and reports, they have not been comprehensively studied. Therefore, we studied these monuments. In the course of the study it was revealed that pottery was quite developed in the Bronze Age. The settlements of Kültepe I and Kültepe II were one of the main pottery centers of Nakhchivan during this period.

Keywords: *Bronze Age, potter, furnace, workshop.*

(AMEA-nın müxbir üzvü Vəli Əliyev tərəfindən təqdim edilmişdir)

Bu iş Azərbaycan Respublikasının Prezdenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir-Qrant № EİF-KETPL-2-2015-1(25)-56/47/5

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2018, № 1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2018, № 1

PROCEEDINGS OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES NAKHCHIVAN BRANCH OFFICE
The series of social sciences and humanities, 2018, № 1

VEDAT EVREN BELLİ
AMEA Naxçıvan Bölməsi
E-mail: evrenbelli@googlemail.com

ASSUR MƏNBƏLƏRİ ŞƏRQİ ANADOLUNUN ERKƏN DƏMİR DÖVRÜ TAYFALARI HAQQINDA

Mixi yazılı Assur qaynaqlarının e. ə. XIII yüzilliyin əvvəllərindən etibarən Şərqi Anadolu bölgəsində yaşayan Uruatri (Urartu) və Nairi əmiyyətləri haqqında verdiyi maraqlı məlumatlar Erkən Dəmir dövrü üçün çox böyük əhəmiyyət daşımaqdadır. Həqiqətən də Şərqi Anadolu bölgəsində son 20 ildən bəri davam etdirilən arxeoloji araşdırmalar nəticəsində Erkən Dəmir dövrünə aid bəylik mərkəzi ola biləcək onlarla qala və nekropolun olduğu müəyyən olunmuşdur. Araşdırmalar göstərir ki, qala və nekropollar mixi yazılı Assur qaynaqlarının verdiyi məlumatlarla uyğunluq təşkil edir. Yazılı qaynaqların arxeoloji abidələrlə müqayisəli şəkildə öyrənilməsi Yaxın Şərq tarixinin bir sıra açılmamış səhifələrini aydınlaşdırmağa imkan verir.

Açar sözlər: *Şərqi Anadolu, Assur qaynaqları, Erkən Dəmir dövrü, mixi yazı, keramika.*

Mixi yazılı Assur qaynaqlarının e. ə. XIII yüzilliyin əvvəllərindən etibarən Şərqi Anadolu bölgəsində yaşayan Uruatri (Urartu) və Nairi əmiyyətləri haqqında verdiyi maraqlı məlumatlar Erkən Dəmir dövrü üçün çox böyük əhəmiyyət daşımaqdadır.

Assuriya çarı I Salmanasar (e.ə. 1274-1245) hakimiyyətinin birinci ilində (1274) Şərqi Anadolu bölgəsinə etdiyi hərbi yürüşdə Uruatri (Urartu) ölkəsi haqqında bu maraqlı məlumatları vermişdir:

"Taxta çıxdığım ildə Uruatri (Urartu) ölkəsi mənə qarşı üsyan etdi. Tanrı Assur və böyük Tanrılara, ağalarıma dualar etdim Əsgərlərimi topladım və onların sıldırım dağlardakı ölkələrinə yürüş etdim

Üç gün içərisində Tanrım Assurun ayaqlarının dibində bütün Urartu ölkəsinə boyun əydirdim. Onların gənclərini mənə xidmət etmələri üçün seçdim Onları, fəth edilən əraziləri sonsuzadək ağır xərac verməyə məcbur etdim" [3, I, № 527].

I Salamanasarın varisi I Tukulti-Ninurtanın (e.ə. 1244-1208) hakimiyyəti illərində Nairi ölkəsinə hərbi səfər edildiyi və bölgədən vergi alındığı bildirilməkdədir:

"Nairi ölkəsinin 40 hökmdarı cəsurca müqavimət göstərib savaşa girdilər. Onlarla savaşdım və onları məğlub etdim. Onların qanlarını dağların vadilərinə və dərələrinə axıtdım. Mən onların bütün ölkəsinin hökmdarı oldum və onları sonsuzadək xərac və vergi ödəməyə məcbur etdim " [3, I, № 715].

Yuxarıda verilən məlumatlara əsasən Nairi ölkəsində 40 hökmdarın (bəyin) yaşadığını öyrənirik. Bu məlumatlara əsaslanaraq Erkən Dəmir dövründə Şərqi Anadolu bölgəsində olan çox sayda kiçik qalaların yuxarıda haqlarında bəhs olunan kiçik hökmdarların (bəylərin) idarətmə mərkəzləri olduğunu düşünmək olar.

Assuriya hökmdarı I Tiqlatpalasar (e.ə. 1115-1077) hakimiyyəti dövründə Şərqi Anadoluda hökmranlığı davam etdirən Nairi ölkəsi hökmdarlarına qarşı təkrar hərbi səfərlər etmişdir:

"Yuxarı dənizin sahillərində itaət etməyi bilməyən uzaqdakı hökmdarların ölkəsinə yürüş etdim Ölkənin içərilərinə doğru irəliladım, məndən əvvəlki heç bir hökmdarın keçmədyi möhkəm sıldırım dağlardan və təhlükəli keçidlərdən keçdim, gizli yolları tapdım və ölkələrinin içərilərinə doğru irəlilədim...

...Dayenu ölkəsinin hökmdarı, Nairi ölkələrinin 23 kralı birlikdə ölkələrində araba və ordularını topladılar və döyüşmək üçün irəliləbdilər. Qorxunc silahlarımın şiddətli hücumları ilə onlara yaxınlaşdım və onların böyük ordusunu fırtına Tanrısı Abad kimi darmadağın etdim....

...Döyüşdə onların tam təchizatlı 120 döyüş arabasını ələ keçirdim. Nairi ölkələrinin 60 hökmdarını, onların köməyinə gələnlərlə birlikdə oxumun ucunda Yuxarı dənizə qədər qovaladım. Onların böyük dini mərkəzlərini fəth etdim. Onların qənimətlərini, mallarını və əşyalarını tapdım. Onların şəhərlərini yandırdım, özülündən uçurdum, darmadağın etdim və onları xarabalığa çevirdim, çoxlu sayda at, qatır və eşşək sürülərini, onların otlaqlarındakı heyvanlarını qənimət olaraq aldım. Nairi ölkələrinin bütün hökmdarlarını canlı olaraq ələ keçirdim. Bu hökmdarlara mərhəmət etdim və həyatlarını bağışladım. Ağam, Tanrı Şamaşın hüzurunda onların qollarını zəncirdən azad etdim və onlara böyük tanrılarıma sonsuzadək sadiq qalacaqlarına dair and içdirdim. Onların soylularını və hökmdarların oğullarını girov götürdüm. Onları 1200 at və 2000 inək xərac verməyə məcbur etdim. Onlara ölkələrinə dönmələri üçün icazə verdim..." [3, II, № 30].

Kral Tiqlatpalasarın bir yerdə Nairinin 23, başqa bir yerdə isə 60 kralı ilə döyüşdüyünü və onların tam təchizatlı 120 döyüş arabasını ələ keçirdiyini bildirməsi onun qarşısında yaxşı təchiz olunmuş güclü bir ordunun olduğunu göstərməkdədir.

Eyni zamanda bu xalqların böyük heyvan sürülərinə sahib olduğu anlaşılmaqdadır. Çünki 1200 at və 2000 inəyin vergi olaraq alınması bu xalqların təsərrüfat həyatında iribuynuzlu heyvandarlığın mühüm rol oynadığını açıqca bildirir.

I Tiqlatpalasardan sonra Assur Krallığının taxtına keçən Assur-Bel-Kala (e.ə. 1074-1057), II Adadnirari (e.ə. 911-891) və II Assurnasirpalın (e.ə. 883-859) hakimiyyət illərinə aid mixi yazılı qaynaqlarda da Nairi və Urartu bölgələrinə hərbi səfərlərin edildiyi və qənimətlər əldə olunduğunu öyrənirik [3, II, № 212; 3, II, № 216; 3, II, № 421].

Assuriya kralı III Salmanasar (e.ə.858-835) səltənətinin ilk ilində Urartulu Aramenin krallıq şəhəri Suguniayı ələ keçirərək dağıtdığını bildirir. Həmin kral 855-ci ildə də Urartunun ikinci paytaxtı Arzaşkunu ələ keçirərək dağıtmışdır. Sugunia və Arzaşunun Assur ordusu tərəfindən dağıdılması və qənimətlərin ələ keçirilməsi Balavat Tunc Qapısının üzərində də ətraflı təsvir olunmuşdur.

Eramızdan əvvəl XIII-IX əsrlər arasında Şərqi Anadolu bölgəsində siyasi cəhətdən təşkilatlanan xalqlar mixi yazılı Assur qaynaqlarında ***"Uruatri"*** və ***"Nairi"*** olaraq adlandırılmaqdadır. Assur qaynaqları Şərqi Anadoluda çox sayda qalanın olduğunu və bunları idarə edən kralların (bəylərin) sayının 60-a çatdığı vurğulamışlar [1, s. 90; 2, s. 24].

Həqiqətən də Şərqi Anadolu bölgəsində son 20 ildən bəri davam etdirilən arxeoloji araşdırmalar nəticəsində Erkən Dəmir dövrünə aid bəylik mərkəzi ola biləcək onlarla qala və nekropol ərazisi olduğu müəyyən olunmuşdur. Qala və nekropol ərazilərinin mixi yazılı Assur qaynaqlarının verdiyi məlumatlarla uyğunluq təşkil etdiyi anlaşılır [1, s. 6-89; 2, s. 98].

ƏDƏBİYYAT

1. Belli O., Konyar E. Doğu Anadolu Bölgesi'nde Erken Demir Çağı Kale ve Nekropolleri-Early Iron Age Fortresses and Necropolises in East Anatolia, İstanbul: Arkeoloji ve Sanat Yayınları, 2003, 166 p.
2. Konyar E. Doğu Anadolu Erken Demir Çağı Kültürü: Arkeolojik Kazı ve Yüzey Araştırmaları Bulgularının Değerlendirilmesi, İstanbul Üniversitesi Sosyal Bilimler Enstitüsü, Yayınlanmamış Doktora Tezi, İstanbul, 2004, 360 s.
3. Grayson A.K. Assyrian Royal InsinscriptionsI-II, Wiesbaden // ARI, I-II. 1972-76.

Ведат Еврен Белли

АССИРИЙСКИЕ ИСТОЧНИКИ О ПЛЕМЕНАХ ВОСТОЧНОЙ АНАТОЛИИ ЭПОХИ РАННЕГО ЖЕЛЕЗА

Ассирийские клинописные источники, начиная с XIII века до н.э. упоминают о племенах Уруатри и Наири, заселявших Восточную Анатолию, которые имеют значение для изучения памятников эпохи раннего железа. Действительно в течении последних 20 лет на территории Восточной Анатолии выявлены многочисленные крепости и некрополи, которые являлись центрами маленьких государств. Исследования показывают, что упоминания в ассирийских тестах подходят к этим центрам. Сравнительное исследование письменных источников и археологических памятников позволяет выявить неизученные страницы истории стран Ближнего Востока.

Ключевые слова: *Восточная Анатолия, Ассирийские источники, период раннего железа, клинопись, керамика.*

Vedat Evren Belli

THE ASSYRIAN SOURCES ABOUT AGE TRIBES EAST ANATOLY OF EARLY IRON

The Assyrian cuneiform sources since 13 th century BC are mentioned the tribes of Uruatri and Nairi occupying East Anatolia which matter for studying of monuments of Early Iron Age. Really within the last 20 years in the territory of East Anatolia are revealed numerous fortresses and necropolises which were the centers of the small states. Researches show that mentions of the Assyrian texts correspond to these centers. A comparative research of written sources and archaeological monuments allow to reveal not studied pages of history of the Middle East countries.

Keywords: *East Anatolia, Assyrian sources, Early Iron Age, cuneiform writing, ceramics.*

(AMEA-nın müxbir üzvü Vəli Bəxşəliyev tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2018, № 1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2018, № 1

PROCEEDINGS OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES NAKHCHIVAN BRANCH OFFICE
The series of social sciences and humanities, 2018, № 1

AZƏRBAYCAN DİLİ

ƏBÜLFƏZ QULİYEV
AMEA Naxçıvan Bölməsi
E-mail: ebulfezamanoglu@yahoo.com

MƏHƏMMƏD AĞA ŞAHTAXTLI VƏ TÜRK ROMANÇISI ƏHMƏD MİDHƏT ƏFƏNDİ

XIX əsrin sonlarında görkəmli maarifçi ədib M.Şahtaxtlı Tiflisdə "Qafqaz" və "Новое обозрение" qəzetələrinin redaksiyalarında Yaxın Şərq üzrə xüsusi müxbir kimi çalışırdı. Böyük ədib bu dövrdə türk dünyası, İstanbul mədəni mühiti ilə də sıx əlaqələrə malik idi. Həmin dövrdə görkəmli türk romançısı Əhməd Midhət Əfəndi İstanbulda nəşr etdiyi "Tərcümani-həqiqət" qəzetində türk-islam dünyası ilə bağlı maraqlı materiallar çap etdirirdi. Bu materiallar M.Şahtaxtlının diqqətini cəlb etmiş və o,bir neçə məqaləsini də Ə.M.Əfəndinin yaradıcılığına həsr etmişdi. Məqaləmizdə M.Şahtaxtlı-Əhməd Midhət Əfəndi ədəbi əlaqələrinin təhlili verilmişdir.

Açar sözlər: *Azərbaycan, Məhəmməd ağa Şahtaxtlı, Əhməd Midhət Əfəndi, mətbuat, ədəbiyyat.*

XIX əsrdə Azərbaycan və rus ictimai həyatında qabaqcıl Avropa mədəniyyətinin təsiri yavaş-yavaş özünü göstərməyə üz tuturdu. Yuxarı təbəqələrin, ziyalıların davranış və yaşayış tərzinə nüfuz edən bu proseslər, qərb mövzusu həyatın güzgüsü olan ədəbiyyatda da ilk yansımalarını göstərirdi. Hələ 1850-ci illərdə görkəmli Azərbaycan dramaturqu M.F.Axundzadə "Müsyo Jordan və dərviş Məstəli şah" pyesində Avropa mədəniyyəti mövzusunu gündəmə gətirmişdi. Sonralar M.S.Ordubadi "İki çoçuğun Avropaya səyahəti" (1908) və "Rzaqulu xan firəngimaəb" romanlarında, eləcə də Üzeyir Hacıbəyli "O olmasın bu olsun" komediyasında bu mövzuya toxunmuşdu. Lev Tolstoy "Hərb və sülh" romanının ilk səhifələrini fransızca qələmə almışdı. M.Şahtaxtlı da klassiklərimizin bu ənənəsini davam etdirirdi. O, Avropada təhsil görmüş açıqfikirli ziyalı, maarifçi bir şəxsiyyət idi, Şərq cəmiyyətinin inkişafını Avropa mədəniyyətinə sahib olmaqda görürdü. Bu baxımdan o dövr türk ədəbiyyatının görkəmli nümayəndəsi, Avropa mədəniyyətinə önəm verən, bu ictimai mühitə çox yaxından bələd olan Əhməd Midhət Əfəndinin yaradıcılığı, əsərləri Şahtaxtlının diqqətini xüsusilə cəlb edirdi. Hələ 1882-ci ildə İstanbulda yaşayarkən "Новое обозрение" qəzetində nəşr etdirdiyi, Türkiyə dövləti üzrə çox dəyərli təhlillərlə süslənmiş qiymətli publisistik əsəri sayıla bilən "İstanbuldan (Konstantinopol) məktublar" adlı silsilə publisistik məqalədə Osmanlı dövlətinin mədəni-siyasi həyatı, maarif və dil məsələləri şərh olunur, rusdilli oxuculara təqdim olunurdu. Məqalədə Osmanlı dövlətinin tarixində Tənzimat dönəmində özünü göstərən dil, mədəniyyət proseslərindən, bu sahədə baş verən hadisələrdən bəhs olunur, yenilikçilərlə mühafizəkarlar arasında gedən mübahisə və müzakirələr göstərilir. Bu yazıda o eyni zamanda ölkədə yenilikçilərin nümayəndələrindən biri kimi böyük nüfuz sahibi olan bir ziyalı olaraq "Tərcümani-həqiqət" qəzetinin baş redaktoru Əhməd Midhət Əfəndi haqqında məlumat verirdi [5, s. 301].

"İstanbuldan məktublar" silsiləsi yazısının üstündən uzun illər keçməsinə baxmayaraq M.Şahtaxtlı Ə.M.Əfəndinin yaradıcılığına yenə böyük maraq göstərirdi. Türk romançısının yaradıcılığı ilə əlaqədar yazdığı məqalələrdə Ə.M.Əfəndinin yaradıcılığına, bəzi əsərlərinin təhlilinə geniş yer ayırır, onu Cənubi Qafqazda, Tiflisdə nəşr olunan "Новое обозрение" qəzetinin rusdilli oxucularına tanıdırdı.

Təsadüfi deyildir ki, M.Şahtaxtlı iki məqaləsini – «Перед анафемой» və «Турецкий мыслитель о Европейской социальной жизни и о графе Толстом» – adlı məqalələrini Əhməd Midhət Əfəndinin yaradıcılığına həsr etmişdir.

Burada bir haşiyə çıxaraq qeyd etmək lazımdır ki, Osmanlı ziyalılarının da həyatında həmin dövr qərb mədəniyyətinin təsiri ilə əlamətdar olmuşdur. Tənzimat dövründə qərb mədəniyyəti düşüncəsi Osmanlı dövlətinin ziyalılarını da məşğul edən bir mövzuya çevrilmişdi. Türk ədəbiyyatının ilk roman yaradıcılarından olan Əhməd Midhət Əfəndi də bir sıra roman və pyeslərində Avropa həyat tərzinə, mədəniyyətinə müraciət edir, qərb mədəniyyəti ilə Osmanlı dövlətinin mənəvi-ictimai dəyərlərini qarşılaşdırırdı. Ədib bu həyat tərzinin müsbət cəhətlərini təqdir edir, eyni zamanda onun bəzi yanlış cəhətlərinə də türk ictimaiyyətinin diqqətini yönəldirdi. Ədibin əsərlərində Avropa heyranlığının mənfi tərəfləri də geniş şəkildə işıqlandırılmışdır. Belə ki, onun "Selatin bey ile Rakım efendi" əsərində Selatin bey, "Letaife-rivayet" silsiləsindən çıxan "Bekarlık sultanlıkmı dedin"də Sururi əfəndi, "Pariside bir türk" əsərində Zeka bey surətləri, obrazlarının Qərb mədəniyyətinə maraqları üzdəndir, səthidir. Onlar" bu səbeple kılık-kıyafet, eğlence, görgü bakımından Batıyı kendilerine örnek alırlar. Kendi toplum değerlerini tam olarak bilmezler, dolayısıyla ne tam doğulu, ne de tam batılıdırlar. Çalışıp para kazanma gayretleri yoktur, çünkü mirasiyedidirler, az-çok fransızca bilirler, Beyoğlu ve çevresinde yaşamayı tercih ederler, çapkındırlar" [4, s. 395].

Əsas mətləbə keçmədən əvvəl türk ədibi Əhməd Midhət əfəndinin həyatı və yaradıcılığı haqqında oxuculara qısa məlumat vermək istəyirik. Kimdir Əhməd Midhət Əfəndi?

O, 1844-cü ildə İstanbulda doğulmuş, 28 dekabr 1912-ci ildə eyni şəhərdə dünyasını dəyişmişdir. İstanbul Misir Çarşısı tacirlərindən Hacı Süleyman Ağanın oğlu Əhməd kiçik yaşlarında atadan yetim qalır. 1854-cü ildə Vidində xidmət edən böyük qardaşı Hafız Əli Ağanın yanına göndərildi. Təhsilinə burada başladı. 1857-ci ildə ailəsi ilə birlikdə İstanbula döndü. Misir Çarşısında bir tacirin dükanında satıcı işlədi. Qardaşının tabeliyində çalışdığı Mithəd Paşanın yanında işə girdi. Mithəd Paşa 1861-ci ildə Niş Valisi təyin olunduğu zaman o, qardaşı ilə birlikdə Nişə getdi. Rüşdiyəni orada bitirdi. Rusçuqda Tuna Vilayəti daftərxanasına məmur olaraq girdi. Çalışqanlığı ilə Mithəd paşanın rəğbətini qazandı. Paşa ona öz adını verdi. Bu arada özəl dərslər alaraq fransızcasını inkişaf etdirdi. 1866-cı ildə tərcümeçi olaraq getdiyi Sofiyada evləndi. "Tuna" qəzetinin baş yazarı oldu. 1869-cu ildə Midhət paşa ilə birlikdə Bağdada getdi. Vilayət mətbəəsi və rəsmi vilayət qəzeti "Zevran"ın müdiri oldu. İlk kitabı olan "Hecayi-Övvəl" adlı dərs kitabını burada yazdı. 1871-ci ildə qardaşı vəfat etdikdən sonra İstanbula döndü. Taxtaqaladakı evinin altında balaca bir mətbəə quraraq yazdığı kitabları nəşr etməyə başladı. 1872-ci ildə Namiq Kamal ilə tanış oldu. "Devir" və "Bedir" adlı iki qəzet çıxardı. Bu qəzetlər bağlandıqda "Dağarcıq" və "Kırkambar" dərgilərini nəşr etdi. Bu dərgilərdə çıxan yazılar səbəbindən Namiq Kamal, Ebüzziya Tevfik kimi yazıçılarla birlikdə Rodosa sürgünə göndərildi. 3 il qaldığı Rodosda Mədrəseyi-Süleymaniyə adlı bir məktəb açıb dərs verdi. Sultan V Muradın əfv fərmanının elanı ilə 1876-cı ildə İstanbula döndü. 1876-cı ildə "İttihat" qəzetini nəşr etməyə başladı. Müxalif tutumunu yumşaldaraq II Əbdülhəmidə yaxınlaşdı. Dövlətin rəsmi nəşriyyatı olan "Matbaai-Amire"nin müdürü təyin olundu. 1878-ci ildə Osmanlı sarayının dəstəyi ilə "Tərcümani-həqiqət" qə-

zetini yaratdı. 1888-ci ildə İsveçdə toplanan şərqşünaslar konqresinə qatıldı. 1895-ci ildə "Sabah" qəzetində yayınlanan "Dekadanlar" başlıqlı yazısıyla "Sərvəti-Fünun"u tənqid etdi. Bununla əlaqədar ədəbi çevrələrdə narazılıq meydana gəldi. Yazıçılıqdan əl çəkmək məcburiyyətində qaldı. Ölümünə qədər Darülfünunda "Dünya tarixi" və "Dinlər tarixi" dərsləri dedi, xeyriyyə cəmiyyətlərində çalışdı [4, s. 387].

Əhməd Mithət Əfəndi xalq və xidmət adamıdır. Tənzimat dönəmində, yeniləşmə hərəkatını ən geniş anlamda gerçəkləşdirən sənətkardır. Əsərlərini xalqın maarifi, mədəni inkişafı üçün yazmışdır. Bu məqsədlə roman, hekayə, dram kimi çox fərqli janrlarda əsərlər qələmə almışdır [1]. Xalqı maarifləndirmək məqsədi güddüyündən dönəminə görə sadə bir dildən istifadə etmişdir. Bu səbəbdəndir ki, kitablarında və qəzet yazılarında çox böyük oxucu kütləsinə malik olmuşdur. O, həyatını qələmi ilə qazanan ilk türk yazıçısıdır. Əyləndirərək öyrətməyi qarşısına məqsəd olaraq qoymuşdur. Əsərlərində oxucularına əxlaqi rəhbərlik edərək yaxşını, pisi, doğrunu, yanlışı ayırd etmiş; qəhrəmanlarının yaxşılarını xoşbəxtliyə qovuşdurmuş, pisləri cəzalandırmışdır. İlk əsərlərində romantik, daha sonrakı əsərlərində naturalist istiqamət qabarıq gözə çarpır. Onun publisistik məqalələri içərisində M.Şahtaxtlının da diqqətini çəkən təxminən yeddi məqaləni əhatə edən "Rus ədəbiyyatı və Avropa, yaxud ədib Tolstoydan bir xülasə" silsiləsi [3] mövzumuz baxımından diqqəti cəlb edir.

Onu da qeyd edək ki, Ə.M.Əfəndi dünyanın müxtəlif dillərindən, xüsusilə fransız və rus dilindən türk dilinə bir sıra əsərlər tərcümə etmişdir. Ə.M.Əfəndi ədəbi əsərlərində olduğu kimi digər publisistik yazılarında da müasirləşmə, avropalaşma yolunda önəmli addımlar atmış cəmiyyətləri oxucusuna tanıtmağı bir vəzifə bilmişdir. XIX əsr rus ədəbiyyatının məşhur nümayəndəsi Lev Tolstoyun "Maarifin meyvələri" (Плоды просвещения) əsəri də onlardan biridir. Lev Tolstoyun 1889-cu ildə qələmə aldığı həmin əsər müasirləşmə dövrünə qədəm qoyan Rusiyada Avropa həyat tərzinə meylli, həvəsli alafranqa obrazlar, xarakterlər baxımından ustad sənətkarın diqqətini cəlb etmişdir. Müəllif həmin əsəri hətta türk dilinə "Esmarı-fünun" adı ilə çevirmişdir.

Tərcümə üçün Ə.M.Əfəndinin Lev Tolstoyun həmin əsərini məqsədli şəkildə seçdiyini də deyə bilərik. Hələ 1884-cü ildə yazıb çap etdirdiyi "Əcayibi-aləm" romanında Əhməd Midhətin Sübhi və Hicabi adlı roman qəhrəmanlarını Rusiya səyahətinə çıxarması da bu baxımdan müəyyən məna ifadə edir. Yazıçının məqsədi Rusiya kimi mədəniləşmiş, müasirləşmiş bir ölkəni oxucuya tanıdaraq oranın tarixi, ictimai həyatı, şəhər quruluşu, əxlaqi dəyərləri haqqında məlumat verməkdir. Bununla əlaqədar ədib göstərirdi ki, başəri tərəqqinin bizim məmləkətimizdə göründüyü dərəcədən ibarət olmadığını anlaya bilmək çətin bir şeydirmi? Bunca yeni ixtiraların hansı tərəfdən gəldiyini düşündüyümüz kimi, bizim təmədduna malik ölkələr ilə qeyri mütəməddinə arasında bir "fasılı-müştərək" təşkil eləməkdə olduğumuz öz-özünə aydın olar. Hər şeydən əvvəl, məsləri ölkələri görməli və mədəni tərəqqinin yetişmiş olduğu mərtəbəni mütləq anlamalıyıq [2, s. 34].

O, "Rus ədəbiyyatı və Avropa, yaxud ədib Tolstoydan bir xülasə" adlı məqalələr silsiləsində (7 məqalə) avropalaşma haqqında, Lev Tolstoyun "Maarifin meyvələri" adlı pyesi haqqında düşüncə və görüşlərini ifadə etmişdir. Müəllif burada müasirləşən rus cəmiyyətindəki mədəni ziddiyyətlərə, ənənəvi dəyərlərə yadlaşmağa, Avropa məişətini, əxlaqını təqlid etməyə işarə edir: "Eseri-mezkurun Avrupa erbabı-mütalaası meyanında naili-rağbet olmasını asıl temin edecek bir şey var ise o da Rusyada kibar aleminin etvarı köylü alemine hiç uymamasından dolayı iki hal arasındaki mübayenettir. Rusya kibarinin ahvali aynıyla Avrupalılık hali olup Avrupa karileri bu sureti-maişete bittabi vakıf iseler de Rusya köylülerine mahsus olan hal ve tavra vakıf olmadıklarından bir-

birine zıt olan bu iki halin bir sahayi-temaşada ictimai ikisini de gayet parlak olarak tecessüm ve tasavvur ettireceği derkardır. İşte eserin hülasasını karilerimize arz etmekte olduğumuzdan bu bapta lazım gelen mukayeseyi kendileri de yürüterek hem eğlenirler, hem müstefit olurlar" [3].

Əsərin dörd pərdəli bir komediya olduğunu göstərən Midhət Əfəndi önəm sırasına görə iştirakçılar haqqında məlumat verir: Aristokrat Leonid Fyodroviç 60 yaşlı istefada olan hərbçidir, bir çox vilayətlərdə saysız-hesabsız mülkü, torpaqları vardır. Hörmətə layiq bir aristokrat kimi spiritualizmə maraq göstərən bir şəxsdir. Ona görə də malikanəsində ziyafətlər təşkil edir. Xanımı Anna orta yaşlı bir ev xanımı olmasına baxmayaraq, gənc qalmaq, gənc görünmək həvəsindədir. Ailənin qızı 20 yaşlı Betsi elita nümayəndəsi, kübar bir gəncdir. Ailənin oğlu Vasili 25 yaşında olub hüquq fakültəsi məzunudur, amma işləmir. Velosiped klubunun, Yarış klubunun və ov itləri klubunun üzvüdür. Malikanədə təsərrüfat işlərinə baxan ortayaşlı Fedor İvanoviç təhsilli və tərbiyəlidir. Nökər Qriqori yaraşıqlı bir gəncdir ancaq şörgöz və etibarsızdır. Qulluqçu Tanya 19 yaşında iribədənli, enerjili və nəşəli bir qızdır. Aşpaz köməkçisi Semyon 20 yaşında olub sarışın, gülərüzlü avam bir kəndli gəncidir. Bunlardan əlavə, Vasilinin eyni klublara üzv olan dostları Petriçef, malikanədə günlərini keçirən Avropa mədəniyyətinə aludə olan Saxatov, evin xanımı Annanın doktoru, ən gənci 45, ən qocası 70 yaşında olan mühafizəkar üç şəxs də pyesin digər iştirakçılarındandır. Tolstoyun əsərini xülasə şəklində oxucuya təqdim edən müəllif pyesin ilk iki pərdəsini uyğun gördüyü yerlərdə bəzi əlavə və ixtisarlar edərək atraflı bir şəkildə şərh etmişdir. Onun pyesin 1 və II pərdələrini ətraflı şəkildə məqalədə nəql etməsinin səbəbi rus aristokrat sinfində istər yaşayış, istər davranış, istər münasibətlər baxımından təsadüf edilən rəzilliyi, mədəni dəyərlərdəki aşınmanı göstərməkdən ibarətdir. III və IV pərdələr haqqında qısa məlumatla kifayətlənən müəllif bu hərəkətini belə izah edirdi: "I və II perdeleri bu derece-i-muvazzahada hülasa eyledikten sonra III ve IV perdelerde sözü hiç de uzatmaya mecbur olmayız. Vakıa muellif bu perdelerde dahi erbabı-temaşanın nazarlarını, fikirlerini işgal için güzel tuhaflıklar bulup dermeyan etmiş ise de bunlar ne kadar olsa oyunun esasına müteallik şeyler olmadığından eğer tafsilatın o cihetlerine de itale-i-kalem edecek olursak eseri hemen tekmil tercüme etmiş oluruz [3]".

Yenə M.Şahtaxtlı mövzusu üzərinə qayıtmaq istəyirəm. Böyük ədib Ə.M.Əfəndiyə həsr etdiyi "Lənət öncəsi" (Перед анафемой) adlı publisistik məqalələsini maraqlı bir ardıcıllıqla, oxunaqlı bir şəkildə nəql edir. Onun Tiflisdə yaşayan bir türk dostu jurnalistlə Əhməd Midhət arasında əlaqə yaratmışdı. Müəllifin "Новое обозрение" qəzetində 1891-ci ildə çap olunmuş "Поездка в Баку" məqaləsi türk romançısına çatdırılmışdı. Həmin məqalənin sonunda M.Şahtaxtlı Azərbaycan türklərinin rusların bəzi ailə həyatı xüsusiyyətlərini qəbul etməsini arzu etdiyini qeyd etmişdi [5, s. 320]. Amma bu qeydlərin Əhməd Midhət əfəndini təmin etməyəcəyini düşünürdü. Ona görə də bu məqalədə məqam gəldiyi üçün Avropa mədəniyyəti məsələsi haqqında öz mülahizələrini ifadə etməyə çalışmışdır. O göstərir ki, Avropa artıq o qədər maddi və mədəni cəhətdən inkişaf etmişdir ki, bəlkə də qarşıdakı XX əsrdə Afrika və Asiya xalqlarını tamamilə öz təsiri altına alacaqdır. Bununla əlaqədar müəllif Avropa ailəsi ilə müsəlman xalqlarının ailə həyatı, bu ailədə qadının vəziyyəti haqqında mühakimə yürüdür. Onun fikrincə, Avropa ailəsində qadın fəaldır, həyat yoldaşına hər yerdə dəstək olur, işləyir, ailə büdcəsinə yardım edir. Şərqdə isə qadının ailə rolu məhduddur, o çadraya bürünməlidir, üzünü yad adamlardan gizlətməlidir. Müəllif din xadimlərinin bu məsələnin "Quran"dan gəldiyini, şəri qanunlarla bağlı olduğunu göstərməsini inandırıcı hesab etmir. Onun fikrincə, Məhəmməd peyğəmbər bürünmək deyəndə qadının üzünü örtməyi yox, bədənini

paltarla örtməyini nəzərdə tutmuşdur. Onun qənaətincə, Şərqdə qadın azadlığına mənfi münasibətin ilahiyyatla, dinlə, şəriətlə heç bir əlaqəsi yoxdur, bu məsələ islamdan əvvəlki İran və Hindistanın köhnə adət-ənənələrinin tör-töküntüləri, qalıqlarıdır.

Bu məsələdə müəllif Əhməd Midhət Əfəndinin də qadın azadlığının tərəfdarı, çoxarvadlılığın əleyhdarı olduğunu, amma saraydan ehtiyat etdiyini eyhamla nəzərə çarpdırır. Fikrini əsaslandırmaq üçün Midhət Əfəndinin ədəbi yaradıcılığına müraciət edir. Bununla əlaqədar onun iki əsəri – "Müşahidat" romanı və "Çərkəs özdənləri" pyesi üzərində dayanır, həmin əsərləri ətraflı şəkildə təsvir və təhlil edir. Müəllif buraya eyni zamanda özünün İstanbulda yaşayarkən Osmanlı türklərinin ailə həyatına aid apardığı müşahidələri də əlavə edərək göstərir ki, burada qadınların davranışında Avropanın təsirini görməmək mümkün deyil. İstanbul qadınları küçəyə çıxarkən üzlərinə rubənd örtməyə məcbur olsalar da, azad yaşamağa meyllidirlər. Şeyxül-islamın təqdimatı ilə hər ilin sonunda Sultan öz fərmanında bu məsələni, qadınların geyimlərindəki sərbəstliyin məhdudlaşdırılmasını bir daha polis qüvvələrinə xatırladır. M.Şahtaxtlının fikrincə, bəlkə bunlara görə saraya yaxın adam kimi o bu məsələdə bir o qədər də dərinə getmir. O, bu məsələdə, ola bilər ki, bizim mülahizələrimizə əhəmiyyət verməsin. Amma fakt bundan ibarətdir ki, indiki vəziyyətdə qadın azadlığı tək Şərq ailə həyatının müasirləşməsi yox, eyni zamanda islamın qurtuluşu mənasına gəlməkdədir.

Onu da qeyd edək ki, sonralar M.Şahtaxtlı "Müsəlman həyat qabiliyyətinin böhranı" əsərində Avropa ilə müqayisəli sürətdə Şərqdə ictimai həyatın geri qalma səbəbləri üzərində daha geniş dayanacaqdı.

M.Şahtaxtlının "Türk mütəfəkkiri Avropa ictimai həyatı və qraf Tolstoy haqqında" məqaləsində isə bilavasitə Əhməd Midhət Əfəndinin Avropa ictimai həyatının, həyat tərzinin zərərli cəhətləri haqqındakı fikirləri təsvir və təhlil olunur. Göründüyü kimi, bu məqalənin adı da yazarın məqaləsinin adı ilə səsləşir. Burada M.Şahtaxtlı onun "Tərcümani-həqiqət" qəzetində çap olunmuş "Rus ədəbiyyatı və Avropa, yaxud ədib Tolstoydan bir xülasə" və "Avropanın mənəvi nasazlıqları" adlı məqalələrindən istifadə etmiş, sitatlar gətirmişdir. Həmin məqalədə Ə.M.Əfəndinin Avropa insanının sosial həyatı, ailədaxili münasibətlər məsələlərinə baxışlarının, Qərb və Şərq sosial həyat tərzinin qarşılıqlı təhlili verilir. Müəllif məqaləsinə belə bir xatırlatma ilə başlayır: "XVI əsrdə Lüdovik zamanında fransızlar ingilislərə qalib gəlmişdilər. Fransanın İstanbuldakı səfiri bu qələbə haqqında Osmanlı sultanına uzun-uzadı məruzə etdikdən sonra sultan soyuqqanlı şəkildə fikrini belə ifadə etmişdi: İt donuza qalib gəldi, ya donuz itə qalib gəldi, Osmanlı imperiyası üçün bunun heç bir fərqi yoxdur" [7].

M.Şahtaxtlı fikrinə davam edərək yazır ki, indi isə elə bir zaman gəlmişdir ki, türklər sadəcə Avropanın diplomatiyası ilə deyil, onun daxili məsələləri ilə də maraqlanırlar. Türklər Avropadan yazı yazanda təkcə real faktları obyektiv şəkildə təsvir etməklə qalmır, eyni zamanda həmin predmet haqqında öz münasibət və düşüncələrini də ifadə etməkdən çəkinmirlər. Müəllif burada fransız mütəfəkkiri Monteskyönün "İran məktubları" əsərindən də bəhs edir. Burada o, həmvətənlərinə Şərqdə rast gəldiyi adamların Avropa, Fransa haqqındakı təəssüratlarına yer vermişdi. M.Şahtaxtlı göstərir ki, indi İstanbulda ziyalılar Avropa cəmiyyətindəki sosial vəziyyəti nəinki öyrənir, sərbəst şəkildə müzakirə edir, bu məsələyə mətbu şəkildə öz münasibətlərini bildirir, qəzetlərdə məqalələr yazırlar. Onun fikrincə, belə ziyalılardan biri də tarixçi, roman ustası Ə.M.Əfəndidir. M.Şahtaxtlının göstərdiyinə görə yazar öz qəzetinin bundan əvvəlki nömrələrində də Avropa cəmiyyətindən, bu cəmiyyətin sosial həyatındakı çatışmazlıqlardan dəfələrlə bəhs etmişdir. Ona görə də M.Şahtaxtlının həmin qəzetdən gətirdiyi sitatda o (Əhməd Midhət Əfəndi – Ə.Quliyev) göstərir ki, Avropa cəmiyyətinin birinci nöqsanı şöhrətə,

dəbdəbəli həyata, bədxərcliyə uymasıdır. Türk romançısı fikrini ifadə etmək üçün bir nümunə göstərir: Şərqdə və Qərbdə insanlar paltar geyinirlər. Bu paltar insanı istidən, soyuqdan saxlayır, təbiət hadisələrindən qoruyur. Avropada isə geyimin bu funksiyasından əlavə ona moda kimi yanaşırlar və əlavə bədxərcliyə yol verirlər. Modanın tez-tez dəyişməsi əhalinin orta və yoxsul təbəqəsinin maddi vəziyyətini çox ağırlaşdırır.

Ə.Midhət Əfəndi başqa bir misal da gətirir: "Ev, mənzil adamın məişət ehtiyacını təmin etmək üçündür. Avropada ev sanki mürəttəlif əşyalarla doldurulmuş maqazinə bənzəyir, nəinki adamın yaşayış məkanına. Avropa cəmiyyətinin bu zərərli həyat tərzi Türkiyənin rum və ermənilərinə də sirayət etmişdir. Ümid etmək olar ki, həmyerlilərimiz bu zərərli tendensiyadan ayılacaqlar, Avropanı kor-koranə meymun kimi təqlid etməkdən əl çəkəcəklər. Biz bu günlərdə qəzetimizdə çap etdirdiyimiz "Avropanın mənəvi naxoşluğu" adlı məqaləmizdə Avropanın bu bəladan qurtarmadığını açıq şəkildə göstərmişik".

M.Şahtaxtlının məqaləsində digər bir tərəfdən də Avropa ilə Lev Tolstoy yaradıcılığı qarşılaşdırılır, onlar arasında ortaq nöqtələrdən bəhs edilir, bu məsələdə qraf Lev Tolstoyla fikirlərinin, baxışlarının üst-üstə düşməsi, həmfikir olmaları şərh olunur. Eyni zamanda Tolstoyun "Maarifin meyvələri" (1889) pyesindən bəhs edilir [8, s. 33].

Şahtaxtlı xüsusilə ikinci məqaləsində Əhməd Midhət Əfəndinin həmin yazısından ətraflı şəkildə bəhs etmiş, oradan çoxlu sitatlar gətirmişdir. M.Şahtaxtlı Midhət Əfəndinin məqaləsindən aşağıdakı sitatı gətirir: "Avropa sivilizasiyası xeyli maddi müvəffəqiyyətlər qazanmışdır: paroxodlar, dəmir yolları, silahlar, hər cür maşınlar, nümunəvi şəhər idarəçiliyi. Bütün bunlar Avropada çox parlaq vəziyyətdədir, bizə isə Avropanın bu uğurlarından yararlanmaq qalır. Avropa cəmiyyətinin mənəviyyatı isə ürək açan deyildir. Bu cəmiyyətdə mənəviyyatın vəhşiləşməsi sürətlə irəliləyir, ancaq ailə bağları hər gün deyil, hər saat dağılmağa doğru gedir. Tezliklə Avropada nə ata, nə ana, nə övlad qalacaqdır. Hər kəs meşədəki vəhşi heyvanlar kimi tənha yaşayacaqdır" [6].

Daha sonra M.Şahtaxtlı göstərir ki, Ə.Midhətin Avropanın ictimai vəziyyətinə bu baxışı rus yazıçısı qraf Lev Tolstoyun bir sıra əsərləri, o cümlədən son dövrlərdə qələmə aldığı "Kreyser sonatası" ilə səsləşir və görünür, məhz bu baxımdan onun xoşuna gəlmişdir. Elə belə də oldu. O qəzetin növbəti nömrəsində yenə sözü Avropanın sosial həyatı məsələsinin üzərinə gətirir, türk cəmiyyəti üçün yaxın olan rus cəmiyyətindən, onun tanınmış qələm sahiblərindən biri olan Lev Tolstoydan bəhs edir. O, Lev Tolstoyun bu məsələyə baxışını öyrəndiyini, bu məsələdə fikirlərinin üst-üstə düşdüyünü qeyd edir: "Mən hazırda məşhur rus yazıçısı qraf Lev Tolstoyun əsərlərini oxuyuram. Sevindirici haldır ki, Avropa sosial həyatı haqqında o da mənim kimi düşünür. Qraf Tolstoy Avropa sivilizasiyasının maddi meyvələrinin Rusiyaya gətirilməsini bəyənir, amma rus dvoryanlığının Avropa xasiyyətini, əxlaqını qəbul etməsindən tənə ilə, məzəmmətlə bəhs edir. Tezliklə biz qrafın əsərlərini tərcümə edib türk oxucusuna təqdim edəcəyik. Bu əsərlərdə qraf işin dərin bilicisi kimi cəsarətlə xalqın əxlaqi məziyyətlərini şərh edir, hansı ki, öz varlığını isbat edən hər bir xalq milli rifahın qayğısını çəkərkən onu birinci yerə qoymalıdır. Mən inanıram ki, biz türklər müxtəlif sivilizasiyaların indiki toqquşmasında qraf Tolstoyun ideyalarında həqiqi əxlaq və rifah yolunda milli məişətimiz üçün faydalı cəhətlər tapacağıq" [3].

Nəticə etibarilə demək olar ki, Əhməd Midhət Əfəndinin yaradıcılığı hər şeydən əvvəl, M.Şahtaxtlının diqqətini ona görə cəlb etmişdi ki, burada Qərb-Şərq problemi var idi. İkincisi, türk ədibi rus yazıçısı Lev Tolstoyun əsərlərinə ona görə çox önəm verirdi ki, bu məsələdə onların fikirləri üst-üstə düşürdü. M.Şahtaxtlı da məqalələrində həmin məsələləri qabardır, ədəbi əlaqələri inkişaf etdirmək istəyirdi.

ƏDƏBİYYAT

1. Ahmet Mithat Efendi. Əsərləri. 6 cilddə. Ankara: TDK yay, 2000.
2. Ahmet Mithat Efendi. Acayib-i-alem. Ankara: TDK yay, 2000.
3. Ahmet Mithat Efendi. Rus edebiyatı ve Avrupa, yahut edip Tolstoydan bir Hülase / "Tercümani-hakikat" gazetesi, N:37382-3788, 24 fevral-3 mart 1891.
4. Harika Durgun.Modernleşmenin bir problemi olarak alafrangalık – Ahmet Mithat Efendi ve Tolstoy.VIII Milletlerarası türkoloji kongresi bildirileri kitabı, III, İstanbul, 2014.
5. Məhəmməd ağa Şahtaxtlı. Seçilmiş əsərləri. Tərtib edəni akad. İsa Həbibbəyli, Bakı, Çaşıoğlu, 2006.
6. Шахтахтинский М. Перед анафемой. «Новое обозрение» ,1891.
7. Шахтахтинский М. Турецкий мыслитель о Европейской социальной жизни и о графе Толстом, «Кавказ» газ., 1892.
8. Quliyev Ə. Məhəmməd ağa Şahtaxtlının publisistikası. Bakı:Elm və təhsil, 2016, 128 s.

Абульфаз Гулиев

МУХАММЕД ШАХТАХТИНСКИЙ И ТЮРКСКИЙ РОМАНИСТ АХМЕТ МИДХАТ ЭФЕНДИ

В конце XIX века знаменитый литератор и просветитель М.Шахтахтинский работал специальным корреспондентом Ближнего Востока в газетных редакциях «Кавказ» и «Новое обозрение» в Тбилиси. Великий литератор в это время имел крепкие связи с тюркским миром и стамбульской культурной средой. В это время видный тюркский романист Ахмет Мидхат Эфенди публиковал интересные материалы, связанные с тюркско-исламским миром, в газете «Терджумани-Хегигет». Эти материалы привлекли внимание М.Шахтахтинского и он несколько свои статей посвятил творчеству А.М.Эфенди. В нашей статьи рассмотрены литературные связи М.Шахтахтинского с Ахметом Мидхатом Эфенди.

Ключевые слова: *Азербайджан, Мухаммед ага Шахтахтинский, Ахмет Мидхат Эфенди, пресса, литература.*

Abulfaz Guliyev

MUHAMMAD SHAHTAKHTLY AND TURKISH NOVELIST AHMAT MIDHAT AFANDI

At the end of the XIX century, the famous writer and enlightener M.Shakhtakhtly worked as a special correspondent for the Middle East in newspaper editions of the Caucasus and New Review in Tbilisi. At that time the great writer had strong ties with the Turkic world and the Istanbul cultural environment. At this time, the prominent Turkic novelist Ahmet Midhat Efendi published interesting materials related to the Turkic-Islamic world in the "Tarjumani-Hagigat" newspaper. These materials attracted the attention of M.Shakhtakhtly and he devoted several of his articles to A.M.Efendi's work. M.Shakhtakhtly's literary connection with Ahmed Midhat Efendi are considered in this paper.

Keywords: *Azerbaijan, Muhammad aga Shakhtakhtly, Ahmat Midhat Afandi, press, literature.*

NİCAT YAQUBOV
"Naxçıvan" Universiteti
E-mail: n.yaqubov@nu.edu.az

SÖZLƏRİN İŞLƏNMƏ TEZLİYİNİN ZƏİFLƏMƏSİNƏ SƏBƏB OLAN AMİLLƏR

Məqalədə Azərbaycan dilinin lüğət tərkibində baş verən arxaikləşmə prosesi araşdırılmışdır. Araşdırmadan aydın olmuşdur ki, dilin leksik vahidləri tarixi inkişafla əlaqəli olaraq arxaikləşir. Arxaikləşmə sözə və ya onun ifadə etdiyi anlayışa aid olur. Arxaikləşməni meydana gətirən tarixi-mədəni faktorlar aydınlaşdırılır.

Açar sözlər: *Azərbaycan, dil, leksika, arxaizm, faktor.*

Azərbaycan dilinin lüğət tərkibi keçdiyi böyük tarixi inkişaf yoluna uyğun olaraq zənginləşmiş və leksik-semantik əhatə dairəsini genişləndirmişdir. Müxtəlif sivilizasiya və fərqli mədəniyyətlərlə inteqrasiya prosesində aktiv iştirak edən Azərbaycan dili baş verən yenilikləri, mütərəqqi hadisələri lüğətdə işarələmiş, anlayış və sözlərin sayını daim artırmışdır. Bu baxımdan Azərbaycan dili daim inkişaf edən və zənginləşən dil kimi səciyələndirilə bilər.

Azərbaycan dilinin təbiətində mühafizəkar meyllər də mövcuddur. Dil bir tərəfdən yeni anlayış və sözlərlə zənginləşir, digər tərəfdən isə bir sıra sözlər və anlayışlar dildə aktiv işləkliyini itirir. Beləliklə, dildə bəzi sözlərin işlənmə tezliyi zəifləməyə başlayır və bundan sonra həmin söz lüğətin passiv hissəsinə keçir. Dil bu zaman özünün mühafizəkar ehtiyatları vasitəsilə öz sözlərini yaddaşda saxlamağa çalışır. Passivləşən, işlənmə tezliyi zəifləyən və ya artıq işlənmədən qalan sözlər də dilin yaddaşında uzun zaman unudulmur.

Dildə sözlərin işlənmə tezliyinin azalmasını biz sözün köhnəlməsi prosesi çərçivəsində izah oluna biləcəyini düşünürük. Hesab edirik ki, işlənmə tezliyi zəifləyən söz passivləşməyə başlayır və nəticə etibarilə lüğətin passiv fonduna keçir. Belə olduğu halda söz tədricən köhnəlməyə başlayır.

Bu baxımdan dildə leksik vahidlərin işlənmə tezliyinin zəifləməsinə də köhnəlmə prosesinin tərkib hissəsi kimi baxmaq mümkündür. Belə vəziyyətdə olan sözlər tədricən az işlənməyə başlayır və bu az işlənmə getdikcə artaraq sözün passiv mövqeyə keçməsinə gətirib çıxarır.

Dildə sözlərin işlənmə tezliyinin zəifləməsinə biz arxaikləşmə prosesi daxilində baxarkən bunu arxaikləşmə ilə tam eyniləşdirmirik. Sözün az işlənməsi hələ özlüyündə arxaikləşmə deyildir. Çünki bəzi sözlər aid olduğu terminoloji sahəyə uyğun olaraq az işlənə bilər. Bununla yanaşı söz sinonim sırasındakı rəqabət çərçivəsində mövqeyini zəiflədə bilər.

Biz köhnəlmə prosesinə üç şəkildə baxırıq:

1. Köhnəlmiş sözlər.

2. Tarixizmlər.
3. Arxaizmlər.

Bəzi tədqiqatlarda köhnəlmiş sözlər arxaizm və tarixizmlərə bölünmür [1].

Köhnəlmiş predmet və anlayışların birinci və ikinci tip arxaizmlər şəklində səciyyələndirilməsi fikri də irəli sürülmüşdür. Bu mülahizəyə görə, köhnəlmiş predmet və anlayışlar birinci tip arxaizm, digər aktiv sözlərlə yanaşı mövcud olan və eyni predmet və anlayışları bildirən vahidlər isə ikinci tip arxaizmlər kimi səciyələndirilir [2, s. 99-100].

Sözün işlənmə tezliyi təkcə həmin sözün tamamilə arxaikləşdiyi zaman zəifləmir. Söz özü bütövlükdə köhnələ bildiyi kimi, onun təşkil olunduğu elementlər də, onun mənası, başqa sözlərlə əlaqələri və s. də köhnələ bilər [3, s. 8].

Bu baxımdan köhnəlməyə dildə fasiləsiz və dinamik bir proses kimi baxmaq daha doğrudur. Belə olduğu halda sözün işlənmə tezliyinin zəifləməsi də prosesin həlqələrindən birini təşkil edəcəkdir.

Burada tarixizmlərin rolu və yeri də düzgün müəyyənləşdirilməli, predmetin köhnəlməsi prosesi ilə anlayışın köhnəlməsi prosesi bir-biri ilə qarışdırılmamalıdır. Köhnəlmə prosesində tarixizmlərin leksik-semantik vəziyyəti ilə bağlı da fərqli mülahizələr mövcuddur. Bəzi tədqiqatlarda bunlar arxaizmlərin müxtəlif bir şəkli kimi təqdim olunur [4, s. 91; 5]. Bəzi tədqiqatlarda isə köhnəlmiş sözlərə yalnız arxaizm kimi baxılır [6; s. 7]. Bu kateqoriyaya aid olan sözləri Reformatski "tarixi sözlər və ya istorizmlər" [8, s. 480], Filin isə "tarixi sözlər" adlandırır [9, s. 40].

Terminlərə münasibətdən də aydın olur ki, sözlərin köhnəlməsi arxaikləşmə və tarixiləşmə olaraq fərqli şəkillərdə izah edilir. Onların arasındakı fərqi aydınlaşdırmaq üçün nəzərə almaq lazımdır ki, arxaikləşmənin əsasında sözün səs forması və mənası arasındakı münasibət, tarixiləşmənin isə əsasında işarə ilə denotat arasındakı münasibət dayanır. Bu xüsusiyyət onları fərqli şəkillərdə götürməyə və izah etməyə imkan verir.

Köhnəlmə bir proses olaraq özündə bir neçə mərhələni əhatə edir. Ona görə də tədqiqatlarda bu prosesə onun fərqli məqamları kontekstində baxılır. Maslov arxaikləşmənin bitmədiyi vəziyyətdə onları "getməkdə olan leksik vahidlər" [10, s. 248], Altayskaya "istifadədən çıxan" vahidlər adlandırır [11].

Arxaizmlərin önəmli bir qismini təşkil edən istorizmlər birbaşa tarixi inkişafla bağlı olaraq intensivliyini zəiflədir və istifadədən çıxırlar. Çünki cəmiyyətin həyatında baş verən iqtisadi, siyasi, mədəni inkişafın hər bir hadisəsi yeni anlayışlar doğurur, bəzi hadisələr və predmetlər öz işləkliyini daraldır və ya tamamilə itirirlər. Belə olduğu halda dildə müəyyən qrup sözlər tarixi inkişafa görə dəyişməyə məruz qalır və ya lüğətin passiv hissəsinə doğru sıxışdırılır. Bu sözlərin əksəriyyəti dildə istifadədən tamamilə çıxmır və passiv fondda qalmağa davam edir. Mövzu keçmişdən olanda o sözlər həmin dövrə aid nitqin aktiv hissəsinə qayıdır və istifadə olunurlar. Keçmişə aid elmi və ya bədii əsərlərin dilində, keçmişlə bağlı söhbətlərdə tarixizmlər yenidən aktivləşərək dildə işlənir və lazım olan hadisə və predmetləri ifadə edirlər. Tarix və zamanla bağlı olan belə "xronizmlər" dar sahədə işlənə bilirlər. Məsələn, deyək ki, tarixçilər qədim tarixlə bağlı söhbətlərində mütləq həmin dövrün əşya və hadisələrindən onların həmin dövrdəki adları ilə bəhs edəcəklər. Məsələn, qədim türk hərbi leksikasının əksər nümunələri (ox, yay, kaman, qılınc, qalxan, nizə, əmud, mızraq, sapand, çəri (qoşun), sü (ordu), sübaşı (komandir) və s. tarixizmə çevrilmişdir. Onlar yalnız hərb tarixini xatırladığımız zaman istifadə oluna bilirlər. Eyni zamanda ədəbi-bədii düşüncənin obraz yaradıcılığı kipriyi oxa, qaşı kamana, yaya bənzədərək dildə bu sözlərin işlənməsinə imkan yaratmışdır. Eləcə də müasir dövrdə bir sıra idman oyunları vasitəsilə əski hərbi terminlər yenidən aktiv işlənməyə başlayır. Onbaşı, yüzbaşı, minbaşı kimi hərbi vəzifələr qismən də olsa

müasir dövrdə işlənməyə davam edir. Bunlar tarixi keçmişə aid filmlərdə də istifadə olunur. Müasir dildə isə mənası tam aydın şəkildə başa düşülür. Çünki bu vahidlərin dildə aktiv və ya passiv işlənməsindən asılı olmayaraq, onlar anadilli sözlərdən ibarət olduğu üçün anlayış elementini qoruyub bilir.

Azərbaycan tarixi qədim, orta əsrlər və müasir dövr olmaqla üç böyük mərhələni əhatə edir. Tarixşünaslıq baxımından bu mərhələlərin sayı və əhatəsi genişləndirilə bilər. Məsələyə dildən baxdığımız zaman görürük ki, hər bir dövr öz izlərini dildə saxlayır. Bu mənada dil təkcə dil tarixi deyil, eyni zamanda tarixin də dili olur. Tarix öz dövrünün dilində danışır və ünsiyyətini öz dövrünə aid olan termin və tarixizmlərlə qurur.

Arxaizm və tarixizm arasındakı ara məsafədə yerləşən "xronizm"lər köhnəlmiş sözlərin köhnəlmə prosesindəki yerini müəyyənləşdirmək baxımından diqqəti çəkir. Çünki hər bir dövrün öz xronizmi vardır və bu xronizmləri müəyyən dövrlər və epoxalar üzrə müşahidə etmək olar. Nəzərə almaq lazımdır ki, xronizmlər müəyyən bir dövrün hərbi-siyasi gerçəkliyini özündə əks etdirir. Belə olduğu halda da biz yenə xronizmlərdən köhnəlmiş sözlər kimi bəhs edə bilərik. Tədqiqatlarda xronizmlərin istorizmin bir şəkli kimi daha geniş şəkildə götürülməsi təcrübəsi də vardır. Bu yanaşmaya görə, ictimai şüurun dəyişməsi ilə dəyişən xüsusi adların hamısı xronizm hesab edilir. Buraya yer, şəhər, təşkilat və s. adlar da daxildir [12, s. 101]. Bu yanaşmaya görə, inzibati-ərazi vahidləri olan qəza, quberniya kimi vahidlər, Yekaterinburq, Kirovabad (Gəncə) kimi şəhər adları da xronizmlər sırasına daxildir.

Xalqın həyatında baş verən sosial-iqtisadi, ictimai-siyasi, tarixi-mədəni hadisələrin hər biri ilk növbədə xronizm kimi dildə öz izlərini saxlayır. Bunların bəzilərí öz aktuallığını itirərək köhnəlməyə başlayır. Belə köhnəlmə zamanı həmin söz xronoloji bir işarəyə çevrilmiş olur.

Köhnəlmə prosesində olan sözlərin müəyyən bir mənası artıq öz anlamını itirmiş olur. Belə sözlərin işarələdiyi hadisə və ya predmet istifadədən çıxır və həmin sözün də bu səbəbdən işlənmə tezliyi zəifləyir. Əski Azərbaycan siyasi gerçəkliyi tarixi inkişaf nəticəsində dəyişdikdən sonra bu gerçəkliyin ifadə olunduğu bir sıra sözlər də köhnəlmiş olur:

1. Qədim Azərbaycan siyasi gerçəkliyi, monarxiya üsul-idarəsi: padşah, şah, xan, bəy, taxt, tac, el, yasa, törə və s.

2. Qədim və orta əsrlər Azərbaycan hərbi gerçəkliyi: onbaşı, yüzbaşı, minbaşı və s.

3. Əski dövlət atributları: tuğ (bayraq), tuğtutar (bayraqdar), damğa (rəmz), yurd (vətən), el (dövlət) və s.

Köhnəlmə prosesində çoxmənalı sözlərin mövqeyi də diqqəti çəkir. Çünki belə sözlər dövrün gerçəkliklərindən irəli gələn təsirlər nəticəsində dəyişməyə məruz qaldıqda onların ifadə etdikləri mənalardan biri ümumişlək leksikaya daxil olaraq öz işləkliyini qoruya bilir. Məsələn, əski monarxiya üsulunu ifadə edən taxt sıradan çıxsa da, hazırda böyük yataq dəsti mənasında taxt sözü işlənməkdədir. Taxt həm də paytaxt sözünün tərkibində qalır. Bu sözün hərfi mənası "taxtın ayağı" deməkdir. Çünki fars sözü olan "pa" ayaq deməkdir və izafət tərkibində işləndiyi zaman "pa-ye təxt" şəklinə düşür. Padşahların başına qoyulan şahlıq tacı bir baş geyimidir və rəmzi mənası da həmin tacın qoyulduğu bir başın başçı olduğunu bildirməsidir. Dilimizdə əzizləmə mənasında işlənən "baş tacı" ifadəsi qalmaqdadır və buradakı tac bir adama verilən böyük dəyəri və hörməti göstərir. Qadınlara müraciət şəklində qalan "xanım" sözü də köhnəlmiş xanlıq dövrünün ifadələrindən biridir. Göründüyü kimi, əski reallıqlarla bağlı olan bir sıra sözlər başqa məna qazanaraq da dildə öz mövcudluqlarını davam etdirə bilirlər.

Azərbaycan dilinin leksikası əksəriyyəti etibarilə türk mənşəli sözlərdən ibarətdir. Bununla yanaşı, bu sözlərin bəzilərí zaman içində köhnəlmiş və fəal işlənmə sahəsindən

çıxmışdır. Azərbaycan dilində leksik vahidlərin köhnəlməsini sürətləndirən bir sıra tarixi-mədəni faktorlar olmuşdur. Bunları aşağıdakı şəkildə ümumiləşdirmək mümkündür:

1. VIII-X əsrlərdən başlanan İslam dininin qəbulu və ərəb dili ilə sıx inteqrasiya.
2. XI-XII əsrlərdən başlayaraq oğuzcanın güclənməsi.
3. XII-XIII əsrlərdə fars dili ilə sıx inteqrasiya.
4. XIII-XIV əsrlərdə monqol-tatar təsiri.
5. XIII-XV əsrlər oğuz-türkmən dilinin güclənməsi.
6. XV-XVII əsrlər sufi təriqətlərin yayılması və sufi terminologiyanın dilə daxil olması.
7. XVI-XVIII əsrlər xalq dilinə qayıdış və Azərbaycan türkcəsinin güclənməsi.
8. XIX əsrdə müstəmləkə rejimi və rus dili ilə inteqrasiya. Rus və Avropa sözlərinin dilə daxil olması və milli idarəçiliklə bağlı terminlərin arxaikləşməsi.
9. XX əsrin əvvəllərində Türkiyə türkcəsinə yaxınlaşma meylləri. Əski türk leksikasının bərpası.
10. 1918-1920-ci illər Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycan türkcəsinin güclənməsi.
11. 1920-1990-cı illər sovet dövründə Azərbaycan dilinin rus dili ilə inteqrasiyası və "sovetizm"lərin dilə daxil olması.
12. 1991-ci ildən bərpa edilən müstəqillik və demokratiya dövründə Azərbaycan dilinin inkişafı.

Bu dövrlərin hər biri dildə öz izlərini saxlamış və bir sıra sözlərin də köhnəlməsinə zəmin yaratmışdır. Yuxarıdakı təsnifatdan göründüyü kimi bu proses müsbət və mənfi təsirlərdən ibarət olmayıb, özündə geniş dil gerçəkliyini əks etdirməkdədir. Ərəb və fars dillərindən dilimizə keçən yüzlərlə söz yeni anlayışların milli ehtiyatlar hesabı-na yaranmasının qarşısını almışdır. Belə təsirlərin ümumi idrak prosesinə mənfi təsir göstərdiyini düşünmək olar. İslam dini ilə bağlı görüşlər ərəbcə qəbul edilmiş, əski türk sözləri arxaikləşmişdir. Tanrının yerində Allah, yalavacın yerində peyğəmbər, bitigin yerində kitab, alqışın yerində dua, yüknçün yerində ibadət, suçun yerində günah, uçmağın yerində cənnət, behişt, damunun yerində cəhənnəm və s. işlənməyə başlamışdır. Təhsil, idarəçilik və hüquq sistemi də müvafiq dəyişikliyə məruz qalmış, Azərbaycan sözləri işlənmə tezliyini zəiflədərək arxaikləşmişdir.

Rus müstəmləkə rejimi inzibati-idarə sistemindəki sözlərin işlənmə tezliyinin zəifləməsinə səbəb olmuşdur. Sovet dövrü ateist görüşlərlə dini dəyərləri ifadə edən sözlərin işlənmə tezliyinin azalmasına səbəb olmuşdur. Bununla yanaşı dilimizə kommunist, sovet, kolxoz, sovxoz, zavod və s. sözlər daxil etmişdir.

Müasir dövrdə dünya sürətlə inkişaf edir, predmet və hadisələrin sayı artır və bunlar müvafiq olaraq dildə işarələnmə tələb edir. Xüsusilə, elmi-texniki tərəqqi, informasiya texnologiyalarının inkişafı, müasirləşmə və s. dünyanı qloballaşdırır. Bu vəziyyət milli dillərə öz təsirini göstərməkdədir. Öz sözlərimizi qorumaq, onların işlənmə tezliyini zəiflədən amilləri öyrənmək və müvafiq tədbirlər proqramı hazırlayaraq ana dilimizin inkişafını təmin etmək üçün bütün imkanları səfərbər etmək lazımdır.

Dildə sözlərin köhnəlmə prosesində linqvistik və ekstralinqvistik faktorlar iştirak edir. Dilə mənfi təsirlər daha çox ekstralinqvistik faktorlarla bağlı olur. Çünki dil canlı bir mexanizmdir və o, öz daxili imkanları ilə inkişaf etdiyi zaman daha təbii və düzgün nitq imkanları təqdim edir.

ƏDƏBİYYAT

1. Матвеев Б.И. Языковой колорит эпохи в романе А.Н.Толстого «Петр I» // Русская речь, 1976. № 4, 1976.
2. Будагов Р.А. Введение в науку о языке. Москва, 1965.
3. Ялышева А. П. Функционирование устаревших слов в современном немецком языке. (К вопросу о языковой статике и динамике). Автореф. канд. дисс. Москва, 1971.
4. Головин Б. Н. Введение в языкознание. Москва, 1977.
5. Рихтер Г. И. Лекции по введению в языкознание. Раздел «Лексикография». Донецк, 1970.
6. Смирницкий А. И. Лексикология английского языка. Москва, 1956.
7. Ахманова О. С. Очерки по общей и русской лексикологии. Москва, 1957.
8. Реформаторский А. А. Введение в языкознание. Москва, 1967.
9. Филин Ф.П. О лексико-семантических группах слов // Езиковедски из-следования в чест на акад. Стефан Младешв. София, 1957.
10. Маслов Ю. С. Введение в языкознание. Москва, 1975.
11. Алтайская В. Ф. Переходные явления в лексике русского языка послеоктябрьского периода // Русский язык в школе, 1960, № 5.
12. Алексеев Д. И. О функционировании и судьбе аббревиатурной лексики послеоктябрьской эпохи // Язык и общество. Межвузовский научный сборник. Вып. 3, Саратов, 1974.
13. Kitabi-Dədə Qorqud. Bakı, 1988.
14. Divanü-lügat-it Türk. Çeviren B. Atalay. Ankara, 1992.

Ниджат Ягубов

ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА СНИЖЕНИЕ ЧАСТОТЫ УПОТРЕБЛЕНИЯ СЛОВ

В статье исследуется процесс архаизации в словарном составе азербайджанского языка. Выяснено, что устаревание лексических единиц языка имеет связи с историческим развитием. Архаизация относится как к слову, так и к понятию. Выявляются историко-культурные факторы, ведущие к архаизации слов в языке.

Ключевые слова: *Азербайджан, язык, лексика, архаизм, фактор.*

Nijat Yagubov

FACTORS AFFECTING THE DECREASE IN WORD USE FREQUENCY

The paper studies the process of archaization in the vocabulary of the Azerbaijani language. It is found out that the obsolescence of lexical units of language has connections with historical development. Archaization refers to both the word and the concept. Historical and cultural factors leading to the archaization of words in the language are revealed.

Keywords: *Azerbaijan, language, vocabulary, archaism, factor.*

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2018, № 1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2018, № 1

PROCEEDINGS OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES NAKHCHIVAN BRANCH OFFICE
The series of social sciences and humanities, 2018, № 1

RƏŞAD ZÜLFÜQAROV
AMEA Naxçıvan Bölməsi
E-mail: zulfuqarov_1981@mail.ru

NAXÇIVAN DİALEKT VƏ ŞİVƏLƏRİNDƏ İŞLƏNƏN BƏZİ KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİ HAQQINDA

Məqalə Naxçıvan dialekt və şivələrində işlənən bəzi köməkçi nitq hissələrinin tədqiqinə həsr olunub. Araşdırmalar sübut edir ki, Naxçıvan dialekt və şivələrində köməkçi nitq hissələrinə aid xeyli sayda sözlər vardır. Həmin sözlər dilimizin tədqiq olunan digər dialekt və şivələrində, türk dillərində işlənən nümunələrlə müqayisəli təhlil olunmuşdur. Araşdırmalar nəticəsində bir sıra maraqlı elmi faktlar əldə olunmuşdur.

Açar sözlər: *köməkçi nitq hissələri, Naxçıvan, dialekt, şivə, cəht, day.*

Naxçıvan dialekt və şivələri qrammatikasının çoxşaxəli, əhatəli və zəngin olması ilə dilimizin digər dialekt və şivələri içərisində özünəməxsus yer tutur. Aparılan müqayisə və təhlillər göstərir ki, bəhs etdiyimiz dialekt və şivələrdə işlənən köməkçi nitq hissələri də rəngarəngliyi ilə diqqəti cəlb edir. Məlumdur ki, müasir Azərbaycan dilçiliyində nitq hissələri əsas və köməkçi olmaqla iki qrupa ayrılır. Köməkçi nitq hissələri dedikdə qoşma, bağlayıcı, ədat, modal sözlər və nidalar nəzərdə tutulur [11]. Məqaləmizdə həmin köməkçi nitq hissələrinə aid sözlərin bir hissəsi araşdırmaya cəlb edilmişdir. Naxçıvan dialekt və şivələrində işlənən köməkçi nitq hissələrinə aid leksik vahidlərin dilimizin tədqiq olunmuş digər dialekt və şivələrində işlənən, eyni zamanda qohum dillərin dialekt və şivələrində mövcud olan nümunələrlə müqayisəli linqvistik təhlili zamanı olduqca maraqlı faktlar ortaya çıxır. Tədqiq edilən dialekt və şivələrdə işlənən və tarixin keşməkeşli sınağından çıxıb günümüzədək öz varlığını qoruyub saxlaya bilən belə leksik vahidlər dilimizin qədim tarixinə işıq salmaqdadır. Onların araşdırılması isə günümüzdə dialektologiya elminin, xüsusilə tarixi dialektologiyanın qarşısında dayanan mühüm məsələlərdəndir. Dialekt və şivələrdə işlənən köməkçi nitq hissələrinin bir qisminin təhlilinə baxaq.

Müasir Naxçıvan dialekt və şivələrində işlənən və ***deməli, nəhayət*** nəticə bildirən modal sözləri ilə paralellik təşkil edən ***boylum*** sözünün linqvistik təhlili maraq doğurur. *Məs.: Boylum bınnar gördü day ələş yoxdu, özləri başdadılar düzətməyə.*

Qeyd edək ki, tədqiq etdiyimiz dialekt və şivələrdə *boylum* sözü omonimlik xüsusiyyətinə malik olmaqla *sonra* qoşmasının sinonimi kimi də çıxış edə bilir. Fikrimizi bir qədər də açа bilmək üçün verilən nümunəyə diqqət yetirək. *Məs.: Mən unnan sorşanda bi az lam qaldı, boylum dedi mə:m xəbərim yoxdu kin.*

Apardığımız tədqiqatlar zamanı Naxçıvan dialekt və şivələrində verilən nümunədə işlənən və *sonra* sözünün ekvivalenti olan *boylum* sözünə paralel olaraq *boyl* lekseminin işlənməsinin də şahidi olduq. *Məs.: Boyl ordan da day uzaxlaşdıx əvə gəldix'.*

Naxçıvan dialekt və şivələrində işlənən və ***daha*** sözü ilə sinonimlik təşkil edən ***day*** sözünün təhlili də maraqlıdır. *Məs.: Day bınnan so:ra nə desən boşdu.*

Sözə dilimizin Dərbənd dialektində *dağı//dağı* [1, s. 313], Ərzurum şivələrində *neheti* [7, s. 269] şəklində, eyni mənada rast gəlinmişdir. *Məs.: Neheti yapcak bi işmiz kalmadi ki.*

Hazırda Ordubad dialektində ***ərə,*** Culfa şivələrində ***ara*** şəklində işlənən və ***gah, gah da*** bağlayıcısı ilə sinonimlik təşkil edən köməkçi nitq hissəsi Naxçıvan dialekt və şivələrinin əksəriyyəti üçün xarakterikdir. *Məs.: Ərə yer şımlərdix', ərə dəvər otərərdıx.* Söz dilimizin Şahbuz və Şərur şivələrində də *ara* şəklində, eyni mənada işlənməkdədir. Dilimizin Dərbənd dialektində sözə həm əsas, həm də köməkçi nitq hissəsi kimi rast gəlinmişdir. Köməkçi nitq hissəsi kimi Naxçıvan dialekt və şivələri ilə ortaq xüsusiyyət və mənaya malik olan söz əsas nitq hissəsi kimi ***məhəllə*** mənasını ifadə edir. *Məs.: İndi Əli sizin araya gedə var* [1, s. 297]. Bununla yanaşı, Dərbənd dialektində ***gah, gah da*** bağlayıcısına paralel olaraq ***hay*** leksik vahidi işlədilir. *Məs.: Qapi-qapi gəzdirədilər, hay yumurta, hay şəkər vərədilər* [1, s. 323].

Bəhs olunan dialekt və şivələrdə işlənən və ***üçün, görə*** qoşmaları ilə paralellik təşkil edən ***cəht*** sözü də maraq doğurur. *Məs.: Dünənnərisi naçəxladığı cəht gəlməmədi.*

Azərbaycan dilinin Dərbənd dialektində bu mənada *kimi* sözündən istifadə edilir. *Məs.: Arasınnan pişig girmağa kimi yer oleydi* [1, s. 332].

Naxçıvan dialekt və şivələrində fərqləndirmə mənalı ***başqa*** qoşmasına sinonim olaraq ***alahi*** lekseminin işləndiyini görürük. *Məs.: Mirqiasdan alahi hammı gəlmişdi.*

Alahi sözünə Azərbaycan dilinin tədqiq olunan digər dialekt və şivələrində də rast gəlinmişdir [14, s. 282].

Tədqiqata cəlb edilən Naxçıvan dialekt və şivələrində ***məsələn*** aydınlaşdırma bağlayıcısı ilə paralel işlənən, yəni onunla sinonimlik təşkil edən ***timsal//timsalı//tümsal// tümsalı*** leksik vahidinin işləndiyini görürük. *Məs.: Timsalı, mən qəvirqa:n həyləm qəvırmanam.*

Bəhs olunan dialekt və şivələrdə işlənən və ***hətta*** ədatı ilə paralellik təşkil edən ***heybəttən*** sözü də maraq doğurur. *Məs.: Heybəttən day uşəx kimin qışqı:rdı ye.*

Bir faktа diqqət yetirmək lazımdır ki, *heybət* sözü Azərbaycan dilçiliyi və folklorşünaslığında *sima, sifət, qorxunc yaradılış* kimi anlayışları özündə birləşdirməkdədir. Təsadüfi deyil ki, xalq arasında sifətcə çirkin olan adamların, folklorşünaslığımızda isə pis görünüşlü, mənfi və qorxulu qəhrəmanların *bədheybət* adlandırılması faktı ilə qarşılaşmış oluruq. Unutmaq olmaz ki, *heybət* sözünün *sima, görünüş* anlamı əksər dialekt və şivələrimizdə öz ümumişləklik xüsusiyyətini qorumaqdadır. *Məs.: Bı qarı:n heybətinnən adam üşənirdi.*

Bəhs olunan dialekt və şivələrdə işlənən və ***lakin, halbuki*** qarşılaşdırma bağlayıcıları ilə paralellik təşkil edən ***inta:sı, intəhası*** sözü də maraq doğurur. *Məs.: Çobannar güllə atıplar inta:sı vıramnıyıblar.*

Müasir Naxçıvan dialekt və şivələrində ***əlbəttə*** təsdiq bildirən modal sözü ilə sinonimlik təşkil edən ***bəna:bə*** sözü işlədilir. *Məs.: Bənə:bə, bı işi görən ta sənsən da.*

Tədqiq edilən dialekt və şivələrdə işlənən və ***kaş, barı*** arzu ədatları ilə paralellik təşkil edən ***əqəlləm//əqəllən*** sözü də maraq doğurur. *Məs.: Əqəlləm yaddan çıxarmıya mə:m həcətdərmi.* Bir faktı qeyd etmək olar ki, bu söz daha çox Culfa şivələri üçün xarakterikdir. Türkiyə türkcəsinin Ərzurum şivələrində bu mənada *barım* [7, s. 234] sözünə rast gəlinir.

Müasir Naxçıvan dialekt və şivələrində ***əgər*** şərt bağlayıcısı ilə sinonimlik təşkil edən ***həyə, əyəm*** bağlayıcılarına rast gəlinir. *Məs.: Həyə bi xata bala çıxmasa gəllix' sizə.*

Culfa şivələrində eyni zamanda yuxarıda qeyd etdiyimiz şərt bağlayıcısına sinonim olan ***əyərgah*** leksemindən də istifadə edilir. *Məs.: Əyərgah hava yaxçı olsa, ge:b yığıb gəllix'.*

Dilimizin tədqiq olunan bir sıra dialekt və şivələrində bu bağlayıcının *əgəm// əgəna//əyəm* [14, s. 281], Quba dialektində *əgənə* [12, s. 184], Qərb qrupu dialekt və şivələrində *a:m//ə:r* [5, s. 152], Dərbənd dialektində *əgərləri//əgən//egən//əgənə* [1, s. 222], Türkiyə türkcəsinin Çoruh şivəsində isə *anar//ener* [6, s. 202], Ərzurum şivələrində *ecer* [7, s. 245] kimi fonetik variantlarına rast gəlinmişdir.

Azərbaycan dilinin tarixi qrammatikası və klassiklərimizin əsərlərində *əgər* şərt bağlayıcısı *agar* və *gər* [10, s. 229] formalarında işlənmişdir.

Naxçıvan dialekt və şivələrində işlənən və maraq doğuran köməkçi nitq hissələrindən biri də ***məgər*** sual ədatı ilə sinonimlik təşkil edən ***məhlim*** sözüdür. *Məs.: Məhlim bilmirdi kin bı işin axrı yaxçı olmıyacax.* Bir maraqlı fakta diqqət yetirmək yerinə düşər ki, müasir Naxçıvan dialekt və şivələrində *məhlim* sözü həm də əsas nitq hissə kimi özünü göstərir. Belə ki, söz Culfa şivələrində *niyə* sual əvəzliyi ilə paralel işləndiyi halda Babək şivələrində daha çox *büruzə vermək, özünü göstərmək* anlayışlarını bildirir. Aşağıdakı nümunələrə diqqət yetirək. *Məs.: Məhlim bilmisən kin səbəb no:lup? (Culfa); Sə:n işin olmasın gej tez özün məhlim eliyəcəx' (Babək).* Azərbaycan dilinin Dərbənd dialektində eyni leksik məna *bəgəm//bəgən* [1, s. 301], Salyan şivələrində *begəm* [14, s. 281], Türk dilinin Qars şivələrində isə *beyem//megemse* [7, s. 235; 266] sözləri ilə ifadə edilir.

Culfa rayonun Gal kənd şivəsində işlənən və ***kimi, qədər*** məsafə və zaman mənalı qoşmalarla sinonimlik təşkil edən ***calı//cəli,*** Babək şivələrində işlənən ***teyin*** leksik vahidlərinin müqayisəli linqvistik təhlili də maraq doğurur. *Məs.: Evəcəli mələdi səsin kəsəmmədix'; Səhərəcəli ilan vıran yatdı mə:n yuxu tutammadı; Bırdan kəndə teyin qaşdıx tay.*

Maraqlıdır ki, sözə dilimizin tədqiq edilən Dərbənd dialektində *çalı* [1, s. 308], *kimiki* şəklində *kimi, qədər* mənalarında rast gəlinmişdir.

Naxçıvan dialekt və şivələrində işlənən və ***dəfə*** qüvvətləndirici ədatını ilə paralellik təşkil edən sözlərin müəyyən bir hissəsini ***əl, yol, kərən, kərə, dönə, öynə*** leksik vahidləri təşkil edir. *Məs.: Bi dayan bi əl məndə bi şey de:m day. Bi kərən dədəmnən xəbərsiz papiros çax'mışdım u:n da kin tıtdı. Bı dönə day sə:n özün gedəssən mənnix' də:r.*

Əl sözü Azərbaycan dilinin tədqiq olunmuş bir sıra dialekt və şivələrində müxtəlif anlayışları ifadə etməkdədir. Belə ki, söz Ucar şivələrində *təndir düzəltmək üçün dairəvi gil hissə* [2, s. 167], Bakı dialekti, Şuşa və Şamaxı şivələrində *tərəf* [2, s. 167], Bakı [13], Ağdam, Tərtər, Bərdə dialekt və şivələrində isə *dəfə* [2, s. 168] mənalarında, Qars şivələrində *defen* [7, s. 242] şəklinə, eyni anlamda işlədilir.

Tədqiq edilən köməkçi nitq hissələri içərisində *dəfə* sözünün sinonimi olan *yol* lekseminin təhlili diqqəti cəlb edir. Belə ki, *yol* sözü omonim xarakterə malik olub həm əsas, həm də köməkçi nitq hissəsi kimi işlədilə bilir. *Məs.: İşi ağıllı adama bi yol dedin bəsidi, day hey deməyə gərəx' yoxdu kin.*

Yol lekseminin klassik ədəbiyyatımızda *dəfə* sözünə paralel olaraq işlədildiyi də məlumdur. Qasım bəy Zakirin "Gəlsin" qoşmasından götürülən aşağıdakı bəndə diqqət yetirsək, dediklərimiz bir qədər də aydınlaşmış olar.

Sürmə çəksin gözlərinə, qaşına,
*Gündə yüz **yol** mən dolanım başına,*
Zakirtək yanmağa eşq atəşinə,
Cürəti var isə pərvanə gəlsin! [9, s. 165]

Bir faktı da qeyd etmək lazımdır ki, *dəfə* sözünün *yol* variantında işlənməsinə Türk dilinin Qars şivələrində [7, s. 286] də rast gəlinmişdir.

Naxçıvan dialekt və şivələrində işlənən və daha çox ***müxtəsər, nəhayət*** nəticə və ümumiləşdirmə bildirən modal sözü mövqeyində çıxış edən ***məxdəs//məxləs*** leksik vahidi də diqqəti cəlb edir. *Məs.: Məxləs, çatdıx kəndə.*

Sözə Azərbaycan dilinin tədqiq edilmiş digər dialekt və şivələrində daha çox *məlxəs* [2, s. 387], eyni zamanda *maxləs//məxdəs* [2, s. 386] formasında rast gəlinmişdir.

Ordubad dialektində işlənən və ***amma*** qarşılaşdırma bağlayıcısı ilə sinonimlik təşkil edən ***həmə*** leksik vahidi maraqlıdır. *Məs.: Çətinniyimiz çox o:b həmə heş vəx qorxməmişiy.* Nuray Əliyeva tədqiqatlarında sözün Şahbuz şivələrində *amancəx* [8, s.121] şəklində işləndiyini qeyd edir. Sözə Azərbaycan dilinin Dərbənd dialektində *aman* şəklində rast gəlinmişdir. *Məs.: Bilədi aman dimiyədi.* Söz dilimizin Gəncə şivələrində *amba//əmbə* [14, s. 281], Qarabağ bölgəsində *hamma* [14, s. 281], Qərb qrupu dialekt və şivələrində *əmbə//əmə* [5, s. 152], Qars şivələrində *amba// emme//eme* [7, s. 232; 245], Ərzurum şivələrində *hama* [7, s. 256] şəklində mövcuddur.

Amma leksemi tarixi qrammatikamızda və klassiklərimizin yaradıcılığında *əmma* [10, s. 227] şəklində işlənmişdir. Aşağıdakı nümunələrə diqqət yetirək:

Dəmi İsa ölü dirildər əmma,
Dəmindən Xızrlə İsa dirildir [Nəsimi];
Rəqib sözünə bəxmazdım vüsalın istəyib əmma,
Məni məhrum edən bu bəxti-nahəmvar imiş bildim [Kişvəri].

Yuxarıda qeyd olunanlarla yanaşı, tədqiq etdiyimiz Naxçıvan dialekt və şivələrində *bəlkəm, gəvər, səki, kin, əttoba, ötəri, ötürü* və s. kimi köməkçi nitq hissələri də mövcuddur. Gələcək araşdırmalarımızda həmin leksemlərin də linqvistik təhlilinə diqqət yetirəcəyik.

Yekun olaraq qeyd etmək lazımdır ki, hazırda Naxçıvan dialekt və şivələrində köməkçi nitq hissələri işlənmə arealının genişliyi və zənginliyi ilə diqqəti cəlb edir. Onların hamısı haqqında bir məqalədə bəhs etmək bir qədər çətindir. Araşdırılan şivələrdə mövcud olan və məqalədə tədqiqata cəlb edilən sözlərin böyük əksəriyyəti milli mənşəli olmaqla zəngin ümumtürk leksikasının mühüm laylarından birini təşkil edir. Belə sözlərin müasir dilçilik aspektindən etnolinqvistik təhlilinin aparılması bir sıra maraqlı faktların ortaya çıxarılmasına imkan verir. Həmin sözlərin milli aspektdən, ümumtürk mədəniyyəti, dilçiliyi kontekstində öyrənilməsi, onların xalqımızla, bu torpaqla bağlılığının sübut olunması, günümüzdə ərazilərimizə qarşı irəli sürülən əsassız erməni iddialarına tutarlı cavab verə biləcək əhəmiyyətli bir mənbə olduğunu göstərməkdədir. Aparılan araşdırma və təhlillər sübut edir ki, öyrənilən sözlər, şübhəsiz, regionla bağlıdır və xalqımızın milli-mənəvi mədəniyyətinin, dialekt leksikasının mühüm tərkib hissəsini təşkil edir. Belə sözlər dilimizin qədim tarixi köklərini özündə yaşadan, bizə və bizdən sonrakı nəsillərə miras qoyan olduqca dəyərli qaynaqdır. Onların araşdırılaraq ortaya çıxarılması, linqvistik təhlil olunması və bundan sonrakı nəsilləri ötürülməsi müasir dil tarixinin, tarixi dialektologiyanın qarşısında dayanan aktual məsələlərdəndir.

ƏDƏBİYYAT

1. Azərbaycan dilinin Dərbənd dialekti. Bakı: Elm, 2009, 448 s.
2. Azərbaycan dilinin dialektoloji lüğəti: 2 cilddə, I c. A-L, Ankara: Türk Dil Qurumu, 1999, 374 s.
3. Azərbaycan dilinin dialektoloji lüğəti: 2 cilddə, II c. M-Z, Ankara: Türk Dil Qurumu, 2003, 279 s.
4. Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, 1962, 326 s.
5. Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri: 2 cilddə, I c. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, 1967, 281 s.

6. Caferoğlu A. Anadolu ağızlarından toplamalar. Ankara: Türk Dil Qurumu, 1994, 270 s.
7. Caferoğlu A. Doğu illerimiz ağızlarından toplamalar. Ankara: Türk Dil Qurumu, 1995, 290 s.
8. Əliyeva N.Y. Azərbaycan dilinin Şahbuz şivələri. Bakı: Elm və Təhsil, 2012, 192 s.
9. Qasım bəy Zakir. Seçilmiş əsərləri. Bakı: Avrasiya Press, 2005, 400 s.
10. Mirzəzadə H. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1990, 376 s.
11. Müasir Azərbaycan dili: 3 cilddə, II c. Morfologiya. Bakı: Elm, 1980, 510 s.
12. Rüstəmov R. Quba dialekti. Bakı: Azərnəşr, 1954, 282 s.
13. Şirəliyev M.Ş. Azərbaycan dialektologiyasının əsasları. Bakı: Şərq-Qərb, 2008, 416 s.
14. Şirəliyev M.Ş. Bakı dialekti. II çapı. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, 1957, 226 s.

Рашад Зульфугаров

О НЕКОТОРЫХ ВСПОМОГАТЕЛЬНЫХ ЧАСТЯХ РЕЧИ В НАХЧЫВАНСКИХ ДИАЛЕКТАХ И НАРЕЧИЯХ

Статья посвящена изучению ряда вспомогательных частей речи в нахчыванских диалектах и наречиях. Исследования доказывают, что в нахчыванских диалектах и говорах имеется множество слов, относящихся к вспомогательным частям речи. Эти слова были изучены в сравнении с другими образцами, употребляемыми в других диалектах и говорах нашего языка, а также в тюркских языках. В ходе исследования автор сделал очень интересные научные выводы.

Ключевые слова: *вспомогательные части речи, Нахчыван, диалект, наречие, попытка, дан.*

Rashad Zulfugarov

ABOUT SOME AUXILIARY PARTS OF SPEECH USED IN THE DIALECTS AND ACCENTS OF NAKHCHIVAN

The paper is devoted to the investigation of some auxiliary parts of speech used in the dialects and accents of Nakhchivan. The investigations prove that there are many words belong to auxiliary parts of speech used in the dialects and accents of Nakhchivan. Those words have been comparative investigated with the other researched dialects and accents of our language and the examples used in the other Turkic languages. Result of the investigation some new scientific facts have been get.

Keywords: *auxiliary parts of speech, Nakhchivan, dialect, accents, jaht, day.*

(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)

NURAY ƏLİYEVA
AMEA Naxçıvan Bölməsi
E-mail: naliyeva22@mail.ru

NAXÇIVAN DİALEKT VƏ ŞİVƏLƏRİNİN LEKSİKASINA ƏRƏB DİLİNDƏN KEÇƏN SÖZLƏR

Məqalədə göstərilir ki, dilimizə uzun illər ərəb dilinin güclü təsiri dialekt və şivələrimizin lüğət tərkibində də öz izlərini buraxmış, buraya da ərəb dilindən müəyyən sözlər daxil olmuşdur. Belə sözlərin əksəriyyəti İslam dini ilə bağlı olan leksik vahidlərdir. Dialekt və şivələrimizə, o cümlədən Naxçıvan dialektinin lüğət tərkibinə daxil olan ərəb və fars mənşəli sözlərin əsas xüsusiyyəti onların öz sözlərimizlə qaynayıb-qarışması, öz tələffüz qaydalarımıza uyğunlaşması və dildə vətəndaşlıq hüququ qazanmasıdır. Belə sözləri öz milli sözlərimizdən ayırmaq çox çətin olur. Dialekt və şivələrimizin lüğət tərkibi ədəbi dilə nisbətən daha mühafizəkardır. Ona görə də burada alınma sözlərin sayı ədəbi dilə nisbətən azdır.

Açar sözlər: *dialekt və şivə, lüğət tərkibi, başqa dillərdən keçən sözlər, ərəbizmlər.*

Ərəb və fars mənşəli sözlərin dilimizin, eyni zamanda da dialekt və şivələrimizin lüğət tərkibində çox geniş yer tutduğu dilçilikdə artıq məlumdur. Azərbaycanda uzun illər hakimiyyətdə olmuş ərəb xilafəti bütün ölkəni ərəbləşdirməyə çalışmışdır. Azərbaycan xalqının mədəni həyatında ciddi dəyişiklik edən ərəb siyasəti onun dilinə, əlifbasına, məişətinə də güclü təsir etdi. Dilimizin lüğət tərkibinə və əsas lüğət fonduna, o cümlədən dialekt və şivələrimizin lüğət tərkibinə çoxlu miqdarda ərəb mənşəli söz daxil oldu. Məişətimizə daxil olan ərəb və fars mənşəli sözlər dilimizin spesifik xüsusiyyətlərini qəbul edən sözlərdir. Ümumiyyətlə, təkcə Azərbaycan dili və dialektləri üçün deyil, bütün dillər üçün xarakterik olan alınma sözlərin bir əsas xüsusiyyəti də ondan ibarətdir ki, alınma söz alındığı dildə olduğu kimi deyil, sözü alan dilin daxili qayda-qanunlarına əsasən dəyişdirilir. "Alınma sözlərin bütün formaları-fonetik forması, mənası ilə dəyişməz şəkildə alınması çox nadir hadisədir, əks halda bu, sözü alan dilin sisteminin tamamilə dəyişməsinə səbəb olardı, ona görə də dilin daşıyıcıları alınma sözü öz tələffüz formalarına uyğunlaşdırırlar" [11, s. 65]. Dialekt və şivələrimizə, o cümlədən Naxçıvan dialektinin lüğət tərkibinə daxil olan ərəb və fars mənşəli sözlərin əsas xüsusiyyəti onların öz sözlərimizlə qaynayıb-qarışması, öz tələffüz qaydalarımıza uyğunlaşması və dildə vətəndaşlıq hüququ qazanmasıdır. Belə sözləri öz milli sözlərimizdən ayırmaq çox çətin olur.

Azərbaycan dilçiliyində ədəbi dildə alınma sözlər problemi kifayət qədər öyrənilmiş, ciddi tədqiqata cəlb olunmuş sahələrdən biridir. Bu barədə müxtəlif tədqiqatçılar öz sözlərini demiş, alınma sözlər, onların mənşəyi, öz sözlərimizdən fərqli xüsusiyyətləri məsələləri hərtərəfli araşdırılmışdır. Lakin dialekt və şivələrimizdə işlənən alınma sözlər ya nisbətən az tədqiq olunmuş, ya da tədqiqat əsərlərində bu məsələyə az yer verilmişdir. Məsələ bundadır ki, dialekt və şivələrimizin lüğət tərkibi ədəbi dilə nisbətən daha mühafizəkardır. Ona görə də burada alınma sözlərin sayı ədəbi dilə nisbətən azdır. Dialekt və şivələrin lüğət tərkibi uzun əsrlər boyu xalqın süzgəcindən keçir və buraya xalq

dili üçün yad olan, tələffüzdə müəyyən çətinliklər yaradan, dilimizin daxili qayda-qanunlarına uyğunlaşmayan sözlər çox çətinliklə daxil ola bilir. Daxil olan sözlər isə o qədər dəyişilmiş, dilimizə uyğunlaşdırılmış halda qəbul olunur ki, onları öz sözlərimizdən ayırmaq, mənşəyini müəyyənləşdirmək heç də asan olmur. Ona görə də dialekt və şivələrimizdə alınma sözlər ədəbi dilimizə nisbətən çox azdır. Biz burada Naxçıvan dialekt və şivələrinin özünəməxsus spesifik leksik layına aid topladığımız dil materiallarının bir qismini təhlil etmək, oradakı alınmaların xarakterik xüsusiyyətlərini göstərmək, dialektdəki, dilimizin digər dialekt və şivələrindəki, o cümlədən alındığı dildəki semantikasını müəyyənləşdirməyə çalışacağıq.

Basarat. Ərəb dilindəki bəsirət sözünün dialekt variantı olan bu söz həmin dildə iki mənada qeyd olunmuşdur: "diqqət", "bəxt, tale" [7, s. 55]. B.Əhmədova görə bəsirət sözü ərəb sözü olub uzaqgörənlik deməkdir [6, s. 45]. Naxçıvanın, demək olar ki, bütün rayon və kəndlərində bu vahidə rast gəlirik. Burada basarat "qabiliyyət, bacarıq, bəxt, tale" mənası ifadə edir. Basaratı bağlammax frazeoloji birləşməsinin tərkib hissəsi kimi daha çox işlənir ki, burada da "işləri düz gətirmək, bəxti bağlanmaq, hansı işə əl atsa alınmamaq, əl-qolu açılmamaq" mənalarını ifadə edir: – Allaha and olsun, həmən dəyqədə diyəsən bəlkəm basaratım bağlandı, heşpşey diyəmmədim, beləcə durdum baxdım (Naxçıvan). – Yazığ uşağın basaratı bağlanıp, əlin nəyə atsa quruyur (Culfa).

Azərbaycan dilinin Ağbaba şivəsində bu söz başarat formasında, Kürdəmir, Qarakilsə, Şuşa şivələrində isə basarat variantında [1, s. 34] "bacarıq, qabiliyyət" mənasında işlənir.

Klassiklərimizin əsərlərində bu söz bəsirət formasında işlənir:

İ.Nəsimidə:

Zühur eylədi cümlə əşyada həq,
Qanı bir bəsirətli, açıqnəzər [12, s. 240].

M.Füzulidə:

Bəyani-eşqə bəsdir lövhi-rüxsarimdə xuni-dil,
Bəsirət əhlinə zahir qılır hər nəqş nəqqaşın [9, s. 255].

Əkə-bükə. "Özünü yaşından böyük aparan, çoxbilmiş adam" mənasında Naxçıvanın demək olar ki, bütün bölgələrində işlənir: – Cavan olmağına baxmaginən, elə bilərsən kin, bir əkə-bükə arvatdı (Şahbuz). – Tamoşun bir əkə-bükə qızı var diyərsən bə dünyagörmüş qocadı (Babək).

Bu söz mənşəcə ərəb sözü olub, ərəb dilində əkbər "böyük, ulu", əkabir isə onun cəmi olan "böyüklər, ulular" mənasındadır [7, s. 179]. Qərbi Azərbaycanın Çəmbərək, Ağbaba şivələrində "dünyagörmüş, bacarıqlı, təcrübəli adam" mənasında işlənir. "Şərqi Abşeron şivələrində isə bu söz əkabur variantında "yaşından artıq, çoxbilmiş adam" mənasında işlənir. Bu söz tədqiq olunan şivələrdə semantik dairəsini genişləndirən, yeni çalarlar kəsb edən sözlər sırasındadır. Belə ki, əkabur sözü ünsiyyət prosesində ilk mənasından uzaqlaşaraq kinayə tərzində deyiliş məqamında işlədilir" [14, s. 55]. Əkabur sözü klassiklərimizin dilində də müşahidə olunur. Lakin B.Əhmədov bu sözə bir qədər fərqli mövqedən yanaşar göstərir ki, dialekt və şivələrimizdəki əkə//əkəc//əkə-bükə sözləri qədim ak//aq//ax köklərinin törəməsidir. Qədim türk mənbələrində bu feil "yuxarı qalxmaq, yüksəlmək" mənasında qeyd edilmişdir. Hətta bu sözün a: şəkli də mənbələrdə vardır ki, mənası "böyük qardaş" deməkdir [5, s. 61]. Lakin biz belə düşünürük ki, bu sözün dilimizə ərəb dilindən keçməsi fikri daha məntiqlidir.

Kahal//kal. Naxçıvan dialekt və şivələrində "anlamaz, tərs" mənasında işlənir. – Kahal uşaxdı, sözəyatım dəyir, unnan işin olmasın (Culfa). – Kahal adama söz qandırmax birəz çətin olur (Babək). Kahal ərəb mənşəli kahil sözünün dialektdə fonetik cə-

hətdən dəyişilmiş formasıdır və həmin dildə "tənbəl, ağır tərpənən, key" anlamı verir [7, s. 276]. Bu söz Azərbaycan dilinin digər dialekt və şivələrində, o cümlədən Şərqi Abşeron, Dərələyəz, Vedi, Zəngibasar şivələrində "tərs, qanmaz, könülsüz, ağır, ləng", kağal fonetik variantında "tənbəl" mənasında Qarakilsə, Şəmkir, Tovuz şivələrində [1, s. 265] qeydə alınmışdır. Göründüyü kimi bu söz eyni zamanda tənbəl adam mənasında da işlədilir. Naxçıvan dialektində isə bu sözə tənbəllik mənasında kahıllıx variantında rast gəlirik. "Oğuznamə"lərdə də kahal "tənbəl" mənasında işlənmişdir: Əbləh kahal olmaz [13, s. 50].

Micas. Naxçıvanın, demək olar ki, əksər rayon və kəndlərində bu leksik vahidə rast gəlirik. Daha çox micası çəkməmək, micası götürməmək birləşmələrinin tərkib hissəsi kimi müşahidə etdiyimiz bu vahid "xasiyyət, təbiət" mənalarında, mətn daxilində "canına sinməmək, ürəyinə yatmamaq, iyrənmək" kimi məqamlarda işlənir: -Mə:m bir xəsiyətim var ki, hər şeyi micasım götürməz (Ordubad). – Qaynənəmin micası pisdi, gərəx' qab-qaşağı salavatdıyasan, yoxsa içində xorəx' yeməz (Cəhri). Ərəb mənşəli bu söz həmin dildə "təbiət, xasiyyət, sağlamlıq, səhhət, həvəs, şövq" mənalarında mizac formasında işlənir [7, s. 386]. Qərbi Azərbaycan şivələrində bu söz "iyrənc, iy, dad bilməyən adam" mənalarında qeydə alınmışdır [4, s. 280]. Türkiyənin Muş ağızlarında da micaz eyni mənada işlənir [3, s. 264].

Klassik ədəbiyyatımızda da bu sözə eyni mənada rast gəlirik. M.Füzulidə:

Eşq zövqilə xoşam, tərki-nəsihət qıl, rəfiq,
Mən ki, tiryakimizacəm, zəhr kar etməz mana [9, s. 243].
Bəsteyi-zənciri-zülfündür nəsimi-tərmizac,
Təşneyi-cami-vüsalındır mühiti-küşkləb [9, s. 65].

Məlumdur ki, M.Füzuli əsərlərinin dilində milli sözlərimiz say etibarilə üstünlük təşkil edirdi. Lakin həmin dövrün tələblərini və ərəb-fars dillərinin o dövrdə dilimiz üzərindəki təsir gücünü də nəzərə alsaq, onun əsərlərində xeyli sayda belə sözlər də işlənmişdir ki, onlardan biri də məhz mizac sözüdür.

Möhrə. Naxçıvan dialekt və şivələrində "qurudulmuş palçıq laylarından hörülmüş divar, palçıq divar" mənasında işlədilir: – Möhrə əv yayda sərin olar (Culfa). – Devriqədimnən bizim tifarrarımız möhrə olardı (Naxçıvan). Ümumiyyətlə, Naxçıvanda, o cümlədən Azərbaycanın bir çox bölgələrində köhnə evlər möhrədən olurdu. Yəni insanlar kustar şəkildə, öz imkanları hesabına, heç bir texnikadan istifadə etmədən palçığı düzbucaqlı şəkildə kəsir, qızmar günəşin altında qurudur və ondan divar hörürdülər. Bu cür divarların eni indikinə nisbətən daha çox və ondan tikilən ev yayda sərin, qışda isə isti olurdu. İndi də Naxçıvanın köhnə məhəllələrində bu cür evlər var. Möhrə sözü şivənin lüğət tərkibinə ərəb dilindən keçmişdir. Bu söz həmin dildə bir neçə məna ifadə edir. "1. hər cür girdə şey, kürəcik; 2. şüşə muncuq; 3. balıqqulağı, sədəf; 4. şahmatda fiqurlardan birinin adı" [7, s. 394]. Lakin göründüyü kimi həmin leksik vahid dialektdə məna dəyişikliyinə uğramış və alındığı dildəki mənasından uzaqlaşaraq yeni semantik çalar qazanmışdır. Möhrə Azərbaycan dilinin Ağdaş, Bilasuvar, Gəncə, Göyçay, Masallı, Mingəçevir, Şamaxı, Ucar, Vedi, Zəngibasar, İrəvan şivələrində də eyni mənada, yəni "palçıq divar" mənasında qeyd olunmuşdur [1, s. 400; 4, s. 282]. Göyçay və Kürdəmir şivələrində bu sözün "çəpər"; Ağdaş, İrəvan şivələrində isə "qayka" [1, s. 401] mənası da göstərilmişdir.

Nasrannı. Alınma sözlərə nəzər salsaq görərik ki, onların bir qismi tədricən ədəbi dildən çıxaraq yalnız dialekt və şivələrdə işlənir. Yaxud da danışıq dili vasitəsilə alınan söz ancaq dialektdə qalaraq ədəbi dilin lüğət tərkibinə keçə bilmir. Belə sözlərdən biri də nasrannı sözüdür. Bu leksik vahid Naxçıvanda "nanəcib, başqalarına əziyyət verən, əzazil, zalım" mənalarında işlənir: – Nasrannının balası gəldi, hammını yerinnən-yur-

dunnan elədi (Naxçıvan). – Bala başua dönüm, bı gəlinin əri elə nasarnnıymış ki, yazığa gün vermirmiş (Cəhri).

"Əsli qədim yəhudicə olan bu söz ərəb dilindən dilimizə keçmişdir. Həmin dildə nəsrani kimi işlənən bu leksik vahidin mənası isə "İsa dininə mənsub olan, xaçpərəst, xristian" deməkdir" [7, s. 473]. Qeyd etdiyimiz kimi, dilimizə, o cümlədən dialekt və şivələrimizə ərəb dilinin təsiri əsasən İslam dininin yayılmağa başladığı dövrlərdən başlayır. Məlumdur ki, İslam dinini ilkin mərhələdə qəbul edənlər təqib edilir, müxtəlif təzyiqlərə məruz qalırdılar. Ona görə də onlar qeyri-müsəlmanları düşmən kimi qəbul edirdilər və onların adlarını ifadə edən sözdə də bir mənfi məzmun var idi. Görünür, bu sözün dialektin lüğət tərkibində ifadə etdiyi məna da məhz onun "xristian dininə mənsub olan şəxs" mənası ilə bağlıdır. Yəni həmin dövrdə xristianlar ərəblər tərəfindən bu cür adlandırılmış, daha sonra dialektdə həmin sözdə olan mənfi çalar qorunub saxlanmış və bu günə qədər də yaşamaqdadır.

Azərbaycan dilinin digər dialekt və şivələrində həmin sözə Naxçıvan dialekt və şivələrində işlənən mənada rast gəlməsək də, ayrı-ayrı şivələrdə bənzər və ya yaxın mənalarda və müxtəlif fonetik variantlarda qeydə alınmışdır. Belə ki, Xanlar şivələrində nasrandı, Gədəbəy və Mingəçevirdə nasrani "tərs, höcət", nasrandılıx "tərslik" [1, s. 412] mənalarında işlənir. Türkiyə türkcəsinin Kastamonu ağızlarında da nasranı "içi fəsad olan, həmişə pislik düşünən", nasrani "tərs, pis xasiyyətli adam" mənalarında qeydə alınmışdır.

Sədəmə. "Zərər" mənasında Naxçıvan dialekt və şivələrində işlənir: – Dedim, ay bala, işin yoxdu, axırda sədəməsi sənə dəyər (Babək). Naxçıvana aid folklor mətnlərində də bu sözə tez-tez rast gəlirik: – Həftənin birinci günü ağac kəsmək günahdır, deyillər ki, həmin gün ağacların ruhu ziyarətə gedər. Kim o gün ağac kəssə ağacın ziyarətdən qayıdan ruhu hansı bir günsə ona sədəmə vırar. – Hər bir evin əyəsi var. Ər əyəsi gözə görsənməz. Ona görə əvə girəndə gərəh bı evin əyəsinə salam verəsən. Yoxsa sənə də, əvə də sədəmə toxundurar.

Sədəmə ərəb dilindən dialektin lüğət tərkibinə daxil olmuşdur, mənası "1. çarpma, toxunma, toqquşma"; 2. "qəflətən baş verən bəla" deməkdir ki, Naxçıvan dialekt və şivələrində bu söz ikinci mənasında işlənir. Eyni zamanda bölgədə bu leksik vahidlə bağlı sədəməsin üstünə tökmək frazeoloji birləşməsi də işlənir. Azərbaycan dilinin Cəbrayıl şivələrində sədəmə "yemək adı" [1, s. 479] mənasında işlənir. Naxçıvandakı mənasında isə bu söz Azərbaycan dilinin Qax şivələrində eyni fonetik variantda, Meğri şivələrində isə sədəmə//sadama variantında [1, s. 467; 480] qeydə alınmışdır.

Taqqulbab. Naxçıvan dialekti və şivələrində bəzi alınma sözlər də vardır ki, onların əsl mənası bu gün bizim üçün aydın deyil, onları biz ancaq lüğət vasitəsilə müəyyənləşdirə bilirik. Təsadüfi deyil ki, professor T.Hacıyev dialekt və şivələrimizdə işlənən sayca az da olsa, bu cür sözlər haqqında yazır: "Bu gün bizim Şimal türkcəmiz üçün anlaşılmaz olan bəzi ərəb-fars mənşəli sözlər İranda Cənub türkcəmizdə və İraqda Kərkük azəricəsində danışanlara aydın leksik vahidlərdir. Çünki bu coğrafiyalardakı soydaşlarımız farsların və ərəblərin əhatəsindədirlər və onlarla gündəlik ünsiyyətdədirlər. Təbii ki, bir qədər keçmişə, dilimizin ərəb və fars dili ilə daha sıx ünsiyyətdə olduğu, həmin dillərin dilimizə təsirinin güclü olduğu dövrlərə getdikcə bu anlaşma daha artıq olur. Müvafiq olaraq, deyək ki, bu gün Azərbaycan Respublikasında işlətdiyimiz rus sözlərini və ruscanın fonetika və morfologiyası ilə aldığımız Avropa sözlərini həmin coğrafiyalardakı soydaşlarımız bizim kimi anlaya bilmirlər" [10, s. 4]. Taqqulbab sözü də məhz belə sözlərdən biridi. Məlumdur ki, dilin yaranması haqqındakı nəzəriyyələrdən biri də səslərin təqlidi nəzəriyyəsidir. Bu nəzəriyyəyə əsasən dil müxtəlif heyvan, quş, təbiət hadisələrinin, cansız əşyaların səslərinin təqlid edilməsi ilə yaranmışdır. Məhz buna görə də

dilimizdə səslərin təqlidi ilə yaranan çoxlu sayda sözlər vardır ki, belə sözlərdən biri də taqqulbab sözüdür. Bu söz Ordubad dialektində "qapının toxmağı" mənasında işlənir: – Taqqulbab köhnə qapılərdə ən çox olardı (Tivi). – Üşəxlər oqqədə qapini döyəşdiyiplər ki, taqqulbab tüşüp (Aza). Məlumdur ki, qədimdən, o cümlədən elə indi də həyət qapıların üstündə onu döymək, taqqıldatmaq üçün iri dəmir, çox vaxt isə çuqundan toxmaq olardı. Bu toxmaq müasir qapı zəngini əvəz edirdi. Onu qapıya vurmaqla alınan taqqıltı ev sahibinə kiminsə gəldiyini və qapını açmaq lazım olduğunu xəbər verir. Fikrimizcə, bu söz də həmin səsin təqlidi yolu ilə yaranmışdır. Mənşəcə ərəb dilinə aid olan bu leksik vahid həmin dildə dəqqülbab formasında "qapını döymə, vurma" deməkdir [7, s. 141]. Müəyyən fonetik əvəzlənmələrlə sözün dialekt variantı alındığı dildən bir qədər fərqlidir. Belə ki, burada həm samit səslərin d>t, həm də sait səslərin ə>a, ü>u əvəzlənməsi baş vermişdir. ə>a hadisəsinə sözün müxtəlif yerlərində və bir çox hallarda ərəb, fars mənşəli sözlərdə rast gəlmək olar. Belə ki, bu zaman alınma sözlər ahəng qanununa tabe olunaraq tələffüz edilir: imarat<imarət, lala<lalə, bafa<vəfa və s. Bu hadisə söz köklərindən başqa şəkilçilərdə də, əsasən, Ordubad dialektində və Culfa rayonunun bəzi kəndlərində özünü göstərir: gəlmax<gəlmək, işdiyacax<işləyəcək, qəyidax<qayıdaq və s. Eyni hal Cənubi Azərbaycanda da müşahidə olunur. E.Əzizov yazır: Azərbaycan dili şivələrində saitlər ahənginin pozulmasında özünü göstərən meyllərdən biri incə saitlərdən sonra qalın saitlərin gəlməsidir. Cənub ləhcəsinə xas olan bu xüsusiyyəti "Kitabi-Dədə Qorqud" və "Dastani-Əhməd Hərami"nin dilində də görürük: Hə yirdə isə od pinhan dögüldür, Bular gizlənməgə imkan dögüldür [8, s. 167].

ü>u əvəzlənməsi isə Naxçıvan dialekt və şivələrində o qədər geniş yayılmasa da, Ordubad rayonu şivələri üçün xarakterik hal hesab edilə bilər: üc<uc, Müxdər<Muxtar.

Haqqında tək-tək danışdığımız leksik vahidlər Naxçıvan dialekt və şivələrində olan ərəb sözlərinin yalnız bir qismidir. Lakin toplanmış dialektoloji materiallar göstərir ki, şivələrdə bu cür sözlərin sayı kifayət qədərdir. Küşdü "güləş", eytoba (ərəbcədə ət-tövbə) "tövbə etmə", küflə//kiflə (ərəbcə külbə) "təndirin alt hissəsində hava çıxmaq üçün qoyulan dəlik", anqərib (ərəb dilində ənqərib) "qəfildən, anidən", miyanpur "içərisinə qoz doldurulmuş meyvə qurusu, alana", təkyə "qadınlar tərəfindən təşkil olunan dini mərasim, mərsiyə" kimi sözlər də ərəb dilindən dialektin tərkibinə keçən leksik vahidlərdəndir.

Araşdırmalar göstərir ki, Naxçıvan dialekt və şivələrinin lüğət tərkibində də Azərbaycan dilinin digər dialekt və şivələrində olduğu kimi alınma sözlər vardır. Bu sözlərin şivələrdə işlənməsi kütləvi şəkildə daxil olaraq onun leksikasına zərərli təsir göstərməyən təqdirdə olduqca təbii, qanunauyğun bir prosesdir. Onların öyrənilməsi isə dil tarixini, o cümlədən xalqın tarixi əlaqələrini öyrənmək baxımından da çox faydalıdır.

ƏDƏBİYYAT

1. Azərbaycan dilinin dialektoloji lüğəti. İki cilddə. Ankara: Kılıçaslan Matbaacılık, 1999, 661 s.
2. Abdullayev B. Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb və fars sözləri lüğəti: 2 cilddə, I c. Bakı: Şərq-Qərb, 2005, 416 s.
3. Anadolu illeri ağızlarından derlemeler. TDK yayınları, Ankara, 1995, 288 s.
4. Bayramov İ. Qərbi Azərbaycan şivələrinin leksikası (dərs vəsaiti). Bakı: Elm və təhsil, 2011, 440 s.
5. Əhmədov B. Azərbaycan dili şivələrində söz yaradıcılığı. Bakı: APİ, 1987, 79 s.
6. Əhmədov B. Etimologiya lüğəti (araşdırmalar, mülahizələr). Bakı: Altun kitab, 2015, 288 s.

7. Ərəb-fars sözləri lüğəti. Bakı: Elm, 1966, 1036 s.
8. Əzizov E. Azərbaycan dilinin tarixi dialektologiyası. Bakı: Bakı Universiteti nəşriyyatı, 1999, 354 s.
9. Füzuli M. Əsərləri. 6 cilddə, I c. Bakı: Şərq-Qərb, 2005, 400 s.
10. Hacıyev T.M. Füzulinin lüğət tərkibi // AMEA Nəsimi adına Dilçilik İnstitutu "Tədqiqlər", 2008, № 1, s. 3-11.
11. Хауген Э. Процесс заимствования // Новое в лингвистике, вып. 6, Москва, 1972, с. 61-80.
12. Nəsimi İ. Seçilmiş əsərləri: 2 cilddə, I c. Bakı: Lider, 2004, 336 s.
13. Oğuznamə. Tərtib edəni S.Əlizadə. Bakı: Şərq-Qərb, 2006, 216 s.
14. Vəliyeva G. Şərqi Abşeron sivələrinin leksikası. Bakı: Elm, 2001, 167 s.

Нурай Алиева

СЛОВА, ПЕРЕШЕДШИЕ В ЛЕКСИКОН НАХЧЫВАНСКИХ ДИАЛЕКТОВ И ГОВОРОВ ИЗ АРАБСКОГО ЯЗЫКА

В статье показывается, что сильное влияние арабского языка за долгие годы оставило след в словарном составе диалектов и наречий, из арабского языка были заимствованы многие слова. Большинство из этих слов являются лексемами, связанными с исламской религией. Основной особенностью слов арабского и персидского происхождения, вошедших в словарный состав наших диалектов и говоров, в том числе и в Нахчыванский диалект, является то, что они смешались с нашими словами, приспособились к нашим правилам произношения и получили гражданство в нашем языке. Порой бывает очень сложно отличить их от наших национальных слов. Словарный состав диалектов и говоров в отличие от литературного языка является более консервативным. Поэтому здесь заимствованных слов в сравнении с литературным языком очень мало.

Ключевые слова: *диалекты и говоры, лексикон, слова, заимствованные из других языков, арабизмы.*

Nuray Aliyeva

WORDS BORROWED FROM THE ARABIC LANGUAGE IN THE LEXICON OF NAKHCHIVAN DIALECTS AND ACCENTS

The article shows that the strong influence of the Arabic language for many years left traces on the vocabulary of dialects and dialects, from the Arabic language many words were borrowed here. Most of these words are lexemes associated with the Islamic religion. The main qualities included in the vocabulary of our dialects and dialects, including the Nakhchivan dialect of words of Arabic and Persian origin, is that they mingled with our words, adapted to our rules of pronunciation and acquired citizenship in our language. Sometimes it is very difficult to distinguish them from our national words. The vocabulary of dialects and dialects, in contrast to the literary language, is more conservative. Therefore, here borrowed words in comparison with the literary language is very small.

Keywords: *dialect and accent, lexicon, words from other languages, arabisms.*

(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2018, № 1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2018, № 1

PROCEEDINGS OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES NAKHCHIVAN BRANCH OFFICE
The series of social sciences and humanities, 2018, № 1

LEYLA SƏFƏROVA
AMEA Naxçıvan Bölməsi
E-mail: leyla-or@mail.ru

AZƏRBAYCAN DİLİNİN CULFA ŞİVƏLƏRİNDƏ AÇIQ VƏ QAPALI SAİT ƏVƏZLƏNMƏLƏRİ

Məqalədə Azərbaycan dilinin Culfa şivələrində ağız boşluğunun vəziyyətinə görə sait əvəzlənmələrindən bəhs olunur. Tədqiqat zamanı aydın olur ki, dilimizin digər dialekt və şivələrində olduğu kimi, Culfa şivələrində də açıq və qapalı saitlərin əvəzlənməsi hadisəsi baş verir. Gətirilmiş tarixi faktlar və müqayisələr əsasında bu fonetik əvəzlənmələrin öyrənilməsi dilimizin keçdiyi tarixi inkişaf yolunun müəyyənləşdirilməsində mühüm əhəmiyyətə malikdir.

Açar sözlər: *açıq sait, qapalı sait, Culfa şivələri, fonetik hadisə, sait əvəzlənməsi.*

Nitq zamanı səslər ilə əlaqəyə girərək bir-birinə təsir edir və müəyyən dəyişikliklərə məruz qalır. Nitq prosesində danışıq səslərinin fizioloji və akustik keyfiyyətlərində baş verən dəyişikliklər fonetik hadisələr, bu hadisələrin əmələ gətirdiyi nəticələr isə fonetik əvəzlənmələr adlanır. Fonetik hadisələr özünü daha çox dilimizin dialekt və şivələrində büruzə verir. Azərbaycan dilinin Culfa şivələrində ağız boşluğunun vəziyyətinə görə saitlər a) açıq b) qapalı c) orta sıra saitlərinə bölünür. Bu şivələrdə açıq və qapalı saitlərin bir-birini əvəzləməsi, eləcə də açıq və qapalı saitlərlə orta sıra saitinin əvəzlənməsi müşahidə olunmaqdadır.

Culfa şivələrindəki açıq saitləri *a, ə, o, ö* şəklində təsnif etmək mümkündür. Dilimizin digər dialekt və şivələrində olduğu kimi bu şivələrdə də açıq saitlərin qapalı saitlərlə əvəzlənməsi hadisəsi baş verir.

a>ı. *a* saitinin *ı* saiti ilə əvəzlənməsi hadisəsinə, əsasən, dilimizin qərb qrupu dialekt və şivələrində rast gəlinir. Culfa şivələrində söz köklərində *a>ı* əvəzlənməsinə az rast gəlinir: *manıt, sırmaşmax*. Bəhs etdiyimiz şivələrdə bu tip əvəzlənmə ən çox şəkilçilərdə müşahidə olunur. Saitlə bitən sözlərə *y* ilə başlayan şəkilçi artırdıqda onun təsirindən *a* açıq saiti *ı* qapalı saitinə aşağıdakı hallarda keçir:

1) ilk hecasında *a* saiti olan və sonu *a* saiti ilə bitən sözlərə yönlük hal şəkilçisi artırdıqda: *arabıya, atıya, anıya, yarıya, talıya;*

2) ilk hecasında *a* saiti olan və sonu *a* saiti ilə bitən sözlərə indiki zaman şəkilçiləri artırdıqda: *yamıyır, yarıyır, talıyıllar, ağlıyır, arıyırıq, qalıyıllar, caltıyıram;*

3) feilin arzu və əmr şəkillərinin şəkilçilərini artıranda: *başdıyax, addıyam, danmıya.*

a saitinin *ı* saitinə keçməsi hadisəsinə Meğri şivələrində də rast gəlinir: *yıxa, çıllxalamax, əjdahı, xılta, tapbıcı<tapmaca* [5, s. 93].

Professor Şirəliyev qeyd edir ki, *a>ı* əvəzlənməsi Azərbaycan dili ilə yakut, tuva, və çuvaş dillərinin müqayisəsində də müşahidə olunur: *xırın<qarın, kılın<qalın (tuva), ıy<ay, ıl<al (yakut), sıxla, pıl<bal, tımar<damar (çuvaş)* [12, s. 48].

a saitinin *ı* saiti ilə əvəzlənməsi İraq-türkman ləhcəsində çox işlənən fonetik hadisədir. Söz köklərində az hallarda rast gəlinsə də, şəkilçilərdə *y* samiti qarşısında məhsul-

dar işlənən əvəzlənmədir: *başlıyım, ağlıyanda, bağlıyanda, oyniya-oyniya, qutar<qatar, sımavar<samovar*

a>ı hadisəsini Türkiyə türkcəsinin dialekt və şivələrində də görmək mümkündür: *kındol<kandil, hıraba<harabe* [4, s. 10], *orayı<oraya, uzatmıyalım<uzatmayalım, atırdı<atardı, bakıcaz* [8, s. 32].

ə>i. *ə* səsinin *i* səsi ilə əvəzlənməsi Culfa şivələrindəki söz köklərində o qədər də geniş yayılmamış fonetik hadisədir: *şikil, zincir, qədir, şimix'<şənlik, çimənmix'<çəmənlik*

Bu fonetik hadisə, əsasən, *ə* səsi ilə bitən sözlərə *y* səsi ilə başlanan şəkilçi qoşulduqda onun təsiri nəticəsində aşağıdakı hallarda baş verir:

1) ilk hecasında *ə* və *e* saitləri olan və *ə* səsi ilə bitən sözlərə yönlük hal şəkilçisi qoşulduqda: *nəniyə, dəviyə, dəriyə, pərdiyə, meşiyə, geciyə, neçiyə;*

2) bəzi feillərə indiki və gələcək zamanın şəxs şəkilçiləri artırıldıqda: *işdiyir, isdiyirəm, səsdiyillər.*

ə>i fonetik əvəzlənməsi Meğri şivələrində də müşahidə olunur: *cinaza, ikiz, xiyal, incir.*

Qeyd etmək lazımdır ki, *ə>i* hadisəsinə Azərbaycan dili ilə tatar, başqırd və xakas dillərini müqayisə etdikdə də rast gələ bilirik. Belə ki, Azərbaycan dilində sözün birinci hecasında olan *ə* səsinə tatar, başqırd və xakas dillərində *i* səsi uyğun gəlir: *kis<kəs, kil<gəl (tatar), tir<tər, siqiz<səkkiz (xakas), hiqez<səkkiz, tir<tər (başqırd)* [12, s. 50].

ə səsinin *i* səsi ilə əvəzlənməsi hadisəsi İraq-türkman ləhcəsində sözün ortasında müşahidə olunur: *kinar, siyahət, firyad, fiqan, yasimin.*

Türk ədəbi dilində *ə* səsi olmasa da, dialektlərdə *ə* saitinə bəzən *e* səsi uyğun gəlir. Bu halda *ə>i* əvəzlənməsi uyğun gəlir: *şinnik<şennik, çişme<çeşme* [11, s. 17], *söylicem, pencire* [3, s. 32], *iziyetler<eziyetler, niyimiz<neyimiz* [8, s. 32], *istiyeceğam* [4, s. 10].

ə>ü. *ə* saitinin *ü* saitinə keçməsi hadisəsi söz köklərində, əsasən, şərq qrupu dialekt və şivələrində müşahidə olunur: *düvə // düə* (B.–Cor., Güz., Q.–Alp), *çüpər* (Q.–Nüg), *köynük* (Qax–Alm) və s. Qərb qrupu dialekt və şivələrində isə (xüsusən Qazax dialektində) bu hadisə *y* səsinin təsiri altında şəkilçilərdə (yönlük və təsirlik hallarda) meydana gəlir: *küçüyə, küçüyü<küçəni* (Qaz.), *cücüyə* (Qaz., Qar.) [12, s. 51].

Bu fonetik əvəzlənmə söz köklərində və şəkilçilərdə özünü daha çox şərq qrupu dialekt və şivələrində göstərir. Culfa şivələrində söz köklərində rast gəlinməməsinə baxmayaraq, *y* səsinin təsiri altında şəkilçilərdə (yönlük halda) müşahidə olunur: *cücüyə< cücəyə, küçüyə<küçəyə, nüvüyə<nüvəyə, çöçüyə<kökəyə, ölküyə<ölkəyə, büzmüyə< büzməyə*

ə>ü hadisəsinin Təbriz dialektində *əzülə<əzələ, müsülman<müsəlman* kimi sözlərdə şahidi oluruq.

o>u. *o* saitinin *u* saiti ilə əvəzlənməsi qıpçaq qrupu türk dillərinin xüsusiyyətlərini özündə daha çox əks etdirən Azərbaycan dilinin şivələri üçün səciyyəvidir. *u* saitinin variasiyalarının *o* saitini əvəzləməsi fonetik hadisəsi Culfa şivələrində də müşahidə olunmaqdadır və hətta demək olar ki, xarakterikdir: *unu<onu, unnar<onnar<onlar, umbir< on bir, umbeş<on beş, faytun, papruz<papiros, doxdur<doktor, balqun<balkon, baldun<palto*

o>u hadisəsi Meğri şivələrində, xüsusən Nüvədi kənd şivəsində çox geniş yayılmışdır. Qeyd etmək lazımdır ki, Nüvədi şivəsində ədəbi dildə mövcud olan *o* saitinə təsadüf olunmur, onun yerində *u* və *a* fonemləri, qismən də *ö* və digər səslər işlənir: *urax, utax, uğıl, utız, quyın, muxu*

o saitinin *u* saitinə keçməsi İraq-türkman ləhcəsində də müşahidə olunur: *buğça<buxça, luqma<loxma, sura<sonra, un<on, buğaz* [7, s. 60]

o>u əvəzlənməsinə Türkiyə türkcəsinin bəzi şivələrində də rast gəlinir. Ədirnə şivələri üçün ən xarakterik hadisələrdən biri məhz *o>u* hadisəsidir ki, söz köklərində, şəkilçilərdə və eləcə də alınma sözlərdə çox sıx müşahidə olunur: *suvan<soğan, bu:lan< boğulan, kumşuluk<komşuluk, kumutan<komutan, koyuyu<koyoyor, anlatıyum<anlatıyorum, paltusu<paltosu, moturla<motorla* və s. Ədirnənin Pomak şivəsində isə demək olar ki, *o* səsi yox dərəcəsindədir: *uyun<oyun, utur<otur, yuldum<yoldum, ukul<okul, kuyarlar<koyarlar və s.* [8, s. 33-34] Ədirnə ilə yanaşı bəzi şivələrdə də bu hal müşahidə olunur: *unu<onu, guyduk* [3, s. 33], *huca<hoca, uynat<oynat, ulı<oğlı* [11, s. 17].

Professor Şirəliyev qeyd edir ki, *o* səsinin *u* səsi ilə əvəzlənməsi hadisəsini başqırd və tatar dilləri ilə başqa türk dillərini müqayisə etdikdə sözün ilk hecasında aydın görə bilərik: *ul, kul, yul (başqırd), tuqız (tatar)* [12, s. 51].

o saitinin *u* saiti ilə əvəzlənməsi hadisəsinə Təbriz dialektində *xurus<xoruz, faytun* kimi sözlərdə təsadüf olunur.

o>ı. *o* saitinin *ı* saiti ilə əvəzlənməsi hadisəsi Culfa şivələrində, əsasən, alınma sözlərdə təsadüf olunur və məhdud işlənir: *traxdır, paprız<papiros, badnıs<padnos.*

o>ı dəyişməsi Türkiyə türkcəsinin Osmaniyə Tatar şivələrində də rast gəlinir: *sır< sor, sıra<sonra, kıy<koy, sıfra<sofra və s.*

Culfa şivələrindəki qapalı saitləri *ı, i, u, ü* kimi təsnif etmək olar. Açıq saitlərin qapalı saitlərlə əvəzlənməsi hadisəsi ilə yanaşı, Culfa şivələrində qapalı saitlərin açıq saitlərlə əvəzlənməsi hadisəsi də baş verir.

ı>a. *ı* səsinin *a* səsi və onun variasiyaları ilə əvəzlənməsi dialekt və şivələrimizdə bir o qədər də geniş yayılmamışdır. Professor Şirəliyev qeyd edir ki, bu hadisəyə çox vaxt sözün son hecasında təsadüf olunur. Bu hadisəni doğuran səbəb tam irəli və geri assimilyasiyadır. Belə ki, *a* səsi özündən sonra və ya əvvəl gələn *ı* səsini də özünə oxşatmışdır [12, s. 53]. Culfa şivələrində də belə nümunələrə rast gəlinir: *aşağa, kağaz, siyaha, ahal, sayaxlamax, cahal, sayax, çaxartdı, zaha*

ı>a hadisəsinə Meğri şivələrindəki bir neçə sözdə rast gəlinir: *aşağa, kağaz, dalqır* [5, s. 96].

ı səsinin *a* səsi ilə əvəzlənməsi Azərbaycan dili dialekt və şivələrində olduğu kimi, İraq-türkman ləhcəsində də az yayılmış fonetik əvəzlənmələrdəndir: *qaşamax, aşağa, xarman, fırtana, ahaldamax* [7, s. 61].

ı>a əvəzlənməsinə Təbriz dialektində *boğarsax<bağırsaq, kağaz* sözlərində rast gəlinir.

i>ə. *i* səsinin *ə* səsinə keçməsi hadisəsi Culfa şivələrində məhdud sayda sözlərdə müşahidə olunur: *həmişə<həmmişə<həmişə, həmən, yə:si<yiyəsi və s.*

i>ə əvəzlənməsi Meğri şivələri üçün bir o qədər də səciyyəvi deyildir: *əyanə< ianə, əyə<yiyə, ənnab, layəx<layiq.*

u>o. *u* saitinin *o* saiti ilə əvəzlənməsi hadisəsi Azərbaycan dilinin şərq qrupu dialekt və şivələri üçün xarakterik olsa da, qərb, cənub, şərq şivələrində, eləcə də Culfa şivələrində məhdud sayda sözlərdə təsadüf olunur: *oddum, oduzdu.*

Qeyd etmək lazımdır ki, bu əvəzlənmə oğuz dil qrupunun ünsürləridir. Azərbaycan dili oğuz və qıpçaq dilləri ailəsi əsasında oğuz ünsürlərinin üstünlüyü ilə formalaşmış bir dildir. Formalaşmış ümumxalq dili və eləcə də onun dialekt və şivələri əvvəlki qəbilə və tayfa dillərinin xüsusiyyətlərini özündə uzun müddət əks etdirir.

u saitinin *o* saitinə keçməsi Meğrinin bəzi kəndləri üçün səciyyəvidir: *qomral, qorum, podra, potqa, boğda, qolbağa<qurbağa.*

Dialektologiyaya dair yazılmış bir sıra mənbələrdə saitlərin ağız boşluğunun vəziyyətinə görə təsnifindən bəhs edərkən müəlliflər *e* saiti haqqında müxtəlif mövqelərdən çıxış edirlər. Belə ki, bəzən e saiti qapalı [12; 6; 5; 7], bəzən də açıq saitlərə aid edilir [2]. Ümumiyyətlə, Azərbaycan dilçiliyində *e* orta sıra saiti kimi qəbul edilmişdir. Ə.Dəmirçizadə bu barədə yazır: "Dilortası saitlərin əmələ gəlməsində dilin ön və orta hissəsi bütövlükdə damağa doğru qalxmış olur ki, belə vəziyyətdə ağız boşluğu təqribən iki bərabər hissəyə bölünür. Rezonansın bərabərləşməsi nəticəsində dilortası saitlər əmələ gəlir" [1, s. 47]. A.Axundov isə qeyd edir ki, *e* səsini tələffüz etmək üçün dilin ucu azca geri çəkilir və dil özü isə bir qədər qalxır. Dilin qalxma dərəcəsi *i* saitindəkindən xeyli aşağı, *ə* saitindən azca yuxarı olur. Hava axını nisbətən geniş arxa rezonatordan keçib, nisbətən dar ön rezonatorda özünəməxsus tembr kəsb edərək çıxır. Beləliklə, orta sıra, yarımaçıq, qeyri-gərgin, qısa *e* saiti əmələ gəlir və dodaqlar neytral olur [1, s. 47].

Bu baxımdan dilortası *e* saitinin açıq və qapalı sait əvəzlənməsi hadisələrində işlənmə hallarını ayrıca analiz etmək istərdik.

ə>e. *ə* saitinin *e* saiti ilə əvəzlənməsi hadisəsi, ümumiyyətlə, Azərbaycan dialekt və şivələrində çox sıx rastlanan fonetik hadisə deyil. Bu əvəzlənmə Culfa şivələrində də bir o qədər geniş yayılmamışdır. Lakin tək-tək sözlərdə, məsələn, Saltaq və Xanəgah kəndlərində işlədilən *serçə*, Ərəfsə, Milax və Xoşkeşin kəndlərində işlədilən *ekiz*, Xanəgah kəndində işlədilən *sefex'<səfeh*, Teyvaz kəndində işlədilən *yesir<əsir* sözləri bu əvəzlənməyə nümunə ola bilər. Eyni zamanda nə sual əvəzliyindən sonra *e* saiti ilə başlanan söz gələndə *ə* saiti *e* saitinə keçir: *neyniyim<nə eliyim, neynirsən<nə eliyirsən, neynədiz<nə elədiz<nə elədiniz*

ə saitinin *e* saiti ilə əvəzlənməsi Meğri şivələrində geniş yayılan fonetik hadisədir: *belgə, zeyif, pencərə, pencə, pillekən, döşex', sefex', əlcex', gəlecem, ikiceydi<ikicə idi.*

ə saitinin *e* saiti ilə əvəzlənməsi hadisəsinə ən çox şərq (daha çox Bakı dialektində) və şimal dialekt və şivələrində rast gəlmək mümkündür: *penceg, əleg, Mesmə* (B., Q.), *döşeg, kö:neg, erkeg* (B., Bş., Muğ.), *seksən, Peri* (Qax). Qazax dialektində sözün sonunda gələn *ə* səsi *y* səsinin təsiri altında *e* səsi ilə əvəz olunur: *dəveyi, beçeyi, nəveyi* [12, s. 50].

ə>e əvəzlənməsi İraq-türkman ləhcəsində çox da geniş yayılmamışdır: *elli, def, devə, dem* [7, s. 60].

i>e. *i* saitinin *e* saitinə keçməsi hadisəsi Culfa şivələrində bir neçə sözdə rast gəlinir: *hers, besavat, benamıs, Feyruz, verançt.*

i səsinin *e* səsi ilə əvəzlənməsinə Meğri şivələrində də təsadüf olunur: *veran, elxı, Elyas.*

i>e fonetik əvəzlənməsi Türkiyə türkcəsinin dialekt və şivələrində rast gəlinən hadisədir: *leymun<limon, polesler<polisler* [4, s. 10], *ehdiyar, nehayet, heç* [3, s. 33].

e>a. *e* səsinin *a* səsi ilə əvəzlənməsi Azərbaycan dilinin cənub şivələrində geniş yayılmış, xüsusilə Naxçıvan dialekt və şivələrində özünü ən çox göstərən fonetik hadisədir. Culfa şivələrində bu əvəzlənməyə, əsasən, *v, y, n, l* samitlərindən əvvəl rast gəlinir: *əv, nəfit, dəyil, həylə<heylə<elə, həvik<heyf, əvlənmax', pənir<pendir, gənə<yenə, çəvirdim, övəy<ögəy<ogey, səvinməx'<sevinmək.*

Ümumiyyətlə, Naxçıvan dialekt və şivələrini digər dialekt və şivələrimizdən fərqləndirən əsas xüsusiyyətlərdən biri kimi *e>ə* əvəzlənməsinin geniş tədqiqi əhəmiyyətlidir. Culfa şivələri üçün də xüsusilə xarakterik olan *e>ə* hadisəsi dilimizin tarixi baxımdan öyrənilməsində mühüm amillərdən biri kimi götürülə bilər.

Meğri şivələrini cənub qrupu, xüsusilə Naxçıvan qrupu dialekt və şivələri ilə birləşdirən səciyəvi fonetik hadisələrdən biri *e* səsinin *ə* səsi ilə əvəzlənməsi hadisəsidir: *dəyil, əv, əyip<eyib, çəçələ, vəj<vec, həybə, qəybat* [5, s. 97].

e>ə hadisəsi İraq-türkman ləhcəsində geniş yayılmış fonetik əvəzlənmədir: *əv, əynən<əyni, əllər, həsab, çəvir, həyvan, nəcə və s.* Azərbaycan dilinin cənub qrupu dialekt və şivələri üçün səciyyəvi olan bu əvəzlənmə kərküklərin dilini cənub qrupuna yaxınlaşdırır.

Bu tip əvəzlənməyə Şəhriyarın yaradıcılığında da rast gəlirik:

Xacasultan əmmə gedib Təbrizə,
Amma nə Təbriz ki, gəlmir bizə,
Balam, durun, qoyaq gedək əmmizə,... [9, s. 44]

e səsinin *ə* səsinə keçməsi hadisəsi zəif şəkildə də olsa, yazılı abidələrdə əks olunmuşdur:

Rixü zülfün bəyazilə səvdadır. (Nəsimi) [6, s. 41]
Müştəri olmadan satmalı dəgil. (Xətai) [6, s. 41]

e>ə fonetik hadisəsi türk dillərinin qədim tarixini özündə əks etdirir. Belə ki, A.M.Şerbak qeyd edir ki, qədim türk dillərində müasir türk dillərindəki *ö* və *e* səslərinə qarşı *ə* səsi olmuşdur ki, uyğur dilində həmin *ə* səsi eynilə mühafizə olunmuşdursa, Azərbaycan dilində bəzi sözlərdə *ə*, bəzilərində isə *e* işlənir [6, s. 41]. Buradan Azərbaycan dilinin, onun dialekt və şivələrinin, eləcə də nəzərə alsaq ki, *e>ə* əvəzlənməsi demək olar ki, Culfa şivələri üçün səciyyəvi cəhətlərdən biridir bu şivələrin tarixi köklərinin qədimliyini anlamaq mümkündür.

e>i. *e* saitinin *i* saiti ilə əvəzlənməsi hadisəsi şərq qrupu dialekt və şivələri üçün xarakterik olsa da, Culfa şivələrində bəzi sözlərdə bu fonetik hadisəyə rast gəlinir: *simet<sement, tiyatır<teatr*

e>i hadisəsi Meğri şivələrində də az təsadüf olunan əvəzlənmələrdəndir və əsasən alınma sözlərdə rast gəlinir: *rihan, piçat, midal.*

e>i hadisəsinə Zonquldak-Bartın-Karabük şivələrində – *söylicem, zati<zaten, pencire* (s.33), Osmaniyə Tatar şivələrində – *çirkez<çerkez, min<men, ni<ne* [11, s. 17], Diyarbəkir şivəsində – *gelmiyesen, getmiyecağam, ni* [4, s. 11], Ədirnə şivəsində – *çiyizde<çeyizde, Mirem<Meryem, biyenmemiş<beğenmemiş* [8, s. 32] rast gəlinir.

e saitinin *i* saiti ilə əvəzlənməsi Təbriz dialektinin səciyyəvi xüsusiyyətlərindəndir. Bu əvəzlənməyə sözün ortasında qapalı və açıq hecalarda *v, y, l, n, h, ş, t* samitlərindən əvvəl təsadüf olunur: *mivə<meyvə*, hiyvan, tilfun<telefon, ginə<yenə, təsbih, kişniş, bilit [10, s. 37].

e>i əvəzlənməsinin işlənmə tarixi qədimdir. V.V.Radlov bu hadisənin izlərinin kuman dilində də mövcud olduğunu qeyd etmişdir [10, s. 38].

Azərbaycan dilinin dialekt və şivələrində, o cümlədən Təbriz dialektində konkret şəraitdə baş verən e>i əvəzlənməsi qıpçaq tipli türk dillərində, xüsusilə başqırd, tatar dillərində və qaraçay balkar dilinin dialektlərində fəal mövqeyə malikdir: bir<ver, biş< beş, il<el [10, s. 38].

e>a. *e* saitinin *a* saiti ilə əvəzlənməsi dilimizin dialekt və şivələrində çox az hallarda rast gəlinən fonetik hadisələrdəndir. Professor Şirəliyev bu əvəzlənmənin səbəbini *a* və *ı* səslərinin təsiri nəticəsində yaranan geri assimilyasiya ilə izah edir [12, s. 53]. Ekspedisiyalar dövründə aparılan müşahidələr zamanı Culfa şivələrində bu fonetik dəyişmənin fonunda *ayıb* sözünə rast gəlmişik.

e>a hadisəsinə M.Şəhriyarın yaradıcılığında da sıx rast gəlmək olur:

Bir uçeydim bu çırpınan yelinən,
Bağlaşeydim dağdan aşan selinən.
Ağlaşeydim uzaq düşən elinən,
Bir göreydim ayrılığı kim saldı,... [9, s. 48]

Araşdırma və təhlillər nəticəsində Culfa şivələrində qapalı və açıq saitlərin dilortası *e* saitini əvəzləməsi, o cümlədən e saitinin açıq saitləri əvəzləməsi hallarının mövcud olduğunu aydın görmək mümkündür.

Ekspedisiya zamanı müşahidə etdiyimiz *şıx<şeyx* sözündəki əvəzlənmə maraq doğuran bir haldır. Düzdür, bu gün sözlərdə belə əvəzlənməyə rast gəlinmir, lakin Xanəgah kəndindəki Şeyx Xorasan Türbəsini el arasında, xüsusən də yerli camaatın *"şıx"* adlandırması tarixən bu bölgədə *e<ı* fonetik əvəzlənməsinin mövcudluğuna işarə edir.

Bütün bu təhlillərdən aydın olur ki, dialekt və şivələrimizin öyrənilməsi, onların fonetik xüsusiyyətlərinin tədqiqi dilimizin qədim tarixi köklərinin araşdırılmasında mühüm əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT

1. Axundov A.A. Azərbaycan dilinin fonetikası. Bakı: Maarif, 1984, 392 s.
2. Bayramov İ.M. Azərbaycan dili şivələrinin fonetikası. Bakı: Elm və təhsil, 2016, 252 s.
3. Eren E. Zonguldak-Bartın-Karabük illeri ağızları. Ankara: Yükseköğretim Kurulu Matbaası, 1997, 196 s.
4. Erten M. Diyarbakır ağzı. Ankara: Semih Ofset Matbaacılık Yayıncılık ve Ambalaj Sanayi Ltd. Şti, 1994, 175 s.
5. Əliyev Ə.İ. Azərbaycan dilinin Meğri şivələri. Bakı: Elm, 2003, 580 s.
6. Əliyeva N.Y. Azərbaycan dilinin Şahbuz şivələri. Bakı: Elm və təhsil, 2012, 192 s.
7. İraq-türkman ləhcəsi. Bakı: Elm, 2004, 422 s.
8. Kalay E. Edirne ili ağızları. Ankara: Yükseköğretim Kurulu Matbaası, 1998, 268 s.
9. Məhəmmədhüseyn Ş. Seçilmiş əsərləri. Bakı: Avrasiya Press, 2005, 480 s.
10. Məmmədli M.Ə. Azərbaycan dilinin Təbriz dialekti. Bakı: Məmmədli, 2008, 237 s.
11. Özkan F. Osmaniye Tatar ağızları. Ankara: Yükseköğretim Kurulu Matbaası, 1997, 152 s.
12. Şirəliyev M.Ş. Azərbaycan dialektologiyasının əsasları. Bakı: Şərq-Qərb, 2008, 416 s.

Лейла Сафарова

СМЕЩЕНИЕ ОТКРЫТЫХ И ЗАКРЫТЫХ ГЛАСНЫХ В ДЖУЛЬФИНСКИХ НАРЕЧИЯХ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА

В статье рассказывается о смещении гласных в зависимости от положения ротовой полости. В результате исследования становится ясно, что, как и в других диалектах и наречиях нашего языка, в джульфинских наречиях также происходит явление смещения открытых и закрытых гласных. Изучение такого фонетического смещения на основе исторических фактов и сравнений играет важную роль в определении пути исторического развития нашего языка.

Ключевые слова: *открытый гласный, закрытый гласный, джульфинские наречия, фонетическое явление, смещение гласных.*

Leyla Safarova

OPEN AND CLOSED VOWEL GRADATIONS IN JULFA ACCENTS OF THE AZERBAIJANIAN LANGUAGE

Vowel gradations according to mouth cavity in Julfa accents of the Azerbaijanian language are dealt with in the paper. While researching it becomes clear that as in other dialects and accents of our language the gradation phenomenon of open and closed vowels occurs in Julfa accents as well. Studying these phonetic phenomenon on the base of the mentioned facts and comparisons attain a vital importance in determining the historical development path of our language.

Keywords: *open vowel, closed vowel, Julfa accents, phonetic phenomenon, vowel gradation.*

(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2018, № 1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2018, № 1

PROCEEDINGS OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES NAKHCHIVAN BRANCH OFFICE
The series of social sciences and humanities, 2018, № 1

KÜBRA VƏLİYEVA
AMEA Naxçıvan Bölməsi
E-mail: kubraveliyeva01@gmail.com

ƏRƏB DİLİ VƏ ONUN DÜNYA DİLLƏRİ İÇƏRİSİNDƏ YERİ

Söz ehtiyatının genişliyi cəhətdən dünyanın zəngin dillərindən hesab edilən ərəb dili böyük mədəniyyətlər və imperatorluqlar yaradan dillərin başında gəlir. Günümüzdə 60 ölkədə və dünya miqyasında ən çox danışılan 5-ci dildir. 22 ərəb ölkəsinin rəsmi dövlət dili olan ərəb dili, eyni zamanda bütün müsəlmanların ortaq ibadət dilidir.

Məqalədə ərəb dilinin yaranma tarixindən, dialekt və şivələrindən və eyni zamanda qrammatik və fonetik quruluşundan bəhs edilir.

Açar sözlər: *ərəb dili, ərəb ölkələri, əlifba, yazı, dialekt, qrammatika.*

Sami-Hami dillər ailəsini bir-birindən seçən iki dil qrupu təşkil edir: sami dillər qrupu, hami dillər qrupu. Sami-Hami dil ailəsi 375 dildən ibarət bir dil ailəsidir. Sami dillər qrupuna ərəb, amxar, yəhudi (ivrit) və s. dillər daxildir. Hami dillər qrupuna Şimali Afrikadakı berber qrupu xalqlarının dilləri və Həbəşistandakı kuşit qrupu xalqlarının dilləri daxildir. Kuşit dilləri yarımqrupuna afar, saxo, aqau, bedauye, somali, sidama və başqa dillər daxildir. Sami-Hami dilləri ailəsinə məxsus olan ölü dillər isə uqarit, aramey, finikiya, kopt, qədim yəhudi dili, qədim misir dili, akkad (asori və babil ləhcələri) dilləridir. Müasir elm sami və hami dillər arasındakı çoxəsrlik yaxınlığı nəzərə alaraq onları bir qrupda (Sami-hami dillər) birləşdirir [7, s. 525-526]. Sami adı Nuh peyğəmbərin (a.s) oğlu Samdan qaynaqlanır. Sami yazısının ilk nümunələri e.ə. II əsrə aiddir. Sami-Hami dillər ailəsinin geniş bölümünü yəhudi (ivrit) və ərəb dilləri tutur [11].

Sami dilləri ailəsindən günümüzə qədər sağ qalan müasir dillərindən biri də ərəb dilidir. Ərəb dili (اللغة العربية al-luğatu l-'arabiyyə, ya da sadəcə عربي, 'arabi) – Sami cənub qrupunun şimal bölməsinə mənsubdur. O tarixən üç inkişaf mərhələsi keçmişdir: qədim (V əsrədək), klassik (V – XVIII) və müasir (XIX əsrdən indiyədək) ərəb dili kimi təmsil edilmişdir. Qədim ərəblər haqqında ilk yazılı məlumata hələ eramızdan əvvəl Assuriya şahı Sarqonun (715-ci il) kitabəsində təsadüf edilmişdir. Qədim ərəb dili əsasən Suriya ərazisində tapılmış Lihyan (eramızdan əvvəl 3-cü əsr), əs-Səfa (təxminən 106-cı il), Ən-Həmarə (328-ci il), Zəbəd (512-ci il), Hərran (568-ci il) və sair kitabələrdə əks olunmuşdur. Bu dil qohum dillərdən uzun ömrü, geniş yayılması, fonetik qrammatik və leksik xüsusiyyətlərini bugünədək qoruyub saxlaması ilə fərqlənir [8, s. 7]. Bu fərqliliyin əsas istiqamətlərindən biri daha geniş bölgələrdə yayılmasıdır. Belə ki, hazırda dünyada 350 milyon insanın ana dili olan müasir ərəb dili, bir milyarddan artıq müsəlmanın ibadət dili olmasından əlavə Misir, Suriya, İraq, Livan, İordaniya, Səudiyyə Ərəbistanı, Yəmən, Liviya, Tunis, Mərakeş, Sudan, Küveyt, Əlcəzair, Qatar, Bəhreyin, Oman, Birləşmiş Ərəb Əmirlikləri, Mavritaniya, Somali, Cibuti Respublikası, Fələstin və s. ərəb ölkələrinin rəsmi dövlət dilidir. Ərəb dilinin dünyadakı önəmi və rolunun böyüklüyünə

görə BMT təşkilatı 1974-cü ildə ərəb dilini altıncı rəsmi dil olaraq qəbul etmişdir. *Standart Ərəb dili* kimi qəbul edilən bu dil (العربية الفصحى) Əl-Arabiyya əl-fushâ (fasih, düzgün ərəbcə) olaraq ifadə edilir. Ərəb dilində 28 samitin və müxtəlif saitlərin olmasına baxmayaraq, onun əlifbasında yalnız 28 hərf vardır. Qısa saitlər və habelə həmzə samiti əlifbada təmsil edilməmişdir. Zəngin samit sisteminə malik əlifbada müxtəlif vəzifələr daşıyan hərflər də vardır. Qısa saitləri göstərən hərflər olmadığına görə yazıda sözlərin yalnız samitlərdən və uzun saitlərdən ibarət skeleti əks etdirilir. Yazını düzgün oxumaq (oxunuları sözə lazımi qısa saitlər artırmaq, bu və ya digər hərfin qoşa samit bildirdiyini təyin etmək və sair) üçün müvafiq qrammatik və leksik qaydaları qabaqcadan, həm də praktik şəkildə bilmək lazımdır [8, s. 9].

Ərəb hərfləri əsasən sağdan sola yazılır və oxunur. Bu istiqamətə uyğun olaraq kitab, məcmuə və qəzetdə sağdan sola tərtib olunur və səhifələnir. Bununla belə ərəb hərfləri üfüqi, şaquli, maili, dairəvi və sair həndəsi şəkillərdə olduğu üçün bəzən (xüsusən hərflərin birləşməyən şəkillərində) sağdan sola deyil, yuxarıdan aşağıya və ya soldan sağa da yazılır.

Latın və rus hərflərindən fərqli olaraq ərəb hərfləri təkcə əlyazmasında deyil, çapda da bir-birilə bitişdirici xətlər vasitəsilə birləşdirilir. Belə birləşmə nəticəsində hərflərin ilkin yazılışı (qrafikası) çox vaxt ciddi dəyişikliklərə uğradığı üçün hər hərf həqiqətdə müxtəlif şəkillərdə təzahür edir ki, bunlar əlifba cədvəlində, birləşməyən, soldan birləşən, sağdan və soldan birləşən və sağdan birləşən adları altında qruplaşdırılır.

Ərəb hərflərinin altısının (ا, د, ذ, ر, ز, و) iki, qalanlarının isə dörd yazılış şəkli vardır. İkişəkilli hərflər soldan birləşmədikləri üçün II və III şəkilləri yoxdur. Ərəb əlifbasında böyük hərflər yoxdur. Ümumi adlardan fərqləndirmək üçün xüsusi isimləri bəzən dırnaq və ya mötərizə içərisində yazırlar. Hərf birləşməsində hərflərin qrafikası dəyişdiyi üçün ərəb əlifbasında sözün hissələri bir sətirdən digərinə keçirilə bilməz: sətrin sonuna sığmayan söz bütünlüklə sonrakı sətrə keçirilir, sətrin sonunda qalan boşluq irəlidəki kəlmənin bəzi hərflərinin üfüqi hissəsini və ya bitişdirici xətlərini uzatmaq yolu ilə doldurulur [8, s. 9-10].

Ərəb dilində söz əksər halda üç, bəzən də dörd samitdən ibarət olan kökə istinad edir. Kökdən "daxili fleksiya" (dəyişiklik) yolu ilə müxtəlif formalı sözlər əmələ gətirilir (məsələn: hkm kökündən hakim, həkim, hökm, ehkam, hikmət, məhkum, təhkim, möhkəm, mühakimə, məhkəmə, hökümət, hakimiyyət, istehkam və sair sözlər düzəlmişdir). İsim, sifət, say kimi ad qruplu sözlərin yalnız adlıq, yiyəlik və təsirlik halları əsasən üçhallı və ikihallı olmaq üzrə iki növ hallanması, iki qrammatik cinsi (müzəkkər və müənnəs) və üç qrammatik sayı (tək, təsniyə (ikilik) və cəm) vardır. Və həmçinin ərəb dilində fellərin eyni kök samitləri əsasında sabit əlavələrlə düzələn və müxtəlif mənalar bildirən babları keçmiş və indiki gələcək morfoloji zamanları məlum və məchul növləri xəbər, arzu, şərt və əmr formaları vardır. Qeyd etməliyik ki, ərəb dilində müxtəlif söz birləşmələri vardır. Bunların içərisində ərəb qrammatiklərinin 'izafət' (ifadə) adlandırdıqları "uzlaşmayan təyini söz birləşməsi" ifadə etdiyi məna çalarlıqlarının çoxluğu və ərəb dilində geniş işlədilməsi ilə başqa söz birləşmələrindən xeyli fərqlənir. Burada xəbəri ad qruplu söz və ya söz birləşmələri ilə ifadə edilən isimi cümlələr də çox işlənir. Xəbəri mübtədadan əvvəl gələn cüttərkibli feli cümlələrdə xəbər daim təkdə olur [8, s. 8].

Ərəb dilində cümlə isim-fel və hərfdən (ön qoşmalar) ibarətdir [4, s. 1]. İsmi cümlələrdə söz sırası bir qayda olaraq mübtədа-xəbər-tamamlıqdan, feli cümlələrdə isə cümlənin mübtədası İsmul Fail إسْمُ الفَاعِل adlanır [5, s. 91] və ismul fail hər zaman feldən sonra işlənir. ذَهَبَ "Getdi" mənasındadır. Bu felin ism-i faili ذَاهِبٌ şəklindədir və "gedən" mənasındadır [3, s. 57]. Göründüyü kimi ism-i fail (فَاعِلٌ) babında gəlmişdir.

Ərəb dili söz ehtiyatının genişliyi cəhətdən dünyanın zəngin dillərindən hesab edilir. Burada sinonim sözlər çox geniş təmsil olunduğundan eyni məfhum çox vaxt ən azı bir neçə söz, bəzən isə onlarla, hətta yüzlərlə sözlə ifadə edilə bilir. Bununla belə, ərəb dilində bəzən bir-birindən ciddi şəkildə fərqlənən mənaları olan polisemantik (çoxmənalı) sözlərdə az deyildir. Hətta tərkibində zidd mənalar olan sözlərdə çox təsadüf edilir. Sözlərin böyük əksəriyyəti əsl ərəb mənşəli olduğu halda alınma sözlər cüzi bir miqdar təşkil edir [8, s. 9].

Ərəb dili İslam dinini və onun yaşayış tərzini mənimsəmiş çeşidli millətlərin əsrlər boyu ortaq qayələri nəticəsində, İslam mədəniyyətinin, ortaq mədəniyyət və elm dili olmuşdur. Quranın ərəbcə olması səbəbiylə ərəb dili İslam dinində xüsusi bir yerə sahibdir [6, s. 9].

Ərəb dili öz zənginliyini bir çox sözlərinin başqa dillərin leksikasında mövcudluğu ilə də göstərir. Vaxtilə ərəb imperiyasının tərkibində olmuş və İslam dinini qəbul etmiş xalqların dillərində olduğu kimi, həmçinin Azərbaycan dilində də ərəb dilindən alınma sözlər və ifadələr nəzəri cəlb edəcək dərəcədə çoxsaylıdır. Ədəbi dil yaranmaqda olan ərəb imperiyasında yazı dili kimi hələ də işlədilməkdə olan arami və yunan dillərini sıxışdırıb ümumimperiya yazı dilinə çevrilərək beynəlxalq əhəmiyyət kəsb etmişdir. Sonrakı klassik ərəb dilində çox zəngin dini-elmi və bədii ədəbiyyat yaranmışdır ki, bu ədəbiyyatın yaranmasında başqa müsəlman alimlərinin, xüsusilə də İsmayil ibn Yəsar, Musa Şəhəvat, Xətib Təbrizi, Cəmaləddin Ərdəbili kimi Azərbaycan ziyalılarının böyük rolu olmuşdur [8, s. 8].

Ayrıca İngilis dilinə ərəb dilinin müəyyənlik artikli olan "əl" ilə başlayan bir çox sözlər daxil olmuşdur. Bunlardan: algebra, alcohol, alchemy, alkali, alcove, albatros, mosk, cotton, amber, sofa, arsepial, syrup, sugar, sherbet və s. kimi sözlərdir. "Coffe" (kahve) də İngilis dilinə türk və İtaliyan dillərindən daxil olan ərəb dili sözüdür. Həmçinin ispan dilində işlənən 1600 miqdarında ərəbcə söz və ifadələr olduğu təxmin edilməkdədir.

Təqribən XIX əsrdən başlayaraq bu günədək klassik dil əsasında inkişaf etməkdə olan müasir ərəb dili klassik ərəb dilindən arxaizmlərin atılması hesabına lüğət tərkibinin məhdudlaşması, qrammatik quruluşunun daha da sabitləşməsi ilə fərqlənir. Ərəb dilinin istifadəsi VII əsrə qədər Ərəbistan yarımadası içində işlənirdi, İslam dininin gəlişiylə birlikdə Ərəbistan yarımadasının xaricində böyük bir surətlə yayılaraq İraq, Suriya, Misir və Şimali Afrikanı əhatə etmiş və bir mədəniyyət dili olmuşdur. Sonrakı əsrlərdə İslami fəthlərin davam etməsiylə ərəb dili Şərqdə Əfqanistan və ən Qərbdə İspaniyaya qədər uzanan bölgədə danışılan dil halına gəlmişdir.

Ədəbi dil ilə yanaşı, əhalinin danışdığı məhəlli (ölkələr üzrə) dialekt və şivələr də mövcuddur. Bunlar bir-birlərindən və habelə ədəbi dildən ciddi şəkildə fərqləndiyi üçün müxtəlif ölkə ərəblərinin bir-birini anlamaması, müvafiq hazırlığı olmayan ərəblərin isə çox zaman ədəbi dili başa düşməməsi adi hal hesab edilir. Dialektlərin arasında fərq ən çox ərəb yarımadasından kənardadır. Ərəb istilasından sonra ləhcələrin sayı xüsusilə artmışdır. Ən böyük dialekt fərqi qeyri misirli Şimali Afrika dialektləri arasındadır. Dialektlərə təsir etmiş əsas faktorlardan biri də, əvvəllər həmin ərazilərdə başqa dillərdə danışılmasıdır. Bəzi ərazilərdə hətta söz sırası da fərqlənir. Müasir ərəb dili faktiki müstəqil dil hesab edilə bilən 5 dialektdən ibarətdir. Bunlar Misir, Məğrəbi, Mesopotamiya (İraq və Şimali Mesopotamiya), Şami (Şərq) və Körfəz dialektləridir [10].

Əvvəllər müxtəlif məhəlli dialektlərdən ibarət olmuş qədim dilin sonrakı inkişaf mərhələsində ədəbi dil kimi formalaşmasında Qüreyş (Məkkə) dialekti mühüm rol oynamışdır [2, s. 90]. Həmin dil islamdan bilavasitə qabaq, islam alimlərinin cahiliyyə adlandırdıqları dövrdə yaranmış şifahi poeziya nümunələrində, habelə çox qiymətli abidə hesab olunan Quranda artıq sabitləşmiş qrammatik quruluşa və zəngin söz ehtiyatına malik ilk klassik ərəb dili kimi təsbit edilir. O, bütün ərəbləri Qüreyş ləhcəsi üzərində toplayaraq Qüreyş ləhcəsini ərəb dilinin lideri halına gətirdi. Halbuki Qurani Kərim nazil olmağa başlamazdan əvvəl ərəb dili Qüreyş ləhcəsi ətrafında birləşmə yolunda inkişaf edir və zirvəyə yüksəlirdi. Ancaq hələ də bütün ləhcələr toplanmamışdı [2, s. 204].

Ərəb dili eyni zamanda Quran dilidir. Ərəb dili İslam dini ilə sıx bağlıdır, buna baxmayaraq Xristian və Yəhudi ərəblər bu dildə danışır. Dünya müsəlmanlarının əksəriyyətinin ana dili ərəb dili deyil, ancaq onlar Quranı oxuya bilirlər. Əksər hallarda Ərəb olmayan müsəlmanlar Quranın tərcüməsindən istifadə edirlər. Bəzi müsəlmanlar isə ərəb dilini Allah (c.c) tərəfindən seçilmiş müqəddəs dil hesab edirlər. Bəzi İslam alimlərinə görə ərəb dili cənnətin dilidir.

Həmin dövrdə Ədəbi dil yaranmaqda olan ərəb imperiyasında yazı dili kimi hələ də işlədilməkdə olan arami və yunan dillərini sıxışdıraraq, ümumimperiya yazı dilinə çevrilir və beynəlxalq əhəmiyyət kəsb edir. Təqribən XIX əsrdən başlayaraq bu günədək klassik dil əsasında inkişaf etməkdə olan müasir ərəb dili öz sələfindən arxaizmlərin atılması hesabına lüğət tərkibinin xeyli məhdudlaşması, yeni məfhumları əks etdirən söz və ifadələrin yaranması, qrammatik quruluşunun da sabitləşməsi ilə fərqlənir. Qurani-Kərim ərəb dilinə bir çox yeni sözlər qazandırmış və bu sözlərin lüğət fonduna keçməsini təmin etmişdir. Ərəb dili Quran nazil olmazdan əvvəl ərəb yarımadasında yaşayan müəyyən bir millətin dili idi. Ərəb yarımadasının çərçivəsində sıxılıb qalmışdı. Qurani-Kərimin ərəb dilində nazil olması onu səmavi bir dinin dilinə çevirmiş və ona ibadətin bir parçası vəsfini qazandırmışdı. Beləliklə, hər bir müsəlman namaz, zikr, təkbir və təşəhhüd kimi ibadətlərində ərəb dilini istifadə edirdi. Fəthlər və xilafətin böyüməsi nəticəsində insanların qrup-qrup İslam dininə yönəlməsi ilə yanaşı ərəb dili ərəb yarımadasının xaricinə çıxmağa başlayaraq daha geniş əraziyə yayıldı. Nəticədə ərəb dili, İslamla paralel olaraq yayılmağına davam edirdi. O, İslam aləmində istifadə olunan dillər arasında yüksələrək birinci dil halına gəlmişdi [10].

İnsanlar kimi dillər də dünyaya gələr, müəyyən bir müddət yaşadıqdan sonra ölərlər. Ancaq bundan sonra ərəb dilini istisna etmək lazımdır. Çünki o, Qurani-Kərim sayəsində dünya dilinə çevrilmiş, hər cür təhlükədən qorunmuşdur. İslamın təşviqi ilə müsəlmanlar Quranı əzbərləməyə, onu hər zaman oxumağa başladılar. O, müsəlmanların həyat mənbəyi idi. Müsəlmanlar onun bir hərfinin belə dəyişməsinə imkan vermədilər. Ərəb dilini qoruyan qala olan Quranın bu şəkildə əzbərlənərək qorunması, əslində ərəb dilinin qorunmasıdır. İslam aləminin və İslam mədəniyyətinin geri qalması ərəb dilinin digər dillər kimi, yox olması və yaxud başqa dillərin təsiri altına düşməsi ilə nəticələnə bilərdi. Ancaq ərəb dili Qurani-Kərim sayəsində özünü hər cür təhlükələrə qarşı qoyaraq bütün nigarançılıqları ortadan qaldırdı. Əgər Quran olmasaydı, ərəb dilinin də digər dillər kimi yoxa çıxması, ya da ən azından təhrif olması gözlənilirdi. Quran ərəb dilinin ədəbiyyat sahəsində zirvəyə çatdığı bir dövrdə nazil olmağa başladı. Çox keçmədi ki, məşhur ərəb ədibləri, Quranın bəlağəti və fəsahəti qarşısında acizliklərini etiraf edərək onun bəlağət və fəsahətindən faydalanma yollarını axtarmağa başladılar. Beləliklə, Qurani-Kərimin enməsi ilə yanaşı yeni elmlərin doğması üçün qapılar aralanmış oldu [9]. Quranı dərk etmə məqsədi ilə bəyan, bədi, məani və təğyirdən (dəyişilmədən) qorumaq üçün sərf və nəhv və həmçinin qarib (mənası eşidilməyən alınma sözlər) sözlərini izah edərək mənasını başa düşmək üçün isə Hədis və Fiqh kimi elmlər ortaya çıxmışdı. Bundan başqa ərəb dilini müxtəlif dövrlərdə bəzi dövlətlərin rəsmi dili halına gətirmiş və müsəlmanların ona qarşı ehtiram göstərmələrinə səbəb olmuşdur [1, s. 31].

ƏDƏBİYYAT

1. Dayf Ş. Tarixul-ədəbil-arabi. Qahirə: Maarif, 1963, II/491 s.
2. Əz-Zəyyat Ə.H. Tarixul-ədəbil-arabi. Qahirə: Misir çap evi, 2008, 538 s.
3. Ərəb dilinin qrammatikası. 1314 h.q. AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondu. A-32/360.
4. Ərəb dilinin qrammatikası. AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondu. B-181/314.
5. Hüseyn Şövqi ibn Osman Əl-Vəhəbi. Ərəb dilinin qrammatikası. 1323 h.q. AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondu. B-173/300.
6. Kılıç H. Ərəbcə dilbilgisi: Sərf. İstanbul: Rağbət yayınları, 2005, 339 s.
7. Qurbanov A. Ümumi dilçilik. 2 cilddə, I c. Bakı: Nurlan, 2004, 748 s.
8. Məmmədov Ə.C. Ərəb dili. Bakı: Maarif, 1998, 620 s.
9. https://tr.wikipedia.org/wiki/Arapça
10. https://www.ethnologue.com/language/ara
11. https://tr.wikipedia.org/wiki/Sami_dilleri

Кюбра Валиева

АРАБСКИЙ ЯЗЫК И ЕГО МЕСТО СРЕДИ МИРОВЫХ ЯЗЫКОВ

Арабский язык с точки зрения словарного запаса считается одним из богатейших языков мира, он стоит во главе языков, создавших великие культуры и империи. Сегодня в 60 странах разговаривают на этом языке, и в мировом масштабе он занимает 5 место. Арабский язык является как официальным государственным языком 22 арабских стран, так и общим религиозным языком мусульман.

В статье рассказывается об истории образования арабского языка, о диалектах и говорах, а также о его грамматической и фонетической структуре.

Ключевые слова: *арабский язык, арабские страны, алфавит, диалект, грамматика.*

Kubra Valiyeva

THE ARABIC LANGUAGE AND ITS PLACE AMONG THE WORLD LANGUAGES

The Arabic language, which is considered as one of the richest languages in the world because of the expanse of its vocabulary, is one of the major languages that created great cultures and empires. Today it is the fifth language spoken in 60 countries and around the world. Arabic language, the official state language of 22 Arab countries, is also a common worship language for all Muslims.

The paper deals with the origin history, dialects and subdialects, as well the grammar and phonetic structure of the Arabic language.

Keywords: *Arabic language, Arab countries, alphabet, script, dialect, grammar.*

(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)

CƏMİLƏ MƏHƏRRƏMOVA
AMEA Naxçıvan Bölməsi
E-mail: CemileNihatMeherremova@gmail

İRƏVAN ƏYALƏTİNƏ DAXİL OLAN ORONOMİK OYKONİMLƏRİN LİNQVİSTİK XÜSUSİYYƏTLƏRİ (QƏDİM NAXÇIVAN ƏRAZİSİ)

Məqalədə Naxçıvan ərazisində yaşamış prototürk tayfalarından və oronimik oykonimlərdən bəhs olunur. Oronimlər relyef quruluşuna görə bir birindən fərqlənən dağ, dərə, təpə, düz, sahə, qaya, qala kimi adları əhatə edir. Bu oronimlər də bəzi sözlərin ya əvvəlinə, ya da sonuna artırılaraq orooykonimləri yaradır. İrəvan əyalətinə daxil olan Kültapa, Qaratəpə, Tülkütəpə, Ağcaqala, Qaracaqala, Qalacıq, Şirəqala, İncədərə, Gözəldərə, Yellidərə, Dərəşahbuz, Dərəalpak, Dərədaşı, Ağcaqaya orooykonimlər bunlardır. Məqalədə yeni elmi nəticələr əldə edilmişdir.

Açar sözlər: *İrəvan əyaləti, oykonim, oronim, orономik oykonim, təpə, dərə, qala, qaya.*

Onomastik vahidlərin tədqiqi uzun müddətdir ki, dilçi, tarixçi və coğrafiyaşünasların diqqətini cəlb etmiş, dünyanın ayrı-ayrı dillərində bu vahidlərin nəzəri məsələlərinə dair bir sıra müddəalar, fikirlər irəli sürülmüş, bu istiqamətdə müxtəlif konsepsiyalar yaranmışdır.

Azərbaycan dilçiliyində də onomalogiyanın sistemli və elmi şəkildə tədqiqinə son dövrlərdə başlanılmışdır. Bu bölmə dilçiliyimizin cavan sahəsi olsa da, onun tədqiqat obyekti ulu keçmişimizdən başlamış və zəmanəmizə qədərki bir dövrü əhatə edir.

Naxçıvan ərazisinin oykonimləri öz zənginliyinə görə diqqəti cəlb edir. Bu oykonimlərin nə zaman yarandığı bizə məlum deyil. Oykonimlərin yaranması mürəkkəb tarixi prosesin nəticəsi olub, müxtəlif zaman məkanında baş vermişdir. Məhz buna görə də oykonimləri toplamaq, onların yaranma yollarını açıqlamaq, xalqımızın, dilimizin mənəvi abidələri kimi tədqiq etmək dünənimizlə bu günümüz arasında mənəvi körpü yaradır.

Naxçıvan oykonimlərinin bir çoxu bu ərazidə yaşamış qədim tayfa və tayfa birləşmələrinin yaranması, tayfa və qəbilələrin tirələrə bölünməsi, işğalçı hökmdarların hücumu, yeni kənd və obaların salınması, əhalinin bir yerdən başqa yerə köçürülməsi ilə bağlı yaranmış, bəziləri isə həmin ərazilərin təbii coğrafi şəraiti, relyefi ilə və bir çox hallarda isə hər hansı bir tarixi hadisə ilə əlaqədar yaranmışdır. Məhz buna görə də etnonim, antroponim, hidronim, zoonim, fitonim səciyyəli oykonimlər və həmçinin də oronimik səciyyəli oykonimlərə rast gəlirik.

1578-ci ildə Səfəvilərlə qarşıdurmada qalib gələn osmanlılar ələ keçirdiyi İrəvan və Naxçıvan əyalətlərini mərkəzləşdirilmiş qaydada idarə etmək üçün ərazi-inzibati bölgüsü aparmış, nahiyələr və kəndlər haqqında statistik məlumatlar hazırlamış, yeni vergi qanunları ilə bağlı "İrəvan əyalətinin icmal dəftər"i hazırlamışlar ki, bunlardan biri də 1590-cı ildə tərtib olunmuş "İrəvan əyalətinin müfəssəl dəftəri"dir [10]. "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə İrəvan və Naxçıvan inzibati ərazi bölgüsü, dövlətin vergi sistemi, yerli idarəetmə aparatı, xalqımızın əkinçilik mədəniyyəti, təsərrüfat həyatı ilə yanaşı, ərazidə mövcud olan yaşayış məntəqə adları haqqında geniş məlumat verilmişdir.

Naxçıvan qəzasında mövcud olan, ancaq müxtəlif işğalçı müharibələr, köçürmələr, təbii fəlakətlər və s. səbəblər nəticəsində dağılmış kəndlər vardır ki, onların adı və xarabalıqları indi də yaşayır, zamanında yerləşdiyi ərazi həmin kənd adını qoruyub saxlayır. Vaxtilə mövcud olmuş olan oykonimlərin bir qismi də unudularaq dildə arxa plana keçmiş və "İrəvan əyalətinin müfəssəl dəftərində öz əksini tapmışdır.

Oronimlər relyef quruluşuna görə bir birindən fərqlənən dağ, dərə, təpə, düz, sahə, qaya, qala kimi adları əhatə edir. Bu oronimlər də bəzi sözlərin ya əvvəlinə, ya da sonuna artırılaraq orooykonimləri yaradır. İrəvan əyalətinə daxil olan orooykonimlər bunlardır: Kültəpə, Qaratəpə, Tülkütəpə, İncədərə, Gözəldərə, Yellidərə, Dərəşahbuz, Dərəalpak, Dərədaşı, Ağcaqaya, Ağcaqala, Qaracaqala, Qalacıq, Şıraqala.

Kültəpə. Bu məntəqə adı 1590-1728-ci illərin sənədlərində, Naxçıvan qəzasının Naxçıvan nahiyəsində Yarımca və Təhməsqulu kəndləri arasında göstərilir. Məntəqə adının izahı ilə bağlı B.Budaqov və Q.Qeybullayev bu ərazidə yanacaq olmadığından kərmə, təzək çox yandırılmış və ərazidə böyük küllüklər əmələ gəlmişdir və bunun üçün də kəndi *Küllütəpə-kültəpə* adlandırılması fikirlərini söyləmişlər [5, s. 26]. A.Bağırov da bu fikirlə razılaşmasa da, adın iki *"Kül" və "təpə"* komponentlərindən formalaşdığını göstərmiş, lakin mənasının hələlik anlaşılmadığını yazmışdır [2, s. 154-155].

Kültəpədən tapılan arxeoloji materiallar bu kəndin qədimliyindən xəbər verir və ola bilməz ki, bu adın mənası bu cür izah edilsin. Çünki, bu cür izahlar səthi izahlar sayılır. Artıq ümumdünya onomastika elmi məntəqə adlarının yaranmasında qədim tayfa adlarının, bir çox hallarda isə antroponimik-şəxs adlarının əsas amil olduğunu təsdiq edir. Bu əsasdan F.Rzayevin izahı daha məqsədəuyğundur. Biz məntəqə adının birbaşa Kol tayfa adından yarandığına və təpə coğrafi göstəricisinin isə ada sonradan əlavə olunduğuna əminik. Bu məntəqə adında da biz türk dilləri üçün xarakterik olan *o≈u* səs əvəzlənmələrini müşahidə edirik. Qeyd edək ki, XX əsrin əvvəllərindən Naxçıvan ərazisində aparılmış arxeoloji araşdırmalar xeyli yeni elmi nəticələrlə ərazinin qədimliyini sübut edir. Kültəpə ərazilərində son dövrlər yenidən aparılan araşdırmalardan əldə olunan mədəniyyət nümunələrinin tarixi m.ö. III-II minilliklərə aid edilmişdir [4, s. 11-17, 49-57, 221]. Bu tarixə istinad etsək, kol tayfalarının tarixi Herodotun, Strabonun məlumatlarındakı dövrlərdən də xeyli əvvələ getmiş olur və ərazidə böyük bir tayfa mədəniyyətinin uzun illər davam etdiyini bir daha təsdiq edir [15, s. 413-414]. Bu etimoloji izahlardan da bu nəticəyə gələ bilərik ki, məntəqə adının birinci komponenti etnonimik oykonim digər komponenti isə, oronomik oykonim olduğunu deməyə əsas verir. Adın mənasını "Kol tayfalarının yaşadığı təpə" kimi izah etmək olar.

Qaratəpə. Məntəqə adına 1590-cı il İrəvan əyalətinin Naxçıvan qəzasının Abnik nahiyəsində rast gəlinir. Başqa adı Dostəlidir. İstər Azərbaycan, istərsə də digər türk dillərində oykonimin birinci tərəfi kimi işlənən **qara** sözünün konkret hansı funksiyanı yerinə yetirdiyini müəyyənləşdirmək çətindir. Məntəqə adı "qara" və "təpə" leksik vahidlərindən ibarətdir. Burada qara komponenti "böyük", "iri", "nəhəng" mənalarında işlənmiş "təpə" komponenti isə oronomik coğrafi nomendir.

Tülkütəpə. Məntəqə adına 1590-cı il İrəvan əyalətinin Naxçıvan qəzasının Bazarçayı nahiyəsində rast gəlinir. Kəndin adı iki "Tülkü" və "təpə" leksik vahidlərindən ibarətdir. Kənd çoxlu tülkünün yaşadığı təpələrin əhatəsində yerləşdiyi üçün belə adlandırılmışdır. Zoonomik səciyyəli oykooronimdir.

İncədərə. Məntəqə adına 1590-cı il İrəvan əyalətinin Naxçıvan qəzasının Vedi nahiyəsində rast gəlinir. Oykonim "incə" və "dərə" leksik vahidlərindən ibarətdir. Birinci tərkib hissənin etimologiyasını araşdırarkən iki məqama rast gəlirik. Birincisi bu adın İncə sözünün leksik mənasını nəzərə alaraq incə, nazik, ensiz dərədə yerləşən kənd kimi

izah etmək olar. Digər tərəfdən isə bu adın etnooykonim kimi də izahını verə bilərik. Qədimdə Əncə(ence) tayfası var olmuşdur [9, s. 34]. Əncə adındakı ə-i səs əvəzlənməsini nəzərə alsaq, oykonimin bu tayfa adı ilə bağlı yaranmış ola biləcəyini də düşünürük. İncə, ensiz dərədə yerləşən kənd yerinə *"Əncə"* tayfasının yaşadığı *"dərə"* kimi düşünmək daha məqsədə uyğundur. Oykonimin digər adına isə Gəncəli yazılışında rast gəlirik ki, bu da *"Gənzək"* tayfa adını təkrarlayır.

Gözəldərə. Məntəqə adına 1590-cı il İrəvan əyalətinin Naxçıvan qəzasının Şərabxana nahiyəsində rast gəlinir. Vaxtilə Qərbi Azərbaycanda (indiki Ermənistan adlanan ərazidə) altı kənd, bir dərə, bir çay və bir dağ Gözəldərə adlanırdı [9, s. 32]. Gözəldərə kəndlərinin əhalisi öz yer-yurdlarından 1918-ci ildə, Quqark rayonundakı Gözəldərə əhalisi isə sonuncu dəfə 1988 qovulmuşlar. Hətta İrəvan quberniyasının Aleksandropol qəzasındakı Gözəldərə kəndinin əhalisinin 1918-ci ildə bir hissəsi (200 nəfər) məscidə doldurulub yandırılmış, digər hissəsi isə Türkiyəyə köçmüşdür [6, s. 319]. Gözəldərə oykonimi "gözəl" və "dərə" leksik vahidlərindən ibarətdir. Adından da göründüyü kimi Gözəldərə gözəl görünüşlü, təbiətcə cəlbedici mənasında olmaqla oronim mənşəli oykonimdir.

Yellidərə. Məntəqə adına 1590-cı il İrəvan əyalətinin Ordubad qəzasının Zar nahiyəsinə rast gəlinir. Yellidərə oykonimi "yelli" və "dərə" leksik vahidlərindən ibarətdir. Məntəqənin adı onun yerləşdiyi ərazinin təbii coğrafi şəraiti ilə əlaqədar olduğunu düşünürük. Kəndin yerləşdiyi dərədə və yaxud da dərə boyunda baş verən küləklər, sərin havaların çox müşahidə olunması ilə əlaqədar bu məntəqənin adı belə adlandırılmışdır.

Dərəşahbuz. Bu ada 1590-1728-ci illərə aid sənədlərdə Naxçıvan qəzasının Dərəşahbuz nahiyəsində *Dərəşahbuz* və *Şahbuz* kimi qeydə alınırlar [10, s. 166]. Qeyd etməliyik ki, bu adla bağlı xeyli sayda elmi tədqiqatlar aparılmışdır və müxtəlif istiqamətlərdən fərqli fikirlər söylənilmişdir. Azərbaycanlıların etnogenezinə dair geniş araşdırmalar aparan Q.Qeybullayev adı "talış, tat, kürd toponimləri" başlığı daxilində Şahbuz adının Buzovna adı ilə yanaşı iran-fars dillərində izah edərək "şax" komponentini "dağ qolu", "dağ silsiləsi", ikinci "buz/bus", "mıs" komponentini isə "dağ burnu", "çıxıntısı" mənalarında "dağ qolunun çıxıntısı" kimi izah etmişdir [11,s. 109] Bu istiqamətdə tədqiqatlarını quran A.Bağırov isə, Q.Qeybullayevin bu izahı və M.Təhmasib və T.Hacıyevin yazılarında *Şahbuz* adında ikinci"buz" komponentini midiya tayfası Bus adı və oğuzların "boz oğ" qolu ilə izahın müqayisəli təhlil edərkən, adın Bus tayfasından gəldiyini təsdiq etmişdir. O, addakı "şah" komponentini "hündür", "yüksək", "ən yaxşı yer" mənasında götürüb Şahbuz adını "buslara məxsus nümunəvi yer", eləcə də Sak tayfa adı ilə "Saqbus" kimi izah etmişdir. Dərəşahbuz adına gəldikdə isə müəllif adın "dərə" və "Şahbuz" sözlərinin birləşməsindən yaranmış "Dərə boyunca yerləşən Şahbuz" mənasını daşıdığını göstərmişdir [2, s. 129,189-190]. F.Rzayev isə adın buslarla bağlılığını tam qəbul etməklə, bəzi əlavələr də etmişdir. Dilimizin ilkin yaranış dövrü söz köklərinin birhecalı quruluşuna istinadən və türk dillərinə xas ş≈s, s≈z, q≈h, səsəvəzlənmələrini nəzərə alaraq adın Sax+bus yazılışında olduğunu düşünür, dərə sözünün isə bu ada sonradan əlavə olunduğunu, addakı ilk sak/çax sözü qədim türklərdə tayfa adı və "diqqətli, həssas" mənalarında işləndiyini qeyd etmişdir. Ad bu sözlərlə "sak buslar" və "həssas bus" mənasında izah olunur [15, s. 323]. Naxçıvan ərazisinin, eləcə də Şahbuz rayonun dağlıq zona olması və bu ərazilərin qədim tarixə malik olduğunu nəzərə alıb "dərə boyunca yerləşən Şahbuz", "buslara məxsus nümunəvi yer" fikirləri ilə razılaşırıq. Şahbuz sözünə əlavə edilən dərə sözü isə adın orooykonim səciyyəli oykonim olmasına əsas verir.

Dərəalpak. Məntəqə adına 1590-cı il İrəvan əyalətinin Naxcıvan qəzasının Naxçıvan nahiyəsində rast gəlinir. Məntəqə adı üç "dərə", "al", "pak" leksik vahidlərdən yaranmışdır. Burada "dərə" komponenti oronomik coğrafi nomendir. *Al* söz tərkibinə omonim söz kimi "uca, hiylə, su pərisi" və s. kimi mənalarına rast gəlirik. Bu tərkib şumerlərdə "şər ruh" mənasında işlənməklə pisliyə, şərə işarə idi. Kumik, Yakut dillərində də "ağıllı, öncül, müdrik" mənalarında işlənmiş və bu gün də leksikonumuzda "uca" mənasını özündə saxlamışdır [14, s. 385]. Üçüncü tərkib hissə olan "pak" isə p≈*b* səs əvəzlənməsini nəzərə alsaq, pak/bak formasında olur [15, s. 530]. "Bak" sözü qədim türk lüğətlərində *"abədi"* deməkdir. Dərəalpak məntəqə adı bütövlükdə "müdrik, əbədilərə məxsus dərə" kimi izah etmək olar.

Dərədaşı. Məntəqə adına 1590-cı il İrəvan əyalətinin Naxçıvan qəzasının Ağcaqala nahiyəsində rast gəlinir. Dərə-yer səthinin uzunsov, başlanğıcından sonuna doğru meylli formasına deyilir. Dərə başlıca olaraq axar suların eroziya fəaliyyəti nəticəsində əmələ gəlir. Daşı sözünün isə müasir ədəbi dilimizdəki daş sözü ilə əlaqədar olduğunu düşünmürük. Bu sözdə a=ı səs əvəzlənməsi baş vermişdir ki, bu da daşı deyil, dışı kimi izah edilir. Çünki *dərədaşı* adlı məntəqə adını "dərə daşı" ilə izah etmək düzgün deyil, "dərədışı" olduqda isə *dərə dışı, dərə kənarı* kimi düşünmək olar və beləliklə də məntəqənin adı "dərə dışında, dərə kənarında yerləşən yer, kənd" kimi izah etmək olar.

Ağcaqala. Məntəqə adına 1590-cı il İrəvan əyalətinin Naxçıvan qəzasının Ağcaqala nahiyəsində rast gəlinir. Məntəqə adı üç "ağ", "ca", "qala" leksik vahidlərdən yaranmışdır. Rəng bildirən *ağ* sözü dağ, daş, qaya, qala, dərə və s. kimi oronomik adlara qoşularaq müxtəlif məna çaları yaradır. B.Budaqov türk dillərində çoxmənalı ağ sözünün "xoşbəxtlik, işıqlı, günbatan, ələsalma, uğurlu, keyfiyyətli" və s. kimi mənaları olduğunu qeyd edir. Burada "ağ" sözü "böyük, uca, geniş, iri "mənalarında işlənmişdir. "Ca" isə sifətlərə qoşularaq azaltma və yaxud da çoxaltma dərəcəsini yaradır. "Qala" komponenti isə oronomik coğrafi nomendir. Məntəqənin adını "iri, geniş qala" kimi izah etmək olar.

Qaracaqala. Məntəqə adına 1590-cı il İrəvan əyalətinin Naxçıvan qəzasının Ağcaqala nahiyəsində rast gəlinir. Qaracanın tayfa adı olduğu bazi mənbələrdə qeyd olunur. *Qaracivan* kənd adı haqqındakı məlumatda deyilir ki, bu ad *Qaraca* tayfasının adından və viranə (xarabalıq) sözündən ibarətdir [6, s. 191]. Şopenin verdiyi məlumata görə Dərələyəz mahalında 660 ailədən ibarət kürddilli Qaracalar tayfası məskunlaşmışdır [6, s. 192]. Qılıclı tayfasının qaracalar tirəsinin də olduğu da məlumdur. Azərbaycan etnonimlərini leksik-semantik və struktur xüsusiyyətlərini araşdıran və sahəyə qiymətli əsər həsr edən E.Əhmədova yazır ki, etnonimlərimizin əksər hissəsini tayfa, nəsil və tirə başçılarının adlarını, onların ictimai-siyasi, tarixi vəziyyətlərini, dini mənsubluqlarını, daxili və zahiri əlamətlərini, sənət, peşə və məşğuliyyətlərini və s. bildirən sözlərdən törənən etnonimlər təşkil edir. Qaracada tayfa adından götürüldüyü üçün etnooyonimdir. Lakin bu ada əlavə olunan *qala* sözü oykonimin adında müəyyən dəyişikliklər etmişdir. Məntəqə adı *Qaraca* tayfasının yaşadığı qala mənasında olur.

Qalacıq. Məntəqə adına 1590-cı il İrəvan əyalətinin Naxçıvan qəzasının Naxçıvan, Bazarçayı, Ağcaqala, Abaran, Şərur nahiyələrində rast gəlinir. Qala müdafiə istehkamı məqsədli tikilidir. Əsasən, iri, yonulmamış qaya parçalarından hörülən qalaçalardan həm müdafiə məqsədilə, həm də heyvanları saxlamaq və yaşamaq məqsədilə istifadə olunmuşdur. B.Budaqov və Q.Qeybullayev yazır ki, 1590-1728 illərdə İrəvan və Naxçıvan əyalətlərində 16 Qalacıq adlı kənd var imiş [6, s. 176]. Qalacıq kəndi Qarabağlar kəndinə yaxın ərazidə yerləşirmiş. Arxeoloji qazıntılar bu kəndin xarabalıqlarını aşkar etmiş və qədim yaşayış məntəqəsini müəyyənləşdirmişdir. Deyilənə görə, guya

Qarabağlar kəndinin əsası Qalacıq kəndindən köçənlər tərəfindən qoyulmuşdur. Bu fikirlər həqiqətə uyğun deyil. Çünki, 1590-cı ildə Qarabağ nahiyə mərkəzi, Qalacıq isə ayrıca kənd imiş. İndi Qarabağlar kəndinin qoşa minarə yerləşən ərazisi Qalacıq adlanır [2, s. 156]. *Qala* və kiçiltmə mənalı *-cıq* şəkilçisinin birləşməsi ilə yaranan bu ad, yəni Qalacıq oykonimi "kiçik qala" mənasında işlənir.

Şiraqala. Məntəqə adına 1590-cı il İrəvan əyalətinin Naxçıvan qəzasının Abaran nahiyəsində rast gəlinir. Azərbaycan xalqının soykökündə duran tayfalardan biri də Şiraklar olmuşdur ki, bu tayfanın adı mənbələrdə "Sraq, Şiraq, Şir" şəklində yazılmışdır [15, s. 282]. Məntəqə adının Şir tayfa adından götürüldüyünü və mənasının da "Şirlərə məxsus qala" olduğunu düşünürük.

Ağcaqaya. Məntəqə adına 1590-cı il İrəvan əyalətinin Naxçıvan qəzasının Şərabxana nahiyəsində rast gəlinir. Məntəqənin adı üç "*ağ, ca* və *qaya*" leksik vahidlərindən ibarətdir. Şərqi Azərbaycan toponimiyasında geniş şəkildə işlənib müxtəlif məna çaları ifadə edən, müasir dilimizdə isə rəng bildirən sözlərdən biri də "ağ" sözüdür. Dilimizdə olduğu kimi, türk xalqlarının bir çoxunda "ağ" sözü müqəddəslik, təmizlik, paklıq mənalarında açıqlanır. M.Seyidov yazır: "Ağ rəng nemətlərin yaradıcısı Ülgenin rəngidir". Çünki Ülgen işıqlı, ağ dünyanın tanrısıdır. Sonralar uduqları-müqəddəslərı, onqonları ağ rənglə bağlamışlar. Hətta xaqanlar öz ordularının, düşərgələrinin adlarının əvvəlinə "ağ" sözünü artırmaqla özlərini, özlərinə məxsus yerləri hörmətə mindirmişlər" [16, s. 144-145]. Oronimlərdəki "ağ" sözü tanrıya məxsusluq, ululuq, müqəddəslik mənasını ifadə edir [7, s. 138]. A.İmanlı "ca" törəmə vasitəsini (topoformantı) ilə yaranan bəzi oykonimləri izah edərkən bu hissəciyin oykonimlərdə işlənən "kənd", "abad", "köy" və s. apelyativləri əvəz etdiyini söyləmişdir [9, s. 81]. Lakin müasir dilimizdə "ca" hissəciyi sifətlərə artırıldıqda ya onun məna dərəcəsini artırır yada da azaldır. Burada ağ sözünün ifadə etdiyi mənaları nəzərə alsaq -ca hissəciyi sözün mənasını qüvvətləndirir. Qaya isə sərt daş deməkdir. Buradan bu nəticəyə gəlirik ki, *Ağcaqaya* oykonimi "böyük müqəddəslərə, ululara məxsus qayalıqlarda yerləşən məkan, yer" deməkdir.

Ümumiyyətlə, mənbədə öz əksini tapan orooykonimlər dilçilik, tarix və coğrafi tədqiqat baxımından mühüm əhəmiyyət kəsb edir. Oykonimlərin bir qismi müxtəlif ictimai-siyasi çəkişmələr, Osmanlı-Səfəvi müharibələri, tayfa, nəsil və tirələrin yerdəyişməsi və s. nəticəsində dəyişdirilmiş, başqa adla əvəz edilmişdir. "İrəvan əyalətinin icmal dəftəri" və bunun kimi digər müfəssəl dəftərlər xalqımızın tarixini, keçmişini daha dəqiq öyrənməyə və tədqiq etməyə imkan verir. Xalqımızın soykökünü öyrənmək baxımından çox qiymətli və dəyərli olan "İrəvan əyalətinin icmal dəftəri" tarixi sənəd kimi mütəxəssislərin stolüstü kitabına çevrilmişdir.

ƏDƏBİYYAT

1. Axundov A. Torpağın köksündə tarixin izləri. Bakı: Gənclik,1983, 135 s.
2. Bağırov A. Naxçıvan oykonimləri. Bakı: Nurlan, 2008, 333 s.
3. Bağırov A. Naxçıvan toponimlərinin linqvistik xüsusiyyətləri. Bakı: Elm, 2002, 286 s.
4. Baxşəliyev V.Naxçıvan arxeoloji abidələri. Bakı: Elm, 2008, 304 s.
5. Budaqov B. Qeybullayev Q. Naxçıvan diyarının yer yaddaşı Bakı: Nafta-press, 2004, 120 s.
6. Budaqov B. Qeybullayev Q. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı: Oğuz eli,1998, 452 s.
7. Hacıyeva Q. Dilimiz, tariximiz, yaddaşımız. Bakı: Araz, 2008, 198 s.
8. İmanlı A. Qədim türk oykonimləri. Bakı: Ləman, 2017, 95 s.

9. İmanlı A. Tarixin izləri: yer adları. Naxçıvan: Məktəb, 2014, 94 s.
10. İrəvan əyalətinin icmal dəftəri. Bakı: Elm,1996, 184 s.
11. Гейбуллаев Г. К этногенезе азербайджанцев. Т.I, Баку: Элм, 1986, 192 с.
12. Qurbanov A. Azərbaycan onomologiyasının əsasları I c., Bakı: Nurlan, 2004, 340 s.
13. Qurbanov A. Azərbaycan onomologiyasının əsasları II c., Bakı: Nurlan, 2004, 504 s.
14. Rzayev F. Naxçıvan əhalisinin etnogenezi tarixindən. I c., Bakı: ADPU, 2013, 528 s.
15. Rzayev F. Naxçıvan əhalisinin etnogenizi tarixindən. II c., Bakı: ADPU, 2017, 589 s.
16. Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı: Yazıçı,1989, 500 s.

Джамила Магаррамова

ЛИНГВИСТИЧЕСКИЕ ОСОБЕННОСТИ ОРООЙКОНИМОВ НА ТЕРРИТОРИИ ИРЕВАНСКОЙ ПРОВИНЦИИ (ИСТОРИЧЕСКАЯ ТЕРРИТОРИЯ НАХЧЫВАНА)

В статье говорится об оронимических ойконимах, связанных с прототюркскими племенами, проживавшими на территории Нахчывана. Термин «оронимы» охватывает различные по структуре географические элементы, такие, как гора, ущелье, холм, равнина, поле, скала, крепость и т. д. Эти оронимы посредством добавления в конец или в начало слов образуют ороойконимы. На территории Иреванской провинции к ним относятся: Кюльтепе, Гаратепе, Тюлькутепе, Агджагала, Гараджагала, Галаджиг, Ширегала, Инджедере, Гёзелдере, Йеллидере, Дарашахбуз, Дереалпак, Дередашы, Агджагая. В статье выявлены новые научные результаты.

Ключевые слова: *Иреванская провинция, ойконим, ороним, ороойконимы, холм, овраг, крепость, скала.*

Jamila Maharramova

LINGUISTIC FEATURES OF ORO-OIKONYMS IN THE TERRITORY OF THE IREVAN PROVINCE (HISTORICAL TERRITORY OF NAKHCHIVAN)

The paper refers to the oronymic oikonyms associated with the proto-Türkic tribes living in the territory of Nakhchivan. The term "oronims" encompasses geographic elements of various structure, such as a mountain, a ravine, a hill, a plain, a field, a rock, a fortress, etc. These oronims form oroikonyms by adding words to the end or beginning of words. In the territori of the Irevan province, they include: Kültepe, Garatepe, Tulkutepe, Agjagal, Garajagal, Galadjig, Shiregal, Injeder, Gözelder, Jellider, Darashahbuz, Deralalpak, Deredash, Agjagay. The paper reveals new scientific results.

Keywords: *Irevan province, oikonym, oronym, oro-oikonym, hill, ravine, fortress, rock.*

(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)

NÜŞABƏ İSGƏNDƏROVA
Azərbaycan Texniki Universiteti
E-mail: Nushaba.isgandarova@gmail.com

MƏTNİN SEMANTİKASI

Məqalədə tamamlanmış, bitkin mətnin semantikası məsələləri araşdırılır. Mətnin başlanğıcından sonuna qədər bir-biri ilə əlaqələnərək mətn yaradan vahidlər arasında rabitə nə tam xətti, nə də tam ardıcıl olur. Tədqiqat göstərir ki, bir abzasın inisial və final cümlələri həmişə başqa abzasın vahidləri ilə bağlanmır. Bu cəhət sübut edir ki, mətn yüksək tərtibli qrammatik vahid və ciddi linqvistik obyektdir.

Açar sözlər: *mətn, mətn vahidi, mətnin xəttiliyi, abzas, inisial cümlə, final cümlə, semantika.*

Mətnin semantikası onun bütün mikrotemalarının paralel və zəncirvari məzmun əlaqələri ilə birləşərək tamlaşmış məzmunu kimi nəzərdə tutulur. Tam mətndə elə mikrotemalar olur ki, onlar daha böyük mikrotemanın yaradılmasında və ya mətnin ümumi məzmununu formalaşdıran temaların qavranmasında iştirak edirlər.

Bədii mətnin 14 mətnyaradıcı amili – tamlıq, əlaqəlilik, bitkinlik, mütləq antroposentiklik, sosiallıq, dialoqluq, açıqlıq, ardıcıllıq, statiklik, dinamiklik, gərginlik, estetiklik, obrazlıq, yozumluluq ondakı mikrotemalar bir-birini əvəz etdikcə formalaşan ümumi semantika və ya ümumi məzmunu yaradır. Mətnin bütün əlamətləri funksional-semantik və üslubi spektrlər arasında bölünür. Hissələrə bölünmə, koheziya, retrospeksiya və prospeksiya, inteqrasiya və tamamlanma, informativlik, avtosemantiklik, mətn parçaları, kontinium, modallıq semantik sahəyə daxil olur. Üslubi sahənin avtonom deyil, funksional və semantik sahə ilə bağlı olduğunu qəbul etsək, onda bu sahələrin mətn kateqoriyaları ilə adekvat dolmasını söyləmək olar. Funksional oblastda əsərin kompozisiyası, semantikada predmet, mövzu, ideya, üslub sahəsində isə dil və ifadə üsulları durur. Süjet mətnin üslubuna təsir göstərir. Müəllifin dil və ifadə üsulları elə effektlər yaradır ki, onlar süjeti ya lənglədirir, ya da irəli aparır.

Mətn ən yüksək tərtibli qrammatik vahid, ciddi linqvistik obyektdir. Mətn ona aid olan işarələr əsasında yaranmış kateqorial paradiqmalara malikdir. Bu paradiqmalar insan ünsiyyətinin vasitələri kimi çıxış edir. Mətn üç dayaq üçrində qurulur. Onun məzmun, konstruktiv və ifadə tərəfləri vardır. Müəllifin məqsədi rasional və emosional, şüurlu və şüursuz informasiyaları qarışdırmaq və sonda hər cür ünsiyyətin məqsədi olan mətni yaratmaqdır.

Praktik mətn quruculuğunun əsası eksplisitləşdirilmiş tema-rema dinamikasıdır. Mətnin yaradılmasının görünən, çox zaman isə implisit olan vasitəsi müəllif başlanğıcıdır. Linqvistik səviyyədə bu diktumdan daha çox, modus səciyyəsi daşıyır.

Mövzu əsası ilə informasiya axını əlaqəli şəkildə davam edir. Mətnin modusuna uyğun gələn müəllif başlanğıcı, sahə müxtəlif səviyyə vahidlərini əhatə edir. Mətnin bağlılıq prolemində, ilk növbədə, diqqəti cəlb edən mətnin düzgün və qeyri-düzgün qurulması və nəqletmə (narrativ) qrammatikası prinsipləridir. Bura müxtəlif predmet tamamlanması ilə fərqləndirilən tipoloji süjetlər də daxildir.

Mətnin təşkilində dil, paradil və mövzu vasitələrini əhatə edə tekstonik vasitələrdən istifadə olunur. Mətnə aid araşdırmaları nəzərdən keçirdikdə tədqiqatçıların (Q.V.Kolşanski, S.İ.Qindin, M.İ.Otkupşikova, Y.S.Sorokin, O.İ.Moskalskaya, V.V.Krasnıx, V.İ.Dressler, R.Boqrand və başqaları) əksəriyyəti mətnin əsas əlamətinin əlaqəlilik olduğunu qeyd edirlər. Təbii ki, hər bir mətnin məzmunu ardıcıl sıralanmış qarşılıqlı əlaqəli cümlələrlə açılır.

Əlaqəlilik bütün mətni hissələrə ayırmağa imkan verdiyi kimi, hissələri bir-biri ilə bağlayaraq bütöv mətn yaratmağa imkan verir. Əlaqəlilik -mikro və makrotekstləri müəyyənləşdirməyə əsas yaradır.

"Struktur planda tekstyaradıcı faktor kimi təkrarları xüsusi qeyd etmək lazımdır. Məlum olduğu kimi, mürəkkəb sintaktik bütövlərin təşkilində, qurulmasında təkrarlar möhkəm sistemə əsaslanırlar. Belə ki, təşkiledici, qurucu faktor kimi təkrarların müxtəlif struktur növlərindən və ya mürəkkəb olmasından asılı olmayaraq onlar sadə sementvari funksiyaya malikdir; təkrarlıq xüsusiyyəti mürəkkəb sintaktik bütövün qurulmasına xidmət edən təkrarlanan cümlənin müstəqilliyinə təsir edir, o, daha çox bütöv bir sistemin struktur vahidinə çevrildiyindən müstəqilliyini müəyyən qədər itirir, mətn hipertemasının struktur vahidinə çevrilir" [1, s.111]. Mətndə mürəkkəb sintaktik bütövlərin və ya mətn vahidlərinin təkrarı da mümkündür. Belə təkrarlar adi sintaktik təkrar hüdudlarını aşır.

Tam mətnin semantikasının şərhi onun mikrotemalarının ardıcıl semantik təhlili prosesində reallaşır. Bu məsələni bir hekayə (Nəcəfzadə Q. Ağgülün müharibəsi) əsasında araşdıraq. Adıçəkilən hekayə 30 müəllif abzasından ibarətdir. Birinci iki abzas belədir: *"Kəlbəcərin yeddi dolamasını üzü Taxtaya qalxırdıq. Soltan dayı qarşımıza gəldi və ilk sözü bu oldu ki, Ağgül azarlayıb. Ağgül inəyimizin adıdır. Anam ona "Şves" inək deyirdi. İndi bilirəm ki, bu, İsveçrə (Şvetsariya) cinsi demək imiş. Heç kəs bilmirdi bunu. Çünki o zaman bu cins Azərbaycana gəlmişdi, ya gəlməmişdi, bilmirəm, amma bizim tərəkəmələrdə yüz faiz yox idi, sadəcə, sözbaz olan tərəkəmələr uzun, enli və çox süd verən inəklərinə belə ad qoyurdular, bu da bir tərəfdən əzizləmə mənasını verirdi.*

Ağgülün əmcayinin biri kor idi, buna baxmayaraq, bir sağıma südü bir vedrəni doldururdu" [2, s. 119].

Mətnin başlanğıc nöqtəsində informasiya daxil edilir. Bundan sonra semantik cəhətdən bir-biri ilə əlaqələnən yeni vahidlər ilkin informasiyanın genişlənməsinə və yeni informasiyanın daxil edilməsinə xidmət göstərir. Mətnin müəyyən hissəsində informasiyanın qapanması, tamamlanması baş verir. Mətndə ümumi məzmun olduğu kimi, ümumi informasiya da olur. Ümumi informasiya bir çox digər informasiyaları özündə birləşdirir və ya bu tipli informasiyalar əsasında formalaşır.

Bədii mətnin başlığı da mətn vahidi olduğundan müəllifin daxil etdiyi ilk informasiya "Ağgülün müharibəsi" başlığıdır. Başlıqda, birinci və ikinci abzasda mətnyaradıcı vasitə olan distant təkrar (Ağgül) onomastik təkrarı işlədilmişdir. Birinci abzasda daxil edilən informasiyalar budaqlanır. Birinci informasiya *"Kəlbəcərin yeddi dolamasını üzü Taxtaya qalxırdıq"* cümləsindədir və iştirakçıların gediş məntəqəsini təyin edir. Abzasın ikinci cümləsi iki söyləmdən ibarətdir: 1) *Soltan dayı qarşımıza gəldi; 2) Ağgül azarlayıb.* Abzasın sonrakı hissəsi "Ağgül haqqında əlavə məlumatlar verir: 1) *Ağgül inəyimizin adıdır; 2) anam ona "Şves" inək deyirdi.* Abzasın sonrakı hissəsi son söyləmdəki "Şves" sözü və onunla bağlı digər məqamları aydınlaşdırmaq məqsədilə mətnə daxil edilmişdir. İkinci abzas bir mürəkkəb cümlədən ibarətdir və əvvəlki abzasla bağlanır. Bir abzasın final cümləsi özündən sonrakı abzasın inisial cümləsi ilə birbaşa bağlanmır. Bu abzasin müəyyənləşmə kriteriyasıdır. "Müəllif abzası" termini adresantın

abzasa bölgüsünün subyektiv səciyyə daşımasını nəzərə alır. Hekayə müəllifinin ayırdığı ikinci abzas, əslində, birinci abzasın davamı sayıla bilər. Çünki birinci abzasda "Şves" cinsinin çox süd verməsi haqqında informasiya ikinci abzasdakı informasiya (bir sağıma bir vedrə doldurmaq) ilə tamamlanır. Burada birinci mikritema qapanır.

III abzas da birinci mikrotemanın məntiqi davamıdır. IV-VII abzaslarda müəllif əsas tema ilə dolayısı ilə əlaqəsi olan mikrotemalara keçir. Bu mikrotemalar əsərin personajları – müəllif, Soltan və onların yaşadıqları yaylaq haqqındadır. VIII-XI abzaslar əsas temaya birbaşa bağlı olan mikrotemaları əhatə edir. Burada zaman baxımından daha əvvələ qayıtma vardır. Retrospeksiya əvvəl verilmiş məlumatın yaddaşda saxlanması və onun sonra verilən məlumatla birləşdirilməsidir. Retrospeksiya müxtəlif üsullarla reallaşır. Belə vasitələrdən daha çox istifadə olunanı təkrardır. Hekayədə bu vasitədən də istifadə edilmişdir. III abzasda "Anam Ağgülün azarlamasını eşidib, gözlərini bir yumub, beş tökdü", VIII abzasda "Anam ağlayır..." Birinci üç abzasda və 8-11-ci abzaslarda "Ağgül" təkrarı deyiləni təsdiq edir.

Prospeksiya müxtəlif dil formalarını birləşdirir. Prospeksiyada faktual məzmun informasiyası (hadisə və faktlar haqqında məlumat) mətnin sonrakı hissələrindəki məlumatla uyğunlaşdırmanı nəzərdə tutur. Bu kateqoriya həm bədii, həm də elmi mətnlər üçün səciyyəvidir.

Mətnin mikromətnlərə parçalanmasını bədii əsərlərdəki abzaslar aşkar göstərir. Abzasa mətbəə ayırması olaraq baxılsa da, onun linqvistik tekstoloji funksiyası vardır. Abzas semantik tam olan mikromətndir. Deməli, mətn semantik əlahidə duran mikromətnlərdən təşkil olunur. Bu məsələ mətn dilçiliyi üçün çox əhəmiyyətlidir. Mətnin təhlili onun semantik seqmentlərini təyin etməyi tələb edir. Semantik seqmentasiya bütöv mətn üzrə aparılmalıdır. Xüsusi halda bu təhlil mətnin həcmcə iri bir hissəsi əsasında araşdırıla bilər.

XII abzasda retrospeksiya ilə yanaşı zaman və məkan baxımından tamamlanmanın pozulması baş verir. VII abzasda müəllif nitqinə görə yaşayış məntəqəsinə – Taxtaya çatma baş vermişdir. Lakin XII abzasda "Soltan dayı "Ağgül azarlayıb" deyən kimi anam sürücüyə "maşını tez sür" – dedi" [2, s. 120].

Mətn hissələrinin avtomantikası bu hisslərin asılılığı və nisbi qeyri-asılılığı ilə bağlıdır. Asılılıq dərəcəsi bütün mətn və ya onun müəyyən hissəsi əsasında təyin olunur. Mətn kateqoriyası kimi avtosemantika qrafik, qrammatik, leksik, semantik, kompozisiya, üslub və digər vasitələrlə ifadəsini tapır. Leksik baxımdan mətn hissələrinin müstəqilliyi söz və söz birləşmələrində özünü göstərir. Qrammatik cəhətdən bu deyktik elementlərin işlənməsi, frazifövqi birliyin və ya abzasın eynitipli qurulmasının pozulması ilə üzə çıxır.

Mətn ünsürləri, elementləri bir-biri ilə müəyyən münasibətdə olur. Mətn əlaqələri sistemində koherensiya və koheziya xüsusi yer tutur. Bunlar fərqli anlayışlardır. Koherentlik mətnin leksik-semantik, qrammatik və üslubu aidliyi, eləcə də onu təşkil edən cümlələrin qarşılıqlı asılılığından ibarət tamlıqdır. Koherentlik koheziyanın leksik-semantik, sintaktik və üslubu növlərinin qarşılıqlı təsirinin nəticəsidir.

Mətn müəyyən vahidlərin əlaqələnmiş ardıcıllığından təşkil olunduğuna görə onun əvvəlki hissələrinin daşıdığı informasiya sonrakı hissələrdə təkrarlana bilir. Bu baxımdan mətn genişləndikcə, ona mətn vahidləri artırıldıqca informasiyanın həcmi dəyişir. Köhnə məlumatı yeniləri əvəz edir və bu zaman ötürülən informasiyalar arasında əlaqələr də qurulur. Köhnə informasiya dəyərliliyini itirir, yeni informasiya isə dəyərlilik qazanır. "İnformasiya hər hansı məlumat deyil, ancaq və ancaq hər hansı məlumatın yeni olan hissəsidir. Bu onun ciddi, xüsusi terminoloji mənasıdır" [3, s. 100].

Mətn ümumi informasiyanı tamamlamaq xüsusiyyətinə malik olmalıdır. Əks təqdirdə verilmiş cümlələrdən həm əvvələ, həm də sona istiqamətlənmiş informasiya natamamlığı mətni qapanmağa qoymur. "Mətnin quruluşunda özünü göstərən təkrarlıq hadisəsi struktur kompozisyon funksiya daşıyır. Bu özünü onda göstərir ki, təkrar komponentlə çərçivələndikləri zaman əlaqəli cümlələr toplusu bitkin frazafövqü birliyə çevrilir. Tekst qapanır və onun tərkibini bitmiş hesab etmək olar" [1, s. 208].

Poststrukturualist paradiqmada mətnin mahiyyəti "danışan-mətn-qulaq asan" triadasında sonuncu elementdən asılıdır. Mətn şərh üçün deyil, şərh üçün əsas verən vasitədir. Bədii ədəbiyyatda bu triadada birinci və sonuncu mövqedə duranlar dəyişir. Kommunikativ nöqteyi-nəzərdən mətnin mahiyyəti yalnız dil əlamətləri ilə təyin oluna bilmir, mətn məqsədyönlü fəaliyyətin məhsuludur.

Mətn mənanı generasiya edir. Ona görə mətnə həmsöhbət lazımdır. Həmsöhbət, müsahib, kommunikant kommunikativ aktın agenti kimi deyil, onun bilavasitə iştirakçısı olur. Dilin kommunikativ funksiyalarına aşağıdakılar aid edilir: 1) müəllifdən oxucuya məlumat ötürmək funksiyası; 2) kollektiv mədəniyyət yaddaşı funksiyası; 3) mətnin oxucunun həyata münasibətinin dəyişdirmə funksiyası; 4) mətnin oxucu ilə ünsiyyət funksiyası.

Təhlilə cəlb olunmuş hekayədə V, VI, VII abzaslarda dilin kommunikativ funksiyalarından olan – kollektiv mədəniyyət yaddaşı funksiyasını yerinə yetirən informasiya ötürülməsi baş verir.

Mətni öyrənərkən həm onun hissələrini, təşkiledicilərini müəyyənləşdirmək, həm də onların arasındakı əlaqə formalarını aydınlaşdırmaq vacibdir. Adətən mürəkkəb sintaktik bütövü mətnin əsas vahidi hesab edilir və mətnin başqa bir vahidi olan abzasla eyniləşdirilir.

Mətnin daşıdığı informasiyanın ümumi həcmi onun informativ zənginliyidir. İnformativ zənginlik mətnin mütləq göstəricisidir. İnformativlik isə nisbi göstəricidir. Bir cümlənin mətn olmaması informasiyanın dayanıqlığı, zaman və məkan daxilində dəyişməməsi ilə əlaqədardır. Mətnin başlanma və bitmə seqmentləri vardır. Lakin semantik seqment mətnin bitmə hissəsində yerləşsə də, onun mətnin başqa daxili hissələri ilə əlaqəsi qoruna bilir.

Mətndə inteqrasiya, retrospeksiya və informativlik yalnız bütöv mətnə deyil, onun bütün hissələrinə aid olur. Mətnin ayrılıqda götürülmüş və onun vahidi sayılan hər bir hissədə tamlıq və bitkinlik, eləcə də informativlik mütləq, retrospeksiya isə mütləq deyildir. Mətnin kommunikativ tamlığı onun tərkib hissələrinin, seqmentlərinin ilkin və ya birincisindən başlanaraq bir-birini xətti və qeyri-xətti izləməsi və sonuncu vahiddə onu qapasıdır. Mətn bir nöqtədən başlanır, davam edir və bitir. Son nəticə olaraq tam mətn yaranır. Tam mətnin müəyyən məzmunu olur. Bu məzmunun bir cümlə ilə izahı çətin olsa da mümkündür.

Müəllifin kommunikativ niyyəti onun özünə bəllidir. Çünki müəllif əsəri yazmağa başlayarkən kommunikativ tamın əsas məqsədini və əsas məzmununu özü üçün müəyyənləşdirmişdir. Əsəri qələmə almaq müəllifin nəzərdə tutduğu məzmunu ötürməyə xidmət edir. Bu məqsədlə müəllif dil vasitələrindən istifadə edir və həmin vasitələri bir-biri ilə əlaqələndirərək mətn vahidlərinə, seqmentlərinə çevirir. Seqmentlər də bir-biri ilə bağlanır. Beləliklə, mətn səviyyəsində kommunikasiya getmiş olur. Mətnin kommunikativliyi onun oxucu tərəfindən qavranma dərəcəsi ilə ölçülür. Mətndə onu yaradan şəxsin nitq fəaliyyəti ifadəsini tapır. Bu fəaliyyət eyni zamanda məni oxuyan, dinləyən şəxsin qavrama qabiliyyətini nəzərə alır. Mətnin quruluş nöqteyi-nəzərindən tədqiqi məsələləri onun kommunikativ hadisə olmasından çox zaman yan keçir. Mətn kommu-

nikasiyası mətni yaradanla oxucu arasında deyil, mətnlə oxucu arasında gedir. Ona görə də bu ünsiyyət kommunikantların dialoq iştirakçısı olması tələbini ortaya atmır. Bədii mətnin daxilində müxtəlif personajlar arasında ünsiyyət və kommunikativ aktlar baş verir. Bu zaman dialoq iştirakçıları nitq aktlarından istifadə edərək informasiya mübadiləsində olur. Oxucu isə hər bir belə dialoqdan ümumi informasiyanı alır, bu informasiyanın mahiyyətini qavrayır və belə proses mətn-oxucu kommunikasiyasını təmin edir.

Mətn müəyyən vahidlərin əlaqələnmiş ardıcıllığından təşkil olunduğuna görə onun əvvəlki hissələrinin daşıdığı informasiya sonrakı hissələrdə təkrarlana bilir. Bu baxımdan, mətn genişləndikcə, ona mətn vahidləri artırıldıqca informasiyanın həcmi dəyişir. Köhnə məlumatı yenilərі əvəz edir və bu zaman ötürülən informasiyalar arasında əlaqələr də qurulur. Köhnə informasiya dəyərliliyini itirir, yeni informasiya isə dəyərlilik qazanır.

Təhlil olunan hekayənin XXI abzasında oxuyuruq: "Bir gün Ağgül xəstələndi, heç nə yemədi, yelini əriməyə başladı. Taqətdən düşürdü. Daha ona qurban deyən yoxdur. Anam bir dəfə onun nəğməsini oxusaydı, bəlkə də sağalardı. Hanı anam?" [2, s. 121].

Hekayənin əvvəlində daxil edilmiş aparıcı informasiya Ağgülün azarlaması idi. Müəllif bundan sonrakı nəqletmədə də inəyin xəstələnməsi ilə bağlı müxtəlif informasiyaları ötürür. Burada əsas fərq Ağgülün müəllifin anasının sağlığında və anasının ölümündən sonrakı xəstələnməsidir. Fərqli zaman və fərqli situasiya yaradılır. Mətnin ümumi semantikası bununla açılır. Ananın sağlığında azarlayan Ağgül sağalır, ananın ölümündən sonra xəstələnən Ağgül isə sağalmır. Ağgül onu sevən və əzizləyənin ölümünə müharibə elan edir. Başlığın əsas semantik yükü bu məqamda açılır.

Mətnin vahidinə münasibətdə aparıcı mövqe bu vahidin cümlədən böyük olması şərtidir. Əgər sadə cümləni nəzərdə tutsaq, onda hər cür mürəkkəb cümlənin iki və daha artıq sadə cümlədən təşkil olunması faktı mürəkkəb cümləni mətnin minimal vahidi qəbul etməyə əsas verəcəkdir. Lakin mətn dilçiliyində məsələ sadə və ya mürəkkəb cümlə ilə məhdudlaşdırılmır, eyni zamanda iki sadə cümlənin, bir sadə bir mürəkkəb, həmçinin iki mürəkkəb cümlənin ardıcıllığı da mətn vahidini təyinetmə şərti olaraq seçilmir. Mətn vahidinin müstəqilliyi, avtonomluğu, semantik tamlığı daha vacib amildir. Ona görə də "müstəqil semantik vahid" anlayışını ortaya atmaq lazım gəlir. Anlayış öz mənasına görə, ümumi səciyyə daşıyır, onu hətta leksem səviyyəsinə qədər endirmək mümkündür. Çünki hər bir leksik vahidin semantikası vardır və bu vahid müstəqildir. Qabaqcadan belə bir şərti qəbul etmək lazımdır ki, anlayış mətn səviyyəsini əhatə edir. Deməli, məsələ mətnin müstəqil semantik vahidlərinin hansı parametrlər üzrə təyini məsələsi qoyulur və bu məsələ bilavasitə mətnin kateqoriyaları ilə bağlılığa malikdir. Mətnin kateqoriyası onun əlamətləri məcmusudur. Tam əsər, eləcə də onun hissələri müəyyən kateqorial əlamətlərə malikdir. Bu əlamətlərin qarşılıqlı münasibəti mətni yaradır.

Müəllif bəzi məqamlarda informasiyanı intensiv daxil edirsə, başqa məqamda onu ekstensiv daxil edir. "Mikrotekstin komponentləri arasında zaman, ardıcıllıq, sadalama, qarşılaşdırma və s. kimi məntiqi-semantik əlaqələr aşağıdan yuxarıya doğru inkişaf etdikcə tərkib və məzmun baxımından daha da zənginləşir. Təbii ki, makromətndə əsas birləşdirici şərt mətnin hipertemasıdır, o, makromətn şəraitində makromətn hipertemasından fərqlənir; əsas fərq informasiya radiusundadır. Makromətndəki informativlik çoxtərəfli, geniş, hətta bəzən həddsiz genişdir" [4, s.5].

Bədii mətndə təsvir olunanlar, bir qayda olaraq oxucunun görə bilmədiyi, hiss etmədiyidir. Müəllif bədii əsəri yaradır. O, eşitdiyi və ya gördüyü, təsəvvür etdiyi hadisələri qələmə alır. Bu zaman müəllif yaratdığı obrazın hansı hissləri keçirməsi üzərində düşündüyü kimi, obyekt və hadisəni təsvir edərkən nəyin vizual göründüyünü, nəyin

eşidildiyini aydınlaşdırır. Müəllif məkan haqqında danışmırsa və yazmırsa, oxucu bu məkanı təsəvvür etmir və ya öz fərdi münasibətinə görə belə bir məkan yaradır. Bütün bunlar hadisə və predmetlərin oxucu tərəfindən görünməyən, eşidilməyən tərəflərinin təsviri məsələsini ortaya atır. İnsanın keçirdiyi hisslər yalnız onun danışığı ilə üzə çıxmır. İnsanın psixoloji durumu onun bədən hərəkətlərində, mimikasında, zahiri görünüşündə çıxartdığı səslərdə də təzahür edir. Bunlar isə baş verənlərdir və oxucu əsəri, onun personajlarını dərk etmək üçün bu hallardan xəbərdar olmalıdır.

Mikromətndən bəhs edilərkən onun bir mənada sintaktik bütövlərə uyğun gəlməsini söyləyirlər. Sintaktik bütöv – əlaqəli nitqin (mətnin) cümlədən böyük elə bir bitkin mənalı parçasıdır ki, onu bir daha bitkin mənalı mətnlərə ayırmaq olmaz. Bu baxımdan sintaktik bütövlər morfemləri xatırladır. Morfem dilin bir daha mənalı vahidlərə parçalana bilməyən ən kiçik mənalı vahidləri olduğu kimi, sintaktik bütövlər də mətnin bir daha bitkin mənalı mətnlərə bölünə bilməyən ən kiçik mənalı parçasıdır. Mətn başlanır, tədricən genişlənir və sonda tamlanır. Mətnin həcmi geniş olduqca onun tərkib hissələrini bir-biri ilə əlaqələndirən bağlar da bir o qədər çox olur. Tam mətnin özü də bitmir, semantik inkişafı perspektivləri ilə qalır. Aktual üzvlənmə mətndən kənara çıxan xətlər, istiqamətlər qoyur. İstiqamətlər həm temaları, həm də remaları əhatə edir.

İfadənin quruluşu (onun tərkibinə daxil olan dil işarələri) və dərinlik quruluşu (ondakı informasiyanın miqdarı) üst-üstə düşmür. Məsələn, mətndəki sözlər az, məzmun isə geniş ola bilər [5, s. 321].

Mətn vahidinin yaradılma (müəllif) və ünvanlanma (adresat) elementləri kommunikativ prosesin öyrənilməsi üçün xüsusi əhəmiyyət kəsb edir. Bu məsələ mətn və mətn vahidi səviyyəsində kifayət qədər tədqiq edilməmişdir. İstənilən mətn hissəsinin müəllifi vardır. Kommunikasiya prosesində informasiya mətn və ya mətn vahidləri vasitəsilə ötürülür. Mətnin həcmi artdıqca onun daşıdığı informasiya da artır. Mətnin semantik tamlığı onun kommunikativ vahidlərinin bir-biri ilə əlaqəli şəkildə daşıdığı informasiyanın bütün mətn boyu paylanır, ümumi məzmunla və adresata təsirlə əlaqədar yaratdığı məzmunun vəhdətini təşkil edir.

ƏDƏBİYYAT

1. Abdullayev K. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı: Maarif, 1998, 399 s.
2. Nəcəfzadə Q. Ağgülün müharibəsi // "Azərbaycan" jur., Bakı, 2014, № 2, s. 119-121.
3. Касевич В.Б. Элементы общей лингвистики. Москва: Наука, 1977, 263 s.
4. Kazımov Q. Ön söz //Abdullayev Ə. Aktual üzvlənmə, mətn və diskurs. Bakı: "Zərdabi LTD", 2011, s. 5-21.
5. Валгина Н.С. Функциональные стили русского языка. Москва: Высшая школа, 1994, 302 s.

Нушабе Искандерова

СЕМАНТИКА ТЕКСТА

В статье рассматриваются вопросы семантики полного, законченного текста. Единицы текста от начала до конца связываны между собой. Исследование показывает, что связь единиц текста не линейна и не последовательна. Инициальные и финальные предложения одного абзаца могут связываться не с единицами последующего абзаца. Данный факт доказывает, что текст сам по себе является грамматической единицей высшего уровня, а также строгим лингвистическим объектом.

Ключевые слова: *текст, единица текста, линейность текста, абзас, начальное предложение, финальное предложение, семантика.*

Nushaba Isgenderova

TEXT SEMANTICS

The paper studies questions concerning with the semantics of the text, which is completed and full. Units of the test are connected from the beginning to end with each other. The search reveals that connection of the text's units is not linear and sequential. Initial and final sentences of a paragraph also cannot connect with units of following paragraph. This fact justifies that a text is a grammatical unit of high level and also strict linguistic object.

Keywords: *text, text unit, text linearity, paragraph, initial sentence, final sentence, semantics.*

(Filologiya üzrə elmlər doktoru İlham Tahirov tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2018, № 1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2018, № 1

PROCEEDINGS OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES NAKHCHIVAN BRANCH OFFICE
The series of social sciences and humanities, 2018, № 1

FOLKLOR VƏ ƏDƏBİYYAT

FƏRMAN XƏLİLOV
AMEA Naxçıvan Bölməsi
E-mail: fermanhalilov@yahoo.com

SEYİD SƏBRİNİN FELYETONLARI

XX əsr Naxçıvan ədəbi mühitinin yetirməsi olan S.Səbri (1896-1974) bir sıra məqalə, şeir və pyeslərlə yanaşı, müxtəlif aktual mövzularda yazılan felyetonların da müəllifidir.

Məqalədə ilk dəfə olaraq S.Səbrinin indiyədək heç yerdə çap olunmayan felyetonları tədqiqat obyektinə çevrilmişdir.

Müəllif araşdırmalar nəticasində belə qənaətə gəlmişdir ki, "Molla Nəsrəddin" ədəbi məktəbinin ənənələrinin S.Səbrinin felyetonlarına müəyyən təsiri olmuşdur. Dövrünün bir sıra vacib problemlərinə həsr olunan bu felyetonlar mövzu və məzmunu, kompozisiya və süjeti, bədiilik səviyyəsi baxımından felyeton janrının tələblərinə tamamilə cavab verir.

Açar sözlər: *Seyid Səbri, Naxçıvan ədəbi mühiti, felyeton, "Molla Nəsrəddin" ədəbi məktəbi, publisistika.*

Hələ orta əsrlərdə müxtəlif müəlliflərin yol qeydləri, təzkirə, risalə və məktublarında bəzi elementləri ilə rastlaşdığımız Azərbaycan publisistikası XIX əsrdə M.F.Axundzadənin ədəbi-tənqidi və fəlsəfi əsərləri ilə həyata vəsiqə almışdır. M.F.Axundzadənin ənənələrini davam etdirən H.Zərdabidən C.Məmmədquluzadəyədək bir sıra tanınmış Azərbaycan ədibləri isə onu kamala çatdırmışlar.

"Şərqi-Rus"da yavaş-yavaş cücərtiləri görünən felyeton janrı isə XX əsrin əvvəllərində yeni inkişaf mərhələsinə qədəm qoyaraq Azərbaycan publisistikasının əsas janrına çevrilmişdir.

1921-ci ildən nəşrə başlayan "Şərq qapısı" qəzeti də Azərbaycan felyetonçuluq ənənələrini davam etdirməyə səy göstərmiş və öz səhifələrində bu janra müəyyən qədər yer ayırmışdır. Qəzetin 1922-1930-cu il nömrələrində "Balaca felyeton" ümumi başlığı altında nəzmlə yazılan və dərc olunan felyetonlara tez-tez rast gəlmək olur. "Şərq qapısı" qəzetinin fəal müxbirlərindən biri kimi Seyid Səbri (1896-1974) də bu ənənələrdən faydalanaraq felyeton janrına müraciət etmişdir. Lakin təəssüf ki, hələlik S.Səbrinin nə "Şərq qapısı"nda, nə də digər mətbuat orqanında dərc olunan bircə felyetonunu da aşkara çıxara bilməmişik. Halbuki onun bizə çatan əlyazmaları içərisində həm nəzm, həm də nəsrlə yazılan felyetonlar vardır. AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunda mühafizə olunan [1] həmin əlyazmalara istinad edərək S.Səbrinin felyeton yaradıcılığı haqqında müəyyən mülahizələr irəli sürmək mümkündür.

Əvvəla, diqqəti ona cəlb etmək istəyirik ki, S.Səbrinin felyetonlarında "Molla Nəsrəddin" ədəbi məktəbi ənənələrinin təsiri açıq-aşkar hiss olunur. Məsələn, o da mollanəsrəddinçilər kimi öz felyetonlarını nəsrlə başlayıb nəzmlə bitirməyə daha çox üstünlük vermişdir. Onun felyetonlarının dili və üslubunda, həmçinin təhkiyə tərzində və ifşa üsullarında da mollanəsrəddinçilərdən "bir duz" tapmaq olar. İlk qələm təcrübəsi hesab etdiyimiz adsız bir felyetonunda M.Ə.Sabirin xalq arasında çox məşhur olan "Nə bərəldirsən, a qare, gözünü, Yoxsa əyri görürsən bu ayinədə özünü" misralarını epiqraf verməsi də onu sübut edir ki, S.Səbri mollanəsrəddinçilərin satirik irsinə biganə qalmamış, onların ənənələrini davam etdirməyə maraq göstərmişdir.

Felyetonun əsas tənqid hədəfləri "xalqdan artıq pul alaraq dövlət qanunu pozan" və "xaltura" ilə məşğul olan taksi və dövlət maşınlarının sürücüləridir. Müəllif felyetonu mollanəsrəddinsayağı bir manevrlə başlayır: "Allah ölənlərinizə rəhmət eləsin. Mənim rəhmətlik anam deyərdi ki, hər kəs sənin eybini üzünə desə, ondan incimə, bil ki, o sənin gələcək xeyrini deyir. Amma nədənsə indi bəzi adamların eybini deyəndə acığına gəlir, adamdan burnunu əyir, qaş-qabağını sallayır" [1, qovluq 2, s. 27].

Sonra ustalıqla oxucuların diqqətini əsas tənqid hədəfinə yönəldir: "Bax, misal üçün, gəlin taksi şoferlərinin hansı birini istəyirsən çağıraq deyək: Ay bala, maşının pəs sayğacı hanı? Nə üçün xalqdan artıq pul alaraq dövlətin qanununu pozursan? O saat görəcəksən səndən incidi, burnunu bir qarış salladı".

Vaxtilə "özünü aynada əyri görənlər" M.Ə.Sabir demişkən, "gözlərini bərəldirdilərsə", S.Səbridə onlar "burnunu sallayırlar". Lakin buna baxmayaraq müəllif öz mövqeyindən geri çəkilmir: "Dayım da... deyir ki, sənin borcun gördüyün nöqsanları yazmaqdır (yenə Sabir yada düşür: Şairəm, çünki vəzifəm budur əşar yazım, Gördüyüm nikü bədi eyləyim izhar yazım). Mən də deyirəm, indi ki, məcbur edirsən, qulaq as, deyim:

Gözünüz aydın olsun, şəhrimiz abadlaşıb,
Keçmiş fayton yerinə indi taksi bollaşıb.
Yollar təmir olunub, küçələr asfaltlaşıb,
Taksi sürən şoferlər yol azıb çaşbaşlaşıb.

Şeirin bundan başqa üç bəndi də vardır. Həmin bəndlərdə müəllif felyetonun nəsr hissəsini ümumiləşdirir və tamamlayır.

S.Səbrinin "Sözə baxmaq ədəbdəndir" felyetonu isə sanki yuxarıda təhlilini verdiyimiz felyetonun davamıdır: "O gün dayımım sözündən keşmədim taksi sürən şoferlərin "fəaliyyətindən" bir az danışdım. İndi də xalam məni taxıb şişə, tutub təndirə ki, gərək su kəmərinin "fəaliyyətindən" mənim üçün danışasan" [1, qovluq 2, s. 28]. Lakin bu felyeton əvvəlkindən fərqli olaraq başdan axıradək güclü kinayə üzərində qurulub. Həmin felyetondan aşağıda nümunə verdiyimiz parça tənqid hədəflərini oxuculara nişan verməklə yanaşı, müəllifin satirik qələminin kəsərini də gözlərimiz önündə canlandırır: "Allaha şükür, su kəmərinin suyuna nə gəlib. Həmd olsun allaha, elektrik işığının gücündən xalqın gözü qamaşdığı kimi, su da camaatı boğmaq üzrədir. İkinci su kəməri başlanandan az qalır ki, yer üzünü su bürüsün, su Haça dağın başına qalxsın. Hərgah mən də başlasam tərifə, onda su kəməri işçilərinin qoltuqları şişər, suyu daha da artırarlar. O zaman ki, su ölkəmizin hər yerini basar. Həzrəti-Nuhun gəmisi də hazırda yoxdur ki, barı onu minib nicat tapaq. Amerikanlar da gəmini axtarmaq fikrinə düşüblərsə də, hələ tapa bilmirlər. Hərgah onların arzuları gözlərində qalmasa, gəmini tapa bilsələr, onda mən də su kəmərini tərifə başlaram".

Naxçıvandakı su qıtlığından kinayəli bir dillə söz açan müəllif bunun səbəbini vurğulayaraq yazır ki, su kəmərlərinin çəkilməsinə "minlərlə, milyonlarla pullar xərclənməsinə" baxmayaraq, aid təşkilatların məsuliyyətsizliyi üzündən "yeraltı mişovullar... torpağı qazıb doldururlar suyun trubalarına, qoymurlar ki, əməlli-başlı su gəlsin".

Olan-qalan suyun əhaliyə verilməməsinin səbəbini isə müəllif xalasının dili ilə oxuculara çatdırır: "Xalam deyir ki, yox, sən bilmirsən, su əməlli-başlı gəlir, ancaq suyu satırlar pencər əkənlərə. Onlar da pencərin bir balaca dəstəsini od qiymətinə sırıyırlar bizim gərdənimizə. Ona görə də su camaatın içməsi üçün azlıq edir".

Felyeton beş bəndlik şeirlə bitir. Sonuncu bənd belədir:

Gəl soyunaq paltarı, girək bu gün meydana,
Həqq sözdən heç incimək yaraşmayır insana.
Əgər bacarmayırsan, çəkil sən dur bir yana,
Qoy tapılsın yerinə bacarıqlı birisi,
Desinlər əhsən sənə bu cür kəmər işçisi.

Sonuncu misrada S.Səbrinin "Şərq qapısı" qəzetində dərc olunan "Su işçilərinin yaxşılarını istifadə etməli" adlı iki cümləlik yazısının son cümləsi ilə səsləşir: "Naxçıvan şəhərində su işini islah etmək üçün Naxçıvanda yaşayan, su işində bacarıqlı olan şəxslərdən istifadə edilməlidir" [2, s. 4].

Güman edirik ki, S.Səbri heç vaxt "Şərq qapısı" redaksiyasına iki cümləlik məqalə göndərməzdi. Yəqin ki, o, bəlkə də elə bu felyetonunu çap üçün göndərmiş, redaksiya isə onu ixtisar edərək iki cümlə şəklinə salmışdır. Buradan həm də o nəticə çıxır ki, S.Səbrinin yuxarıda bəhs etdiyimiz felyetonları 1926-cı ildən gec yazıla bilməzdi. Lakin maraqlı burasıdır ki, S.Səbri 1963-cü ildə yazdığı "Salma məni nəzərdən" felyetonunda yenə bu mövzuya qayıtmışdır: "İcazə verin qeybət yox, gördüyümü sizə nəql eyləyim... Keçən ildən Əli Bayramlı məhəlləsində, Puşkindən (feldşer məktəbinin yanından), Bakı, Tbilisi, Lermantov və Əzizbəyov küçəsinin qurtaranı Sovetabad, Çelyuskin küçəsinə kimi bir neçə yerdə su qrantları qoyuldu. Bu qrantlar bu yaxın vaxta kimi fəxri qarovul vəzifəsində dayanıb, su aparmaq istəyən ana-bacılarımızın üzlərinə şüğülzümmə ölü kimi gözlərini bərəldirlər" [1, qovluq 2, s. 31].

Felyetonda əsas mövzuya keçid üçün də maraqlı priyomdan istifadə edilmişdir. Müəllif bildirir ki, müğənnilik eşqinə düşübdür və səsini yoxlamaq üçün bir-iki mahnını oxumaq istəyir, lakin alınmır. Nəhayət, "Küçələrə su səpmişəm" mahnısının avazı ilə oxumağa başlayır:

Küçələrdən su kəsmişəm,
Çün hörmətim azalmasın.
Var gücünlə yalvar mənə,
Yalvarışın az olmasın.
Nə qədər ki, zəhmət çəkib
Uzaqdan su gətirəsən,
Bil ki, savab qazanırsan
Qoy savabın az olmasın.

Əsas mövzuya keçid belə olur: "Ölənlərinizə rəhmət, rəhmətlik anamın yanında güzəm adı çəkəndə sığəsi Güzəməli kişi yadına düşərdi. İndi mən də su mahnısını oxudum, su kəməri yadıma düşdü".

S.Səbrinin 1936-ci ildə qələmə aldığı "Söhbət" felyetonu əvvəlkilərdən fərqli olaraq dialoq formasındadır. Felyetonda yumoristik şəkildə Bici və Gici adlandırılan iki şəxsin dialoqu oxuculara çatdırılır:

"Bici: Mən savadsızlığımı ləğv etmişəm.
Gici: Yaxşı, onda de görüm hansı ölçüləri bilirsən?
Bici: Mən hamı ölçüləri bilirəm. Məsələn, uzunluq, dərinlik, enlilik.
Gici: Yox canım, mən bu ölçüləri demirəm.
Bici: Bəs hansı ölçüləri deyirsən?

Gici: Mən quyruq ölçüsü deyirəm.
Bici (gülür): Necə yəni quyruq ölçüsü?
Gici: Bə, bə, quyruq ölçüsü.
Bici: Axı hansı quyruq, nə quyruq? Tülkü quyruğu. Dovşan quyruğu?
Gici: Yox, adam quyruğu" [1, qovluq 2, s. 36]

Felyetonu oxuduqca aydın olur ki, havadarı haraya işini dəyişirsə, oraya gedən qabiliyyətsiz adamlar S.Səbrinin təbirincə, "quyruq"dur.

M.Ə.Sabirin "İki həpəndin söhbəti"ni xatırladan bu felyetonda müftəxorluq, tüfeylilik və biganəlik də tənqid hədəfinə çevrilir.

S.Səbrinin "Yapma-boyalı adətlər" felyetonu nisbətən sonralar – 1966-cı ildə yazılmışdır. Felyetonda hələ bu gün də öz aktuallığını itirməyən bir məsələyə – müəllifin "yapma-boyalı" adlandırdığı xoşagəlməz toy adətlərinə toxunulur. Felyeton bütün oxucuların razılıqla qarşılayacağı cümlələrlə başlayır: "Azərbaycan xalqının içərisində gözəl adət və ənənələr vardır. Onlardan birisi də övlad toyu – oğul evləndirib, qız ərə verməkdir, toy büsatı təşkil edərək şənlənməkdir. Çalmaq, oxumaq, yallı getmək və hətta kənd yerlərində güləşmək və yeyib-içib şadlanmaq, fərəhlənməkdir" [1, qovluq 1, s.102].

Sonra keçmişin toy adətlərindən söz açaraq onların əsl milli dəyərlərə malik olmasını vurğulayan müəllif "indi isə bu toy büsatına yapma əlavələr, heç də uyğun olmayan boyaların vurulmasına" diqqəti yönəldir. Hansılardır bu "yapma-boyalı adətlər?" Müəllif bu sualın cavabını belə verir: sünnət toyu və böyük toy məclislərini "hərrac bazarına döndərib, beş yüz və daha çox dəvətnamə paylamaq", pul yığmaq üçün "məclis başlanan kimi qapı ağzına bir masa qoyub üzərinə bir vaz şirniyyat, bir xırda çamadan, bir dəftər-qələm qoyaraq iki nəfər yaxın şəxs həmin masanın arxasında oturub ərzaq anbarına keşik çəkən gözətçi kimi çağırılmış qonaqların keşiyini çəkmək".

Belə "adətlərin" qəbuledilməzliyini çılpaqlığı ilə diqqətə çatdıran S.Səbri acı gülüşlərlə dolu qəzəbini də gizlədə bilmirdi: "Bəla burasıdır ki, bir nəfər soruşan yoxdur ki, desin: Əzizim, sən məni şadlıq günüvə qonaq dəvət etməyin hara, qapını kəsib pul almağın hara? Qonağa yemək-içmək verib pul almaq hansı qanunda, hansı kitabda, hansı dində, məzhəbdə, şəriətdə yazılıb?"

Müəllif qadınların "uşaq doğmaq, ad qoymaq, yeddi eləmək, ev tikdirmək, təndir qoymaq" münasibətilə "qonaqlıq düzəldib məclishaqqı alınmasının" da keçmişdəki milli ənənələrlə heç bir əlaqəsinin olmadığını göstərir.

Felyetonun sonunda verilən doqquz beytlik "borcumuzdur" rədifli şeiri isə müəllifin fikirlərini ümumiləşdirmək baxımından əhəmiyyətlidir:

Ərsəyə gətirmək həm oğlanı, həm də qızı,
Onların ulduzların barışdırmaq borcumuzdur.
Toplanmalıdır qohumlar, qonşular, dost-aşnalar,
Beş yüz dəvətnamə yazmaq da məcburi borcumuzdur?
Qövm-əqraba gələr, xeyir-dualar söyləyərlər,
Qapı ağzında masa qoymaq da borcumuzdur?
Tükəzban doğubdur, ay qız, bu gün həftəsidir,
Fatma təndir qoyub, küfləsini açmaq da borcumuzdur?

Beləliklə, apardığımız təhlillərdən aydın olur ki, S.Səbrinin felyetonları mövzu, məzmun və ideyası, kompozisiya və süjeti, ümumi və konkretfaktlı olması baxımından bu janrın tələblərinə tamamilə cavab verir. Müəllifin ictimai fakt və hadisələri seçib mətnə daxil etməsi və onları müqayisələndirməsi, satirik və yumoristik gülüşdən məharətlə istifadəsi də göstərir ki, o, bu janrın tələblərini yaxşı bilmiş və onun gözəl nümunələrini yaratmağa nail olmuşdur.

ƏDƏBİYYAT

1. Naxçıvanın elm, mədəniyyət, ədəbiyyat və maarif xadimlərinin şəxsi arxivi. Seyid Səbri. AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondu. Q-1, qovluq 1-11.
2. Səbri S. Su işçilərinin yaxşılarını istifadə etməli // "Şərq qapısı" qəz., 1925, 8 sentyabr.

Фарман Халилов

ФЕЛЬЕТОНЫ СЕИДА САБРИ

С.Сабри (1896-1974), являвшийся воспитанником нахчыванской литературной среды, наряду с рядом пьес, статей и стихотворений, был также автором фельетонов, написанных на различные актуальные темы.

В статье впервые объектом исследования стали до сих пор нигде не публиковавшиеся фельетоны С.Сабри.

Автор в результате исследования пришел к выводу, что традиции литературной школы журнала «Молла Насреддин» оказали определенное влияние на фельетоны С.Сабри. Посвященные ряду насущных проблем того времени, эти фельетоны с точки зрения темы и содержания, композиции и сюжета, художественного уровня полностью отвечают требованиям данного жанра.

Ключевые слова: *Сеид Сабри, литературная среда Нахчывана, фельетон, литературная школа «Моллы Насреддина», публицистика.*

Farman Khalilov

SEYID SABRI'S FEUILLETONS

The author of the 20th century Nakhchivan literary environment, S.Sabri (1896-1974) is also the author of feuilletons in various topical themes besides a number of articles, poems and plays.

In this article, for the first time, S.Sabri's feuilletons that never published anywhere were the research object.

In the result of investigations, the author has come to such a conclusion that the traditions of "Molla Nasraddin" literary school had some influences to S.Sabri's feuilletons. These feuilletons, dedicated to a number of important problems of his century, meet the requirements of the genre of the feuilletons thoroughly in terms of theme and content, composition and plot and artistic level.

Keywords: *Seyid Sabri Asadli, literary-cultural environment of Nakhchivan, feuilleton, "Molla Nasraddin" literary school, publicity.*

(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)

ABİD TAHİRLİ
AMEA Ədəbiyyat İnstitutu
E-mail: habidtahirli@gmail.com

ABAY DAĞLININ "FÜZULİ" PYESİ – "...MİLLİ DUYĞUNUN MÜMTAZ MƏHSULU"

Mühacirət ədəbiyyatının tanınmış nümayəndələrindən Abay Dağlı 1968-ci ildə İstanbulda nəşr etdirdiyi "Füzuli" pyesində dahi Azərbaycan şairi Məhəmməd Füzulinin bədii obrazını yaratmışdır. Məqalədə pyesin ideya-məzmunu, sənətkarlıq məsələləri, Füzuli və digər obrazların xarakterik xüsusiyyətləri təhlil olunur, onların həyat və düşüncə tərzi ilə bağlı mülahizələr irəli sürülür, əsərin aktuallığı və əhəmiyyəti nəzərə çatdırılır.

Bu pyesiə Abay Dağlı nəinki mühacirət, eləcə də bütövlükdə Azərbaycan ədəbiyyatında ilk dəfə Məhəmməd Füzulinin bədii obrazını yaratmağa müvəffəq olmuş və "ədəbiyyatımızın mühüm bir əksliyini tamamlamışdır". Əsərin başlıca ideyası odur ki, xalq böyük şəxsiyyətləri, qüdrətli sənətkarları, milli-mənəvi irsi, adət-ənənələri ilə tanınır, tarixdə qalır. Nəsildən-nəslə ötürülən bu dəyərlər xalqın qürur, iftixar mənbəyi və dik başla yaşamağa əsas verən stimuludur.

İdəyaca aktual və məzmun baxımından maraqlı olan pyesdə Füzuli əsasən eşq-məhəbbət motivi və yaradıcılıq qayəsi kontekstində işlənsə də, bitkin obraz təəssüratı yaradır və dahi şairin bir mütəfəkkir kimi qavranılması, dünyagörüşünün açıqlanması baxımından da əhəmiyyət kəsb edir.

Açar sözlər: *mühacirət ədəbiyyatı, Abay Dağlının pyesləri, "Füzuli" pyesi, Əli Nihad Tərlan.*

Azərbaycan ədəbiyyatında tarixi mövzulu dramaturgiyanın uğurlu nümunələri çoxdur. Cəfər Cabbarlı, Hüseyn Cavid, Səməd Vurğun, İlyas Əfəndiyev, Bəxtiyar Vahabzadə kimi... sənətkarlar əsərləri, əməlləri ilə xalqımızın tarixində və taleyində rol oynamış şəxsiyyətlərin həyat yoluna müraciət etməklə bir tərəfdən milli-mənəvi dəyərlərimizin güc, ilham, yenilməzlik və qürur mənbəyini tanıdır, təbliğ edir, yaşadır, ona yeni nəfəs verir, digər tərəfdənsə söz-sənət xəzinəmizi zənginləşdirmiş olurlar. Parlaq zəkası, fundamental tədqiqatları, iti qələmi ilə ədəbiyyatşünaslıq elmimizin yol göstəricilərindən birinə çevrilən prof. Yaşar Qarayev ədəbi irsimizdə tariximizin min ili, tarixi xadimlərimizin böyük bir dəstəsinin bədii surətlərinin əhatə olunduğunu, Babək, Xaqani, Nizami, Nicat Şirvani, Xətai, Nəsimi, Mirzə Şəfi, Mirzə Fətəli, Seyid Əzim, Səhhət, N.Nərimanov, Qaçaq Nəbi, ... haqqında əsərlər yarandığını qeyd edir və yazır: "Xalqın milli mənəviyyatının müasir mərhələdəki təkamülünü onun tarixi keçmişinin realist bədii tədqiqi zəminində izləmək və müasirliyin doğurduğu bir çox köklü suallara cavab tapmaq bu əsərlərin ən yaxşıları üçün ümumi olan başlıca ideya-bədii və vətəndaşlıq məqsədini təşkil edir [1, s. 382].

Böyük tənqidçinin bu fikrini eyni dərəcədə mühacirət irsinin qayəsinə də şamil etmək olar. "Böyüklərimizi yalnız elmi əsərlərlə tanıtmaq kafi gəlməz. Onları birər örnək şəxsiyyət olaraq ədəbi əsərlərlə də canlandırmaq gərək" [2, s. 7] – yazan mühacir dramaturq Abay Dağlı məhz bu niyyətlə də "Füzuli" pyesində dahi Azərbaycan şairi və mütəfəkkiri Füzulinin bədii obrazını yaratmışdır. Abay Dağlının əsərin girişində yazdığı "Füzuli" pyesləri" adlı yazısından məlum olur ki, dramaturqun 3 pərdə 9 şəkildən ibarət

mənzum "Füzuli" pyesinin ilk variantı 1961-ci ildə kiçik tirajla Ankarada işıq üzü görmüş, "fəqət, ilgisizlik üzündən böylə bir yayın üçün uzun yıllar kaybedilmişdir" [2, s. 7]. Daha sonra görkəmli türk füzulişünası, professor, doktor Əli Nihad Tərlan (1898, İstanbul-1978) pyesin yeni variantını oxuyaraq onu yüksək dəyərləndirmiş, dramaturqun öz təbiri ilə desək, onun "hicranlı ruhunu ihya etmişdir" (ruhuna yenidən can vermişdir – T.A). Beləliklə, əsərin təkmilləşdirilmiş variantı professor, doktor Əli Nihad Tərlanın "Füzuli və "Füzuli" pyesi adlı giriş sözü ilə 1968-ci ildə İstanbulda nəşr edilmişdir.

Əsərin təhlilinə keçməzdən əvvəl Füzulinin Azərbaycan bədii və elmi ədəbiyyatındakı yerinə qısaca da olsa, nəzər salmaq istərdik. Füzulini bir şair, bir ədəbiyyat nəzəriyyəçisi, bir alim kimi səciyyələndirən fikirlərə onlarca kitab, monoqrafiya, dissertasiya, yüzlərlə məqalə həsr olunmuşdur, desək yanılmarıq. Firidun bəy Köçərli, Məhəmməd Əmin Rəsulzadə, Abdulla Sur, Bəkir Çobanzadə, Salman Mümtaz, Mir Cəlal, Həmid Araslı, Məmməd Cəfər, Əkrəm Cəfər, Azadə Rüstəmova, Fuad Qasımzadə, Samət Əlizadə, Sabir Əliyev, Mirzəağa Quluzadə, Əlyar Səfərli, Rafael Hüseynov, T.Kərimli, Hacı Ələmdar Mahir, Gülşən Əliyeva – Kəngərli..., həmçinin Avropanın Yozef fon Hammer, Braun Rio, Beqli, Aibb, Rusiyanın D.Smirnov, A.Krımski, Y.E.Bertels, Şərqin Nəcməddin Xəlil Onan, Abdülqədir Qaraxan, Hasibə Mazioğlu, Əli Nihad Tərlan, Ata Tərzibaşı, Əbdüləziz Səmin Bayatlı, Mehmed Mehdi Bayat, Fərrux Fayıq Köprülü, Əbdullətif Bəndəroğlu, İbrahim Dakuklunu, Hüseyn Əli Məhfuz kimi alimlərin tədqiqatları dahi şairin zəngin irsinə verilən böyük dəyərin təzahürüdür. Füzulinin bədii obrazı isə ilk dəfə Xalq şairləri Bəxtiyar Vahabzadənin "Şəbi-hicran" və Rəsul Rzanın "Füzuli" poemalarında yaradılmış, məhəbbət şairinin ilahi istedadı, ədəbi-tarixi və bədii-fəlsəfi kimliyi bütün yönləri ilə açıqlanmışdır.

1956-cı ildə şairin ölümünün 400 illiyi dünya miqyasında, o cümlədən, SSRİ-də qeyd olunmuş, əsərləri, biblioqrafiyası nəşr edilmiş, xatirəsinə "Dahi Azərbaycan şairi Məhəmməd Füzuli" adlı poçt markası buraxılmışdır. Füzulinin poetik irsi kinematoqrafçıları da ekran əsəri yaratmağa ruhlandırmış, onlar 1958-ci ildə Məhəmməd Füzulinin vəfatının 400 illiyinə ithaf olunan eyniadlı film yaratmışlar. Filmdə şairin ata babasının Azərbaycandan İraqa köçməsi, şairin Kərbələda anadan olması, yaradıcılığı barədə danışılır. Azərbaycan kinosunda bir epizodla da olsa, Füzulinin bədii obrazı ilk dəfə olaraq, bu filmdə yaradılmışdır. 1994-cü il YUNESKO xətti ilə Füzuli ili elan olunmuş, dünyanın bir çox ölkələrində dahi şairin yubileyi ilə bağlı tədbirlər keçirilmişdir. Azərbaycan Milli Bankı 1996-cı ildə şair və mütəfəkkir Məhəmməd Füzulinin həyat və yaradıcılığının 500 illiyinə həsr olunmuş 100 manat nominalında qızıl, 50 manat nominalında isə gümüş xatirə sikkələri buraxmışdır. Dahi Azərbaycan şairinin anadan olmasının 500 illik yubileyinə həsr edilmiş təntənəli gecədə çıxış edən Heydər Əliyev dünya mədəniyyətini zənginləşdirən Füzuli irsinə yüksək qiymət vermişdir. 1996-cı ilin oktyabrında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Sərəncamı ilə Əlyazmalar İnstitutuna dahi şair və mütəfəkkirimizin adı verilmişdir. Üzeyir Hacıbəyovun Füzulinin "Leyli və Məcnun" poeması əsasında yaratdığı eyni adlı opera, bəstəkar Cahangir Cahangirovun "Füzuli kantatası", Füzulinin Bakıdakı möhtəşəm abidəsi, respublikanın rayonlarından birinə onun adının verilməsi Azərbaycan xalqının dahi şairin irsinə verdiyi qiymətin təzahürüdür.

Abay Dağlının "Füzuli" pyesi isə bir mühacir dramaturqun qüdrətli söz ustadının şərəfinə özünəməxsus töhfəsi, onun xatirəsinə ucaltdığı ədəbi abidədir. Bütün mühacirlər kimi Vətən həsrəti ilə yaşayan Abay Dağlı da Azərbaycanda baş verən ictimai-siyasi, ədəbi-mədəni hadisələri izləyir, onlara münasibət bildirirdilər. Mühacir dramaturq Məhəmməd Füzulinin yubileyi münasibəti ilə ölkəmizdə həyata keçirilən tədbirlərdən azçox xəbərdar idi. Təsadüfi deyil ki, o, əsərə yazdığı "Füzuli pyesləri" adlı məqalədə də "Bugünkü Azərbaycanda Füzulini doğumundan etibarən tanıdan uzun bir mənzum hekayə yazılmışdır" [2, s. 9] – deyə qeyd edir. Doğrudur, o, əsəri və müəllifin adını çəkmir, lakin tam əminliklə söyləmək olar ki, söhbət Bəxtiyar Vahabzadənin və onun "Şəbi-hicran" poemasından gedir. Ehtimal etmək olar ki, Abay Dağlı Bəxtiyar Vahabzadənin poemasından da müəyyən qədər bəhrələnmişdir. Çox güman ki, pyesdəki qəhrəmanlardan "Hicran" adı da Bəxtiyar Vahabzadənin əsərinin adındakı sözbirləşməsindən – "Şəbi-hicran"dandır.

Professor Əli Nihad Tərlan yuxarıda adını çəkdiyimiz "Füzuli və "Füzuli" pyesi adlı giriş sözündə Avropada nəinki tanınmış, hətta ortabab şairlərin həyatlarına dair əsərlərin yazıldığını, onların da millətlərinə ədəbiyyat tarixlərinin "ağır və ciddi havasının xaricində bir sənət atmosferi içində" tanıdıldığını, bununla da "ədəbiyyatımızın mühüm bir əskikliyini" aradan qaldırdığını qeyd edir. Abay Dağlının Füzuli haqqında pyes yazmaq təşəbbüsünü təqdir edən tənqidçi, yazır ki, möhtərəm şair dadlı bir qərb türkcəsi şivəsi ilə səhnənin imkan verdiyi qədər bizi çox yaxından aşına olduğu Füzulinin lirizm dünyasına ustalıqla çəkir, "qüsursuz bir nəzm dili" ilə böyük sənətkarı bir həyat sahəsi içində bizə göstərir [2, s. 4]. Prof., Əli Nihad Tərlan bəzi qüsurlarına rəğmən əsəri "yüksək qabiliyyətin və milli bir duyğunun mümtaz bir məhsulu" adlandırır [2, s. 5].

Pyesdə dramaturq Füzuli obrazını böyük sevgi ilə tərənnüm edir, onu eşqi yolunda cəfa çəkən, məhəbbətini hər şeydən üstün tutan ideal bir aşiq kimi vəsf edir. Əsəri oxuduqca, Füzulinin hiss-həyəcanları, duyğu və düşüncələri dahi şair Füzulinin yaratdığı Məcnunu xatırladır. Abay Dağlıdan əvvəl Füzuli öz portretinin bədii-fəlsəfi və ecazkar ştrixlərini vurmuşdur:

Məndə Məcnundan füzun aşiqlik istedadı var
Aşiqi sadiq mənəm, Məcnunun ancaq adı var.

Yaxud:

Sürdü Məcnun növbəti, indi mənəm rüsvayi-eşq
Doğru derlər, hər zaman bir aşiqin dövranıdır.

və ya

Lövhi-ələmdən yudum eşq ilə Məcnun adını
Ey Füzuli, mən dəxi aləmdə bir ad eylərəm.

Abay Dağlı Füzilini tamamilə "məcnunlaşdırmağa" səy etmir, doğrudur onun qəhrəmanı da dəlicəsinə aşiqdir, lakin o, daha real düşünür, hisslərin yox, ağlın diktəsi ilə hərəkət edir. Füzuli də Məcnun kimi ictimai mühitlə uyğunlaşa bilmir, ədalətsizliyə dözmür, onun həssas və zəngin daxili aləmi bu cür həyat tərzi ilə barışmır, cəmiyyətin çürüklüyünü aydın dərk edir. Məcnun Leylinin eşqi ilə səhralara üz tutur, Leyli ilə rastlaşanda isə ondan imtina edirsə, Füzuli xəstə, taqətsiz halda onun görüşünə gələn Hicranı sevinc və həyəcanla qarşılamağa hazırlaşır. Dərvişin və Əbu Mervanın dediyi kimi, Füzulinin qayəsi, fikri-zikri qız və qadın deyildir. Füzuli ona bütün qəlbi ilə vurulan Yaxşıya Hicranı sevdiyini, onun yolunu gözlədiyini gizlətmir. Yaxşı da istəyində israrlıdır, fikrindən dönmür, Hicran qayıdarsa "mən kölə olurum, o, xanım olur" (2, s. 77) – deyir. Füzuli Hicrana sədaqəti, vəfası, təmkinli davranışı, qədirbilənliyi ilə, Yaxşı öz məhəbbəti uğrunda mücadiləsi, təmiz qəlbi, saf niyyəti, sözə, sənətə vurğunluğu, nəcibliyi və mülayim xasiyyəti ilə oxucunun yadında qalır. Pyesin finişində zəif, zorla hərəkət edən, Füzulinin qucağına atılmaq istərkən

"Ah, Mehmed, Mehmedim, Hicrandır adım,
Sən bəni unutdun, ben unutamadım" [2, s. 93] –

deyə yerə yıxılıb hərəkətsiz qalan Hicran əsərdə yalnız bu misralarla, ilk və son dəfə görünür. Balacanın dediklərindən məlum olur ki, Hicran İraqda köçmən ailəsində dünyaya gəlmiş, həddi-buluğa çatdıqda, Füzuli ilə sevişmiş, bir müddət sonra isə ata-anası ilə birlikdə Vətənə dönmüşlər. Füzulinin dilindən bütün əsər boyu düşməyən Hicran obrazı oxucunun yadında qalır və onda böyük təəssürat oyadır: Pyesin başlanğıcında röyasında Hicranı görən Füzuli

Sevgi və sevdalar bir hicran olur,
Hicranlı könüllər bir viran olur – deyə sayıqlayır [2, s. 13];
Yaxşını tərifləyən Balacaya:
Gərçi bu dünyada güzəllər çoxdur,
Fakat Hicranımın bənzəri yokdur – söyləyir [2, s. 29];

Füzuli sevgilisinə yazdığı məktubu "...Hicran dərdiylə duyduq acıyı" deyərək [2, s. 51] Vətənə çatdırmaq üçün Xankişiyə verir;

Onu Yaxşı ilə görüşdürmək istəyənlərə Füzuli soruşur:

Kalbimdə dərd coşar, fiğan yüksəlir,
Hicranlı bir aşik nə yapa bilir? [2, s. 53];

Atabəyli bekarlığa son qoymağın, evlənməyin lazım olduğunu Füzuliyə deyəndə o, yenə Hicranı xatırlayır və "hicranlı dərdim qəlbimdə qalsın" – deyə ona cavab verir [2, s. 57].

Abay Dağlı bütün bunlarla Füzuli sədaqətini, onun məhəbbətinin nakam, uğursuz, lakin ülvi, saf, olduğunu qabarda bilmişdir.

"Söz mülkünün padşahı" Füzuli ustadı Həbibi və Nəvaini yüksək dəyərləndirir, onlardan öyrənib, onların yolu ilə getdiyini, onlara borclu olduğunu səmimiyyətlə söyləyir. Abay Dağlının Füzulisi dövrə, dövrana qarşı az qala üsyan edir və bu zaman şairin "qəm karvanı"na daha bir yük – "ictimai dərd" də qoşulur:

Gözəllik bəhanə, eşq bəhanə,
Mən ağı söylərəm qanlı cahanə – [2, s. 74]
deyə fəğan edən şairin şikayətləri əbəs heç də deyil:
Mötəbər bir məqam yox bu ölkədə,
Gördüm ki, o yerdə, o mərəkədə,
Laqqırtı alınır, kəlam alınmaz.
Rüşvət deyil deyə, salam alınmaz!.. [2, s. 92].

"Ruhum da qəlbim də Allahımladır" söyləyən [2, s. 68], İslama qəlbən iman gətirmiş, bütün yaradıcılığında bu dinə sonsuz ehtiram və rəğbət bəsləyən Məhəmməd Füzuli böyük mütəfəkkir, dini alim və Əhli-beyt aşiqidir. Bu baxımdan Kərbəla müsibətindən bəhs edən "Hədiqətüs-süəda" əsəri şairin yaradıcılığında xüsusi yer tutur. Aydındır ki, bu məqam və zəka sahibi hər cür təriqətçiliyin, məzhəbçiliyin fövqündədir. Abay Dağlı da pyesdə obrazların dili ilə İslam dini və dövlətləri arasındakı təfriqələri kəskin tənqid edir. Bu baxımdan da pyes Bəxtiyar Vahabzadənin baş qəhrəmanı şair Məhəmməd olan "Şəbi-hicran" poemasının ideyası ilə üst-üstə düşür. Füzuli Bəxtiyar Vahabzadənin misraları ilə sual edir:

O, hələ uşaq ikən
Düşünmüş için-için:
"Bu yollar, təfriqətlər,
Təriqətlər nə üçün [3, s. 24].

B.Vahabzadə yazır ki, Füzuli taxt-tac naminə islama ikitirəlik salanları, qanlar tökənləri görür və tarixin bu amansız olaylarına şahidlik edir. Qüdrətli söz ustası fəryad qoparır:

Şərqin dərdi böyükdür qədim tarixi qədər,
Didir biri-birini təriqətlər, nəsillər.
Qardaş qardaşa düşmən, oğul ataya düşmən,
Didir biri-birini xaqanlar hikkəsindən [3, s. 24].

Abay Dağlının əsərində saxta "şair, mürşid, övliya", yalançı, şərbaz din və təriqət təəssübkeşi, türkə, onun dilinə, ədəbiyyatına həqarətlə baxan Əbu Mərvan, yaltaq, xain Dərvş, kəmfürsət və acgöz İbni Yamanın, həmçinin qorxaq, səbatsız Təkcə və Göycənin bəd əməlləri, qərəzli sözləri Füzulinin və onu sevənlərin qəzəbinə tuş gəlir. Əsərdə özünə epizodik, lakin məhəbbətlə yer alan klassik şair Həbibi də təriqətlərarası hərbdən hiddətlənir və qəzəblə deyir:

Durumu fəcidir, bu devrimizin,
Bu bir nöqsanıdır tariximizin.
Dün coşdu Yıldırım və Timuri-ləng,
Bu gün də soydaşlar yapıyor bir cəng [2, s. 70].

Mühacirət ədəbiyyatının tanınmış tədqiqatçısı N.Cabbarlı "Abay Dağlının mühacirət dövrü yaradıcılığı" monoqrafiyasında yazır ki, pyesdə dramatik süjetin əsasını məhəbbət xətti təşkil etsə də, A.Dağlı qəhrəmanının səciyyəsini əlavə – köməkçi xətlərlə də dolğunlaşdırır. Bu zaman tədqiqatçı əsərdə Füzuli ilə ideoloji müxalifətdə olan şəxslərin qarşılaşdırılması səhnəsini xatırladır və doğru olaraq göstərir ki, dahi şairin bir mütəfəkkir kimi qavranılması, dünyagörüşünün açıqlanması baxımından konkret dramaturji funksiya daşıyır. Eyni zamanda qeyd olunmalıdır ki, dramaturq pyesdə Füzulini bizə həm də bir qürbətçi, dövrün gərdişinə, məmur özbaşınalığına, rüşvətxorluğa, haqsızlığa, dini ayrı-seçkiliyə, təriqətçiliyə qarşı etiraz edən, müqavimət göstərən, humanist, mərhəmətli, təvazökar və qədirbilən insan və kəlam sahibi kimi təqdim etməyə, tanıtmağa çalışır.

Pyesdə köçmənlərin Füzuli ilə, eyni zamanda şairi gözü götürməyən, yerli xudpəsənd, xəbis tiplərlə, məzhəbçilərlə münasibəti, qürbətçilərin həyat tərzi, yad diyarda milli adət-ənənələrə bağlılığı, onların Vətən həsrəti, düşüncələri, qayğıları kifayət qədər maraqlı və geniş işıqlandırılmışdır. Abay Dağlı pyesdə Füzuliyə, onun aşiqlərinə, köçmənlərə rəğbətini, sevgisini gizlətmir, bu duyğunu hər sətirdə büruzə verir.

Abay Dağlıya taledaşlarının nisgili, dərdi, ağrısı doğmadır, odur ki, pyesin köçmənlərlə bağlı hissələri daha təbii, inandırıcı və təsirli görünür. Dramaturq sanki sevimli qəhrəmanlarının dili ilə özü nalə qoparır:

Ömür baharımın oğlan çağında
Açmışdı çiçəyim, gülüm ay, ay balam.
Qafların qoynunda, Xan bulağında,
Ördəkli, qazlıydı, gölüm ay balam.
Bağımda, bağçamda güllərim soldu,
Adım da dəyişib bir qərib oldu.
Dünyanın dərdləri kalbimə doldu,
Bu dərdimin sonu ölüm, ay balam [2, s. 87].

Burada bir məqam da diqqətdən yayınmamalı, oxucunu çaşdırmamalıdır. Abay Dağlının pyesdə bəhs etdiyi köçmənlər əsrlər boyu İraqın şimalında məskunlaşan qədim türk etnosu türkmanlar yox, XVI-XVII əsrdə Azərbaycandan köçən həmvətənlərimizdir. Onlar qürbətdə də milli dəyərlərə, adət-ənənələrə riayət edir, doğma dildə danışırlar. Abay Dağlı köçmənlərin toy səhnəsini təsvir edərkən bu məqamı xüsusi diqqətə çatdırır [2, s. 62].

"Füzuli" pyesinin təhlili aşağıdakı elmi-nəzəri nəticələrə gəlməyə əsas verir:

– Abay Dağlının bu pyesi ilə nəinki mühacirət, eləcə də bütövlükdə Azərbaycan ədəbiyyatında ilk dəfə dram əsərində Məhəmməd Füzulinin bədii obrazını yaratmağa müvəffəq olmuşdur;

– mühacir müəllif əsəri ilə əsas bədii-estetik məqsədini bəyan edir: xalq böyük şəxsiyyətləri, qüdrətli sənətkarları, milli-mənəvi irsi, adət-ənənələri ilə tanınır, tarixdə qalır. Nəsildən-nəslə ötürülən bu dəyərlər xalqın qürur, iftixar mənbəyi və dik başla yaşamağa əsas verən stimuludur;

– pyesdə Füzuli əsasən eşq-məhəbbət motivi və yaradıcılıq qayəsi kontekstində işlənsə də, bitkin obraz təəssüratı yaradır;

– bir sıra müəlliflər haqlı olaraq "Füzuli" pyesini bədii-estetik baxımdan zəif, dramaturji baxımdan qüsurlu olduğunu [5, s. 6, 7; 2, s. 4-5; 3, s. 12; s. 55] qeyd etsələr də, pyesin ideya və məzmun baxımından dəyəri, aktuallığı inkarolunmazdır və böyük şairin "bir mütəfəkkir kimi qavranılması, dünyagörüşünün açıqlanması baxımından" [3, s. 19] da və əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT

1. Qarayev Yaşar. Bədii qəhrəman: tarixi mövzu və müasir poetika axtarışları. Seçilmiş əsərləri: 5 cilddə, V c. Bakı: Elm, 2016, 728 s.
2. Dağlı A. Füzuli. İstanbul, 1968, 93 s.
3. Cabbarlı N. Abay Dağlının mühacirət dövrü yaradıcılığı. Bakı: Elm, 2009, 72 s.
4. Vahabzadə B. Seçilmiş əsərləri: İki cilddə, II c. (Poemalar). Bakı: Öndər, 2004, 320 s.
5. Elçin. Mühacir ədəbiyyatımızın tədqiqi. "Ədəbiyyat" qəz. 2017, 8 iyul, s. 6-7.
6. Sultanlı V. Azərbaycan mühacirət ədəbiyyatı. Bakı: Şirvannəşr, 1998, 160 s.
7. Tahirli A. Şuşalı, Şuşasız Abay Dağlı. "525-ci qəzet", 2014, 4 iyun.
8. Tahirli A. Abay Dağlının " Okullular" pyesi, AMEA-nın Xəbərləri. Humanitar elmlər seriyası, № 2, 2014, s. 72-76.
9. Tahirli A. Abay Dağlının "Onlar türklərdi" romanında repressiyanın bədii ittihamı (çapdadır).
10. Tahirli A. Abay Dağlının "Onlar türklərdi" romanında bolşevizmin və faşizmin ifşası (çapdadır).
11. Tahirli A. Abay Dağlı pyeslərinin tədqiqinə dair (çapdadır).
12. Tahirli A. "Əsir ruhlar" – həqiqətin ədəbi-bədii təsdiqi (çapdadır).

Абид Тахирли

"ФИЗУЛИ" АБАЯ ДАГЛЫ – НЕЗАУРЯДНЫЙ ПРОДУКТ НАЦИОНАЛЬНОГО ЧУВСТВА

В пьесе "Физули", изданной в Стамбуле в 1968 году, один из известных представителей эмигрантской литературы Абай Даглы создал художественный образ гениального азербайджанского поэта Мухаммеда Физули. В статье анализируются идейное содержание пьесы, вопросы мастерства, характерные черты Физули и других образов, выдвигаются суждения об их образе жизни и мышления, доводится до внимания значение и актуальность произведения.

Данной пьесой Абаю Даглы удалось впервые не только в эмигрантской, но и в азербайджанской литературе в целом создать художественный образ Мухаммеда Физули, заполнив тем самым «важный пробел в нашей литературе». Основная

идея произведения состоит в том, что народ славится, оставляет след в истории своими великими личностями, выдающимися мастерами, национально-духовным наследием, обычаями и традициями. Эти ценности, передаваемые из поколения в поколение, – источник гордости народа и главный стимул, позволяющий жить с гордо поднятой головой. Хотя в этой идейно актуальной и содержательно интересной пьесе Физули разработан преимущественно в контексте любовных мотивов и творческих идеалов, она тем не менее создает впечатление завершенного образа и имеет значение и в плане раскрытия мировоззрения гениального поэта, восприятия его как мыслителя.

Ключевые слова: *Эмигрантская литература, пьесы Абая Даглы, пьеса "Физули", Али Нихад Тарлан.*

Abid Tahirli

ABAY DAGHLI'S "FUZULI" PLAY – THE PRODUCT OF NATIONAL SENSE

Abay Daghli, a prominent representative of emigration literature created the artistic image of the great Azerbaijani poet Mohammed Fuzuli in "Fuzuli" play published in Istanbul in 1968. The idea of the play, craft issues, the characteristic features of Fuzuli and other images are analyzed, their views on life and thinking are put forward and relevance and importance of the work are taken into account in this article.

Abay Daghli was able to create an image of Mohammed Fuzuli for the first time not only in immigration, but also in whole Azerbaijan literature and "completed the major deficiency of our literature" with this play. The main idea of the work is that the people are known by their great personalities, mighty artisans, national-spiritual heritage, and traditions and remained in history. These values transmitted from generation to generation are the pride of the people, the source of pride and key stimulus to live upright.

Although Fuzuli was mainly involved in the context of love-motivation and creativity in the play interesting in terms of content and actual ideologically, creates an ideal image impression and it was important in the terms of comprehension of the great poet as a thinker and disclosure of their outlook.

Keywords: *Immigration literature, Abai Daghli's plays, "Fuzuli" play, Ali Nihad Tarlan.*

Bu iş Azərbaycan Respublikası Prezidentinin yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir. Qrant № EİF- KETPL-2-2015-1(25)-56/48/5

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2018, № 1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2018, № 1

PROCEEDINGS OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES NAKHCHIVAN BRANCH OFFICE
The series of social sciences and humanities, 2018, № 1

ELXAN MƏMMƏDOV
AMEA Naxçıvan Bölməsi
E-mail: elxan.yurdoglu@yahoo.com

MUXTAR QASIMZADƏNİN "NUHÇIXANDAN GƏLİRƏM" VƏ "YADDAŞ ÇIRAĞI" ŞEİRLƏR SİLSİLƏSİNDƏ NAXÇIVAN ABİDƏLƏRİNİN BƏDİİ ƏKSİ

Naxçıvanda doğulub böyümüş, Azərbaycan Yazıçılar Birliyinin üzvü, tanınmış şair Muxtar Qasımzadənin yaradıcılığında Naxçıvan abidələrinin tərənnümü də özünə yer tapıb. Onun "Nuhçıxandan gəlirəm" və "Yaddaş çırağı" şeirlər silsiləsində Naxçıvanın müxtəlif bölgələrində yer alan tarixi və təbiət abidələri poetik dillə vəsf edilib.

Məqalədə həmin silsilədə toplanmış şeirlər araşdırmaya cəlb edilmişdir. Tədqiqat zamanı muxtar respublikanın tarixi abidələrinin Muxtar Qasımzadə yaradıcılığına təsiri, şairin həmin abidələri hansı səviyyədə poeziyaya gətirməsi öyrənilmişdir.

Müəyyən edilmişdir ki, M.Qasımzadənin hər iki şeirlər silsiləsində ümumilikdə Naxçıvan Muxtar Respublikasında yer alan 20-yə yaxın tarixi abidə öz bədii əksini tapmışdır.

Açar sözlər: *Naxçıvan, şair, Muxtar Qasımzadə, şeir, tarixi abidə.*

Naxçıvan Muxtar Respublikasının gözəllikləri, təbiət və tarixi abidələri, zəngin özünəməxsusluğu bütün dövrlərdə şair və yazıçıların, səyyahların, tədqiqatçıların diqqət mərkəzində olmuş, onlar haqqında saysız-hesabsız əsərlər yazılmışdır.

Hər bir bölgənin təbliğində və tanıdılmasında o yer haqqında yazılmış bədii əsərlərin böyük rolu var. Xüsusilə şair və yazıçıların yaradıcılığında bu özünü daha qabarıq göstərir. Təsadüfi deyil ki, bugünkü tədqiqatçılar belə bir çox hallarda qədim və tarixi adət-ənənələr, məkan və tikililər haqqında o dövrə aid bədii əsərlərdən mühüm mənbə kimi yararlanaraq öz tədqiqatlarını ortaya qoymağa çalışırlar. Bu baxımdan günümüz şair və yazıçılarının əsərlərində yer alan tarixi abidələrin tərənnüm olunduğu yaradıcılıq nümunələri də gələcək tədqiqatçılar üçün mənbə bazası kimi mühüm əhəmiyyətə malikdir.

Nəinki, Naxçıvan Muxtar Respublikasında, eləcə də ölkə miqyasında poeziyasının özünəməxsusluğu, sözünün bədii dəyəri baxımından seçilən şairlərdən biri də Muxtar Qasımzadədir. Muxtar Qasımzadə Naxçıvan şəhərində doğulub boya-başa çatmış, burada təhsil almış, hazırda da Naxçıvan şəhərində yaşayır və bədii yaradıcılıqla məşğul olur. Onun yaradıcılığında insan duyğularının ifadəsi, bəşəri hadisələrə münasibət, təbiət lövhələri ilə müqayisədə vətənin tərənnümü daha çox öz əksini tapmışdır.

Muxtar Qasımzadənin yaradıcılığını digər şairlərdən fərqləndirən xüsusiyyətlərindən biri də onun Naxçıvanın tarixi abidələri haqqında qələmə aldığı silsilə şeirlərlə zəngin olmasıdır. Şairin yaradıcılığında Naxçıvan Muxtar Respublikasının ayrı-ayrı rayonlarında yerləşən tarixi abidələr haqqındakı axıcı, poetik və tərənnüm mahiyyətli şeirlərinin hər birinin vətəndaş yanğısı ilə qələmə alındığını müşahidə etmək çətin deyil. Özünün "bu daş kitabələri oxuyan gərək, kəpir-kəpir varağını qaldıran gərək" [5, s. 4] fikirlərinə uyğun olaraq o, bu abidələri "oxuyub varaqlayır".

Ayrı-ayrı illərdə qələmə alınmış bu şeirlər ilk dəfə yeni eranın başlanğıcında "Yaddaş çırağı" adlı kitabda toplanaraq nəşr edilmişdir. Lakin şairin tarixi abidələr haqqındakı şeirlər silsiləsi bu kitabla yekunlaşmamışdır. Muxtar Qasımzadə ondan sonra da ziyarət etdiyi, yaxından tanış olduğu, haqqında oxuyub məlumatlandığı tarixi abidələrin təsiriylə yeni şeirlər yazmışdır. Həmin şeirlər isə şairin sonrakı illərdə dərc olunmuş "Gülü xəlvət açan dünya" və "Nuhçıxandan gəlirəm" adlı kitablarında ayrıca bölmə kimi yenidən oxucuların ixtiyarına verilmişdir.

Şairin türk-islam abidələrini şeirlərində orijinal şəkildə təsvir etməsi, onları bədii boyalarla poeziya aləminə gətirməsi tədqiqatçıların da diqqətindən yayınmamışdır. Təsadüfi deyil ki, M.Qasımzadənin "Yaddaş çırağı" kitabına ön söz yazmış akademik İsmayıl Hacıyev şairin tarixi abidələrimizə olan həssas münasibətini yüksək qiymətləndirmişdir. İ.Hacıyev bu barədə həmin ön sözdə yazır: "Tarix, xalqların keçmişinə və mədəniyyətinə güzgü tutan bir elmdir. Bu elmin prizmasından, işıqlı pəncərəsindən dərin qatlara boylananda doğma xalqımızın da tarixin sinəsində silinməz izlər qoyduğunun şahidi oluruq.

Şair-jurnalist Muxtar Qasımzadənin tarixi mövzularda yazdığı şeirlərlə yaxından tanış oldum. Müəllif öz üzərinə son dərəcə şərəfli bir iş götürmüş, vətəndaşlıq baxımından faydalı və əhəmiyyətli bir vəzifənin öhdəsindən, demək olar ki, uğurla gəlmişdir" [9, s. 3].

Akademik bu fikirlərini sonrakı abzaslarda ətraflı açaraq bir şairin tarixə olan sevgisini, həm də o şeirlərlə tarixin özünü öyrənməyin mümkün olduğunu qeyd edir: "İlk baxışda hiss edirsən ki, hər şeir sanki bir poetik bələdçidir. Şeiri oxuduqdan sonra sözü gedən qala, yaxud türbə haqqında səndə böyük təəvvür və məhəbbət yaranır. Hardan söhbət gedirsə, oranı görmək həvəsi oyanır qəlbində" [9, s. 3].

Muxtar Qasımzadənin haqqında bəhs etdiyimiz həmin silsilədən olan şeirlərini oxuduqca görürsən ki, bu, təkcə akademik İsmayıl Hacıyev üçün keçərli bir hiss deyil, hər bir oxucu o şeirlərlə tanışlıqdan sonra, doğrudan da həmin abidələri görmək həvəsinə düşür, tarixin özüylə lap yaxından tanış olmağa çalışır. Çünki "Muxtar Qasımzadənin şeirlərini oxuduqca ulu yurda, elə, obaya, torpağa, böyük mənada Vətənə həqiqi məhəbbətin obrazlı deyimlərdən boylanan çalarını görürsən" [1, s. 126].

Şairin yuxarıda adını çəkdiyimiz həmin silsilədən olan şeirlərində birbaşa türk-islam mədəniyyəti abidələrinə aidiyyəti olmayan "Gəmiqaya", "Əshabi-Kəhf", "Fərhad evi", "Duz saray" və digər şeirlərlə də qarşılaşırıq. Amma ümumi götürəndə bu şeirlər də Naxçıvan haqqında təəssürat yaratmaq baxımından digər şeirlərdən heç də seçilmir. Əksinə tarixin ilk illərinə, ta qədim zamanlara aid olan bu abidələr əslində Muxtar Qasımzadənin "Yaddaş çırağı" və "Nuhçıxandan gəlirəm" şeirlər silsiləsinin proloqu kimi çıxış edir. Bundan sonra isə şair Naxçıvanda mövcud olan tarixi tikililərdən bəhs edir. Həmin şeirlər vasitəsiylə biz "Oğlan qala, qız qala"nı, "Çalxanqala"nı, "Əlincə"ni, "Xaraba Gilan"ı, "Şərq hamamı"nı, "Buzxana"nı, "Qarabağlar türbəsi"ni, "Xanəgah"ı, "Gülüstan"ı, "Zorxana"nı və digərlərini bədii dillə daha yaxından tanıyırıq. "Oğlan qala, qız qala" şeirinin ilk misralarına diqqət edək:

Qədim Şərur elində,
Arpaçay sahilində
dalıb dərin xəyala,
durub üzbəüz qala –
Oğlan qala, Qız qala [7, s. 26].

Şeirin girişindən də göründüyü kimi Muxtar Qasımzadə şeirdə təkcə bədii poetik mənzərə yaratmır. Həm də həmin qalanın yerləşdiyi yer haqqında da məlumat verir.

Təbii ki, bu cür şeirlərdə şairin özünəməxsus müdaxilələri də olur. Əgər tarixi olduğu kimi qafiyələrin içinə sığışdırsaydı, bu, quru tarixçilikdən başqa bir şey olmayacaqdı. Amma şair həm də bəhs etdiyi hər bir abidə haqqında məlumat verərkən onu poetik yaddaşda qalıcılığı problemini də düşünmüş və bu mənada uğurlu şeir nümunələri ortaya qoymuş, eyni zamanda Naxçıvan tarixinin müxtəlif səhifələrini şeirin diliylə oxucuya təqdim edə bilmişdir. Bu məsələyə münasibət bildirən tədqiqatçılardan Adil Bağırov yazır: "Şair bu adları sadəcə sadalamamış, bu adları dilə gətirməklə Azərbaycan xalqının tarixi məqamlarını, taleyüklü məsələlərini yada salmış, tarixin sirlərini özündə saxlayan hər bir abidənin maddi-mənəvi əhəmiyyətini, yerləşdiyi ünvanı göstərməyə çalışmışdır" [3, s. 84-85].

Muxtar Qasımzadənin bu baxımdan seçilən şeirlərindən biri də "Köhnə qala haqqında ballada" şeiridir. Hazırda Naxçıvan şəhərində yerləşən VII əsrlərə aid olan "Naxçıvanqala"dan bəhs edən bu şeirdə şair yenə uğur əldə edə bilmişdir. Qeyd edək ki, "Naxçıvanqala" xalq arasında bəzən Köhnəqala kimi də adlandırılır:

Naxçıvanın yaxasında
bir qala var –
Köhnə Qala.
Əsrlərdən qala-qala
köhnəlib o.
Tarixlərin tufanında
torpaq olub,
ələnib o [7, s. 32].

Bu şeirin girişindən də göründüyü kimi Muxtar Qasımzadə ilk olaraq haqqında bəhs etdiyi tarixi məkanın harada yerləşməsini oxucunun diqqətinə çatdırır. Sonra isə daha geniş prizmada şeirdə o yer haqqında bədii təsəvvür yaratmağa çalışır. Elə "Köhnə qala haqqında ballada" şeirinin sonrakı misralarında olduğu kimi:

Silkələyin bu qalanı,
aşılmayan sirləri var.
Mağaralar licimində
vahiməli yerləri var.
Bura uzaq eraların
yozulmamış yuxusudur.
Bu "zağalar",
bu qalanın
ibtidai metrosudur [7, s. 33].

Şeirdə qaladakı mağaraların ibtidai dövrün yeraltı yolları – "metroları" adlandırılması, qalanın tikinti quruluşundakı çıxıntıların hörgüclü dəvə karvanına bənzədilməsi həm şeirə poetiklik, bədiilik qatır, həm də qalanın görünüşü, quruluşu haqqında təsəvvür yaradır.

"Nuhçıxandan gəlirəm" şeirlər silsiləsində diqqəti çəkən şeirlərdən biri də "Xaraba Gilan" şeiridir. Bu şeirin də ilk misralarından biz Xaraba Gilanın Naxçıvanın hansı bölgəsində yerləşdiyi haqqında bilgi sahibi oluruq. Sonrakı misralarda isə bu qədim şəhər haqqında poetik dillə maraqlı məlumatlar əldə edirik:

Ordubad mahalında
qədim bir şəhər vardı.
Zalım xilafətlərin
zülmündən yadigardı.
Ordular, qəbilələr

Hey üstünə yeridi.
İndi bu qədim şəhər
xarabalıq yeridi.
Çiliklənib çinilər
Çin-çin olub tökülüb,
cin-cin olub tökülüb.
Sağsağan qanadıtək
saxsılar allı, güllü.
Daşlardakı kəpənək,
ya daşmı xallı, güllü? [6, s. 116-117].

Şeirin axıcılığı, dilinin şirinliyi, həmçinin bədii çəkisi oxucunun əlində tarixi bir xəritə kimi açılır. Dəyişməz ritmlər üstündə Xaraba Gilanı qarış-qarış gəzməli olur və çox dəyərli məlumat sahibi kimi şeirin təsirindən çıxa bilmirsən. Şeirin sonrakı hissəsindəki misralar belə bizi Xaraba Gilana aparmaq gücündədir:

Sərdabələr qəbirdi,
döşənib lal içinə,
Neçə gözəli, mərdi
dalıb xəyal içinə.
Boyu, buxunu, qəddi,
bükülüb şal içinə,
Dəbilqəsi, kəməndi
sərilib yol içinə.
Yurdun sevinci, dərdi
qazılıb gil içinə.
Oxu, oxuya bil ki,
qoru, qoruya bil ki,
barı qoruğun olsun,
bala, bir daş sənədin,
Bir daş varağın olsun [6, s. 117].

Haqqında bəhs etdiyimiz şeirlərin girişindəki məlumatlılıq digər şeirlərdə də özünü göstərir. Sanki bu, Muxtar Qasımzadənin "Yaddaş çırağı" və "Nuhçıxandan gəlirəm" şeirlər silsiləsinin dəyişməz qanunu kimi diqqəti cəlb edir. Bunu şair heç də təsadüfən etməyib. Belə ki, o şeir silsilələrinin adından da göründüyü kimi Naxçıvanın tarixi yaddaşına çıraq tutur, işıq salır, onu işıqlandırmağa çalışır. Həm də şeirlərinin əlindən tutub uzaq səfərə çıxarır. Getdiyi yerlərdə isə o şeirləri təqdim edərək Nuhçıxandan gəldiyini vurğulayır. Bu cür məlumatlılığı "Gülüstan" şeirində də görürük:

Culfa şəhərindən bir az yuxarı,
tağları dağılmış bir körpü vardı.
Cuğa vadisində bəlkə bu körpü
Cığatay soyundan bir yadigardır [6, s. 119].

"Xanəgah" şeirində şair öz ənənəsinə sadiq qalır:

Əlincə qalasından,
üç min dirsək yuxarı.
Gəlin dərə yoxuşa
qalxaq gedək yuxarı [7, s. 39].

Bu şeirlərin yazılmasında Muxtar Qasımzadə təkcə vətəndaş şair kimi ön plana çıxmır, yəni bu şeirləri o vətəndaşlıq borcu kimi düşünərək yazmır. İlk olaraq şair ilha-

mının diktəsi onu qələmə sarılmağa vadar edirsə, digər tərəfdən o, yurduna bağlı biri kimi bu yerlərlə nəfəs alır və bu şeirlər də sanki şairin nəfəsdərimi kimi özünü göstərir.

Təsadüfi deyil ki, müsahibələrinin birində Muxtar Qasımzadə bu silsilədən olan şeirlərin yazılma səbəbinə toxunur və jurnalistin sualına cavabında da onun Naxçıvana bağlı bir şair obrazı ilə qarşı-qarşıya dayanırıq. O öz fikirlərini belə ifadə edir: "Özünü dərk edən insan bütün ömrü boyu yaşadığı torpağı həmişə öyrənməli, ürəkdən sevməlidir. Bütövlükdə götürəndə, "Vətənpərvərlik doğma torpağı dərk etməkdən başlayır". Mənə görə Vətən torpağının köksündə göyərən həmişəyaşar abidələr xüsusilə çox qiymətlidir. Onlardan yazmağı özümə mənəvi borc bilirəm. Əcəmi Əbubəkr oğlu Naxçıvaninin inciləri bütün türk aləminə, Orta Avropa, eləcə də Yaxın Şərq memarlıq üfüqlərinə açılan qapıların qızıl dəstəyidir. O dəstəkdən yapışmadan zərif naxışların sehrinə düşmək çox çətindir. Mən fəxr edirəm ki, o dəstək bizim əlimizdə, bizim Vətənimizdə – Naxçıvanımızdadır. Memarlıq məktəbinin ən nadir inciləri buradadır. Və o mənim mənəvi sevgim, daimi mövzum, ilham mənbəyimdir" [10, s. 6]. Şairin bu fikirləri öz müsahibəsindən əvvəl onun haqqında söz söyləyən professor Yavuz Axundlunun da diqqətini çəkmişdir: "Vətənin tərcümeyi-halını poetik sözlə mənəvi yaddaşa çevirən Muxtar Qasımzadə məhz bu eşqlə də "ürəyin məhəbbət xəritəsində Vətən sevgisini ən böyük dövlət" elan edir və onun şeirlərinin bədii materialı göz açıb gördüyü, könül verdiyi Naxçıvanın təbiətindən, tarixindən gəlir" [2, s. 4].

İlham mənbəyi doğulub boya-başa çatdığı torpağın üzərindəki misilsiz tarixi abidələr olan bir şairin bu cür silsilədə şeirlər yazması təbii qarşılanmalıdır. Muxtar Qasımzadənin haqqında danışdığımız şeirləri içərisində "Kırnada "Allah evi", "Bəkir oğlu Əcəmi", "İmamzadə", "Babək qalası", "Cavidin məqbərəsi önündə düşüncələr", "Xan evi" kimi şeirlər də var ki, bunların hər biri öz bədii dəyəri və tarixi mahiyyəti ilə seçilir. Bunlar haqqında ətraflı və geniş bəhs etmək mümkündür. Amma Naxçıvanın ən əzəmətli abidələrindən biri olan Əlincə qalası haqqında şairin yazdığı "Əlincə" şeiri ilə fikirlərimizi yekunlaşdırmaq istərdik. "Əlincə" şeirində də şair bu abidənin əzəmətini göstərə bilmişdir. Ən maraqlı cəhət həm də ondan ibarətdir ki, bu şeirin oxunuşu zamanı meydana gələn ritmin özündə də bir döyüş ruhu, mübarizə çağırışı var. Fikrimizin təsdiqi kimi şeirin bir neçə bəndinə baxaq:

Belinə kəmər kimi
bağlayıb sərt daşları.
Ehtiyat əsgər kimi
saxlayıb mərd daşları,
sanki qoyubdur dincə,
Əlincə.

Vuruşub zaman-zaman,
Düşməni əldən düşüb.
Olubdu yurda qalxan
Miranşah dildən düşüb,
Sıxıb Teymuru küncə,
Əlincə.

"Şahtaxtı" – şah qalası,
dizində ərlər yatır.
Şırımlanıb yaxası,
köksündə sirlər yatır,

daş alnında düşüncə,
Əlincə" [4, s. 28].

Nəticə olaraq onu deyə bilərik ki, Muxtar Qasımzadənin "Yaddaş çırağı" və "Nuhçıxandan gəlirəm" şeirlər silsilələrində toplanmış şeirlər Naxçıvan Muxtar Respublikasının dörd bir tərəfində mövcud olan tarixi abidələrin tanıdılması baxımından şairin şəxsi təşəbbüsü olsa da, bu şeirlər çoxminli oxucuya Naxçıvanın tarixi abidələrinin coğrafiyası haqqında da ətraflı məlumat verir. Məqalənin sonunda akademik İsmayıl Hacıyevin bu şeirlər haqqında başqa bir fikrini xatırlatmaq istərdik: "Muxtar Qasımzadənin gərgin zəhmət və axtarışlarının bəhrəsi olan bu şeirlər elmi-nəzəri faktorlarına, bələdçi rolunu oynayan xüsusiyyətlərinə görə hər bir tarixsevər üçün dəyərli töhfədir" [9, s. 5].

Nəzərə alsaq ki, sonrakı yüzilliklərdə bu abidələr haqqındakı məlumat bazasından biri də yaradıcı insanların ortaya qoyduğu irsdir, bu mənada Muxtar Qasımzadənin haqqında danışdığımız silsilə şeirləri də öz əhəmiyyəti ilə böyük dəyərə malikdir.

ƏDƏBİYYAT

1. Axundov A., Vəliyev S. Naxçıvanın şair və yazıçıları. Bakı: Elm və təhsil, 2010, 264 s.
2. Axundlu Y. Bu da bir nağıldı. "Şərq qapısı" qəz., 2006, 11 aprel, s. 4.
3. Bağırov A. Onomologiya problemləri: 2 cilddə, II c. Bakı: Elm və təhsil, 2012, 416 s.
4. Əlincəqala. Naxçıvan: Əcəmi, 2016, 160 s.
5. Qasımzadə M. Gəmiqaya. "Sovet Naxçıvanı" qəz., 1985, 22 avqust, s. 4.
6. Qasımzadə M. Gülü xəlvət açan dünya. Naxçıvan: Əcəmi, 2004, 168 s.
7. Qasımzadə M. Nuhçıxandan gəlirəm. Naxçıvan: Əcəmi, 2013, 248 s.
8. Qasımzadə M. Yaddaş çırağı. Naxçıvan: Əcəmi, 2000, 80 s.
9. Hacıyev İ. Yaddaş / Yaddaş çırağı. Naxçıvan: Əcəmi, 2000, s. 3-5.
10. Yurdoğlu E. Vurul bu torpağa min-bir baxışla. "Şərq qapısı" qəz., 2004, 2 sentyabr s. 6.

Эльхан Мамедов

ХУДОЖЕСТВЕННОЕ ОТРАЖЕНИЕ НАХЧЫВАНСКИХ ПАМЯТНИКОВ В СТИХОТВОРНЫХ ЦИКЛАХ МУХТАРА ГАСЫМЗАДЕ «ИДУ ИЗ НУХЧЫХАНА» И «СВЕТ ПАМЯТИ»

В творчестве Мухтара Гасымзаде, известного поэта, родившегося в Нахчыване, члена Объединения Писателей Азербайджана, определенное место занимает воспевание Нахчыванских памятников. В его стихотворном цикле «Иду из Нухчыхана» и «Свет памяти» поэтическим языком описываются природные и исторические памятники, расположенные в разных регионах Нахчывана.

В статье привлечены к исследованию стихи, собранные в этом цикле. Во время исследования изучено то, каким образом М.Гасымзаде привнес в поэзию эти памятники, которые повлияли на творчество поэта.

Определено, что в этом стихотворном цикле М.Гасымзаде нашли свое художественное отражение около 20-ти исторических памятников автономной республики.

Ключевые слова: *Нахчыван, Мухтар Гасымзаде, поэт, стихотворение, исторический памятник.*

Elkhan Memmedov

ART REFLECTION OF THE NAKHCHIVAN MONUMENTS IN THE VERSE CYCLES OF MUKHTAR GASIMZADEH "I'M COMING FROM NUKHCHYKHAN" AND "THE PHAROS OF MEMORY"

In the work of Mukhtar Gasimzadeh, a well-known poet born in Nakhchivan, a member of the Writers' Union of Azerbaijan, a particular place takes chanting the Nakhchivan monuments. In his poetic cycle "I'm coming from Nukhchykhan" and "The Pharos of Memory" poetic language describes the natural and historical monuments located in different regions of Nakhchivan.

In this paper, the poems collected in this cycle are brought to study. During the study, we learned how M.Gasimzade introduced these monuments into poetry, which influenced the poet's work.

It is determined that in this verse cycle M.Gasimzade found about 20 historical monuments of the autonomous republic.

Keywords: *Nakhchivan, Mukhtar Gasimzadeh, poet, poem, historical monument.*

(Filologiya üzrə elmlər doktoru Fərman Xəlilov tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2018, № 1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2018, № 1

PROCEEDINGS OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES NAKHCHIVAN BRANCH OFFICE
The series of social sciences and humanities, 2018, № 1

RAMİZ QASIMOV
AMEA Naxçıvan Bölməsi
E-mail: ramizasef@yahoo.com.tr

AZƏRBAYCAN TƏNQİDİ REALİZMİNDƏ ÜSLUB VƏ ANA DİLİNDƏN İSTİFADƏ

Məqalədə Azərbaycan tənqidi realistlərinin üslubu, ana dilindən istifadə və yaradıcılıq dilləri tədqiq olunur. Göstərilir ki, tənqidi realistlər xalqın maraq və ideallarını əsas götürərək milli ideallarla çıxış etdilər. Onlar yaradıcılıq dili olaraq sadə xalq dilindən istifadə edir, xalq ədəbiyyatından yararlanırdılar. C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, Ə.Qəmküsar, Ə.Nəzmi, Ü.Hacıbəyov və başqa tənqidi realistlər sadə xalq dilindən istifadə edərək XX əsrin ədəbi dilinin müəyyənləşməsinə öz töhfələrini verdilər.

Açar sözlər: *Azərbaycan tənqidi realizmi, ana dili məsələsi, tənqidi realist üslub.*

XX əsrdə Azərbaycan ədəbi dilinin formalaşması və inkişafında tənqidi realistlərin mühüm rolu olmuşdur. Konkret nöqsanları tənqid etməklə islah etmək missiyası həyata keçirən tənqidi realistlər üçün xalqa enmək məqsədindən irəli gələrək avamın başa düşəcəyi sadə, anlaşıqlı dildə yazmaq və anlatmaq xüsusi yaradıcılıq tərzi, metodu təşkil edirdi. İnkişafın təməlində dayanan "köhnənin üstündən qələm çəkmək, yenini yaratmaq" [15, s. 406] məqsədinə nail olunması üçün "ictimai-ədəbi fikir cərəyanı" [17, s. 256] olan tənqidi realizm və onun nümayəndələrinin təbirincə "bütün dünyanın gileyli qaldığı avam"dan [14, s. 46] başlamaq, xalqın ən sadəsini, sadə, avam xalq kütlələrindən başlamış bütün geniş kütlələri vahid milli amal, məqsəd naminə oyatmaq, vəzifələrini başa salmaq üçün onların anlaya biləcəyi dildən danışmaq da konkret yaradıcılıq tərzi olaraq ortaya çıxdı və ənənəyə çevrildi. Elmi mənbələrdə də təsdiqini tapdığı kimi [1; 3; 4; 7; 8; 12; 18; 19; 20] bu, sözün əsl mənasında, xalqı "çoban-çoluq", xalqın dilini "çoban-çoluq dili" adlandıran elit təbəqə və ədəbiyyatla müqayisədə böyük milli oyanış və intibaha vüsət verən inqilabi hadisə oldu.

Konkret ictimai-tarixi şəraitdə təzahür edən və milli inkişafa mane olan gerilikləri, çatışmazlıq və nöqsanları "rentgen şüası kimi" [10] aşkarlayaraq tənqid edən və tənqid etməklə də islah etmək məqsədini ortaya qoyan tənqidi realistlər üçün sadə xalqın başa düşəcəyi dildən yazmaq özü də yaradıcılıq zərurəti idi. Bu məqsədlə komizm, ifşa yolu, satira və yumor tənqidi realistlərin ən çox istifadə etdikləri ədəbi-bədii yaradıcılıq manerasına çevrildi. "Satiranın bütün gücü və imkanları mollanəsrəddinçilik təliminə öz əksini tapır" [7, s. 643]. Bu baxımdan yalnız XX əsrin əvvəllərində daha geniş yayılan, ictimailəşən və tamamilə yeni, özünəməxsus, səciyyəvi yaradıcılıq üsuluna çevrilən satira və yumorun əsasında xüsusi janrlar meydana gəldi. Satira və yumorla bağlı peşəkar üslubi keyfiyyətləri də Azərbaycan ədəbiyyatına məhz böyük gülüş ustaları Cəlil Məmmədquluzadə və Mirzə Ələkbər Sabir başda olmaqla tənqidi realist ədiblər – Əli Nəzmi, Əliqulu Qəmküsar, Məmməd Səid Ordubadi, Mirzə Əli Möcüz, Üzeyir bəy Hacıbəyov,

Yusif Vəzir Çəmənzəminli və onların ardıcılları gətirmiş oldular. Azərbaycanda yeni-tipli şeirin binasını qoyan böyük ustad M.P.Vaqifin "Bayram oldu" şeiri və satirik ədəbiyyatın görkəmli nümayəndəsi M.Ə.Sabirin "Qurban bayramı" şeirlərində işlədilən sözlərin müqayisəsi fonunda demək olar ki, Vaqif şeirindəki sözlər çoxluluqla məişət dilindəki mənalarının eynidir. Yəni bu şeir ictimai məna kəsb etməsi üçün satiradan tələb olunan əsaslı şərtlərə cavab vermir. Xüsusilə də, sözlərin müstəqim mənada işlədilməsi də əsərin ənənəvi lirik şeirin bir nümunəsi olduğunu təsdiq edir. Prof. T.Hacıyev doğru yazır ki: "Bu sözlər aydın ictimai tendensiya ilə qidalanmalı, sinfi etirazla qovuşmalı, şəxsi qapalılıqdan çıxıb ictimai kütləvilik qazanmalıdır. Yalnız bu halda adi məişət sözləri üslubi qüvvə toplayır, satirik mahiyyət kəsb edir. Demәli, sözü, ifadəni sadəcə seçmək kifayət deyil, onu lazımi üslubi dəyərə çatdırmaq üçün müvafiq bədii situasiya, bədii mühit yaratmaq da zəruridir" [4, s. 9]. Bu mənada, bizim fikrimizcə, Vaqifin "Bayram oldu" şeiri ictimai məna kəsb edən satiradan daha çox şəxsi gileydir. Lakin M.Ə.Sabirin "Qurban bayramı"nda artıq istifadə edilən həmin söz və ifadələr məişət leksikonundakı mənasından daha çox yeni məzmun, yeni mahiyyət kəsb edərək ifşa, tənqidi mahiyyət kəsb edir, sözün əsl mənasında, mənalı gülüş, tənqidi yumor yaradır. O cümlədən "badi-səba" söz birləşməsi klassik ədəbiyyatda, ənənəvi lirik şeirdə "qasid, xəbər aparıb-gətirən" mənasında işlədilirdisə, artıq Sabirin şeirləri timsalında tənqidi realistlərin dilində bu söz konkret ictimai-tarixi şəraitə, bu dövrün aurasına uyğun olaraq "xəbərçi, çuğul, şeytan" mənalarında işlədilirdi. Habelə "sevdiyim, qəlb, sər, vəsfi-xəyal, dilbər, çərxi-sitəmkar, çərxi-fələk" və s. kimi söz və ifadələr klassik Azərbaycan poeziyasında lirik şeirdə özünəməxsus məzmun-məna kəsb etdiyi halda, satiriklərin dilində eynən işlədilən bu kimi söz və ifadələr artıq gülüş, tənqid, ifşa, ələ salma mahiyyəti kəsb edir, yeni məna-məzmun ortaya qoyur. Bir az da dəqiqləşdirsək və konkretləşdirsək, klassik Azərbaycan poeziyasında işlədilən "sevda" sözü öz əsl mənasında aid olduğu eşqlə birlikdə işlədilməklə lirik qəhrəmanının meyarına, onun qəlbinin, şəxsiyyətinin, xarakterinin bütövlüyü və böyüklüyünə, belə demək olarsa, insanlıq ölçüsü və dəyərinə çevrilir, lirik qəhrəmanın əzəmət və nəhənguliyini təcəssüm etdirir. Lakin bu söz artıq satiriklərin dilində qəhrəmanın, tipin mənəvi, xarakter səciyyəsinə çevrilir, onun düşüncələrini, niyyətini, məqsədini, məramını müəyyənləşdirmə funksiyası yerinə yetirərək "plov" və digər madii-sərvət məzmunlu sözlərlə işlənməklə satirik tipin açgözlük, tamahkarlıq, harınxorluq, qarınqululuq meyarına və ifadəçisinə çevrilir. O cümlədən C.Məmmədquluzadənin, M.Ə.Sabirin və başqa tənqidi realistlərin tez-tez istifadə etdikləri "sevdiyim" ifadəsi klassik əsərlərdə həqiqi aşiqi və ya məşuqu nəzərdə tutur. Lakin bu söz satirik şeirdə tipin, xarakterin səciyyəsini təqdim edən bir məna kəsb edərək satirik-üslubi funksiya yerinə yetirir, tipin daxilindəki "sevimli nöqsanları" aşkara çıxarmağa yardım edir. O cümlədən "zırrama" sözü xalq məişət leksikasında, ədəbi dildə "qanmaz" mənasını verən adi bir söz kimi işlədilsə də, böyük satira ustası Mirzə Cəlilin hekayə janrının ən gözəl nümunələrindən biri olan "Zırrama" əsərinin adına və tipinə çevrilməklə böyük ictimai məzmun qazanır, ciddi tənqidi-islahedici gülüş doğurur. Eləcə də tənqidi realist əsərlərdə, xüsusilə Cəlil Məmmədquluzadə ilə ənənəsi qoyulan və ən gözəl örnəkləri yaradılan xüsusi kənd-yaşayış məntəqələri adları da artıq yeni mahiyyət kəsb etməklə satirik-yumoristik oykonim – xüsusi isim yaratma ənənəsini meydana çıxarır. "Danabaş", "İtqapan", "Qapazlı" və bu kimi çoxsaylı nümunələrdə xüsusi məqsədlə yaradılan yer adları məhz əsərin məzmununa yeni məzmun qatır, əsərin süjeti və kompozisiyası qədər əsərin ideyasının müəyyənləşməsinə xidmət edir. Bu baxımdan T.Hacıyevin də yazdığı kimi, bu əsərlərdəki "tənqid islah etməli, səmərəli nəticəyə sövq etməlidir" [6, s. 95]. Tənqidi realist əsərlərdə sözlər "lirik üslubdakının tam tərsinə olan

şəkildə ifadə olunur, tam özgə tərzdə baş verir" [4, s. 15]. Yəni lirik üslubda müstəqim mənasında başa düşülən söz və ifadələr satirik üslubda, tənqidi realist əsərlərdə tam tərsi olaraq anlaşılır, yeni məna və məzmun kəsb edir. Və yaxud da, əksinə, lirik üslubda mübaliğəli və məcazi mənada ifadə edilən söz satirik əsərlərdə müstəqim mənasına qayıdır. Məsələn, lirik üslubda məcazi mənada daha çox işlədilən "canım qurban", "qadan alım", "dönüm başına" və s. kimi söz və ifadələr tənqidi-realist əsərlərdə, satirik üslubda müstəqim mənalarında istifadə edilir. Məsələn; "Belə sənə canım qurban, ay Şeyx! Mən oğlumu səndən istəyirəm" (C.Məmmədquluzadə) [14]. "İmdi revolverdi, dönüm başına, Nagəh olur güllə fəşan partapart!" (M.Ə.Sabir) [21] və s. Göründüyü kimi, lirik üslubdan fərqli olaraq tənqidi realist əsərlərdə bu yalvarışlar müstəqim, həqiqi mənalarında özünün ifadəsini tapır. Elmi mənbələrin də qeyd etdiyi kimi [12; 13; 19; 22], tənqidi realist üslubun tələblərinə uyğun yaranan yeni bədii nəsr də özünəməxsus poetika və ədəbi texnika ilə inkişaf edir, dövrün ictimai tənqidi və islahında mühüm xidmət göstərirdi. Tənqidi realistlər tipi necə varsa o cür təqdim edirlər. Tamamilə doğru deyilib ki, "hər iki üslubda ifadələr eyni leksik materialdan təşəkkül tapır. Lakin eyni materialdakı mənaların təzahürü başqalaşır. ...Daha doğrusu, bu söz materialı həqiqi aynadır ki, hər dövrün özünü, öz ictimai məzmununu əşyalaşdırır, maddiləşdirir, inikas edir" [4, s. 16]. Bu mənada klassik lirikadakı məşuq və ya yara olan eşqin yerini tipin pula olan məhəbbəti tutur. Klassik əsərlərdəki lirik qəhrəmanlar yar üçün eşq odunda yanaraq "dili-zar" edirdilərsə, satirik əsərlərin qəhrəmanları "pul", "eyş-işrət", "şəhvət" üçün "dili-zar" edirlər. Eləcə də satirik əsərlərdə tez-tez işlədilən "pul", "insan", "adam", "fəhlə", "əkinçi" və s. sözlər işləndikləri sintaktik şəraitə uyğun ictimai-tarixi məzmun ifadə edir, şərait və dövrün konkret panoraması və problemlərini ehtiva edirlər:

Adəmi adəm eyləyən paradır,
Parasız adəmin üzü qaradır [21, s. 237].

Yaxud:

Fəhlə, sən də özünü bir insanmı sanırsan?
Pulsuz kişi, insanlığı asanmı sanırsan? [21, s. 100]

Və ya:

Məzlumluq edib başlama fəryadə, əkinçi! [21, s. 113] və s.

Satirik əsərlərdə rast gəlinən "lay-lay", "hürriyyət" kimi sözlər isə dövrün ictimai-tarixi şəraiti və vəziyyətini ciddi tənqid üçün tam tərsinə məzmun əks etdirir:

Lay-lay deyim, yat, ciyərim parəsi [14, s. 616].
Bir deyirdim ki, duram, yox hələ, lay-lay dedilər [14, s. 617].
Mən elə bilirdim ki, mənə yar olacaqsan,
Aləmdə mənə yari-vəfadar olacaqsan [14, s. 623] və s.

Belə şəraitin yaranması satirik üslubu formalaşdırır, şeirin ifşa məzmununu təyin edir, əsərə tənqidi notlar qatır. Bu deyilənlər bir daha göstərir ki, ictimai-tarixi şərait, dövrün müəyyənləşdirdiyi düşüncə tərzi və dərk, insanı əhatə edən ictimai şəraitə münasibət sözlərə də, ümumən, dildən istifadəyə, dilin lüğət tərkibinə olan münasibəti dəyişməyə vadar edir. Klassik poeziya və ədəbi dildə istifadə edilməyən kobud sözlər satirik-yumoristik üslubda artıq ictimai tənqid hədəflərini, konkret nöqsan və çatışmazlıqları ifadə üsuluna çevrilir. "Divanə könül, daxı usan, yal ağarıbdır" [14, s. 627] nümunəsindəki "divanə könül", "usan" və "yal ağarıbdır" söz və ifadələrinin hər üçü satirik mahiyyətə uyğun olaraq sərt tənqidi xarakter kəsb edir, az qala küfür dərəcəsinə çatır. Bu mənada klassik poeziya və ədəbi dildə istifadə edilməyən kobud sözlər satirik-yumoristik üslubda artıq ictimai tənqid hədəflərini, konkret nöqsan və çatışmazlıqları ifadə üsuluna çevrilir. T.Hacıyev doğru yazırdı ki: "Sabir və C.Məmmədquluzadənin satira-

ları bir gözü ilə gülən, biri ilə ağlayan satiradır. Belə bir ictimai ideal, belə bir ədəbi situasiya onların satirik üslubunda yumoristik və ciddi söz və ifadələri təmasa gətirir, çulğalaşdırır, peyvənd edir" [4, s. 26]. Hətta, adi, "neytral" [4] sözlər də satirik üslubda yeni məzmun qazanır və bu üslubun asanlıqla tikinti materialına çevrilə bilir.

Ümumiyyətlə, XX əsrin əvvəllərində ən çox gündəmdə olan məsələlərdən biri və birincisi ana dili və ədəbi dil məsələsi idi. Yeni ictimai-siyasi mühitə, quruluşa, ideallara və ideyaya hansı dillə girmək və fəaliyyət göstərmək məsələsi olduqca mühüm bir məsələyə çevrilmişdi. Çoxsaylı ziyalılar bu məsələ ilə bağlı fikirlərini irəli sürür, ciddi müzakirə və mübahisə aparırdılar. N.Nərimanov, F.Köçərli, C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, Ü.Hacıbəyov, Y.V.Çəmənzəminli və başqaları bu müzakirənin mərkəzində dayanır, Əli bəy Hüseynzadə və onun "Füyuzat" ədəbi cəbhəsinin irəli sürdüyü "lisani-avam heç bir vaxt lisani-ədəbi ilə bir olamaz" ("Füyuzat", 1906, № 1), "Dünyada heç bir zaman heç bir millətin ədəbiyyatı, lisani-ədəbisi tamamilə çoban, əkinçi lisanı olmamışdır" ("Füyuzat", 1907, № 21) və b. fikir və məqsədinin tam əksinə olaraq xalqa enməklə xalqa ucalmaq, bələlərdən də, siyasi-mənəvi olaraq mənsub olduqları Azərbaycan xalqı və torpağını təhlükə və müdafiə etmək missiyası həyata keçirirdilər. Bu mənada çox doğru ümumiləşdirilmişdir ki, "dövrün ədəbi-bədii dil ətrafındakı ixtilafları "Molla Nəsrəddin"lə "Füyuzat"ın polemikasında daha aydın görünür" [3, s. 95]. "Molla Nəsrəddin" ədəbi cəbhəsindən olan Y.V.Çəmənzəminli "Dil məsələsi"nə həsr etdiyi məqaləsində yazırdı: "...Gərək o, camaatın başa düşdüyü bir dildə yazılsın ki, o da oxuyub bundan bir hissə götürsün" [2, s. 338]. Azərbaycan tənqidi realizminin bayraqdarı Cəlil Məmmədquluzadə "Xatiratım"ında bu məsələyə əhəmiyyətlə yanaşaraq yazırdı: "...biz "Mola Nəsrəddin" məcmuəsini açıq ana dilində yazmağa başladıq. Biz bu dilə o səbəbdən ana dili adı qoyuruq ki, bu dildə yazı yazanda və ortalığa ana söhbəti gələndə biz "ana"nı "ana" da yazırıq... "Molla Nəsrəddin"in açıq ana dili ilə yazdığımız mətalibi onlar (yəni türk xalqları – R.Q.) açıqca başa düşdülər; elə asand vəchlə başa düşdülər ki, dəxi bu dildən başqa qeyri bir dil axtarmağa hacət qılmadı. ...bizim məqsədimiz hal-hazırda öz fikrimizi asan bir dillə Azərbaycan türklərinə və bəlkə də sair türklərə asan bir dillə yetirmək idi" [16, s. 71-74]. Böyük ədib bunu da yazırdı ki: "Yazıda böyük cürətimiz o oldu ki, açıq ana dilindən yazmaqdan biz utanmadıq... Biz çalışırdıq ki, yazımızı hər bir kəs asan və tezliklə başa düşsün və güman edirəm, məqsədimizə çatdıq da" [16, s. 75]. Hətta bu nailiyyət böyük fikir adamı Ə.Hüseynzadə tərəfindən də yüksək qiymətləndirilərək sadə ana dilinin təşəbbüskarı "Molla Nəsrəddin" jurnalı və onun redaktoru C.Məmmədquluzadəyə razılıqla: "Yaxşı yazırsınız. ...Açıq yazmağı da bacarmaq lazımdır" [16, s. 75-76], – deyə bildirmişdi. Doğma ana dilini bədii ədəbiyyatın, publisistikanın dilinə çevirməklə mollanəsrəddinçilər həm də yeni əsrin, inkişaf və milli müəyyənləşmə epoxasının ədəbi dilini Azərbaycan dili olaraq müəyyənləşdirməyə müvəffəq oldular. Tamamilə doğrudur ki: ""Molla Nəsrəddin" xalq dili xəzinəsinin qapılarını taybatay ədəbi dilin üzünə açdı" [5, s. 194]. "Satirik-realist üslubda lüğət tərkibi, bir qayda olaraq, demokratikdir, xalq dilindən alınmış, hətta bəzən loruluğa varacaq qədər demokratik sözlər, ifadələr işlədilir. ...Satirik-realistlərin sintaksisi çox zəngin olub xalq dilinə əsaslanır – klassik nitq standartlarından bu və ya digər dərəcədə imtina etmək, "hər dəfə yenidən" xalqdan gəlmək mollanəsrəddinçilərin sintaksisinin keyfiyyətini müəyyən edir" [9, s. 409, 411]. Buna görədir ki, satirik-realistlərin dilində xalq dilində olan cümlə sintaksisi, söz düzümü, xüsusilə dialoqlardan istifadə üstünlük təşkil edir. Hətta bu görkəmli ədiblərin ədəbi-bədii dilə gətirdikləri elə söz və ifadələr oldu ki, onlar sonrakı dövrlərdə də öz əhəmiyyətini, məzmun və dəyərini qoruyaraq xalq dilində davamlı işlənən ibarə və məsəllərə çevrildilər. "C.Məmmədquluzadənin: sizi deyib gəlmişəm,

Danabaş kəndi, zırrama, saqqallı uşaq, ingilis barmağı, ev adamı, bəlkə də qaytardılar; Ə.Haqverdiyevin: mütrüb dəftəri, xortdanın cəhənnəm məktubları, Həsən ağanın qohumu; Ü.Hacıbəyovun: sən dul, mən dul, bir nəfər molla, üç manat pul, bir kəllə qənd, Qarabağın pambıq bəyləri, mən student babayam və s.; M.Ə.Sabirin: millət necə tarac olur olsun, tək səbir, fatma-tükəzbanlar, qeyrətli müsəlmanlarına şükür, xudaya, ağladıqca kişi qeyrətsiz olur, dindirir əsr bizi dinməyiriz, çırmanırıq keçməyə çay gəlməmiş" və s. söz və ifadələri XX əsr satiramızın hədiyyə-yadigarlarıdır" [3, s. 18-19]. Bunu da qeyd etməyə ehtiyac var ki, "mollanəsrəddinçilər dilin sadəliyi deyəndə onun bəsitliyini nəzərdə tutmur"dular [9, s. 413]. Bu mənada "satirik-realistlər xalq dilinə enməklə, ana dilinin ən dadlı-duzlu ifadələrini ədəbi dilə gətirməklə və xalq danışıq dili ilə ədəbi dil arasında məsafə saxlamamaqla, əslində, XX əsrin əvvəllərində Azərbaycan türk ədəbi dilinin zənginləşməsi, inkişafı üçün təsəvvür edilməz dərəcədə böyük iş gördülər" [9, s. 414-415].

Beləliklə, XX əsr epoxasına özünəməxsus yeni ideya və ideoloji mətləblər gətirən Azərbaycan tənqidi realistləri – C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, Ə.Qəmküsar, Ə.Nəzmi, M.S.Ordubadi, M.Ə.Möcüz və başqaları, o cümlədən tənqidi realizmin cəbhəxanası olan "Molla Nəsrəddin" jurnalı Azərbaycan ədəbi prosesinə xalqın sadə, anlaşıqlı dilini gətirməklə ciddi ədəbi yol müəyyənləşdirmiş oldu. Sadə, anlaşıqlı söz və ifadələrdən, xalq hikməti xəzinəsindən, onun lətifəçiliyindən, gülüş ənənəsindən əsaslı surətdə yararlanan tənqidi realistlər klassik ədəbi ənənələri birləşdirməklə Azərbaycanın milli inkişaf tarixinə yeni təşəkkül meyarları gətirdilər. Təsadüfi deyil ki, tənqidi realistlərin xalqın maraq və ideallarından çıxış edən ideya və idealları Azərbaycan milli inkişafına azərbaycançılıq ideyasını da bəxş etmişdir.

ƏDƏBİYYAT

1. Ağayev İ. "Molla Nəsrəddin"in poetikası. Bakı: Elm, 1985, 168 s.
2. Çəmənzəminli Y.V. Əsərləri. 3 cilddə, III c., Bakı: Avrasiya-press, 2005, 440 s.
3. Hacıyev T. XX əsrin əvvəllərində Azərbaycan ədəbi dili. Bakı: Maarif, 1977, 188 s.
4. Hacıyev T. Satira dili. "Molla Nəsrəddin"in dili. Bakı: ADU nəşri, 1975, 180 s.
5. Hacıyev T. Azərbaycan ədəbi dili tarixi. Bakı: Maarif, 1987, 293 s.
6. Hacıyev T. Yazıçı dili və ideya-bədii təhlil. Bakı: Maarif, 1979, 132 s.
7. Həbibbəyli İ. "Molla Nəsrəddin" ədəbi məktəbi və mollanəsrəddinçilik // Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı: Nurlan, 2007, 696 s.
8. Xəndan C. Sabir yaradıcılığının sənətkarlıq xüsusiyyətləri. Bakı: Azərnəşr, 1962, 436 s.
9. Xudiyev N. Azərbaycan ədəbi dili tarixi. Ankara, 1997, 491 s.
10. Qarayev Y. Realizm: sənət və həqiqət. Bakı: Elm, 1980, 260 s.
11. Kazımov Q. Komik-bədii vasitələr. Bakı: Yazıçı, 1983, 188 s.
12. Məmmədov Ə. Cəlil Məmmədquluzadə nəsrində sənətkarlıq məsələlərinə dair // XX əsr Azərbaycan ədəbiyyatı məsələləri. Bakı: Elm, 1986, s. 62-79.
13. Məmmədov M. Cəlil Məmmədquluzadənin bədii nəsri. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1963, 156 s.
14. Məmmədquluzadə C. Seçilmiş əsərləri: 2 cilddə, I c., Bakı: Öndər, 2004, 664 s.
15. Məmmədquluzadə C. Əsərləri: 4 cilddə, III c., Bakı: Öndər, 2004, 472 s.
16. Məmmədquluzadə C. Əsərləri: 4 cilddə, IV c., Bakı: Öndər, 2004, 472 s.
17. Mirəhmədov Ə. Azərbaycan Molla Nəsrəddini. Bakı: Yazıçı, 1980, 430 s.
18. Mirzəzadə P. Cəlil Məmmədquluzadənin dili. "Ədəbiyyat" qəz., 1945, 12 aprel.
19. Mütəllimov T. Əbdürrəhimbəy Haqverdiyevin poetikası. Bakı: ADU, 1988, 323 s.

20. Paşayev M. Cəlil Məmmədquluzadənin sənətkarlıq xüsusiyyətləri // "İnqilab və mədəniyyət", 1947, № 1-2, s. 75-90.
21. Sabir M.Ə. Hophopnamə. 2 cilddə, I c., Bakı: Şərq-Qərb, 2004, 480 s.
22. Vahabova S. Cəlil Məmmədquluzadə nəsrinin poetikası. Bakı: Elm və təhsil, 2013, 164 s.

Рамиз Гасымов

СТИЛЬ В АЗЕРБАЙДЖАНСКОМ КРИТИЧЕСКОМ РЕАЛИЗМЕ И ИСПОЛЬЗОВАНИЕ РОДНОГО ЯЗЫКА

В статье основное внимание уделяется стилю критических реалистов в Азербайджане, использованию родного языка и творческого языка. Показано, что критические реалисты придумали национальные идеалы, основанные на интересах и чаяниях народа. Они используют простой фольклор в качестве креативного языка и пользуются народной литературой. Дж.Мамедкулузаде, М.А.Сабир, А.Хагвердиев, А.Гамкусар, А.Назми, У.Гаджибеков и другие критически настроенные реалисты способствовали идентификации литературного языка двадцатого века с использованием простого фольклора.

Ключевые слова: *азербайджанский критический реализм, родной язык, критический реалистический стиль.*

Ramiz Gasimov

THE USING MOTHER TONGUE AND STYLISTIC PROBLEMS IN AZERBAIJAN CRITICAL REALISM

In the article the author investigates Azerbaijan's critical realists still, using mother tongue and the language of their creative work. It is showed that critical realists take the interests and ideals of the people as main basis and report with national ideals. The language of their creative work is very easy and they used folklore. J.Mammadguluzadeh, M.A.Sabir, A.Hagverdiyev, A.Gamkusar, A.Nazmi and others used the folklore and they contribute the determining of our literary language of XX century.

Keywords: *Azerbaijan critical realizm, the problem of mother tongue, the critical realistic stil.*

(Filologiya üzrə elmlər doktoru Fərman Xəlilov tərəfindən təqdim edilmişdir)

ÇİNARƏ RZAYEVA
AMEA Naxçıvan Bölməsi
E-mail: cinarerzayeva@ yahoo.com.tr

AZƏRBAYCAN VƏ DİGƏR TÜRK XALQLARI BAYATILARINDA VARİANTLILIQ MƏSƏLƏLƏRİ

Məqalədə əsas məqsədimiz Azərbaycanda toplanan bayatıların türk dünyasında variantlılıq məsələlərini araşdırmaqdan ibarətdir. Həcmcə kiçik, lakin zəngin məzmun çalarına malik olan bayatılar özünəməxsus xüsusiyyətləri ilə seçilir. Bir çox bayatılar vardır ki, onlar bu gün həm Türkiyə, Alıska, Qaqauz, Kərkük, həm də digər türk xalqlarının folklorunda işlənir. Həmçinin o da qeyd olunub ki, bəzi bayatılar türk xalqlarının folklorunda məzmunca səxlanılmış, forma bəxmından müəyyən dəyişikliyə uğramışdır. Məqalədə türk xalqlarında işlənən bayatılara aid nümunələr verərək fikrimizi təsdiqləmiş oluruq.

Açar sözlər: *Azərbaycan, türk, bayatı, ortaq, müqayisə.*

İnsan ruhunu oxşayaraq dildən-dilə, nəsildən-nəslə, əsrdən-əsrə, ağızdan-ağıza keçib gələn folklor nümunələrindən janr etibarı ilə ən çox yayılanı bayatılardır. Həcmcə kiçik, lakin dərin mənası olan "bayatılar insan həyatının canlı poetik salnaməsidir. Onun varlığını, mənəvi aləmini dünyaya göz açdığı çağdan ömrünün son anlarına kimi müşayiət edir, duyum və hisslərinə estetik, bədii zövq aşılayır" [1, s. 4]. El ədəbiyyatının ən geniş yayılmış qollarından biri olan bayatılar öz mövzu müxtəlifliyi ilə seçilir, Belə ki, bayatıların mövzu dairəsi genişdir. Bayatıların əhatə etdiyi mövzular bunlardır: Vətən, qürbət, mərdlik-namərdlik, eşq-məhəbbət, sevgi, xoşbəxtlik, bolluq-bərəkət, ayrılıq, intizar, istək-arzu, qəm-qüssə, üzüntü, öyüd-nəsihət, hörmət-ehtiram, xeyir-dua, qarğış, ağı, şənlik, toy-düyün və s. Bayatılarda insana məxsus müsbət və gözəl xüsusiyyətlər, saf məhəbbət, həyat eşqi, qəm, kədər, ayrılıq, vətən sevgisi və sairlə yanaşı "dostluq, sədaqət, humanizm meyilləri canlı, şairanə bir dillə, az sözlə, böyük və dolğun fəlsəfi məna ilə ifadə olunmuşdur" [1, s. 4].

Bayatıların mövzu əhatəsi geniş olması ilə bərabər söylənmə yeri də müxtəlifdir. Toy və xına mərasimlərində, hər hansı sevincli gündə söylənilən bayatılar və s.

Bayatılar həmçinin türk xalqlarının regionlarında da geniş şəkildə kök salmış və yayılmışdır. Belə ki, bizim bayatılarla bərabər "pərvəriş tapan özbək, türkmən, qaqauz, türk, kərkük qoşuq-mani xoyratları da həmin poetik aləmin özülünü təşkil edib yüzilliklər boyu yaşamış, zəngin, tükənməz bir xəzinəyə çevrilmişdir" [1, s. 5]. Tanınmış türk yazar, publisist və dramaturq Ə.Nesinin təbirincə desək, "hər bir millətin böyüklüyü onun əhalisinin çoxluğuna və ərazisinin genişliyinə görə müəyyənləşdirilmir. Hər bir xalqın böyüklüyü onun tarix və mədəniyyətinin qədim və zəngin liyinə görə müəyyənləşdirilir" [2, s. 219]. Bu qədimlik və zənginlik folklorda da öz əksini tapır. Biz də bu qədim və zəngin folklor janrı olan bayatıları tədqiqata cəlb etmişik.

Azərbaycanda toplanan bayatıları digər türk xalqlarında toplanan bayatılarla qarşılıqlı şəkildə müqayisə etdikdə bunların həm eyni olanı, həm də bir az dəyişik formada olanları ilə rastlaşırıq. Deyilən fikirlərə aid aşağıda bir neçə nümunəyə diqqət yetirək:

Azərbaycan:

Bulaq başı toz olar,
Üstü dolu qız olar.
Mən sənə gül demərəm,
Gülün ömrü az olar [1, s. 145].

Qaqauz:

Kala böyür saz olur,
Saz açılıb yaz olur.
Mən yarıma gül deməm,
Gülün ömrü az olur [10].

Türkiyə:

Bağçalarda saz olur
Gül açılır yaz olur
Mən yarimə gül deməm
Gülün ömrü az olur [5, s. 283]

Kərkük:

Bağçalarda saz olur
Gül açılır yaz olur
Mən yarıma gül deməm
Gülün ömrü az olur [7, s. 108].

Krım tatarları:

Dərya dibi saz olar,
Gül açılsa, yaz olar.
Mən sənə gül demərəm,
Gülün ömrü az olar [9, s. 15].

Qeyd edək ki, verilən bayatılarda Azərbaycan dili ilə İraq türkmənlərinin dilinin çox yaxın olduğunu görürük. "Kərkük xoyrat və manilərinin tanış olduğum nümunələri göstərir ki, istər düşüncə yolu, istər obrazlar silsiləsi, istər iztirab, həsrət, ümid, sevinc və kədərlərinin ifadə forması etibarı ilə İraqın türkdilli sakinləri azərbaycanlılara çox yaxındırlar" [4, s. 236-241].

Yuxarıda verdiyimiz nümunələrdə demək olar ki, bəzi dəyişikliklərin olmasına baxmayaraq hər bir nümunə eyni mənanı verir. Türkiyə və Kərkük variantında verilən bayatılar eynidir. Sonra daha yaxın olanı qaqauz variantıdır. Azərbaycan variantında isə bayatının başlıq hissəsi fərqli formada verilmişdir. Amma əvvəlki misraların fərqli verilməsinə baxmayaraq hər beş bayatının son iki misrası və ümumi mənası eynidir. Verilən hər beş nümunədə gülün gözəl və ömrünün az olması deyilir. Bunun üçün də yarlarını gülə bənzətmirlər.

Digər bayatılara nəzər salaq:

Azərbaycan:

Bu bağlar olmayaydı,
Saralıb solmayaydı.
Bir ayrılıq, bir ölüm,
Heç biri olmayaydı [1, s. 169].

Türkiyə:

Bu dağlar olmasaydı
Çiçəyi solmasaydı
Ölüm Allahın əmri
Ayrılıq olmasaydı [5, s. 283].

Krım tatarları:

Dəryalar dolmayaydı,
Çiçəklər solmayaydı,
Ölüm Allahdan gəlir,
Ayrılıq olmayaydı [9, s. 62].

Axıska türklərinin bayatıları da öz xüsusiyyətləri ilə seçilir. Belə ki, onların çəkdiyi vətən həsrəti, yurd dərdi, özləm hissləri, eləcə də gələcəyə ümid də bayatılarının əsas mövzu dairəsini təşkil edir. Yuxarıda verdiyimiz bayatıya Axıska türklərinin folklorunda da rast gəlirik:

Bu bağlar olmayaydı,
Saralıb solmayaydı.
Bir ayrılıq, bir ölüm,
Heç biri olmayaydı [3, s. 112].

Verilən bu bayatıya qaqauzların folklorunda da rast gəlirik:

Bu dağlar olmayaydı
Çiçəklər solmayaydı
Ölüm Allahtan gəlir
Ayrılıq olmayaydı [13].

Verdiyimiz nümunədə fərqlilik çox azdır. Hətta Azərbaycan və Axıska bayatı nümunələri tamamilə eynidir. Hər beş bayatıda güllərin, bağların saralıb solmaması, ayrılığın olmaması arzu edilir.

Nümunələrə diqqət etdikdə görürük ki, türk xalqlarının düşüncə və təfəkkürü oxşardır. Bayatılar (manilər) türk düşüncəsinin, türk təfəkkürünün təsiri nəticəsində meydana gəlmiş və bu gün də öz dəyərini qoruyur. Ta qədim zamanlardan bu günə qədər Türk xalqlarının birliyi, həmrəyliyi daim müşahidə olunmuşdur. Bundan sonra daha çox olacağına şübhəmiz yoxdur.

Vətən mövzusunda Azərbaycanda toplanan bir nümunəyə diqqət yetirək:

Qəribəm bu vətəndə,
Gözüm yoldan ötəndə.
Qəriblik yaman olur,
Baş yastığa yetəndə [1, s. 16].

Axıska:

Qəribəm bu vətəndə,
Qərib quşlar ötəndə.
Gövlüm göyərçin oldi,
Durmiyer yad vətəndə [3, s. 89].

Yuxarıda qeyd etdiyimiz kimi, bayatıların mövzu dairəsi genişdir. Onların içərisində önəmli yerlərdən birini tutan Vətən mövzusunda olanlardır. Məhz yuxarıda qeyd etdiyimiz nümunələrdə Vətən həsrəti, vətən sevgisi öz əksini tapmışdır. Belə ki, bayatılarda insanın harda olmağından asılı olmayaraq Vətən üçün darıxmağını, vətən həsrətini, vətən sevgisini görürük. Bu bayatılardan aydın görürük ki, "xalq öz ana yurdunu, onun təbii gözəlliklərini həmişə sevmiş və poetikləşdirməyə çalışmışdır" [6, s. 148].

Bayatıları zənginləşdirən digər bir xüsusiyyət də onlarda atalar sözlərinin, öyüd-nəsihətin, hikmətli sözlərin və alqışların yer almasıdır. Bu xüsusiyyətlər öz zənginliyi ilə bayatılara da xüsusi məna çaları qatmışdır.

Bayatılarda olan ortaq xüsusiyyətlərdən biri də yuxarıda qeyd etdiyimiz sözlərin əks olunmasıdır. Təhlillər apardığımız zaman öyüd-nəsihətin, hikmətli sözlərin və alqışların əks olduğu bayatılara da xeyli sayda rast gəldik. Belə bayatılar Azərbaycan, Tür-

kiyə, Axıska və digər türk xalqlarının folklorunda çoxluq təşkil edir. Dediyimiz fikirləri aşağıda verdiyimiz nümunələrlə təsdiqləyə bilərik.

Məsələn:

Əzizim il yarası,
Ağrıdır il yarası
Xəncər kəssə sağalar,
Sağalmaz dil yarası [1, s. 223].

Əzizim aman gündə,
Sözün de aman gündə.
Dost kimdi, düşmən kimdi,
Tanırsan yaman gündə [1, s. 218].

Azərbaycan bayatıları kitabından verdiyimiz bu nümunələrdə "Qılınc yarası sağalar, söz yarası sağalmaz", "Dost dar gündə tanınar", "Dost yaman gündə tanınar" və ya "Yaxşı dostu yaman gündə sına" atalar sözlərinin məna mahiyyəti özünə yer tapmışdır. Belə bayatılar həm də nəsihət xarakterlidir. Bu nümunələrdə atalar sözləri olduğu kimi verilməsə də eyni mənada verildiyi açıq-aydın görülməkdədir.

Yuxarıda "Qılınc yarası sağalar, söz yarası sağalmaz" atalar sözünün işləndiyi birinci bayatıya Kərkük folklorunda da rast gəlinir. Məsələn:

Gül yarası;
Bülbüldə gül yarası.
Xəncər yeri sağalar,
Sağalmaz dil yarası [7, s. 253].

Türkiyə:

Altın dişim qanamaz
Sevda mənə yaramaz
Ver ana sevdiyimə
Özü düşən ağlamaz [11].

Lokman dünya heç demiş
Əkdiyini biç demiş
Dərdli zoru görüncə
Keç igidim keç demiş [12].

Birinci nümunədə axırıncı misra "Özü düşən ağlamaz" atalar sözü ilə tamamlanmışdır. İkinci nümunədə isə "Nə əkərsən onu da biçərsən" atalar sözü işlənmişdir. Onu da qeyd edək ki, atalar sözləri bayatılarda bəzən olduğu kimi verilir, bəzən bayatıya, yəni qafiyəyə, heca sayına uyğun gəlsin deyə dəyişik formada işlənmişdir. Elə yuxarıda verdiyimiz iki nümunədə deyilən fikir öz əksini tapmışdır. Belə ki, birinci nümunədə atalar sözü olduğu kimi, ikinci nümunədə isə bir az yığcam formada verilmişdir. "Lokman dünya hiç demiş, Əkdiyini biç demiş" misralarının mənası yuxarıda verdiyimiz "Nə əkərsən onu da biçərsən" atalar sözü ilə eyni mənanı ifadə edir. Hər iki atalar sözünün nəinki Türkiyə folklorunda həmçinin Azərbaycan folklorunda da işlənmə tezliyi yüksəkdir.

Axıska türklərinin folklorunda atalar sözləri ifadə olunan bayatılara xeyli sayda rast gəlinir. Məsələn:

Əzizinəm Vətəndə
İgid gərək Vətəndə
Elin sözü bir olsa
Yağı qoymaz Vətəndə [3, s. 96]

Axıska folklorundan verdiyimiz bu nümunədə "Elin gücü bir olsa, düşməni dara çəkər", "El bir olsa zərbi kərən sındırar", "El bir olsa, dağ oynadar yerindən" mənalarını ifadə edən atalar sözü işlənmişdir. Bu atalar sözləri də işlənmə tezliyi yüksək olanlar sırasındadır.

Kərkük:

A yağa;
Düşmən baxar ayağa
Sən məclisə gedərkən
Hər kəs qalxar ayağa [7, s. 59]

Yuxarıda verilən bayatıda "Dost başa baxar düşmən ayağa" atalar sözünü ifadə edən "Düşmən baxar ayağa" misrasını görürük. Lap əvvəldə qeyd etdiyimiz kimi, bayatılarda atalar sözlərinin ya bir hissəsi, ya da müəyyən dəyişilmiş forması verilir. Məhz bu bayatıda da atalar sözünün tamamı yox, bir hissəsi ifadə olunmuşdur.

Yazılanlardan belə nəticəyə gəlinir ki, Azərbaycan folklor nümunələri ümum türk folklorunun inkişafında böyük rol oynamışdır. Azərbaycanda toplanan bayatılara digər türk xalqlarının folklorunda bəzi hallarda olduğu kimi, bəzi hallarda isə məzmunu saxlanılmaqla forma baxımından dəyişik formalarda işlənib. Hər bir xalqın özünün təfəkkürü, düşüncəsi, məntiqi bayatılarda öz əksini tapmışdır.

Təhlillər zamanı həm Azərbaycanda toplanan bayatılarda, həm də digər türk xalqlarının folklorunda atalar sözləri ilə ifadə olunmuş bayatılara da xeyli sayda rast gəldik. İşlənmə tezliyi yüksək olan bu atalar sözləri bir çox bayatıların əsasən də son misralarını təşkil edir. Bu da bayatıların nə qədər dərin mənaya malik olmasını bir daha sübut edir. Bayatılar həcmcə kiçik olmasına baxmayaraq həm mövzu dairəsi, həm də məna çalarları baxımından müxtəlif və genişdir. Demək olar ki, nənələrimizdən, babalarımızdan gələn bu folklor nümunəsi hər dövr üçün öz aktuallığını qoruyub saxlamışdır. Məhz bizlər də bunu gələcək nəsillərə ötürərək daim yaddaşlarda yaşatmalıyıq.

ƏDƏBİYYAT

1. Azərbaycan bayatıları. Bakı: XXI Yeni Nəşrlər Evi, 2004, 304 s.
2. Azərbaycanda türk xalqları tarixinin tədqiqi və tədrisi məsələləri. Respublika elmi-praktik konfransı, 18-19 May. Bakı, 2017, 250 s.
3. Əhmədli A. Qubadlı Q. Axıska türk folkloru. Bakı: Nurlan, 2008, 269 s.
4. Məmmədov E. Naxçıvan və Kərkük bayatılarında variantlılıq məsələləri. AMEA Naxçıvan Bölməsinin Xəbərləri. Naxçıvan: Tusi, 2007, № 3, s. 236-241.
5. Şükrü E. Halk edebiyatına giriş. Ankara: Başer, 2004, 785 s.
6. Əfəndiyev P. Şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, 1981, 404 s.
7. Paşayev Q. İraq-Kərkük bayatıları. Bakı: Yazıçı, 1983, 348 s.
8. Naxçıvan folklor antologiyası: 3 cilddə, III c. Naxçıvan: Əcəmi, 2012, 560 s.
9. Türk xalqları folkloru. I kitab, Krım-tatar xalq şeirindən seçmələr. Bakı: Nurlan, 2013, 180 s.
10. http://www.anl.az/down/meqale/xalqcebhesi/2015/dekabr/466641.htm
11. http://www.usakkulturturizm.gov.tr/TR,75320/siirler-destanlarturkulermanilertekerlemelerninnileragi-.html
12. https://tr.wikisource.org/wiki/Maniler_(L)
13. http://ekitap.kulturturizm.gov.tr/TR,78522/gagavuz-sozlu-turk-edebiyati.html

Чинара Рзаева

ПРОБЛЕМА ВАРИАТИВНОСТИ В БАЯТАХ АЗЕРБАЙДЖАНА И ДРУГИХ ТЮРКСКИХ НАРОДОВ

Основная цель статьи состоит в исследовании частоты использования в тюркском мире баят, собранных в Азербайжане. Небольшие по форме, но обладающие богатством оттенков содержания, баяты отличаются уникальными особенностями. Есть много баят, которые используются сегодня и в фольклоре турецкого народа, а так же в месхетинском, гагаузском, киркукском и фольклорах других тюркских народов. Кроме того, было отмечено, что некоторые баяты с точки зрения сохранения формы подверглись некоторым изменениям. Используемые в статье примеры баят, взятые из фольклора тюркских народов, подтверждают наше мнение.

Ключевые слова: *Азербайджан, тюркский, баяты, общий, сравнение.*

Chinara Rzayeva

THE PROBLEM OF VARIABILITY IN BAYATS OF AZERBAIJAN AND OTHER TURKIC PEOPLES

The main purpose of the article is to investigate the frequency of use in the Turkic world of the bayat collected in Azerbaijan. Small in form, but rich in the content shades, bayats have unique features. There are many bajat that are used today in the folklore of the Turkish people, as well as in the Meskhetian, Gagauz, Kirkuk and folklore of the other Turkic peoples. In addition, it was noted that some bayat from the point of view of preserving the form underwent some changes. The examples of bayats used in the article, taken from the folklore of the Turkic peoples, confirm our opinion.

Keywords: *Azerbaijan, Turkic, bayats, general, comparison.*

(Filologiya üzrə elmlər doktoru Fərman Xəlilov tərəfindən təqdim edilmişdir)

NAZİRƏ ƏSGƏROVA
AMEA Naxçıvan Bölməsi
E-mail: naziraasker@yahoo.com

MƏİŞƏT NAĞILLARININ SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

Məqalədə məişət nağılların səciyyəvi xüsusiyyətləri araşdırılmışdır. Bir sıra nağıllar müqayisəli şəkildə tədqiq olunmuş, məişət nağıllarının bəzi səciyyəvi cəhətləri üzə çıxarılmışdır. Eyni zamanda bu nağıllarda hökmdar, vəzir, molla, tacir və başqaları ilə zəhmətkeş xalq nümayəndələrinin qarşılaşmasından yaranan ictimai haqsızlıq, ədalətsizlikdən bəhs olunur. Xalqın mənəvi ehtiyacları ilə bağlı olan bu nağıllarda ailə, məişət məsələləri əsas yer tutması göstərilir. Məqalədə məişət nağıllarının baş qəhrəmanlarının ağıl, zəka, ədalət, vicdan hesabına istəklərinə nail olması, mənəvi keyfiyyətləri ilə qələbə qazanmasına aydınlıq gətirilmişdir. Məişət nağıllarının hərtərəfli şəkildə araşdırılması yeni tədqiqat perspektivləri müəyyənləşdirmişdir.

Açar sözlər: *Məişət nağılları, poetika, motiv, süjet, keçəl obrazı.*

Öz məzmun və mövzusuna görə məişət nağılları müxtəlifdir. Tapmacanın, çətin sualın, müdrik cavabın işlənməsi səciyyəvi olan bu nağıllar, qəddar və ağılsız hökmdarın, axmağın, tənbəlin, fərsizin ələ salınması kimi süjetləri özündə birləşdirir.

Məişət nağıllarının mövzusu kimi mənşəyi də müxtəlifdir. Fərsiz övladlar barədə, quldur və oğrulardan bəhs edən süjetlərin mənşəyi məişətlə bağlıdır. Məişət nağıllarının öz süjet dairəsi, obrazları, spesifik bədii təsir üsulları vardır. Sehrli nağıllardan fərqli olaraq onların qəhrəmanları həqiqi dünyada yaşayır, öz zirəkliyi, ağlı ilə istəyinə çatır. Onların hərəkətləri bəzən yaşadıqları cəmiyyətin əxlaq normalarına qarşı çevrilir. Bu nağıllar xalqın həyat tərzini, yaşayışını, güzəranını, adət-ənənəsini, mübarizəsini, arzu, istək və ümidlərini yığcam bədii boyalarla əks etdirir. Burada hökmdar, vəzir, molla, tacir və başqaları ilə xalq nümayəndələrinin qarşılaşmasından, ictimai haqsızlıq, ədalətsizlik, yoxsulluq, ehtiyac və digər məsələlərdən danışılır. Məişət nağıllarının baş qəhrəmanları ağıl, zəka, tədbir, ədalət, insaf, vicdan, doğruçuluq hesabına istəklərinə nail olur, mənəvi keyfiyyətləri ilə qələbə qazanırlar. Bu qəhrəmanların şəxsində xalq öz istək və arzularını təcəssüm etdirir. Bu nağıllarda real həyat həqiqətləri, qabarıq şəkildə özünü göstərir. Sual-cavab üzərində qurulan nağıllar öz səciyyəsinə görə sehrli nağıllara yaxındır. Sehrli nağıllarda qəhrəman öz istəyinə mürəkkəb hərəkətlərdən, hadisələrdən, çoxsaylı sınaqlardan keçdikdən sonra nail olur. Eyni tipli məişət nağıllarında isə o adam qalib gəlir ki, rəqibinə həlledilməz sual-tapmacalar verir və yaxud əksinə, sual-tapmacalara düzgün cavab verir [4, s. 230]. Bu tipli nağılların bəzilərində süjetin əsasında sual-tapmaca durur. Hadisələr həmin tapmacanın sirrinin açılması ilə sona çatır. Yuxarıda qeyd etdiyimiz fikirlər nümunələr əsasında daha ətraflı izah etmək olar.

"Üç şahzadə" nağılında nişanlının sınaqdan keçirilməsi motivi mühüm yer tutur. Nağılda təsvir olunur ki, üç qardaş təhsillərini başa vurub elmə yiyələndikdən sonra atalarından icazə alaraq səfərə çıxırlar. Onlar gəzə-gəzə gəlib bir vilayətə çatırlar. Bu vilayətin padşahı qardaşların ağıl və qabiliyyətlərini görüb onlardan razı qalır. Padşah öz qı-

zını böyük qardaşa verib qırx gün, qırx gecə toy çaldırır. Ortancıl qardaşla kiçik qardaş yollarına davam edirlər. İki yol ayrıcında onlar bir-birindən ayrılırlar, hərəsi bir vilayətə çatırlar. Ortancıl qardaş da səbri, ağlı hesabına padşah qızı ilə evlənir. Kiçik qardaş da heç bir pəhləvanın yerinə yetirə bilmədiyini ağıllı qocanın köməyilə yerinə yetirir, qızın sarayına daxil olur. Bundan sonra qız atasına deyir ki, bu oğlan suallarıma cavab versə, onunla evlənərəm. Qızın suallarına oğlan cavab tapır. Qız oğlana getməyə razı olur. Toydan sonra atası sual-cavabın mənasını soruşduqda qız deyir:

– Mən bir almaz göndərib dedim ki, mən almaz kimi bərkəm, sən mənim arzularımı yerinə yetirə bilməzsən

Oğlan dedi:

– Mən başa düşdüm, ona görə də almazı əzib sənə göndərdim, əgər sənin arzuların hadağadan çıxsa, o arzuları mən beləcə əzərəm.

Qız dedi:

– Sonra mən bir dənə brilyant göndərdim ki, mən brilyant kimi gözələm.

Oğlan dedi:

Mən başa düşdüyüm odur ki, ondan da qiymətli bir brilyant alıb sənə göndərdim ki, elə mən də gözələm. Ancaq yanına iki yaqut qoydum ki, indi gör bizim kimi iki gözəldən iki dənə yaqut kimi oğlan dünyaya gəlsə nə qiyamət olar [1, s. 306].

Göründüyü kimi sual-tapmacalar daha çox qəhrəmanın zəkasını, nə dərəcədə hazırcavab olduğunu yoxlamaq məqsədi daşıyır. Qız və oğlan sual və tapmacalarla yarışırlar. Bu cür müsabiqədə nə qalib, nə də məğlub yoxdur, hər iki tərəf öz fərasətini, ağlını nümayiş etdirir, bununla da evlənmək qərara alınır. Bu nağılda üç şahzadə qardaşın hər biri şah qızları ilə şahzadə olmaqlarına görə evlənmirlər. Şah qızları ona görə onlarla evlənməyə razılıq verirlər ki, qardaşların hər biri sınaqdan uğurla çıxırlar, onlara verilmiş tapşırığın öhdəsindən gəlirlər. Deməli, qədim toy adətinə görə, oğlanın kimliyi deyil, bacarığı, qabiliyyəti əsas rol oynayırmış [3, s. 55].

"Yola nərdivan salaq" nağılı az-çox "Padşah və pinəçi" nağılı ilə səsləşsə də müasir olmaqla, tamamilə tapmacalar üzərində qurulub [8, s. 199]. Başqa xalqlarda olduğu kimi, dialoqlar şəklində olan və tapmacalar üzərində qurulan məişət nağıllarının məğzini təzadlar təşkil edir. Bir tərəf tapmacalarla başqa tərəfi sınaqdan keçirir, o biri tərəf baş sındırır, cavab hazırlayır. Biri ağıllı olur, cavab verir, o biri tərəf cavab verə bilmir. Burada qız sevdiyi oğlanın ağlını, düşüncəsini tapmacalar vasitəsilə yoxlayır. Oğlan kasıb olsa da, qız onun ağlını hər şeydən üstün tutur. Ağlı varsa, var-dövlət qazanacaq, ağlı yoxsa, olanı da dağıdacaq-deyərək onu imtahana çəkir. Burada da oğlan qızın suallarına doğru cavab verərək onun məhəbbətini qazanır. Bir çox nağıllarda oğlan qızın düzəltmiş olduğu tilsimləri sındırır və qızın tapmacalarına cavab verməli olur. Bu tipli nağılların bir qismində isə nişanlının fiziki gücünü yoxlamaq, sınaqdan keçirmək üstünlük təşkil edir. Bu cəhət "Hazarandastan bülbülü" nağılında aydın şəkildə əks olunmuşdur. Nağılda Bilqeyis xanım ancaq o oğlana ərə getməyə razılıq verir ki, ona qalib gəlsin. Kiçik şahzadə qızın bu şərtini yerinə yetirir və Bilqiyes xanımın razılığını alır [5, s. 117].

Bu motiv dastanlarımızda da geniş yayılıb.[1] "Kitabı-Dədə Qorqud"un Bamsı Beyrək boyunda bu cəhət özünü aydın göstərir. Beyrək nişanlısı Banuçiçəyin otağı tikilmiş göy çəmənə gəlir. Tanınmasın deyə "yaşmaqlanıb" qabağa çıxan qız Bamsının nə üçün gəlmiş olduğunu öyrənib onu sınaqdan keçirir, ox atıb, güləşir. Nağıl və dastanlarımızda bu adətin geniş əks olunduğunu göstərən folklorşünas alim M.H.Təhmasib yazır: "Lakin qədimlərdə evlənən oğlanın daha çox fiziki gücünü yoxlamaq, sınaqdan keçirmək, imtahan etmək zərurətinə əsaslanan bu müsabiqələr getdikcə öz yerini daha çox oğlanın dərakəsini, zəkasını nə dərəcədə hazırcavab olduğunu yoxlama sınaqlarına tərk etməyə başlayır [9, s. 82].

"İki qardaş" nağılında əsl mətləb "ağıllı-dəli" qoşalığında ortaya çıxır:

"Biri varmış, biri yoxmuş, kənddə bir ailə yaşayırmış. Bunların iki oğlu varmış. Valideynləri öləndən sonra bu qardaşlar tək qalırlar. Bunun böyüyünə ağıllı, kiçiyinə isə dəli qardaş deyərmişlər [6, s. 52]. Nağılda hadisələrin inkişafı da bununla bağlıdır. Məhz qardaşların "ağıllı və dəli" işləri reallaşdıqca maraqlı məqamlar ortaya çıxır, komik vəziyyət yaranır. Ümumiyyətlə, məişət nağıllarında konflikt məişət çərçivəsində inkişaf edir. Məişət nağıllarında məişət motivləri süjetin əsasını təşkil edir. Bu xüsusiyyət məişət nağıllarının janrdaxili tiplərini əhatə edir. Məişət nağılları arasında geniş yayılan və xalq tərəfindən çox sevilən nağıllar keçəl obrazı ilə daha çox bağlı olmuşdur. "Keçəl Məmməd" nağılında Məmməd padşaha müraciətlə "Sən bu ağlınla necə padşahlıq edirsən?" – deyir. Keçəlin nağılında təsvir olunur ki, xəsis tacir keçəli axşama kimi işlədib, quru çörək qırıntıları ilə yola salır. Süjetə əlavə kimi görünən dərğa ilə tacirin arvadının macərasının daxil edilməsi qəhrəmanların xarakterini aydınlaşdırmış olur. Bundan istifadə edən keçəl düşmənlərini axıradək ifşa edir. Hadisələrin gedişində keçəlin ağıl və fərasəti, döyüşkənliyi, tacirin xəsisliyi, darğanın riyakarlığı üzə çıxır. Darğa keçəldən intiqam almaq məqsədilə ikinci dəfə rüşvət vermək istəyən tacirə deyir ki, bu sən deyən keçəllərdən deyil, dinməz-söyləməz gətir yüz tümən ver.

"Fərəsətli keçəl" nağılı belə başlayır: "Biri var idi, biri yox idi. Bir kişiynən arvad var idi. Bunların bir keçəl oğlu var idi. Kişi öldü. Anası uşağı böyütdü.

Keçəl dedi:

– Ana, bizim dədədən qalma nəyimiz var?

Anası dedi:

"Qonşumuz tacirin qazları içində bir çolaq qazımız var" [2, s. 104]. Belə başlanan nağılı üç mərhələyə ayırmaq olar: Yalanı ortaya çıxaran şərait, keçəlin yalanla mübarizəsi, doğrunun qələbəsi. Nağıllarımızda keçəllər müxtəlif funksiyaların daşıyıcılarıdır. Bu nağılda isə keçəl fərasətlidir. Keçəl vəzir, pis qarı və quldurlarla vuruşur. Öz ağlı, fərasəti ilə onları həmişə pis vəziyyətdə qoyur. Padşahın yanında hamısını hörmətdən salır. Sonra vəzir bağıra-bağıra ölür. Padşah özünə vəzir axtarmağa başladı. Keçəl bunu eşidib, yaxşıca geyinib, keçinib getdi padşahın yanına: – Padşah sağ olsun, məni özünə vəzir götür.

Padşah dedi:

– Bacara bilərsən?

Keçəl dedi:

Niyə bacara bilmərəm. Xeyli sorğu-sualdan sonra padşah baxdı ki, özü də dillidilavər. Keçəli özünə vəzir eylədi [2, s. 222].

Keçəl Azərbaycan və bəzi türk xalqlarının nağıllarında olduğu kimi əzmindən dönməyən, haqsızlığa dözməyən, ağlı, zəkası ilə nahaqqı damğalayan, çətinliklərdən çəkinməyən qəhrəmandır. Ona girişmək onu hiylə ilə aldatmaq mümkün deyil. Dünya xalqlarının folklorunda keçələ bənzər qəhrəmanlar çoxdur. Məsələn, ruslarda ağıldankəm İvan, hindlilərdə pinti yetim və s. belələrindəndir. Lakin həmin qəhrəmanlar istəklərinə başlıca olaraq sehr vasitəsilə nail olurlarsa, keçəl, göstərdiyimiz kimi istəyinə ağlı, zəkası ilə çatır [8, s. 201]. Keçəl mübarizdir. Onun mübarizəsi ictimai həyatın hər bir sahəsində özünü göstərir. Bu mübarizə bəzən sadəcə olaraq mübarizə xatirinə edilirsə, çox vaxt ictimai-iqtisadi ziddiyyətlərin zəruri nəticəsi kimi çıxır. Ümumiyyətlə, keçəllə bağlı nağıllarda öyüd-nəsihət, həyat təcrübəsi və s. qabarıq şəkildə özünü göstərir.

"Şirvan qazısı" nağılında qazı tam mənfi planda, şər qüvvə kimi təsvir olunur. Qazı zahirən alicənab bir adamdır, yeriyəndə addımını elə atır ki, ayağının altında qarışqafilan qalıb əzilməsin. Bütün günü məsciddə namaz qılıb ibadət edir. Əslində isə o, lotunun biridir, lotu-potu dəstəsi düzəldib olmazın oyunlardan, çıxır. "İmam" nağılının baş qəhrəmanı da bir çox cəhətdən nadürüst qazını xatırladır. Özünü camaata imam kimi tanıdıb gizlində şeytani əməllərlə məşğul olan, öz mənfəəti naminə tələ qurub ən mehriban bir ailəni dağıdan bu qadın da tam mənfi planda təsvir olunur. Qəhrəmanın bu cür kəskin tənqidi mövqedən təqdim olunması folklor üçün heç də yad keyfiyyət deyil [7, s. 95]. "Şirvan qazısı" və "İmam" nağıllarının baş qəhrəmanları nəinki keçələ, hətta keçəlin toqquşduğu tacir və qazılara bənzəmir. Keçəlin toqquşduğu tacir və qazılar məzəli sərgüzəştlərin uduzan iştirakçılarıdır. Bu sərgüzəştlərdə qarşılaşan tərəflərin hər biri kələyə əl atır. Keçəlin kələkbazlığı rəğbət doğurduğu kimi, onun üstün gəldiyi tacir və qazıların da hərəkətləri nifrətdən daha artıq nikbin gülüş doğurur.

Məişət nağıllarının bir qismində insanların xarakterində ailə münasibətlərində olan mənfi adətlər, nöqsanlar ələ salınır. Bu mövzudakı nağıllarda yumor üstünlük təşkil edir. Məsələn, "Dəlisov arvad" nağılında yelbeyin ailənin sirrini dünyaya çar edən ağılsız qadınlar ləğa qoyulur. Nağılda təsvir olunur ki, şahın karvanından təsadüfən ayrı düşən yüklü dəvəni bir nəfər kəsir, yükünü gizlədir. Evləri gəzən şah adamları hiylə yolu ilə yelbeyin arvaddan sirri öyrənirlər. Sirri öyrənib kişini dar ağacına çəkəndə həmin kişi arvadına deyir ki, məni ölümə verdin, heç olmasa, qapı-pəncərədən muğayat ol. Arvad qapı-pəncərəni belinə yükləyib birbaş divanxanaya gəlir. Bunu görən şah adamları kişini azad edirlər.

"Həsən Qara" nağılına nəzər salaq. Şah Abbas bir qadının xəyanətinə görə bütün qadınların məhv edilməsini əmr edir. Xalq dargörüşlü hökmdarı başa salır ki, qadınların hamısı xəyanətkar, satqın ola bilməz. Burada keçmiş vəzir Həsən Qaranın dili ilə qadınların mərd, bacarıqlı və tədbirli olduğu göstərilir.

Ümumiyyətlə, məişət nağıllarında konflikt məişət çərçivəsində inkişaf edir. Həmçinin məişət nağıllarında məişət motivləri süjetin əsasını təşkil edir. Bu xüsusiyyət məişət nağıllarının janrdaxili tiplərini əhatə edir. Deməli, nağıl janrının ümumi əlaməti məişət süjetlərində məzmun və forma xüsusiyyətlərindən, yaradıcılıq prinsiplərindən asılı olaraq özünəməxsus surətdə üzə çıxır.

ƏDƏBİYYAT

1. Azərbaycan ədəbiyyatı inciləri. Nağıllar. Bakı: Yazıçı, 1985, 502 s.
2. Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru. Bakı: Sabah, 1994, 377 s.
3. Əliyev O. Məişət nağıllarının xüsusiyyətləri / Dədə Qorqud. Elmi-ədəbi toplu. Bakı: Səda, 2002, № 2, s. 114-118.
4. Əliyev O. Nağıllar // Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə, I c., Bakı: Elm, 2004, s. 217-240.
5. Əliyev O. Məişət nağıllarının obrazlar sistemi / Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri. Humanitar elmlər seriyası. Bakı: Elm, 2010, № 2, s. 58-64.
6. Xalq yaddaşının izləri. Bakı: Elm, 2005, 144 s.
7. Kazımoğlu M. Xalq gülüşü: terminlərdən irəli gələn bəzi çətinliklər // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XVI, Bakı: Səda, 2005, s. 94-102.
8. Paşayev Q. Kərkük folklorunun janrları. Bakı: Elm, 2003, 320 s.
9. Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər). Bakı: Elm, 1972, 398 s.

Назира Аскерова

ХАРАКТЕРНЫЕ ОСОБЕННОСТИ БЫТОВЫХ СКАЗОК

В статье были исследованы характерные особенности бытовых сказок. Некоторая часть сказок сравнительно исследовалась, были выявлены некоторые характерные особенности бытовых сказок. И вместе с тем в этих сказках рассказывается об образовании общественного бесправия и несправедливости между правителем, визирем, муллой, купцом и прочими с представителями трудолюбивого народа. В сказках, связанных с духовными потребностями народа, основное место занимают семейные, бытовые вопросы. В статье поясняется достижение героями сказок целей и победы своим умом, соображением, справедливостью, достоинством и моральными качествами. Всестороннее исследование бытовых сказок определило новые исследовательские перспективы.

Ключевые слова: *бытовые сказки, поэтика, мотив, сюжет, образ лысого.*

Nazira Asgerova

CHARACTERISTIC FEATURES OF TALES OF MANNERS

In this article the characteristic features of welfare tales was investigated. Some tales was studied comparatively, some features of welfare tales were revealed. At the same time these tales deals with social tort and injustice occurred between working people and monarch, vizier, mullah, merchant and others. These tales related to the spiritual needs of the people are reflected the family and welfare issues. The article clarifies that the main heroes of welfare tales always win with their spiritual qualities and achieve all their wanting for their intellect, ability, justice and honesty. New investigation perspectives of study of welfare tales in detailed was determined.

Keywords: *Welfare tales, poetics, motive, plot, bald boy character.*

(Filologiya üzrə elmlər doktoru Fərman Xəlilov tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2018, № 1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2018, № 1

PROCEEDINGS OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES NAKHCHIVAN BRANCH OFFICE
The series of social sciences and humanities, 2018, № 1

SƏBUHİ İBRAHİMOV
AMEA Naxçıvan Bölməsi
E-mail: s.ibrahimov71@mail.ru

XIX ƏSRİN SONU-XX ƏSRİN ƏVVƏLLƏRİ NAXÇIVANA DAİR BƏZİ TARİXİ ƏLYAZMA SALNAMƏLƏRİ

Məqalədə XX əsrin əvvəlləri Naxçıvana dair əlyazma mətnlərindən biri – Mirzə Bağır Əliyevin "Qanlı günlərimiz" adlı gündəliyi tədqiqata cəlb olunub. Bu gündəlik 1918-1920-ci illərdə Naxçıvanda baş verən siyasi hadisələrin xronologiyasını əks etdirən olduqca sanballı elmi mənbədir. Əlyazmada Naxçıvanda baş verən siyasi hadisələr, xüsusilə erməni vəhşilikləri konkret faktlarla verilir. Əsərdən məlum olur ki, o, heç də hadisələrin şərhində qərəzli mövqe tutmamış və hər iki xalqın hadisələrə açıq gözlə baxmasının və əsli düşmənin tanınmasına çalışmışdır.

Mədəniyyət xəzinəsinin qiymətli qaynaqlarından olan əlyazmalar keçmişin ədəbi tarixinin müasirlərimizə çatdırılmasında, onların maarifləndirməsində misilsiz rola malikdir. Bu baxımdan, klassik Azərbaycan mütəfəkkirlərinin, o cümlədən Naxçıvan şair və yazıçılarının əsərlərini araşdırıb xalqa çatdırmaq qarşıda duran mühüm məsələlərdəndir.

Açar sözlər: *Naxçıvan, əlyazma, tarix, "Qanlı günlərimiz" əsəri, Mirzə Bağır Əliyev.*

Azərbaycan mətnşünaslıq elminin zənginliyini xarakterizə edən əsas mənbələrdən biri də Naxçıvana dair əlyazmalardır. Bu əlyazmaların filoloji-tekstoloji tədqiqi obyektiv şəkildə öyrənilməsi və bugünkü mətnşünaslıq elmimizin qarşısında duran vacib problemlərdəndir.

XX əsrin əvvəllərinə aid Naxçıvan əlyazma mətnlərindən biri də Mirzə Bağır Əliyevin "Qanlı günlərimiz" adlı gündəliyidir. M.B.Əliyevin "Qanlı günlərimiz" adlı əlyazması canlı şahid qeydləridir. Bu gündəlik 1918-1920-ci illərdə Naxçıvanda baş verən ictimai-siyasi hadisələrin xronologiyasını əks etdirən olduqca sanballı elmi mənbədir. Əlyazmada Naxçıvanda baş verən siyasi hadisələr, xüsusilə erməni vəhşilikləri konkret faktlarla verilir. Əski əlifbada yazılan əlyazmanı professor T.Quliyev 1993-cü ildə transletrasiya edərək kiril əlifbası ilə dövlət nəşriyyatında çap etdirmişdir. Kitabın redaktoru H.Əlibəyli yazır: "Əsərdə türklərin Naxçıvana köməyə gəlməsi, İran, Rusiya, İngiltərə, Fransa, Amerika dövlətlərinin Naxçıvanda baş verən hadisələrə müdaxilə etmələri, həmçinin naxçıvanlıların düşmənə qarşı mərdlik və qəhrəmanlıqla vuruşmaları günbəgün, saatbasaat təsvir olunur. Əsərin bir əhəmiyyəti də ondadır ki, bu əlyazma bizə tariximizin ən qaranlıq səhifələri haqqında dəqiq məlumatlar verən mənbələrdən biridir" [1, s. 4].

Əlyazma müqəddimə və "ərzi-məqsəd" adlanan xüsusi proloqla başlayır. Müəllifin müqəddimədəki qeydlərindən məlum olur ki, o, 1905-ci ildə olan qanlı Naxçıvan hadisələrindən xəbərdardır və gündəliyinə yazdığı hadisələr 1917-ci il 21 dekabr tarixindən sonrakı dövrü əhatə edir: "1917 miladidə 21 dekabrdan etibarən Naxçıvan erməni-müsəlman millətlərinin arasında sərzadə zühur edən və hər iki millətin tarixinə bir xəttiyadigar çəkdirən vüquat... Etiraf etməliyik ki, 1905-ci ildə may ayının 12-ci günü Naxçıvanda erməni-müsəlman davası qopmuşdur... Gündə bir iki nəfər müsəlmanlardan qətlə yetirib 1905-ci tarixdə üz verən... qanlı səhnənin intiqamını alıb Naxçıvan və həvalisində milləti-islamı məhv edib istiqlaliyyət ilə yaşamaq fikrinə düşdülər" [2, s. 5-7].

Əlyazmadan məlum olur ki, müəllif hadisələrin şərhində qərəzli mövqe tutmamış və hər iki xalqın baş verən hadisələrə açıq gözlə baxmadığını təəssüflə xatırlamışdır: "bu mündəricəni yaratmaqda mənim məqsədim nəinki millətpərəstlik edib bir tərəfi tərif edib digər tərəfi pisləməkdir. Və bəlkə bitərəfanə surətdə hər iki millətin üyubatini göstərib gələcəkdə əbnayi-vətənin diqqəti-nəzərini bu kimi millət xaini olanların və bəlkə kəndi mənafelərinin təqibatlarında bulunanların oynadıqları rollar sayəsində zəhmət ilə əmrarihəyat sürən kütlələrin məzlum və nabud bir halda bulunmalarına cəlb etmək deməkdir... Hər iki millətin bir-birinə düşmən olub qətl və qarətə meydan buraxmasına kimlərin səbəb olmalarına hər iki millət qətiyyən düşünməyib və nəticədə, erməni müsəlmanı və müsəlman erməni taifəsini məhv etmək amalına gəlib" [2, s. 5].

Əlyazmadan o da məlum olur ki, ermənilər həmin vaxtlar Naxçıvanda olan kazaklarla birləşərək qanlı faciələr törətmiş, müdafiəsiz qalmış əhalinin başına müsibətlər gətirmişlər. Qeydlərdən məlum olur ki, ermənilər əvvəlcə Naxçıvanın Əznəburd və Cəhri kəndlərində çirkin niyyətlərini həyata keçirməyə başlamış, burada bir çox nüfuzlu adamları qətlə yetirmişlər. Mart ayından etibarən isə Naxçıvanın əksər rayonlarında erməni vəhşilikləri daha da genişlənmişdir. Gündəlikdə erməni vəhşiliklərinin xronologiyası davam etdirilir və aydın olur ki, onlar Naxçıvan şəhərinə silahlı basqın edib əhalini öldürməyə başlayırlar və martın 3-də şəhərin Əlixanlı və Qala məhəlləsini bombalayırlar. Hücuma keçən erməni qoşunlarının qarşısını qəhrəman naxçıvanlılar alır. Mart ayının yeddisinədək davam edən müharibədən sonra ermənilər hiyləyə əl atır və sülh təklifi ilə çıxış edirlər. Erməni milli komitəsi təklif edirdi ki, müsəlmanlar tərksilah olsunlar, ancaq bu təklif qəbul edilmir və həmin gün axşam saat 5-dək atışma davam edir. Müəllif həmin müddətdə həlak olmuş müsəlmanların adlarını sadalayır və məlum olur ki, onların arasında hətta İrandan olan vətəndaşlar da vardır.

"Bu yazı mətnlərində işlənən "nisfi", "bulunan", "piş", "minvalla" kimi sözlər həm də Naxçıvan dialektinin XIX əsrin sonu-XX əsrin əvvəllərində ümumi leksikonudur. "Müsəlman" kəlməsinin mənası azərbaycanlı deməkdir. Həmin dövrdə "azərbaycanlı" yox, "müsəlman" deyilməsinin də xüsusi səbəbi var. Camaat hiss edirdi ki, faktiki olaraq müharibə erməni və bölgənin müsəlman əhalisi arasında gedir. Ermənilər təkcə türk mənşəli azərbaycanlıları deyil, bütün müsəlmanları öldürüb "Böyük Ermənistan" yaratmaq məqsədi ilə coğrafi məkan hazırlayırdılar. Bunun üçün yerli əhalini ata-baba torpaqlarından qovmaq və bu torpaqlarda erməni mənşəli əhalini yerləşdirmək lazım idi" [3, s. 252].

Əlyazmadakı 27 aprel tarixinə aid olan qeydlərdən məlum olur ki, "şanlı türk əsgərləri Şahtaxtıya çatmışlar" [2, s. 33]. Həmin tarixdən etibarən hadisələr artıq müsəlmanların xeyrinə dəyişir, ancaq erməni fitnəkarlığı hələ də davam edir. Sonrakı səhifələrdə artıq azərbaycanlıların qəddar düşməni olan erməni komandiri Andronikin adı çəkilir: "Andronikin qüvvəsi Culfa tərəfindən şərq tərəfi ilə Naxçıvana tərəf yürüş edirdi... Bu gün Andronikin dəstəsinin Yaycı əhalisinin endirdiyi zərbələrə tab gətirməyib dala oturması xəbəri alındı" [2, s. 56-57]. Əlyazmada Andronikin rəhbərliyi altında Azərbaycan kəndlərinə edilən hücumlardan, törədilən qanlı faciələrdən kifayət qədər bəhs olunur.

Əlyazmanın bu səhifələri həm də tarixi sənəd xarakteri daşıyır. Məhz həmin qeydlər əsasında Andronikin törətdiyi qanlı faciələr beynəlxalq ictimaiyyət qarşısında ifşa oluna bilər. Müəllif demək olar ki, Andronikin komandanlığı altında azərbaycanlılara qarşı aparılmış hərbi əməliyyatları xronoloji ardıcıllıqla qeyd edir. Bu qeydlər tarixi sə-

nəd olmaqla yanaşı, həm də xalqımızın qan yaddaşı üçün mühüm əhəmiyyət kəsb edir. Qeydlərdən məlum olur ki, qaniçən Andronik təkcə Naxçıvanda deyil, bütün bölgədə qanlı faciələrin icraçısı olmuşdur.

Əlyazmanın sonrakı səhifələrində türk ordularının Naxçıvanı tərk etməsi təsvir olunur. Müəllif Naxçıvanın idarəçiliyi ilə bağlı qeydlər verir və rəhbərliyin gündəlik iş rejimi ilə bağlı məsələləri yazır. 1918-ci il noyabr ayının 14-nə aid olan qeyddən isə bunlar aydın olur: "Sonra Məhəmməd İmamzadə məclisi-idarəyə daxil olub bir baş Xəlil bəy və İbrahim ağa Şahtaxtinski cənablarının dillərindən söylədi ki, Naxçıvan və həvalisi erməni hökuməti elan olubdur. Ona binaən erməni taifəsi böyük bir qüvvə ilə Naxçıvan üzərinə yürüş edib işğal etmək və hökumət icra etmək təşəbbüsatında bulunur" [2, s. 86]. Bu qeydlərdən məlum olur ki, Fətəli xan Xoyskinin sədrliyi ilə keçən iclasın qərarından irəli gələn fəsadlar artıq noyabr ayından etibarən bölgəni haqlamağa və əhalini "xofa və həyəcana" salmağa başlamışdır.

Əlyazmanın 28 noyabr, 4 dekabr tarixinə aid qeydlərində Araz-Türk hökumətinin bölgədəki idarəçiliklə əlaqədar işlərindən bəhs olunur. Hökumətin erməni təxribatlarına qarşı tədbirləri qeyd edilir. 1919-cu ilin yanvarından etibarən bölgədə baş verən erməni təxribatları təfsilatı ilə əlyazmada verilir. Əlyazma mətnlərində diqqəti cəlb edən məqamlardan biri də budur ki, müəllif baş verən hərbi-siyasi hadisələrin arxasında kimlərin durduğunu da şərh edir: "Türkiyənin 9-cu firqəsi Bəyaziddən bu tərəfə hərəkət etmiş, "dikaya diviziya" gəlib Dilicanı işğal edibdir. Sərvətdar ermənilər İrəvan şəhərin təxliyyə edib fərar ediblər. Andronokin dəstəsi Gorus tərəfində müsəlmanlar tərəfindən zərbələrə düçar olduqlarından pərakəndə olmuş, ingilis məmurları Qafqaza hərəkət edibdir ki, Qafqazda Rusiyanın istiqlalını təzələyib, dəmir yolunu təhti-ixtiyarına alsın" [2, s. 98]. Başqa qeyddə isə deyilir: "İrəvanda fransız nümayəndəli oturmuşlar. Müsəlman kəndlərinin adamları ki, bu son zamanda müharibəsiz tərki-silah olaraq təslim olmuşlar, bunlara ermənilər olmazın cəza və cəfa verməkdədirlər. Müsəlmanların cavan, iş bilən və möhtərəmlərindən tutub edam edirlər. Bəcih qızların ismətlərinə təcavüz etməklə bərabər, müqtədir cavanlarını tutub kimisinin dərisini diri-diri soyub, kimisinin əzasından gündə bir az doğramağa həzz bərdar olur" [2, s. 101].

Bu qeydlərdən məlum olur ki, ingilislər, fransızlar və ruslar həmişə olduğu kimi, bu dəfə də tarixi şəraitdən istifadə edərək milli münaqişələri qızışdırmaq məqsədilə müxtəlif tədbirlər həyata keçirmişlər. 1919-cu il may ayının beşinə aid qeydlərdən oxuyuruq: "İngilis generalı Deyvi cənablarının müşayiəti ilə gələnlər Xaytsov Naxçıvana təyin edilən erməni general-qubernatoru və bir neçə nəfər erməni məmurları idilər... Müşavirə və müzakirə zamanı Xaytsov Naxçıvanda erməni hökumətinin müvəqqəti olaraq bulunmasını və müsəlmanların ona tabe olması barəsində təklifdə bulundu. Müsəlmanlar isə "biz erməni hökumətinə tabe olmarıq və onunla yaşamaq bizə müsaidə etməz" sözlərini ümumi bir səslə izhar etdilər və sabiq protestlərdə davam etdikdə Xaytsov söyladi: "Biz erməni tayfası buraya hökumət etmək istəmirik, fəqət bizi və sizləri bu əmrə tabe olmağa ingilis dövləti məcbur qılır. Çünki məzbur dövlət bütün dünyaya sahiblik edir və hər taifə ki, onun əmrinə etiraz edirsə, ol taifə onun hüzurunda asiyi-add olur. Əlavə olaraq bu fitva qət olunubdur. Müsəlman, gürcü və erməni nümayəndələrinin rəylərincə hər halda bu iş qəbul olmalıdır". Müsəlmanlar yenə qəbul etməyib, əvvəlki etirazlarında bulundularsa da, bunların etirazlarına və Deyvi və nə də sairləri guş verməyib, Milli Şuranın zalını tərk qıldılar. Bu iş əhalinin həpsinin hüsnünü pozub yas və təhəssürə düçar qıldı" [1, s. 122-123].

Bu qeydlərdən məlum olur ki, bölgəyə çirkin niyyətlə gələn ingilislər özlərinin niyyətlərini həyata keçirmək üçün satqın ermənilərdən məharətlə istifadə edirlər. Ermənilər bölgədə xristian dövlətlərinin hegemonluğunu görüb bu vəziyyətdən öz niyyətlərini həyata keçirmək – Böyük Ermənistan yaratmaq xülyasını həyata keçirmək istəmişlər. Əlyazmadakı qeydlərdən məlum olur ki, əhali onların bu niyyətinin həyata keçməsinə hər vasitə ilə mane olmuşdur.

M.B.Əliyevin əlyazmasındakı bu kimi qeydlər, Naxçıvanın qanlı-qadalı günlərindən xəbər verir. Bir tərəfdən erməni fitnəkarlığından cana gələn xalq, ikinci tərəfdən də milli ləyaqətinin təhqir olunduğunu görür. Nifrət etdiyi erməni "taifəsinin" əsarəti altına düşməsindən "müşkül və pərişan" olur. Müəllif həmin anlarda baş verən qanlı hadisələrdən – "boğulan", təhqir olan, ev-eşiyi talan olan naxçıvanlılardan bəhs edir. Ermənilərin naxçıvanlılara qarşı etdiyi müsibətləri konkret faktlarla göstərir.

Əhali ermənilərin qanlı aksiyalarından ailələrini qorumaq üçün Naxçıvanı tərk edib İrana üz tutmaq məcburiyyətində qalır: "Biçarə mühacirin nə dərəcədə müsibətə bulunmasını qələm yazmağa acizdir" [1, s. 131]. Bu müsibətlər bizə 1993-cü illərdəki Qarabağ hadisələrini xatırladır. Mühasirəyə düşən Zəngilan əhalisi Araz çayından keçib İrana gedəndə nə qədər insan tələf olmuşdur.

Əlyazmada təsvir edilən 1920-ci il oktyabr hadisələri də həmin dövrün tarixi həqiqətlərinə aydınlıq gətirir: "31/7/36-da (10.10.1920-ci il – S.İ.) Xəlil paşanın bolşevik dəstəsi ilə Şahbuza gəldiyini və Naxçıvana tərəf hərəkət etmək xəbəri alındıqda mühacirlərin və şəhər müsəlmanlarının ruhu bir az yüksəldi" [1, s. 131]. Bu qeydlərdən məlum olur ki, bolşeviklərin bölgədə hakimiyyətə gəlməsi ilə imperialist qüvvələrin əl-qolunu bağlayır və ingilislər, fransızlar ermənilərin əli müsəlmanlar əleyhinə fitnə-fəsad törədə bilmirlər.

Əlyazmanın sonrakı qeydində oxuyuruq: "Bakıdan Şura hökuməti tərəfindən komissar Vəlibəyov, Əsgərov və digər təşkilatçılar Naxçıvana varid oldular... Bu gün rus yoldaşlar trenlə İrəvana hərəkət etdilər. Şəhər bunlar tərəfindən təxliyə olundu. Yoldaş Vəlibəyov tərəfindən Naxçıvanın istiqlaliyyəti barəsində elan verildi" [1, s. 131-132]. Sonrakı qeydlərdən məlum olur ki, əhali bu bəyanatı birmənalı qəbul etmir və 9 yanvar 1920-ci ildə saat 12 radələrində camaat şəhər klubuna yığılıb bu məsələni müzakirə edir və Vəlibəyov bəyannamənin mahiyyətini açıqlayır. Bu hadisəni hamı eyni cür qəbul etmir və Məhəmməd Rəhim Hüseynzadə adlı bir kəs hətta qiyam qaldırıb Vəlibəyovun evinə gedərək onu təhqir edir: "Məhəmməd Rəhim Hüseynzadə başına bir qədər müsəlman adamı toplayıb, yoldaş Vəlibəyovun evini mühasirə etdi. Məhəmməd Rəhim Hüseynzadə bir neçə adamla evə daxil olub yoldaş Vəlibəyov cürbəcür nalayiq sözlər demişlər. Bu işi uçot Təkbir Səfərov, çeka sədri Şirzad Əliyev və Fəzləli Bağırov bildikdə filfövr qabağın almağa çalışmışlar. Şirzad Əliyev gecə ilə Şahtaxtına gedib qırmızı ordu qüvvəsin şəhərə yetirir. Məhəmməd Rəhim Hüseynzadə 100 adamla 60 ədəd tüfəng götürüb Qaraçuğ yolu ilə İsmayıl Bəlqani vasitəsilə İrana keçdilər. 13 yanvarda şəhərdə böyük bir həyəcan qalxdı. Yoldaş Vəlibəyovun siyasəti altında həyəcanın qabağı alınıb, əmniyyət bərpa edildi. Yaşasın böylə siyasət sahibi olan yoldaş Vəlibəyov" [1, s. 132]. Bu sözlərlə də əlyazma bitir.

Deyilənlərdən belə qənaətə gəlmək olar ki, Mirzə Bağır Əliyevin "Qanlı günərimiz" adlı gündəliyi 1918-1920-ci illərdə Naxçıvanda baş verən ictimai-siyasi hadisələrin xronologiyasını əks etdirən olduqca sanballı elmi mənbədir. Əlyazmada Naxçıvanda XX əsrin əvvəllərində baş verən ictimai-siyasi hadisələr, xüsusilə erməni vəhşilikləri konkret faktlarla və xronoloji ardıcıllıqla öz əksini tapmışdır.

ƏDƏBİYYAT

1. Əliyev M.B. Qanlı günlərimiz. Bakı: Azərnəşr, 1993, 142 s.
2. Əliyev M.B. Qanlı günlərimiz. 1918, əlyazması, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu. Şifr: B-3337/22389.
3. İbrahimov S.M. Naxçıvanın mənəvi-mədəni irsinə dair əlyazma mətnləri. Bakı: Elm və təhsil, 2017, 336 s.

Сабухи Ибрагимов

ИСТОРИЧЕСКАЯ РУКОПИСНАЯ ЛЕТОПИСЬ О НАХЧЫВАНЕ КОНЦА XIX-НАЧАЛА XX ВЕКОВ

В статье рассмотрен один из рукописных текстов о Нахчыване начала XX века – дневник Мирзы Багира Алиева под названием «Наши кровавые дни». Этот дневник является довольно серьезным научным источником, отражающим хронологию политических событий, происходивших в Нахчыване в 1918-1920 гг. В рукописи на основе конкретных фактов сообщается о политических событиях, происходивших в Нахчыване, особенно о зверствах армян. Из произведения становится ясно, что автор не занимал предвзятой позиции при оценке событий, он старался призвать оба народа к объективному взгляду и показать настоящего врага.

Рукописи, являясь одним из ценных источников сокровищницы культуры, играют беспримерную роль в просвещении современников, в донесении до них истории прошлого в литературной форме. С этой точки зрения одной из важных задач, стоящих перед нами, является исследование и обнародование произведений азербайджанских мыслителей-классиков, в том числе писателей и поэтов Нахчывана.

Ключевые слова: *Нахчыван, рукопись, текст, история, «наши кровавые дни», Мирза Багир Алиев.*

Sabuhi Ibrahimov

HISTORICAL MANUSCRIPT CHRONICLE ABOUT NAKHCHIVAN OF LATE XIX-EARLY XX CENTURIES

The paper considers one of the manuscript texts about Nakhchivan of the beginning of the XX century – Mirza Bagir Aliyev's diary entitled "Our Bloody Days". This diary is a rather serious scientific source reflecting the chronology of political events in Nakhchivan in 1918-1920. This manuscript reports on the basis of specific facts about political events that took place in Nakhchivan, especially about the Armenians' atrocities. It becomes clear from this work that the author did not occupy a prejudiced position in assessing these events; he tried to call both peoples to an objective view and show the real enemy.

Manuscripts as one of valuable sources of culture treasury play an unprecedented role in enlightening contemporaries, in conveying to them the past history in literary form. From this point of view, one of our important tasks is the research and publication of works of Azerbaijani classics and thinkers, including writers and poets of Nakhchivan.

Keywords: *Nakhchivan, manuscript, text, history, "Our bloody days", Mirza Bagir Aliyev.*

(Filologiya üzrə elmlər doktoru Fərman Xəlilov tərəfindən təqdim edilmişdir)

FƏXRƏDDİN EYLAZOV
AMEA Naxçıvan Bölməsi
E-mail: eylazov.f@gmail.com

ORDUBADLI MÜƏLLİFİN NÜCÜM ELMİNƏ AİD BİR ƏLYAZMASI HAQQINDA

Uzun müddət diqqətdən kənarda qalmış qədim kitab və əlyazmaların araşdırılması Naxçıvanla bağlı əlyazma nümunələrinin toplanılması və tədqiqi elmi dövriyyədə olmayan bir sıra yeni faktların ortaya çıxmasını və Naxçıvanşünaslığın inkişafında mühüm qaynaq kimi istifadə olunmasına imkan verir. Toplanılan əlyazma nümunələri elmin müxtəlif sahələrini əhatə etməkdədir. Məqalədə bəhs olunan əlyazma nüsxəsi daqiq elmlərdən astronomiyaya aiddir.

Açar sözlər: *mətnşünaslıq, Naxçıvan, astronomiya, Ordubadi, əlyazma.*

Xalqımız dünya mədəniyyəti xəzinəsinə çox incilər bəxş etmişdir. Bu da özündə çox qiymətli faktlar gəzdirən əlyazmalarımızın toplanması və tədqiq edilməsi zərurətini ortaya qoyur. Belə ki, xalq zəkasının ən qiymətli töhfəsi olan dastanlarımız, şairlərimizin bədii irsi, alimlərimizin elmi əsərləri məhz əlyazma kitablərinin səhifələrində əsrlərin dərinliyindən keçərək dövrümüzədək gəlib çatmışdır. Ulu babalarımızın şərəfli keçmişi haqqında qiymətli məlumatlar verən bu əlyazmalar həm orta əsr Azərbaycan, həm də Yaxın və Orta Şərqin tarixi, ədəbiyyatı və incəsənətinin öyrənilməsi baxımından zəngin bir mənbədir.

Bu baxımdan AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondu ümummilli sərvətimiz olan əlyazmalarımızın toplanması, onları xalqımıza və gələcək nəsillərə çatdırılması üçün köklü bir mərkəzə çevrilməkdədir.

Fond fəaliyyətə başladığı gündən öz işini günün tələbləri səviyyəsində qurmuş, milli sərvətimiz olan əlyazmalarımızın toplanması və tədqiqi üçün bir sıra səmərəli işlər görmüşdür.

Əlyazma nümunələrini araşdırarkən qarşımıza çıxan nücüm elmi ilə bağlı əlyazma nümunəsi 1281 hicri-qəməri (1860) tarixində yazılmışdır.

Əsərin müəllifi Məhəmməd Həsən Ordubadinin Naxçıvanın dilbər guşələrindən biri olan Ordubad şəhərindən olduğu aşkarlanmışdır. Əsərin sonunda göstərilən tarixə əsasən Məhəmməd Həsən Ordubadinin XIX əsrin birinci yarısında, təqribən 1810-1860-cı illərdə yaşadığını və fəaliyyət göstərdiyini təxmin etmək olar. O bir alim, maarifpərvər ziyalı kimi öz dövrünün görkəmli şəxsiyyətlərindən biri olmuşdur. M.H.Ordubadi şərq dillərini öyrənmiş və bir sıra nəzər sahibləri ilə fikir mübadiləsi etmişdir. Müəllifin əlimizdə olan ərəb dilində 73 səhifədən ibarət bu əsəri əlyazma şəklində bugünkü dövrümüzə gəlib çatmışdır. Əsərin əvvəlindən və sonundan bir hissənin düşməsi səbəbindən onun adını müəyyən etmək mümkün olmamışdır. Eləcə də bu səbəbdən əsər bütöv deyil. Bununla belə müəllifin astronomiyadan (göy və səma cisimlərindən) bəhs edən bu əsəri istər öz dövrü üçün, istərsə də özündən sonrakı dövrlər və bu gün üçün əhəmiy-

yətli xarakter kəsb etməkdədir. Əsərin müqəddiməsindəki açıqlamadan məlum olur ki, həmin dövrdə Ordubad şəhərində Əl-Həqiqət adlı məşhur elm mərkəzi olmuşdur [1, s. 5]. Elmi mərkəz bir neçə istiqamətdə elmi tədqiqatlarla yanaşı, həm də onun təlim'və tədrisini həyata keçirmişdir. Məhəmməd Həsən Ordubadi bu mərkəzin ən görkəmli aparıcı simalarından biri kimi fəaliyyət göstərmişdir. Tərtib olunmuş bu əsər isə həmin elm mərkəzində, təlim və tədris vasitəsi kimi nəzərdə tutulmuşdur. Əsər mövzu baxımından dəqiq və humanitar elmləri əhatə edərək Astronomiya, Həndəsi fiqurların fəza nəzəriyyəsi, Riyaziyyat və Coğrafiyanın müxtəlif sahələrinə aiddir. Müəllif müqəddimədə özündən əvvəl və dövrünün bir neçə aliminin adını çəkmiş, Ömər Xəyyam, Sufi Əbdulrəhman, Bəhmənyar, Əbu Əli Sina, Ptolemey və onların nəzəriyyələrinin qarşılıqlı təhlilindən bəhs etmiş, həmçinin özünün bu nəzəriyyələrə münasibətini bildirməklə obyektiv nəticə çıxarmağa çalışmışdır [1, s. 4].



Əsər iki əsas bölmədən ibarətdir. Hər bir bölmənin müqəddiməsində məqalənin nədən bəhs etdiyi və neçə fəsildən ibarət olduğu açıqlanmışdır. Həmin məqalələrin müqəddiməsinin qısa məzmunu aşağıdakı kimidir.

Birinci məqalə: Kainatın quruluşu, göy cisimlərinin daxili və müstəvi hərəkətləri, ulduzlar barəsində bilgi, ulduzların hərəkət dairələri və bu hərəkətlərin mərhələləri haqqında. Bu məqalə beş fəsildən ibarətdir.



I fəsil: Kainatın göy cisimləri və onların sayı, onlara aid olan ulduzlar, ulduzların hərəkət hüdudları, rəsədxana tədqiqatları, Ptolemey cədvəlində təqribi və görünən 1520 ulduzun 300-nün Ptolemey tərəfindən kəşfi və adlandırılması, Əbdulrəhman Sufinin Ptolomey cədvəlini qəbul etməsi, 1250 ulduzun təhqiqat nəticələri barədə [1, s. 3].

II fəsil: Göy cisimlərinin hərəkət qanunları, ulduz bürcləri, göy cisimlərinin hərəkət istiqaməti və sürətləri barədə.

III fəsil: Göy cisimlərinin fəzada hərəkət trayektoriyası, bu trayektoriyalar haqqında fərziyyələr və hərəkət trayektoriyasındakı bəzi nöqtələrdə yubanmalar və onun səbəbləri, bir nöqtə ilə digəri arasındakı əlaqələrin xarakteri.

IV fəsil: Hərəkət dairəsinin qövs bucağı və dairə sektorunun hesablanması, mərkəzləşmə qanunu.

V fəsil: Yeddi ulduz və onların peyklərinin hərəkəti, ulduzların qarşılıqlı münasibətləri, onların hərəkət istiqaməti, Günəş sistemindəki qarşılıqlı əlaqələri. Günəş sisteminin daxili hərəkətləri. Günəş və Ay tutulması. Ayın səhifələri, Ayın birinci işıqlanma dərəcəsi ilə ikinci işıqlanma dərəcəsi arasında müqayisəli təhlil, planetlərin firlanma mərkəzinin təyin olunması və onların arasındakı əlaqənin elmi sübutu.

İkinci məqalə: Yer kürəsi və ona aid olan tədqiqatlar haqqında. Yer kürəsinin ölçüləri, yeddi iqlim və onun xassələri, hüdudları, başlanğıc və son nöqtələri. Bu məqalə üç fəsildən ibarətdir.

I fəsil: Yer kürəsinin ölçülərinin, iqlim qurşaqlarının təyin olunması və onların başlanğıc, orta və son sərhədlərinin müəyyən olunması.

II fəsil: Ekvator xəttinin uzunluğu, xüsusiyyəti, başlanğıc və son nöqtəsi, birinci yarımkürə ilə ikinci yarımkürə arasındakı oxşarlıq və fərqli cəhətlər, gecə-gündüz dəyişkənliyi.

III fəsil: Müştərək olmayan əmrlərin tədqiqi, Günəşin batma və çıxma bucağı, kölgənin əmələ gəlməsi, günorta vaxtının təyin olunması, gecə və gündüzün başlama saatının dəqiqləşdirilməsi, sübh zamanı və Günəş şəfəqinin görünmə saatlarının təyin olunması haqqında bilgilər [1, s. 5].

Əsərin giriş hissəsində açıqlanan başlıqlardan məlum olur ki, əsər istər o dövr üçün, istərsə də bu gün üçün bir sıra aktual mövzulardan bəhs etmişdir. Əsərin geniş tədqiqi doğma Naxçıvanımızın elm beşiyi olduğunu bir daha təsdiqləməklə bir çox elmi faktların aşkarlanmasına imkan verəcəkdir.

ƏDƏBİYYAT

1. Ordubadi M.H. Nücum əsəri. AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondu, Şifrə B-2/8. 1860, 73 s.

Фахреддин Эйлазов

ОБ ОДНОЙ РУКОПИСИ ОРДУБАДСКОГО АВТОРА, ПОСВЯЩЕННОЙ АСТРОЛОГИЧЕСКОЙ НАУКЕ

Исследование древних книг и рукописей, остававшихся долгое время без внимания, сбор и исследование образцов рукописей, связанных с Нахчываном, создает возможность появления новых фактов, не существующих в научном обороте, и использования их как важнейшего источника для развитии нахчывановедения. Собранные образцы рукописей охватывают все стороны науки.

Образец рукописи, о которой рассказывается в статье, относится к астрономии. Эта рукопись написана на арабском языке и состоит из 73-х страниц. Она была написана в 1281 году хиджры (1860). Оказалось, что ее автором являлся Мухаммед Гасан Ордубади. Основываясь на дате, указанной в конце статьи, можно предположить, что Мухаммед Гасан Ордубади жил и творил в первой половине XIX века, приблизительно в 1810-1860-х гг. Произведение автора, находившееся в наших руках, дошло до нашего периода в форме рукописи. И вместе с этим труд автора об астрономии (небесных телах), не потерял научной значимости как для своего и последующих за ним периодов, так и для сегодняшнего дня.

Ключевые слова: *текстология, Нахчыван, астрономия, Ордубади, рукопись.*

Fakhraddin Eylazov

A MANUSCRIPT ON ASTROLOGY OF AN ORDUBADIAN AUTHOR

Investigating of ancient manuscripts and books that have been neglected for a long time, gathering and investigating of manuscript examples about Nakhchivan give an opportunity for revealing of some new facts that doesn't exist in scientific circulation

and using as an important source in the development of Nakhchivan study. Gathering manuscript examples cover different spheres of science.

The manuscript copy dealt with in the article belongs to astronomy. This manuscript consists of 73 pages in Arabic. It was written in 1281 h.c (1860). It was revealed that its author is Mahammad Hasan Ordubadi. According to the date that shown at the end of the work, it is possible to guess that Mahammad Hasan Ordubadi lived and functioned in first half of XIX century, about 1810-1860 years. The work of the author has come to our period in the form of manuscript. So this work of the author that deals with astronomy (celestial objects) preserves its importance both his time and the time after him and today.

Keywords: *textual criticism, Nakhchivan, Astronomy, Ordubadi, manuscript.*

(Filologiya üzrə elimlər doktoru Fərman Xəlilov tərəfindən təqdim edilmişdir)

Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir. Qrant № EİF-KETPL-2-2015-1(25)-56/47/5

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2018, № 1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2018, № 1

PROCEEDINGS OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES NAKHCHIVAN BRANCH OFFICE
The series of social sciences and humanities, 2018, № 1

NİCABƏT İSLAMOVA
AMEA Naxcıvan Bölməsi
Email: İslamovanecbet77@gmail.com

FƏZLULLAH SƏİD TƏQİ FİRUZABADİ ƏS-ŞİRAZİ

AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunda Şərqin bir sıra görkəmli alimlərinin əlyazmaları və çap kitabları mühafizə olunur. Belə müəlliflərdən biri də Firuzabadi əş-Şirazidir. Görkəmli dilçi, təfsirçi, fəqih, hədisçi olan alimin ən məşhur əsərlərindən biri olan "Qamusul-luğat" (Qamusul-mühit) adlı kitabı fondda mühafizə olunur. O, ərəb dilinin qrammatikasından bəhs edən bu əsəri yazarkən 2000 kitabdan istifadə etmişdir. 70-dən çox əsərin müəllif olan alimin bu kitabı ərəbşünaslar üçün əvəzsiz mənbədir.

Açar sözlər: *əlyazma, Firuzabadi, "Qamusul-luğat" (Qamusul-muhit), dilçilik.*

Hər bir xalqın keçmişinin araşdırılmasında daş kitabələr, qalalar və digər maddi mədəniyyət nümunələri ilə yanaşı yazılı abidələrin də özünə məxsus yeri vardır. Bu yazılı abidələr tarixin çətin yollarından bu günümüzə qədər olan dövrdə baş vermiş hadisələri özlərində saxlamışlar. AMEA Naxçıvan Bölməsinin Əlyazmalar Fondunda mühafizə olunan əlyazma əsərlər yalnız öz məzmunu ilə deyil, həmçinin xalqımızın iqtisadiyyatını, tarixini, mədəniyyətini əks etdirməsi baxımından da çox qiymətlidir. Onlar tarix, hüquq, ədəbiyyat, dilçilik, məntiq, etika, ilahiyyat və s. elm sahələrini əhatə edir. Bu əlyazma kitablarının içərisindəki miniatürlər, kitabların bədii tərtibatları, xətləri, incə naxışları, nəfis ornamentləri, yüksək zövqlə hazırlanmış cildləri, bizə yüzilliklərdən xəbər verir. Həmin materialların xeyli qismini dilçiliklə və xüsusən də ərəb dilçiliyi ilə bağlı yazılı abidələr təşkil edir. Ərəb dilinin qrammatikasının səciyyəvi xüsusiyyətlərinin və dil tarixinin öyrənilməsi baxımından bu materialların rolu əvəzsizdir. Həmin materialların tədqiqi şərqşünasların qarşısında duran ən vacib məsələlərdən biridir. Əlyazmalar Fondunda mühafizə olunan yazılı abidələrdən biri də Fəzlullah Səd Təqi Firuzabadinin müəllifi olduğu "Qamusul-luğat" əsəridir.

Əsil adı Əbu Tahir Mücidəddin Məhəmməd ibn Yaqub Firuzabadi olan alim dövrünün görkəmli dilçisi, ədibi, müfəssiri və fiqh alimi olmuşdur. Şafi məzhəbinə mənsub olan alim fiqh (islam hüququ) elminin bilicisi kimi də tanınmışdır. Bu səbəbdən də o, əvvəlcə Zəbid sonra isə Yəməndə qazı vəzifəsinə təyin olunmuş və ömrünün sonuna qədər bu vəzifədə çalışmışdır [2, s. 144]. Dövrünün ən məşhur alimlərindən biri olan Firizabadinin Bursada I Bəyazidlə görüşdüyü də qeyd olunur. Bir rəvayətə görə alim Əbu İsaq Şirazinin nəslindəndir. Digər bir rəvayətə görə isə onun nəsli Əbu Bəkr Siddiqə çatır [2, s. 144; 3, s. 2]. Buna görə də Firuzabadi özünə "Siddiq" təxəllüsünü götürmüşdür.

Əbu Tahir Mücidəddin Məhəmməd ibn Yaqub bin Məhəmməd Firuzabadi h. q. 729-cu ildə Şiraza bağlı Kazinur şəhərində dünyaya gəlmişdir [3, s. 1]. Atasının dil və ədəbiyyat müəllimi olduğu bildirilir. Firuzabadi ilk təhsilini atasından almışdır. Hələ uşaqlıqdan elmə maraq göstərən alim artıq 7 yaşında Quranı əzbər bilərək hafizlik dərəcəsinə çatmışdır. Səkkiz yaşında olanda Şiraza köçən alim burada təhsilini davam etdirmiş və Kıvamuddin Abdullah ibn Mahmud kimi alimlərdən dil və ədəbiyyat dərsi almışdır. Həmin dövrdə Şiraz böyük elm və mədəniyyət mərkəzinə çevrilmişdi. Şəhərdə çoxlu mədrəsələr fəaliyyət göstərirdilər. Dövrün ən məşhur alimləri burada yaşayıb yaradırdılar. Bu da Firuzabadinin gələcəkdə məşhur bir alim kimi yetişməsində mühüm rol oynamışdır. Əbu Abdullah Məhəmməd bin Yusif əl-Ənsaridən hədis elmini öyrənərək "Sahihu-Buxari"ni oxumuşdur. Bundan sonra Vəst şəhərinə gedərək burada Şəhabəddin Əhməd bin Əlidən Qiraət elmini öyrənmişdir. Firuzabadi elm öyrənmək məqsədi ilə bir çox şəhərlərə də səyahət etmişdir. Bu səyahətlər zamanı o həmin şəhər və ölkələrin tanınmış adamlarından çox böyük hörmət görmüşdür. Təsəvvüfü gözəl bilən alim İbnul-Arabinin fikirlərini dəstəkləyərək bu mövzuda fətva vermişdir [4, s. 4]. Fətvanın məzmununda deyilir: "Muhiyyiddin İbnul-Arabinin elmi, həyatı və əməlləri bir örnəkdir. O təriqət əhlinin şeyxlərinin şeyxidir. Ona və onun elmi fikirlərinə həsr edilən kitabların öyrənilməsi və öyrədilməsi, onun fikirlərindən istifadə edilməsi əgər təsəvvüf əhli tərəfindən öyrənilirsə, caizdir. Belə şəxslərin şeyxin əsərlərini öyrənərək öyrətmələri dini mövzuda olan münaqişələrin həll olunmasına kömək edəcək. Bunun əksini düşünmək heç mümkün də deyil. Çünki İbnul-Arabi Qurani Kərimi 70 cilddə təfsir etmiş, "Ona tərəfimizdən bir elm öyrətmişdik" ayəsinə çatanda Haqq Təalə Şeyxin ruhunu almışdır. Bütün bunlar İbnul-Arabı haqqında ən mükəmməl və ən güclü dəlillərdir. Belə ki, bu mövzuda deyilənlərə yalnız yalançı və munkir olanlar inkar edə bilərlər" [4, s. 4].

Görkəmli alim təqribən h. 816-17-ci ildə vəfat etmişdir. Zəbitdə vəfat edən alim Cəbərtiyyə təriqətinin banisi olan Cəbərtin Türbəsində dəfn edilmişdir. Çox güclü zəkaya və yaddaşa malik olan alim təfsir, fiqh, ədəbiyyat və dilçiliklə bağlı bir sıra əsərlər yazmışdır. Onun əsərləri "Tahbiru'l-muveşşin fi't-ta'biri bi's-sin va'ş-şin". Həm "sin" həm də "şin" hərfləriylə yazılıb oxuna bilən kəlmələr haqqındadır. "Əd-Durəru'l-mubəşşəşə fi'l-gurəri'l müşəlləşə". Bu əsərdə üç hərəkə ilə oxunub mənası dəyişən və dəyişməyən kəlmələr bir yerə yığılmışdır. Firuzabadinin ən məşhur əsəri "Qamusul-muhit"dir. Alim bu kitabın yazılmasında 2000 qədər kitabdan istifadə etdiyini bildirir. "Qamusul-muhit" in müqəddiməsi bir çox alimlər tərəfindən dəfələrlə şərh olunmuşdur. Buna səbəb isə kitabın dilinin və üslubunun çox ağır olması olmuşdur. Bu əsərin bir nüsxəsi də AMEA-nın Naxçıvan Bölməsinin Əlyazmalar Fondunda mühafizə olunur. Bu nüsxədə əsərin adı kitabın birinci səhifəsində "Qamusul-luğat" kimi verilir. Amma kitabın ikinci səhifəsində mətnin əvvəlində müəllif əsəri "Qamusul-muhit" kimi də adlandırır [1, s. 2]. Buradan belə nəticəyə gəlmək olar ki, "Qamusul-luğat" və "Qamusul-muhit" eyni əsərdir. Firuzabadinin qələmə aldığı "Qamusul muhit" əsəri əslində 60 cild olmuşdur. Bu gün bizim əlimizdə olan onun kiçik bir hissəsidir. 813-cü (1410) ildə qələmə alınan bu qiymətli əsər Cövhəri üsulu ilə düzülmüşdür. Bu sistemə əsasən eyni hərflə bitən sözlər bir yerə toplanır. Sözlərin kökləri əsas götürülən sırada isə sözün son hərfi "bab", ilk hərfi isə "fəsil" adlandırılaraq əlifba sırası ilə düzülür. Ortada qalan hərflər də əlifba sırasına əsasən düzülür. Törəmə kəlmələrin altından açıqlaması yazılır. Ərəb dilində bəzi sözlərin qısaltmalarını ilk dəfə olaraq Firuzabadi tətbiq etmişdir.

Tərtibatı: paleoqrafik xüsusiyyətlərinə görə sadə tərtibatlıdır.
Dili: ərəb
Tarixi: h.q. 1286-cı il Təbriz.
Cildi: bozumtul qara rəngdə kartondan düzəldilmişdir.
Mövzusu: ərəb dilinin qrammatikası.
Ölçüsü: uzunluğu 21 x 35

Xətti: nəstəliq.
Kağızı: Avropa istehsalı.
Sətirlərin sayı: 39.



Kitab həm Şərq üsulu, həm də müasir üsulla nömrələnib. Qara mürəkkəblə nəstəliq xətti ilə çox səliqəli şəkildə yazılmış mətn asan oxunur. Kənarında müəllif tərəfindən qara mürəkkəblə iri hərflərlə haşiyələr yazılıb, bunları da oxumaq çox asandır. Birinci səhifə müxtəlif ornamentlərlə bəzədilmişdir. Səhifənin sağ tərəfində möhür var. Sonuncu səhifədə nəşr olunduğu il və şəhər yazılmışdır. Birinci səhifədə müəllif geniş ön söz yazıb. Burada dövrünün görkəmli alimlərinin adlarını çəkərək bu əsərin yazılmasında onlardan faydalandığını, onların yazdıqları əsərlərdən istifadə etdiyini qeyd edib. Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, Fəzlullah Səid Təqi Firuzabadi əs-Şirazi öz dövrünün görkəmli elm xadimi olmuşdur. Onun ərəb dilinin qrammatikasına həsr etdiyi "Qamusul-luğat" (Qamusul-muhit) əsəri orijinal elmi mülahizələrlə zəngindir. Onun xüsusi tədqiqata ehtiyacı vardır.

ƏDƏBİYYAT

1. Fəzlullah Səid Təqi Firuzabadi əş-Şirazi. Qamuşul-muhit. AMEA Naxçıvan Bölməsi, Əlyazmalar Fondu. Şifr: D-11/29
2. Kılıc Hulusi. İslam Ansklopedisi: 44 cilddə, c. XIII, s. 143-145.
3. Firuzabadi www.wikipediya.orq.
4. Tek Abdurrezak. İbnül'l-Arabi'yi Müdafaa amacıyla kaleme alınan fetvalar. www.wikipediya.orq.

Ниджабет Исламова

ФАЗЛУЛЛАХ САДИ ТАГИ ФИРУЗАБАДИ ЭШ-ШИРАЗИ

В Нахчыванском отделе Фонда Рукописей НАН Азербайджана сохраняются рукописи и печатные книги многочисленных ученых Востока. Одним из таких авторов является Фирузабади эш-Ширази. Он был языковедом, толкователем Корана и хадисистом. В фонде хранится одна из его известных книг «Гамусуль-лугат».

В процессе работы над ним он воспользовался 2000 книг. Данная книга охватывает грамматику арабского языка и является незаменимым источником для ученных арабистов. Он был автором более 70-ти произведений.

Ключевые слова: *рукописи, Фирузабади, «Гамусуль-лугат» (Гамусуль-Мухит), языковедение.*

Nicabet İslamova

FAZLULLAH SAID TAGI FIRUZABADI AS-SHIRAZI

Manuscripts and printed books are preserved in Manuscript fund of the Nakhchivan branch of ANAS by a number of prominent scholars from the East. One of such scholars is Firuzabadi As-Shirazi. Gamusul-lughat, one of the most famous works of the great linguist, commentator, canonist and scholar, is protected in the fund. During the writing of this book dealing with Arabic grammar, 2000 books were used. This book of the author who has more than 70 works is an indispensable source for Arabists.

Keywords: *manuscript, Firuzabadi, "Gamusul-lughat", (Gamusul-muhit), linguistics.*

(Filologiya üzrə elmlər doktoru Fərman Xəlilov tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2018, № 1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2018, № 1

PROCEEDINGS OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES NAKHCHIVAN BRANCH OFFICE
The series of social sciences and humanities, 2018, № 1

AYGÜN ORUCOVA
AMEA Naxçıvan Bölməsi
E-mail: orujovaaygun82@gmail.com

HÜSEYN CAVİDİN KEYKAVUSU HAQQINDA BİR NEÇƏ SÖZ

Məqalə XX əsr Azərbaycan romantizminin tanınmış nümayəndəsi, istedadlı dramaturq, şair Hüseyn Cavidin "Səyavuş" əsərinin əsas mənfi obrazlarından olan Keykavusdan bəhs edir. Əsərin mövzusu İran şairi Əbülqasim Firdovsinin dünyaca məşhur "Şahnamə" əsərindən götürülmüşdür. Hüseyn Cavid bu əsəri böyük şairin anadan olmasının 1000 illiyi münasibətilə qələmə almışdır. Keykavus qanlar tökən, dünyanı odlara yaxan bir hökmdar kimi İblisə tay tutulur, onun sarayı fitnə-fəsad yuvasıdır.

Açar sözlər: *romantizm, şair, dramaturq, zalım, qəddar.*

XIX əsrin sonlarında Naxçıvan ədəbi mühitinin yetirməsi, Azərbaycan romantizminin görkəmli nümayəndəsi, böyük türkçü şair, yazıçı və dramaturq Hüseyn Cavid (Hüseyn Abdulla oğlu Rasizadə) 1882-ci ilin 24 oktyabrında dünyaya göz açmışdır. Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyanının əsas nümayəndəsi olan Hüseyn Cavid milli romantik şeirin və mənzum faciə janrının banisidir. "Ana", "Şeyx Sənan", "İblis", "Peyğəmbər", "Topal Teymur", "Səyavuş", "Xəyyam", "Azər", "Maral", "Şeyda" və s. məşhur əsərlərin müəllifi olan Cavid Əfəndi haqqında Məmməd Cəfərin "Hüseyn Cavid", Əjdər İsmayılovun "Dünya romantizm ənənəsi və Hüseyn Cavid", "Hüseyn Cavid yaradıcılığı və dünya ədəbiyyatında demonizm ənənəsi", Kamran Əliyevin "Hüseyn Cavidin həyatı və yaradıcılığı", Gülbəniz Babaxanlının "Azərbaycan ədəbi fikri və Hüseyn Cavid", "Heydər Əliyev və Hüseyn Cavid", Azər Turanın "Hüseyn Cavid", "Cavid əfəndi", "Cavidnamə", Hüseyn Həşimlinin "Hüseyn Cavidin lirikası və Avropa poetik ənənələri" və digər monoqrafiyalar yazılmış, yaradıcılığının bir çox sahələri tədqiq olunmuşdur. Lakin Hüseyn Cavid yaradıcılığı o qədər zəngindir ki, bu tədqiqatlar bu gün də davam edir və gələcəkdə də Hüseyn Cavid ədəbi irsinə dönə-dönə müraciət olunacaqdır.

Sovet dövründə sosialist realizminin yeganə bədii metod kimi qəbul, romantizmin isə birdəfəlik inkar edilməsi bu ədəbi cərəyan nümayəndələrinin təqiblərə məruz qalmasına, haqsız ittihamların irəli sürülməsinə səbəb olmuşdu. Guya "Azərbaycan romantikləri, əsasən burjua və xırda burjua sinfi içərisindən çıxmış ziyalılar idilər. Onlar üzlərini keçmişə (tarixə, xilafət zamanına) tutub islam xəlifələrinin hökmranlığını arzulayırdılar [4, s. 327]. İslam peyğəmbərindən, türk fatehindən – tarixi və dini şəxsiyyətlərdən bəhs edən əsərlərinə ("Peyğəmbər", "Topal Teymur"), İranda və Türkiyədə yaşayıb təhsil aldığına, türkçü, islamçı görüşlərinə, humanizm və bəşəri mövqedən çıxış etdiyinə görə hətta Cavid adını və imzasını Azərbaycan ədəbiyyatı tarixindən silməyə cəhdlər oldu. Onu mövzularını müasir həyatdan götürməməkdə, proletar inqilabına zidd cəbhə tutmaqda, tarixi şəxsiyyətləri idealiza etməkdə ittiham edirdilər. "Səyavuş"u "böyük bir inqilabi addım" hesab etməyən Xalq yazıçısı, tənqidçi Mehdi Hüseyn Cavidin əvvəlki

yaradıcılığı haqqında qeyri-obyektiv fikirlər irəli sürür: "Biz dünənki Cavidin bədii yaradıcılığını diqqətlə nəzərdən keçirərkən, Azərbaycan burjuaziyasının bütün məfkurə yoxsulluğunu, feodalizm quruluşu əleyhinə mübarizədə aciz qalıb miskin bir barışdırıcılıq yolu ilə getdiyini anlayır və dərindən düşünərkən öz-özümüzə deyirdik: "Ax, bu burjuaziya nə qədər alçaq bir sinifdir!" [7, s. 140]. Bu sətirləri hələ 1934-cü ildə məhz azərbaycanlı və təəssüf ki, Azərbaycanın ən görkəmli tənqidçi və ziyalısı yazırdı. Lakin bununla yanaşı müəllif Hüseyn Cavidin "Səyavuş" əsərində "keçmiş əsərlərində bədii şəkildə ümumiləşdirdiyi ideyalarının çoxusuna ağır və sarsıdıcı bir zərbə endirdiyini" [10, s. 43]. Belə ittihamlar 1937-ci ilin kütləvi repressiyalarına ideoloji və psixoloji hazırlıq mərhələsi idi. 1932-ci ildə Mirzə Cəlilin vəfatı ədəbi ictimaiyyət tərəfindən çox soyuq qarşılandı. Ömrünün sonlarında "Molla Nəsrəddin" redaktorunun əsərlərinin həvəssiz çap edilməsi, jurnala "Allahsız" adı verilməsilə razılaşmayan ədibin etiraz əlaməti olaraq onun naşrini dayandırması, keçirdiyi maddi, mənəvi böhranlar heç də səbəbsiz deyildi. Görünür, onun acı həqiqəti ifadə edən duzlu, məzəli, həm də satirik, kinayəli əsərləri artıq zəmanənin ruhunu oxşamırdı. Əgər 1937-ci ilə qədər yaşasaydı, Cavid kimi Mirzə Cəlil də sözsüz ki, repressiya qurbanlarından biri, bəlkə də birincisi olacaqdı: "Açıq demək lazımdır ki, Cəlil Məmmədquluzadənin sakit, ətraf ədəbi mühitdə heç bir fırtına, dalğa yaratmayan ölümü beş il sonra Cavidin və Müşfiqin, Seyid Hüseynin ... başı üzərində qatılaşan buludun, onların həyatı, sənəti və taleyi üzərində zorakılıq aktı ilə nəticələnən irticanın başlanğıcı idi" [8, s. 38].

Eyni vəziyyət mətbuatda da özünü göstərirdi. Burjua mətbuatı: "Füyuzat" jurnalı, "Həyat", "Tazə həyat", "İttifaq" qəzetləri "inqilabi-demokratik" mətbuata: "Molla Nəsrəddin", "Bəhlul", "Zənbur" jurnallarına qarşı qoyulur, bir-birinə tamamilə zidd, düşmən mövqedə qələmə verilirdi. Bu barədə AMEA-nın müxbir üzvü, professor Yaşar Qarayev 1988-ci ildə nəşr olunmuş "Meyar şəxsiyyətdir" adlı monoqrafiyasında öz fikirlərini belə ifadə edir: "Füyuzat" və "Molla Nəsrəddin" tarixin konkret gerçəkliyində cəmi iki il mübarizə aparmışlar. Vulqar sosioloqlar isə onları yetmiş iki il vuruşdurmuşlar" [8, s. 95-96]. Azərbaycan xalqının dünya durduqca daim sonsuz nifrətlə anacağı Stalinin vəfatından sonra 1956-cı ildə Cavid yaradıcılığına da qayıdış dövrü başlandı. 1958-ci ildə "Seçilmiş əsərləri", 1968-1971-ci illərdə üçcildliyi, 1960-cı ildə akademik Məmməd Cəfər Cəfərovun "Hüseyn Cavid", 1975-ci ildə Məsud Əlioğlunun "Hüseyn Cavidin romantizmi", 1977-ci ildə Zahid Əkbərovun "Hüseyn Cavidin "Şeyx Sənan" faciəsi", Qulam Məmmədlinin "Cavid – ömrü boyu", "Cavidi xatırlarkən" və başqa sanballı əsərlər nəşr olundu.

Bu məqaləmizdə isə biz Keykavus – Hüseyn Cavidin "Səyavuş" faciəsinin əsas surətlərindən biri, qədim İran şahı, Keylər sülaləsinin Keyqubaddan sonra ikinci hökmdarı haqqında fikirlərimizi bildirmək istəyirik. Əsər Şərqin böyük şairi Əbülqasim Firdovsinin (934-1020) anadan olmasının minilliyinə həsr olunmuş, "Şahnamə" əsərinin motivlərindən istifadə olunmaqla, tamamilə fərqli və müasir məzmunlu bir əsər ortaya qoyulmuşdur. Firdovsi əsəri ilə Hüseyn Cavidin "köhnə mövzuya yeni ruh verilmiş" [6, s. 184] beşpərdəli mənzum faciəsini bir çox cəhətdən qarşılaşdıran filologiya üzrə fəlsəfə doktoru, dosent Lütfiyyə Əsgərzadə iki əsərdəki Keykavus obrazlarının bir-birindən fərqli keyfiyyətə malik olduğunu nəzərə çatdırır: "Firdovsi əsərində Keykavusu səbrli, tədbirli və ağıllı bir insan kimi verir. Cavidin Keykavusu kütbeyin və azğın, zülmkar və qudurğan bir müstəbiddir" [6, s. 181].

Zülmə qarşı dikbaş və məğrur olun!
Hürriyyət uğrunda pək cəsur olun!
Səadət pərisi gülməz qullara,

Munis olur ancaq çəlik qollara!

Bu misralar "Azərbaycanda rəsmi türkçülüyün süqutu ərəfəsində - Turanın mənəvi və siyasi baxımdan alt-üst edildiyi bir ərəfədə, Məmməd Əmin Rəsulzadənin "Əsrimizin Səyavuşu"nu yazdığı, Azərbaycanda iman, din və millət duyğusunun qəzaya uğradığı" [11, s. 172] bir zamanda Hüseyn Cavidin qələmə aldığı "Səyavuş" faciəsinin əsas qəhrəmanı Səyavuşun dilindəndir. Diqqətəlayiq məqam isə odur ki, Səyavuş azadlığını itirmiş bir xalqı qul olmaqdan, zülmə boyun əyməkdən xilas olmağa və azadlıq uğrunda mübarizə aparmağa açıq-aşkar səsləyir. Sosialist gerçəkliklərini, müasir həyatı təsvir və tərənnüm etməyi tələb olunduğu halda Cavidin belə bir ortaya qoyması həqiqətən də o dövr üçün görünməmiş misilsiz bir cəsarət idi. Təsadüfi deyil ki, Azər Turan da bu əsəri Hüseyn Cavidin türkçülüyünün, turançılığının əsas sübutu kimi qiymətləndirir: "Cavid turançılığının ən aşkar bədii dəlili, onun Turan içində yaralanmış bir Azərbaycanın qurtuluşu naminə sürdürdüyü məfkurə davasının ən mükəmməl izharı "Səyavuş" faciəsidir" [11, s. 291].

"Səyavuş" əsərinin tamamlanması haqqında 1933-cü ilin iyul ayında "Gənc işçi" qəzetində məlumat verilmişdir. Ən yaxşı dram əsərlərinin seçilməsi məqsədli bir müsabiqəyə təqdim edəcəyi bu əsər haqqında istedadlı dramaturq yazmışdır: "Səyavuş" əsərimi bu günlərdə bitirib maarif komissarlığına təqdim etmişəm. "Səyavuş"un mövzusu əski İran və Turan tarixlərindən alınmışdır" [9, s. 256]. Əsərin özünün əvvəlində isə Hüseyn Cavid belə bir epiqraf yazmışdır: "Başda həkim Firdevsi olaraq şu vaqiəyi təsvir edənlər az deyil. Müəllif də yorğun duyğularını dinlətmək üzrə şu mevzuya doqundu və "Şahnamə"yə yaqlaşmaq istərkən uzaqlaşmış bulundu" [12, s. 253]. Lakin qızı Turan Cavidin tapıntısı olan bu epiqraf Hüseyn Cavidin əsərlərinin 2005-ci ildə nəşr olunmuş beşcildliyinə də daxil edilməmişdir. Cavid bu epiqrafda da əslində müasir dövrü təsvir etmiş, işğal olunmuş türk – Azərbaycan dövlətinin müstəqilliyinə son qoyulmasına bütün varlığı ilə qarşı olduğunu gizləyə bilməmişdir.

Əsəri o zaman ədəbi tənqid "Azərbaycan yazıçılarının Ümumittifaq Şura yazıçıları qurultayına hazırlıq dövründə əldə edilən müvəffəqiyyətlərdən biri" [9, s. 259], "Cavid yaradıcılığında dönüş əlamətləri göstərən pyes" [9, s. 256] kimi qiymətləndirmiş, lakin yenə də əsərlərinin mövzularını uzaq tarixdən, İran və Turandan yox, yaxın tarixdən götürməli olduğu və müasir dövrü əhatə edən mövzular üzərində işləməyinin gərəkli olduğu diqqət mərkəzinə çəkilmişdir. Bu əsər Hüseyn Cavidin "heca vəzni sahəsindəki axtarışlarının parlaq bir nümunəsi" [2, s. 138] kimi dəyərləndirilmişdir. Akademik Məmməd Cəfərin fikrincə, bu əsər Cavidin əruz vəznində yazdığı dram əsərlərindən sənətkarlıq baxımından heç də geri qalmayır: "Biz Cavidin əruz vəznində yazdığı dramlarındakı dil zənginliyini, vəzn oynaqlığını, ahəngdarlığı, xüsusən üslub sərrastlığı və qüvvətliliyini eyni dərəcədə heca vəznində yazılan "Səyavuş" faciəsində də görürük" [3, s. 262]. Bu əsərdə Hüseyn Cavid "Cəmiyyətdə insanın taleyi, ədalət və azadlıq, əxlaqi gözəllik kimi məsələlərə toxunmuşdur" [5, s. 188].

Anası öləndən sonra kənddə, sadə adamlar arasında təlim-tərbiyə alan Səyavuş atası Keykavusun sarayına azadfikirli bir bahadır kimi qayıdır. Keykavusla toqquşmanın kökündə də həmin azadfikirlilik dayanır. Haqq və ədalət bir quş olsa belə, Keykavus sarayında yuva qura bilməz. O, qanlar tökən, dünyanı odlara yaxan bir hökmdar kimi İblisə tay tutulur, onun sarayı fitnə-fəsad və İblis yuvasıdır. Bu surət vasitəsilə dramaturq şah və xaqanların yoxsul xalq kütlələrinə qarşı amansızlığını, bu rəzalətlərə qarşı xalq kütlələrinin azadlıq mübarizəsini göstərməyə, qanunsuz əmrlər verən Keykavusun və onun şəxsində bütün qəddar xaqanların çirkin simasını açıb göstərməyə müvəffəq olmuşdur. Keykavus kimi qana susamış xaqanlar hakimiyyət, güc, silah, dözülməz cəza

tədbirləri vasitəsilə özlərini cəmiyyətin havadarları, haqq-qanun müdafiəçiləri kimi göstərirlər. Səyavuşun bir busəsini Kəyan tacından üstün tutan Südabəni Keykavus Səyavuşun mərhəməti nəticəsində əhv edir. Keykavus öz xarakterinin mürəkkəbliyi ilə diqqəti cəlb edir. O, ədalətsiz olmaqla bərabər, düşüncəsiz, özünün və eləcə də ölkənin xeyir-şərini ayırd etməyən, tədbirsiz, qədir bilməyən, yaxşılığı qiymətləndirməyən tipik bir şah surətidir. Xarici düşmənlərdən xalqı deyil, öz taxtı-tacını qurtarmağa çalışan Keykavus "köylər dağılsa da, ağrıtmaz məni, ancaq Əfrasiyab bilsin həddini" [1, s. 180] deyir. Keykavus eyni zamanda azğın şəhvətə tutulmuş bir hökmdardır. Onun bu xasiyyəti əsərdə 1-ci və 2-ci Cariyənin vasitəsilə çox gözəl işıqlandırılmışdır. "Hər gün nazlı bir sona, yavru bir göyərçin qismətdir mana" [1, s. 135] deyən Keykavus sarayı bir əxlaqsızlıq yuvasıdır. Qarşısında diz çökərək yalvaran Cariyənin hıçqırıqlarına əhəmiyyət verməyən Keykavus onu zorla otağına doğru sürükləyir. Bir gün əvvəl günahsız yavru kimi bu əxlaqsız şahın toruna düçar olmuş 1-ci cariyə "göylərəmi uçdu haqq və ədalət" [1, s. 137] - deyə fəryad qopardıqda Pişxidmət qəhqəhələrlə ona cavab verir:

Haqq və ədalətmi... O bir quş olsa,
Şahın sarayında yapmaz yuva [1, s. 137].

Xalqın mənafeyinə xidmət edən Səyavuşdan fərqli olaraq, atası Keykavus məzlumlara qarşı laqeyddir. Səyavuş heç təsadüfi deyildir ki, əsərin sonunda həm Əfrasiyabı, həm də Keykavusu "müzlim cəlladı" [1, s. 250] adlandırır. Günahsız insanlara, maddi sıxıntılar içərisində yaşayanlara köməklik göstərən, onların düşmənlərini isə cəzalandıran Səyavuş Əfrasiyabın gözündə düşmən kimi qəbul edilir və sonda xaincəsinə Gərşivəz tərəfindən arxadan vurularaq həyatına son qoyulur. Ədalətli və qəhrəman bir sərkərdə kimi Səyavuşun atası Keykavus və dayısı Əfrasiyab haqqındakı qənaətləri onlara qarşı nifrət hissi yaradır:

Oh, səfil!
Lənət o günə ki, sığındım sana,
Nifrət güvəndiyim qanlı xaqana!
Bən atıb da gəldim Kəyan tacını
(Firəngizi göstərir).
Şərəf bildim onun izdivacını.
Düşünmədim babam kimi sənin də,
Əqrəblər yaparmış yuva beynində.
Bu bir suçmu, söylə, yalnız qəhr olan
Ölkələri xilas etdim aclıqdan.
(Vali ilə Müşaviri göstərir)
Haq tanımaz zalımlardan öc aldım,
Bilmədim ki, buna qızarmış dayım.
Səncə xoşmu xalqın acı fəryadı?
Ah, babam da, sən də məzlum cəlladı!.. [1, s. 250].

Rüstəm əsgərlərin kənddə dirilik qoymadığını xəbər verəndə Keykavus xalqın halına acımaq əvəzinə türk xaqanı Əfrasiyaba həddini bildirmək barədə düşünür. Bunun üçün Çin xaqanı ilə müttəfiq olduğunu dilə gətirir. Türklərlə müharibəyə göndərilən Səyavuş və Rüstəm savaş üçün əslində heç bir səbəb olmadığını gördükdə nahaq qan tökməyi rəva görmür. Keykavus isə bunu xəyanət hesab edib onların haqqında ölüm hökmü çıxarır. Ona öz oğlu ilə xəyanət etməyə hazır olan baş hərəm Südabəni bağışlamağı da Keykavusu oxucunun gözündə alçaldır. Yalan, böhtan, hiylə yuvası olan saraydakı intriqaları, şahların hakimlik və mənsəbpərəstlik ehtirasları Keykavus obrazı timsalında ifadə edilmişdir.

Hakimiyyət, şəhvət, zülm kimi qorxunc hissləri aradan qaldırmaq, insanlara hörmət göstərmək yolu ilə insanı xoşbəxt görmək – böyük dramaturqun ən gözəl, həyat idealı bu idi! Məhz bu səbəbdən də Hüseyn Cavid yaradıcılığı bu gün də aktualdır, Hüseyn Cavid bütün bəşəriyyət üçün bir şəxsiyyət kimi bu gün də idealdır, öz əqidəsindən dönməzlik nümunəsidir!

ƏDƏBİYYAT

1. Cavid H. Əsərləri: 5 cilddə, IV c., Bakı: Lider, 2005, 256 s.
2. Cəfər M. Cavidin sənəti haqqında qeydlər. Bax: Cavidi xatırlarkən (məqalələr və xatirələr). Bakı: Gənclik, 1982, 392 s.
3. Məmməd C. Seçilmiş əsərləri. II c., Bakı: Çinar-Çap, 2003, 281 s.
4. Cəlal M., Hüseynov F. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı: Maarif, 1982, 426 s.
5. Əfəndiyev T. Hüseyn Cavidin ideyalar aləmi. Bakı: Yazıçı, 1985, 206 s.
6. Əsgərzadə L. Hüseyn Cavid və Şərq. Naxçıvan: Əcəmi, 2005, 204 s.
7. Hüseyn M. Əsərləri:10 cilddə, IX c., Bakı:Yazıçı, 1979, 634 s.
8. Qarayev Y. Meyar şəxsiyyətdir. Bakı: Yazıçı, 1988, 456 s.
9. Məmmədli Q. Cavid – ömrü boyu. Bakı: Yazıçı, 1982, 297 s.
10. Xəndan R.Z. Cavid sənəti. Bakı: Bilik, 1981, 85 s.
11. Turan A. Cavid əfəndi. Bakı: Araz, 2004, 307 s.
12. Turan A. Cavidnamə. Bakı: Elm və təhsil, 2010, 576 s.

Айгюн Оруджева

НЕСКОЛЬКО СЛОВ О КЕЙКАВУСЕ ГУСЕЙНА ДЖАВИДА

В статье рассмотрен образ Кейкавуса – один из основных отрицательных образов произведения «Сиявуш» известного представителя азербайджанского романтизма, талантливого драматурга, поэта Гусейна Джавида. Сюжет произведения взят из всемирно известного труда «Шахнамэ» иранского поэта Абулькасима Фирдоуси. Гусейн Джавид написал это произведение к 1000-летней годовщине со дня рождения великого поэта. Кейкавус, как правитель, проливающий кровь, предающий все огню и мечу, сравнивается с Дьяволом, а его дворец – это гнездо интриг и провокаций.

Ключевые слова: *романтизм, поэт, драматург, деспот, жестокий.*

Aygun Orujova

A FEW WORDS ABOUT HUSEYN JAVID'S KEUKAVUS

The image of Keikavus which is one of the main negative characters of "Siyavush", the play of the famous representative of Azerbaijan romanticism, talented playwright, poet Hussein Javid, has been considered in the paper. The plot for this play is taken from the world-famous work "Shahname" of the Iranian poet Abu'l-Qasim Ferdowsi. Hussein Javid has written this work to the 1000th anniversary of the great poet's birth. Keikavus, as a bloody ruler, devastating everything, is compared with the Devil, and his palace is a nest of intrigues and provocations.

Keywords: *romanticism, poet, dramatist, despot, cruel.*

(Filologiya üzrə elmlər doktoru Fərman Xəlilov tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2018, № 1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2018, № 1

PROCEEDINGS OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES NAKHCHIVAN BRANCH OFFICE
The series of social sciences and humanities, 2018, № 1

SAHAB ƏLİYEVA
AMEA Naxçıvan Bölməsi
E-mail: sahabaliyeva89@gmail.com

HÜSEYN CAVİDİN FƏALİYYƏTİNİN TÜRKİYƏ DÖVRÜ VƏ YARADICILIĞINDA TÜRKİYƏ MÖVZUSU

Məqalədə Türkiyənin ictimai-siyasi və mədəni həyatı Hüseyn Cavidin bədii əsərləri və məktubları əsasında araşdırılmış, İstanbul mühitinin Cavidin dünyagörüşünün formalaşmasında oynadığı rol müxtəlif aspektlərdən öyrənilmişdir. Eyni zamanda Cavidin İstanbul dövrü yaradıcılığı da ətraflı şəkildə tədqiq olunmuş, şeirlərinin dil, üslub və sənətkarlıq xüsusiyyətləri araşdırılmış, şeirlərindən bir neçə nümunə verilərək o dövr Cavid üslubunu formalaşdıran cəhətlər müxtəlif tədqiqatçıların fikirlərinə də əsaslanılaraq izah olunmuşdur. Məqalədə Cavidin Türkiyədə yaşadığı müddətdə Vətən həsrəti, əsas amalının xalqına, Vətəninə xidmət olması onun "Vətən" şeiri və məktublarına istinad edilməklə araşdırılmış, "Uçurum" və "Afət" faciələrindəki obrazların timsalında xalqını, Vətənini unudan gənclərin faciəsi, "mədənilik" və "yenilik" adı altında axlaqsızlığın törətdiyi fəlakətlərin öz əksini tapması əsaslandırılmışdır.

Açar sözlər: *Azərbaycan, İstanbul mühiti, türk şairləri, Türkiyə mətbuatı, bəşəri ideyalar.*

Türkçülük və turançılıq ideyalarının qızğın müdafiəçisi, öz milli, bəşəri ideyaları ilə nəinki Azərbaycan ədəbiyyatının, eyni zamanda dünya ədəbiyyatının bir çox dahi şəxsiyyətləri ilə müqayisə oluna biləcək istedada, dahiliyə malik Hüseyn Cavid öz orijinal üslubu ilə ədəbiyyat tariximizdə dərin iz qoyan böyük mütəfəkkirdir. Qısa olduğu qədər mənalı, kaşməkəşli həyat və fəaliyyətinə nəzər yetirdikdə Hüseyn Cavid dahiliyinin, böyüklüyünün, istedadının meydana çıxmasında onun doğulduğu torpağın, ailədə aldığı tərbiyənin, "Məktəbi-Tərbiyə"dəki təhsilinin, müxtəlif illərdə İran və Türkiyədə yaşamasının, Tiflisdəki fəaliyyətinin, onu əhatə edən elmi-ədəbi mühitin, dövrünün tanınmış elm və sənət adamları ilə yaxınlığının və s. təsiri danılmazdır. Sadaladığımız bütün bu təsirlər sırasında Cavidin Türkiyədə təhsil alması, dörd il bu mühit içərisində yaşaması xüsusilə qeyd olunmalıdır.

Onun İstanbula getməsini, oradakı fəaliyyətini tanınmış ədəbiyyatşünas alim Rəfael Hüseynov Cavidə həsr etdiyi kitablarının birində belə təsvir edir: "Burda, İstanbulda ömrünün dörd ili qalacaq. Ömrünün dörd ili qalacaq orda və Hüseyn, ömrünün sonrakı dörd on ilinə sığacaq qədər xatirələrlə qayıdacaq oradan. İstanbul xörəklərinin dadı, İstanbul çiçəklərinin ətri, İstanbul nəğmələrinin titrək xalları, İstanbul ləhcəsinin şirinliyi son günəcən unudulmayacaq. Burda təzə-təzə dostlar-tanışlar tapacaq. Burda məşhur inqilabçı şair Səid Səlmasiylə, "Danişməndane-Azərbaycan" təzkirəsinin yazarı Məhəmmədəli Tərbiyətlə, İran maarifpərvərlərindən Naci bəylə, Abdulla Surla, Bəkir Çobanzadəylə...tanış olacaq, burda böyük Tofiq Fikrətdən, Rza Tofiqdən dərs öyrənəcək... Burda, bu şəhərdə savad, zövq, ədəbi səliqə tərbiyəsi alacaq və sonra uzun illər boyu bunun faydalarını da duyacaq, "zərbələrini" də yeyəcək. Burda, bu şəhərdə o, kitabdan-kitaba keçdikcə bilik zənginliyinə də nail olacaq, pulsuzluğun sıxıntılarına da məruz qalacaq, oxumaq, öyrənmək xatirinə həftələrlə pendir-çörək yeməyə də dözəcək" [12, s.

327]. Bütün bu fikirlərə əsaslanaraq deyə bilərik ki, doğrudan da, Hüseyn Cavid dünyagörüşünün formalaşmasında, türkçülük və turançılıq ideyalarının yaranması və inkişafında Türkiyə ədəbi mühitinin böyük rolu olmuş, "onu Qərb düşüncəli, Şərq koloritli bir dramaturq kimi yetişdirmişdir" [14, s. 22].

Hüseyn Cavid ilk təhsilə mollaxanada başlamış, beş il orada təhsil aldıqdan sonra "Məktəbi-Tərbiyə"yə daxil olmuşdur. 1898-ci ildə "Tərbiyə" məktəbini bitirdikdən sonra Təbrizdə "Talibiyyə" mədrəsəsində təhsilini davam etdirmişdir. Təhsilini bitirdikdən sonra Naxçıvana qayıtmış, 1905-ci ildə Bakıya getmiş, orada Abdulla Şaiqlə tanış olmuşdur. Abdulla Şaiq sonralar nəşr etdirdiyi kitablarında Cavidlə Bakıdakı görüşləri haqqında məlumat vermiş, həm də Cavidin sonrakı fəaliyyətini belə təsvir etmişdir: "Təbrizdən qayıtdıqdan sonra bir müddət ticarətlə məşğul olmuş, 1905-ci ildə səyahət üçün Bakıya, sonra isə Tiflisə gəlmiş, burada atasının yaxın dostlarından ticarət şirkəti sahibi olan biri ilə şərik olmuş Hüseyn şirkətin həm mühasibat işlərini aparmalı və həm də əlində olan sərmayəsi-700 manatı şirkətə verməli idi. Şirkətin Batumda, Təbrizdə və İstanbulda şöbələri var idi. 1905-ci ildə Hüseyn İstanbul şöbəsinə göndərilir..." [17, s. 291]. Deməli, Hüseyn Cavid 1905-ci ildə İstanbula ticarət məqsədilə getmiş, onun göndərildiyi ticarət şirkətinin İstanbul şöbəsi iflas etdikdən sonra geri dönməmiş, təhsil almaq üçün orada qalmışdır. Hələ universitetə qəbul olmamışdan əvvəl bir neçə ay Türkiyənin məşhur filosof-alimi Rza Tofiqdən dərs almış, onun fəlsəfi fikir dünyası ilə tanış olmuş, Qərb və Şərq filosofları və onların əsərlərini mütaliə etmişdir. Daha sonra İstanbul Darülfünuna daxil olmuş, o dövr türk romantizminin görkəmli nümayəndələrindən olan Əbdülhəq Hamid, Namiq Kamal, Şəmsəddin Sami, Rəcaizadə Mahmud Əkrəm, Tofiq Fikrətlə sıx yaradıcılıq əlaqələri saxlamışdır.

Hüseyn Cavidin Türkiyədəki fəaliyyəti, Türkiyənin ictimai-siyasi və mədəni həyatı haqqındakı məlumatları İstanbuldan Qurbanəli Şərifzadəyə yazdığı səkkiz məktubu vasitəsilə əldə edirik. Bu məktublar haqqında Əziz Şərif yazırdı: "Mənim əlimdə onun İstanbuldan Naxçıvana-Qurbanəli Şərifzadəyə yazdığı səkkiz məktubu vardır ki, bunlar 1906-10-cu ilə qədər dörd ilin ərzində yazılmışdır. Bu məktublar şairimizin həyat və yaradıcılığında əhəmiyyətli olduğu kimi, tərcümeyi-halında da qaranlıq olan İstanbul dövrünü lazımi dərəcədə aydınlaşdırır" [16, s. 26]. Əziz Şərif eyni zamanda xatirələrində Hüseyn Cavidin atası Qurbanəli Şərifzadəyə göndərdiyi bir məktubunda Salik təxəllüsü ilə fars dilində yazdığı "Vətən" şeiri haqqında da məlumat vermiş, şeirin tərcüməsinin İ.Cəfərpura məxsus olduğunu göstərmiş və onun tərcüməsini oxuculara təqdim etmişdir:

Olubdu qəlbimə hakim mənim məlali-vətən,
Başımda şur ilə məskən salıb xəyali-vətən,
Vətən, vətən deyərək hər diyarə səs salıram,
Düşərmi bircə dilimdən mənim məqali-vətən?
...Əgər sual edələr-Salikin xəyalı nədir?
Deyin, həqiqəti ancaq olub maali-vətən [6, s. 267].

Təkcə bu şeir deməyə əsas verir ki, Cavid Türkiyədə olduğu müddətdə Vətənini unutmamış, yeri gəldikcə şeirlərində, məktublarında bunu dilə gətirmişdir. Bu şeiri "ürəyi vətən eşqi ilə döyünən, incəqəlbli bir şair-vətəndaşın həzin nəğməsi" [13, s. 115] də adlandırmaq olar. Əziz Şərif xatirələrinin davamında Hüseyn Cavidin İstanbul dövrü yaradıcılığında daha çox klassik üslubda, əruz vəznində yazdığını vurğulamışdır. "Vətən" şeiri "balkə də Hüseyn Cavidin bu şəkildə yazmış olduğu son şeirdir, çünki İstanbuldan qayıtdıqdan sonra şair öz yaradıcılığında bambaşqa yol seçmiş, çox vaxt əruz vəznində yazsa da, yeni-yeni formalardan və mövzulardan istifadə etməyə başlamışdır.

Bu cəhətdən həmin "Vətən" şeiri Hüseyn Salik ilə şair Hüseyn Cavid arasındakı fərqi apaçıq göstərməklə bərabər, Hüseyn Cavid yaradıcılığında İstanbul təlim və tərbiyəsinin də rol və əhəmiyyətini aydınlaşdırmışdır" [6, s. 267].

Məktublarında Cavid öz təhsili, müəllimləri, keçirilən dərslər, gələcək planları haqqında məlumat verməklə yanaşı, Türkiyənin o zamankı ictimai-siyasi və mədəni həyatı, İstanbula gedərkən yol boyu gördüyü bir neçə türk şəhəri haqqında da söz açır. Bildiyimiz kimi, o dövrdə Türkiyədə Sultan II Əbdülhəmidin istibdad rejimi hökm sürürdü. Ölkədə söz, fikir və vicdan azadlığı yox dərəcəsində idi. Bu vəziyyət Cavidi də narahat etmiş, Qurbanəli Şərifzadəyə yazdığı məktublarından birində bu məsələyə toxunaraq yazmışdır: "İstiqlala dair bir söz oxunması və qonuşulması pək məmnu olub, artacaq mahaldır...Əcnəbi poçtları vasitəsilə azad ruhlu qəzet almağa mane olurlar...Ən irəli gəlmiş məktəblər əsgəri və tibbi məktəblərdir...Azad ruhlu müəlliflərin kitabları qadağandır...İstanbulda çox böyük qiraətxana və kütübxanalar var, amma layiqlərincə kitabları və qəzetləri yoxdur, çünki hər bir eyi mündəricat və mətbuat yasaqdır..."[7, s. 29]. Məktublarından əlavə, "Fyüzat" jurnalında çap etdirdiyi bir şeirində də Türkiyədəki istibdad rejimini kəskin tənqid etmişdir:

Daha məhv etdi artıq istibdad,
Yaqdı zülm atəşinə canımızı.
Oldu hər bir hüququmuz bərbad,
Dinləməz kimsə ələmanımızı [3, s. 126].

Cavidin məktubları Türkiyənin o zamankı ictimai və mədəni həyatını öyrənmək baxımından da olduqca dəyərlidir: "İstanbulda mütəaddid və gunagun teatrolar var. Ələlxüsus ramazanda büsbütün kəsəbə və çoq əsnafın dükanları gecələr açıq olub, məfhum olduğuna görə, teatrolar da ziyadələşir və türklər də o gecələrdə teatroya getməyə artıcaq talib və rağib oluyorlar...Ünas firqəsi, büsbütün xanımlar üzüaçıq və hürrdürlər, amma namünasib bir şey yapmazlar. Xilafi-şər, bir iş nəşət ediyorsa, devlət çoq sıqı tutuyor. Amma bəzilərinin də müxtəsər yüz örtüyü vardır. Türkiyədə muzey sənətinə təraqqi verməyə çoq təlaş və səy olunur..." [5, s. 256].

Məktublarından məlum olur ki, Cavid Türkiyədə tələbəlik illərində maddi cəhətdən çox sıxıntılar çəkmiş, özünün yazdığı kimi, "həftələrlə peynir-əkməklə qənaət edərək" dolanmış, ancaq yenə də heç kimə ağız açmamış, mənəvi köləliyi qəbul etməmiş, Qurbanəli Şərifzadənin təşəbbüsü ilə ona göndərilən ianə torbasını da yırtmışdır. Heç bir məhrumiyyət, ağır vəziyyət onu öz amalından, həyatı boyu əsiri olduğu məhəbbət və həqiqətindən uzaqlaşdıra bilməmişdir: "Bən hamallığı, xidmətkarlığı pək ziyadə sevərim. Fəqət böylə bir devri-hürriyyət və zəmani-səadətə bənliyimi satmaq, əsir olmaq istəməm (əsir olduğum bir şey varsa, o da həqiqət və məhəbbətdir). Əsarət zəncirinə bağlanmaq, o müləvvəs qeydi çəkməyə razı olamıyorum"[5, s. 262].

Cavidin məktublarından da məlum olduğu kimi, o, Türkiyəni nə qədər sevsə, oranın ədəbi mühitindən təsirlənsə də, Vətənini bir an belə unutmamış, əsl məqsədinin Vətənə xidmət olduğunu dəfələrlə vurğulamışdır: "Şimdi burada hər zəhmətə mütəhəmmil olub da aldığım maaş ilə, fəqiranə bir güzəran ilə burada üç-dörd sənə qədər dəxi həm tədris, tədərrüs edə bilirim. Lakin, lakin...validəm, vətənim, vətəndaşlarım bütün-bütün unutulacaq bir hala gəlir. Şimdi burada binlərcə iş başında sahibi-heysiyyat tatar, türküstanlı, qafqaslı, kırımlı vardır ki, hər təhsilini ikmal etdikdən sonra İstanbullu olmağı da onlara zəmlə, bir osmanlı olub getmişdir. Bu bəncə pək güc...Şimdi əsil məqsəd vətənə xidmət, həm də layiqiylə xidmət etməkdir" [5, s. 269].

Hüseyn Cavid İstanbulda təhsil aldığı müddətdə bədii yaradıcılıqla da məşğul olmuş, "Rəqs", "Çəkinmə, gül", "Uyuyur", "Pənbə çarşaf", "Xuraman-xuraman", "Dəniz

pərisi", "Hər yer səfalı", "Mən istərəm", "Yadi mazi", "Ah, yalnız sən", "Şeir məftunu", "Bir ahi-məzlumanə" şeirlərini qələmə almışdır.

Bu şeirləri qiymətləndirən Cavid irsinin cəfakeş tədqiqatçısı akademik Məmməd Cəfər yazırdı: "Məzmun cəhətindən həyəcanlandırıcı xəyallar, fövqəladə, mücərrəd mənəvi səadət həsrəti, forma cəhətindən isə süni pafos, dəbdəbəli üslub, fars və ərəb sözləri, tərkibləri ilə ağırlaşdırılmış qəliz dil bu şeirlərin çoxunun əsas xüsusiyyəti idi" [2, s. 31]. Cavidin Türkiyədə oxuduğu müddətdə yazdığı şeirlərin dil və üslub xüsusiyyətlərini hərtərəfli araşdıran M.Cəfər belə qənaətə gəlir ki, Cavid bu dövrdə əsasən klassik üslubda yazmışdır, ancaq bəzi şeirlərində xalq şeir üslubunu da müşahidə etmək mümkündür. Bunun səbəbi kimi, bir tərəfdən Cavidin türk ədəbiyyatının Əbdülhəq Hamid, Cənab Şəhabəddin kimi şairlərdən təsirlənməsini, digər tərəfdən isə o dövrdə Azərbaycanda olduğu kimi, Türkiyədə də zəif də olsa, şeirdə yeni dil, üslub, ədəbi forma axtarışlarının başlanması ilə əlaqələndirmişdir. Türk şairlərindən Tofiq Fikrət və Əbdülhəq Hamid əsərlərinin çoxunu çətin dildə yazırdılarsa, Rza Tofiq şeirdə həm klassik, həm də xalq üslubundan istifadə edirdi. Cavidin də bu dövrdə yazdığı şeirlərə nəzər yetirdikdə, iki üslubun birləşdiyinin – ictimai-fəlsəfi şeirlərinin klassik üslubda, mahnı və şərqilərinin isə xalq şeiri üslubunda yazıldığının şahidi oluruq. Cavidin o dövr lirikasını araşdıran tanınmış alim İsa Həbibbəyli də bu cəhəti nəzərə almış, Türkiyədə təhsil illərində yazılmış "Yadi-mazi", "Bir ahi-məzlumanə" şeirlərinin quruluşundakı orijinallığı belə izah etmişdir: "Bu şeirlər hər iki üslubun – klassik lirika və xalq-aşıq lirikasının qovuşuğundan yaranmışdır. Xalq aşıq poeziyasında olduğu kimi, şeirlər bəndlərdən ibarətdir. Lakin bəndlərin arasında klassik lirikadakı beytlərə bənzər cüt misralar verilmişdir" [11, s. 7].

Ey vətən! Ey gönül pərəstarı!
Var ümidim, qüsura baqmıyasan,
Bizə tərcih edib də əğyarı
Bıraqıb nari-hicrə yaqmıyasan.
Səni bu hala saldı qəflətimiz,
Daha əfv et, yetər nədamətimiz [3, s. 125].

Ədibin sonralar yazdığı şeir və dram əsərləri sübut edir ki, Vətənə qayıtdıqdan sonra Cavid klassik şeir üslubunu çətinləşdirməyin lazımsız olduğunu anlamış, özünəməxsus dil və üslub xüsusiyyətlərini müəyyənləşdirmişdir.

İstanbulda təhsil aldığı müddətdə Cavid təkcə şeir yazmaqla kifayətlənməmiş, yazıqlarını müxtəlif mətbuat orqanlarında da çap etdirmişdir. Onun üç şeiri "Sırat-ülmüstəqim" jurnalında dərc olunmuşdur ("Yadi-mazi", "Elmi-bəşər", "Son baharda"). Ədib "Cavid"(əbədi) imzasını da ilk dəfə 1909-cu ildə bu jurnalda işlətmişdir. Bundan başqa onun "Bahar şəbnəmləri" kitabında yer alan iki şeiri İstanbulda çıxan "Ədəbiyyatı-Umumiyyə" məcmuəsində, "Nəcm-i Geysudar" başlıqlı şeiri isə Məmməd Əmin Rəsulzadənin 1923-29-cu illərdə İstanbulda çıxardığı "Yeni Kafkasya" dərgisində dərc edilmişdir. Bu dərgi ilə bir çox şair və yazıçılarımız əməkdaşlıq etmiş, Cavid isə bu dərgidə "Əhməd Cavaddan sonra şeiri nəşr edilən ikinci azərbaycanlı şair olub" [10, s. 107]. Göründüyü kimi, Cavid Vətənə döndükdən sonra da Türkiyə ilə əlaqəsini kəsməmiş, oradakı ictimai-siyasi vəziyyətə öz münasibətini bildirmiş, öz şeirlərini müxtəlif dərgilərə göndərmişdir.

Cavid İstanbul mühitindən aldığı təəssüratlar əsasında "Uçurum" və "Afət" faciələrini yazmış, o dövrdə özünün də müşahidə etdiyi türk ziyalılarının böhranlı vəziyyətini, Avropa mühitinin mənfi tərəflərinə diqqəti cəlb edərək Vətənini, millətini unudan gənclərin faciəsini bu əsərlər vasitəsilə tənqid etmişdir. Bu mövzu Cavidi həmişə düşündürmüş, hələ 1915-ci ildə "Açıq söz" qəzetində nəşr etdirdiyi "Müharibə və ədəbiyyat" məqaləsində həmin məsələyə toxunmuşdur: "Avropa yolunu tanır-tanımaz, bir də baxırsan fransız müqəllidliyi meydan aldı. Həm də fransızların az-çox ciddi və məharətli ədəbiyyatı deyil, hoppa, dəgərsiz və çürük əsərləri təqib olundu, tərcümə edildi və kəndiliginən xüsusi əsərlər yazanlar belə, bir dürlü təqlidən yaqayı sıyıramadılar. Həm də əsklik ilə yeniliyi, əcəmilik ilə fransızlığı qarışdıraraq iki çürük, iki əxlaqsız uçurum arasında qaldılar. Yalnız Rza Tevfiq, Əbdülhəq Hamid, Tevfiq Fikrət kibi məşahir, bir də milli ənənələri, milli duyğuları dinləyən bəzi gənc ruhlar, gənc qələmlər köhnəlikdən, müqəllidlikdən sıyrılmağa başladılar. Namiq Kamal kibi özünü hər kəsə sevdirə bilən böyük bir hünərvəri belə pək küçük, pək darruhlu buldular və haqları da var..." [5, s. 236].

Bu mövzuda yazdığı "Uçurum" faciəsində Cavid ilk dəfə Şərq və Qərb, "biz Qərbdən nəyi öyrənməli və nəyi əxz etməliyik məsələsini ortaya qoyur və türk cavanlarının mənəviyyatsızlığa, əxlaqsızlığa yuvarlanmasının bir səbəbini də Qərbin ifrat mənfiliklərinə aludəçilikdə görür" [1, s. 192]. "Uçurum" faciəsinin yazılma tarixi barədə bir çox mülahizələr mövcuddur. O dövrün görkəmli tənqidçilərindən Mustafa Quliyev və Əli Sultanlı öz yazılarında bu əsərin 1905-06-cı illərdə İstanbulda yazıldığını və Cavidin ilk dram əsəri olduğunu iddia edirdilər. Akademik Məmməd Cəfər isə əsərin istər dil, üslub və sənətkarlıq cəhətdən Cavidin İstanbul dövründə qələmə aldığı əsərlərindən seçilməsi, istərsə də bu əsərin sənətkarlıq keyfiyyətlərini nəzərə alaraq Cavidin sənətdə püxtələşdiyi dövrünə aid olması fikrini irəli sürərək onun 1917-ci ildə yazıldığını sübuta yetirmiş və bununla da mübahisələrə son qoymuşdur.

"Uçurum" romantik üslubda yazılmış və mövzusu Türkiyə həyatından alınmış faciədir. Əsərdə "Avropa burjua əxlaq düşkünlüyü ilə Şərqdəki burjua əxlaq düşkünlüyü arasındakı yaxınlıqdan, Qərblə Şərqin təmasından yaranan yarğanlar, uçurumlar və bu yarğanların, uçurumların qurbanı olan insanların, günahsız bir ailənin faciəsindən bəhs edir" [9, s. 105].

Əsərdə Cəlal obrazı vasitəsilə Cavid o dövrdə türk gənclərinin Avropaya meyil etməsini, oradan elm, sənət öyrənmək əvəzinə, Avropa aristokrat təbəqəsinin mənfi əxlaq və vərdişlərini mənimsədiklərini açıb göstərmişdir. Cəlalın Avropa mühitində böyümüş və tərbiyə almış, əxlaqsız qadın Anjelə uyması onu həm sənətindən, həm də təmiz, saf məhəbbətlə onu sevən həyat yoldaşı Göyərçindən, qızı Mənəkşədən ayrı salır, sonda da faciəsinə səbəb olur. Əsərdə Uluğ bəyin dilindən söylənən fikirlərlə gəncləri uçuruma aparan səbəblərin bütün detalları gözümüz önündə canlanır:

O gün ki, İstanbulda
Gənclik fransızlaşdı,
Getdikcə türk evladı
Uçuruma yaqlaşdı.
Sərxoşluq, iffətsizlik
Sardı bütün gəncləri,
Zəhərləndi getdikcə
Məmləkətin hər yeri.
Qəhrəman Oğuzların,
Böyük Ərtoğrulların
Sarsılmaz xələfləri
Şimdi həp sapqın, azğın...[4, s. 339].

Bu əsəri ətraflı şəkildə tədqiqata cəlb edən Əli Sultanlı yazırdı: "Fyüzat" məcmuəsinin mühərrirləri İstanbul mühitini tərifləyərkən, oradan vətənə dönən gənc dramatuq

İstanbula öldürücü satira yazır. Əslində o, Paris mühitinin təsiri altına düşmüş İstanbul həyatını, gənclərin əxlaqını, pozğunluğunu realist cizgilərlə vermişdir" [15, s. 107].

Hüseyn Cavid Türkiyə mövzusunda yazdığı "Afət" faciəsində də İstanbulun zadəgan çevrələrində mədəniliyin və yeniliyin təzahürü sayılan Qərb əxlaqının yalnız kişilərə deyil, qadınlara da məhvedici təsirini göstərmişdir. Əsərdə Afət, Özdəmir, Xandəmir, Qaratay obrazları vasitəsilə Qərb əxlaqının gətirdiyi "yenilik" və "mədənilik" tənqid olunur, insanların arzu və istəklərinin məhvinə səbəb olan, ailə faciələrinə, qadınların fəlakətinə gətirib çıxaran səbəb olaraq göstərilir. Əsərdə Cavid təsvir etdiyi eybəcər mühit daxilində Ərtoğrul, Alagöz və Yavuzun simasında mütərəqqi görüşlü, sağlam ruhlu gənclərin olduğunu da təsvir etmişdir. Lakin "tərə, müsbət və işıqlı meyillər, sağlam və gənc qüvvələr özlərinə qarşı inamsızdırlar. Hər kiçik təsadüfdən və müvəqqəti çətinlikdən qorxuya düşüb sustalırlar. Faciənin mürəkkəbliyi də elə burasındadır: çirkinlik, qaranlıq və pislik həqiqətdən qorxmadığı, çəkinmədiyi halda, gözəllik və doğruluq özündən qat-qat zəif və təməlsiz olan mühafizəkarlıq və eybəcərlik önündə sarsılır, yaşamaq ümidini az qala itirir və qeyb olur" [8, s. 87].

Beləliklə, Hüseyn Cavidin Türkiyədə təhsil alması, İstanbul ədəbi-mədəni mühiti ilə tanışlığı onun dünyagörüşünün formalaşmasında, filosof-şair, dramaturq kimi yetişməsində müstəsna rol oynamışdır. Əsas həyat amalı həqiqət və məhəbbət olan H.Cavid fəlsəfəsinin, dilinin formalaşması həyat və fəaliyyətinin İstanbul dövrünə təsadüf etdiyindən bu dövrü Cavidin ömür yolunun əsas, taleyüklü illəri adlandırsaq heç də yanılmarıq. Onun istər Türkiyə mövzusunda yazdığı əsərləri, istərsə də məktubları o dövr Türkiyə ictimai-siyasi və mədəni həyatının öyrənilməsi baxımından olduqca qiymətli mənbədir. Harada yaşamasından asılı olmayaraq əldə etdikləri, öyrəndikləri ilə xalqına, Vətəninə xidmət amalı Cavidi nəinki xalqının, bütün türk dünyasının dahi şairi və mütəfəkkiri səviyyəsinə qaldırdı, ona əbədiyaşarlıq statusu qazandırdı.

ƏDƏBİYYAT

1. Babaxanlı G. Azərbaycan ədəbi fikri və Hüseyn Cavid. Bakı: Çaşıoğlu, 2010, 244 s.
2. Cəfər M. Hüseyn Cavid. Bakı: Azərnəşr, 1960, 264 s.
3. Cavid H. Əsərləri: 5 cilddə, I c., Bakı: Lider nəşriyyatı, 2005, 256 s.
4. Cavid H. Əsərləri: 5 cilddə, II c., Bakı: Lider nəşriyyatı, 2005, 352 s.
5. Cavid H. Əsərləri: 5 cilddə, V c., Bakı: Lider nəşriyyatı, 2005, 288 s.
6. Cavidi xatırlarkən. Bakı: Gənclik, 1982, 392 s.
7. Camalov K. Hüseyn Cavid və məktəb. Naxçıvan: Əcəmi NPB, 2013, 144 s.
8. Əlioğlu M. Hüseyn Cavidin romantizmi. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı,1975, 214 s.
9. Əfəndiyev T. Hüseyn Cavidin ideyalar aləmi. Bakı: Yazıçı, 1985, 206 s.
10. Əsgərzadə L. Hüseyn Cavid: mühiti və müasirləri. Bakı: AFpoliqrAF, 2015, 284 s.
11. Həbibbəyli İ. Hüseyn Cavid və sənəti // Hüseyn Cavid: taleyi və sənəti. Bakı: Nurlan, 2007, 144 s.
12. Hüseynov R. Vaxtdan uca. Bakı: İşıq, 1989, 363 s.
13. Xəlilov F. Naxçıvanın elmi, ədəbi və mədəni mühiti: tədqiqlər. Naxçıvan: Əcəmi NPB, 2017, 248 s.
14. Qəhrəmanov Ə. Hüseyn Cavid və Naxçıvan teatrı. Naxçıvan: Əcəmi NPB, 2017, 120 s.
15. Sultanlı Ə. Məqalələr. Bakı: Azərnəşr, 1971, 328 s.
16. Şərif Ə. Keçmiş günlər. Bakı: Yazıçı, 1986, 412 s.
17. Şaiq A. Xatirələrim. Bakı: Gənclik, 1973, 364 s.

Сахаб Алиева

ТУРЕЦКИЙ ПЕРИОД ДЕЯТЕЛЬНОСТИ ГУСЕЙНА ДЖАВИДА И ТЕМА ТУРЦИИ В ЕГО ТВОРЧЕСТВЕ

В статье рассматривается социально-политическая и культурная жизнь Турции на основе художественных работ и писем Гусейна Джавида, а роль среды Стамбула в формировании мировоззрения Джавида изучена в различных аспектах. В то же время творчество Джавида в Стамбуле было подробно изучено, его поэзия изучалась с точки зрения языка, стиля и мастерства. Было представлено несколько примеров его стихотворений, а особенности, формирующие стиль Джавида в то время, были разъяснены на основе мнений разных исследователей. На основании стихотворения «Родина» и писем Джавида в статье изучена его тоска по Родине во время пребывания в Турции, также, что его основной целью являлось служение своему народу, своей Родине. Кроме того в статье на примере образов из трагедий «Пропасть» и «Афет» было обосновано отражение трагедий молодежи, позабывших свой народ, свою Родину, бедствий, совершенных безнравственностью под названием «культурность» и «новшество».

Ключевые слова: *Азербайджан, среда в Стамбуле, турецкие поэты, турецкая пресса, общечеловеческие идеи.*

Sahab Aliyeva

THE TURKISH PERIOD OF HUSSEIN JAVID'S ACTIVITIES AND THE SUBJECT OF TURKEY IN HIS CREATIVE WORK

In this article the socio-political and cultural life of Turkey have been investigated on the basis of Hussein Javid's artistic works and letters, the role of Istanbul's environment in Javid's outlook has been studied in various aspects. At the same time, Javid's creativity in Istanbul was researched in detail, the language, style and craftsmanship features of his poetry were studied. Several examples from his poems were given, and especially, the features which were formed Javid's style during that time were explained on the basis of the views of different researchers. The author has investtigated Javid's living in Turkey that period, his homesickness, serving his motherland and other problems on the basis of his poem "Vatan" ("Motherland") and his letters. In he author shows that his main that purpose was to serve his nation. As well as in the article on the basis of the images from the tragedies of "Uchurum " ("Abyss") and "Afat" writer tried to reflect the tragedy of youth who has forgotten his people, his land, the scourge of committed immorality under the name "civility" and "innovation"

Keywords: *Azerbaijan, Istanbul's environment, Turkish poets, Turkish press, human ideas.*

(Filologiya üzrə elmlər doktoru Fərman Xəlilov tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2018, № 1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2018, № 1

PROCEEDINGS OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES NAKHCHIVAN BRANCH OFFICE
The series of social sciences and humanities, 2018, № 1

ƏLİ HƏŞİMOV
AMEA Naxçıvan Bölməsi
E-mail: alieheshim@yahoo.com

MƏŞRUTƏ HƏRƏKATINDAN BƏHS EDƏN İKİ TARİXİ POVEST

Məqalədə Azərbaycan nəsrinin görkəmli simaları olan Mirzə İbrahimov və Süleyman Rəhimovun yaradıcılıq yolundan bəhs olunmuş, onların yaradıcılığında qənub mövzusunun işlənməsi məqamlarına diqqət yönəldilmişdir. Həmçinin M.İbrahimovun "Fırtına quşu" və S.Rəhimovun "Məhtəban" tarixi povestlərində Cənubi Azərbaycan həyatı, məşrutə hərəkatının bədii əksi məqamları tədqiqata cəlb olunmuşdur. Qeyd olunmuşdur ki, hər iki povestdə məşrutə hərəkatından, Cənubi Azərbaycan həyatından bəhs olunmaqla dövr haqqında dolğun informasiyalar verilmişdir.

Açar sözlər: *M.İbrahimov, S.Rəhimov, "Fırtına quşu", "Məhtəban", tarixi povest, məşrutə.*

Azərbaycan ədəbiyyatşünaslığında tarixi nəsrin mövzu dairəsi barədə fərqli fikirlər mövcuddur. Müstəqillik illərinin ədəbiyyatşünaslığında bu barədə müxtəlif yanaşmalar özünü göstərir. Tarixi nəsrin mövzu dairəsində görkəmli tarixi şəxsiyyətlərin həyat yolunu qələmə almaq artıq ənənə halını almışdır. Belə ki, məşhur inqilabçıların həyatı, mübarizə yolunun işıqlandırılması tarixi nəsrin mövzu dairəsində xüsusilə seçilməkdədir. Qeyd edək ki, bu istiqamətdə diqqəti cəlb edən əsərlər içərisində Cənubi Azərbaycandakı inqilabi hərəkatı mövzu alan əsərlərin önəmli yeri və rolu vardır. Bu səpkidə qələmə alınan tarixi mövzulu povestlərdən biri də Xalq yazıçısı Mirzə İbrahimovun "Fırtına quşu" əsəridir. "Müasir insanın estetik zövqü onun ümumi mədəni səviyyəsi ilə birlikdə inkişaf edir" [6, s. 118], yazan Mirzə İbrahimovun "Fırtına quşu" povesti də sənətə bu yanaşmanın məhsuludur. Mirzə İbrahimovun Cənubi Azərbaycanın Sərab vilayətinin Evə kəndində doğulması, sonradan, İkinci Dünya Müharibəsi illərində cənuba göndərilməsi onun yaradıcılığına da təsirsiz qalmamışdır. Onun yaradıcılığındakı bu istiqamətə diqqəti cəlb edən ədəbiyyatşünas Nurlana Əliyeva yazır: "Mirzə İbrahimov ... 1941-ci ilin yayında ...Təbrizə gəlir. O, ... "Vətən yolunda" qəzetinə redaktor təyin olunur.... Mirzə İbrahimov da Təbrizdə sovet nümayəndəsi kimi Milli hökumətə yardım edirdi və onun həmişəlik olduğuna ümidliydi.... Moskva Milli Hökumət fəalları üçün Bakıda yarı leqal bir təşkilat yaratdı. Həmin təşkilat 1945-ci ildə Təbrizdə yaradılan "Azərbaycan Demokrat Partiyası" adını daşıdı. 1946-cı il mühacirlərinin bu təşkilatının qeyri-rəsmi rəhbəri də Mirzə İbrahimov idi" [4, s. 75]. Qeyd edək ki, "Azərbaycan ədəbiyyatında ilk siyasi roman" kimi xarakterizə edilən "Gələcək gün" romanında da Mirzə İbrahimov cənub mövzusuna müraciət etmiş [3, s. 76] və Cənub mövzusunda silsilə əsərlər müəllifidir [4]. Əsər müəllifin çoxillik axtarışları, bilavasitə şahidi olduğu, eşitdiyi hadisələrin bədii təqdimi kimi də maraq doğurur. Tarixi povestdə dövrün geniş salnaməsi yaradılmış, obrazların milli, ideoloji cizgiləri dövrün ədəbi reallıqları çərçivəsində işıqlandırılmışdır. Povestdə ədibin ciddi cəhdləri nəticəsində dövr tamlıqla əhatə edilmişdir. Qələmə alınan dövr, yaradılan tarixi aura cənubda baş verən hadisələr haqqında bitkin fikir söyləməyə əsas verir.

Əsərdə XX əsrin əvvəllərində Cənubi Azərbaycanda inqilabi kimliyi, milli-tarixi xidmətləri ilə seçilən, bütün varlığı ilə mübarizəyə həsr olunmuş ömür yolu yaşayan, "sosialist" düşüncələrin daşıyıcısı olan Xosrov Ruzbehin həyat və fəaliyyəti, mübarizə yolu işıqlandırılmışdır. 1966-cı ildə qələmə alınan "Fırtına quşu" povesti janrın uğurlu nümunələrindəndir ona görə ki, əsərdə qəhrəman milli, mənəvi, psixoloji, ruhi aləmi, inqilabi fəaliyyəti, ağır şəraitdə keçən dolanışığı və bütün bunlara rəğmən məğrurluğu, əzmi, iradəsi, qayəsi yolunda əmin addımları, azadlıqsevərliyi, daxili ədaləti ilə canlandırılır. Yazıçı məharətlə işlədiyi səhnələrdə Xosrovun ailəsi, uşaqlığı, atasının fəaliyyəti barədə tutarlı məlumatlar verir. Bununla da Xosrovun formalaşması, düşüncə olaraq yetişməsində atasının əvəzsiz rolu, kimliyinin də təsiri göz önündə canlanır. Nümunəvi xidməti, təmiz mənəviyyatı ilə seçilən atasının əzablı, sədaqətli, şərəfli ömür və əmək fəaliyyəti, xüsusilə Mülayir vilayətinin jandarma rəisi olanda belə təmizliyi Xosrov Ruzbehin xarakterini, azadlıqsevər ruhunu formalaşdırmışdır. Xosrovun uşaqlığı, gəncliyi, yarımçıq qalan ali təhsili, hərbi xidmət yolunun ayrı-ayrı məqamları gözlərimiz önündə canlandıqca onun düşüncələrinin getdikcə kamilləşdiyini müşahidə edə bilirik. Xosrov Ruzbeh sıradan hərbiçi, fikir adamı deyil. O, düşüncə adamıdır, ideoloqdur, maarifçidir, mahir pedaqoqdur. Xosrov Ruzbeh "Topçuluq sahəsi üçün ali riyaziyyat kursu", "Fəlsəfənin əsasları", "Uşaq evdə və məktəbdə", "Rus dilini təkbaşına öyrənənlər üçün dərslik", "Elmi sosializm və utopik sosializm" kimi elmi, pedaqoji əsərlərin müəllifidir və bu faktlar onun hərbi sahədə ideoloji işlə möhkəm silahlandığını, yüksək elmi, ideoloji biliklərlə silahlanmış kadrlar yetişdirdiyini göstərir.

Xosrovun amalını, düşüncələrini məşhur inqilabçı Təqi Əraninin "Difaiyyə" əsərindən xatırladığı, təkrarladığı "Öz həyatını cəmiyyətin inkişafı yolunda mübarizədə qurban verməkdən böyük iftixar ola bilməz" (5, s. 173) sözləri qədər heç nə ifadə edə bilməz. Əsərin sonrakı səhifələrində Xosrov Ruzbehin Cənubi Azərbaycanda fəaliyyət göstərən inqilabi "Tudə" təşkilatın rəhbərlərindən olduğu məlum olur. Eyni zamanda onun dilindən verilən müəyyən informasiyalar təşkilat haqqında da məlum cizgiləri formalaşdırır.

Ruzbehin amalına çevrilmiş bu fikirlər məşhur Cordano Brunonun sözləridir. Bu həm müəllifin axtarışının, həm də obrazın mütaliəsinin göstəricisidir. Xosrovun dilindən dəfələrlə, 138, 148-ci səhifələrdə səsləndirilən "Layaqət və qəhrəmanlıqla ölmək, alçaq yollarla qələbə çalmaqdan yaxşıdır" – sözləri onun qəhrəman simasının hüdudsuzluğunu göstərir. Müəllif Xosrovu mütaliəli, savadlı şəxs kimi təqdim edir və onun dilindən səsləndirilən Sədi Şirazinin "İnsanın bədəni insanlıq ruhu ilə şərtlidir, gözəl paltar hələ insanlıq nişanəsi deyildir" [5, s. 151] sözlərini onun tələbəsi, onu yolundan döndərməyə çalışan Nurməhəmməd Aynasaza yönləndirilir. Əvəzində Nurməhəmməd də Sədinin şeiri ilə cavab verir: "Əgər adamlıq göz, ağız, qulaq və burundan ibarət olsaydı, naxışlı divarla adam arasındakı fərq nədən ibarət olardı?"

Fırtınalar qoynunda keçən ömür, inqilab yolu Xosrov Ruzbehi Əhvaz şəhərinə gətirir, sürgün olunur. Amma bu son deyil.

Xosrov bu mübarizədə tək deyil. Aynasaz, Əzim Əsgəri kimi inqilabçı yoldaşlar süjet xəttində müəyyən aktiv fəaliyyətləri ilə Xosrov və onun çevrəsi, düşüncələri, mübarizəsi haqqında dolğun fikir yaradır. Nurməhəmməd obrazı bu baxımdan daha çox maraq doğurur. O, nə qədər Xosrovu yolundan döndürməyə çalışsa da, ona yolun sonunun uçurum olduğunu xatırlatsa da sonda Xosrova, məşrutə hərəkatına sədaqətli olan yalnız odur. Əzim Əsgəri isə Nurməhəmmədə nisbətdə ziddiyyətli, hətta xaindir. Əzim Əsgəri 6 iyul 1957-ci il tarixdə Xosrovu ələ verir. Nəticə olaraq Xosrov kasıb daxmasından uzaqlaşmaq məcburiyyətində qalır, sonda yaralı halda ələ keçirilir, gözünü tək hücrəli kalonda açır.

Onun iradəsini qırmağa çalışırlar, olmazın işgəncələr verirlər. Psixoloji, fiziki təsirlə onun "dilini açmağa" çalışırlar. Hətta onun paltarlarını alırlar, müxtəlif işgəncələrə məruz qoyurlar. Müstəntiqlə uzun görüşlərdən müəyyən məqamlar verilir. Bu səhnələrdə onun mətanətinin şahidi oluruq. Müstəntiq onu casusluq etməyə sövq etsə də dəyişən bir şey olmur. Çünki, o, yolunda əmindir, ölməyə hazırdır. Xosrov casusluqdansa ölümü üstün tutur, marksistliyi ilə fəxr etdiyini deyir. Qeyd edək ki, xalq qəhrəmanı Xosrov Ruzbehin mübarizə yolunu əks etdirən əsərdə əslində bir də Xosrov-Afaq məhəbbət xətti vardır. Düzdür bəzən inqilabi ideyaların arxasında qalsa da bu məhəbbət ülviyyəti, sədaqəti ilə rəğbətə layiqdir. Yazıçı Xosrovun dünyasında sevginin yerini ən təsirli detallarla ifadə edir: "Ağır işlərdən, gizli həyatın və gizli inqilabi işin daimi həyəcanlarla dolu qayğılarından azad olan kimi Afaq işıqlı bir səadət heykəli kimi qəlib durardu qabağında..." [5, s. 172]. Zindana düşən, ölümün pəncəsində olan Xosrovu Afaq son anda belə unutmur, zindanda onu görməyə gəlir, ölüm məhkumu olduğunu bilsə də onunla kabininin kəsilməsini istəyir. Afaq əvvəl məhəbbətinə, sonra Xosrova və inqilabi hərəkata münasibətində "obrazını kamilləşdirir".

Əsər, eləcə də Mirzə İbrahimov yaradıcılığının tədqiqatçısı, ədəbiyyatşünas Abbas Hacıyev povest haqqında yazır: "O, povestdə həm incə, sarsıdıcı psixoloji boyalardan, həm də odlu bədii publisistikadan istifadə edir" [4, s. 42].

Əsərin sonunda müəllifin xüsusi emosiya ilə təsvir etdiyi səhnə Xosrovu obraz olaraq oxucu gözündə ucaldır, əbədiləşdirir. "...Xosrov Ruzbehi öldürmək olar. Şücaət və igidliyi, namus və vətənpərvərliyi, insanpərvərlik və fədakarlığı isə heç vaxt İran xalqının ürəyindən silib çıxarmaq olmaz. Mənə yas saxlamayın, mənim əzizlərim. Məndən arxayın olun, edam dəqiqəsində də, Xosrov Ruzbeh qorxu nə olduğunu bilməyəcək. Canan eşq ilə yaşayan sədaqətli aşiqdirsə edam günündə gözünü qırpmamalıdır..." [5, s. 194]. Qeyd edək ki, əsər sovet dövründə qələmə alınmışdır və sözsüz ki, sosialist ideologiyasının təsiri danılmazdır. Qəhrəman mübarizdir, dönməzdir, cəsurdur və ömrünün sonuna qədər idealına xəyanət etmir. Bu xüsusiyyət onun qəhrəmanlıq missiyasının tərkib hissəsidir. Amma bir də həyat, həyati reallıqlar vardır. Ölüm "həqq"dir, deyilib. Xosrov insan olaraq ölümə daha yaxındır, yaxud özünü bu məqamda görür. Povestin mətnindən də görüldüyü kimi Xosrov ölümü sanki arzulayır. Bu müəllif düşüncəsindən gəlsə belə "Vətən üçün ölməkdənsə vətən üçün yaşamaq, daha çox xidmət etmək" ideyası "qəhrəman" üçün daha məqbul düşüncədir fikrimizcə.

Azərbaycan nəsrinin görkəmli simalarından biri də Süleyman Rəhimovdur. Süleyman Rəhimovun yaradıcılığında tarixi mövzulu povestlərin xüsusi rolu vardır. Bu mənada Süleyman Rəhimovun maraqlı povestlərindən biri də "Məhtaban"dır. Povest haqqında ədəbiyyatşünas Nurlana Əliyeva yazır: "Bu əsər yazıçının 1970-ci illərdə sosialist realizmi qəliblərindən çıxmaq, ümumbəşəri mövzulara toxunmaq cəhdlərinin nəticəsi idi" [3, s. 212]. Povest Süleyman Rəhimov yaradıcılığında ənənəviləşən cənub mövzusunda qələmə alınmışdır. Elə povestin əvvəlində də əsəri müəllif Balaş Azəroğlu və Mədinə Gülçinə ithaf etdiyini oxuyuruq. Povestdə hadisələr Xiyabani hərəkatının başlanmasından az əvvələ təsadüf edir. Cənubi Azərbaycanda xanlıqlar arasındakı münasibətlər, çəkişmələr, güc, hakimiyyət, mənəmlik, torpaq ehtiraslarının kor etdiyi xanların acınacaqlı vəziyyəti bədii boyalarla təsvir edilir. Ərdaha xanı Məmalik, onun qızının qayınatası, uzun illər aralarında çəkişmələr gedən, qızını oğluna verdikdən sonra münasibətləri yaxşılaşmış kimi görünən "Çalbığ Hülakü" xan, bir zamanlar xanlığın sadiq, cürətli, qüvvətli pəhləvanı olan Pəhləvan Məhəmmədin ölümündən sonra kimsəsiz qaldığı üçün Məmalik xanın himayəsinə aldığı Məhtaban və digər yardımçı obrazların iştirakı ilə qurulan süjetdə Məhtabanın acınacaqlı həyatı, iztirabları, mənəvi sıxıntıları, kimsəsizliyi

daha səlis boyalarla qələmə alınır. Məmalik xanın ilk əvvəllərdəki etinasızlığı, qızı Ərmağanın xanlığa varis gələ bilər deyə qəbul etmədiyi Məhtaban, dolayısıyla Məmalikin ölümündən sonra xanlığın nəvəsinə, Məmalikin qız nəvəsinə qalması üçün planlar quran Hulakü xanın oyunları müqabilində yaranan mürəkkəb situasiya özlüyündə dövr haqqında çoxsaylı informasiyalar verir, bir çox mətləblərin aydınlaşmasına səbəb olur. Bir zamanlar Pəhləvan Məhəmmədin qorxusundan quşların qanad saxlamadığı evə indi Məmalik xan rüsxətsiz girir, göz qoyduğu Məhtabanın məhrəminə girir və daha sonra özünə oğlan varis axtarışı ilə Məhtabanla kəbin kəsdirməsi hadisələri yeni məcraya sürükləyir. Ər-arvad olmalarına rəğmən aralarındakı yaş fərqi, baxış bucağı, fərqli dünyagörüşü, düşüncə onlar arasındakı uçurumları azaltdıqca Məhtaban yüklənir, xanlığa oğlan varis gələcəyi ümidi Məmalik xanın xarakterində çox şeylərin dəyişməsinə səbəb olur. Şirinin məhəbbəti ilə xarakter dəyişiminə məruz qalan Xosrovla müqayisədə Məmalik daha ziddiyyətlidir, mənsəbpərəstlik girdabında boğulandır. Şirinlə müqayisədə Məhtaban daha mütidir, mübariz deyil, iradəsizdir, asanlıqla tabe olandır, sadəcə mənəvi dünyası, daxili təmizliyi, paklığı ilə təsir gücü yaradır. Məmalik öz iradəsi ilə Məhtabana tabe olur. Məhtaban iztirabları ilə ucalır, mənəvi sıxıntıları, əlacsızlığı ilə böyüyür. Oğlu olur, sonra öldürülməsi ilə ziddiyyətlər daha da gərginləşir. Ərmağan öz daxili ziddiyyəti ilə, öz atasına münasibəti ilə ikrah hissi doğurduğu kimi oğlu, əri, qaynatası ilə münasibətləri ilə də mürəkkəb psixoloji vəziyyətini sərgiləyir. Yazıçı isə onun davranışlarında, psixologiyasındakı pozuntuları daxili "mən"i ilə birgə açmağa çalışır.

Əsərdə diqqəti cəlb edən məqamlar içərisində mətn daxilində verilən informasiyalar nəticəsində dövr haqqında yaranan bitkin fikir, dolğun mənzərə maraq kəsb edir. XX əsrin əvvəllərі İran-Cənubi Azərbaycan mühitində hakimiyyətlərarası çəkişmələr, köhnə idarəçilik sistemi və bunun gətirdiyi bəlalar haqqında qənaəti yazıçı oxucunun öhdəsinə buraxmaqla maraqlı gediş edir. Pəhləvan Məhəmməd Sərdari-milli Səttarxanın dəstəsində Qacarlara qarşı vuruşmuşdur. Pəhləvan Məhəmmədin xidmətlərinin müqabilində sadə xalq kütlələrinin onu unutmaması, sonda Məhtabanın Xiyabani hərəkatının alovlandığı dövrdə yatmış ocaqlarda, "papaq altındakı qəhrəmanlar"la birliyi, əslində isə sistemə qarşı mübarizəsi diqqət mərkəzinə çəkilir. Əsərdən oxuyuruq ki, Pəhləvan Məhəmməd Sərdari Milliyədə Qacar qoşunlarına qarşı vuruşmuşdur. Bu informasiya yarımçıqlığı ilə diqqəti cəlb etdiyi kimi Məhtabanın övladının tərbiyəçisinin xaricdən gətirilməsi faktı da özlüyündə İranda Qərb sisteminə maraqdan, qərbin buraya ayaq açdığından xəbər verir. Bu kimi faktların timsalında onu da deyək ki, əsərdə yazıçı diqqətsizliyindən olsa gərəkdir ki, müəyyən çatışmazlıqlar da vardır. Məsələn, povestin 125-ci səhifədə Ərdahanın gah qonaqlığa gəlmədiyi yazılır, gah qonaqlıqda təsvir edilir. Yaxud "Məhtaban daha ağlamayanda da ağlayır" [10, s. 116] kimi ifadə emosional təsir gücü daşıyır, amma informasiya yarımçıqdır, yaxud yazıçı fikri cilalamayıbdır. "Çalbığ Hülaku"nün Məmalikin xanlığını əlindən almaq istəyi və bununla bağlı niyyəti o qədər təkrar olunur ki, oxucunu usandıra bilir. Bütün bunlarla birlikdə Süleyman Rəhimov qəhrəmanını bu cür qaranlıq mühitin içərisindən aydınlığa, mübarizələrlə dolu bir sabaha çıxarır və əsas kimi Xiyabani hərəkatının alovlanması verilir. Artıq müti, çarəsiz, iradəsiz kimi bildiyimiz Məhtaban Sərdari-milliyədə Səttarxanın sağ əlidir. Oxucu bununla aydın sabahlara ümidlə baxmağı öyrənir. Nəticə olaraq gözəl olsa da yazıçı bunu sovet gerçəkliyi üzərindən, sovet ideologiyasının diktəsinə uyğun şəkildə gerçəkləşdirir.

Qeyd edək ki, Süleyman Rəhimovun "Məhtaban" povesti bütünlükdə Cənubi Azərbaycanın xanlıqları, buradakı ictimai-siyasi, ədəbi-mədəni həyat, sosial vəziyyət haqqında çoxsaylı informasiyalar verir və bunun da kökündə yazıçı kimliyi durur desək yanılmarıq. Əsəri "nağıl povest" kimi dəyərləndirən ədəbiyyatşünas Nurlana Əliyevanın

da qeyd etdiyi kimi povestdə folklor motivlərindən təsirlənmə çox güclü şəkildədir. Belə ki, əsərdə dövrün sosial mənzərəsi dolğunluqla əks etdirilir, ailə, mənəvi yaşam şərtləri, dəyərlər sistemi, xalq yaddaşına bağlılıq, milli adət-ənənələrin yaşadılması baxımında süjetdə əksini tapan məqamlar diqqəti cəlb edəndir. Belə ki, yazıçı xanla Məhtaban arasında yaş fərqini təsvir edərkən el dilində hələ də özünü qoruyan bir məsəldən istifadə edir: "papağınla vur, yıxılmadı, qız sənindir" [10, s. 21]. Məhtabana Məmalik xanın dediyi "Qız, eşq-məhəbbətə sərhəd-sünür yoxdur!" [10, s. 9] sözlər maraqlı olduğu kimi "sünür" komponentinin dialekt söz kimi məna ifadəsi də maraq doğurur. Bir başqa məqama diqqət yetirək. Dəqqilbab etmək, yəni qapını döymək kimi maraqlı dil faktının əsərdə yer alması da maraqlıdır ona görə ki, bu gün Naxçıvan ərazisində – Ordubad rayonunun bir qisim kəndlərində darvaza qapısını döymək üçün asılan döyəcədəmirə dəqqilbab deyilir və bu ifadələrin eyniyyəti dialektlərdə yaşayan sözün bir mərkəzdən gəlməsinə dəlalət edir. Bu sırada Cənubi Azərbaycanda el adətləri, mərasimlərin keçirilmə şəkli, ayinlər və bütün bunların qədim adətlərimizin daşıyıcısı olması, yaşadılması faktorunu diqqət mərkəzinə çəkməklə yazıçı sözlə deyə bilmədiklərini deyir.

Əsərin zəngin obrazlar qalereyası vardır. Ərmağanın oğlu Ərşad, onun ucbatından öldürülən xidmətçi Xədicə, xaricdən gəlmiş tərbiyəçi və digər obrazlar hadisələrin açılışında önəmli rol oynamaqla yanaşı yazıçının bütün ciddi-cəhdlə yaratmağa çalışdığı mühitin iç üzünün açılmasında əhəmiyyətli dərəcədə rol oynayır.

Sonda Məhtabanın acınacaqlı taleyi fonunda izlənilən süjet oxucunu işıqlı sabaha səsləyir. Bu işıq əsərin yazıldığı dövr üçün daha parlaqdır. Əsərin ideyası ilə əsərin yazıldığı dövrün siyasi mühiti arasında paralellik görən ədəbiyyatşünas Nurlana Əliyeva yazır: "Əsərdə qoca xanın öz ata mülkündə həyata keçirdiyi yeniliklər 1960-cı illərdə Stalin tərəfdarları ilə reforma (islahat) tərəfdarları arasındakı mübarizələri xatırladır" [3, s. 213].

Bütün bu müsbət keyfiyyətləri, çatışmazlıqları ilə birlikdə Süleyman Rəhimovun "Məhtaban" tarixi povesti janrın uğurlu nümunəsidir ona görə ki, XX əsrin əvvəlləri Cənubi Azərbaycan həyatı haqqında dolğun informasiya verir, dövr, mühit haqqında bitkin fikir formalaşdırır, xalq yaddaşından, el mərasim və adətlərindən, zəngin dil faktlarından məharətlə istifadə olunur, təsvir və ifadə vasitələrinin əlvanlığı ilə diqqəti cəlb edir, janr qarşısında ədəbiyyatşünaslığın qoyduğu tələblər əsasən gözlənilir. Yazıldığı dövr üçün böyük missiyaları yerinə yetirmək iqtidarında olan "Məhtaban" povesti Azərbaycan ədəbiyyatının gerçəkliyi, tarixi nəsrin uğurlu nümunəsidir.

ƏDƏBİYYAT

1. Əhmədov T. Azərbaycan yazıçıları XX-XXI yüzillikdə. Bakı, 2011.
2. Əliyev F. Mirzə İbrahimov və xalq yaradıcılığı. Bakı: Elm və təhsil, 2013, 160 s.
3. Əliyeva N. Sovet dövrü Azərbaycan ədəbiyyatı. (1941-1991). Bakı: Elm və təhsil, 2013, 664 s.
4. Hacıyev A. Mirzə İbrahimov. Bakı: Yazıçı, 1982, 207 s.
5. İbrahimov M. Pərvizin həyatı. Fırtına quşu. Bakı: Gənclik, 1981, s. 135-197.
6. İbrahimov M. Ədəbi qeydlər. Bakı: Azərnəşr, 1970, 299 s.
7. Qasımov H. Ustad sənətkarın şah əsəri. http://karabakhmedia.az/main/489-suleyman-rehimov-115-ustad-senetkarin-shah-eseri.html
8. Müasir Azərbaycan ədəbiyyatı. I c., Bakı, 2007.
9. Seyidov Y. Süleyman Rəhimov. Bakı: Azərnəşr, 1971, 201 s.
10. Rəhimov S. Seçilmiş əsərlər: 2 cilddə, I c., Məhtaban. Bakı: Şərq-Qərb, 2005, 288 s., s. 15-153.

Али Гашимов

ДВЕ ИСТОРИЧЕСКИЕ ПОВЕСТИ ОБ ОСВОБОДИТЕЛЬНОМ ДВИЖЕНИИ

В статье расказывается о творческом пути выдающихся представителей азербайджанской прозы – Мирзы Ибрагимова и Сулеймана Рагимова, уделено внимание моментам разработки южной темы в их творчестве. Также привлечены к исследованию моменты художественного отражения жизни Южного Азербайджана, освободительного движения в исторических повестях «Буревестник» М.Ибрагимова и «Махтабан» С.Рагимова. Отмечено, что в обеих повестях рассказывается об освободительном движении, о жизни Южного Азербайджана, дана полная информация об этом периоде.

Ключевые слова: *М.Ибрагимов, С.Рагимов, «Буревестник», «Махтабан», историческая повесть, свобода.*

Ali Hashimov

TWO HISTORICAL NOVELLAS ABOUT THE LIBERATION MOVEMENT

The paper shows the creative path of the outstanding representatives of Azerbaijani prose – Mirza Ibrahimov and Suleiman Ragimov, paid attention to the moments of the development of the southern theme in their work. Also, the moments of artistic reflection of the life of Southern Azerbaijan, the liberation movement in the historical stories – "Stormy petrel" of M.Ibrahimov and "Makhtaban" of S.Rahimov are also brought to the study. It is noted that both stories tell about the liberation movement, about the life of South Azerbaijan, full information about this period is given.

Keywords: *M.Ibrahimov, S.Rahimov, "Stormy Petrel", "Makhtaban", historical novella, freedom.*

(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2018, № 1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2018, № 1

PROCEEDINGS OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES NAKHCHIVAN BRANCH OFFICE
The series of social sciences and humanities, 2018, № 1

İNCƏSƏNƏT

ƏLİ QƏHRƏMANOV
AMEA Naxçıvan Bölməsi
E-mail: a.qehremanov@yahoo.com

NAXÇIVAN TEATRININ AKTYORU VƏ REJİSSORU İSA MUSAYEV

Məqalədə Azərbaycan Respublikasının xalq artisti İsa Həsən oğlu Musayevin həyat və səhnə yaradıcılığından bəhs olunur. Sənətkarın Naxçıvan səhnəsində yaratdığı obrazlar və quruluş verdiyi tamaşalar işıqlandırılmaqla, Qubа Dövlət Dram Teatrındakı (1941-1943) fəaliyyəti də təhlil olunur. Onun İkinci Dünya Müharibəsi illərində hərbi hissələrdə əsgərlər qarşısında göstərdiyi vətənpərvərlik ruhlu tamaşalar ətraflı şəkildə əks olunur.

Açar sözlər: *İsa Musayev, teatr, aktyor, rejissor, tamaşa.*

Azərbaycan mədəniyyətinin qədim ocaqlarından biri olan Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı zəngin yaradıcılıq yolu keçib. Naxçıvanı Azərbaycanın digər bölgələri ilə müqayisə etsək görərik ki, XIX əsrdə burada təhsil və maarifçilik nisbətən inkişaf etmişdir. O dövrdə məktəbi bitirənlərdən bir qismi – Eynəli bəy Sultanov, Cəlil Məmmədquluzadə, Qurbanəli Şərifzadə, Məmmədtağı Sidqi, Mirzə Əliməmməd Xəlilov, Nəsrulla Şeyxov, Cümşüd Paşa ağa Sultanov, Mirzə Ələkbər Süleymanov, Mirzə Məhəmməd Zamanbəyov, Baxşəli ağa Şahtaxtlı və başqaları Qori Müəllimlər Seminariyasında və Peterburqun, Moskvanın, Odessanın, Parisin ali məktəblərində təhsil alırdılar. Maraqlı cəhət odur ki, həmin ziyalılar sonradan Naxçıvana qayıdaraq burada maarifçiliyin genişlənməsində, xalqın tərəqqisində böyük işlər görür, öz işıqlı ideyalarının təbliği üçün müxtəlif tədbirlərin həyata keçirilməsi uğrunda çarpışırdılar. Məhz bu ziyalıların işıqlı təfəkkürü və təşəbbüsü sayəsində Naxçıvanda ilk növbədə kitabxana açılır, tamaşa göstərilir.

O zaman xüsusi teatr binası olmadığından bu millət fədailəri hazırladıqları tamaşaları xeyirxah və tərəqqipərvər insanların evində göstərirdilər. O zaman deputat Hacı Nəcəf Zeynalov böyük məmnuniyyətlə öz mülkündəki böyük bir zalı tamaşa hazırlamaq üçün həmin ziyalıların ixtiyarına verdi. Teatr həvəskarları tamaşaçı toplamaq üçün afişa yazaraq insanların daha çox yığışdıqları yerlərdə divarlara vururdular. Beləliklə, Naxçıvanda ilk teatr tamaşası Hacı Nəcəf Zeynalovun evində start götürdü. Naxçıvanda 1883-cü ildə ilk oynanılan tamaşa Mirzə Fətəli Axundzadənin "Müsyö Jordan və Dərviş Məstəli şah" komediyası idi. Bu tamaşada rolları Qori Müəllimlər Seminariyasının məzunları, müəllimlər, şəhərin tanınmış ziyalıları oynayırlar. Beləliklə də, Naxçıvan teatrının təşəkkülü başladı. Naxçıvan ziyalılarının açıq fikirli və cəsarətli addımları sayəsində oynanılan ilk tamaşa bir sıra xurafat sahiblərini çox qəmgin etdi. Teatrın ilk fədakarı, yazıçı, publisist, ictimai xadim olan vətənpərvər Eynəli bəy Sultanov isə uzun illər bu mühüm vəzifəni çiyinlərinə götürərək yeri düşəndə teatr tamaşalarına böyük məharətlə re-

jissorluq edir, teatr prosesini nəzarəçarpacaq dərəcədə gücləndirirdi. Məhz onun xidmətləri sayəsində Naxçıvanda müxtəlif ədəbi məclislər, dram cəmiyyətləri yaradılırdı. Naxçıvanın qeyrətli, vətənpərvər, millətsevər oğullarının sayəsində XIX əsrin sonlarına kimi teatrının fəal üzvlərinin sırası da genişləndi.

Azərbaycan teatrının mühüm qollarından birini təşkil edən, zəngin tarixə malik Naxçıvan teatrının salnaməsinə nəzər salanda Rza İsfəndiyarlı, Mirhəsən Mirişli, Səməd Mövləvi, Əyyub Haqverdiyev, İbrahim Həmzəyev, Xədicə Qazıyeva, Firuzə Əlixanova, Zəroş Həmzəyeva, Zemfira Əliyeva, Sofya Hüseynova, Roza Cəfərxanova, Sona Mirzəyeva, Məmməd Quliyev, Əkbər Qardaşbəyov, Baxşı Qələndərli, Aydın Şahsuvarov, Vəli Babayev, Məmməd Qasımov, Yuran Məmmədov kimi bir çox istedadlı rejissor, aktyor və rəssamların bu ulu mədəniyyət ocağında fəaliyyət göstərdiyinin şahidi oluruq. Bu istedadlı sənətkarlardan biri də vaxtilə Naxçıvan teatrında öz dəsti-xətti olan, maraqlı rolları ilə yadda qalan, tamaşaçı rəğbəti qazanan və peşəsinin ağırlığını məsuliyyətlə hiss edən sənətkar, respublikanın xalq artisti, ötən il anadan olmasının 105 illiyi tamam olan aktyor və rejissor, mərhum İsa Həsən oğlu Musayevdir. Bu istedadlı sənətkar 1912-ci ilin 25 noyabrında Naxçıvan şəhərində anadan olmuşdur. 8 yaşında şəhər məktəbinə daxil olan İsa Musayev həmin məktəbi müvəffəqiyyətlə bitirib Naxçıvan Pedaqoji Texnikumuna daxil olur.

O, mənim yaddaşımda ağsaqqal, müdrik, mehriban bir insan kimi qalıb. Elə bilmişəm ki, o, elə bu cür də dünyaya gəlib. Cavanlar tanımaz, orta və yaşlı nəsil isə, yəqin ki, hələ unutmayıb İsa Musayevi. O, Naxçıvan teatrının bənzərsiz aktyoru və rejissoru olmaqla, gözəl insan idi. İsa Musayev bir aktyor kimi ömrü boyu səhnədə oynamışdı, bəyənilmişdi.

Azərbaycanın görkəmli sənətkarları Abbas Mirzə Şərifzadə, Sidqi Ruhulla, Mərziyə Davudova və Hacıağa Abbasov 1920-ci illərdə Naxçıvanda qastrolda olarkən onların sənətkarlığı uşaqlıqdan yaradıcılıq işinə rəğbət bəsləyən İsa Musayevi valeh edir. İsa Musayev Naxçıvan Pedaqoji Texnikumunda təhsil alarkən səhnə sənətinə daha çox maraq göstərir. O, texnikumun nəzdində dram dərnəyi təşkil edərək kiçik pyeslər və konsertlər hazırlayıb tələbələri bədii yaradıcılıq işinə cəlb etməklə, şəhərdəki komsomol klubunda da fəal iştirak edir. İstedadlı aktyorun həmyaşıdı Qasım Tağıyev yazırdı ki, 1924-cü ilin payızında Naxçıvan şəhərində bir sıra pioner dəstələri yaradılmışdı. İsa Musayev isə Paris Kommunası adına dəstənin üzvü idi. O vaxt şəhərimizdə pioner evi olmasa da, biz komsomol klubunda tez-tez tədbirlər keçirirdik. İ.Musayev bədii özfəaliyyət dərnəyinin ən fəal üzvü idi... 1925-ci ildə Səməd ağa Ağamalıoğlu, Həmid Sultanov və digərləri Naxçıvana gəlmişdilər. Bu münasibətlə keçirilən tantənəli yığıncağın sonunda pionerlər çıxış etdilər. İsa Musayevin həmin konsertdəki çıxışını yaxşı xatırlayıram. O, dönə-dönə alqışlanıb, səhnəyə dəvət olundu. Səməd ağa Ağamalıoğlu pionerlər dərnəyinin mükafatlandırılması haqqında sərəncam verdi.

İsa Musayevin istedadını görən teatrın kollektivi 1927-ci ildə onu teatra dəvət edir. O, çox gənc ikən – 15 yaşında teatrda fəaliyyətə başlayır və ilk çıxışı Rza İsfəndiyarlının rejissorluğu ilə tamaşaya qoyulan Hacağa Abbasovun "Sabirin məhkəməsi" pyesində Sabir rolu ilə başlayır. O gündən etibarən İ.Musayev ömrünü teatra bağlayır, yaradıcılıq yollarında inamla addımlayır və şöhrətlənir.

Aktyorluq həvəsi onu pedaqoji texnikumu bitirməyə imkan vermir. O, Bakı şəhərinə Azərbaycan Dövlət Teatr Texnikumuna oxumağa gedir. Teatr texnikumunda oxuduğu müddətdə Azərbaycanın görkəmli sənətkarı Abbasmirzə Şərifzadənin sənəti bir daha onu valeh edir, teatra olan həvəsi daha da qüvvətlənir. İstedadlı aktyor Abbasmirzə Şərifzadə haqqında xatirələrində yazır: "Yaxşı yadımdadır. 1928-ci ildə Azərbaycan

xalqı Abbasmirzə Şərifzadənin səhnə fəaliyyətinin 20 illik yubileyini təntənə ilə keçirirdi. Mən yubiley günlərindən ilham alaraq, o zaman böyük ustad Abbas Mirzəyə vuruldum" [1, s. 107].

İki il teatr texnikumunda oxuduqdan sonra gənc Musayev 1929-cu ildə Naxçıvana qayıdır. Naxçıvan Dövlət Dram Teatrında fəaliyyətini davam etdirir. O, teatrda aktyorluq etməklə yanaşı siyasi və elmi biliyini artırmaq məqsədi ilə 1930-cu ildə Naxçıvan şəhərindəki iki illik partiya məktəbinə daxil olur. 1932-ci ildə həmin məktəbi bitirir. O, teatr və ədəbiyyatın təbliği istiqamətində yorulmaq bilmədən çalışır.

Hər teatr mövsümündə yeni-yeni axtarışlar aparan və gecə-gündüz rol üzərində yorulmaq bilmədən çalışan İ.Musayev bir sıra mühüm və mürəkkəb obrazların mahir ifaçısı olmuşdur. O, Şəmsəddin Saminin "Dəmirçi Gavə" əsərində Gavə, Əbdürrəhim bəy Haqverdiyevin "Köhnə dudman" pyesində Pərviz xan, "Dağılan tifaq" da Nəcəf bəy, "Bəxtsiz cavan"da Fərhad, Cəlil Məmmədquluzadənin "Ölülər" əsərində İsgəndər, Hüseyn Cavidin "Şeyx Sənan"ında Şeyx Sənan, Cəfər Cabbarlının "1905-ci ildə", "Oqtay Eloğlu", "Aydın", "Od gəlini" dramlarında Eyvaz, Əsriyan, Oktay, Aydın, Elxan və s. obrazlarını səhnədə çox böyük coşqunluq və məharətlə oynamışdır. Yaradıcılığının ilk illərində aktyorun səhnəmizdə yaratdığı unudulmaz obrazlardan biri də C.Cabbarlının "Od gəlini" pyesindəki Elxan surətidir. Görkəmli rejissor Yusif Vəlidzın (1938) hazırladığı bu tamaşa Naxçıvan teatrının tarixində xüsusi yer tutur. Bu əsərin qəhrəmanı Elxan İslam dininə və bütün dinlərə qarşı üsyan səsini qaldırır, din və mövhumatın hökm sürdüyü, quranla qılıncın birgə ağalıq etdiyi mühitdə "yoxdur Allah!" deyən qulları və yoxsulları zülmkarlara qarşı ümumxalq hərəkatına qaldırır, dinin yerli istismarçılar və yadelli işğalçılar əlində bir alət olduğunu cəsarətlə söyləyir. Bu mürəkkəb və əzəmətli surəti – Elxan surətini böyük iradəyə, aydın məsləkə, gözəl insani keyfiyyətlərə malik bir şəxsiyyət kimi səhnədə məharətlə canlandırır [2].

Həmin illərdə Naxçıvan teatrı ilə daim təmasda olan Sidqi Ruhulla bu teatrla əlaqəni daha da genişləndirir. 1930-cu ildə o, Naxçıvan teatrına direktor və bədii rəhbər vəzifəsinə göndərilir. Görkəmli səhnə ustası 1933-cü ilə kimi Naxçıvan teatrının realist sənət yolu ilə inkişaf etməsi uğrunda böyük əmək sərf edir.

O zaman Naxçıvan teatrı dünya ədəbiyyatı incilərinə tez-tez müraciət edirdi. 1930-1931-ci il teatr mövsümündə Şillerin "Qaçaqlar" əsəri teatrın repertuarına salınır [5, s. 121]. Əsər tamaşaya qoyularkən rejissor Sidqi Ruhulla Karl Mor surətini İ.Musayevə tapşırır. Müəllif fikrini olduğu kimi duymaq, olduğu kimi tamaşaçıya çatdırmaq aktyordan böyük məharət tələb edir. Rejissoru, dramaturqu dərindən duyan, onların qarşıya qoyduqları məqsədi, ideyanı səhnədə gözəl təcəssüm etdirən sənətkar Karl Mor obrazını S.Ruhullanın göstərişi və köməkliyi sayəsində həyati boyalarla tamaşaçılara çatdırır. Bu, o deməkdir ki, aktyor da dramaturqun təsvir etdiyi aləmdə onunla birgə yaşayır. O da hadisələri, xarakterləri müəllifin gözü ilə görür, dərk edir.

1932-ci ildə S.Ruhullanın rejissorluğu ilə Vilyam Şeksprin "Otello" faciəsi tamaşaya qoyulur [13, v. 41]. Bu tamaşada Otello rolunda çıxış etmək Musayevə nəsib olur. Bu obrazı yaratmaq onun üçün əsl imtahan idi. Çünki tamaşada şər qüvvələri təmsil edən Yaqo obrazını S.Ruhulla oynayırdı. S.Ruhullanın qarşısında Otello obrazını bütün məziyyətləri ilə canlandırmaq aktyordan böyük məharət və ustalıq tələb edirdi. S.Ruhullanın köməkliyi sayəsində istedadlı aktyor Musayev faciənin səhnə ifası sahəsində qabaqcıl teatrların gözəl ənənələrini, sənətkarların zəngin təcrübələrini diqqətlə öyrəndi, qəhrəmanın ruhi aləminə nüfuz etdi və gərgin zəhməti sayəsində məqsədinə nail oldu. Buna görə də onun oyunu tamaşaçıları heyrətə salmışdı.

Aktyor özü bu tamaşa haqqında yazırdı: "1932-ci ildə görkəmli sənətkar S.Ruhullanın rəhbərliyi ilə V.Şeksprin "Otello" faciəsi tamaşaya hazırlanırdı. Mənə Otello rolu tapşırılmışdı. Mən bu rol üzərində ciddi çalışırdım. S.Ruhulla mənə çox qayğı göstərir, kömək edirdi. Bu zaman Abbas Mirzə Naxçıvanda qastrol tamaşaları verirdi. O, bizim məşqlərə gəlirdi. Mən çox həyəcan keçiridim. İstəyirdim Otellonu Abbas Mirzə oynasın. Lakin o buna razı olmayıb dedi ki, ilk tamaşanı sən özün oynamalısan. Sənə nə lazımdırsa kömək edəcəyik. Baş məşq zamanı mən özüm bilmədən balışı dişimlə götürüb tulladım. Balış havada yırtıldı. İçindəki saman mənim saçlarımın üstünə töküldü. Abbas Mirzə bu işin üstündə məni məzəmmət etdi. Əgər Otellonun balışı Qu tükündən olmuş olsaydı, bunu etmək olardı – dedi. Madam ki, balışa saman doldurulub bu hərəkət lazım deyil. Mən sevimli ustadımın dediyi kimi etdim. İlk tamaşadan bir neçə gün sonra "Otello"nu Abbasmirzənin Şərifzadənin iştirakı ilə oynadıq. Tamaşa böyük müvəffəqiyyətlə keçdi" [1, s. 108-109]. Musayev Naxçıvan teatrının səhnəsində Otello obrazını təkcə Sidqi Ruhullanın rejissorluğu ilə yox, Yusif Yıldız, Həsən Ağayev, İbrahim Həmzəyev və Səməd Mövlənin rejissorluğu ilə də dəfələrlə yaratmışdır.

O dövrdə yerli mətbuat səhifələrində tamaşalar və aktyorlar barədə tez-tez yazılar dərc olunurdu. 1933-cü ildə yazıçı Mirzə İbrahimov Naxçıvan Maşın-Traktor Stansiyası siyasi şöbəsinin "Sürət" adlı qəzetinə redaktor göndərilir. Yazıçı Əli Vəliyev isə "Şərq qapısı" qəzetinin redaktoru təyin edilir. Onların Naxçıvana gəlişi teatrla mətbuatın əlaqəsini daha da möhkəmləndirir. Hər iki yazıçının teatrın inkişafında mühüm rolu oldu. M.İbrahimov teatra kömək məqsədi ilə bir sıra işlər gördü. O, Azərbaycan teatrı tarixinə və aktyor sənətinə dair söhbətlər aparır, məruzələr edirdi. Məruzələrində şəhər ziyalılarını teatr ətrafında birləşdirmək və mətbuatın rolunu artırmaq məsələlərini irəli sürürdü. M.İbrahimov Naxçıvanda işləyərkən orada olan hadisələrin canlı şahidi idi. Bu hadisələr "Həyat" pyesinin yazılmasında əsas oldu [3, s. 239]. M.İbrahimov ilk dram əsəri olan "Həyat" pyesini Naxçıvanda yazdı. 1935-ci ildə Naxçıvan teatrında pyesin oxunuşu oldu [7, s. 249]. Görkəmli dramaturq Mirzə İbrahimov yaradıcılığının ilk dövründə Naxçıvanda işlədiyi illəri xatırlayarkən, İsa Musayevin də adını istedadlı və işgüzar bir aktyor kimi hörmətlə qeyd edirdi.

Geniş yaradıcılıq diapazonuna malik olan İ.Musayev səhnəmizdə müsbət xarakterli obrazlar kimi mənfi obrazları da eyni ustalıqla yaratmışdır. Bu cəhətdən onun "Həyat" pyesində oynadığı Süleyman rolu xüsusi ilə diqqəti cəlb edirdi [17, v. 127]. Görkəmli aktyor öz mənfi qəhrəmanı Süleymanın surətini dərindən duyaraq onun riyakar və xain təbiətini, qəddar və mənfur məqsədini böyük bir ustalıqla səhnədə canlandırır. Aktyor Süleymanın sözlərinə bütün tamaşa boyu xüsusi bir ahəng verir. O, ayrı-ayrı dialoqları, onların sözaltı mənasını çox ustalıqla şərh edir. Buna görə də Süleymanın – İ.Musayevin hərəkətləri kimi sözləri də tamaşaçıların qəlbinə vahimə salırdı.

Real həyat materialları əsasında yaranan "Həyat" pyesinin təsir qüvvəsi böyük idi. Tamaşa haqqında Nəcəf Quliyev yazırdı: "Əsər tamaşaya qoyulanda tamaşaçılar ona xüsusi maraq göstərirdilər. Onlar bu və ya digər surəti səhnədə görən kimi "bu filankəsdir", "bu da filankəsdir" – deyirmişlər" [4, s. 58]. "Həyat" tamaşası adamların ən yaxşı sifətlərini, yaradıcı qüvvələrini, səmərəli əməyini, şən və xoşbəxt gənclərini göstərməklə yanaşı, düşmənlərinə qarşı ayıq və amansız olmağa çağırırdı. Bu görkəmli sənətkar 1937-ci ildən başlayaraq Naxçıvan teatrında rejissorluq edir. Azərbaycan dramaturgiyasının banisi Mirzə Fətəli Axundzadənin anadan olmasının 125 illik yubileyi Naxçıvanda 1938-ci ilin mart ayının 5-də təntənə ilə keçirilir. Yubiley münasibəti ilə teatra böyük mütəfəkkirin adı verilir [14, v. 1]. İ.Musayevin rejissorluğu ilə M.F.Axundzadənin "Hacı Qara" pyesi tamaşaya qoyulur. Bu tamaşada rejissor pyesin bütün zənginliyini, daxili mənasını, bəşəri keyfiyyətlərini açmağa nail olur. Qeyd etmək yerinə düşərdi

ki, Azərbaycan komediyasının şah əsərlərindən biri olan "Hacı Qara" 1971-ci ildə 33 illik fasilədən sonra rejissor Baxşı Qələndərlinin quruluşunda, rəssam Yurist (Yuran) Məmmədovun bədii tərtibatında yenidən tamaşaya qoyulur. Tamaşa haqqında filologiya elmləri doktoru, professor Abbas Zamanov yazır: "Mən İsa Musayevi bir aktyor kimi 40 ildən artıqdır ki, tanıyıram. Dəfələrlə onun məharətlə oynadığı tragik və dramatik səhnə obrazlarına aludəliklə tamaşa etmişəm, aktyorluq istedadını ürəkdən sevmişəm. İ.Musayev səhnəmizdə öz səsi, öz nəfəsi olan usta aktyorlar nəslinə daxildir. Onun istedadı şəksiz ki, bu tamaşada da özünü göstərir. İ.Musayev Hacı Qara obrazını xüsusi taktla yaradır" [8].

Azərbaycan İncəsənət İşlər İdarəsi İ.Musayevin bir mütəxəssis kimi sənətkarlıq və təşkilatçılıq bacarığını nəzərə alaraq onu 1940-cı ildə Quba Dövlət Dram Teatrına direktor və bədii rəhbər vəzifəsinə göndərir. O, Quba teatrında çalışdığı müddətdə Səməd Vurğunun "Vaqif", "Fərhad və Şirin", Süleyman Rüstəmin "Qaçaq Nəbi", Mirzə İbrahimovun "Həyat", "Məhəbbət", Osman Sarıvəllinin "Babək", Sabit Rəhmanın "Toy", "Xoşbəxtlər", Cəfər Cabbarlının "Od gəlini", Məmmədhüseyn Təhmasibin "Aslan yatağı" və s. əsərlərini tamaşaya qoyur.

"Vaqif" tamaşası haqqında görkəmli tədqiqatçı Qulam Məmmədli yazırdı: "Vaqif" neçə gündən bəridir ki, Qubada oynanılır. Hər dəfə də tamaşaçıların gurultulu alqışları ilə qarşılanır. Bu heç də yalnız "Vaqif"in birinci dəfə Qubada oynanılması ilə izah edilə bilməz. Bu alqışların izahı quruluşçu rejissor İ.Musayevin yaradıcılıq bacarığında və teatr kollektivinin bu böyük işə namus və energiya ilə yanaşmağında axtarılmalıdır. Quruluşçu rejissor və eyni zamanda Vaqifin rolunu oynayan İ.Musayev yoldaş işə böyük bir sevgi, əlovlu bir məhəbbət və yorulmaq bilmədən yaradıcılıq energiyası ilə girişmişdir. Musayev-Vaqif rolunu oynayarkən eyni zamanda bütün əsərin gedişi və həyatı ilə alışıb yanır. "Vaqif" əsərini oynayan Quba Dövlət Dram Teatrı bu quruluş ilə gələcəkdə də böyük işlər görə biləcəyini sübut etdi" [11].

İ.Musayev Quba teatrında işlədiyi müddətdə Azərbaycan tarixinin mühüm səhifələrini əks etdirən S.Vurğunun "Vaqif", "Fərhad və Şirin", S.Rüstəmin "Qaçaq Nəbi", O.Sarıvəllinin "Babək", M.Təhmasibin "Aslan yatağı", S.Rəhmanın "Toy" və digər əsərləri xalqımızın faşist işğalçıları ilə apardığı ölüm-dirim mübarizəsində Şimali Qafqaz rayonlarında, hərbi hissələrdə müharibənin ən qızğın vaxtlarında Vətən müdafiəçilərinə haqqı, ədaləti, sülhü, azadlığı təbliğ və tərənnüm etdirmiş özü də bir aktyor kimi həmin əsərlərdə müxtəlif rollarda oynamış, tamaşaçıları inamlı, əzmli olmağa səsləmiş və düşmənlərə qalib gəlmək üçün ruhlandırmışdır. Vətənin istiqlaliyyəti, azadlığı uğrunda mübarizəsini tərənnüm edən tamaşalara verdiyi quruluşlarla və həmin tamaşalarda yaratdığı unudulmayan obrazlarla bir daha sənətsevərlərin rəğbətini qazanmış, zəhmətkeşlər tərəfindən hərarətlə qarşılanmışdır. Quba teatrının kollektivi 1940-1943-cü illərdə hərbi hissələrdə, hərbi xəstəxanalarda əsgərlər qarşısında 243 dəfə çıxış etmişdir [12]. Bu gün də onun hazırladığı tamaşalar və yaratdığı obrazlar minnətdarlıq hissi ilə xatırlanır.

Azərbaycan İncəsənət İşlər İdarəsi görkəmli sənətkarı 1943-cü ilin axırlarında Naxçıvan İncəsənət İşləri İdarəsinin rəisi vəzifəsinə göndərir. O, bu vəzifədə işləməklə yanaşı Naxçıvan Dövlət Dram Teatrında aktyor və rejissor kimi də fəaliyyət göstərir. Quba teatrında yaratdığı Vaqif surəti üzərində yaradıcılıq işini burada da davam etdirir.

Naxçıvan teatrının baş rəssamı, əməkdar incəsənət xadimi Məmməd Qasımovun şəxsi arxivini araşdırarkən istedadlı sənətkar İsa Musayevlə bağlı qələmə aldığı "Onu "Vaqif"dən sevmişəm" adlı bir xatirə diqqətimi cəlb etdi. Həmin xatirədə deyilir: "Naxçıvan teatrında işlədiyim ilk günlərdə S.Vurğunun "Vaqif" tamaşası göstərilirdi. Vaqif rolunda Qubadan doğma teatrına yenicə qayıtmış İsa Musayev çıxış edirdi. Məni öz

hərarəti ilə isindirən bu aktyorun ifası o qədər xoşuma gəldi ki, qırılmaz tellərlə teatr aləminə bağlandım... Kazım Ziya, Ələsgər Ələkbərov və sonralar İsmayıl Dağıstanlı, Həsənağa Salayev kimi görkəmli sənətkarların çox gözəl ifasında "Vaqif"ə dəfələrlə tamaşa etmişəmsə də, lakin ilk təəssüratdan ayrıla bilməmişəm... Vaqif-İsa Musayevlə ilk görüşümdən 25 il sonra, 1968-ci ildə "Vaqif" pyesinin quruluşçu rəssamı olmaq mənə nəsib oldu. Mən sevdiyim bu aktyorun ifasına sadiq qalaraq "Qəlbim sığmayır dar saraylara" deyən bu azadlıqsevər insan üçün tamaşaya bədii tərtibat verməyi qərara aldım. Bu tərtibatda tamaşa boyu zamanın yarnış, yarıuçuq vəziyyətdə aktyora doğru əyilmiş möhtəşəm qala divarları arasında Vaqifin-İsa Musayevin "Mən cahan mülkündə mütləq doğru halət görmədim, hər nə gördüm, əyri gördüm, özgə babət görmədim" deyərək bu şikayəti ilə tərtibatın həmahəng gəlməsi məni olduqca sevindirdi. Elə bu sevincim üçün də 29 il bundan qabaq ilk dəfə gördüyüm Vaqifin ifaçısı, indi anadan olmasının 60, səhnə fəaliyyətinin 40 illiyini qeyd etdiyimiz Azərbaycan SSR xalq artisti İsa Musayevə öz minnətdarlığımı bildirir və onu təbrik edirəm".

Musayev müxtəlif səpgili rollarda oynasa da, onun səhnə fəaliyyətinin mühüm dövrü faciə janrı ilə bağlıdır. Sənətsevərlər onu faciə qəhrəmanlarının mahir ifaçılarından biri kimi tanımış, hər zaman tamaşaçıları tərəfindən sevilmişdir. Dünya səhnələrində ən böyük şöhrət qazanmış V.Şekspirin "Hamlet" faciəsi Naxçıvan teatrında İsmayıl Hüseynovun rejissorluğu ilə (1936) bir il məşqdən sonra tamaşaya qoyulur. Həmin tamaşada Musayevə Hamlet rolunda çıxış etmək nəsib olur. Tərəf-müqabilləri Zina Budaqova – Ofelya, Əyyub Haqverdiyev – Layret, Telli Ələkbərova – Kraliça, Seyid Səbri – Məzarçı, Rza Məmmədov – Horatsiya, Əyyub Abbasov – Kral obrazlarını yaratmışlar. İlk tamaşada xalq şairi Məmməd Rahim, dramaturq Ənvər Məmmədxanlı və Hamlet obrazının mahir ifaçısı Abbas Mirzə iştirak etmişlər [16, v. 2]. Bu tamaşa teatrın ən yaddaqalan tamaşaları siyahısına daxil olur.

Musayev Cavid dramaturgiyasında da bir sıra faciə qəhrəmanlarının obrazlarını özünəməxsus ustalıqla yaratmışdır. Bunların içərisində Şeyx Sənan obrazı xüsusi yer tutur. Onun sənətkarlıqla yaratdığı Sənan obrazı atəşin üräklə sevən bir aşiqdir. Aktyor öz oyunu ilə göstərir ki, məhəbbət və insani duyğular hər cür dini təsəvvürlərdən yüksəkdə durur. Əvvəlcə dinin əlində əsir olan Şeyx Sənan həyatın mənasını Xumarla görüşdükdən sonra dərk edir və insan səadətinin bu dünyada olduğuna inanır. Səhnə fəaliyyətində həmişə Azərbaycanın incəsənət xadimləri, qabaqcıl səhnə ustaları ilə əlaqə saxlayan, orijinal surətlər yaratmağa çalışan Musayev gərgin və səmərəli axtarışdan sonra 1958-ci ilin martında Naxçıvan teatrında tamaşaya qoyulan N.Nərimanovun "Nadir şah" əsərində Nadir şah rolunu oynayır. Aktyor Nadir şahı əsərdə olduğu və quruluşçu rejissorun tələb etdiyi kimi Yaxın və Orta Şərqdə məşhur olan böyük bir fateh, ağıllı və qüvvətli hökmdar kimi yaratmışdır.

1965-ci ildə (iyun ayının 1-dən 21-dək) Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının mədəniyyət həftəsi keçirilir. Naxçıvan Dövlət Musiqili Dram Teatrı mədəniyyət həftəsi günlərində Kəmalə Ağayevanın "Məhsəti", Hüseyn Razinin "Odlu diyar" mənzum dramlarını və Cəmşid Əmirovun eyni adlı povesti əsasında teatrın direktoru İbrahim Həmzəyev tərəfindən səhnələşdirilmiş "Sahil əməliyyatı" tamaşasını çox böyük müvəffəqiyyətlə paytaxt ictimaiyyətinə təqdim edir. Hər üç əsərin tamaşası paytaxt teatrsevərləri tərəfindən maraqla qarşılanır, mütəxəssislər tərəfindən yüksək qiymətləndirilir və Naxçıvan teatrının sənətkarlıq cəhətdən inkişaf etməsinin parlaq ifadəsi kimi mətbuatda geniş əks olunur. Mədəniyyət həftəsi günlərində İsa Musayev "Məhsəti"də Pərvər baba, "Odlu diyar"da polkovnik Vartaşyan, "Sahil əməliyyatı"nda polkovnik Lübovin rollarında çıxış etmişdir [10].

Mədəniyyət həftəsində müvəffəqiyyətlə çıxış etdiklərinə görə teatrın bir qrup əməkdaşına fəxri adlar verilmiş, respublikanın xalq artisti Musayev isə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanı ilə təltif edilmişdir.

Görkəmli sənətkar özünəməxsus ustalıqla yaratdığı obrazlarla yanaşı Mirzə Fətəli Axundzadənin "Hacı Qara", Cəlil Məmmədquluzadənin "Ölülər", Cəfər Cabbarlının "Almaz", "Sevil", "Od gəlini", Səməd Vurğunun "Vaqif", "Fərhad və Şirin", Süleyman Rüstəmin "Qaçaq Nəbi", Məmmədhüseyn Təhmasibin "Aslan yatağı", Osman Sarıvəllinin "Babək", Zeynal Xəlilin "Qatır Məmməd", Abdulla Şaiqin "Vətən", "Fitnə", İlyas Əfəndiyevin "Bahar sularɪ", Mirzə İbrahimovun "Həyat", "Məhəbbət", Rza Şahvələdin "Qız qalası", Nağı Nağıyevin "Polad", İslam Səfərlinin "Xeyir və Şər", Hüseyn Muxtarovun "Ailə namusu", Vilyam Şekspirin "Otello", Fridrix Şillerin "Qaçaqlar", Konstantin Simonovun "Rus məsəli", "Praqanın şabalıd ağacları altında", Üzeyir Hacıbəylinin "Leyli və Məcnun", Zülfüqar Hacıbəylinin "Əlli yaşında cavan", Sabit Rəhmanın "Xoşbəxtlər", "Toy", Mirmehdi Seyidzadənin "Nərgiz", Ağası Məşədibəyovun "Toy kimindir?", V.Qubaryovun "Adada üç nəfər" povesti əsasında Kərim Həsənovun səhnələşdirdiyi "Səhrli yaylıq" və b. əsərlərə uğurlu quruluş vermişdir.

Aktyor və rejissor kimi Musayev üzərinə düşən çətin və şərəfli vəzifənin öhdəsindən layiqincə gəldiyindən coşqun istedada malik sənətkar olduğunu bir daha təsdiq edirdi. O, yaratdığı hər obrazı və quruluş verdiyi tamaşaları heyrətamiz bir sənət nümunəsi kimi həyati boyalarla, məhəbbətlə, can yanğısı ilə tamaşaçılara təqdim etdiyindən bir ustad sənətkar olaraq yaddaşlara həkk olunurdu. Musayevin istedadı həqiqətən çoxşaxəli idi. O, həm faciəvi, həm də dramatik rolların mahir ifaçısı kimi tanınmışdır. Aktyorun fövqəladə istedada malik olması onun müdrik, nəcib, mərd, parlaq xarakterli surətlər yaratmasına kömək etmişdir. Buna görə də yaratdığı obrazlar düşündürücü, sevindirici, həyəcanlandırıcı və kədərləndirici olduğundan tamaşaçı həmişə onun ifasında canlı insani hisslərin, açıq fikirlərin şahidi olurdu. 47 illik səhnə fəaliyyəti dövründə o yüzlərlə səhnə əsərində çıxış etmiş, dolğun və yaddaqalan surətlər yaratmış, görkəmli səhnə ustası kimi adını Azərbaycan teatr salnaməsinə yazdırmışdır. İstər müasir, istər tarixi, istər realist, istərsə də romantik səpgidə oynadığı və quruluş verdiyi əsərlərin hamısında Musayev həmişə müasir olmuş, tarixi, əfsanəvi rollarını da zamanın tələbləri səviyyəsinə uyğun olaraq oynamış, onlara zamanının gözləri ilə baxmağı bacarmışdır. Sənətin ən çətin, ən ağır günlərində inamla addımlamış, səhnədə həmişə qələbə qazanmış, az ömründə çox ömür yaşamışdır.

Azərbaycan SSR xalq artisti, Şöhrət ordenli sənətkar Zəroş xanım Həmzəyeva İsa Musayevin oyununu xarakterizə edərək yazırdı: "Azərbaycan SSR xalq artisti İsa Musayev Vaqif rolunda 800 dəfədən çox çıxış etmişdir. Onun yaraşıqlı boy-buxunu, daxili zənginliyi və ən çox rola münasibəti yaratdığı Vaqif obrazını tamaşaçıya sevdirirdi. İsa öz rolunu əsasən lirik səpkidə oynayırdı. Axı, Vaqif hər şeydən əvvəl şair idi. Onun bu yozumu mənə də xoş gəlirdi" [6, s. 14].

Görkəmli sənətkar İsa Həsən oğlu Musayevin yaradıcılığı daim diqqət mərkəzində olmuş və əməyi dövlət tərəfindən həmişə yüksək qiymətləndirilmişdir. Anadan olmasının 60 və səhnə fəaliyyətinin 40 illik yubileyi 1972-ci ildə təntənə ilə keçirilmişdir. O, 1943-cü ildə Azərbaycan Respublikasının əməkdar, 1960-cı ildə isə xalq artisti fəxri adlarına layiq görülmüş, Böyük Vətən Müharibəsi illərində arxa cəbhədə fəal iştirak etdiyinə görə ona "Qafqazın müdafiəsi üçün", "Əmək igidliyinə görə" medalları verilmişdir. Uzun illər qüsursuz və səmərəli fəaliyyəti nəzərə alınaraq "Şərəf nişanı" ordeni və fəxri fərmanlarla təltif olunmuşdur. Görkəmli sənətkar 8 fevral 1976-cı ildə Naxçıvan şəhərində əbədiyyətə qovuşmuşdur. Mərhum sənətkar İsa Həsən oğlu Musayevin əziz xatirəsi sənətsevərlər tərəfindən həmişə yad edilir, xatırlanır.

ƏDƏBİYYAT

1. Abbas Mirzə Şərifzadə haqqında xatirələr. Bakı: Azərbaycan Teatr Cəmiyyəti, 1963, 236 s.
2. Axundov Y. Onun yaradıcılıq yolu (Azərbaycanın xalq artisti İsa Musayevin 60 illik yubileyi münasibəti ilə). "Şərq qapısı" qəz., 26 noyabr, 1972.
3. İbrahimov M. Xəlqilik və realizm cəbhəsində. Bakı: Azərnəşr, 1961, 524 s.
4. Quliyev N. Azərbaycan sovet komediyasının inkişaf yolları. Bakı: Azərnəşr, 1970, 198 s.
5. Naxçıvan teatrının salnaməsi. Naxçıvan: Əcəmi, 2010, 736 s.
6. Məşəl kimi yanan ürək. Bakı: Təbriz, 1999, 64 s.
7. Mövləvi S. "Naxçıvan teatrında". Sənətdə keçən yollar. Bakı: Yazıçı, 1983, s. 238-256.
8. Zamanov A. 33 il sonra. "Şərq qapısı" qəz., 10 dekabr, 1971.
9. "Bakı" qəz., 21 iyun 1965.
10. "Kommunist" qəz., 22 iyun 1965.
11. "Qızıl Quba" qəz., 24 aprel 1941.
12. "Qızıl Quba" qəz., 12 may 1943.
13. Naxçıvan MR DA. F. 40, siy. 4, iş 7.
14. Naxçıvan MR DA. F. 613, siy. 1, iş 136.
15. Naxçıvan MR DA. F. 50, siy. 1, iş 43.
16. Naxçıvan MR DA. F. 50, siy. 1, iş 9.
17. Naxçıvan MR DA. F. 40, siy. 1, qovluq 273, iş 16.

Али Гахраманов

АКТЕР И РЕЖИССЕР НАХЧЫВАНСКОГО ТЕАТРА: ИСА МУСАЕВ

В статье рассказывается о жизни и творчестве народного артиста Азербайджанской Республики Исы Гасан оглу Мусаева. Освещены его постановки и созданные образы на сцене Нахчыванского театра, анализируется деятельность мастера в Губинском Госдрамтеатре в 1941-1943 годах. Здесь также всесторонне отражены спектакли в духе патриотизма, которые были поставлены с участием великого актера для бойцов в военных частях во время Второй Мировой войны.

Ключевые слова: *Иса Мусаев, театр, режиссер, актер, спектакль.*

Ali Gahramanov

THE ACTOR AND PRODUCER OF THE NAKHCHIVAN THEATRE: ISA MUSAYEV

The article deals with people's artist of Azerbaijan Republic Isa Hasan oglu Musayev's life and creative work. Showing his created images and giving system to spectacles on Nakhchivan stage, his activities in Guba State Drama Theatre have been analyzed by the author. The patriot emotional spectacles which he showed in front of the soldiers in military camps during the Second World War are widely reflected in the paper.

Keywords: *Isa Musayev, theatre, actor, producer, spectacle.*

(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2018, № 1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2018, № 1

PROCEEDINGS OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES NAKHCHIVAN BRANCH OFFICE
The series of social sciences and humanities, 2018, № 1

ƏLƏKBƏR QASIMOV
AMEA Naxçıvan Bölməsi
E-mail: elekberqasimov@mail.ru

NAXÇIVAN TEATRININ BAŞ REJİSSORLARI

Məqalədə 135 yaşlı Naxçıvan Teatrında son 95 il ərzində baş rejissor kimi fəaliyyət göstərmiş şəxslərdən söhbət açılır. Həmçinin onların yaradıcılığı, quruluş verdikləri tamaşalar, eləcə də Naxçıvan Teatrına verdikləri töhfələr araşdırılır. Burada dahi sənətkarların teatrdakı fəaliyyətilə yanaşı muxtar respublika qarşısında xidmətləri də işıqlandırılır. Sonda Naxçıvan Dövlət Musiqili Dram Teatrında bu gün baş rejissorun olmaması aktual bir problem kimi diqqətə çatdırılır.

Açar sözlər: *Naxçıvan Teatrı, baş rejissor, səhnə, tamaşa, aktyor.*

1883-cü ilin əvvəllərində, Naxçıvanda Eynəli bəy Sultanov başda olmaqla müasir ruhlu, demokratik əhval-ruhiyyəli müəllimlərdən ibarət "Müsəlman İncəsənət və Dram Cəmiyyəti" yaradıldı. Məqsəd cəmiyyət üzvlərinin iştirakı ilə Naxçıvanda Azərbaycan dilində teatr tamaşaları hazırlayıb göstərmək idi.

"Beləliklə, cəmiyyətin üzvləri böyük həvəslə, E.Sultanovun rəhbərliyi altında M.F.Axundovun "Müsyo Jordan və dərviş Məstəlişah" komediyasının məşqlərinə başlayırlar. Tamaşanı Novruz bayramı günlərində göstərmək qərara alınır. "Azərbaycan teatrının salnaməsi" kitabının birinci cildində "1883-cü il" bölməsi belə başlayır: "11 mart. Naxçıvan. Hacı Nəcəf Zeynalovun evində Eynəli Sultanovun idarəsi altında "Müsyo Jordan və Məstəlişah" oynanmışdır"" [5, s. 15]. Buradan belə bir nəticə hasil olur ki, Naxçıvan Teatrının ilk baş rejissoru elə onun banisi Eynəli bəy Sultanovdur.

Tədqiqatdan belə məlum olur ki, həmin tarixdə "Müsəlman İncəsənət və Dram Cəmiyyəti" Azərbaycan Milli Teatrının yaranmasının 10 illiyini böyük təntənə ilə qeyd etmək üçün Hacı Nəcəf Zeynalovun evini münasib bilərək burada yubiley gecəsi keçirmiş, Azərbaycanda milli, professional teatr sənətinin yaranması və inkişafı barədə çıxışlar olmuş və sonda cəmiyyət üzvlərinin hazırladıqları "Müsyo Jordan və dərviş Məstəlişah" tamaşası Naxçıvanda ilk dəfə olaraq nümayiş etdirilmişdir. Həmin tarixdən də Naxçıvan Teatrının yaranması günü Azərbaycan teatr tarixinin salnaməsinə yazılır.

"Demək olar ki, 1883-1890-cı illər arasında Naxçıvan şəhərində hər il 3-4 dəfə müxtəlif tamaşalar hazırlanaraq nümayiş etdirilmişdir. 1894-cü ildən başlayaraq gənc Cəlil Məmmədquluzadə və Məmmədtağı Sidqi Naxçıvanda vaxtaşırı teatr tamaşalarının hazırlanıb göstərilməsində təşəbbüskar və təşkilatçı kimi böyük əmək sərf etmişlər.

1890-cı ildən 1905-ci ilədək olan dövrdə Naxçıvan Teatrının repertuarı əsasən M.F.Axundovun "Müsyö Jordan və dərviş Məstəlişah", "Hacı Qara", "Molla İbrahimxəlil – kimyagər", "Lənkəran xanı vəzirinin sərgüzəşti" komediyaları, E.Sultanovun "Tatarka", C.Məmmədquluzadənin "Çay dəstgahı" pyesləri, Ə.Haqverdiyevin "Dağılan tifaq" faciəsi, V.Mədətovun "Gözə görünməyən şal" və müəllifləri naməlum olan "Kəl döyüşü", "Üsulicədid" adlı vodevillərdən ibarət olmuşdur.

"1907-ci il dekabr ayının 31-də Naxçıvan Şəhər Məktəbində A.Puşkinin qətlə yetirilməsinin 70 illiyi ilə əlaqədar keçirilən toplantıda N.Qoqolun "Ölü canlar" əsəri səhnələşdirilərək tamaşaya qoyulur. Bu tamaşanın rejissoru o zaman teatr sənətinə ciddi maraq göstərən və Naxçıvanda teatr sənətinin formalaşmasında xüsusi xidmətləri olan Böyük xan (Nəzərəli xan) Naxçıvanski idi. Rus dilində oynanılan bu tamaşada Çiçikov rolunu ilk dəfə, aktyor kimi, səhnəyə qədəm qoyan Rzaqulu Təhmasibbəyov – Rza Təhmasib ifa etmişdir.

Yeri gəlmişkən, qeyd edim ki, istedadlı bir aktyor kimi şöhrət qazanmış Böyük xan Naxçıvanski 1904-1916-cı illərdə Naxçıvan Teatrının aparıcı rejissoru kimi fəaliyyət göstərmişdir. Məhz onun rəhbərliyi altında Naxçıvan Teatrı 1910-cu ildən yeni bir inkişaf mərhələsinə qədəm qoydu. Bu dövrdə teatrda Rza Təhmasib, Əli Xəlilov, Həsən Səfərli... kimi istedadlı gənclər fəaliyyət göstərirdilər" [5, s. 20].

Birinci Dünya Müharibəsinin başlanması ilə 1914-1916-cı illərdə Naxçıvan Teatrının repertuarını əsasən müharibə əleyhinə pyeslər, səhnələşdirilmiş irihəcmli şeirlər və başqa səhnəciklər təşkil etmişdir. Bu dövrdə Naxçıvanda fəaliyyət göstərən "Rus-tatar Məktəbi"nin adı dəyişdirilərək "Rüşdiyyə Məktəbi" adlandırılır. Məktəbin direktoru Xəlilağa Hacılarovun və rejissor Rza Təhmasibin təşəbbüsü, eləcə də məktəbin müəllimləri Əliqulu Qəmküsar, Şeyx Məhəmməd Rəsizadə (Hüseyn Cavidin böyük qardaşı), Həsən Səfərli və Əli Xəlilovun böyük səylərilə 1917-ci il aprel ayının 20-də (müasir təqvimlə mayın 2-də) "Rüşdiyyə Məktəbi"nin nəzdində "El güzgüsü" adlı dram cəmiyyəti təşkil olunur. Naxçıvan Teatrı həmin tarixdən bu adla fəaliyyətini davam etdirərək yeni bir mərhələyə qədəm qoyur.

Azərbaycan SSR xalq artisti, SSRİ Dövlət mükafatı laureatı, professor Rza Təhmasib Naxçıvan Teatrının formalaşması və təşəkkül tapmasında xüsusi xidmətləri olan sənətkarlardandır. Əsasən 1910-1918-ci illər arasında onun səmərəli rejissorluq və aktyorluq fəaliyyəti nəticəsində teatrın repertuarı maraqlı tamaşalarla zənginləşmiş və buraya gənc istedadların axını vüsət almışdır. Milli teatr tariximizdə C.Məmmədquluzadənin "Ölülər" tragikomediyasına ilk dəfə səhnə həyatı Naxçıvan Teatrında, 1915-ci ilin avqustunda, məhz R.Təhmasibin quruluşunda verilmişdir. Tamaşanın rəssamı isə Tiflisdə təhsilini yenicə başa vurub doğma şəhərinə qayıdan Bəhruz Kəngərli olmuşdur. Bu tamaşa ilə o, Naxçıvan Teatrının ilk peşəkar rəssamı kimi tanınaraq 7 il burada ardıcıl və səmərəli fəaliyyət göstərmişdir. Həmin ildə pyesi müəllifin tapşırığı ilə Tiflisdən Naxçıvana gətirən Ə.Qəmküsar Şeyx Nəsrullah rolunu birinci dəfə Naxçıvanda, 1916-cı ildə isə Bakıda oynamışdır.

1918-ci ilin iyununda daşnak Andronikin başçılığı ilə erməni quldurlarının Naxçıvan torpaqlarına vəhşicəsinə hücumları başlandı. Belə bir vəziyyətdə Naxçıvan şəhərində də normal həyat pozuldu və şübhəsiz ki, bir sıra təşkilatlar kimi, teatr da öz fəaliyyətini dayandırmaq məcburiyyətində qaldı.

O dövrdə ziyalılar arasında böyük nüfuza malik olan və artıq görkəmli şair və dramaturq kimi tanınan Hüseyn Cavidin gəlişi xüsusilə Naxçıvan Teatrının və "Rüşdiyyə Məktəbi"nin kollektivləri tərəfindən böyük sevinclə qarşılandı.

"Yerli camaatın qəhrəmancasına müqavimətinin tükənməsi üzrə olduğu bir məqamda komandan Kazım Qarabəkir paşanın başçılığı altında şanlı türk ordusu sərhəddi keçərək Naxçıvan əhalisinə yardıma yetişdi. Xilaskar ordu qısa bir zamanda quldur daşnak dəstələrini darmadağın edərək Naxçıvan ərazisini onlardan təmizlədi. Xalq rahat nəfəs aldı və öz dinc yaşayışını bərpa etdi. Həyat öz axarı ilə davam etməyə başladı. O dövrdə Araz-Türk Cümhuriyyətinin qurulmasında böyük xidmətləri olan Kazım Qarabəkir paşa Naxçıvanda mədəniyyətin, maarifin də çiçəklənməsinə öz töhfəsini verməyə

çalışırdı. Bacarıqlı bir sərkərdə və təşkilatçı olmaqla yanaşı istedadlı bir şair və rəssam olan K.Qarabəkir paşa Naxçıvanda teatr olduğunu bilən kimi Hüseyn Cavidin bilavasitə yardımı ilə yenicə fəaliyyətini bərpa eləyən "El güzgüsü"nün üzvlərilə tanış olur. "El güzgüsü"ndəki növbəti ədəbi yığıncaqda Kazım bəy tərəfindən Naxçıvan Teatrının fəaliyyətini yenidən canlandırmaq təklifi irəli sürülür.

Bu təklif böyük sevinc və rəğbətlə qarşılanır. K.Qarabəkir paşa türk ordusunun tarixi qəhrəmanlığından bəhs edən Namiq Kamalın "Vətən və ya Silistrə" əsərinin tamaşaya qoyulmasını tövsiyə edir və teatrın rejissoru Rza Təhmasibdən, rəssamı Bəhruz Kəngərlidən razılıq alaraq həmin tamaşanın hazırlanmasına köməkliyi öz öhdəsinə götürür. Tamaşanın ərsəyə gəlməsində Hüseyn Cavid də Rza Təhmasib və Bəhruz Kəngərliyə yaxından köməklik göstərirlər" [5, s. 24-25].

1920-ci il iyul ayının 28-də Naxçıvanda Sovet hakimiyyəti quruldu. Teatrın repertuarında sovet hökumətinin siyasətini təbliğ edən səhnəciklər, şeir, meyxana və mahnılardan ibarət olan konsertlər əsas yer tutmağa başladı. Bu vaxt Əli Xəlilov (sonralar Naxçıvan MSSR əməkdar artisti) Naxçıvan Teatrının direktoru təyin edildi, rejissorluq işi Həsən Səfərliyə həvalə olundu.

Azərbaycan teatrının 50 illik yubileyinin qeyd olunduğu 1923-cü ildə Naxçıvan Vilayət Mərkəzi İcraiyyə Komitəsi Naxçıvan Teatrına "dövlət dram teatrı" adını verməklə onun da 40 illiyinin keçirilməsi barədə qərar qəbul edir. Həsən Səfərli Naxçıvan Dövlət Dram Teatrının rəsmi olaraq ilk baş rejissoru təyin olunur. O, bu vəzifədə arada altı aylıq fasilə olmaqla 1928-ci ilədək çalışmışdır.

"Teatrın işini yaxşılaşdırmaq, aktyorların peşə ustalığını daha da artırmaq məqsədilə 1924-cü ildə Naxçıvan Xalq Maarif Komissarlığı İncəsənət İşçiləri İttifaqı ilə birlikdə Bakıdan görkəmli səhnə ustadı Kazım Ziyanı (sonralar Azərbaycan SSR xalq artisti, professor) Naxçıvana dəvət edir. Bu illərdə Naxçıvan Dövlət Dram Teatrında çalışan Kazım Ziya aktyorların dili üzərində gərgin işləyərək onlara səhnə danışığının inciəliklərini aşılayır, rol üzərində aktyor işinin xüsusiyyətlərini açıqlayır və beləliklə də yaradıcı kollektivin püxtələşməsinə öz töhfəsini vermiş olur" [5, s. 32].

K.Ziya Naxçıvan Teatrında birinci olaraq gürcü dramaturqu Vano Macedaşvilinin "Qaçaq Kərəm" pyesinin tamaşasını hazırladı. "Qaçaq Kərəm" tamaşası rəğbətlə qarşılanaraq uzun müddət teatrın repertuarında qalmışdı.

Kazım Ziya Naxçıvan Teatrına bir sıra yeniliklər gətirmişdi. O, tamaşaların dinamik hərəkətinə, tempinə fikir verməklə yanaşı səhnə tərtibatının dolğun, real və məzmunlu olmasına, obrazların fiziki hərəkətlərinin onların mövcud şəraitdə psixoloji durumu ilə şərtləşməsinə, səhnə danışığının aydınlığına, tələffüzün təbiiliyinə və həm də estetik təsirinə diqqət yönəltmişdi. Naxçıvan Dövlət Dram Teatrının ilk aktrisalarından biri Xədicə Qazıyevanın səhnədə birinci rolu məhz "Qaçaq Kərəm" tamaşasında Sirab obrazı olub.

1929-cu ildə teatrın aparıcı aktyorlarından və rejissorlarından olan Səməd Mövləvi teatrın baş rejissoru təyin edilir. S.Ruhullanın müvəqqəti Naxçıvana göndərilməsilə əlaqədar iki illik fasilə ilə S.Mövləvi baş rejissor vəzifəsini 1935-ci ilə qədər yerinə yetirmişdir.

1931-ci ildə Azərbaycan SSR əməkdar artisti Sidqi Ruhulla (sonralar SSRİ xalq artisti) Naxçıvan Dövlət Dram Teatrının direktoru və baş rejissoru təyin olunur. Onun teatra rəhbərliyi dövründə repertuar zənginliyinə və rəngarəngliyinə, truppaya yeni kadrların, xüsusən də gənclərin cəlb olunması işinə, kollektivin muxtar respublikanın ictimai-siyasi həyatında daha fəal iştirakının təmin olunmasına diqqət artırılır. Naxçıvan Teatrının görkəmli sənətkarları kimi tanınan Rza İsfəndiyarlı, Xədicə Qazıyeva, İsa

Musayev, Firuzə Əlixanova, Mirhəsən Mirişli, Əyyub Haqverdiyev məhz bu dövrdə "Sidqi məktəbi" keçərək səhnə danışığı və səhnə mədəniyyətinin incəliklərinə yiyələnmiş, sənətdə püxtələşmişlər.

"Sidqi Ruhullanın Naxçıvan Dövlət Dram Teatrında quruluşçu rejissor kimi hazırladığı Azərbaycan, rus və Qərbi Avropa dramaturgiyasının inciləri uzun müddət repertuarda yaşadı və teatrın tarixinə qızıl hərflərlə həkk olundu. Xüsusən də N.Qoqolun "Müfəttiş", F.Şillerin "Qaçaqlar" və U.Şekspirin "Otello" əsərlərinin ilk dəfə olaraq ancaq yerli aktyorların iştirakı ilə tamaşaya qoyulması muxtar respublikanın mədəni həyatında və Azərbaycan teatrı tarixində əlamətdar hadisə və unudulmaz sənət nailiyyəti idi" [5, s. 36].

Əli Xəlilov "Naxçıvan Teatrının tarixi" adlı kitabında yazıb: "Sidqi Ruhullanın rejissorluğu ilə hazırlanmış "Otello"nun ilk tamaşası 1932-ci il aprel ayının 21-də olmuşdur. Tamaşada istedadlı artist İsa Musayevin yaratdığı Otello həqiqi bir sərkərdə, təmiz qəlbli aşiq, yüksək mənəviyyatlı insan kimi qüvvətli təsir bağışlayırdı" [3, s. 36]. İ.Musayev S.Ruhullanın məsləhətləri və qayğısı, A.Şərifzadənin mənəvi dəstəyi, yaxından köməkliyi sayəsində Otellonun öhdəsindən uğurla gələrək bu rolu ustalıqla ifa etdi və Azərbaycan teatrında görkəmli Otellolar sırasında özünəməxsus yer tutdu.

Sidqi Ruhullanın Naxçıvan Dövlət Dram Teatrındakı səmərəli fəaliyyəti yüksək qiymətləndirildi. Azərbaycan Teatrının 60 illiyi münasibətilə 1933-cü il mayın 3-də S.Ruhulla Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsinin Fəxri Fərmanı ilə təltif edildi və ona respublikanın xalq artisti fəxri adının verilməsi Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsindən xahiş olundu.

"1936-cı ildə Moskvada ali təhsil almış rejissor Həsən Ağayev Naxçıvan Dövlət Dram Teatrına işə göndərilir. Həmin ildən 1939-cu ilədək onun rejissorluğu ilə K.Trenyovun "Lyubov Yarovaya", A.Ostrovskinin "Günahsız müqəssirlər", G.Mdivaninin "Vətən namusu" kimi müvəffəqiyyətli tamaşalar hazırlanır, "Hamlet" və "Otello"ya yeni quruluş verilir.

1937-ci ildə isə Yusif Yulduz Naxçıvan Dövlət Dram Teatrının bədii rəhbəri təyin edilir. Naxçıvanda işlədiyi bir il ərzində Azərbaycan dramaturgiyasından bir neçə seçmə əsərlərə quruluş verən, o cümlədən M.İbrahimovun "Həyat" pyesinə ilk dəfə məhz burada səhnə həyatı verən bir rejissor kimi teatr tariximizdə özünəməxsus yer tutmuşdur" [5, s. 40]. 1950-70-ci illərdə Y.Yulduz "Azərbaycanfilm"in istehsalı olan onlarla bədii filmdə epizodik rolların ən məşhur və məhir ifaçısı kimi tanınmış və yadda qalmışdır.

1938-ci ilin martında M.F.Axundovun anadan olmasının 125 illiyi münasibətilə Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin Fərmanına əsasən Naxçıvan Dövlət Dram Teatrına böyük mütəfəkkir və dramaturqun adı verildi. Beləliklə, bu qədim sənət ocağı həmin vaxtdan 1964-cü ilədək M.F.Axundovun adını daşıdı.

2002-ci il dekabrın 7-də Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının yaradıcı heyətilə görüşən Azərbaycan Respublikasının Prezidenti, möhtərəm Heydər Əliyev söhbət əsnasında özünün gənclik illərini xatırlayaraq o zamandan teatra bağlılığından danışmış, Naxçıvan Teatrının həmin illərdəki fəaliyyətindən, buradakı sənətkarlardan da söz açaraq demişdi: "...Naxçıvanda 1930-cu illərdə teatr çox güclü idi. Güclü artistlər vardı. Orada da baş rolları iki-üç aktrisa oynayırdı. Onlardan da biri Xədicə xanım Qazıyeva idi. Xədicə xanımın gözəl çıxışları olurdu... Orada yaxşı aktyorlar vardı, məsələn, İsa Musayev, ən gözəl aktyor-rejissor Miribrahim Həmzəyev, Zəroş xanım – Miribrahim Həmzəyevin xanımı... dəfələrlə demişəm. Mən özüm teatr həvəskarı olmuşam. Lap gənc vaxtımda – Naxçıvanda dram dərnəyində mən də çıxışlar etmişəm. Miribrahim Həmzəyev bizim dram dərnəyinin rəhbəri idi. Sonra burada, Bakıda – Azər-

baycan Sənaye İnstitutunda oxuyanda da bizim dram dərnəyimiz vardı. Mən orada da çıxış etmişəm... Yəni bilirəm ki, bu artistlər xüsusi məxluqdur. Onların işinə qarışmaq olmaz. Onları gərək başlı-başına buraxasan. Nə edirlərsə, qoy etsinlər" [4, s. 195-197].

1941-ci ilin iyununda başlanan Böyük Vətən Müharibəsi bütün ölkədə və respublikada olduğu kimi Naxçıvanda da dinc həyatı pozdu. Bu dəhşətli müharibə dörd il Naxçıvan Dövlət Dram Teatrının da yaradıcı fəaliyyətinə öz mənfi təsirini göstərmişdir.

Mir İbrahim Həmzəyev 1937-ci ildə Azərbaycan SSR İncəsənət İşləri İdarəsinin sərəncamı ilə Naxçıvan Teatrına işləməyə gəlir. Buradakı ilk rolu Mirzə İbrahimovun "Həyat" pyesinin tamaşasındakı Abbas obrazı olur. O, 1939-cu ildə Q.Qurbanovun "Ayrım" əsərinin tamaşasını hazırlayır, özü də Ayrım rolunu məharətlə səhnədə canlandırır. "İstedadı, zəhmətsevərliyi, sənətə vicdanlı və məsuliyyətli münasibətilə Naxçıvan ictimaiyyətinin rəğbətini qazanan Mir İbrahim Həmzəyev 1941-ci ildə teatrın direktoru və baş rejissoru təyin edilir" [6, s. 21].

O, quruluşçu rejissor olaraq 40-cı illərdə olduğu kimi, 50-ci illərdə də C.Cabbarlının "1905-ci ildə" (1952), Lope de Veqanın "Sevilya ulduzu" (1952), Mir Cəlalın "Bir gəncin manifesti" (1952), S.S.Axundovun "Eşq və intiqam" (1955), N.Vəzirovun "Hacı Qənbər" (1955), Z.Xəlilin "Qatır Məmməd" (1956), S.Rüstəmin "Qaçaq Nəbi" (1958), Ə.Abbasovun "Məlikməmməd" (1956), V.Şkvarkinin "Özgə uşağı" (1956) və digər bir sıra maraqlı pyeslərin tamaşalarını hazırlamışdır.

Naxçıvan Teatrının məşhur aktrisalarından olan Zəroş Həmzəyevanın səhnəyə gəlişi və sənətdə püxtələşməsi İ.Həmzəyevin adı ilə bağlıdır. Ailə həyatı qurduqdan sonra hər iki sənətkar onlarla tamaşada baş rolların əvəzsiz ifaçıları olmuşlar. "Qaçaq Nəbi", "Vaqif", "Fərhad və Şirin", "Aydın", "Od gəlini", "Otello", "Səyavuş", "Şeyx Sənan", "Sevilya ulduzu", "Qatır Məmməd", "Sənsiz", "İsmət" belə tamaşalardandır. Heç də təsadüfi deyildir ki, ümummilli liderimiz Heydər Əliyev "Naxçıvan Teatrının 1940-50-ci illərini Həmzəyevlər dövrü" [1, 2015-ci il, 2 aprel] adlandırmışdır.

Demək olar ki, 1950-ci ildən üzü bəri Naxçıvan Dövlət Dram Teatrı öz repertuarına daha çox müasir həyatdan və bu müasirlikdəki müxtəlif mövzulardan bəhs edən pyeslər daxil edir. Çağdaş milli dramaturqların əsərlərindən bəhrələnməklə yanaşı, teatr bu səpkili tərcümə əsərlərinə də daim müraciət etməyə başlayır.

60-cı illərin əvvəllərindən Naxçıvan Teatrında yerli müəlliflərlə yaradıcılıq əlaqəsinə meyl nəzərəçarpacaq dərəcədə güclənmişdi. Belə ki, 1960-1964-cü illərdə C.Məmmədquluzadənin "Ölülər" (1961), H.Cavidin "Səyavuş" (1962) əsərlərinin yeni quruluşda tamaşaya qoyması ilə yanaşı İ.Səfərlinin "Ana ürəyi" (1960), C.Əmirovun "Sahil əməliyyatı" (1960, səhnələşdirən İ.Həmzəyev), H.Razinin "Odlu diyar" (1963), K.Ağayevanın "Məhsəti" (1964) pyesləri də teatrın repertuarına daxil edilmişdi.

1964-cü il Naxçıvan Teatrının tarixində çox mühüm və əlamətdar bir hadisə olur. Teatr həmin ilin ayında şəhərin mərkəzində inşa olunmuş yeni, üçmərtəbəli, əzəmətli binaya köçürülür. Demək olar ki, 1964-cü ilin yanvar ayından Naxçıvan Teatrının profili rəsmi surətdə dəyişdirilmiş və ona "musiqili dram teatrı" adı verilmişdi.

Yeni binaya köçüründükdən sonra isə teatr Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı adlandırıldı. Naxçıvan MSSR yaradılmasının 40 illiyinə həsr olunmuş təntənəli yığıncaq keçirilən gün – 1964-cü il oktyabrın 15-də Naxçıvan Teatrının yeni binası da istismara verildi. Yubileyin təntənəli yığıncağı və konserti də teatrın yeni binasında oldu. Bu binada ilk dəfə tamaşaya qoyulan əsər Kəmalə Ağayevanın "Məhsəti" mənzum pyesi oldu. Tamaşanın quruluşçu rejissoru, teatra yenicə baş rejissor təyin olunan Baxşı Qələndərli maraqlı aktyor ansamblı ilə məzmunlu quruluş verməyə nail olmuşdu.

Arada müəyyən fasilə ilə 1970-ci illərin sonunadək qədim sənət ocağının baş rejissoru işləyən Azərbaycan SSR əməkdar incəsənət xadimi B.Qələndərli, ümumilikdə fəaliyyət göstərdiyi 20 il ərzində bu səhnədə milli klassik və müasir dramaturgiyamızın, həmçinin sovet, rus, Avropa və dünya dramaturqlarının ən gözəl inciləri əsasında monumental, məzmunlu, yaddaqalan tamaşalar yaratmağa müvəffəq olmuşdur.

Belə tamaşalardan "Anamın kitabı"nı (C.Məmmədquluzadə), "Cehizsiz qız"ı (A.Ostrovski), "Hücum"u (B.Lavrenyov), "Müsyö Jordan və dərviş Məstəlişah"ı və "Hacı Qara"nı (M.F.Axundov), "Laçın yuvası"nı (S.S.Axundov), "Oqtay Eloğlu"nu və "Solğun çiçəklər"i (C.Cabbarlı), "Yarımçıq şəkil"i (A.Babayev), "Yaxşı adam"ı (M.İbrahimov), "Sən həmişə mənimləsən"i (İ.Əfəndiyev), "Mehmanxana sahibəsi"ni (K.Goldoni), "Darıxma, ana!"nı (N.Dumbadze), "Arşın malalan"ı və "O olmasın, bu olsun"u (Ü.Hacıbəyov), "Onlar dörd nəfər idilər"i (K.Simonov), "Zirehli qatar 14-69"u (V.İvanov), "Şeyda"nı (H.Cavid) misal göstərmək olar.

1965-ci il Naxçıvan Teatrının tarixinə və ümumiyyətlə muxtar respublikanın mədəni həyatına ən unudulmaz illərdən biri kimi həkk olundu. Həmin il iyun ayının 14-dən 21-dək respublikamızın paytaxtında – Bakıda "Naxçıvan MSSR mədəniyyət həftəsi" keçirilmişdi. Muxtar respublikanın şair və yazıçıları, musiqi kollektivlərilə yanaşı Naxçıvan Dövlət Musiqili Dram Teatrı da repertuarında olan üç tamaşa ilə paytaxt ictimaiyyəti qarşısında çıxış etmişdi.

Teatr paytaxt tamaşaçılarına Azərbaycan Dövlət Akademik Dram Teatrının səhnəsində demək olar ki, hamısı yerli müəlliflərin əsərlərindən ibarət bir repertuar – H.Razinin "Odlu diyar", K.Ağayevanın "Məhsəti" və C.Əmirovun eyniadlı romanı əsasında rejissor İ.Həmzəyevin səhnələşdirdiyi "Sahil əməliyyatı" tamaşalarını təqdim etmişdi. O dövrün mətbuatından məlum olur ki, bu tamaşalardan "Məhsəti" daha böyük müvəffəqiyyət qazanmış, ədəbi və teatr tənqidi tərəfindən yüksək qiymətləndirilmişdi.

Həmin vaxt mətbuatda teatrın baş rejissoru Baxşı Qələndərlini Naxçıvan Teatrı üçün tapıntı adlandıran görkəmli alim və ictimai xadim, sənətşünaslıq doktoru, professor Cəfər Cəfərov yazmışdı: "...Təəccüblü deyilmidir ki, Naxçıvan Teatrının indiki gəlişi Bakıya ümumiyyətlə ilk gəlişidir? Burada həşiyə çıxaraq deməliyik ki, qoy bu gəliş ənənəyə çevrilsin... Deyildiyi kimi, Naxçıvan Teatrı köklü, əsaslı teatrdır... Naxçıvanın truppasında yaxşı bir sabitlik keyfiyyəti vardır...

...Naxçıvanlıların müstəqilliyə meylini çox bəyənirik. Onların gətirdikləri əsərlərdən, xüsusən "Məhsəti"dən duyuruq ki, teatrın bu sahədəki səyləri təkcə özü üçün deyil, ümumiyyətlə Azərbaycan teatrı üçün çox bərəkətli ola bilər. Teatrın tamaşalarını müzakirələrdə "Məhsəti"ni Akademik Teatrın səhnəsində göstərmək (yenidən tamaşaya qoymaq – Ə.Q.) arzusu bildirildi və olsun ki, bu arzu olaraq qalmayacaqdır... Bizim gördüyümüz "Məhsəti" göstərir ki, Qələndərli teatr üçün tam mənası ilə tapıntıdır və gələcəkdə böyük xeyir verə biləcəkdir. Ən yaxşı cəhət burasıdır ki, Qələndərlinin rejissorluğunda ciddi bir səliqə, mədəniyyət və müasirlik duyulmaqdadır" [2, s. 312].

1972-ci ilin əvvəllərində Nəsir Sadıqzadə Naxçıvan DMD Teatrına baş rejissor göndərildi. Müxtəlif vaxtlarda Bakıda, Sumqayıt Teatrında, İrəvan Dövlət Azərbaycan Dram Tearında maraqlı quruluşlara imza atan N.Sadıqzadə 1973-cü ilin ortalarınadək Naxçıvan səhnəsində də "Sahildə məhəbbət" (S.Mixalkov), "Yağışdan sonra" (B.Vahabzadə), "Məhv olmuş gündəliklər" (İ.Əfəndiyev), "Həmyerlilər" (A.Məmmədov) kimi yaddaqalan tamaşalar hazırladı. Müstəqillik illərində "Azərbaycanfilm" Kinostudiyasının "Qara volqa", "Həm ziyarət, həm ticarət" və "Bəxt üzüyü" filmlərində N.Sadıqzadə müxtəlif rollara çəkilmişdir.

1974-cü ildə Moskvada ixtisasartırma kursunu müvəffəqiyyətlə başa vurub Nax-

çıvana qayıdan Vəli Babayev doğma teatrına baş rejissor təyin olundu. 1966-cı ildə Azərbaycan Dövlət Teatr İnstitutunun (indiki Dövlət Mədəniyyət və İncəsənət Universitetinin) rejissorluq fakültəsini bitirən, həmin vaxtdan ilk naxçıvanlı ali təhsil almış rejissor kimi Naxçıvan DMD Teatrında fəaliyyətə başlayan və 14 tamaşaya uğurlu quruluşlar vermiş Vəli Babayev 1972-ci ilin avqust ayında Moskvaya göndərilmiş və iki il burada – Akademik Bədaye Teatrında görkəmli rejissor və aktyor Oleq Yefremovun yanında təşkil edilmiş ixtisasartırma kursunda olmuşdu.

V.Babayev Naxçıvan Teatrının tarixində milli və tərcümə əsərlərinə verdiyi maraqlı quruluşlarla yanaşı, əsasən Türkiyə dramaturq və yazıçılarının əsərlərinə ilk dəfə müraciət edən bir rejisor kimi yaddaşlarda yaşayır. Eyni zamanda o, yerli müəlliflərin də bir neçə pyesinə ilk səhnə həyatı vermişdir. Azərbaycan teatrı tarixində isə Vəli Babayev C.Məmmədquluzadənin "Dəli yığıncağı" əsərinə yazıldığı vaxtdan ilk dəfə olaraq 1975-ci ildə məhz Naxçıvan DMD Teatrında səhnə həyatı verməsilə özünəməxsus bir səhifə açmışdır. Bu hadisədən üç il sonra, 1978-ci ildə həmin əsər Bakıda, Akademik Dram Teatrda, Mehdi Məmmədov tərəfindən tamaşaya qoyulmuşdur.

Özünün yaradıcılıq fəaliyyəti ərzində vaxtaşırı İrəvandakı Dövlət Azərbaycan Dram Teatrına və Lənkəran Dövlət Dram Teatrına dəvətlər alan V.Babayev bu səhnələrdə də bir neçə uğurlu tamaşa qura bilmişdi. 1984-cü ilə qədər baş rejissor işləyən V.Babayev sonrakı 5 il ərzində quruluşçu rejissor kimi doğma teatrında sanballı, məzmunlu klassik və müasir əsərlər əsasında tamaşalar ərsəyə gətirmişdir.

Nəhayət, məhsuldar və səmərəli fəaliyyəti nəzərə alınan Azərbaycan SSR əməkdar artisti Vəli Babayev 1989-cu il yanvarın ortalarında Respublika Mədəniyyət Nazirliyinə dəvət olunur və nazirin müvafiq əmrilə yenidən Naxçıvan Dövlət Musiqili Dram Teatrının baş rejissoru vəzifəsinə təyin edilir. Böyük həvəs və arzularla doğma şəhərinə qayıdan Vəli Babayev yanvar ayının 22-də, səhər teatra gəlir, onu qarşılayan hər kəsin təbrikini qəbul edib ikinci mərtəbədəki baş rejissor otağına qalxır. Beş dəqiqə keçməmiş kabinetinin astanasında onun vəfat etməsi xəbəri ildırım sürətilə bütün şəhərə yayılır.

1984-cü ildə qədim sənət ocağının baş rejissorları cərgəsinə burada ali ixtisas təhsilli aktyor kimi 15 il işləmiş Vaqif Əsədovun da adı əlavə olundu. Azərbaycan SSR əməkdar artisti (indi xalq artisti) V.Əsədov o vaxta qədər bir sıra tamaşalarda rejissor assistenti, daha sonralar ikinci rejissor olmuş, 3 tamaşaya isə müstəqil quruluş vermişdi. Onun 80-ci illərdə yeni yaradılan "Cavid" Poeziya Teatrında bir neçə maraqlı tamaşası olmuş, DMD Teatrının səhnəsində hazırladığı "Elektra" tamaşası 1987-ci ildə Tbilisidə keçirilən Ümumittifaq Teatr Festivalında uğurla nümayiş etdirilərək xüsusi mükafata layiq görülmüş və bu tamaşa iyunun 14-də Moskvadan, Mərkəzi Televiziya ilə göstərilmişdir.

1988-ci ildə Bakıya köçən və həmin vaxtdan Dövlət Gənc Tamaşaçılar Teatrında quruluşçu rejissor işləyən V.Əsədov Naxçıvan Teatrının tarixində yaradıcı heyətin ahıl nəslinə qarşı qeyri-səmimi, aqressiv, onlarla əməkdaşlığı qəbul etməyən bir baş rejissor kimi qalmışdır.

1989-cu ildə artıq bir neçə il burada ali təhsilli aktyor kimi çalışan Əsgər Əsgərov (indi Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi) teatra baş rejissor təyin edildi. Bu vəzifədə fəaliyyət göstərdiyi 7 ildən artıq bir müddətdə o, milli və xarici dramaturqların əsərləri əsasında maraqlı tamaşalar hazırlamağa nail olmuşdur. Eyni zamanda bu səhnədə aktyor kimi də yaradıcılığını xeyli genişləndirmiş, xüsusən də "Cavid" Poeziya Teatrının "Yenə o bağ olaydı..." tamaşasında onun canlandırdığı Mikayıl Müşfiq obrazı hələ də yaddaşlarda yaşamaqdadır. Ə.Əsgərov 1996-cı ildən Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının quruluşçu rejissorudur.

1996-98-ci illərdə teatrda baş rejissor vəzifəsi boş qaldı. 1981-1993-cü illərdə DMD Teatrının, 1994-1998-ci illərdə isə Naxçıvan Dövlət Kukla Teatrının aktyoru işləmiş, respublikanın əməkdar artisti (indi xalq artisti) Kamran Quliyev 1998-ci ildə qocaman teatrın yeni rəhbərliyi tərəfindən baş rejissor vəzifəsinə dəvət olundu. O, əsasən yerli və müasir müəlliflərin pyeslərinə quruluş verməklə bir sıra klassik əsərləri də tamaşaya hazırlayıb. Paralel olaraq burada aktyorluq fəaliyyətini də davam etdirərək 2004-2013-cü illərdə teatrın direktoru vəzifəsini də daşıyıb. 2013-cü ildə hər iki vəzifəsindən azad edilən və hazırda Naxçıvan MR Mədəniyyət Nazirliyində işləyən K.Quliyev yeni tamaşa hazırlamaq üçün yenə də vaxtaşırı teatra dəvət olunur.

Bu gün üç əsri əhatə edən Naxçıvan Dövlət Musiqili Dram Teatrının 5 ildir ki, baş rejissoru yoxdur. Belə bir məşhur deyim var: "Baş rejissorsuz teatr kapitansız gəmiyə bənzəyir". Bəli, bu gün "kapitansız" qalmış 135 yaşlı bu teatr da "yaradıcılıq dalğaları" arasında ləngər vurmaqdadır. Həmin səbəb də teatrın Bədii Şurasının normal, ciddi fəaliyyətinə, aktyorların yaradıcılıq potensialından düzgün istifadə olunmamasına, təsadüfi, səviyyəsiz, səhnə ömrü 3-4 tamaşa ilə bitən pyeslərin repertuara yol tapmasına və ümumilikdə teatrın sağlam atmosferinə öz mənfi təsirini göstərməkdədir. 135 yaşlı teatrımız özünün son 35 illik tarixi ərzində sözün əsl mənasında, ali ixtisas təhsilli, peşəkar baş rejissora möhtacdır.

ƏDƏBİYYAT

1. "Azərbaycan" qəz.
2. Cəfərov C. Əsərləri: 2 cilddə, I c., Bakı: Azərnəşr, 1968, 364 s.
3. Xəlilov Ə. Naxçıvan Teatrının tarixi. Bakı: ATC, 1964, 93 s.
4. Kərimov İ. Heydər Əliyev sənət, sənətkarlar və sənətkarlıq haqqında. Bakı: Ulu, 2005, 227 s.
5. Qasımov Ə. Naxçıvan Teatrında tərcümə əsərlərinin tamaşaları (1883-2013). Bakı: AfpoliqrAF, 2016, 176 s.
6. Rəhimli İ., Vəzirov C. Naxçıvan Teatrı (1883-2008). Bakı: Aspoliqraf, 2008, 352 s.

Алекбер Гасымов

ГЛАВНЫЕ РЕЖИССЕРЫ НАХЧЫВАНСКОГО ТЕАТРА

В статье рассказывается о людях, работавших за последние 95 лет главными режиссерами 135-летнего Нахчыванского театра. А также исследуется их творчество, поставленные ими спектакли, в том числе их вклад в деятельность Нахчыванского театра. Здесь освещается как деятельность в театре, так и заслуги этих гениальных мастеров перед автономной республикой. В конце привлечено внимание к сегодняшней проблеме – отсутствию главного режиссера Нахчыванского государственного музыкально-драматического театра.

Ключевые слова: *Нахчыванский театр, главный режиссер, сцена, спектакль, актер.*

Alakbar Gasimov

HEAD PRODUCERS OF THE NAKHCHIVAN THEATRE

The article deals with the persons who were the head producer of 135 years old Nakhchivan Theatre during latest 95 years. The author investigates their creative work, the spectacles prepared by them and also the innovation which they brought to Nakhchivan Theatre. In here the author has analyzed the genius craftsmen's servings in front of the autonomous republic and also their activity in the theatre. At the end the author attracts attention to the problems of Nakhchivan State Musical Dramatic Theatre as it has no any professional head producer.

Keywords: *Nakhchivan Theatre, head producer, stage, spectacle, actor.*

(Sənətşünaslıq üzrə elmlər doktoru, professor İlham Rəhimli tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2018, № 1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2018, № 1

PROCEEDINGS OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES NAKHCHIVAN BRANCH OFFICE
The series of social sciences and humanities, 2018, № 1

BRİLLİANT CƏFƏRLİ
AMEA Naxçıvan Bölməsi
E-mail: brilliantceferli@hotmail.com

CAVİD ÖLMƏZLİYİNƏ LAYİQLİ TÖHFƏ – HÜSEYN CAVİD MƏQBƏRƏSİ

Məqalə XX əsr bədii fikrimizin mərdlik və əyilməzlik simvoluna çevrilmiş Hüseyn Cavidin xatirəsinə ucaldılmış Hüseyn Cavid məqbərəsinə həsr olunmuşdur. Göstərilir ki, kaşməkəşli, əzab-əziyyətli həyat yolu keçmiş Hüseyn Cavidin məqbərəsini ucaltmaq üçün ümummilli lider, dahi şəxsiyyət Heydər Əliyev o dövr üçün çox çətin olan bir işi bacarmış, əvvəlcə Hüseyn Cavidin naşini Sibirdən Azərbaycana gətirmiş, cənazənin dəfn olunmasından 15 il keçməsinə baxmayacaq, bütün çətinliklərə rəğmən öz qərarından əl çəkməmiş və nəhayət 1996-cı ildə Cavid əfəndinin xatirəsini əbədiləşdirəcək məqbərə ucaltmışdır. Öz gözəlliyi və sadəliyi ilə seçilən məqbərədə Cavid ailəsinin bütün üzvlərinin dəfn edilməsi nə qədər ayrı düşsələr də, onların bir-birinə hər zaman bağlılığının ifadəsidir.

Açar sözlər: *Cavid, məqbərə, sərdabə, qəbir.*

Azərbaycan əsrlər boyu xalqına təmənnasız xidmət edən, xalqı üçün çalışan, mübarizə aparan dahi şəxsiyyətlərimizi heç vaxt unutmamış, onların xatirəsini əbədiləşdirmiş, onların şərəfinə bir çox abidələr ucaltmışdır. XX əsr bədii fikrimizin mərdlik və əyilməzlik simvoluna çevrilmiş, Azərbaycanın böyük şairi, yazıçı, dramaturq, filosof, böyük ədib, Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyanının banisi, kaşməkəşli, əzab-əziyyətli həyat yolu keçmiş Hüseyn Cavidin xatirəsinə ucaldılmış, Hüseyn Cavid ölməzliyinə layiqli töhvə olan Hüseyn Cavid məqbərəsi də Azərbaycan xalqının öz dahi şairinə böyük hörmətin və ehtiramın ifadəsidir. Hüseyn Cavidin qəbri üzərində ucaldılmış bu məqbərə ümummilli lider, dahi öndər, Azərbaycan dövlətinin memarı Heydər Əliyevin böyük səyi, zəhməti, şəxsi təşəbbüsü və himayəsi nəticəsində inşa olunmuşdur.

Bununla bağlı 1995-ci il iyun ayının 10-da Hüseyn Cavidin məqbərəsinin yaradılması ilə bağlı Heydər Əliyevin yanında müşavirə keçirildi. Müşavirəni giriş sözü ilə Heydər Əliyev açmışdır. Dahi şəxsiyyət öz çıxışında bildirmişdir: "Bu gün mən sizi mədəniyyətimizlə, ədəbiyyatımızla bağlı olan bir məsələ üçün-Azərbaycan xalqının böyük şairi, yazıçısı, dramaturqu, filosofu Hüseyn Cavidin xatirəsi ilə əlaqədar buraya dəvət etmişəm. 1981-ci ildə biz Hüseyn Cavidin cənazəsini Sibirdən gətirərkən geniş müzakirələr oldu və nəhayət, bu müzakirələr belə nəticə verdi ki, o, Naxçıvanda – anadan olduğu yerdə dəfn olunsun. Biz belə də etdik. Hüseyn Cavidin cənazəsinin Naxçıvanda torpağa tapşırılması haqqında qəbul etdiyimiz qərarın əsas səbəblərindən biri də o idi ki, onun qəbri adi bir qəbir olmasın, böyük bir məqbərə olsun. Ona görə də Hüseyn Cavidin cənazəsi Naxçıvana aparıldı və orada şəhərin mərkəzində dəfn edildi. Ancaq təəssüf ki, sonrakı illərdə məqbərə də tikilməyib, hətta qəbrin üstü də götürülməyibdir. Güman edirəm ki, indi biz o qərarı həyata keçirməliyik. Mən 1990-cı ildə Moskvadan Azərbaycana döndüm, Naxçıvana getdim və elə həmin gün Hüseyn Cavidin qəbrini ziyarət etdim. Fikirləşirdim ki, məqbərə yoxdursa da, heç olmasa sənətkarın qəbrinin üstü götürülüb. Gördüm ki, qəbrin üstünə sadəcə olaraq daşlar qoyulub. Məqbərə də tikilməyib. O

vaxt mən bu məsələnin həllinə can atdım. Mənim təzyiqim nəticəsində vilayət partiya komitəsinə bir layihə gətirdilər, rəhmətlik Afiyəddin Cəlilov o layihəni bir gün mənə göstərdi və dedi ki, sizin təklifinizlə belə bir layihə hazırlanıb. Layihə xoşuma gəlmədi. Mən hesab etdim ki, bu layihə "məqbərə" məfhumunu əks etdirmir. Düzünü deyim ki, mən buraya gələndən bu planın həyata keçirilməsi fikri daim qəlbimdədir. Bu müddətdə də göstərişlər vermişəm, xahişlər etmişəm ki, layihələr hazırlansın. Ancaq bir çox ciddi problemlər buna imkan verməyib. Nəhayət, hesab edirəm ki, indi bu məsələ ilə ciddi məşğul olmalıyıq. Oktyabr ayında Hüseyn Cavidin anadan olmasının ildönümüdür. O vaxtadək bu məqbərəni tikib başa çatdırmalıyıq. Yəni 1981-ci ildə qəbul etdiyimiz qərarı heç olmasa 1995-ci ildə həyata keçirməliyik. Birincisi, bu məsələyə görə sizi buraya dəvət etmişəm. Mənə dedilər ki, burada bir neçə layihə var. Elçin Əfəndiyevə də, Fatma Abdullazadəyə də tapşırmışdım ki, həmin layihələrə baxsınlar, sonra oturub fikirləşək, məsləhətləşək. 1981-ci ildə biz qərar qəbul etmişdik ki, Bakıda Hüseyn Cavidin abidəsi qoyulsun. Heykəltəraş Ömər Eldarov bu işə başlamışdı və o vaxt onun emalatxanasında eskizlərlə tanış olmuşdum. Heykəlin yeri barədə də müxtəlif fikirlər oldu. Nəhayət, heykəlin yeri müəyyən olunub və uzun müddətdən sonra abidə də qoyulub. Ancaq mən Ömər Eldarovla görüşdüm, danışdım. Mənə deyilənə görə, həmin abidə kompleksi hələ tamamlanmayıb. Hər halda, bu da şəhərin sərəncamında olan işdir. İndi görürəm ki, həmin məsələyə də mən qarışmasam həll olunmur. Bax, mən bütün bu məsələləri həll etmək üçün sizi buraya dəvət etmişəm. Mənim qəti fikrimdir ki, bu ilin oktyabr ayınadək Naxçıvanda Hüseyn Cavidin qəbri üzərində möhtəşəm bir abidə, məqbərə qurulmalıdır. Ona görə də biz bu gün burada olan layihələrə baxaq, onların hansı birini seçə biləriksə, seçək. Mən belə qərara gəlmişəm ki, hökumətin, dövlətin ehtiyat fondundan vəsait ayrılsın, lazım olan materiallar qısa müddətdə tapılsın, inşaat işləri aparılsın və məqbərə qurulsun. Mən bu gün buraya heykəltəraşları, memarları, rəssamları da dəvət etmişəm ki, bu layihələrə hamımız birlikdə baxaq. Ancaq məqbərənin bu ilin oktyabr ayınadək yaranması təmin olunmalıdır. Fikrim qətidir, mən bu barədə sərəncam verəcəyəm və bunun üçün lazım olan vəsaiti dövlətdən ayıracağam. Biz bu gün layihəni müəyyənləşdirməliyik və mən bundan sonra inşaat işlərinə başlamaq üçün müəyyən orqanlara lazımi tapşırıqlar verəcəyəm" [2, s. 10, 11].

Müşavirədə Elçin Əfəndiyev bildirmişdir ki, bir müddət əvvəl Heydər Əliyev Hüseyn Cavidin qəbirüstü abidəsinin qurulmasına diqqətlə yanaşmaq barədə bizə lazımi tapşırıqlar vermişdir. Bununla əlaqədar hazırda çox ciddi, istedadlı beş əsər meydana gəlib. Naxçıvan Muxtar Respublikasının özündə də bu məqsədlə bir sıra layihələr yaradılmışdır. Heydər Əliyevin tapşırığı ilə heykəltəraş Ömər Eldarovun emalatxanasında da çox ciddi işlənmiş bir layihə hazırlanmışdır [1, s. 17, 18].

Hüseyn Cavidin məqbərəsinin layihələri ilə tanışlıqdan əvvəl Heydər Əliyev yaradılacaq məqbərə barədə öz fikirlərini bir daha bildirərək demişdir: "İndi biz bu layihələrə baxacağıq. Əgər keçmişi götürsək, Naxçıvanda çox böyük bir tarixi məqbərə vardır – dahi memar Əcəmi Naxçıvaninin əsəri. O, 800 ildir yaşayır. Bu, Məminə Xatun məqbərəsidir. Bilirsiniz ki, onun altı qəbirdir. Naxçıvanda belə bir möhtəşəm məqbərəni bizim əcdadlarımız yaradıblar. Bu, Azərbaycan memarlıq tarixində, sənətində ən görkəmli yerlərdən birini tutur. Ona görə də Hüseyn Cavidin cənazəsi Sibirdən gətiriləndə mən məhz bu fikrin tərəfdarı oldum ki, onun qəbri Naxçıvanda olsun, bir tərəfdə Əcəmi Naxçıvaninin yaratdığı Məminə Xatun məqbərəsi, o biri tərəfdə isə XX əsrdə bizim nəslin yaratdığı Hüseyn Cavid məqbərəsi olsun. Bax, o vaxt həmin qərarın qəbul olunmasına bu məqsədlə imza atmışam və o fikirlə yaşayıram. Ona görə də istəyirəm ki, indi bizim üçün çətin olsa da, belə bir möhtəşəm məqbərə yaradaq. Bu həm böyük memarlıq

abidəsi, həm də Hüseyn Cavidin xatirəsinə layiq məqbərə olsun. Hesab edirəm ki, hazırlanmış layihələrə də bu nöqteyi-nəzərdən baxmaq lazımdır. İndi isə həmin layihələrə baxaq" [2, s. 11, 12].

Sonra Heydər Əliyev Hüseyn Cavidin məqbərəsinin layihələri ilə tanış oldu. Əvvəlcə Naxçıvanın baş memarı Qabil Cəfərov vaxtilə Heydər Əliyevin tapşırığı ilə işlənmiş layihə barədə məlumat verdi. Sonra Fəxrəddin Miralayev, Hacımurad Şuqayev, Ömər Qoçulu, Ədalət Məmmədov, Tələt Xanlarov, Vahid Musayev, Elbəy Qasımzadə öz layihələrini dövlət başçısına təqdim etdilər. Respublika rəhbəri bu layihələrlə diqqətlə tanış oldu, onlarin hər biri haqqında öz mülahizələrini söylədi və dəyərli təkliflərini verdi: "Düşünürəm ki, belə etmək lazımdır. İndi mən bunların hamısına baxıram, fikrim bir az dağılır. Belə fikirdəyəm ki, bu layihələri yandakı salona qoysunlar, iki-üç gün ərzində hərə fərdi qaydada gəlib bu layihələrə baxsın. Turan xanım özü də bu layihələrə bir daha diqqətlə baxsın. Mən özüm də vaxt taparam. Heç kəs olmayanda bir saat oturub bu layihələrə bir də baxaram. Üç-dörd gündən sonra bir daha yığışarıq və konkret qərar qəbul edərik. Ancaq mən ümumi fikirləri demək istəyirəm. Həmin fikirlər bundan ibarətdir ki, nəhənglikdən uzaq olmaq, oradakı yeri mütləq nəzərə almaq lazımdır. Elə olmalıdır ki, məqbərə nə çox böyük, nə də çox kiçik olmasın. Əsas fikrim belədir. Qəbir məqbərənin içində olsun və orda elə bir şərait yaradılsın ki, insan girib orada ziyarət edə bilsin, qəbrin yanında dursun, düşünsün. Məqbərənin o tərəfdən, bu tərəfdən açıq olmasının tərəfdarı deyiləm. Tarixən yaradılan məqbərələrin də hamısı tamam örtülü olmayıb. Məsələn, Məminə Xatun məqbərəsi tam qapalıdır, ancaq haradansa yuxarıdan bir balaca işıq düşür. Belə də olmalıdır. Elə etmək lazımdır ki, bu məqbərənin içində sakit bir böyük olsun. Məqbərə gərək çox böyük olmasın. Hüseyn Cavidin əsərlərindən obrazların təsvirləri də səmimi olsa yaxşıdır. Mən belə fikirdəyəm ki, bu məqbərəni xaricdən görəndə də gərək fikir cəmlənsin və onun içərisində olanda da fikir dağılmasın. Məqbərənin miqyası da buna uyğun olmalıdır. Gərək bu layihələrin müəllifləri də ciddi fikirləşsinlər və biz də bir az fikirləşək. Ancaq yaddan çıxarmaq olmaz ki, bu məsələ üç-dörd günün içərisində həll edilməlidir. Şübhəsiz ki, biz bu layihələrdə müasirliyi nəzərə almalıyıq. Həm də burada Azərbaycanın milli memarlıq ənənələri nəzərə alınmalı və oradа bunun nişanələri olmalıdır. Demək istəyirəm ki, memarlarımızda mühafizəkarlıq var. Bir tərəfdən Azərbaycanın milli ornamentlərini təbliğ edirlər, digər tərəfdən isə bunu öz işlərində tətbiq edəndə nədənsə çətinlik çəkirlər. Bu baxımdan arzu edirəm ki, bu layihələrin hansınısa seçək, birləşdirək, sintez edək, bir də baxaq. Amma bu amili də nəzərdə tutaq ki, müasirlik də olsun, ancaq milli memarlıq ənənələri də unudulmasın. Həm gözəl, həm də sadə olsun. Gözəllik eyni zamanda sadə olanda daha gözəl görünür. Bir sözlə, biz qısa müddətdə layihəni seçməli, müəyyənləşdirməli və Naxçıvanda bu məqbərənin inşasına başlamalıyıq. Bu məqbərə Hüseyn Cavidin anadan olması günündən də bir xeyli qabaq, sentyabrın axırında hazır olmalıdır. İndi Ömər Eldarov burada bir heykəltəraşlıq nümunəsi göstərdi. Ona da baxmaq olar, yaxud başqa bir nümunə də hazırlamaq olar. Hər halda məqbərənin içində heykəl, yaxud büst olsun. Hüseyn Cavidin surəti məqbərənin içində mütləq olmalıdır. Xahiş edirəm ki, bunu nəzərə alasınız. Elə olmasın ki, məqbərənin içində tək qəbir daşı olsun" [2, s. 12, 13].

Müşavirədə Heydər Əliyev Hüseyn Cavid abidə-kompleksi ilə bağlı problemlərlə də maraqlandı. Bu barədə heykəltəraş Ömər Eldarov məlumat verdi. Sonra Bakı şəhərinin baş memarı Elbəy Qasımzadənin məlumatı dinlənildi. Həmin məsələ də müşavirədə öz həllini tapdı. Şərq Ölkələri Beynəlxalq Memarlıq Akademiyasının prezidenti Şamil Fətullayev çıxış edərək bildirdi: "Bu akademiyanın ötən ilin noyabrında keçirilmiş sessiyasına Heydər Əliyevin təbrik məktubu olmuşdur. Heydər Əliyevə cavab

məktubunda isə belə deyilir ki, sessiya iştirakçıları memarlıq, tikinti, incəsənət sahəsinə göstərdiyi böyük diqqət və qayğıya görə Heydər Əliyevi Şərq Ölkələri Beynəlxalq Memarlıq Akademiyasının həqiqi üzvü seçmişlər" [1, s. 21].

Heydər Əliyev müşavirəyə yekun vuraraq demişdir: "Mən mədəniyyətə öz münasibətimi əməlimlə, işimlə həmişə bildirmişəm. Vaxtilə memarlarla da dəfələrlə görüşmüşəm və memarlığa xüsusi hörmətim var. Burada işlədiyim dövrdə tikilən binalarda, yaranan şəhərlərdə Azərbaycan memarlığının inkişaf etdirilməsinə çalışmışam. Bakının və ayrı-ayrı digər şəhərlərimizin tikilməsi, inkişaf etdirilməsi ilə əlaqədar layihələrə memarlarla birlikdə baxıb öz mülahizələrimi bildirmişəm. Ona görə mən mütləq vaxt tapıb memarlarla görüşəcəyəm" [2, s. 13].

Məqbərənin açılışı isə Hüseyn Cavidin anadan olmasının 114 illiyi münasibətilə 1996-cı il 29 oktyabrda olmuşdur. Ümummilli lider Heydər Əliyev şəxsən məqbərənin açılışında iştirak etmiş və nitq söyləmişdir. Heydər Əliyev öz çıxışında bildirmişdir: "Hüseyn Cavid XX əsrdə Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişaf etməsində misilsiz xidmətlər göstərmişdir. Hüseyn Cavid Azərbaycan xalqını, onun mədəniyyətini, ədəbiyyatını, elmini yüksəklərə qaldıran böyük şəxsiyyətlərdən biridir. Hüseyn Cavidin yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir. Hüseyn Cavidin bütün yaradıcılığı, bütün fəaliyyəti Azərbaycan xalqının mədəniyyətini yüksəklərə qaldırmaqdan, xalqımızı azad, müstəqil xalq etməkdən ibarət olmuşdur. Hüseyn Cavid Azərbaycan xalqının tarixində görkəmli yer tutub. Məhz bunlara görə də biz 1981-ci ildə Hüseyn Cavidin anadan olmasının 100 illik yubileyi haqqında böyük bir qərar qəbul etdik. Bu gün böyük iftixar hissi ilə deyə bilərəm ki, mən bu qərarın həm təşəbbüskarı, həm də onun müəllifiyəm. Bu gün mən xoşbəxtəm ki, həmin o vaxt nəzərdə tutduğum arzuların, istəklərim 15 ildən sonra yerinə yetirilir. 1982-ci ildə Hüseyn Cavidin cənazəsini uzaq Sibirdən Azərbaycana gətirmək asan iş deyildi. Ancaq xalqımıza, millətimizə, tariximizə, mədəniyyətimizə, ədəbiyyatımıza, mənəviyyatımıza olan sədaqət mənə belə bir cəsarət göstərməyə imkan verdi. Mən bunu etdim. O vaxt Hüseyn Cavidin cənazəsini Azərbaycana gətirərkən onu Bakıda, yaxud doğulduğu yerdə torpağa vermək barədə müxtəlif fikirlər var idi. Bu məsələ müzakirə olundu. Yazıçılarımız, alimlərimiz, ziyalılarımız böyük fikir mübadiləsi apardılar. Onlar qərar qəbul etdilər. Bu, mənim də qərarım idi ki, cənazə Naxçıvana gətirilsin.

Naxçıvan böyük şəxsiyyətlər yetişdirmiş bir torpaqdır. Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır. Ona görə də Hüseyn Cavidin cənazəsinin Naxçıvanda torpağa verilməsi həm Hüseyn Cavidin ruhuna olan hörmət idi, həm də Azərbaycanın ayrılmaz hissəsi, müqəddəs guşəsi olan Naxçıvana hörmət və etiramın əlaməti idi. O vaxt biz bu işi etdik. Mən bu işi ədərkan ziyalılarımıza, yazıçılarımıza, alimlərimizə bildirdim ki, Hüseyn Cavidin cənazəsi adi qəbristanda yox, Naxçıvan şəhərinin mərkəzində, onun doğulduğu evin yanında, görkəmli bir yerdə torpağa veriləcək. O məqsədlə ki, bu, adi qəbir olmayacaq. Qəbrin üzərində böyük məqbərə tikiləcək və bu, böyük abidəyə, ibadətgaha çevriləcəkdir. Belə fikirlərlə, duyğularla, arzularla o vaxt biz bu qərarı qəbul etdik. Təəssüflər olsun ki, bunu sonrakı illərdə həyata keçirmək mümkün olmadı. 1990-cı ildə mən Naxçıvana gələndən bir neçə gün sonra sakit bir vaxtda təkcə, yenə də Hüseyn Cavidin qəbrinin yanına gəldim, düşündüm: "Bəs o məqbərəni biz nə vaxt tikə biləcəyik?"

Bir neçə təşəbbüs etdim. Mənim əziz həmvətənlərim, ancaq siz də bilirsiniz ki, o vaxt mənim bu imkanlarım yox idi. Görünür, Allah hər bir şeyi ədalətlə edir. Nəhayət, mən Azərbaycanın prezidenti seçiləndən sonra dərhal bu məsələ ilə məşğul oldum. Turan xanım bilir, onu bir neçə dəfə yanıma dəvət etdim. Layihələr hazırlamaq barədə memarlara sifarişlər verdim. Bir çox layihələr hazırlandı. O layihələrə mən Turan xanımla, bir çox memarlarla birgə bir neçə dəfə baxmışam. Nəhayət, memar Rasim Əliyevin təklif etdiyi layihə əsasən qəbul olundu. Ancaq əsasən, onun üzərində çox işləmək lazım oldu. Düşünməyin ki, mən bu gün təvazökarsızlıq edirəm, ancaq bu həqiqətdir, onu demək istəyirəm ki, bu məqbərənin necə olması, hansı memarlıq üslubunda olması haqqında çox düşünmüşdüm. Ona görə də öz təvsiyələrimi, mülahizələrimi verdim, fikirlərimi söylədim. Memar Rasim Əliyev onları həyata keçirə bildi. Son layihə təsdiq olunandan sonra məqbərənin inşasına başladıq. İnşaat işləri qısa müddətdə getdi. Böyük məmnuniyyət hissi ilə deyə bilərəm ki, Naxçıvan Muxtar Respublikasının rəhbərliyi – Ali Məclisin sədri Vasif Talıbov, baş nazir Şəmsəddin Xanbabayev çox səylər göstəriblər. Türkiyənin "Star" şirkəti bu inşaatla məşğul olub. Nəhayət, biz böyük bir abidənin önündə durmuşuq, bayram edirik. Bu gün böyük fəxr hissi ilə bu abidəni birlikdə açmağa gəlmişik. Mən çox məmnunam, sevinirəm ki, 15 il bundan əvvəl qəbul etdiyim qərar həyata keçir. Mənim arzularım həyata keçir. Hüseyn Cavidin məqbərəsi Naxçıvan memarlıq tarixinə yeni bir səhifədir. Naxçıvanda böyük memarlıq, milli, mədəni abidələrimiz var. Bu abidə də həmin ənənələrin davamıdır. Ümidvaram ki, Mömünə Xatun abidəsi kimi bu abidə də əsrlər boyu yaşayacaqdır. Güman edirəm ki, gələcək nəsillər bu günü xatırlayacaq və bu abidəni yaradanları unutmayacaqlar. Bu abidəni yaradanlara, yəni onun inşası ilə məşğul olanlara təşəkkür edirəm. Memar Rasim Əliyevə, heykəltəraş Ömər Eldarova, "Star" şirkətinə təşəkkür edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, memarlarımız, rəssamlarımız, heykəltəraşlarımız, mədəniyyət xadimlərimiz Azərbaycan mədəniyyətini, memarlığını bundan sonra da inkişaf etdirəcəklər. Mən sizin hamınızı bu bayram münasibətilə bir daha təbrik edirəm. Hüseyn Cavid məqbərəsini təntənəli surətdə açıq elan edirəm" [3, s. 232-234].

Tədbirdə Ali Məclisin sədri Vasif Talıbov da çıxış edərək bildirmişdir: "Bu gün açılışına toplaşdığımız Hüseyn Cavid məqbərəsi Azərbaycan prezidentinin milli mədəniyyətimizə göstərdiyi yüksək atalıq qayğısının yeni və bənzərsiz təzahürüdür. Heydər Əliyevin adı ilə bağlı olan Hüseyn Cavid məqbərəsi zəngin və çoxəsrlik Naxçıvan memarlıq məktəbi tarixində yeni hadisədir. Heydər Əliyev dühasının bəhrəsi olan Hüseyn Cavid türbəsi Əcəmi yaradıcılığına mənsub Mömünə Xatun məqbərəsinin davamıdır. Bununla belə Hüseyn Cavid məqbərə-türbəsində şairin özü ilə yanaşı, ailə üzvlərinin-ömür gün yoldaşı Mişkinaz xanımın, oğlu Ərtoğrul Cavidin dəfn olunduğunu nəzərə alsaq, Cavidlər ailəsi xatirə kompleksinin dünya mədəniyyətinin bənzərsiz, əvəzsiz nümunələrindən biri olduğu sübut edilir. Heydər Əliyev cənabları, iftixarla deyirik ki, məhz sizin şəxsi təşəbbüsünüz, qayğınız və himayəniz sayəsində ucaldılan və hazırda açılışına toplaşdığımız bu məqbərə-türbə sizin Azərbaycan memarlıq abidələri tarixində saldığınız ən dərin və silinməz izlərinizdən biridir. Bu abidənin tikilməsi ilə siz Azərbaycanın, onun tərkib hissəsi olan Naxçıvanın təkcə dünəninə, bu gününə, sabahına və gələcəyinə deyil, bütünlüklə maddi mədəniyyət tariximizə ürəkdən bağlılığınızı, sədaqətinizi əməli işinizlə sübuta yetirdiniz" [1, s. 40, 41].

Memarlar İttifaqının sədri açılışda çıxış edərək demişdir: "Bu gün biz hörmətli cənab Prezidentimizin təşəbbüsü ilə böyük filosof, şair, dramaturq, faciəli tale sahibi Hüseyn Cavidin şərəfinə ucaldılmış məqbərənin açılışında iştirak edirik. Elə bir məqbərə ki, Mömünə Xatun, Yusif İbn Küseyir, Gülüstan, Qarabağlar məqbərələrinin, Naxçıvan memarlıq məktəbinin ənənələrini davam etdirir. Memarlıq xalqın daş salnaməsidir. Biz onun vasitəsilə keçmiş tariximiz haqqında çox şey öyrənirik. Bildiyiniz kimi ulu əcdadlarımızdan biri Memar Əcəmi Mömünə Xatun məqbərəsində qeyd etmişdir: "Biz gedəcəyik dünya duracaq. Biz öləcəyik, bu yadigar qalacaq". Bəli, bu, həqiqətən də belədir.

Cənab prezidentin zəhməti sayəsində yaranmış Hüseyn Cavid məqbərəsi əsrlərlə yaşayacaqdır. Biz bilirik ki, cənab Prezidentin zəhməti təkcə Hüseyn Cavid məqbərəsində deyil. Onun xidməti müxtəlif şəhərlərimizdə ucaldılmış yüzlərlə binalarımızda, komplekslərimizdə yaşayır və həmişə yad ediləcəkdir. Memarlarımız bunu hamıdan yaxşı bilirlər. Məşhur memarımız akademik, rəhmətlik Mikayıl Hüseynov cənab Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi illəri memarlıqda intibah illəri adlandırmışdır. Nəhayət, mən Hüseyn Cavid məqbərəsinin ucaldılmasında memar Rasim Əliyevin və heykəltəraş Ömər Eldarovun, eləcə də inşaatçıların əməyini qeyd etmək istəyirəm" [1, s. 45].

Naxçıvan-Marağa memarlıq üslubu təsirinin aydın hiss edildiyi bu memarlıq-xatirə kompleksi üst və aşağı sərdabə hissəsindən ibarətdir. Aşağı sərdabə hissəyə giriş qapısı şərq tərəfdən qoyulmuşdur. Sərdabə hissədə Hüseyn Cavidin qəbri ilə yanaşı, sağında oğlu Ərtoğrul Cavidin, solunda isə Hüseyn Cavidin həyat yoldaşı Mişkinaz xanımın qəbirləri yerləşir. Hər iki məzar sərdabə inşa olunarkən, yəni 1996-cı ildə buraya köçürülmüşdür. Sonradan 2004-cü il sentyabrın 12-də vəfat edən Hüseyn Cavidin qızı Turan Cavid də burada qardaşı Ərtoğrul Cavidin yanında öz ailəsi ilə birgə dəfn edilmişdir [4]. Bütün ailənin bir yerdə dəfn olunması da möhtəşəm Cavid ailəsinin bu dünyada tam mənası ilə olmasa da, o biri dünyada birlikdəliyinin sübutudur. Yuxarı hissədə, məqbərənin daxilində, şərq tərəfdə Hüseyn Cavidin büstü qoyulmuşdur. Büstün heykəltəraşı xalq rəssamı Ömər Eldarovdur. Büstün qarşısında məqbərənin tam ortasında sərdabə hissədə olan qəbirlərlə üzbəüz döşəmə hissə şüşə ilə qaplanmışdır. Beləliklə, məqbərənin yuxarı hissəsinin döşəməsindən qəbirləri görmək olar. Bu möhtəşəm ailənin bir yerə toplanmasında ümummilli liderimiz Heydər Əliyev öz dahi liderliyini göstərərək bu çətin vəzifəni layiqincə yerinə yetirmişdir. Məqbərənin şimal, cənub və qərb tərəfində böyük şəbəkəli pəncərələr qoyulmuşdur. Böyük şəbəkəli pəncərələrin olması, pəncərə şüşələrinin rəngli olması qotik üslubun təsiridir. Bu da şərq və qərb klassik memarlığının vəhdətini təşkil edir. Giriş qapısı qərb tərəfdəndir. Məqbərə səkkizbucaqlıdır. Bütövlükdə həm içəri, həm də bayır tərəfdən mərmərlə tikilmişdir. Ümumi sahəsi 237,07 m^2-dir. Hündürlüyü 10 m 30 sm olan məqbərə sadəliyi ilə seçilir. Yalnızca bir ornament məqbərənin yuxarı hissəsini bəzəyir. Və bu sadəlik də sırf Hüseyn Cavid şəxsiyyəti ilə bağlı nüansdır. Tikinti altı sahə 30,4 m^2-dir. Həcmi 313 m^3-dir. Zirzəmi yarımzirzəmi formasındadır.



Göründüyü kimi, öz gözəlliyi və sadəliyi ilə seçilən məqbərədə Cavid ailəsinin bütün üzvlərinin dəfn edilməsi və məqbərənin Hüseyn Cavidin ana vətəni Naxçıvanda qoyulması onların bir-birindən və vətəndən nə qədər ayrı düşsələr də, bir-birinə və vətənə hər zaman bağlılığının ifadəsidir. Onlar qəlbən hər an bir olmuşlar, bir də olacaqlar. Cavid ailəsinin keçdiyi ağır günlərə rəğmən hər an bir olması, mübariz olması Azərbaycan

xalqına böyük bir nümunədir. Hüseyn Cavid kimi oğullar Azərbaycanın başını hər zaman uca tutacaqlar. Azərbaycan xalqı özünün ömrünü xalqa adamış Hüseyn Cavid kimi mərd oğulları ilə hər zaman fəxr edəcəkdir.

ƏDƏBİYYAT

1. Hüseyn Cavid-Naxçıvan. Naxçıvan, 1996, 51 s.
2. Müstəqilliyimiz əbədidir. Dördüncü kitab. Bakı: Azərnəşr, 1997, 528 s. http://files.preslib.az/projects/toplu/books/4.pdf
3. Müstəqilliyimiz əbədidir. Yeddinci kitab, Bakı: Azərnəşr, 1998, 520 s. http://files.preslib.az/projects/toplu/books/7.pdf
4. https://az.wikipedia.org/wiki/Turan_Cavid

Бриллиант Джафарли

ДОСТОЙНЫЙ ДАР БЕССМЕРТИЮ ДЖАВИДА – МАВЗОЛЕЙ ГУСЕЙНА ДЖАВИДА

Статья посвящена мавзолею Гусейна Джавида, воздвигнутому в память о Гусейне Джавиде, который превратился в символ мужества и стойкости нашей художественной мысли XX века. Показано, что для воздвижения мавзолея Гусейна Джавида, прошедшего трудный, полный мучений жизненный путь, гений нашего общенационального лидера Гейдара Алиева смог совершить это тяжелое в то время дело – сначала он привез останки Гусейна Джавида из Сибири в Азербайджан, несмотря на бесчисленные трудности и то, что со времени похорон прошло уже 15 л5т, не отказался от своего решения, и, наконец, в 1996 году увековечил память Джавида эфенди и воздвиг этот мавзолей. Здесь, в этой гробнице, отличающейся красотой и простотой формы, похоронены все члены семьи Джавида, что отражает их бесконечную привязанность друг к другу, несмотря на все трудности и разлуки.

Ключевые слова: *Джавид, мавзолей, склеп, могила.*

Brilliant Jafarli

WORTHY GIFT TO THE IMMORTALITY OF JAVID IS THE HUSSEIN JAVID'S MAUSOLEUM

The paper is dedicated to the mausoleum of Hussein Javid, erected in memory of Hussein Javid, who turned into a symbol of courage and steadfastness of our artistic thought of the 20th century. It is shown that for the erection of the mausoleum of Hussein Javid, which passed a difficult and painful life course, the genius of our national leader Heydar Aliyev was able to accomplish this difficult at that time: first, he brought the remains of Hussein Javid from Siberia to Azerbaijan; second, despite the myriad difficulties and, that from the time of the funeral, 15 liters had passed, he did not give up his decision, and, finally, in 1996 he immortalized the memory of Javid Efendi and erected this mausoleum. Here, in this tomb, characterized by its beauty and simplicity of form, all members of the Javid family are buried, which reflects their endless affection for each other, despite all the difficulties and separations.

Keywords: *Javid, mausoleum, crypt, grave.*

(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2018, № 1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2018, № 1

PROCEEDINGS OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES NAKHCHIVAN BRANCH OFFICE
The series of social sciences and humanities, 2018, № 1

FİZZƏ QULİYEVA
AMEA Naxçıvan Bölməsi
E-mail: fizze25@mail.ru

NAXÇIVANIN SON TUNC VƏ ERKƏN DƏMİR DÖVRÜ BƏZƏK ƏŞYALARI

Naxçıvanın Son Tunc və Erkən Dəmir dövrü abidələrindən tapılmış tunc bəzək əşyalarının tədqiqi göstərir ki, onlar özündən əvvəlki dövrdə formalaşan sənətkarlıq ənənələri əsasında inkişaf etmiş və özünəməxsus yeni çalarları ilə seçilmişdir. Bu dövrdə tunc bəzək əşyaları həm sayca artmış, həm də bədii cəhətdən yüksək zövqlə hazırlanmışdır. Bəzək əşyaları geyinin bir hissəsi olmaqla bərabər insanların ideoloji görüşlərini də əks etdirmiş, bir çox hallarda həm də qoruyucu funksiya daşımışdır. Naxçıvanın metal bəzək əşyalarının bədii xüsusiyyətləri Xocalı-Gədəbəyin həmdövr əşyaları ilə eynilik təşkil etməsi bu abidələr arasında mədəni əlaqələrin olduğunu və eyni etnoslar tərəfindən yaradıldığını təsdiq edir.

Açar sözlər: *Naxçıvan, metal bəzək əşyaları, Son Tunc və Erkən Dəmir dövrü, dekorativ-tətbiqi sənət, ornament, motiv.*

Naxçıvanın Son Tunc və Erkən Dəmir dövrü bəzək əşyaları zənginliyi ilə fərqlənir. Bu zənginlik eynəkşəkilli asma, bilərzik, boyunbağı, üzük və s. bəzək əşyalarının bədii xüsusiyyətlərində əks olunmuşdur. Bu dövrün bəzək əşyaları adətən tuncdan hazırlanmışdır.

Son Tunc və Erkən Dəmir dövrünün metaldan hazırlanmış eynəkşəkilli asmaları Qızılburun, Kolanı, Sarıdərə nekropollarından tapılmışdır. Naxçıvan ərazisində eynəkşəkilli bəzək əşyaları, asmalar Orta Tunc dövründən başlayaraq hazırlanmış, Son Tunc və Erkən Dəmir dövründə daha da inkişaf etmişdir. Eynəkşəkilli asmaların forma və bədii həllində spiralvari motivin tətbiq edilməsi Sarıdərə, Kolanı (şəkil 1, 1) nekropollarından əldə olunan bəzək əşyalarından məlumdur. Sarıdərə və Kolanı nekropollarının spiralvari eynəkşəkilli asmaları Xanlardan tapılmış asma ilə eynilik təşkil edir [1, şəkil 12]. Araşdırmaçı Vəli Baxşəliyev öz tədqiqatlarına əsaslanaraq spiral formalı eynəkşəkilli asmaların qıvrılmış ilanları imitasiya etdiyini [7, 1987, c. 90] qeyd etmişdir. Spiral şəklində qıvrılmış eynəkşəkilli asmalar Gəmiqaya abidələrində təsvir edilmiş sadə spirallar, qıvrılmış ilan (şəkil 1, 2) motivləri ilə eynilik təşkil edir. Metaldan hazırlanmış bəzək əşyalarına spiralşəkilli buruqların tətbiq edilməsi şübhəsiz ki, qədim insanların inancları ilə, spiralların qıvrılmış ilanları imitasiya etməsi ilə bağlı olmuşdur. İlan şəklində qıvrılmış eynəkşəkilli asma, bilərzik və boyunbağıların ilana sitayişlə bağlı olaraq yaradıldığı şübhəsizdir. Eynəkşəkilli asmalar ağır olduğu üçün bəzək əşyası kimi istifadə olunub olunmamasını dəqiq demək mümkün deyil. Bu cəhətdən tədqiqatçı Vəli Baxşəliyev eynəkşəkilli asmaların müəyyən ayinlər zamanı istifadə edildiyini vurğulamışdır [2, s. 143]. Son Tunc dövrünün eynəkşəkilli asmaları tuncdan döymə, tökmə, fleqran və s. texniki üsulların tətbiqi ilə hazırlanmışdır.

Eynəkşəkilli asmaların fərqli üslubda hazırlanmış bir nümunəsi Sarıdərə nekropoluna aiddir (şəkil 1, 3). Asmanın mərkəzində zoomorf və antropomorf varlıqların sintezi ilə hazırlanmış bir fiqur yerləşdirilmişdir. Onun aşağı hissəsi balıq quyruğunu, yuxarı

hissəsi isə sxematik insan təsvirini xatırladır. Lakin insan təsviri olduqca sxematik, cinsi əlaməti olmadan təsvir edilmişdir. Onun dairəvi şəkildə olan başı sanki qarşı-qarşıya duran ilanları xatırladır. Mərkəzi təsvirin hər iki tərəfində oval disklər yerləşdirilmişdir. Disklərin üzəri iki sıra dairə boyunca düzülmüş üçbucaqlarla naxışlanmışdır. Başı dairə ilə tamamlanan insan təsvirlərinə Azərbaycan abidələrində, o cümlədən Naxçıvanda – Şahbuz rayonunun Kolanı nekropolunda daş qutu tipli qəbrin divarlarında, Gəmiqayada xeyli rastlanmışdır [2, s. 146, 147].

Bu dövrün abidələrində rast gəlinən bəzək əşyalarından bir qismi saça taxmaq üçün istifadə olunan dairəvi əşyalardır. Tuncdan hazırlanan dairəvi asmalar Qızılburun, Kolanı abidələrindən tapılmışdır. Onların bəzilərinin yuxarısında bir ədəd, bəzilərinin isə müxtəlif yerlərində halqaşəkilli, deşikli çıxıntısı vardır. Kolanı nekropolundan tapılan iki ədəd nazik tunc təbəqədən hazırlanmış diskşəkilli lövhələrdən biri üçbucaqşəkilli şəbəkələrlə naxışlanmışdır (şəkil 1, 4). Naxçıvan abidələrindən tapılan dairəvi asmalarının paralelləri Xocalı-Gədəbəy mədəniyyəti nümunələri ilə uyğunluq təşkil edir [10, табло IX, 23]. Tədqiqatçı Vəli Baxşəliyev bu tip bəzək əşyalarının boyun, ya da sinə [2, s. 144] və saç [3, s. 45] bəzəyi kimi istifadə olunduğunu, İradə Avşarova isə baş bəzəyinin bir növü olduğunu qeyd etmişdir [1, s. 41]. Kənarlarında iki deşik açılan ikinci lövhənin ucları üzərinə qatlanmış, üz tərəfi döymə nöqtələrlə naxışlanmışdır (şəkil 1, 5). Bu tip əşyaların bənzərləri Xocalı-Gədəbəy mədəniyyəti abidələrindən məlumdur [12, s. 24-89, табло VIII].



Şəkil 1. Bəzək əşyaları və Gəmiqaya təsviri.

Son Tunc və Erkən Dəmir dövrünün bir qrup metaldan hazırlanan bəzək əşyalarının bədii xüsusiyyətlərində eynəkşəkilli asmalarda olduğu kimi spiralvari formadan istifadə olunmuşdur. Tunc boyunbağıların ucları (şəkil 3, 5), sancaqların başları döyülərək yastılanmış və spiral şəklində burulmuşdur. Kolanı nekropolundan tapılan 1 ədəd tunc sancağın baş tərəfi döyülərək yastılanmış və spiral şəklində burulmuşdur (şəkil 2, 6). Sancaqların hansı məqsədlə istifadə edildiyi haqda tədqiqatçıların müxtəlif fikirləri var. Araşdırmaçı Vəli Baxşəliyev çarıqların tikilməsində bu tip alətlərdən istifadə edildiyini qeyd etmişdir [8, c. 73]. Spiralvari forma digər bəzək əşyalarında olduğu kimi üzüklərdə də tətbiq edilmişdir. Kolanı (şəkil 2, 3), Hakkıxlıq (şəkil 2, 4) nekropollarından tapılmış spiralşəkilli üzüklər nazik tunc məftildən hazırlanmışdır. Bu cür tunc üzüklərin bənzərləri Gədəbəydən tapılmış üzüklərlə bənzərlik təşkil edir [1, şəkil 16]. Bayəhməd nekropoluna aid iki ədəd tunc üzük isə enli və nazik tunc təbəqədən hazırlanaraq

spiral şəklində burulmuşdur. Üzüyün iç təbəqəsi nöqtələrlə doldurulmuş, birləşik üçbucaqlarla naxışlanmışdır (şəkil 2, 5). Bu tip üzüklərə Naxçıvanda indiyədək rastlanmamışdır. Ümumiyyətlə, Naxçıvanda Son Tunc və Erkən Dəmir dövrünə aid müxtəlif tipli üzüklər tapılmışdır. Qızılburun və Şahtaxtıdan tapılan üzüklər formaca boyunbağı və qolbaqlarla eynidir.

Saç bəzəkləri arasında tunc spirallara da rast gəlinir. Kolanı nekropolunun spiralşəkilli saç bəzəkləri olduqca maraqlıdır. Onların bir qismi tunc məftilin spiral şəklində burulması üsulu ilə (şəkil 2, 1) digərləri isə tökmə üsulu ilə hazırlanmışdır (şəkil 2, 2).

Son Tunc və Erkən Dəmir dövrü boyunbağı, bilərzik və sırğalarını bəzəyən pasta, əqiq, serdolik, balıqqulağı, sümükdən hazırlanmış muncuqlarla yanaşı metaldan hazırlanmış əşyalardan da istifadə olunmuşdur. Bu əşyalar arasında tuncdan hazırlanmış muncuq (şəkil 2, 10, 11), zəncir (şəkil 2, 7), şəbəkəli toppuz (şəkil 2, 8, 9), ayparaşəkilli asqı (şəkil 2, 13), spiral (şəkil 3, 4) və s. vardır.

Tunc boyunbağıların, bilərziklərin hazırlanmasında müxtəlif texnoloji üsulların tətbiqi onların bədii keyfiyyətlərini artırmaq məqsədinə xidmət etmişdir. Metaldan hazırlanan dekorativ-tətbiqi sənət nümunələri tökmə, yaxud şəbəkəli tökmə, kəsmə, cızma, çərtmə, oyma, şəbəkə üsulu ilə naxışlanmışdır. Son Tunc və Erkən Dəmir dövrü bilərziklərinin bir qisminin üzəri kəsmə naxışlarla bəzədilmişdir (şəkil 3, 6). Bu cür bəzəmə bilərziklərin müəyyən hissələrinə tətbiq edilmişdir. Kəsmə naxışlı bilərziklər Qarabağlar [8, pис. 17, 8], Qızılburun [8, pис. 13, 6], Sarıdərə nekropolu [3, şəkil 14, 7-8, 10-11] və digər abidələrdən əldə edilmişdir. Qarabağlar nekropollarından birində Erkən Dəmir dövrünə aid edilmiş, yüksək sənətkarlıqla hazırlanmış boyunbağılar, üzüklər, bilərziklər, sancaqlar aşkar olunmuşdur. Onlar çərtmə naxışlarla bəzədilmişdir. Kəsmə naxışlar sadə metal çubuqlara, məftillərə sıx tətbiq olunmuşdur. Kəsmələr arasında qalan yuvarlaq qabarıq naxışlar bəzək əşyalarına xüsusi gözəllik vermişdir. Culfa kolleksiyasından məlum olan tunc toppuz və Şahtaxtı nizə ucluqlarının biri tökmə üsulu ilə relyef ornamentlə naxışlanmışdır. Bayəhməd nekropolunun tunc boyunbağılarından birinin ortası döyülərək dördkünc formaya salınmış, cızma və çərtmələrlə naxışlanmışdır. Gövdəsinin bəzi qisimləri dərin kəsmələrlə xüsusi formaya salınmış, ucları döyülərək yastılanmış və üzərinə doğru qatlanmışdır (şəkil 3,7). Üzəri kəsmə naxışlarla bəzədilmiş qabırğaşəkilli qolbaqlar xüsusilə maraqlıdır. Bu tip qolbaqlar bədii xüsusiyyətlərinə görə Gədəbəy, Çovdar [13, c. 252], Xaçbulaq [12, табл. XXII, 4-6], Gəncə [5, tablo VII, 5, 9] rayonlarından tapılmış qolbaqlarla oxşardır.

Şəkil 2. Naxçıvan nekropollarından tapılmış bəzək əşyaları.

Son Tunc və Erkən Dəmir dövrünün bəzək əşyaları arasında çəngəlşəkilli başlığı olan sırğa və boyunbağılar geniş yayılmışdır.

Naxçıvanın Son Tunc və Erkən Dəmir dövrü bəzək əşyalarının bədii forma həllində meandr motivi də tətbiq edilmişdir. Bu tip formalar boyunbağılarda, sırğalarda və ayaq halqalarında rast gəlinir. Meandr motivli bəzək əşyaları Şahtaxtı, Muncuqlutəpə, Sarıdərə, Qızılburun və Kolanı nekropollarından əldə olunmuşdur. Kolanı nekropolundan tapılmış bilərzik, ya da ayaq halqası adlandırılan tunc əşyanın bir ucu döyülərək lent şəklinə salınmış və spiral şəklində qıvrılaraq meandra bənzədilmiş və digər ucuna bərkidilmişdir (şəkil 3, 3). Kolanı nekropolu boyunbağılarının bəzən bir ucu, bəzən də hər iki ucu döyülərək lent şəklinə salınmış və meandr şəklində burulmuşdur (şəkil 3, 1, 2).

Son Tunc və Erkən Dəmir dövründə metal bəzək əşyalarının hazırlanmasında ilan, quş, qoç, əjdaha və s. heyvanların elementlərinin və müxtəlif texnoloji üsulların tətbiq edilməsi şübhəsiz metallurgiyanın inkişafı ilə əlaqədar olmuşdur. Son Tunc və Erkən Dəmir dövrünə aid metal məmulatının bir qismi ilanbaşlı bilərziklərdən ibarətdir. Bu tip bilərziklərdən Yurdçu [14, p. 13, abb. 4] Qızılburun [8, pис. 14, 7-8], Şahtaxtı və Qarabağlardan [7, c. 89-92] xeyli miqdarda əldə olunmuşdur. İlan təsvirləri Naxçıvanın qədim sənət nümunələrində, o cümlədən Gəmiqaya abidəsində xeyli sayda rast gəlinmişdir. Bu tip sənət nümunələri və təsvirlər Naxçıvanda heyvan totteminin geniş yayıldığını göstərir. İlana sitayişlə bağlı ayinlər müasir türk xalqları arasında geniş yayılmışdır [8, c. 65] Qızılburundan aşkar olunmuş spiralşəkilli bəzək əşyası da şübhəsiz ilanı imitasiya etmişdir. Dəmir dövründə bu tip bilərziklər qədim Şərq ölkələrində geniş yayılmışdır [14, p. 13, abb. 4]. Bu dövrdə bir ucu və yaxud hər iki ucu ilan başı ilə tamamlanan bilərzik və boyunbağılara da rast gəlinir (şəkil 4, 5). Bu tip bilərziklər Şahtaxtı, Qarabağlar və Yurdçudan [8, pис. 13-16] xeyli miqdarda əldə olunmuşdur.



Şəkil 3. Tunc boyunbağı və bilərziklər.

Son Tunc və Erkən Dəmir dövründə tuncdan hazırlanmış quş fiqurları kiçik ölçülü olub arxa hissələrinə halqaşəkilli asqıları vardır. Bu tip fiqurlar şəbəkəli tökmə üsulu ilə

hazırlandıqdan sonra boyun hissələrinə yaxın lehimləmə üsulu ilə halqaşəkilli asqılar bənd edilmişdir. Kiçik ölçülü quş fiqurları bəzək əşyası olmaqla bərabər totemist inanclarla bağlı olaraq hazırlandıqları şübhə doğurmur. Fiqurların üzərləri dördbucaq və üçbucaqşəkilli şəbəkələrlə naxışlanmışdır. Tunc quş fiqurları (şəkil 4, 1, 2) Qızıburun [8, рис. 19, 2], Şahtaxtı, Sarıdərə [3, şəkil 16, 2], Kolanı [3, şəkil 33, 1-2] nekropollarından əldə olunmuşdur. Tunc quş fiqurların paralellərinə Xocalı-Gədəbəy mədəniyyətinə aid Xanlar [11, табло VII, 24], Bayan [9, с. 243], Çovdar [13, с. 254], Quşçu [10, с. 113, рис. 3] nekropolunun materialları arasında rast gəlinir. Gədəbəy nekropolundan tapılan tunc quş fiqurlarının bəzilərinin asqı yerlərində tunc zəncirlər vardır [1, şəkil 43-3, 4]. Çox güman ki, digərləri də zəncirli olublar. Naxçıvanın quş fiqurlarına bənd edilmiş zəncirlər qırıldığından zəncirsizdilər. Sarıdərə nekropolunda diqqət çəkən məqamlardan biri tunc quş fiqurları ilə bərabər tunc zəncirlərin də olmasıdır (şəkil 4, 3). Zəncirlərin hər iki başlarının qırıq olması bunu deməyə əsas verir ki, məhz bu fiqurlara taxılan zəncirlərdir. Kolanı nekropolundan üç ədəd tuncdan hazırlanmış tunc quş fiqurları şəbəkəli tökmə üsulu ilə hazırlanmışdır. Sarıdərə nekropoluna aid quşların bədən hissələrinə üçbucaq (şəkil 4, 1) və Kolanıdan tapılmış fiqurda isə düzbucaqlı (şəkil 4, 2) naxışlar tətbiq edilmişdir. Şübhəsiz ki, bu tip fiqurlar quş inancı ilə bağlı olmuşdur. Sarıdərə nekropolundakı daş qutu tipli qəbirlərdən birinin qapaq daşları üzərində rastlanan quş rəsimləri də bununla bağlıdır. Quş təsvirləri bu dövrün boyalı qabları üzərində də rast gəlinir.

Özündə əvvəlki dövrlərdə olduğu kimi Son Tunc və Erkən Dəmir dövründə də totemist inanclar mövcud olmuşdur. Quş inamı ilə yanaşı keçi, qoyun, ilana inamla bağlı bir sıra bəzək əşyaları hazırlanmışdır. Heyvan başlıqlı tunc sancaqların aşkar olunması məhz bu qəbildəndir. Qarabağlardan tapılmış sancaqlardan biri keçi başlıdır (şəkil 4, 4). Sancaq qəlibkarlıq texniki üsulu ilə hazırlanmışdır. Keçi fiquru ilə tamamlanan sancaqların bənzərləri Xaçbulaqdan aşkar olunmuşdur [12, табл. XX, 8]. Keçiyə inam ayrı-ayrı dövrlərdə Naxçıvan tayfaları arasında geniş yayılmış, sənət əsərləri, abidələr üzərinə əks olunmuş və totem əhəmiyyəti daşımışdır. Qarabağlardan tapılmış tunc sancaqlarından biri qoyun başı ilə tamamlanmışdır.



Şəkil 4. Zoomorfik bəzək əşyaları və düymələr.

Son Tunc və Erkən Dəmir dövrünün tuncdan hazırlanmış düymələri bədii xüsusiyyətlərinə görə olduqca zəngindir. Bu dövrün düymələri əsasən halqaşəkilli olub müxtəlif

naxışlarla bəzədilmişdir. Düymələr həmdövr silahlarının başlıqlarında olduğu kimi yastı və yaxud qabarıq və konusşəkillidir. Tədqiqatçı Vəli Baxşəliyev xəncərlərin konusvari başlıqlarının qədim insanların təsəvvüründə Göy qübbəsini, bəzəmə stilinin isə ornamentin növündən asılı olaraq müəyyən simvolikanı ifadə etdiyini qeyd etmişdir [2, s. 141, 142]. Həmdövr xəncərlər və düymələrin baş hissələri eynilik təşkil etdiyindən bu fikri düymələrə də aid etmək mümkündür. Kolanı nekropolunun düymələrinin ornamental motivlərində çarpaz yerləşdirilmiş üçbucaqşəkilli naxışlar səliqəli, kompozisiyaya uyğun yerləşdirilmişdir (şəkil 4, 6, 7). Kolanı nekropolunun düymələrində maraqlı bəzəmələrindən biri də kannelyur naxışlardır (şəkil 4, 8).

ƏDƏBİYYAT

1. Avşarova İ.N. Xocalı-Gədəbəy mədəniyyəti tayfalarının bədii tunc məmulatı (e.ə. XIV-VII əsrlər). Bakı: Nurlan, 2007, s. 190.
2. Baxşəliyev V.B. Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti. Bakı: Elm, 2004, 320 s.
3. Baxşəliyev V.B. Naxçıvanın Erkən Dəmir dövrü mədəniyyəti. Bakı: Elm, 2002, 128 s.
4. Əliyev V.H. Azərbaycanda Tunc dövrünün boyalı qablar mədəniyyəti. Bakı: Elm, 1977, 140 s.
5. Nərimanov İ.H. Gəncəçay rayonunun arxeoloji abidələri. Bakı: Azərbaycan SSR EA Nəşriyyatı, 1958, 142 c.
6. Асланов Г.М., Ваидов Р.М., Ионе Г.И. Древний Мингечаур. Баку: Элм, 1959, 191 с.
7. Бахшалиев В.Б. Селимханов И.Р. О змеевидных браслетах из сел Шахтахты и Карабаглар в Нахичеванской АССР // Доклады АН Азербайджанской ССР, 1987, № 11, с. 89-92.
8. Бахшалиев В.Б. Древняя металлургия и металлообработка на территории Нахичевани. Баку: Элм, 2005, с. 120.
9. Берцелиус-Налчагаров С.А. Раскопки в окрестностях села Баян Ганджинского уезда. Изв. Азкомстариса, 1928, вып. I, с. 231-238.
10. Гуммель Я.И. Археологические очерки. Баку: Изд-во Аз ФАН СССР, 1940,166 с.
11. Гуммель Я.И. Погребальный курган около Еленендорфа. Баку: Аз ГНИИ, 1931, 31 с.
12. Садыхзаде Ш.Г. Классификация украшений Азербайджана эпохи поздней бронзы и раннего железа. МКА. Баку: Элм, 1973, т. VII, с. 74-89.
13. Шарифов Д. Раскопки близ села Човдар Ганджинского уезд. Изв.Азкомстариса, 1928. вып.IV, с. 239-260
14. Bahşaliyev Veli, Andreas Schashner. Das kammergrab von Yurdçu Naxçıvan ein beitrag zur archaologie der früheisenzeit Transkaukasiens und Ostanatoliens // SMEA, 43/1, Roma, 2001, p. 5-23.

Физза Гулиева

ПРЕДМЕТЫ УКРАШЕНИЯ ЭПОХИ ПОЗДНЕЙ БРОНЗЫ И РАННЕГО ЖЕЛЕЗА НАХЧЫВАНА

Исследование бронзовых украшений из памятников эпохи поздней бронзы и раннего железа Нахчывана показывает, что декоративно-прикладное искусство

этого периода развивалось на основе предыдущих периодов и пробрело новую окраски. В этом периоде бронзовые украшения по численности возрастали и изготавливались с высоким художественным вкусом. Предметы украшения, являясь неотъемлемой частью одежды, отражали также идеологические представления древних людей и в большинство случаев имели функции оберега. Художественные особенности металлических изделий Нахчывана тесно связаны с аналогичными предметами Ходжалы-Гедабекской культуры и свидетельствуют, что они созданы родственными этносами.

Ключевые слова: *Нахчыван, металлические украшения, поздняя бронза и ранее железо, декоративно-прикладное искусство, орнамент, мотив.*

Fizza Guliyeva

DECORATION ITEMS OF THE LATE BRONZE AND EARLY IRON AGE OF NAKHCHIVAN

The study of bronze ornaments from the late bronze and early iron monuments of Nakhchivan shows that the decorative and applied arts of this period developed on the basis of previous periods and got a new coloring. In this period, bronze ornaments in numbers increased and were made with high artistic taste. The ornaments, being an integral part of the clothes, also reflected the ideological representations of the ancient people and in most cases had the functions of an amulet. Artistic features of metal products of Nakhchivan are closely connected with similar objects of Khojaly-Gadabay culture and testify that they were created by related ethnic groups.

Keywords: *Nakhchivan, metal ornaments, Late Bronze and Early Iron Ages, arts and crafts, ornament, motif.*

(AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev tərəfindən təqdim edilmişdir)

Bu iş Azərbaycan Respublikasının Prezdenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir-Qrant № EİF-KETPL-2-2015-1(25)-56/47/5

NURAY BƏKTAŞİ
AMEA Naxçıvan Bölməsi
E-mail: bektashi.nuray@gmail.com

NAXÇIVAN YALLILARI: KÖÇƏRİ YALLISI

Məqalədə Azərbaycan milli musiqi və rəqs sənətinin ən qədim nümunələrindən olan yallılar haqqında ümumiləşmiş məlumat verilmiş, yallının yayılma arealından söz açılmış, vurğulanmışdır ki, Naxçıvan yallının beşiyidir. Eyni zamanda Naxçıvan yallıları, eləcə də "Köçəri" yallısı, variantları, xüsusiyyətləri haqqında da məlumatlar verilmişdir. "Köçəri" yallısının spesifik xüsusiyyətləri, Naxçıvan diyarı ilə bağlılığı da diqqət mərkəzinə çəkilmişdir.

Açar sözlər: *yallı, "Köçəri", Naxçıvan, rəqs, musiqi, ritm, mahnı.*

Ümummilli lider Heydər Əliyev deyirdi: "Yallılar bizim keçmişimiz, bu günümüz, gələcəyimizdir". Ümummilli liderimiz keçmişə xor baxmamağı, onun yaxşı nümunələrini qoruyub saxlamağı bizə öyrətmişdi. "Yallı Azərbaycan xalqının qəhrəmanlıq, mərdlik rəmzidir, tarixidir. Bu tarixi heç vaxt unutmaq olmaz. Naxçıvan torpağında bu tarix yaşayır, inkişaf edir və örnək olaraq gələcək nəsillərə qalır. Bir tərəfdən təəssüflənmək olar ki, yallılar haqqında bu vaxtadək çox az yazılıb, digər tərəfdən sevinmək lazımdır ki, gec də olsa son zamanlar yallılarımızın haqqında yazılan məqalələr, kitablar təqdirə layiqdir" [4, s. 79].

Azərbaycan xalq musiqisinin, musiqi folklorumuzun çox geniş yayılmış və qədim tarixə malik olan janrlarından biri də rəqslərdir. Rəqs sənətinin çoxəsrlik tarixə malik olması xalq rəqslərimizin əsas qollarından biri sayılan "yallı"nın yaranması ilə bağlıdır. Azərbaycanda "yallı"nın dərin kökləri haqqında bir çox mənbələr, arxeoloji qazıntılar, tarixi ərazilər bizə mühüm və maraqlı məlumatlar açıqlayır. Ən qədim və geniş təsvirinə Qobustan ərazisindəki qayaüstü rəsmlər, Ordubad ərazisində Gəmiqaya dağındakı əl-ələ verib dövrə ətrafında rəqs edən insan şəkilləri, arxeoloji qazıntılar zamanı tapılmış müxtəlif əşyaların üzərindəki yallı oynayan insan rəsmləri, daha sonra isə Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasında rast gəlinir. Yallı ən qədim rəqs növlərindən biridir və rəqs sənətinin ilkin formasıdır. Yaranışından ta bu günə kimi yallılar xalqımızın yaşam tərzini, adət-ənənəsini özündə əks etdirmişdir. Yallı həmrəylik rəmzidir. Azərbaycanın görkəmli bəstəkarı Əfrasiyab Bədəlbəyli "yallı" oyununa yüksək qiymət verərək yazırdı: "Çox intişar edən "yallı" forması bütün bir elin, bir obanın kollektiv surətdə öz sevinc duyğularını, bacarıq və istedadını təmsil edən əzəmətli bir yaradıcılığın parlaq təzahürüdür" [9]. Yallı rəqsi incəsənətin sintetik forması olaraq instrumental, vokal musiqi və ifaçılıq kimi bir neçə sənəti özündə birləşdirir.

Naxçıvan Muxtar Respublikasında digər sahələrdə olduğu kimi xalq yaradıcılığında, milli rəqslərimizə, o cümlədən "Yallı"lara da diqqət artırılmış, həm bu qədim rəqs növünün yaşadılması və gələcək nəsillərə ötürülməsi, həm də yallıların tədqiqi və öyrənilməsi istiqamətində mühüm işlər görülməkdədir. Naxçıvan Muxtar Respublikası Ali

Məclisi Sədrinin aşağıdakı fikri bir daha yallıya verilən yüksək qiymətin bariz nümunəsidir: *"Naxçıvanın üç incisi bizim üçün xüsusilə əzizdir. Əshabi-Kəhf, Gəmiqaya və Şərur yallıları. Biz bu inciləri qoruyub saxlamalıyıq".*

Digər xalqlarda da yallıya bənzər rəqslər mövcuddur. Lakin yallılar türk xalqlarının rəqs sistemi hesab edilir. Bu ad altında onlarca müstəqil rəqs toplanıb, onlar da üç yerə bölünür: yalnız musiqili, musiqili və vokal (səsli), bir də (musiqisiz ifa olunan) dil yallıları. Dil yallıları musiqisiz ifa olunur. Bu yallı növü ən qədim oyun hesab edilir. Çünki bunlar hələ musiqi alətləri icad edilməmişdən əvvəl düşünülmüş oyunlardır. Çalğı alətlərinin mövcud olmadığı çağlarda, təqribən 10 min il əvvəl yaranması ehtimal edilən yallılar barədə məlumat kifayət qədərdir. Adı zaman keçdikcə təhrif olunan (əvvəllər "yollu", sonra "yelli" kimi işlənsə də, dövrümüzə "yallı" forması ilə çatıb) yalların hər üç növünün maraqlı izahı var [7].

Yollular ibtidai insanların uğurlu ovdan sonra od ətrafında keçirdiyi şadlığın rəmzidir. Ova gedərkən sıra ilə gedib cəngəlliklərdə yol açma yozumu var. Ona görə də "yollu" adlandırılıb. Rəvayətə görə, ibtidai insanların uçmaq istəyindən yaranıb bu rəqs forması. Belə ki, bu yel əsdiyi zaman dağın zirvəsinə qalxaraq əl-ələ verib uçmağa hazırlaşmalarının simvolik olaraq göstərilməsidir. "Yelli" adı da bununla bağlı olub. Lakin hər iki versiya həqiqətə az oxşadığından rəqsin "yallı" adı daha doğru hesab edilib. Bu da "səf-səf", sıra ilə düzülüb əl-ələ vermək, birlikdə olmaq mənasını daşıyır. Unudulmamalıdır ki, qardaş Türkiyədə yallı "halay" adı ilə qorunub saxlanır. "Yallı" sözünün sinonimlərindən biri "Çöppü"dür. "Çöpü" sözünə Azərbaycan şairi Qətran Təbrizinin "Divan"ındakı beytlərin birində rast gəlinir. Beytin izahında "Çöppü" sözünün yallıyabənzər, kollektiv oyun olduğu bildirilir [6, s. 38]. Digər xalq oyunlarından fərqli olaraq toy şənliklərində zurnaçı (dəmkeşi ilə birlikdə) və nağaraçıdan ibarət çalğıçıların ifasında on-on beş (hətta bəzən onların sayı onlarca ola bilir) nəfərin kütləvi şəkildə rəqsi deməkdir. "Yal" həm də yamac, dağ ətəyi deməkdir. Bu, həqiqətə ən yaxın olan fərziyyədir. Xalq rəqslərimizin araşdırıcılarından Kamal Həsənov "Yallı" sözünün mənasını açıqlayaraq yazır: "Yal – cərgədir, zəncir xəttidir" [2, s. 56]. "Yallı"nı oynayanlar bir və ya iki cərgədə, bəzən də bir neçə cərgədə dururlar. Oyun zamanı yallıya kollektivin önündə gedən rəqqas rəhbərlik edir. Onun əlində işarə verən dəsmal, yaxud adi çubuq ola bilər. Həmin adama xalq arasında "yallıbaşı" deyirlər. Yallıbaşı əvvəldən axıradək rəqsin ümumi gedişinə, düzgün başlamasına və vaxtında sona yetməsinə nəzarət edir. Yallı böyük bir dəstənin birgə iştirakı ilə ifa olunur. Dəstənin sonuncu nəfəri isə ayaqçı adlanır. Asta hərəkətlərlə başlanan yallı çox ritmik, sürətli və sonda hay-harayla başa çatır.

Yallı kollektivi həm kişilərdən, həm də qadınlardan ibarət ola bilər. Çox zaman bu rəqs qarışıq ifa olunur. Elə yallılar da var ki, orada iki dəstə iştirak edir. Üz-üzə dayanmış iki yallı dəstəsi ardıcıllıqla müxtəlif hərəkətlər nümayiş etdirirlər. Yalların ifası zamanı çox zəruri müşayiət formalarından biri də "ritmli küy"lərdir. "Ritmli küy" terminini ilk dəfə Azərbaycan xalq rəqslərinin öyrənilməsində çox böyük xidmətləri olan Bayram Hüseynli işlətmişdir. "Ritmli küy"-ritmik səslər deməkdir. Bu səsləri yallını oynayan iştirakçılar müxtəlif hərəkətlərlə əldə edirlər. Çapik çalmaqla, ayaqlarını yerə döyməklə, əllərini dizlərinə vurmaqla öz oyunlarını müşayiət edən rəqqaslar yallıda yeni bir ritmik ahəng yaradırlar. Ümumiyyətlə, "yallı" rəqslərinin ifasında ən mühüm amillərdən biri tempdir. Çünki, yallının hər bir hissəsi öz musiqi məzmununa uyğun müxtəlif tempə malikdir. Yallılar əsasən zurna alətinin müşayiəti altında oynanılır. Naxçıvanda zurnaçılar dəstəsi 3 nəfərdən ibarətdir: zurna (solo), züyçü (dəmkeş) və çubuq nağara. Yallılar məzmununa görə iki yerə bölünür. Bunlardan birincisi "süjetli yallılar"dır. Bu növ yallıların quruluşu və ifa tərzi müəyyən bir süjeti tərənnüm edir. Belə yallılar teatrlaşmış xalq oyunları olduğu üçün "oyun-yallı" adlanır. "Qazı-qazı", "Köçəri", "Çöpü-çöpü" kimi yallılar buna gözəl nümunədir. Əkrəm Məmmədli və Kənan Məmmədli yazır: "Digər yallılar isə müəyyən əhval-ruhiyyəni, xüsusən qəhrəmanlığı, gümrahlığı və cəldliyi ümumi şəkildə tərənnüm edən "rəqs-yallı"larıdır. Bu yallılara "Tənzərə", "Dönə", "Ürfanı" və başqaları daxildir" [5, s. 5].

Dahi bəstəkarlarımız da öz əsərlərində bu janra böyük yer ayırmışdır. Üzeyir Hacıbəyli "Koroğlu", Müslim Maqomayev "Nərgiz" operalarında, Soltan Hacıbəyov "Gülşən" baletində, Cahangir Cahangirov "Azad" operası və xalq çalğı alətləri üçün "Yallı" əsərində, Rauf Hacıyev "Yallı balet miniatürləri"ndə yallının janr xüsusiyyətlərindən istifadə etmişlər.

Yallıların respublikamızın hər bölgəsində sevimli xalq rəqslərindən biri kimi qorunub yaşadılmasına baxmayaraq, onlar daha çox Naxçıvan ərazisində, daha çox Şərur rayonunda yayılıb. "Yallının vətəni Şərurdur, yallı Şərurda doğulub", sözləri Azərbaycan nəzəri bəstəkarlıq məktəbinin banisi, dahi bəstəkarımız Üzeyir Hacıbəyliyə aiddir. O, 1937-ci ildə SSRİ Ali Sovetinə deputatlığa namizədliyi Şərur rayonundan irəli sürülməsi ilə əlaqədar bu rayonda öz seçiciləri ilə görüşdən sonra təşkil olunan konsertdə Şərur yallılarına böyük maraqla tamaşa etmiş, yallı ifaçıları ilə ətraflı söhbət aparmışdır. Söhbət əsasında məlum olmuşdur ki, Şərurda yaranan ilk rəsmi yallı ansamblı 1924-cü ildən fəaliyyət göstərməyə başlamış və onlarla Şərur yallıları bu ansambl tərəfindən müxtəlif tədbirlərdə və konsertlərdə maraqla ifa olunmuşdur. Şərur torpağı öz yallı gedənləri, yallı ustaları ilə məşhurdur. Şərurda 100 dən çox yallı növü məlum idi. Şərurda kiçikdən böyüyə elə bir adam tapa bilməzsən ki, yallı oynaya bilməsin. Şərur rayonundakı mədəniyyət evlərinin əksəriyyətində yallı qrupları var. Bu yallı qrupları müxtəlif yallılarla tez-tez yeniləşir və bu yeniliklər rayonda keçirilən müxtəlif tədbirlərdə göstərilir. Şərurda yallı qruplarının fəaliyyət göstərməsi burda yaşayan insanların birlik və saflıq rəmzi olan yallılara sevgisinin təzahürüdür. Şərurun ən geniş tərkibli səviyyəyə yüksələn üç yallı kollektivi var: Şərur rayon mədəniyyət sarayında fəaliyyət göstərən "Şərur xalq yallı ansamblı", Çərçiboğan kənd mədəniyyət evinin "Nurani" yallı ansamblı və Şərur rayon mədəniyyət evinin "Şərur qönçələri" yallı ansamblı. Fərqli yaşa mənsub olan bu kollektivləri bir-birinin ardıcılı, yaradıcılıq baxımından bir-birinin davamçısı hesab etmək olar. Şərur yallı ansamblı artıq bu gün özünü formalaşmış bir xalq kollektivi kimi təsdiq etmiş və neçə-neçə xarici ölkələrdə müxtəlif tədbirlərdə iştirak edərək Azərbaycanımızı tanıtmışdır.

Azərbaycanın milli rəqsi olan yallının bir növü "Köçəri" rəqsidir. "Köçəri" sözünün azərbaycanca mənası bir yerdə qərar tutmayan, tez-tez yerini dəyişən deməkdir. Bu amil rəqsin də gedişində özünü göstərir. Belə ki, rəqs edənlər bir-birlərinin kəmərlərindən tutaraq, dairəvi yallı gedirlər. Rəqs ritmikdir, əsasən balaban və nağara müşayiət edir. 2/4 ritmində oynanılan bir rəqsidir. Qədim tarixə malik bu rəqs, Azərbaycanın folklor nümunəsidir. Gəmiqayada uzun müddət arxeoloji tədqiqatlar aparmış AMEA-nın müxbir üzvü Vəli Əliyev tərəfindən öyrənilmiş qayaüstü təsvirlər arasında bəzi rəsmlər "yallı" o cümlədən onun növlərindən olan "Köçəri" rəqsinin tarixindən xəbər verir. Təsvirlərin birində qayanın mərkəzi hissəsində od və günəş rəmzi sayılan kiçik dairə, onun ətrafında isə qollarını yuxarı qaldırıb rəqs edən insan rəsmləri həkk olunmuşdur [8]. "Köçəri" rəqsi əsasən Naxçıvan diyarının Şərur rayonunda da çox geniş yayılmışdır. "Köçəri" yaylaq yallısıdır. Rəqsin adından göründüyü kimi, onun yaradıcıları köçərilərdir. Əhalinin maldar hissəsi yayda yaylaqda, qışda aranda yaşayır. Əhali yaylağa böyük köçlər halında hərəkət edir. Yallının adı "Köçəri" – köçün əri, yəni başçısı

ifadəsindən irəli gəlmişdir. Şən və ritmik şəkildə ifa olunan bu rəqsdə iştirakçılar bir-birinin çiyninə qollarını qoymaqla, titrək hərəkətlərlə üç addım irəli, üç kiçik addım geri getməklə aram tempdən iti tempə keçərək rəqsi tamamlayırlar. Naxçıvan diyarının Sədərək, Kəngərli, Şahbuz və Culfa rayonlarının folklor kollektivləri tərəfindən də "Köçəri" rəqsi nümayiş olunur və toy şənliklərinə xüsusi zövq verir. Gülnaz Abdullazadə və Rauf Verdiyev yazır: "Köçəri" rəqsi Azərbaycan xalqının sevimli rəqsləri silsiləsinə daxildir. Kişilərin və qadınların ya ardıcıllıq olaraq, ya da bir qadın, bir kişi vəziyyəti ilə düzülüşündə yallıbaşı əlinə çubuq alır. Bu çubuq ifaçıları cəzalandırmaq üçün yox, əslində rəqs xarakterlidir. Köçəri rəqsini əksər hallarda yalnız kişi, bəzən qadın, yaxud ənənəvi olaraq qarışıq tərkibli ifaçılar ifa edirlər" [1].

Digər Azərbaycan xalq rəqsləri kimi, Köçəri rəqsi də bir qayda olaraq 3 variantdan ibarətdir. Hər üç variant iki – asta və sürətli hissələrdən ibarətdir. I variantda təqdim olunan rəqsin II hissəsi I hissədən az fərqlənir, yalnız bir qədər canlı ifa olunur. Rəqsi ifa edərkən, xüsusilə I hissədə bədən aşağı-yuxarı hərəkət etdirilir.

I takt

Bir – hər iki ayaq üstə sallağı oturmalı (ayaqlar arasındakı məsafə 20 sm-dir)

İki – bədəni yuxarı qaldıraraq dizləri düzləndirməli.

II takt

I taktdakı hərəkətləri təkrar etməli.

III takt

Bir – yenə sallağı otturaraq əvvəlki vəziyyəti almalı.

İki-sol dizi düzləndirməli, sağ ayağı pəncə üstə sol dabanın yanına qoymalı.

IV takt

Bir – sağ ayaqla sağa bir addım atmalı.

İki – sol ayağı sağ ayağın qarşısına çarpaz vəziyyətdə qoymalı.

V takt

Bir-sağ ayaqla sağa bir addım atmalı və eyni zamanda yüngülcə sallağı oturmalı. Məhz bu addım rəqsin yeni kuplet ilə başlanğıcını verir. Bundan sonra yuxarıda təsvir olunan hərəkətlər təkrar edilir. Gördüyümüz kimi, faktiki olaraq bütün rəqs kupletləri 4 taktda davam edir.

II variant – Zurnaçılar meydanın mərkəzində dururlar, ifaçılar isə onların ətrafında rəqs edirlər.

II takt

Yüngül oturduqdan sonra bədənin ağırlığını sol ayaq üzərinə salmalı. Bədəni bir azca sağa əyməli. Sol daban üstə otturaraq ayağı düzləndirməli. Sağ ayağa istinad etmədən pəncə üstə durmalı, bədəni isə ritmik olaraq aşağı-yuxarı hərəkət etdirməli.

I takt

Eyni hərəkətləri sağ tərəfə etməli.

III takt

I taktdakı hərəkətləri təkrar etməli.

IV takt

II taktdakı hərəkətləri təkrar etməli.

V takt

Bir – sol ayağı sağ ayağın qarşısına çarpaz vəziyyətdə qoymalı.

İki – sağ ayaqla sağa bir addım atmalı.

VI takt

Bir – yenə də sol ayağı sağ ayağın qarşısına çəpəki vəziyyətdə qoymalı.

İki – sağ ayaqla sağa bir addım atmalı.

III variant da II varianta bənzəyir. VI taktda bir sayında sol dizi yerə qoymalı. Hər iki dizi sağa yönəltməli, bədən isə mərkəzə tərəf çevrilmiş olmalıdır.

Təqdim olunan iki variantda rəqsin II hissəsi I hissəsindən fərqlənir. O da 4 taktda ifa olunur.

I takt

Bir – sağ ayaqla sağ tərəfə qaçaraq bir addım atmalı.

İki – sol ayaqla sağ ayağın qarşısına qaçaraq addım atmalı.

II takt

Bir – yenə də sağ ayaqla sağ tərəfə qaçaraq bir addım atmalı.

İki – yüngülcə sağ ayaq üzərinə atılmalı. Eyni zamanda sol ayağı dizdən elə bükməli ki, daban sağ dizin qarşısından bir qədər aşağı vəziyyətdə olsun (sağ dizdən 20-30 sm məsafədə).

III takt

Bir – sol ayaqla arxaya azca qaçaraq addım atmalı.

İki – sağ ayaqla arxaya azca qaçaraq addım atmalı.

IV takt

Bir – sol ayaqla arxaya azca qaçaraq addım atmalı.

İki – yüngülcə sol ayaq üzərinə atılmalı, eyni zamanda sağ ayağı dizdən elə bükməli ki, sol dizdən arxada bir qədər aşağıda olsun (sol dizdən 20-30 sm məsafədə).

Bütün addımlar (qaçaraq irəli iri, arxaya kiçik) demək olar ki, yerindəcə ifa olunur [3, s. 59].

Beləliklə, Azərbaycan tarixinin, mədəniyyətinin ən qədim elementlərini özündə yaşadan yallılar xalqımızın milli sərvəti kimi yaşadılmalı, gələcək nəsillərə ötürülməli və öyrənilməlidir.

ƏDƏBİYYAT

1. Abdullazadə G., Verdiyev R. Konfranslar. Ensiklopediyalar // Musiqi dünyası / 2005.
2. Həsənov K. Qədim Azərbaycan xalq rəqsləri. Bakı: İşıq, 1983, 60 s.
3. Həsənov K. Azərbaycan qədim folklor rəqsləri. Bakı: İşıq, 1988, 130 s.
4. Kərimli Ə. Yallı. Bakı: Şirvannəşr, 2004, 130 s.
5. Məmmədli Ə., Məmmədli K. Naxçıvan-Şərur el yallıları. Naxçıvan: Əcəmi, 2015, 276 s.
6. Nəcəfzadə A. Azərbaycan idiofonlu çalğı alətləri. Bakı: Nurlan, 2010, 280 s.
7. Nərimanoğlu M. Yallılar. "Azərbaycan" qəz., 31 yanvar, 2013.
8. "Ədəbiyyat və incəsənət" qəz., 2 avqust, 1969.
9. https://az.wikipedia.org/wiki/Yallı

Нурай Бекташи

НАХЧЫВАНСКИЕ НАЦИОНАЛЬНЫЕ ТАНЦЫ ЯЛЛЫ: ЯЛЛЫ КОЧЕВНИКОВ

В статье дана общая информация об очень древних танцах яллы, об их типах, принадлежности этих танцев к национальному Азербайджанскому искусству, дается информация об ареале распространения танца яллы, а так же особо отмечалось, что Нахчыван является колыбелью танца яллы. А так же дана информация о танцах яллы Нахчывана, их вариантах, и отмечается характер танца яллы

«Кочари» – яллы кочевников. Специфический характер танца яллы «Кочари» указывает на связь с Нахчыванской областью.

Ключевые слова: *яллы, "Кочари", Нахчыван, танцы, музыка, ритм, мелодия.*

Nuray Bektashi

NAKHCHIVAN NATIONAL DANCES OF THE YALLA: NOMAD'S YALLAS

The article gives general information about the very ancient dances of the yalla, their types, the belonging of these dances to the national Azerbaijani art, gives information about the distribution area of the yalla dance, and also notes that Nakhchivan is the cradle of the yalla dance. And also information about the dances of Yalta Nakhchivan, their variants is given, and the character of the Kochary (Nomad's) yalla dance is shown. The specific character of the "Kochary" Yalla dance indicates a connection with the Nakhchivan region.

Keywords: *yallas, "Kochari", Nakhchivan, dances, music, rhythm, melody.*

(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)

İQTİSADİYYAT

SEVİNC CABBAROVA
AMEA Naxçıvan Bölməsi
E-mail: sjabbar@mail.ru

AZƏRBAYCANIN İQTİSADİ RAYONLARININ NAXÇIVAN MUXTAR RESPUBLİKASI İLƏ ARTIM SÜRƏTİ İNDEKSLƏRİNƏ GÖRƏ MÜQAYİSƏLİ TƏHLİLİ

Azərbaycanın bütün sahələrdə uğurlar qazanması, maliyyə imkanlarının artması, ölkəmizin transmilli layihələrin təşəbbüskarı və əsas iştirakçısı kimi çıxış etməsi nəticədə regionların tarazlı inkişafının təmin olunması ilə müşahidə olunur. Son illərdə Naxçıvan Muxtar Respublikasının mövcud potensialından səmərəli istifadə etməklə istehsal təyinatlı müəssisələrin fəaliyyətinin daha da genişləndirilməsi, ixracyönlü məhsul istehsalının stimullaşdırılması, sosialyönümlü tədbirlərin reallaşdırılması yolu ilə əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılması, məşğulluq səviyyəsinin yüksəlməsi və beynəlxalq ticarətin genişlənməsi müşahidə olunur. 2005-2016-cı illər üzrə məlumatlar əsasında iqtisadi rayonların inkişaf indeksləri hesablanmışdır. Müəyyən olunmuşdur ki, inkişafın ən yüksək artım tempi Naxçıvan Muxtar Respublikasında (7,188) olmuşdur. Bunun səbəbi muxtar respublikanın zəngin təbii ehtiyatları və insan potensialından düzgün istifadə, eləcə də beynəlxalq əlaqələrin genişləndirilməsi və xarici investisiyaların cəlb olunmasıdır.

Açar sözlər: *Naxçıvan Muxtar Respublikasının kompleks inkişafı, artım sürəti indeksi, regionun iqtisadi potensialı.*

Naxçıvan Muxtar Respublikanın inkişafı çoxölçülü və çoxyönlü prosesdir. Buna, adətən müxtəlif sosial və iqtisadi məqsədlərinin məcmusu nöqteyi-nəzərdən baxılır. Sosial-iqtisadi inkişaf aşağıdakı baxışları özündə birləşdirir:

– istehsalın və gəlirlərin artımı;
– cəmiyyətin institusional, sosial və inzibati strukturlarda dəyişikliklər;
– ictimai şüurda dəyişikliklər;
– ənənələrdə və adətlərdə dəyişikliklər.

Hazırkı dövrdə dünyanın bir çox ölkələrinin və onların regionlarının iqtisadi inkişafının əsas məqsədi əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasıdır. Buna görə də sosial-iqtisadi inkişaf prosesi üç tərkib elementini özündə birləşdirir:

– əhalinin gəlirlərini artırmaq, sağlamlığını yaxşılaşdırmaq və təhsil səviyyəsini yüksəltmək;
– insan ləyaqətinə hörmət etməyə yönəldilmiş sosial, siyasi, iqtisadi və institusional sistemin formalaşması nəticəsində insanların özünəhörmətinin artımına imkan verən şərait yaratmaq;
– insanların iqtisadi azadlıq dərəcəsini yüksəltmək.

Muxtar respublikanın kompleks inkişafı, onun əhalisinin həyat səviyyəsini yüksəltməkdən, əhalinin məskunlaşmasını təmin etməkdən və regionun təbii ehtiyatlarının

mənafelərin tarazlığı baxımından düzgün istifadə edilməsindən ibarətdir. Regional bazar bütövlükdə açıq iqtisadiyyatın tərkib hissəsi olub, əmtəə-xidmət, maliyyə və digər resurslara təklif və tələbinin formalaşması və istifadəsinə ən əlverişli yollarının tapılmasını əhatə edir. [1, s. 156]. Regional xüsusiyyətlərə region əhalisinin təlabat sistemi, maddi və mənəvi nemətlərə təklifin formalaşması, əhalinin alıcılıq qabiliyyətini müəyyən edən gəlirlər və sahibkarlığın hesabına tələbatının ödənilmə dərəcəsi, eləcə də regionda sosial infrastrukturun inkişaf səviyyəsi, idxal və ixracın mal təklifi və tələbinin formalaşmasında rolu, habelə əhalinin demoqrafik parametrləri daxildir. Region həyatının hər bir sferasında böhranın aradan qaldırılması birbaşa iqtisadi aktivlik səviyyəsi ilə əlaqədardır. Sosial inkişaf nisbi müstəqilliyə malik olmasına baxmayaraq, müəyyən qədər iqtisadi inkişaf səviyyəsindən asılı olan resurs imkanlarına görə də müəyyən edilir. Buna görə də yalnız iqtisadi aktivliyi inkişaf etdirməklə əhalinin rifah səviyyəsini qaldırmaq olar. Bu da son nəticədə bu və ya digər sosial-iqtisadi siyasətin müvəffəqiyyətini müəyyən edir. İqtisadi inkişafın gedişində regional idarəetmənin bütün mümkün metodlarını aşağıdakı kimi dürüst ifadə etmək olar: işgüzar aktivliyi inkişaf etdirmək üçün regionda əlverişli ümumi şərait yaratmaq; işgüzar aktivliyi tənzimləmək; region idarəetmə orqanları ilə biznesin birbaşa kooperasiyası. İstənilən regionun iqtisadi inkişafının müstəqil amili kimi son illərdə beynəlxalq amil üzə çıxır: beynəlxalq əlaqələr intensiv olarsa, bir qayda olaraq region iqtisadiyyatının inkişafına da bir o qədər çox təkan verəcəkdir.

Naxçıvan Muxtar Respublikasına xarici investisiyaların cəlb edilməsi, beynəlxalq əlaqələrin və beynəlxalq ticarətin köməyi bütövlükdə iqtisadi inkişafın nisbətən müstəqil və son dərəcə səmərəliliyinə xidmət edir. Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmış, 2016-cı ildə muxtar respublikada 463 milyon 244 min 800 ABŞ dolları həcmində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın həcmi son bir il ərzində 1,1 faiz artaraq 419 milyon 120 min 800 ABŞ dolları, idxalın həcmi 54,9 faiz azalaraq 44 milyon 124 min ABŞ dolları təşkil etmiş, 374 milyon 996 min 800 ABŞ dolları həcmində müsbət saldo yaranmışdır [5, s. 56].

Məlumdur ki, dövlət tərəfindən ölkə regionlarında həyata keçirilən sosial-iqtisadi siyasətin əsas məqsədi – bütün bölgələrin mövcud potensialından səmərəli istifadə etməklə qeyri-neft sektorunun davamlı inkişafına, istehsal təyinatlı müəssisələrin fəaliyyətinin daha da genişləndirilməsinə, ixracyönlü məhsul istehsalının stimullaşdırılmasına, sosialyönümlü tədbirlərin reallaşdırılması yolu ilə əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına, məşğulluq səviyyəsinin, xüsusilə gənclərin faydalı əməklə məşğulluğunun artırılmasına və beləliklə ölkə iqtisadiyyatının dinamik inkişafının təmin edilməsinə nail olmaqdır. Ölkənin strateji inkişaf istiqamətindən asılı olaraq regionlarda cari və perspektiv inkişafa səbəb olan məqsədli proqramların reallaşdırılması onların qeyri-sabit inkişafa səbəb ola biləcək amillərin tədricən aradan qalxmasına yardım edə bilər [8, s. 253]. Məlumdur ki, regionların fərqli coğrafi mövqeyi, iqlim şəraiti, malik olduqu resurs potensialı istər-istəməz fərqli həyat tərzinin formalaşmasına gətirib çıxarır. Ona görə də regionlar malik olduğu iqtisadi potensialdan səmərəli istifadə etməklə regional daxili məhsulun artırılmasında maraqlı olmalıdır. Regionların tarazlı inkişafını təmin etmək üçün ilkin mərhələdə keçirilən subsidiyalar, yardımlar və güzəştlərin məbləği sonrakı mərhələlərdə azaldılmaqla, onların tədricən gəlir yaradıcı amilə çevrilməsinə nail olmaq lazımdır.

Regionlar özlərinin potensialına, təbii sərvətlərinin miqyasına və çeşidinə, məşğulluq səviyyəsinə görə bir-birindən fərqlənir. İqtisadi, coğrafi və tarixi baxımdan iqtisadi rayonları fərqləndirən amillər əsasən iqtisadi-coğrafi mövqeyi, təbii şəraiti və ehtiyatları, əhalinin məskunlaşma səviyyəsi, regionun sahə və ərazi quruluşu, tarixi inkişaf xüsusiyyətləridir.

İlkin informasiya kimi, iqtisadi rayonların 2005-2016-cı illər üzrə yuxarıda adları çəkilən sahə məlumatlarından istifadə olunmuşdur. Bu məlumatlar əsasında iqtisadi rayonların inkişaf indeksləri hesablanmışdır.

Cədvəl 1-də iqtisadi rayonlar üzrə 2005-ci illə müqayisədə 2016-cı ildə inkişafın artım sürətinə görə iqtisadi göstəricilərin inteqral indeksləri əks olunmuş və iqtisadi rayonların reytinqi müəyyən edilmişdir.

Cədvəl 1

2005-ci illə müqayisədə 2016-cı ildə iqtisadi rayonlar üzrə iqtisadi göstəricilərin artım sürəti indeksləri

İqtisadi rayonlar	Artım sürəti indeksləri				İqtisadi göstəricilərin adambaşına inteqral artım sürəti indeksi	Reytinq
	Adam başına investisiya qoyuluşu	Adam başına ümumi məhsul	Adam başına sənaye məhsulu	Adam başına kənd təsərrüfatı məhsulu		
Naxçıvan Muxtar Respublikası	6,3912	5,6841	19,3165	3,4777	7,188	1
Bakı şəhəri	1,8915	1,6622	2,4418	3,0000	2,209	5
Gəncə-Qazax iqtisadi rayonu	2,0783	2,2931	1,9390	2,3026	2,171	6
Şəki-Zaqatala iqtisadi rayonu	0,8651	2,6176	2,1107	2,2563	1,875	10
Lənkəran iqtisadi rayonu	0,9050	2,8918	4,6971	2,8055	2,561	3
Quba-Xaçmaz iqtisadi rayonu	0,8727	2,9338	3,5870	2,6753	2,338	4
Aran iqtisadi rayonu	0,8843	2,7457	2,0902	2,7681	2,010	9
Yuxarı Qarabağ iqtisadi rayonu	0,9420	2,6713	6,0833	3,7039	2,926	2
Kəlbəcər-Laçın iqtisadi rayonu	0,9000	4,0197	0,6500	5,2091	2,144	7
Dağlıq Şirvan iqtisadi rayonu	0,8766	3,2923	0,1810	2,7059	1,437	11

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin saytı, www.stat.gov.az

Cədvəldən göründüyü kimi, 2005-ci illə müqayisədə 2016-cı ildə inkişafın ən yüksək artım tempi Naxçıvan Muxtar Respublikası (7,188) olmuşdur. Aşağı inkişaf tempi isə Gəncə-Qazax iqtisadi rayonu (2,171) və Dağlıq Şirvan iqtisadi rayonu (1.437) olmuşdur.

"İqtisadi göstəricilər"ə görə səmərəliliyinin qiymətləndirilməsinin qrafik təsviri də bunu təsdiq edir (şəkil 1).

Bütün bunlar muxtar respublikada artan əhali tələbatına uyğun olaraq iqtisadiyyatın şaxələndirilməsi, sosial sahənin inkişafı üzrə aparılan tədbirlər 2017-ci ildə də davam etdirilmiş, yüksək nəticələr əldə olunmuşdur. Cari ilin yanvar-mart ayları ərzində ümumi inkişafın əsas göstəricisi olan ümumi daxili məhsul istehsalının həcmi 505 milyon 378 min manatdan artıq olmuşdur ki, bu da bir il öncəki müvafiq göstəricidən çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi əvvəlki ilin müvafiq dövrünə nisbətən 4,5 faiz artaraq 1124,3 manat olmuşdur. Ümumi daxili məhsulun tərkibində ilk yeri 31,7 faizlik payla sənaye sahəsi tutmuş və maddi istehsalın payı 54,8 faiz təşkil etmişdir. 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 2017-ci ilin yanvar-mart aylarında sənaye məhsulunun həcmi 1,3 faiz, kənd təsərrüfatının ümumi məhsulu 3,3 faiz, nəqliyyat sektorunda yük daşınması 1,5 faiz, informasiya və rabitə xidmətlərinin həcmi 3,1 faiz, o cümlədən mobil rabitə xidməti 1,8 faiz, pərakəndə əmtəə dövriyyəsi 1,7 faiz,

əhaliyə göstərilən pullu xidmətlər 2 faiz, ixracın həcmi 1,1 faiz, əhalinin gəlirləri 1,2 faiz artmışdır. Sadalanan göstəricilərə əsasən, əminliklə demək olar ki, Naxçıvan Muxtar Respublikası iqtisadi inkişaf indeksinə görə digər bölgələrlə müqayisədə birinci yerdə məskunlaşır.



Şəkil 1. İqtisadi rayonların artım sürətinə görə iqtisadi göstəricilərinin inkişaf indekslərinin qrafik təsviri.

Mənbə: statistik göstəricilərə əsasən müəllif tərəfindən hazırlanmışdır.

Beləliklə, son illərdə muxtar respublikanın zəngin təbii ehtiyatları və insan potensialının istifadəsi diqqət mərkəzində saxlanılır və iqtisadiyyatın dinamik inkişafı üçün hərtərəfli şərait yaradılır.

ƏDƏBİYYAT

1. Əhmədov N. Naxçıvan iqtisadiyyatının prioritetləri: İqtisadi artım, dinamik inkişaf. Bakı: Sabah, 2008, 452 s.
2. 2016-cı ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının xülasəsi. Naxçıvan: Əcəmi, 2017, 63 s.
3. Naxçıvan bu gün: islahatlar, perspektivlər (5-6 oktyabr 2017-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Bakı: Nuran, 2008, 548 s.
4. Azərbaycanın regionları. Statistik məcmuə. Bakı – 2010-2016, 780 s.
5. Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları. Naxçıvan 2017, 83 s.
6. Заварина Е.С., Чобану К.Г. Основы региональной статистики. Финансы и статистика, Москва, 2006, 357 с.
7. Статистика. Под ред. В.Г.Ионина, Серия "Высшее образование", 2001, 425 с.
8. Экология и экономика природопользования. Под ред. Э.В.Гирусова. Москва: ЮНИТИ-ДАНА, 2007, 350 с.
9. РЕГИОНИ УКРАЇНИ. ЕКОНОМИКО-СТАТИСТИЧНІ ПОРІВНЯННЯ, № 5, 2001, Львів - Київ, 2001, 670 с.
10. HUMAN DEVELOPMENT REPORT 1997. Published for the United Nations Development Programme (UNDP). New York - Oxford. Oxford University Press, 1997, p 234.

11. Вопросы статистики. Научно-информационный журнал. 6/2009.
12. www.stat.gov.az

Севиндж Джаббарова

СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ ЭКОНОМИЧЕСКИХ РАЙОНОВ АЗЕРБАЙДЖАНА С НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКОЙ ПО ИНДЕКСУ УРОВНЯ РАЗВИТИЯ

Успехи Азербайджана во всех сферах, улучшение финансовых возможностей, то, что наша страна является главным участником и инициатором в транснациональных проектах – все это приводит к обеспечению уравновешенного развития регионов. В последние годы благодаря эффективному использованию существующего потенциала автономной республики расширяется деятельность производственно-ориентированных предприятий, стимулируется производство экспортной продукции, реализация социально направленных мероприятий наблюдается улучшение уровня жизни населения, увеличение уровня занятости, а также расширение международной торговли. На основе сведений за 2005-2016 годы по экономическим районам вычислен индекс развития районов. Исследовано, что самый высокий темп развития наблюдался в Нахчыванской Автономной Республике (7,188). Причиной этому служит правильное использование богатых природных ресурсов и человеческого потенциала, а также расширение международных связей и привлечение иностранных инвестиций.

Ключевые слова: *комплексное развитие Нахчыванской Автономной Республики, индекс уровня развития, потенциал региона.*

Sevinj Cabbarova

COMPARATIVE ANALYSIS OF THE ECONOMIC REGIONS OF AZERBAIJAN WITH THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC ON THE DEVELOPMENT LEVEL INDEX

The successes of Azerbaijan in all spheres, improvement of financial opportunities, that our country is the main participant and initiator in transnational projects – all this leads to ensuring balanced development of the regions. In recent years, due to the effective use of the existing potential of the Autonomous Republic, the activity of production-oriented enterprises is expanding, export production is being stimulated, social activities are being implemented, the living standards of the population are improving, employment is increasing, and international trade is expanding. Based on the data for 2005-2016, the regional development index has been calculated for economic regions. It was investigated that the highest rate of development was observed in the Nakhchivan Autonomous Republic (7,188), the reason for this is the rich natural resources and the correct use of human potential, expansion of international relations and attraction of foreign investments.

Keywords: *complex development of Nakhchivan Autonomous Republic, development level index, regional potential.*

(İqtisad üzrə elmlər doktoru, pofessor Ağarza Rüstəmov tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2018, № 1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2018, № 1

PROCEEDINGS OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES NAKHCHIVAN BRANCH OFFICE
The series of social sciences and humanities, 2018, № 1

ELŞƏN İBRAHİMOV
AMEA-nın İqtisadiyyat İnstitutu

MALİYYƏ BÖHRANLARI VƏ ONLARIN DAVAMLI İQTİSADİ İNKİŞAFA TƏSİRİ

Məqalədə maliyyə böhranlarının yaranması və təsirləri araşdırılmışdır. Müxtəlif dövrlərdə müşahidə edilən maliyyə böhranları nəzərdən keçirilib. Müəllif maliyyə böhranlarının yaranma səbəblərini göstərmişdir. Burada böhranın müsbət və mənfi təsirləri izah edilir. Böhranın iqtisadi diversifikasiyaya təkan verdiyi qeyd olunur. Böhranın ayrı-ayrı sahələrə – dövlət büdcəsi, banklar və s. təsirləri verilmişdir. Həmçinin böhran baş verdikdən sonra iqtisadi proseslərin inkişaf istiqamətləri izah edilir. Məqalənin sonunda böhranın mənfi iqtisadi təsirlərini azaltmaq üçün müəyyən tövsiyələr verilmişdir.

Açar sözlər: *maliyyə böhranı, dövlət büdcəsi, banklar, makroiqtisadi təsirlər, neftin qiymətləri.*

Qloballaşma dövrü bir sıra ziddiyyətli yanaşmalarla xarakterizə olunur. Belə ki, bir qrup tədqiqatçılar qloballaşmanı qaçılmaz hesab edərək, onu dünyanın tərəqqisinin zəruri şərti kimi təqdim edir. Bir qrup isə, qloballaşmanın varlı ölkələri daha da varlandırdığını, kasıbları isə daha da kasıblaşdırdığını iddia edirlər. Bununla belə, danılmaz bir həqiqət ondan ibarətdir ki, qloballaşma milli təsərrüfatlarda qeyri-sabitliyin artması və böhranların yaranması ehtimalının yüksəkliyi ilə səciyyələnir. Ən qısa zaman kəsiyində qabaqcıl təcrübəni, böhranı yaymağa qadir olan qloballaşma daha çox milli iqtisadiyyatlara təhdidləri ilə yadda qalmaqdadır. Məhz, qloballaşma dövründə maliyyə böhranları bir çox ölkələrdə davamlı xarakter almağa başlamış və öz mənfi təsirlərini göstərməyə başlamışdır.

Maliyyə böhranlarının baş vermə tarixinə nəzər salsaq, bu prosesin 1970-ci illərin enerji böhranı ilə başladığını görmək mümkündür. Dövrü borc yığımı kimi xarakterizə olunan ilk böhran zamanı, tədqiqatçılar böhranın əsas səbəbini şirkətlərin və ölkələrin sürətli böyümə istəyi ilə əlaqələndirirdilər. Bu məqsədlə, dövlətlər borclanır və borcların artımı maliyyə böhranının meydana gəlməsində başlıca faktor rolunu oynayırdı [1, s. 74-77].

Böhranın sonrakı mərhələləri bank sistemi ilə əlaqələndirilir və qeyd edilir ki, maliyyə böhranının baş verməsinin başlıca səbəblərindən biri də bankların fəaliyyətində müşahidə edilən problemlər, ayrı-ayrı ölkələrdə baş verən inflyasiya və s.-dir. İqtisadi nəzəriyyədən məlum olduğu kimi, monetaristlərə (Fridmen, Kaqan və s.) görə yüksək inflyasiya bankçılıqda təşvişə yol açır və bu zaman sərt pul siyasətinin iqtisadi aktivlik üzərində təsiri azalır. Rasional iqtisadçılar (Qerber, Votson və s.) isə ən önəmli amil kimi faktik olaraq qiymət dəyişmələrini göstərirlər. Qeyri-müəyyənlik nəzəriyyəsi isə əldə ediləcək gəlirlə risk arasında nisbət haqqında qərar qəbul etmənin vacibliyini açıqlayır və bu istiqamətdə səhv qərarı böhranın əsas səbəblərindən biri kimi xarakterizə edir. Bu məktəbin nümayəndələri olan Molozer, Nerrinqə görə maliyyə böhranlarına səbəb gələcəyə yönəlmiş qeyri-müəyyənlikdir [1, s. 82-87; 4].

Bank sistemində müşahidə edilən çatışmazlıqlarla əlaqədar böhranların baş verməsi səbəblərindən biri də kreditləşmə ilə bağlıdır. Belə ki, tədqiqatçıların fikrincə kreditin miqdarında olan azalmalar ona olan tələbdə ani bir artıma səbəb olur. Maliyyə bazarının struktur nəzəriyyəsinə görə qlobal maliyyə böhranının səbəbi maliyyə bazarlarının sərbəstləşdirilməsidir. Bazara giriş sahəsində maneçiliklərinin azalması kredit tələbində artıma və kredit standartlarında azalmaya yol açır ki, bu da öz növbəsində böhrana səbəb olan amillərdən biridir [1; 9].

Digər tərəfdən, İKT sahəsindəki sürətli inkişaf nəticəsində artan inteqrasiya, bir bölgədə yaşanan böhranın təsirlərinin digər ölkələrə daha sürətlə yayılmasına səbəb olur. Qeyd edilənlərin təsdiqi kimi, Cənub-Şərqi Asiya ölkələrində yaşanan böhranı nümunə göstərmək olar. Xarici ölkə sakinlərinin sərbəst olaraq daxili maliyyə bazarlarında, istər depozit yerləşdirməsi, istərsə də kredit ala bilməsi ölkə sakinlərinin də bütün valyuta əməliyyatlarını sərbəst apara bilməsi deməkdir. Eyni zamanda, beynəlxalq bazarlarda maliyyə sərbəstləşməsi portfel investisiyalarının həcminin artmasına səbəb olur ki, bu investisiyaların da 90%-dən çoxu inkişaf etmiş ölkələrin payına düşür. 1994-cü ilə qədər isə bu investisiyalar, əsasən 5 ölkə üzrə təmərküzləşmişdir ki, buraya da Argentina, Braziliya, Meksika, Cənubi Koreya, Türkiyə daxildir. Bunun nəticəsi olaraq da, bu ölkələrdə milli pul vahidi üzrə daxili bazara idxal edilən mallar dollar üzrə rəqabət gücünü itirirdi. Buna görə də cari əməliyyatlar üzrə defisitin artması nəticəsində risk sistematik olaraq artır və nəticədə maliyyə böhranının reallaşması üçün əlverişli mühit yaranır.

Araşdırmalar göstərir ki, ciddi bir borc böhranı 80-ci illərdən başlamışdır ki, bu da neftin qiymətinin artımı ilə izah edilirdi. Bu sahədən irihəcmli vəsaitlərin daxil olması böyük həcmdə sərbəst kredit resurslarına yol açdı. Maliyyə böhranı kreditor ölkələrin borcunu ödəmə qabiliyyəti olmayanlara yardım tədbirlərini həyata keçirməyə məcbur etdi. Bununla bağlı bir sıra tədbirlər həyata keçirilsə də, 1994-1995-ci illərdə beynəlxalq valyuta-kredit sferasında yenidən Meksikada bank, valyuta və borc böhranı özünü göstərdi. Daha sonra oxşar mahiyyətə malik proseslər 1997-98-ci illərdə Cənub-Şərqi Asiyada, Braziliyada, Rusiyada, Türkiyədə, Argentinada müşahidə olundu. Ümumilikdə isə, böhranları araşdırarkən bütün ölkələrdə eyni çətinliklər, problemlər aşkar olunur. Xüsusilə, xarici borc artır, milli valyuta öz dəyərini itirir, bank sisteminin fəaliyyətində ciddi çətinliklər yaşanır və s. Təsadüfi deyil ki, 1997-ci ildə özəl və dövlət sektorunun məcmuu daxili və xarici borcu Cənubi Koreya, Malayziya, Tailanda ÜDM-u 2,3 dəfə, İndoneziyada isə iki dəfə keçirdi [4; 8; 9].

Müşahidələr göstərir ki, Asiya maliyyə böhranı bu region ölkələrinə böyük vəsait yatıran sənaye ölkələrinə həyacan siqnalı oldu. Onların buradan neft, xammal və digər malların idxalına ehtiyacı var idi. Bu baxımdan onlar böhranın aradan qaldırılmasına xidmət etməyə hazır idilər. Asiyada böhranın normallaşması başlayanda Braziliya maliyyə uçurumu ilə üzləşdi. Daxili borcu ödəmək üçün 100 milyard vəsait tələb olundu. Borc verənlərdə isə belə vəsait yox idi. Ölkənin qızıl valyuta ehtiyatları 41 mlrd. dollara kimi azaldı. Braziliya sabit məzənnədən üzən valyuta məzənnəsi sisteminə keçdi və valyutası 43% devalvasiya etdi. Böhranın kəskinliyi bir ildən sonra səngidi və əsas iqtisadi indikatorlar yaxşılaşdı. Bu, digər ölkələrin bankları və beynəlxalq təşkilatların köməyi ilə baş verdi.

Bildiyimiz kimi, 2008-ci ildən etibarən dünya iqtisadiyyatında növbəti bir maliyyə böhranı başladı. Mütəxəssislər əvvəlki böhranları əsasən valyuta sistemində yaranan problemlərlə əlaqələndirirdilərsə, sonuncu maliyyə böhranının əsasında bank sektorunda yaranan problemlərin dayandığını iddia edənlər üstünlük təşkil edir. Əvvəllər, əgər söh-

bət, dövrü iqtisadi böhranlara səbəb olan hadisələrdən gedirdisə, indi daha çox "pul böhranı"ndan danışılır [4; 5, s. 14-18].

Qeyd etmək lazımdır ki, baş vermə səbəbindən asılı olmayaraq, maliyyə böhranı maliyyə-kredit sisteminin tarazlığının pozulmasıdır ki, bu da özünü maliyyə müəssisələrinin və kredit maliyyə təsisatlarının fəaliyyətində qeyri-sabitlik, milli valyutanın dəyərsizləşməsi və borcların artmasında göstərir.

XXI əsrin əvvəllərindən etibarən qlobal miqyasda öz əhatə dairəsini genişləndirən maliyyə böhranı öz başlanğıcını ABŞ-dan götürüb. ABŞ-da böhranın başlanmasına şərait yaradan simptomlar bir müddət əvvəl formalaşmağa başlamışdır ki, bu məsələ müxtəlif ekspertlər tərəfindən də vaxtaşırı vurğulanırdı. Belə simptomlara misal olaraq, İraq müharibəsinə çəkilən 3 trilyon dollardan çox xərc, ölkədə ipoteka kreditləri sahəsində həyata keçirilən səmərəsiz siyasət göstərilə bilər.

Bütün bunlarla yanaşı, 2008-ci ilin əvvəllərində neftin qiymətinin gözlənilmədən kəskin şəkildə qalxması Federal Ehtiyatlar Sisteminin faizləri yüksəltməsinə səbəb oldu. Bu da vətəndaşların kredit və onun faizlərinin ödəmə qabiliyyətini aşağı saldı və nəticədə ipoteka alan evlər istehsalçı şirkətlərə geri qaytarıldı. Həmin şirkətlər isə kreditləri banklardan götürdükləri üçün banklar kredit riski ilə üzləşdilər. Avtomatik olaraq geri gəlməyən pullar böhranın başlanmasına səbəb oldu. Amerika birjalarında daşınmaz əmlakın qiyməti sürətlə düşməyə başladı. Baş verən proseslərlə əlaqədar ABŞ birjalarında baş verən dəyişikliklər dünyanın digər birjalarına təsir etdi. Qeyd etmək yerinə düşər ki, bu gün Nyu-York birjası dünyanın ən aparıcı birjasıdır və dünya birjalarında qiymətlərin müəyyənləşməsində mühüm rol oynayır və bu birjada yaşanan hallar digər dünya ölkələrinin birjalarında da yaşanır.

Maliyyə böhranının doğurduğu kapital yığımı digər tərəfdən dünya bank sisteminə də dağıdıcı təsir göstərib. Bank sektoru sənaye sahələri ilə daha yaxından inteqrasiya olunan Avropada isə böhranın təsirləri daha ciddidir. ABŞ-da isə bununla müqayisədə daxili maliyyə ehtiyacları üçün qiymətli kağızlar daha etibarlı sayılır və ona görə də onlara üstünlük verilir. Dünya iqtisadiyyatının qlobal böhran nəticəsində üzləşdiyi mühüm problem iqtisadi artım tempinin qlobal azalmasıdır ki, bu da əmtəəyə olan tələbin və bunun nəticəsi olaraq istehsalın azalması, zəifləməsi, xammal təchizatçısı ölkələri bazalarının zəifləməsi nəticəsində ixrac həcminin azalması ilə müşahidə edilir [4; 6].

İqtisadiyyatının üzləşdiyi, eləcə də böhrana dəstək verən digər bir problem beynəlxalq bazarda neftə olan tələbin azalması və onun qiymətinin sürətlə aşağı düşməsidir. Məhz, bu kimi amillərin nəticəsində iqtisadiyyatı xammaldan asılı olan ölkələrdə maliyyə sektoru ilə yanaşı iqtisadiyyatın real sektorunda və sosial sferada da tənəzzül müşahidə edilir. Ümumiyyətlə, bütün dünyada işsizlik artır, əmtəə qiymətləri azalmaqda davam edir, neftin qiyməti cəmi bir neçə il bundan əvvəlki yüksək səviyyədən 3 dəfədən çox aşağı düşüb və hələ də düşməkdə davam edir, yaxın gələcəkdə bunun realist davamı isə hələ qeyri-müəyyəndir [4].

Bütün bunlarla yanaşı, baş verən böhranın yalnız neqativ deyil, pozitiv təsirləri də mövcuddur. Başqa sözlə desək, böhran yalnız problemlərlə deyil, həm də gələcək hədəflərin dəqiqləşdirilməsi baxımından xarakterizə edilməlidir. İqtisadçı professor, i.e.d. D.Vəliyevə görə, ümumilikdə, böhranın neqativ nəticələrini aşağıdakı kimi təsnifləşdirmək olar [1, s. 74-91; 4].

– istehsala olan tələb azaldığından istehsal və bölgü zəifləyəcək;

– işsizlik avtomobil və hava nəqliyyatından istifadəni azaldacaq;

– əlaqələndirilməmiş maliyyə tədbirləri, xüsusilə də böyük ölkələr tərəfindən əsas sənaye sahələrinə subsidiyalar istənilən yerdə əks təsir törədə bilər;

– maliyyə sektorunda zəruri islahatların aparılmaması maliyyə əməliyyatları iştirakçılarının fəaliyyətinin və əməliyyatlarının qeyri-şəffaf qalmasına, bu da öz növbəsində bərpaya mane olan likvidliyin azalmasına səbəb olur.

Qeyd etdiyimiz kimi, bütün iqtisadi proseslər kimi, böhranın da təsirləri yalnız neqativ deyil, pozitiv təsirlər də mövcuddur. Xüsusilə, iqtisadçılar böhrana həm də dünyada sülhün yaranması, stabilliyin təmin edilməsi prizmasından da yanaşırlar. Tədqiqatçıların fikrinə və Dünya Bankının proqnozlarına görə böhranın təsiri ilə İraq və Əfqanıstandakı münaqişə tədricən aradan qalxacaq, dünyanın nəhəng ölkələri olan Çin və Hindistan inkişafın lokomotivi olaraq beynəlxalq münasibətlərin hərəkətverici qüvvəsinə çevriləcək. Təhlillər göstərir ki, neft ehtiyatları tükənmək üzrədir və onun bərpası daha çox vəsait tələb edəcək, Rusiya kimi OPEK üzv olmayan ölkələr bu təşkilata qoşularaq vahid enerji siyasəti aparmağa məcbur olacaqlar, enerji sərfində də qənaətli evlər və avtomobillər yaradılacaq, ictimai nəqliyyat sektorunun inkişaf etdirilməsinə böyük investisiya cəlb ediləcək, OPEK üzvləri müəyyən edilmiş kvotalara əməl etmək məcburiyyətində qalacaq, alternativ enerji mənbələri ticarət baxımından daha əlverişli və rəqabət qabiliyyətli olacaq və s. Bütün bunlarla yanaşı, böhrana qarşı tədbirlərin görülməsi və vəsaitlərin ayrılması nəticəsində dünya iqtisadiyyatı artımının 4%-inin ekoloji təmiz və enerjiyə qənaət edən olması gözlənilir [1; 4; 6].

Bütün dünyada olduğu kimi, böhran qlobal məkana sürətlə inteqrasiya olunan Azərbaycan Respublikasına da müəyyən təsirlər göstərir. Araşdırmalar göstərir ki, ÜDM-in artım templərinə görə, 2005-ci ildə 26,4 %, 2006-cı ildə 34,5 %, 2007 ci ildə 25 % iqtisadi artım olmasına baxmayaraq, qlobal maliyyə böhranının başladığı 2008-ci ildə 10,8 %-lik bir iqtisadi artım qeydə alınmışdır ki, bu da əvvəlki ildən 14,2 % azdır. BVF-nun məlumatlarına görə, 2009-cu ildə iqtisadiyyatda gerilənə olmuşdur. Ümumilikdə isə, böhran neftin qiymətində müəyyən azalmalara da səbəb olmuşdur ki, bu da neftdən asılı olan, valyuta gəlirləri əsasən bu sahədən formalaşan Azərbaycan iqtisadiyyatına da neqativ təsirlər göstərmişdir. Həm də ona görə ki, neft gəlirləri dünya bazarında baş verən qiymət konyunkturasından birbaşa asılıdır və ÜDM-nin davamlı olaraq inkişafı üçün iqtisadi artımın neft gəlirlərindən asılılığını minimuma endirmək lazımdır [4; 11; 13].

Böhranın neftin qiymətlərinə təsiri və ya neftin qiymətlərinin böhrana təsiri neft istehsalçısı olan ölkələr kimi Azərbaycanın dünya bazarında neftin qiymətinin ucuzlaşması ilə çox əhəmiyyətli zərərə məruz qoymuşdur. Məlum olduğu kimi, böhrana qədər bareli 150 dollar olan neft böhrandan sonra 40-50 dollara qədər ucuzlaşdı ki, bu da neftdən asılı ölkələrin iqtisadiyyatına ciddi təsirlər göstərdi. Ümumiyyətlə, neftin ucuzlaşması dövlət büdcəsinin 75%-nin neft sektoru hesabına formalaşdığı, ixracatının 97%-dən çoxunu neft və neft məhsullarının hesabına təşkil edilməsi ölkə iqtisadiyyatının inkişafı üçün bir çox problemləri də özü ilə gətirməkdədir. Enerji daşıyıcılarının qiymətinin azalması təkcə iqtisadi deyil, o cümlədən sosial baxımdan mənfi nəticələrə rəvac vermişdir [4; 5].

Qlobal maliyyə böhranının ilk təsirlərindən biri kimi müəyyən irihəcmli infrastruktur layihələrinin reallaşdırmasının sonraya təxirə salınması tikinti proseslərinin azalması, işsizliyin artması göstərilə bilər. Bununla yanaşı, dünyada baş verən mənfi meyllərin nəticələrinin təsirlərini yumşaltmaq məqsədilə Azərbaycan hökuməti səmərəli məşğulluğun təmin edilməsi məqsədilə bir sıra proqramlar da reallaşdırmaqdadır (Məsələn, özünüməşğulluq proqramı və s.). Bütün hallarda, görülmüş tədbirlərə baxmayaraq böhranın iqtisadi təsirləri bu və ya digər formada hələ də hiss edilməkdədir.

Müşahidələr göstərir ki, qlobal böhranın ən mühüm təsir kanallarından biri xarici birbaşa investisiya axınının azalmasıdır. Azərbaycanda əsasən dövlət investisiya proqra-

mı çərçivəsində infrastruktur layihələrinə qoyulan sərmayələr hesabına daxili investisiyanın artımı qarşılığında, 2008-ci ildə ölkə iqtisadiyyatına yönələn birbaşa xarici investisiya bir qədər azalıb. Xarici mənbələrdən əsas kapitala yönəldilmiş xarici investisiyanın həcmi 2008-ci ildə 2.2 milyard manat (2.75 milyard dollar) təşkil edərək, əvvəlki ilin müvafiq dövründən 16.3% az olub. Əgər əvvəlki illərdə azalmanın səbəbi daha çox neft-qaz layihələrinin investisiya repatriasiyası mərhələsinə keçməsi ilə əlaqədar olmuşdursa, 2008-ci ildən isə buna qlobal iqtisadi böhranın təsirlərini də əlavə etmək qaçılmazdır [1; 4; 11].

Böhranın bütün dünyanı silkələdiyi ilk illərdə Azərbaycana ciddi təsirləri hiss edilməsə də, iqtisadiyyatı, xüsusilə ixracı əsasən neft və neft məhsullarından ibarət olan ölkəmiz neftin ucuzlaşması ilə bu təsirləri daha ciddi hiss etməyə başladı. Bircə faktı qeyd etmək kifayətdir ki, dövlət büdcəsi son 2-3 ildə azalmaqdadır. Bu isə dövlətin daxili iqtisadi siyasətinin reallaşdırılmasına mane olur. Aydındır ki, maliyyə münasibətləri sisteminin əsas həlqələrindən biri olan büdcə dövlətin sosial-iqtisadi və siyasi funksiyalarının həyata keçirilməsi üçün ən mühüm alətdir. Dövlət öz funksiyalarını yerinə yetirmək üçün müəyyən pul vəsaitləri fondlarına malik olmalı və onları müvafiq qaydalara uyğun olaraq istifadə etməlidir. Başqa sözlə desək, sosial-iqtisadi funksiyaların reallaşdırılması üçün dövlət büdcəsi xüsusi əhəmiyyətə malikdir. Bu baxımdan da, böhranın təsiri və neftin qiymətlərinin enməsi büdcədə azalmalara səbəb olur ki, bu da dövlətin öz funksiyalarını reallaşdırmasında problemlərə və ya ləngimələrə gətirib çıxarır [2, s. 212-226; 12].

Beləliklə, maliyyə böhranlarının yaranması və təsirlərinə dair aparılan araşdırmalardan aydın olur ki, böhranın yaranma səbəbləri müxtəlif olsa da, onun iqtisadi proseslərə təsirləri oxşardır. Ona görə ki, böhran büdcə gəlirlərinin formalaşma mənbələrinə mənfi təsir göstərir, bankların kredit aktivliyini aşağı salır və s. Bu baxımdan da, böhranın davamlı iqtisadi inkişafa da öz mənfi təsirlərini göstərir. Bununla belə, böhran vəziyyətlərinin müəyyən müsbət iqtisadi təsirləri də mümkündür. Belə ki, böhranın baş verməsi iqtisadiyyatın diversifikasiyasını, insanların yerli resurslardan daha qənaətlə istifadəsini təşviq edir. Məsələn, neftdən daxil olan vəsaitlərin artması ilə Bakı və digər mərkəzi şəhərlərdə başlayan tikinti bumu nəticəsində respublikanın əksər regionlarından mərkəzi şəhərlərə sürətli axın müşahidə edilirdi. Bu isə insanları torpaqdan, yerli resurslardan istifadədən kənarlaşdıraraq, öz əməklərini tikinti sektorunda reallaşdırmağa sövq edirdi. Son dövrlər isə, böhranın təsirlərinin artması, neftin qiymətinin azalması və s. ilə əks axın, yəni mərkəzi şəhərlərdən kənd rayonlarına doğru axın hiss olunmaqdadır. İnsanlar, artıq torpağa, yerli resurslara daha çox üstünlük verməyə başlayırlar. Təbii ki, bu proses bütünlükdə böhranın bir nəticəsi olsa da, ümumilikdə müsbət təsir kimi xarakterizə oluna bilər. Ona görə ki, bu, diversifikasiyaya, regional inkişafa, ərzaq məhsullarının bolluğuna imkan yaradacaqdır. Bütün hallarda isə, böhranlardan yayınmaq, mənfi təsirləri maksimum dərəcədə azaltmaq üçün ən səmərəli yol yerli resurs potensialına əsaslanan fəaliyyət sahələrinin inkişafıdır. Ona görə də iqtisadi fəal əhali qrupunun da bu istiqamətdə maarifləndirilməsi, təşviq edilməsi məqsədəuyğun olardı.

Ümumiyyətlə, xarici bazarlarda, ölkə iqtisadiyyatında yaranmış vəziyyət və onlara müvafiq olan çağırışların qarşılanması məqsədilə Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən ardıcıl surətdə müəyyən edilən siyasət əsasında yaranmış mənfi təzahürlərin təsirini mümkün olan minimuma endirmişdir. Bütövlükdə Azərbaycan iqtisadiyyatı öz dayanıqlığını saxlaya bilmiş, yaranmış yeni şəraitdə iqtisadi sabitlik təmin edilmişdir. Həyata keçirilən iqtisadi siyasətin və islahatların davamlılığını təmin etmək üçün ölkə Prezidenti tərəfindən "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" 6 dekabr 2016-cı ildə Fərman imzalanmışdır. Fərmana əsasən, neft və qaz sənayesinin inkişafına, kənd təsərrüfatı məhsullarının istehsalına və emalına, kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına, habelə ağır sənaye və maşınqayırmanın, turizm sahəsinin, logistika və ticarətin, uyğun qiymətə mənzil təminatının, peşə təhsili və təlimin, maliyyə xidmətlərinin, telekommunikasiya və informasiya texnologiyalarının, kommunal xidmətlərin inkişafına dair strateji yol xəritələri təsdiq edilmişdir. Respublikamızda iqtisadiyyatın şaxələndirilməsi, rəqabətqabiliyyətliliyinin yüksəlməsi, real sektorun inkişafına və sahibkarlığa dövlət dəstəyinin artırılması, biznes və investisiya mühitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən islahatlar, təmin edilmiş makroiqtisadi sabitlik iqtisadiyyatın xarici təsirlərə və risklərə dayanıqlılığını şərtləndirən başlıca amillərdəndir. Görülmüş işlər və həyata keçirilmiş tədbirlər iqtisadiyyatın təkcə kəmiyyət artımını yox, həm də keyfiyyət dəyişikliklərinin əldə olunmasına əsas vermişdir.

ƏDƏBİYYAT

1. Vəliyev D.Ə. Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası. Bakı: Adiloğlu, 2008, 428 s.
2. Ataşov B.X., Novruzov N.A., İbrahimov E.Ə. Maliyyə nəzəriyyəsi. Bakı: Kooperasiya, 2014, 648 s.
3. Bağırov M. Banklar və bank əməliyyatları. Bakı: Nurlan, 2003, 510 s.
4. Süleymanov E., Zeynalov A. Qlobal maliyyə böhranının Azərbaycan iqtisadiyyatına təsiri. Bakı, Journal of Qafqaz University, 2009, № 28, s. 111-120.
5. Qlobal iqtisadi böhranın Azərbaycana təsirləri: yeni miflər yeni reallıqlara qarşı. Azərbaycan-Türkiyə İş Adamları Birliyi, Layihələr və Tədqiqatlar Şöbəsinin nəşri, Bakı, 2009, 123 s.
6. Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya İqtisadi və Beynəlxalq Münasibətlər II Beynəlxalq Konfrans Materialları. Qafqaz Universiteti Bakı, 25 may 2007-ci il 1-II;
7. Колодко Г. Глобализация и сближение уровней экономического развития: от спада к росту в странах с переходной экономикой. Вопросы экономики, 2000, № 10, с. 325.
8. Плисецкий Д. Экономическая безопасность: валютно-финансовые аспекты. МЭ и МО, 2002, № 5, с. 28-38.
9. Вопросы экономики, 2009, № 4, s. 54-56.
10. www.cbar.az
11. www.economy.gov.az
12. www.maliyye.gov.az
13. www.stat.gov.az

Эльшан Ибрагимов

ФИНАНСОВЫЕ КРИЗИСЫ И ИХ ВЛИЯНИЕ НА УСТОЙЧИВОЕ ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ

В статье анализированы причины возникновения финансовых кризисов и их последствия. Рассмотрены финансовые кризисы, наблюдавшиеся в разное время, и причины их возникновения, выявлены положительные и отрицательные последствия кризиса. Отмечено, что кризис дает толчок экономической диверсифика-

ции, влияет на отдельные конкретные сферы – государственный бюджет, банки и финансовые рынки. Исследованы тенденции развития экономических процессов в послекризисный период, даны рекомендации в целях снижения негативных последствий кризиса.

Ключевые слова: *финансовый кризис, государственный бюджет, банки, макро-экономические последствия, цены на нефть.*

Elshen Ibrahimov

FINANCIAL CRISES AND THEIR IMPACT ON SUSTAINABLE ECONOMIC DEVELOPMENT

The paper analyzes the causes of financial crises and their consequences. The financial crises observed at different times and the reasons for their occurrence are examined, and the positive and negative consequences of the crisis are revealed. It is noted that the crisis gives impetus to economic diversification, affects specific specific areas: the state budget, banks and financial markets. Trends in the development of economic processes in the post-crisis period were explored, and recommendations were given in order to reduce the negative consequences of the crisis.

Keywords: *financial crisis, state budget, banks, macroeconomic consequences, oil prices.*

(İqtisad üzrə elmlər doktoru, pofessor Nazim Əhmədov tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2018, № 1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2018, № 1

PROCEEDINGS OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES NAKHCHIVAN BRANCH OFFICE
The series of social sciences and humanities, 2018, № 1

CAVADXAN QASIMOV
AMEA Naxçıvan Bölməsi
E-mail: cavadxan.yusifoglu@mail.ru

NAXÇIVAN MUXTAR RESPUBLİKASI: İSTEHSAL POTENSİALI VƏ PERSPEKTİVLƏR

Məqalədə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının nəzəri məsələlərinə diqqət yetirilmiş, onun elmi əsaslandırılması aparılmış, addımların günün tələblərinə uyğun atılması vurğulanmışdır. Göstərilmişdir ki, son iyirmi iki ildə burada məqsədyönlü iqtisadi siyasətin yeridilməsi ümumilikdə, milli iqtisadi potensialın daha da gücləndirilməsinə səbəb olmuşdur. Əldə olunan nəticələr statistik göstəricilər əsasında tərtib edilmiş cədvəllərlə təhlil edilmiş və region üçün səmərəli strateji faydalılığı açıqlanmışdır.

Açar sözlər: *sosial-iqtisadi inkişaf, milli iqtisadi potensial, məşğulluq səviyyəsi, ümumi daxili məhsulun həcmi, bazar iqtisadiyyatı, bazar münasibətləri.*

Naxçıvan Muxtar Respublikası ölkənin etibarlı qonşuluq siyasətinin tənzimlənməsində xüsusi əhəmiyyətə malik region kimi dövlətlərarası münasibətlərin inkişafına da töhfə verməkdədir. Buna görə də:

– coğrafi mövqeyinə görə əlaqələndirici xüsusiyyətlərinə;
– iqtisadi təşəbbüskarlığına görə artan miqyasda təmin edilən qarşılıqlı ticarət dövriyyəsinə;
– ictimai-siyasi sabitliyinə görə ölkənin milli maraqlarının qorunmasına;
– sosial dayanıqlığına görə əhalinin firavan və təhlükəsiz yaşayışına;
– idarəetmənin təşkilinə görə stimullaşdırıcı xüsusiyyətlərin çevikliyinə təkan olan muxtar respublika ölkənin makroiqtisadi nailiyyətlərinin və siyasi yüksəlişinin ən sadiq təminatçısına çevrilmişdir. Dünyanın 60-a yaxın ölkəsi ilə ticarət əlaqələri olan muxtar respublika ölkənin strateji məqsədlərinə qətiyyətlə xidmət etməkdədir. Özünün iqtisadi faydalılığı ilə makroiqtisadi proseslərə stimul verən Naxçıvan Muxtar Respublikası iyirmi iki il ərzində Azərbaycan iqtisadiyyatının:

– müqavimət gücünün artırılmasında;
– istehsal əhəmiyyətliliyinin çoxaldılmasında;
– ixrac potensialının gücləndirilməsində;
– çoxşaxəliliyinin təmin edilməsində;
– regional siyasətinin səmərəliliyində;
– inteqrasiya qabiliyyətinin inkişafında;
– güclü infrastrukturun təşkilində;
– səmərəli məşğulluq səviyyəsinin yüksəldilməsində;
– nəticə etibarı ilə inkişafın uzaq gələcək üçün təşkilatlanmasında inamla yol qət etmişdir.

Bu proseslərin vəhdətindən yaranan təminatla Naxçıvan Muxtar Respublikası əsas makroiqtisadi hədəflərin tərkib hissəsi kimi qeyri-neft sektorunun dinamik inkişafına

təkan olacaq sahələrin tənzimlənməsinə nail olmuşdur. Burada həyata keçirlən məqsədyönlü tədbirlər nəticəsində:

– iqtisadiyyatın sahə strukturu müasir təminat qabiliyyətinin yüksəldilməsinə istiqamətlənmiş;

– əmtəələr yüksək istehlak dəyəri əsasında istehsal olunmuş;

– ərazinin ixtisaslaşdırılmasına uyğun olaraq məhsuldar qüvvələrdən istifadə sahəsində səmərəliliyin artırılmasına əlverişli imkanlar açmış;

– əmək məhsuldarlığının stimullaşdırıcı amilləri öz növbəsində məhsuldarlığa səbəb olmuş;

– məhz bu potensialla da ölkənin hədəf və prioritetlərinə birbaşa xidmət etməkdədir və s.

Naxçıvan Muxtar Respublikası iqtisadi-ticarət əlaqələrinin inkişafında yeni səhifələr açmaqdadır. Tələbata uyğun məhsul istehsalı, yerli istehsal potensialının gücləndirilməsi, daxili bazarın qorunması, bazar və iqtisadi tarazlıqların yaradılmasından ibarət sosial məmnunluğun bərqərar edilməsi muxtar respublikada daim diqqətdə saxlanılmaqdadır. Bunun da nəticəsində sakinlərin həm alıcılıq qabiliyyətləri yüksəlmiş, həm də zəruri istehlak vasitələrinə əlçatımlılıq təmin edilmişdir. Bunu aşağıdakı şəkil də göstərir:

Şəkil 1

Müxtəlif illər üzrə pərakəndə əmtəə dövriyyəsinin və əhaliyə göstərilən pullu xidmətlərin ümumi həcmi (min manat)



Şəkil statistik məlumatlar əsasında müəllif tərəfindən işlənmişdir.

Milli iqtisadiyyata doğru düşünülmüş addımların atılması muxtar respublikada səmərəli ticarət mühitinin yaradılmasına və bu sahədə keyfiyyətli xidmət təminatına şərait yaratmışdır. Nəticə isə, sağlam iqtisadi inkişafa doğru və sosial dayanıqlığa istiqamətlənmiş proseslərin düzgünlüyünü bəyan etməkdədir. Azad rəqabətin, sərbəst sahibkarlığın stimullaşdırıcı amillərini özündə əks etdirən bu amillər muxtar respublikanın hazırkı sosiallaşan iqtisadiyyatına güclü təkan olmaqdadır. Bu, özünü hər bir nəfərə düşən pərakəndə əmtəə dövriyyəsinin və pullu xidmətlərin həcmində də göstərməkdədir. Aşağıdakı şəklə diqqət edək:

Şəkil 2

Hər bir nəfərə düşən pərakəndə əmtəə dövriyyəsinin və pullu xidmətlərin həcmi (manat)



Şəkil statistik məlumatlar əsasında müəllif tərəfindən işlənmişdir.

Ümummilli lider böyük Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasından başlatdığı müasir iqtisadi siyasət burada özünün sosiallaşan çəkisi ilə yanaşı, həm də ümumxalq maraq və mənafeyini ifadə etmə sahəsində qətiyyətli yol qət etdi, bununla da dünyəvi mahiyyət daşıdı. Hazırda Naxçıvan Muxtar Respublikası özünün təbii, iqtisadi və coğrafi potensialından səmərəli istifadə etməklə, ölkənin milli və iqtisadi maraqlarına xidmət etməkdədir. Təbii ki, bütün bunlar muxtar respublikada xarici ticarətin də səmərəliliyi və potensialının artırılması baxımından da olduqca əlverişlidir. Əlbəttə ki, xarici ticarətin inkişafı ümumilikdə ölkənin etibarlı qonşuluq və strateji tərəfdaşlıq məqsədlərinə böyük töhfədir. Bu mənada qeyd edə bilərik ki, Naxçıvan Muxtar Respublikası artıq sözügedən sahə üzrə kifayət qədər təşkilatlanmış, güclü təcrübə əsasında makroiqtisadi inkişafa təkan verməkdədir.

Şəkil 3

Xarici ticarət dövriyyəsi, o cümlədən, idxal və ixrac əməliyyatları (min ABŞ dolları)



Şəkil statistik məlumatlar əsasında müəllif tərəfindən işlənmişdir.

Xarici ticarət dövriyyəsinin inkişafı, bu sahədəki əməliyyatların yüksələn xətt üzrə davamlılığı, ölkələrin makroiqtisadi siyasətinin də səmərəliliyini göstərməkdədir. Naxçıvan Muxtar Respublikasının bu sahədəki nailiyyətləri də diqqəti cəlb etməkdədir. Belə ki, ölkəmizin prioritetlərindən olan idxalın məhdudlaşdırılması, bunun da əsasında ixracın şaxələndirilməsi məsələləri ciddi əhəmiyyət daşımaqdadır. Elə bunların nəticəsidir ki, artıq 2009-cu ildən ticarət əməliyyatlarında müsbət saldo yaranmışdır.

Şəkil 4

Xarici ticarət dövriyyəsində yaranan müsbət saldonun artım dinamikası (min ABŞ dolları)



Şəkil statistik məlumatlar əsasında müəllif tərəfindən işlənmişdir.

Qeyd edək ki, cari ilin on ayı ərzində də bu göstəricilər dinamik artım vəziyyəti ilə seçilmişdir. Belə ki, muxtar respublikada yaradılmış sağlam sosial-iqtisadi inkişaf mühiti xarici ticarət dövriyyəsinin stimullaşmasına səbəb olmuş və nəticədə 360 milyon 203 min 800 ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın həcmi son bir il ərzində 1,2 faiz artaraq 329 milyon 709 min 800 ABŞ dolları, idxalın həcmi 8,1 faiz azalaraq 30 milyon 494 min ABŞ dolları olmuş, 299 milyon 215 min 800 ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır (2).

Naxçıvan Muxtar Respublikasının 2009-cu ildən müsbət saldo əldə etməsi o deməkdir ki:

– ən əvvəl, xammala olan tələbat burada təmin edilir, yerli istehsal öz əhatəsini və təminat qabiliyyətini durmadan artırır;

– makroiqtisadi potensial ölkənin hədəfləri baxımından idxalın məhdudlaşdırılmasını sürətləndirir və ixrac isə stimullaşdırılmaqla yüksək dinamika alır;

– iqtisadi-ticarət əlaqələri sahəsindəki proseslərin düzgün təşkili və idarəolunmasında icra edilən vəzifələr səmərəlidir və s.

Hazırda Azərbaycan Respublikasında "Made in Azerbaijan" brendinin yaradılması və xarici bazarlarda təşviqinin həyata keçirilməsindən ibarət tədbirlər öz sosial-iqtisadi və hətta beynəlxalq əhəmiyyətini yüksəltməkdədir. Qeyd edək ki, bu sahədəki proseslərin tənzimlənməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 18 yanvar 2016-cı il tarixli Sərəncam imzalanmışdır. Həmin hüquqi akta əsasən müvafiq sahə üzrə qarşıya qoyulan vəzifələrdən biri məhz "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqindən ibarətdir.

Bunun davamı olaraq dövlət başçısının "Azərbaycan Respublikasında istehsal olunan malların vahid məlumat bazasının yaradılması haqqında" 21 sentyabr 2016-cı ildə

imzalanmış sərəncamı əsasında İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin nəzdində Azexport.az saytı fəaliyyətə başlamışdır. Təşkilatçılığın yüksək səviyyədə çevikliyini təmin edən bu portal dünyanın ən populyar elektron ticarət və reallaşdırma şəbəkələri ilə inteqrasiya olunmaqla, Azərbaycan mallarının bütün dünyadakı reklamı və tanıdılmasını həyata keçirməkdədir. Tez-tez yenilənən və ölkəmizin qeyri-neft sahəsinə aid məhsulların ixracı məqsədlərini həyata keçirən bu sayt istifadəyə rahatlığı, əlçatanlığı, təhlükəsizliyi və sürətli imkanları ilə "Made in Azerbaijan" brendini alıcılara daha yaxından təqdim edir.

"Made in Azerbaijan" brendi dünyada şöhrət qazanır deyən ölkə başçısı cənab İlham Əliyevin 2016-cı ilin oktyabr ayının 5-də "Xarici ölkələrə ixrac missiyalarının təşkilinə, xarici bazarların araşdırılması və marketinq fəaliyyətinə, "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqinə, yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patentlər almasına, ixracla əlaqəli tədqiqat-inkişaf proqram və layihələrinə çəkilən xərclərin dövlət büdcəsi hesabına ödənilən hissəsinin müəyyənləşdirilməsi və ödənilmə mexanizminin tənzimlənməsi Qaydası" təsdiq edilməsi haqqında imzaladığı Fərman bu sahədə həyata keçirilən tədbirlərin strateji mahiyyətini daha da yüksəltmişdir. Eyni zamanda bunlar ölkəmizdə sosial-iqtisadi inkişafında yeni səhifələrin açılmasına istiqamətlənib. Bununla bağlı ölkə başçısının 2017-ci ilin 17 aprel tarixində Yevlax, 3 avqust tarixində Balakən, Zaqatala və Qax, 2 sentyabr tarixində isə Lənkəran rayonlarına etdiyi səfərlər və keçirdiyi müşavirələr qeyd edilən məqsədlər istiqamətində güclü təkanverici qüvvəyə çevrildi [1, s. 175].

Bu məsələlər ölkənin sosial-iqtisadi inkişafında regional mahiyyətinin yüksəldilməsi ilə daha da önəm qazanmaqdadır ki, burada da Naxçıvan Muxtar Respublikasının rolu, təsiri və mövqeyi özünü təsdiq etməkdədir. Ali Məclis Sədrinin hər il sahibkarlarla keçirdiyi görüşlər, onların dövlət dəstəyi ilə, məhsul istehsalında və xidmətlərin göstərilməsində stimullaşdırıcı mexanizmlərlə əhatə edilməsi, istehsala və ixraca yönəlmiş yeni ideyaların, təşəbbüslərin dəstəklənməsi məsələləri daima öz aktuallığı ilə mövcud olmaqdadır.

Qeyd edilən sahə üzrə ciddi tədbirlərin davamı olaraq, 2016-cı il oktyabrın 31-də "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti üçün inşa olunmuş istehsal sahələri və anbarın istifadəyə verilməsi münasibətilə keçirilən tədbirdə bu məsələnin əhəmiyyətinə diqqət çəkən Ali Məclisin Sədri zəruri vəzifə olaraq muxtar respublikada istehsal olunan məhsulların məhz Naxçıvan brendi ilə xarici bazarlara çıxarılması və tanıdılmasından ibarət olduğunu bildirib. Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Ali Məclis Sədrinin 2017-ci il may ayının 5-dən 6-dək Gürcüstanın Acarıstan Muxtar Respublikasında səfərdə olması sözügedən sahə üzrə tədbirləri daha da sürətləndirmişdir. Tərəflərin Naxçıvanla birbaşa çarter reysləri, regionda aparıcı tur operatorları və turist axınının artımı məsələlərini müzakirə etməsi yeni perspektivlərin açılmasına səmərəli imkanlar yaratmışdır. Burada həm də kənd təsərrüfatı sahəsində əməkdaşlıq üçün əlverişli mühitin olduğu qeyd edilmişdir [1, s. 176].

Artıq Naxçıvan Muxtar Respublikasının istehsalı olan məhsulların xarici bazarları çıxış imkanlarının daha da genişlənməsi özünü mühüm yüksəliş mərhələsinə gəlib çatmışdır. Diqqət edəndə görünür ki, muxtar respublika mineral suların ixracı sahəsində, xüsusən də "Sirab" və "Badamlı"dan ibarət Naxçıvan brendini dünyaya təqdim etməkdədir. Əgər "Sirab" mineral suyu Rusiya, Ukrayna, Türkiyə, İran kimi ölkələrə ixrac edilirsə, "Badamlı" mineral suyu MDB məkanına, Dubaya, Səudiyyə Ərəbistanının hüdudlarına daxil ola bilirsə, deməli, muxtar respublika öz təbii sərvətlərinin qiymətlən-

dirilməsində, ixracında və ondan əhalisinin rifahı naminə səmərəli istifadə edilməsində artıq güclü təcrübəyə malikdir.

Digər tərəfdən, muxtar respublikanın sənaye potensialının daha da artırılmasında, bu sahədəki ixrac potensialının daha da stimullaşdırılmasında sement istehsalının yüksələn əhəmiyyətindən bəhs etmək yerinə düşər. 2011-ci ildən fəaliyyət göstərən Naxçıvan Sement Zavodu gündəlik 1300 ton məhsul istehsal etmə gücünə malik olmaqla, müasir texnologiyalarla tam əhatə edilmişdir. Təmin edilmiş istehsal potensialı sementin həm ölkəmizin müxtəlif regionlarına, həm də Türkiyəyə və Gürcüstana göndərilməsinə imkanlar açmışdır. Bu sənaye müəssisəsində 18 əsas istehsal bölməsi vardır. Bunları qeyd etməkdə əsas məqsədimiz muxtar respublikanın müvafiq sahə üzrə yetərli xammal bazasına malik olmasını göstərməkdir.

Bir halda ki, əsas xammal olan əhəngdaşı, mergel və köməkçi xammallar – dəmirli gil Kəngərli rayonunun Çalxanqala, kvars Şərur rayonunun Gümüşlü, gips isə Babək rayonunun Nehrəm kəndləri yaxınlığındakı yataqlardan çıxarılır, deməli, muxtar respublika sement istehsalı sahəsində də təəabata uyğun istehsal potensialını formalaşdıra bilmiş və bu sahədə də Naxçıvan brendi beynəlxalq miqyasda öz yerini tutmuşdur [1, s. 177].

Beləliklə, Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının prioritetlərinə qətiyyətlə xidmət etməkdədir. Dövlətin sosial-iqtisadi siyasətinin əsaslarını dolğun ifadə etməyi bacaran bu keyfiyyətlər uzaq gələcək üçün daha güclü potensial vəd etməkdədir.

ƏDƏBİYYAT

1. Qasımov C.Y., Ələsgərova F.Q. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı: tarixilik və müasirlik. Naxçıvan: Əcəmi, 2017, 184 s.
2. http://www.statistika.nmr.az/

Джавадхан Гасымов

НАХЧЫВАНСКАЯ АВТОНОМНАЯ РЕСПУБЛИКА: ПРОИЗВОДСТВЕННЫЙ ПОТЕНЦИАЛ И ПЕРСПЕКТИВЫ

В статье отводится внимание теоретическим вопросам социально-экономического развития Нахчыванской Автономной Республики, дается его теоретическое обоснование, подчеркивается, что шаги предпринимаются в соответствии с требованиями времени. Показано, что целенаправленная экономическая политика, проводимая в последние 22 года, стала причиной роста национального экономического потенциала. Результаты получены на основе статистических показателей, исследованы таблицы и выявлена рациональная стратегическая эффективность для региона.

Ключевые слова: *социально-экономическое развитие, национальный экономический потенциал, степень занятости, объем валового внутреннего продукта, рыночная экономика, рыночные отношения.*

Javadkhan Gasimov

NAKHCHIVAN AUTONOMOUS REPUBLIC: PRODUCTION POTENTIAL AND PERSPECTIVES

In the paper attention is given to theoretical issues of socio-economic development of Nakhchivan Autonomous Republic, it's theoretical foundation is given; it is emphasized that steps are taken in accordance with the requirements of the time. It is shown that targeted economic policies pursued in the last 22 years became the reason of growth of national economic potential. The results are obtained on the basis of statistical indicators; tables are studied and rational strategic effectiveness for the region is revealed.

Keyword: *socio-economic development, national economic potential, occupancy volume of gross domestic product, market economy, market relations.*

(İqtisad üzrə elmlər doktoru, professor Ağarza Rüstəmov tərəfindən təqdim edilmişdir)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2018, № 1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2018, № 1

PROCEEDINGS OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES NAKHCHIVAN BRANCH OFFICE
The series of social sciences and humanities, 2018, № 1

MƏHƏMMƏD SÜLEYMANOV
AMEA Naxçıvan Bölməsi
E-mail: mahammad.suleymanov85@gmail.com

QASTRONOMİYA TURİZMİNİN NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA İNKİŞAF PERSPEKTİVLƏRİ

Məqalədə Naxçıvan Muxtar Respublikasında son dövrdə perspektivli sahə olan qastronomiya turizminin mövcud vəziyyəti və potensialından bəhs edilir. Hal-hazırda bir bölgənin mətbəxlə bağlı xüsusiyyətləri turizm məhsulu olması baxımından əhəmiyyətli dərəcədə ön plana çıxmışdır. Məqalədə qastronomiya turizmi təhlil olunmuş, inkişaf etmə səbəbləri və muxtar respublika ərazisində inkişaf perspektivləri araşdırılmışdır. Turistlərin seçdiyi ölkənin milli mətbəxinin çeşidliliyi və fərqliliyinin əsas meyarlardan olduğunu nəzərə alaraq muxtar respublikada qastronomiya turizminin inkişafına dair təkliflər verilmişdir.

Açar sözlər: *qastronomiya turizmi, milli mətbəx, turizmin inkişafı.*

Qastronomiya turizm növü kimi yeni-yeni görünməyə başlasa da, əslində turizmin içində olan ən mühüm sektordur. Qastronomiyadan fərqli təcrübələr yaşatmaq, hörmət və status qazandırmaq, məhsul fərqləndirmək və turist üçün bölgəni digərlərindən daha cəlbedici göstərmək vasitəsi olaraq istifadə edilir. Turizmin bu sahəsi yerli mətbəx məhsulları sayəsində mədəniyyətlərin bir-birini daha yaxşı tanımalarını təmin edir. Mədəniyyətin ən mühüm cəhətlərindən biri olan milli mətbəx, regiona məxsus yeməkləri və bölgənin xüsusiyyətlərini əks etdirir. Müasir zamanda insanlar yalnız aclıq hissini aradan qaldırmaq üçün deyil, eyni zamanda yemək prosesində fərqli təcrübələr yaşamaq məqsədilə evlərindən kənarda yemək yeyirlər. Maslounun ehtiyaclar iyerarxiyası bölgüsündən istifadə edərək demək olar ki, yemək-içmək, insan ehtiyaclarının bütün mərhələlərində fərqli formalarda təzahür edir [7, s. 270]. Qastronomiya turistləri görməli yerlər, əylənçə və alış-veriş qədər cəlb etmək potensialına malik olan sahələrdən biridir və illərdir turizm sənayesi daxilində ortaya çıxmağa çalışan ən qabaqcıl namizəddir. Çünki, milli mətbəx turistlərin yeni və ekzotik yerləri tanıması üçün ən yaxşı yollardan biridir. Başqa bir ölkəni ziyarət edən insanların gözləntiləri arasında, yeni yerlər görmək və yeni mədəniyyətləri tanımaqla yanaşı, yeni dadlarla tanışlıq və müxtəlif təcrübələr yaşamaq arzusu da durur. Səyahət edərkən turistlərin demək olar ki, hər biri üçün qidalanmaq üç ən əsas turist fəaliyyətindən biridir. Aparılan araşdırmalar nəticəsində müxtəlif mətbəxlərin yeməklərini dadmağı arzulayan turistlərlə muzeylər, film festivalları və rekreasiya tədbirləri ilə maraqlanan turistlər arasında mütləq bir əlaqə olduğu ortaya qoyulmuşdur [5, s. 136]. Bu araşdırmalar sübut edir ki, turistlər hər hansı bir ölkənin və ya regionun muzeyləri, festivalları və sağlamlıq-bərpa mərkəzləri ilə maraqlanırsa, həmçinin səyahət etdiyi ölkənin və ya regionun yerli qida və içkilərindən dadmaq arzusunda da olacaqdır.

Qastronomiya termini, yunanca "qaster" (mədə) və "nomas" (qanun) sözlərindən meydana gəlmişdir. Qastronomiya – ölkə və ya region mətbəxlərini bir-birindən ayıran,

bir ölkənin və ya ərazinin qidalarını və yemək hazırlama üsullarını ifadə edir [2, s. 33]. Başqa sözlə qastronomiya mədəniyyət və yemək arasındakı əlaqəni araşdıran elmdir. Aparılan ayrı-ayrı araşdırmalarda qastronomiya turizminin turizm təcrübəsinin ayrılmaz bir parçası olduğu və bəzi hallarda səyahət üçün əsas motivasiya ola biləcəyi vurğulanır [4, s. 548]. Bir bölgənin yeməkləri turizm səfərləri və turistlərin yaşadığı gözəl anlar üzərində əhəmiyyətli təsirə malikdir. Turizm bazarında baş verən dəyişikliklər yerli dəyərləri ön plana çıxarmağa meyllidir. Müasir dövrdə turistlər getdiyi ölkə mədəniyyətinə uyğunlaşmağı sevən, mədəniyyətin bütün elementlərini görmək, öyrənmək və yaşamaq istəyən bir xüsusiyyətə malikdir. Bu səbəbdən ölkələr yerli dəyərlərini ön plana çıxararaq digər ölkələrdən fərqlərini ortaya qoymağa çalışır. Regional fərqliliyi vurğulamağın ən yaxşı yolu özünəməxsus ərzaq və içkilərin təqdim olunmasıdır. Dünya təcrübəsində qidalar iqlim, tarix və təbiətdən sonra dördüncü cazibədarlıq ünsürü olaraq müəyyənləşmişdir.

Milli mətbəxin turizm məqsədilə istifadəsini səciyyələndirmək üçün "qastronomiya turizmi", "mətbəx turizmi", "qidalanma turizmi" və "yeyinti turizmi" kimi anlayışlardan istifadə edilir [6, s. 38]. Bu turizmin əsas motivasiya faktoru xüsusi bir yemək növünü dadmaq və ya bir yeməyin hazırlanmasını görmək məqsədilə ərzaq istehsalçılarını, yemək festivallarını, restoranları və xüsusi sahələri ziyarət etməkdir.

Qastronomiya turizminin mənşəyi kənd təsərrüfatı, mədəniyyət və turizmə dayanır. Bu üç faktor, qastronomiya turizminin regional bir cazibədarlıq və təcrübə olaraq turistlərin diqqətini çəkməyə imkan verir [1, s. 63]. Kənd təsərrüfatı məhsulu yaradır, mədəniyyət-tarixi və orijinallığı təmin edir, turizm isə milli mətbəxin tanıdılmasına xidmət edir. Bütün bu faktorlar qastronomiya turizmi adı altında birləşir. Beləliklə, qastronomiya turizmi istifadə oluna biləcək bütün yemək içmək mədəniyyəti arasındakı əlaqəni araşdıran xüsusi bir elm sahəsi kimi təsvir oluna bilər.

Naxçıvan Muxtar Respublikasının mətbəxi ənənəvi ləzzətlərlə zəngin bir müxtəlifliyə malikdir. Bizim mətbəx mədəniyyətimiz qədim tarixə malikdir. Muxtar respublikamızın ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində tapılan müxtəlif məişət əşyalarının, yemək qablarının olması da məhz qədim mətbəx mədəniyyətimizdən xəbər verir. Ekoloji təmizlik, günəş şüasının bolluğunun və digər amillərin təsiri nəticəsində yetişən meyvə, tərəvəz və digər məhsullar öz dadı və keyfiyyəti ilə fərqlənir [3, s. 4]. Bu da öz növbəsində həmin məhsullardan hazırlanmış yeməklərin, cürbəcür mürəbbələrin və şirniyyatların digər bölgələrdən fərqli və dadlı olmasına gətirib çıxarır. Mətbəximizə xas olan yeməklər – parça bozbaş, küftə bozbaş, çölmək pitisi, bozartma, çığırtma, dolma, kabab, xaş, əriştə, umac aşı, buğda unu və düyü unundan hazırlanmış halvalar, xəşil, quymaq və digər xəmir körəkləridir. Kənd təsərrüfatında maldarlığın inkişafı sayəsində süd və süd məhsullarından da geniş istifadə olunur. Süd və süd məhsullarından südaşı, bulama, qatıqaşı, qatıqlama, dovğa, ayranaşı, qurutaşı və digər yeməklər hazırlanır. Bütün türk dünyasında olduğu kimi milli yeməklərimiz içərisində "kabab"ın özünə məxsus yeri vardır. Kabab növlərindən lülə kabab, tikə kabab, basdırma kabab, tava kabab, saciçi və quyruq kababının adını çəkmək olar. Kabab qoyun və mal ətindən, quş ətindən, hətta bəzi balıq növlərindən də çəkilir. Yeməklərin şahı "plov" hesab edilir. Plov qədim zamanlardan süfrələrimizin bəzəyi olmuşdur. Xalqımızın xeyir və şər işlərində yemək verilən zaman aş qazanları asılar və camaata plov verilərdi. Respublikamız ərazisində çoxlu sayda çay və göllərin olması müxtəlif növ balıq yeməklərinin də mətbəximizə daxil olmasına imkan yaratmışdır. Balıq yeməkləri içərisində balıq basdırması, balıq kababları, qızartmaları və balıqdan hazırlanan xaş məşhurdur. Yeməklərimizin dadlı olmasında duzun da rolu az deyildir. Xalqımız duzu müqəddəs və bərəkət məhsulu

olaraq dəyərləndirmişdir. Belə ki, duz çörək kəsən iki insan bir-biri ilə dava-dalaş etməzdi. Qədim adətimizə görə yeməkdən sonra süfrəyə çayla bərabər müxtəlif şirniyyat və mürəbbə çeşidləri verilir ki, yeyilən yeməyin həzminə kömək etsin.

Muxtar respublikanın mətbəx mədəniyyətini ən yaxşı tanıtmağa yönələn milli və beynəlxalq sahədə elmi konfranslar, festivallar və yarışlar təşkil olunması öz-özlüyündə qastronomiya turizminin inkişafına zəmin yaradır. Naxçıvan Muxtar Respublikasında keçirilən "Göyçə", "Plov", "Naxçıvan çörəkləri", "Arıçılıq məhsulları – Bal", "Ailə təsərrüfatı məhsulları" festivalları Naxçıvan mətbəxinin və regional mətbəxin tanıdılması üçün vacibdir. Təbii ki, bu da öz növbəsində turizmin inkişafına öz töhfəsini vermişdir. Aşağıdakı qrafikdə müxtəlif illərdə muxtar respublika ərazisinə gələn turistlərin sayı göstərilmişdir.



Şəkil. Naxçıvan Muxtar Respublikasına gələn turistlərin sayı (nəfər)

Mənbə: Naxçıvan MR dövlət statistika komitəsinin rəqəmləri əsasında müəllif tərəfindən hazırlanmışdır.

Muxtar respublikamızda dayanıqlı və davamlı inkişaf nəticəsində turizm sənayesində son illərdə nəzərə çarpan dəyişikliklər baş verir. Muxtar respublikamıza 2006-cı ildə 93,9 min nəfər, 2010-cu ildə 287,6 min nəfər, 2016-cı ildə 403,3 min nəfər turist gəlmişdir. Müqayisəli təhlil nəticəsində turizmin inkişaf dinamikasını görmək olur. Muxtar respublikaya 2016-cı ildə gələn turistlərin sayı 2006-cı illə müqayisədə 4,3 dəfə, 2010-cu ildə gələn turistlərin sayından isə 1,4 dəfə çox olmuşdur. Naxçıvan şəhərinin 2018-ci ildə İslam mədəniyyətinin paytaxtı elan olunması Naxçıvan Muxtar Respublikası haqqında dolğun məlumatların dünya ictimaiyyətinə çatdırılmasına və qastronomiya turizminin inkişafına geniş imkanlar yaradacaqdır.

Muxtar respublikamızın mədəniyyətinə xas olan misilsiz mətbəx dəyərlərinin və yemək hazırlama-bişirmə üsullarının qorunması diqqət mərkəzində saxlanılır. Bu məsələnin bariz nümunəsi kimi Naxçıvan Muxtar Respublikası Ali Məclisinnin Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 7

fevral 2009-cu il tarixli Sərəncamına əsasən 2012-ci ildə Azərbaycan və ingilis dillərində nəşr olunan "Naxçıvan mətbəxi" kitabını göstərmək olar.

Son dövrlərdə turistlərin istirahət edəcəkləri yer seçimində bölgəyə xas olan milli yeməklər əhəmiyyət qazanmağa başlayıb. Bu səbəbdən əsrlərə dayanan muxtar respublika mətbəxinin qastronomiya turizmində özünə yer tapması vacibdir və regionda turizmin bu növünün inkişafına daha çox əhəmiyyət verilməlidir. Bu məqsədlə muxtar respublika mətbəxinin xüsusiyyətlərinin faydaları, digər mətbəxlərdən üstünlükləri ortaya qoyulmalıdır. Bu məsələdə turizm şirkətlərinin üzərinə böyük vəzifə düşür. Turizm sahəsində çalışan insanların doğru məlumat sahibi olması təqdimat baxımından mühüm əhəmiyyət kəsb edir. Muxtar respublikamızda qastronomiya turizminin daha da inkişaf etdirilməsi və bu sahədən gələn gəlirlərin artırılması üçün aşağıdakı təklifləri vermək olar:

– milli yeməklərin reseptlərə uyğun hazırlanması və təqdimat xarakterli tədbirlərin keçirilməsi;

– turizm şirkətləri və tur operatorları tərəfindən hazırlanan turlarda bölgənin özünə xas yemək və içkiləri barədə turistlərə məlumat verilməsi;

– muxtar respublikamızın tanıdılması üçün iştirak edilən beynəlxalq sərgilərdə milli yeməklərin daha çox ön planda göstərilməsi;

– qastronomiya turizmi sahəsində peşəkar səviyyəli kadrların hazırlanması;

– xidmət sahəsi işçilərinin bu haqda geniş məlumat sahibi olması məqsədi ilə milli mətbəximiz mövzusunda təlimlər keçirilməsi;

– müxtəlif turist qruplarının xüsusiyyətlərini nəzərə alaraq milli yeməklərimizlə bağlı gözlənti və məmnuniyyətlərini ortaya çıxaran sorğuların keçirilməsi;

– qastronomiya turizminə dair tətbiqi işlərin daha çox keçirilməsi;

– qastronomiya turizmi sahəsində dünya təcrübəsindən istifadə etməklə regionda turizmin inkişaf etdirilməsi.

Dünya təcrübəsində qastronomiya turizmi sahəsi əldə edilən gəlirə görə iqtisadiyyatda əhəmiyyətli yerə malikdir. Əldə edilən gəlirdə artımın təmin olunması turistlərin səyahətlərindən məmnunluq dərəcəsinin yüksək olduğu zaman mümkün olur. Turistlərdə məmnunluq hissinin yaranması isə xidmətin keyfiyyətinə bağlıdır. Xidmətin keyfiyyətli olması xidmət sektorundakı işçilərin təhsil səviyyəsi ilə düz mütənasibdir və bələləklə verilən təkliflərdən istifadə edilməsi muxtar respublikamızda turizmin inkişafına səbəb ola bilər. Digər turizm fəaliyyətlərindən fərqli olaraq qastronomiya turizmi bütün il boyu tətbiq edilmə xüsusiyyətini daşıdığına görə bu sahənin iqtisadiyyatın inkişafına təsiri əvəz olunmazdır.

ƏDƏBİYYAT

1. Cömert M., Özkaya D F. Gastronomi turizminde Türk mutfağının önemi // Journal of Tourism and Gastronomy Studies, 2014, № 2 s. 62-66.
2. Gülen M. Gastronomi turizm potansiyeli ve geliştirilmesi kapsamında Afyonkarahisar ilinin değerlendirilmesi // Güncel Turizm Araştırmaları Dergisi, 2017, № 1, s. 31-42.
3. Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi Naxçıvan mətbəxi. Naxçıvan: Əcəmi, 2012, 356 s.
4. Fox R. Reinventing. The Gastronomic Identity Of Croatian Tourist Destinations // Hospitality Management, 2007, № 26, s. 546-559.
5. Boyne S., Hall D., Policy F.W. Support and Promotion for Food-Related Tourism Initiatives // Journal of Travel & Tourism Marketing, 2003, № 14, s. 131-154.

6. Sormaz Ü. Gastronomi Turizmi Bağlamında Yiyecek-İçecek İşletmelerinin Tutumu // Journal of Current Researches on Social Sciences 2017, № 7, s. 37-58.
7. Vəliyev T.S., Babayev Ə.P., Meybullayev M.X. İqtisadi nəzəriyyə. Bakı: Çaşıoğlu, 2001, 691 s.

Магомед Сулейманов

ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ ГАСТРОНОМИЧЕСКОГО ТУРИЗМА В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ

В статье говорится о существующем положении и потенциале гастрономического туризма, ставшего в последнее время перспективной отраслью. В настоящее время на первый план в качестве продукта туристической отрасли выходят особенности национальной кухни определенной области. В статье исследуется гастрономический туризм, причины его развития, а также перспективы развития на территории автономной республики. Учитывая, что основным фактором выбора стран является разнообразие национальной кухни, даны рекомендации по развитию гастрономического туризма автономной республики.

Ключевые слова: *гастрономический туризм, национальная кухня, развитие туризма.*

Mahammad Suleymanov

PROSPECTS FOR THE DEVELOPMENT OF GASTRONOMIC TOURISM IN THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

The paper refers to the current situation and potential of gastronomic tourism, which has recently become a promising industry. At present, the peculiarities of the nationnal cuisine of a certain region come to the fore as a product of the tourism industry. The paper explores gastronomic tourism, the reasons for its development, as well as the prospects for development on the territory of the autonomous republic. Taking into account that the main factor in choosing countries is the diversity of nationnal cuisine, recommendations are given on the development of gastronomic tourism of the autonomous republic.

Keywords: *gastronomic tourism, national cuisine, tourism development.*

(İqtisad üzrə elmlər doktoru, professor Ağarza Rüstəmov tərəfindən təqdim edilmişdir)

HƏSƏN MƏMMƏDOV
Naxçıvan Dövlət Universiteti
E-mail: hasan.memmedov61@gmail.com

SAHİBKAR SUBYEKTLƏRDƏ İNFRASTRUKTURLARIN İNNOVATİV YOLLA MODERNLƏŞDİRİLMƏSİ

Məqalədə sahibkar subyektlərdə infrastrukturların innovativ yolla modernləşdirilməsindən bəhs edilir. Burada innovasiya və modernləşdirmə, onların mahiyyəti və məzmun elementləri açıqlanır. Göstərilir ki, modernizasiya köhnəlmiş əsas fondların yenilənməsi və yeni infrastrukturun yaradılmasını əhatə etməklə iqtisadiyyatın rəqabətqabiliyyətinin artırılması və insanların sosial rifah halının yaxşılaşmasına xidmət edir.

Eyni zamanda məqalədə Azərbaycan dövlətinin modernizasiya siyasətinin bir sıra xarakterik xüsusiyyətləri göstərilir. Qeyd edilir ki, modernləşmə cəmiyyətin bütün fəaliyyət sahələrində – iqtisadiyyat, siyasət və mədəniyyət sahələrində köhnəlikdən müasirliyə keçidi özündə ehtiva etməklə, sivilizasiyanın inkişafa transformasiya olunmasından ibarətdir.

Sənaye və kənd təsərrüfatında modernləşmə siyasətinin infrastrukturların inkişafına təsirindən bəhs edilir və göstərilir ki, kənd təsərrüfatı və sənayedə modernləşmənin tətbiqi bu sahələrdə məhsuldarlığın artmasına gətirib çıxarır. Həmçinin qeyd olunur ki, aqrar sahədə modernizasiya bu sahədə texniki-texnoloji yeniləşmənı özündə ehtiva edir.

Sonda qeyd edilir ki, sahibkar subyektlərdə innovasiya yolu ilə infrastrukturları modernləşdirməklə davamlı sosial-iqtisadi inkişafın təmin olunmasına şərait yaratmaq mümkündür.

Açar sözlər: *İnnovasiya, modernləşmə, modernizasiya, infrastrukturlar, köhnəlik, müasirlik.*

Azərbaycanın bir iqtisadi sistemdən digərinə keçidi iqtisadiyyatın başqa sahələrində olduğu kimi infrastrukturların da yeni yaranan bazar iqtisadi sisteminə transformasiya olunmasını tələb edirdi. Bazar münasibətləri şəraitində infrastruktur sahələrinin yüksək səviyyədə inkişaf etdirilməsi iqtisadi yükün məsuliyyətini daşıyan qurumlardan aşağıdakıları tələb edirdi:

– hər bir iqtisadi fəaliyyət sahələrində iqtisadi inkişafa nail olmaq;
– qeyri-neft sektorunu inkişaf etdirmək;
– geridə qalmış aqrar sənaye sahələrinin inkişafını təmin etmək;
– elmtutumlu sahələrin, yüksək texnologiyaların yaradılmasına üstünlük vermək;
– sənayedə, tikintidə və kənd təsərrüfatında innovativ texnologiyaya keçməklə, həmin sahələrin modernləşdirilməsini həyata keçirmək;
– müasir tələblərə cavab verən, innovativ texnologiyanı idarə etməyə qadir olan intelektual səviyyəli insan kapitalı yetişdirmək və bunun davamlı təkrar istehsalını təmin edən əlverişli elmi mühit yaratmaq.

Bütün bunlar isə tarixi inkişafın artan tələbatına cavab verən cəmiyyətin və ayrı-ayrı təsərrüfat sahələrinin ilk növbədə innovasiya yolu ilə modernləşdirilməsini şərtləndirir.

İnnovasiya latınca "innovato" sözündən olub, dilimizə yeniləşmə, yaxşılaşma kimi tərcümə olunur. Bununla belə, innovasiya ilə əlaqədar əsas anlayışlar hələ də fərqli şərh olunur. Bəzi mənbələrdə innovasiya fəaliyyəti-insan kollektivinin yeni elmi biliklər,

ideyalar, kəşflər və ixtiralar, həmçinin mövcud və sınanmış elmi texnologiya, sistem və avadanlıqların istifadəsi və tətbiqi əsasında innovasiyaların tam həcmdə ictimai realizəsinə yönəldilmiş sistemli fəaliyyət növü kimi qiymətləndirilir. Bəzi mənbələrdə isə mənaca dəyişən şəraitə mütəmadi olaraq münasibət bildirməklə bilik və bacarıqları yeni məhsula və yaxud xidmətə çevirmək mənasını daşıyır. Bu ifadə "kəşf", "səmərələşdirmə", "yeniləşdirmə" kimi məfhumlarla eyniləşdirilir. Başqa sözlə desək, innovasiya elmi-texniki tərəqqinin nailiyyət və yeniliklərini dərindən öyrənib, istehsalata tətbiq etməklə, yeni məhsul istehsalına yönəlmiş fəaliyyət kimi başa düşülür [6, s. 33-36].

Dünyada gedən bütün bu proseslərin kontekstində modernləşdirmə nəzəriyyəsi yaranmışdır. Modernləşdirmə nəzəriyyəsi modernləşdirmə sahəsində ümumdünya təcrübəsinə əsaslanaraq müxtəlif sahələrdə aparılan tədqiqatların nəzəri nəticələrinin məcmusunu əhatə edir. Klassik modernləşdirmə nəzəriyyəsi geridə qalmış aqrar ölkələrin sənaye ölkəsinə çevrilməsinə şərait yaratmışdır. Sonrakı mərhələlərdə isə modernləşdirmə prosesi həm inkişaf etmiş, həm də inkişafa meyl göstərən geridə qalmış ölkələri də əhatə etdi. Klassik modernləşdirmə nəzəriyyəsinə görə modernləşmə anlayışı mahiyyət etibarı ilə aqrar cəmiyyətin sənaye cəmiyyətinə transformasiyası adlanır.

Modernizasiya (ingiliscə modern – yenilənmiş, müasir) inkişafı sürətləndirmək məqsədilə obyektin yeni tələb və normalara, texniki şərtlərə və keyfiyyət göstəricilərinə uyğunlaşdırılmasıdır. İqtisadi modernizasiya həm siyasi və sosial, həm də mədəniyyət sahəsini əhatə etməklə ümumi ictimai xarakter daşıyır.

Modernləşdirilmə nəzəriyyəsinin yaradıcılarından biri sayılan alman mütəfəkkiri Veber ilk dəfə modern kapitalist cəmiyyəti üçün rasionallaşdırma konsepsiyasını hazırlamışdır.

Rostounun modernizasiya nəzəriyyəsi iqtisadi inkişafı mərhələlərlə izah edir. Birinci mərhələdə (traditional society – ənənəvi cəmiyyət) – ənənəvi cəmiyyətdə istehsal tamamilə istehlak olunduğundan ticarət barter yolu ilə aparılır və texnologiya istifadəsi məhduddur. Rostounun modernizasiya nəzəriyyəsinə görə ikinci mərhələdə (preconditions for takeoff – qalxınma üçün zəmin) ixtisaslaşma ticarət üçün izafi məhsul yaradır, güclü mərkəzi hakimiyyət özəl sektoru dəstəkləyir. Üçüncü mərhələdə (takeoff – qalxınma) sənayeləşmə nəticəsində əmək qüvvəsi aqrar sahədən sənayeyə keçir, inkişaf bir neçə region və istehsal sahəsi üzərində konsentrasiya olur. Dördüncü mərhələdə (drive to maturity – kamilliyə doğru) iqtisadiyyat şaxələnir, innovasiyalar yeni investisiya imkanları yaradır və urbanizasiya güclənir. Beşinci mərhələdə (high mass consumption – yüksək kütləvi istehlak) kütləvi istehlak genişlənir, iqtisadi aktivlik artır, servis sektoru aparıcı olur və sosial rifah yaxşılaşır.

Modernizasiya paradiqması tarixi inkişaf prosesində özü də dəyişikliyə məruz qalır. Məsələn, XX əsrin 60-cı illərində modernizasiya postindustrial cəmiyyətə keçid kimi qiymətləndirilirdisə, hazırda modernizasiyanın bilik iqtisadiyyatına keçidi sürətləndirən bir paradiqma kimi qəbul edirlər.

Modernizasiyanın iki növünü fərqləndirmək mümkündür: üzvü və qeyri-üzvü. Üzvü modernizasiya o ölkələrdə baş verdi ki, onlar yenilikləri özləri icad və tətbiq etdilər, mədəniyyət, mentallıq və dünyagörüşü sahəsində irəliləidilər. Modernizasiya belə cəmiyyətlərdə mərkəzləşdirilmiş dövlət, burjua münasibətləri, sənayeləşmə, demokratiya və s. üçün zəmin olur.

Qeyri-üzvi modernizasiya isə xarici çağırışlara cavab kimi meydana çıxır və o cəmiyyətlərdə baş verir ki, onlar başqalarının yaratdığı elmi-texniki tərəqqi nəticələrini tətbiq edirlər.

Modernizasiya prosesini innovativ inkişaf olmadan təsəvvür etmək mümkün deyil. Çünki modernləşmə özlüyündə yeniliklərin – innovasiyaların tətbiqini ehtiva edir.

Avstriya iqtisadçısı Şumpeter innovasiyanın beş tipini müəyyənləşdirmişdi:
- yeni məhsul;
- yeni istehsal üsulu;
- təklifin yeni mənbəyi;
- yeni bazarlar;
- biznesi təşkilin yeni yolları.

İqtisadiyyatda əsas fokus ilk iki innovasiya tipinin üstündədir. Şumpeter sahibkarların rolu, yaradıcı dəstruktivizm (creative destruction) və biznes siklinə əsaslanaraq bildirirdi ki, innovasiyalar iqtisadiyyatı tarazlıq halından çıxarır.

Şumpeterin elmi məktəbinin ciddi təsiri altında olan Maklaurin texnoloji yeniliyə aparan beş addımı aşağıdakı kimi müəyyənləşdirib:
- elm;
- kəşf;
- innovasiya;
- maliyyə;
- qəbul etmə (diffuziya).

Hazırda dünyada bəzi firmalar innovasiyaları yaradır, digərləri isə onu imitasiya edir. İnnovasiyaların tətbiqi müxtəlif təşkilati resursların aktiv və mütəşəkkil istifadəsini tələb edir. İnnovasiya geniş konsepsiyadır. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) innovasiyaya yeni yaxud əhəmiyyətli dərəcədə inkişaf etdirilmiş məhsul (əmtəə və ya xidmət) və ya prosesin tətbiqi, yeni marketinq metodu, yaxud biznes təcrübəsi, iş yerinin təşkili və ya xarici əlaqələrdə yeni təşkilati metod kimi tərif verir. Bu, o deməkdir ki, innovasiya fəaliyyətlərinin hamısı əslində innovasiyanın tətbiqinə gətirib çıxaran və ya bunu nəzərdə tutan elmi, texnoloji, təşkilati, maliyyə və ticari addımlardır [1, s. 83-85].

Azərbaycan infrastrukturun modernləşdirilməsi, İKT-nin inkişafı, industrializasiya və aqrar sənayeləşmə məqsədilə neft gəlirlərini indiki halda daha səmərəli, şəffaf və hesabatlı şəkildə istifadə etməlidir. Modernizasiya köhnəlmiş əsas fondların yenilənməsi və yeni infrastrukturun yaradılmasını əhatə etməklə iqtisadiyyatın rəqabətqabiliyyətinin artırılması və insanların sosial rifah halının yaxşılaşmasına xidmət edir. Azərbaycan dövlətinin modernizasiya siyasətinin bir sıra aşağıdakı xarakterik xüsusiyyətləri var:

1. Azərbaycan dövlətinin modernizasiya siyasəti qeyri-resurs iqtisadiyyatının inkişafını təmin etməklə yanaşı, həm də neft-qaz hasilatı, nəqli və emalı sistemlərinin inşası, yenidən qurulması və modernləşdirilməsi nəzərdə tutur. Belə yanaşma uzunmüddətli dönəmdə iqtisadiyyatın enerji daşıyıcıları ilə davamlı təminatı deməkdir.

2. Azərbaycan dövlətinin modernizasiya siyasətinin digər bir xüsusiyyəti onun regional, bəzi hallarda isə qlobal xarakter daşımasındadır. Məsələn, yaxın illərdə Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin tikintisi tamamlanacaq, hava limanlarının infrastrukturu genişləndiriləcək, dəniz donanması yeniləşdiriləcək, nəqliyyat-logistika mərkəzləri yaradılacaq, Bakı-Böyük Kəsik, Bakı-Astara və Bakı-Yalama dəmir yolu xətləri yenidən qurulacaq və modernləşdiriləcəkdir. Artıq dəmir yolu şəbəkəsinin diversifikasiyası siyasətinə uyğun olaraq Bakı-Tbilisi-Qars dəmir yolu xətti istifadəyə verilmişdir.

Beləliklə, nəqliyyat infrastrukturunun modernizasiyası Azərbaycanı Şimal-Cənub və Şərq-Qərb dəhlizlərinin kəsişməsində mühüm nəqliyyat və logistika mərkəzinə çevrilməsini sürətləndirir.

3. Modernizasiya siyasəti Azərbaycan rezidentlərinə aid xarici ölkələrdəki aktivləri də əhatə edir. Buna nümunə olaraq tərəfindən özəlləşdirilən "Petkim Petrokimya Holdinq" A.Ş.-nin modernizasiyası nəticəsində "Petkim" "İstanbul Sənaye Palatası"nın

"İlk 500 böyük sənaye qurumu" sıralamasında 12-ci və Egey bölgəsi Sənaye Palatası tərəfindən açıqlanan "Egeyin ən böyük 100 sənaye qurumu" və "Ən çox ixrac edən şirkətlər" sıralamasında isə 3-cü yerdə qərar tutmuşdur. Xaricdəki rəqabətədavamlı və modern aktivlər imkan verir ki, uzunmüddətli dönəmdə sabit gəlirlər təmin olunsun. Beləliklə, modernizasiya həm də gəlir mənbələrinin diversifikasiyasına imkan yaradır.

4. Modernizasiya siyasəti sosial infrastrukturun yaxşılaşdırılmasını təmin etməklə insan inkişafı indeksinin yüksəlməsinə şərait yaradır. Təhsil və səhiyyə, habelə kommunal infrastrukturun təkmilləşdirilməsi, elektrikləşdirmə, qazlaşdırma və yolların çəkilişi modernizasiyanın sosial xarakterinin göstəricisidir.

5. Modernizasiya həm də klasterial xarakter daşıyır. Dövlət sənaye parklarında vergi və gömrük sahəsində stimullaşdırıcı tədbirlər, sənaye parkının infrastrukturla təmin edilməsi, torpaq sahəsinin icarə haqqının aşağı həddində müəyyən edilməsi, güzəştli kreditlərin verilməsi və inzibati proseduraların sadələşdirilməsi yolu ilə sənayeləşmə siyasətini həyata keçirir. Bundan başqa, sənaye parklarında sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün xidmətlərin təşkili, istilik və elektrik enerjisinin, suyun və qazın satışına, tullantı sularının axıdılmasına və məişət tullantılarının yığılmasına görə güzəştli tariflərin tətbiqi də mümkündür. Bu, həm də dövlət-özəl sektor əməkdaşlığına (Public Private Partnership) bir nümunədir.

Hazırda Azərbaycanda Sumqayıt kimya sənayesi parkı, Balaxanı sənaye parkı və Yüksək texnologiyalar parkı fəaliyyət göstərirlər.

6. Modernizasiya İKT sektorunun inkişafı və onun iqtisadiyyatın digər sahələrinə daha dərindən sirayət etməsini də ehtiva edir. İKT-nin tətbiqi yeni infrastrukturun və yeni iqtisadi mühitin yaranmasına səbəb olmuşdur ki, bu zaman iqtisadiyyat özü də yeni forma və məzmun kəsb etmişdir. Beləliklə, iqtisadiyyatın elektronlaşdırılması da modernizasiyanın bir növü kimi səmərəliliyin artırılmasını təmin edir. Öz növbəsində iqtisadi inkişaf İKT-nin qarşısında yeni tələblər qoyur.

7. Modernizasiyanın bilik iqtisadiyyatının formalaşdırılmasında rolu mühümdür. Qlobal informasiya cəmiyyətində biliyin əmtəəyə çevrildiyi bir şəraitdə Prinston Universitetinin professoru F.Maxlupun təbirincə desək "biliklərin istehsalı və yayılması sferası" iqtisadiyyatın bir seqmenti kimi fəaliyyət göstərir. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" proqramı təhsil-tədqiqat-innovasiya üçbucağının yaranmasını nəzərdə tutur. Məsələyə belə sistemli yanaşma bilik iqtisadiyyatının qurulmasını daha da sürətləndirə bilər. İnkişaf konsepsiyasına uyğun olaraq şəxsə hərtərəfli bilik və bacarıqların verilməsi məqsədi ilə təhsil sisteminin institusional əsasları, infrastrukturu və insan resursları inkişaf etdirilməlidir. Təhsil insanlara texnologiyaları çevik mənimsəmək, əmək bazarında layiqli yer tutmaq və ömür boyu təhsil prosesinə qoşulmaq, sağlam həyat tərzi, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək imkanı verir.

8. Modernizasiya infrastrukturun yaxşılaşdırılması ilə Azərbaycanda istehsal olunan əmtəə və xidmətlərin maya dəyərini aşağı salır və beləliklə, iqtisadiyyatın rəqabətqabiliyyətini gücləndirir. Dövlətin modernizasiya siyasətinə dəstək verməsi, iqtisadiyyatı birbaşa subsidiyalaşdırmaqdan daha səmərəli yoldur. Azərbaycanda bəzi təbii inhisar sahələrində (elektrik enerjisi, metroda gediş haqları, neftdən emal olunan əsas məhsullar, təbii qaz, su və s.) qiymətlər iqtisadi cəhətdən əsaslandırılmış deyildir.

"Azərenerji" ASC, "Azərsu" ASC, Bakı Metropoliteni, Dövlət Neft Şirkəti və s. təbii inhisarlar tərəfindən təklif edilən qiymətlər məhsul və xidmətlərin maya dəyəri ilə müqayisədə əlverişli səviyyədə olmadığından, lazımi rentabelliyi və deməli, perspektiv

inkişafı təmin edə bilmir. Qiymət disproporsiyası resursların qeyri-rasional bölgüsünə rəvac verir və iqtisadiyyatın səmərəli fəaliyyətinə problem yaradır. Bəzi tənzimlənən qiymətlər aşağı olduğundan dövlət büdcəsindən təbii inhisarlara böyük məbləğdə subsidiyalar verilir ki, bu da büdcənin sosialyönümlü olmasına problemlər yaradır. Digər tərəfdən isə əgər tənzimlənən qiymətlər optimallaşmasa gələcəkdə dövlət büdcəsi təbii inhisarları subsidiyalaşdıra bilməyəcək və beləliklə, xarici borclanma təhlükəsi genişlənə bilər. Əslində Azərbaycanda tənzimlənən qiymətlərin (sosial rifah halı nəzərə alınmaqla) tədrici optimallaşdırılması resursların səmərəli istifadəsi və modernizasiya üçün imkan yaradır [1, s. 113-115].

Modernləşdirmə cəmiyyətin bütün fəaliyyət sahələrində: iqtisadiyyat, siyasət və mədəniyyət sahələrində köhnəlikdən müasirliyə keçidi özündə ehtiva etməklə, sivilizasiyanın inkişafa transformasiya olunmasından ibarətdir.

İlkin mərhələdə modernləşdirmə dedikdə sənayeləşmə, dünyəviləşmə, mexanikləşdirmə, avtomatlaşdırma, elektrikləşdirmə, kimyalaşdırma, cəmiyyət üzvlərinin rifahının yaxşılaşdırılması və s. məsələləri əhatə edirdisə, müasir mərhələdə informasiya və kommunikasiya proseslərinin genişləndiyi şəraitdə informasiyalaşdırma, rəqəmsal texnologiyanın genişlənməsi, innovativ texnologiyaların tətbiqi, diversifikasiya, xidmət mədəniyyətinin artması, mütərəqqi metodların tətbiqi və s. sahələri əhatə edir. Göründüyü kimi müasir dövrdə modernləşdirmə cəmiyyətin maddi və mədəni rifah halının yüksəldilməsinə xidmət etməklə aşağıdakıları əhatə edir: elm və təhsil, sosial-iqtisadi inkişaf, dəyişkənlik, elm və texnikanın vəhdəti, elmi-texniki nailiyyətlər və s.

Modernləşdirmə sivilizasiyanın inkişafı ilə əlaqədar tarixin müəyyən bir dövründə yaranmışdır. Ona görə də o, tarixi kateqoriyadır. O, elm, təhsil, sosial-iqtisadi inkişaf və elmi-texniki tərəqqini ifadə edən kompleks prosesdir. İqtisadiyyatda və sivil həyatda mütəmadi olaraq modernləşdirmə həyata keçirilməzsə davamlı iqtisadi inkişafdan danışmağa dəyməz.

Azərbaycan Respublikasının iqtisadi tarixinə nəzər salsaq görərik ki, iqtisadiyyatda 1994-cü ildən başlayan dirçəliş, 2005-ci ildən dayanıqlı inkişafa, son dövrlərdə isə davamlı sosial-iqtisadi inkişafa keçmiş, neft sənayesinin inkişafı hesabına artan daxili və xarici investisiyalar nəticəsində modernləşdirməyə meyl güclənmişdir. Artıq, Azərbaycan iqtisadiyyatı innovativ texnologiyalar əsasında inkişaf yolundadır. Azərbaycanda dislokasiya olunan şirkətlər müasir texnologiyanı ölkəyə gətirərək, rəqabətə davamlı mal istehsalını təmin etməkdədirlər. Sənayedə yeni texnologiyaların tətbiqi hesabına 2005-ci illə müqayisədə (9308,8 mln. man.) 2016-cı ildə 32300,0 mln. man yeni məhsul istehsal olunmuşdur ki, bu da həmin dövrlə müqayisədə 3,5 dəfə artım deməkdir [7].

Ötən müddət ərzində keyfiyyətli insan kapitalını yaratmaq, yaradıcı, düşünən kadrların tərbiyə edilməsi, kreativ iqtisadiyyatın tələblərinə uyğun kadr hazırlığı, təhsil sisteminin keyfiyyətcə yenilənməsi, iqtisadiyyatın modernləşməsi hesabına iqtisadi artıma və davamlı iqtisadi inkişafa nail olunması Azərbaycan iqtisadiyyatı qarşısında duran prioritet problem olaraq qalmaqdadır.

Azərbaycanın güclü sosial-iqtisadi potensialının formalaşması üzrə strateji konsepsiyaların reallaşdırılmasına istiqamətlənmiş infrastruktur siyasəti, eləcə də iqtisadi və sosial sferada onların modernləşdirilməsi bu günün aktual problemi olaraq qalmaqdadır.

2004-cü ildən başlayaraq regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının həyata keçirilməsi ölkədə nəhəng, modernləşdirilmiş infrastruktur layihələrin reallaşdırılması üçün zəmin yaratdı. Artıq, bu gün müasir texnologiyalarla modernləşdirilən infrastrukturlarla təmin olunan sənaye, kənd təsərrüfatı və tikinti müəssisələrinin təşkilinə xüsusi diqqət yetirilir.

Əksər neft-qaz ölkələrindən fərqli olaraq Azərbaycanda da son illərdə bu məsələlərə diqqət artırılmışdır və bir sıra tədbirlər həyata keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 21 Oktyabr 2004-cü ildə təsdiq etdiyi "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı" və 2009-cu ildə Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin yaradılması bu istiqamətdə aparılan əsas işlərdəndir.

Azərbaycan Respublikasında "Alternativ enerji mənbələrindən istifadə olunması üzrə milli proqram"ın həyata keçirilməsi üçün tədbirlər planında qeyd edilmişdir ki, sənaye, kənd təsərrüfatı və məişət tullantılarından bio maddələrin istehsalı və tətbiqi üzrə müasir texnologiyaların işlənməsi həyata keçirilməli, habelə biokütlə ilə işləyən kiçik elektrik stansiyaları layihələndirilməli və inşa edilməlidir. Lakin araşdırmalar göstərir ki, xüsusilə kənd təsərrüfatı sektorunda biokütlə enerjisindən istifadə sahəsində irəliyə doğru ciddi addımlar atılmamışdır.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının həyata keçirilməsinin nəticəsi olaraq modern tipli Taxtakörpü və Şəmkirçay su anbarları kənd təsərrüfatında su təchizatı problemini və əhalinin fasiləsiz içməli su ilə təmin olunmasını həyata keçirdi. Su anbarlarında müasir texnologiyaya uyğun nəqledici, qəza sutullayıcı və təzyiqli enerji tunelləri tikilmiş, suvarma sistemi yaratmaq məqsədi ilə dəmir-beton üzlüklü kanallar tikilib istifadəyə verilmişdir. Həmin su mənbələri hesabına Göygöl, Samux və Goranboy rayonlarında 54 min ha əkin sahələrində suvarma bərpa olunmuş, 20 min ha əlavə əkin sahələri kənd təsərrüfatı üçün yararlı vəziyyətə gətirilmişdir. Şəmkirçay su anbarı vasitəsi ilə Gəncə və Şəmkir şəhərlərinə, Samux rayonunun Nəbiağalı qəsəbəsinə saniyədə 1,6 m^3 su verməklə əhalinin içməli suya olan tələbatı yaxşılaşdırılmışdır. İnnovativ texnologiyalarla əhatə olunmuş bu layihələr Azərbaycanın kənd təsərrüfatı sahəsində davamlı inkişafın təmin olunmasına şərait yaratmışdır.

Davamlı enerji siyasəti əsas iki istiqamətdən ibarətdir. Bunlardan biri alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin artırılması, digəri isə enerjiyə qənaət və enerji səmərəliliyinin artırılması siyasətləridir. Hər iki istiqamət modernizasiyanı vacib şərt kimi tələb edir.

İstehsal infrastrukturunun tərkib hissəsi olan elektroenergetika infrastrukturlarının yeni texnologiyalarla modernləşdirilməsi və istifadəyə verilməsi uğurla həyata keçirilmişdir. Son illərdə gücü 1500 meqavatt olan 11 yeni, o cümlədən "Şimal" və "Cənub" elektrik stansiyaları tikilib istifadəyə verilməsi təmin edilmiş, elektrik ötürücü stansiyaların modernləşdirilməsi hesabına verilən elektrik enerjisinin keyfiyyəti yüksəlmiş, enerji itkisinin qarşısı alınaraq, enerji sistemində iş rejimi xeyli yaxşılaşmışdır.

Qabaqcıl dünya təcrübəsindən istifadə etməklə innovativ texnologiyalar hesabına Qobustan və Naxçıvanda yeni modern tipli alternativ enerji mənbələri yaradılmışdır. Qobustanda günəş və 4 külək enerji stansiyaları, Naxçıvanda günəş enerji stansiyaları qurulmuş, Bakının Pirallahı adalarında və Suraxanıda günəş elektrik stansiyaları istifadəyə verilmişdir.

Azərbaycan alternativ günəş, külək və geotermal enerji mənbələrindən istifadə üçün əlverişli coğrafi mövqeyə malikdir. İnnovativ texnologiyadan istifadə etməklə digər ərazilərdə də gələcəkdə bu enerji mənbələrindən modern tipli yeni infrastruktur sahələri yaradıb, səmərəli istifadə olunması faydalı ola bilər. Məhz, bu məqsədlə Sumqayıt şəhərində günəş modullarının istehsalı üzrə ixtisaslaşan, Alman texnologiyalı "AZGÜNTEX" zavodu yaradılmışdır.

Kənd təsərrüfatının modernləşdirilməsi bu sahədə ümumi amil məhsuldarlığının artmasına gətirib çıxarır. Modernizasiya aqrar sahənin texniki-texnoloji yenilənməsini

ehtiva edir. Son illər Azərbaycanda kənd təsərrüfatı texnikasının kəmiyyət artımı müsbət tərəflərdən biridir. Azərbaycanda kənd təsərrüfatının texnika ilə təchizatında əsas xüsusiyyətlərdən biri – orta hesabla bir texnikaya düşən at gücünün artırılmasına diqqət yetirilməsidir. Hazırda Azərbaycanda bir texnikaya 100 at gücü düşür ki, bu da inkişaf etmiş ölkələrlə müqayisədə 2-3 dəfə azdır. Son illər dünyada aqrar sektorun texniki təchizatının məhsuldarlığın artımına təsirini yüksəltmək üçün yeni yanaşma formalaşıb. Bu yanaşmaya görə, yüksək məhsuldarlıq, məhsulun itkisiz becərilməsi üçün texnikanın gücü artırılmalıdır. Artıq ABŞ-da mühərriki minimum 300 at gücünə malik traktorlar əkin üçün, 400 at gücünə malik kombaynlar isə taxıl biçini üçün məqbul hesab olunur.

Azərbaycanda aqrar sahənin modernləşdirilməsi aşağıdakı xüsusiyyətləri ehtiva edir:

1. Modernləşmə nəticəsində aqrar sferada kapitalın məhsuldarlığı artır;
2. Modernləşmə daha yüksək ixtisaslı əmək qüvvəsinə tələbat yaradır;
3. Modernləşən aqrar istehsalın rəqabətqabiliyyətini yüksəldir;
4. Modernləşmə aqrar sferada yeni təşkilati və idarəetmə mexanizminin yaradılmasına təkan verir;
5. Modernləşmə Azərbaycanda elmin müəyyən sahələrinə praktik tələbat yaradır və elmin kommersiyalaşdırılmasına töhfə verir;
6. Modernləşmə təhsil sahəsində daha praktik əhəmiyyətli ixtisaslar üzrə kadrların yetişdirilməsi üçün əsaslar yaradır və təhsil-biznes əlaqələrinin kompleks xarakter almasına stimul verir;
7. Modernləşmə zəncirvari reaksiya şəklində aqrar sahəyə xidmət edəcək iqtisadiyyatın sektorlarının inkişafını təmin edir;
8. Modernləşmə aqrar sahənin ixrac imkanlarını genişləndirir;
9. Aqrar sahənin modernləşməsi regionların sosial-iqtisadi inkişafını sürətləndirir;
10. Modernləşmə xarici investisiyaların aqrar sahəyə axını üçün zəmin yaradır;
11. Modernləşmə aqrar sahədə işçi qüvvəsinə olan tələbatı azaldır və beləliklə, urbanizasiya üçün şərait yaradır.

Biliklərə əsaslanan iqtisadiyyatın inkişafı şəraitində aqrar sahənin modernləşdirilməsi aşağıdakı infrastrukturun inkişafını zəruri edir:

1. İnnovasiyaların transferi mərkəzləri (Qazaxıstan təcrübəsində sınaqdan keçirilib) və biznes inkubatorların yaradılması (Rusiyanın müxtəlif regionlarında yaradılıb) və inkişafı;
2. Aqrar innovasiyaların transferi şəbəkəsinin inkişafı və milli və qlobal səviyyədə inteqrasiyası;
3. ABŞ təcrübəsindən istifadə edərək aqrar sahədə vençur fondların yaradılması və inkişaf etdirilməsi;
4. Aqrar-innovativ klasterlərin yaradılması üçün apstrim (upstream) və dounstrim (downstream) istiqamətlərin kompleks inkişafı;
5. Aqrar innovasiyalara dövlət dəstəyi mexanizminin formalaşması və vahid informasiya sisteminin yaradılması;
6. Elektron kənd təsərrüfatı infrastrukturunun yaradılması və inkişaf etdirilməsi.

Aqrar sahədə innovativ fəaliyyətin effektiv inkişafını təmin edən kompleks tədbirlər (elmi tədqiqatların aparılmasından başlayaraq, elmi nəticələrin təcrübi yoxlanmasından istehsala tətbiqinə və səmərəli ölçülməsinə qədər) həyata keçirilməlidir. Belə yanaşma innovativ fəaliyyətin ayrı-ayrı istiqamətləri üzrə müxtəlif sahibkarlıq formalarının inkişafını təmin edə bilər [1, s. 116-119].

Müasir dövrdə ölkəmizdə iqtisadi siyasətin əsas prioritetlərindən biri inkişafın innovasiyalı tipinə keçidi reallaşdırmaqdan ibarətdir. Bu məqsədlə ölkədə innovasiyalı

məhsul istehsalçılarının sayını artırmaq, innovasiyalı məhsul istehlakçılarının davranışına üstünlük vermək, innovasiyalı məhsul istehsalçıları ilə istehlakçıları arasında qarşılıqlı əlaqəni gücləndirmək Milli iqtisadi siyasətin əsas aparıcı istiqamətlərindən birini təşkil edir və etməkdədir. Bütün bunlar isə davamlı sosial-iqtisadi inkişafda innovasiya siyasətinin əsas mahiyyətini özündə ehtiva edir.

Azərbaycanda iqtisadi inkişafın davamlığının təmin olunmasında həyata keçirilən islahatlar, əsasən iqtisadiyyatın investisiyalı tipindən innovasiyalı tipinə keçid istiqamətinə yönəlmiş islahatlardır. İnnovasiya prosesi əsasında davamlı iqtisadi inkişafa nail olmaq üçün elmi biliklərə və qabaqcıl texnologiyalara əsaslanaraq istehsal olunmuş məhsulların təklifini irəli sürmək, innovasiyalı məhsul istehsalçılarını müasir, yenilikçi innovasiya ilə əhatə olunmuş bazarlara sərbəst daxil olması mexanizmini daima inkişaf etdirib, təkmilləşdirmək vacib və əhəmiyyətlidir. Bunun üçün innovasiyalı bazarın formalaşdırılması, onun təşkilati-hüquqi bazasının yaradılması, inkişafı və təkmilləşdirilməsi istiqamətində mühüm işlər görülməkdədir. Bu işlər içərisində ən mühüm olanı davamlı iqtisadi inkişafın təminatçısı olan innovasiya proseslərinin iştirakçılarını relevant informasiya xidməti ilə təmin etməkdən ibarətdir. Ona görə ki, informasiyanı bazar subyektləri arasında düzgün və məqsədli paylaşdırmaq innovasiya prosesinin əhatəli şəkildə həyata keçirilməsi ilə nəticələnir.

Ölkəmizdə innovasiya siyasətinə hökumət orqanları tərəfindən göstərilən diqqət və qayğı, eləcə də dövlət başçısı cənab İlham Əliyevin sərəncamı ilə "Azərbaycanda Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi"nin yaradılması və onun uğurlu fəaliyyəti bu sahənin ölkə iqtisadiyyatının strateji inkişafında nə qədər vacib və zəruri olduğunu bir daha göstərir. Bu Agentliyin yaradılmasında əsas məqsəd ondan ibarətdir ki, müasir innovasiyaları tətbiq etməklə vətəndaşlara dövlət qurumları tərəfindən göstərilən xidmətlərin daha keyfiyyətli və rahat şəkildə həyata keçirilməsi mümkün olsun. Şübhəsiz, bütün bunların reallaşdırılması dövlət idarəçiliyində yeni mərhələdir və yüksək peşə vərdişlərinə yiyələnmiş gənc kadrların yetişməsinə də böyük təkan verəcəkdir.

Azərbaycan dövləti tərəfindən həyata keçirilən innovasiya siyasəti respublikamızda mövcud olan davamlı iqtisadi inkişafın və rəqabətliliyinin daha da möhkəmləndirilməsini təmin etmək üçün dünyada mövcud olan ən yeni ideyaların, elmi biliklərin, texnologiya və məhsulların iqtisadiyyatın müxtəlif istehsal sahələrinə, habelə, ümumiyyətlə ölkəmizin idarəetmə sisteminə tətbiq edilməsinə yönəlib. Ölkəmizin inkişafı üçün olduqca əhəmiyyətli rola malik olan bu mühüm prosesdə dövlət tərəfindən elmi-texniki tərəqqinin yeniliklərı nəzərə alınır, müasir elmi tədqiqatların aparılmasına diqqət artırılır. Təsadüfi deyil ki, Azərbaycanın son illər artan maliyyə imkanları ölkə rəhbərliyi tərəfindən innovasiya texnologiyalarının inkişafına xidmət edən təhsil və elm sahələrinə diqqətin artırılması ilə müşahidə olunur.

Son illərdə Azərbaycanın özünə məxsus telekommunikasiya peykinin istehsalı və orbitə göndərilməsi bu sahədə parlaq tarixi bir hadisə olmaqla yanaşı, innovasiya, yeni texnologiyaların inkişaf etdirilməsi və tətbiqi istiqamətində ölkəmizdə aparılan məqsədyönlü işlərin nəticəsidir.

Son dövrlərdə sosial-iqtisadi inkişaf siyasətini əhatə edən silsiləli "Dövlət Proqramları"nın həyata keçirilməsi ölkədə dinamik sosial-iqtisadi inkişafın təmin olunmasına, bu sahədə əldə olunmuş nailiyyətlərin daha da möhkəmləndirilməsinə xidmət etmişdir. Nəticədə, ölkəmizdə davamlı sosial-iqtisadi inkişaf təmin edilmişdir.

Azərbaycanda davamlı iqtisadi inkişafın qorunub saxlanılması nəticəsində beynəlxalq aləmdə mövqelərin möhkəmləndirilməsi və sosial həyatın bütün sahələrində mütə-

rəqqi islahatların aparılması istiqamətində çoxsaylı addımlar atılmışdır. Artıq, dünya birliyinə yaxından inteqrasiya olunan müstəqil Azərbaycan Respublikasındakı bütün proseslər xalqımızın milli mentalitetinə və dövlətçilik prinsiplərinə uyğun olaraq dünya birliyinin, nüfuzlu beynəlxalq təşkilatların rəyləri nəzərə alınmaqla müasir dövrün tələbləri səviyyəsində qurulmaqdadır.

Makroiqtisadi göstəricilərin dinamikası davamlı inkişafın ötən il uğurla təmin olunmasını müəyyən edir. Belə ki, 2016-cı ildə ÜDM-nin həcmi artaraq 60393,6 milyard manata çatmış və 2015-ci illə müqayisədə real artım 11% təşkil etmişdir [7].

Davamlı iqtisadi inkişafın təmin edildiyi 2017-cü ildə əldə edilən böyük nailiyyətlər ölkə iqtisadiyyatının davamlılığının daha da gücləndirməsinə, onun çoxşaxəli inkişafına və keyfiyyət baxımından təkmilləşməsinə təkan vermişdir.

Son illərdə aparılan iqtisadi islahatların nəticəsi olaraq qeyri-neft sektorunda artım təxminən 10 faiz, inflyasiya isə cəmi 2,4 faiz olmuşdur. Əhalinin pul gəlirlərinin inflyasiyanı 3 dəfədən çox üstələməsi, son illərdə qeyri-ərzaq məhsullarının əmtəə dövriyyəsinin ərzaq məhsullarının əmtəə dövriyyəsini nəzərə çarpacaq dərəcədə üstələməsi vətəndaşların rifah halının xeyli yaxşılaşdığını göstərir. Bu müddət ərzində innovasiya xarakterli texnologiyaların tətbiqi davam etdirilmiş, yeni müəssisələr yaradılmış, müəssisələrin istehsal potensialı artırılmış, ölkə sənayesində 2,7 dəfə artım qeydə alınmışdır. Sənaye məhsulunun ümumi həcmində qeyri-dövlət müəssisələrinin məhsulunun payı 85 faiz təşkil edir. Bütün bunlar sənayedə işgüzar fəallığın artmasına, yeni iş yerlərinin açılmasına, kiçik sahibkarlığın inkişafına güclü təkan vermişdir.

Sənayenin maşınqayırma, metallurgiya, kimya, mebel, toxuculuq, qida və digər sahələrində dinamik artım baş vermiş, dünya iqtisadiyyatının böhranla üzləşdiyi dövrdə belə, Azərbaycan sənayesinin qeyri-neft sektorunda inkişafa nail olunmuşdur. Qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək, ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli sənaye istehsalının inkişafı üçün münbit şərait yaratmaq, müasir texnologiyalara əsaslanan sənaye müəssisələrini təşkil etmək, əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq istiqamətində Sumqayıt Texnologiyalar Parkının, Sumqayıt Kimya Sənaye və Balaxanı Sənaye Parklarının, Yüksək Texnologiyalar Parkının yaradılması və s. mühüm əhəmiyyət kəsb edir. Kənd təsərrüfatı sahəsində ərzaq təhlükəsizliyinin təmin olunması üçün bitkiçilik və heyvandarlıq sahələri inkişaf etdirilmiş, ərzaq məhsulları ilə özünü təminetmə səviyyəsi daha da yaxşılaşdırılmışdır.

Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi, kənd təsərrüfatı məhsullarını istehsalçılarının istifadə etdikləri yanacağın, motor yağlarının və mineral gübrələrin dəyərinin orta hesabla 50 faizinin dövlət tərəfindən ödənilməsi, eləcə də dövlət büdcəsinin vəsaiti hesabına buğda istehsalının stimullaşdırılması məqsədilə yardım verilməsi, toxumçuluq və damazlıq işləri üzrə müəyyən işlərin görülməsi, aqroservis xidmətlərindən güzəştli qiymətlərlə istifadə, Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu və Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi tərəfindən kənd təsərrüfatı məhsulları istehsalçılarına verilmiş güzəştli kreditlər kənd təsərrüfatı istehsalı sahəsində ilbəil dinamik inkişafın əldə edilməsini təmin edən amillərdən olmuşdur.

Kənd təsərrüfatının ümumi məhsulu son 10 ildə 2 dəfə, taxıl istehsalı 50 faiz, kartof istehsalı 35 faiz, tərəvəz 30 faiz, bostan məhsulları 35 faiz, meyvə və giləmeyvə 51 faiz, üzüm istehsalı isə 3 dəfə artmışdır [7].

İri özəl taxılçılıq təsərrüfatlarının ölkənin rayonlarında yaradılması istiqamətində işlər aparılır və hazırda bölgələrdə onlarca özəl fermer təsərrüfatları fəaliyyət göstərir.

Aqrar sektorda emalçılar ilə istehsalçılar arasında kooperasiya münasibətlərinin

möhkəmləndirilməsi, fermerlərin dövlətin dəstək mexanizmlərindən daha səmərəli istifadə etməsi məqsədilə regionlarda 50 başlıq südlük cins iribuynuzlu təsərrüfatların yaradılmasına başlanılmışdır.

Yerli istehsal sahələrinin yenidən qurulması və uğurla həyata keçirilən aqrar islahatların aparılması bir sıra yerli qida məhsullarının istehsalının artmasına və ölkəmizə idxalının azalmasına səbəb olmuşdur. Yerli məhsullar daxili bazarımızı zənginləşdirmiş, əsas qida məhsullarına idxaldan asılılığımızı azaltmışdır. Ölkənin sahibkarlıq sektorunun inkişaf göstəricilərinin dinamikası həyata keçirilən iqtisadi islahatların və tətbiq edilən innovativ texnologiyaların uğurlu nəticələrinin əyani təsdiqidir.

Son illərdə sahibkarlığın inkişafına dövlətin maliyyə dəstəyi daha da yaxşılaşmış, güzəştli kreditlərin həcmi əhəmiyyətli dərəcədə artmışdır. Sahibkarlıq fəaliyyətinin dəstəklənməsi və bu sahəyə dövlət qayğısı artırılmışdır.

Ötən müddət ərzində ölkənin müxtəlif bölgələrində müntəzəm olaraq təşkil edilmiş biznes forumlar yerli və müxtəlif ölkələrdən olan iş adamları, sahibkarlar arasında maarifləndirmə işinin təşkilinə, onların məlumat əldə etmə imkanlarının genişləndirilməsinə, ölkə regionlarının mövcud təbii və əmək resurslarından səmərəli istifadə edilməsi, habelə xarici investisiyaların cəlb edilməsi prosesinin dəstəklənməsinə müsbət təsir göstərmişdir.

Qeyri-neft sektorunun inkişafına üstünlük verilməsi dövlətin iqtisadi siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Buna görə də müasir tələblərə cavab verən istehsal, sosial və bazar infrastrukturu şəbəkəsinin yaradılması, həmçinin səmərəli təsərrüfatçılıq və mütərəqqi idarəçilik üsullarından istifadə hallarının genişləndirilməsi zərurət kəsb edir. Bu baxımdan ölkəmizdə nəzərdə tutulmuş proqramlar əsasında həyata keçirilən iri miqyaslı bütün sosial-iqtisadi, mədəni və digər sahələri əhatə edən nəhəng infrastruktur layihələri reallaşdırılmış, Azərbaycanın enerji təhlükəsizliyi tam təmin edilmiş, ərzaq məhsullarına olan daxili tələbatın yerli istehsal hesabına ödənilməsinə nail olmaq istiqamətində mühüm addımlar atılmışdır.

Qeyri-neft sektorunun gələcək illərdə də inkişafını təmin etmək üçün indi ciddi proqramlar icra edilir və növbəti illərdə də davam etdiriləcəkdir.

Aqrar sahənin infrastruktur obyektlərinin innovativ yolla davamlı inkişafı, modernləşdirilməsi və ərzaq təhlükəsizliyinin səmərəli təmin edilməsi də qarşıda duran prioritet məsələlərdən biridir. Bütövlükdə, bu sahədə kənd təsərrüfatı məhsullarını emal edən bölmələrin inkişafının stimullaşdırılması, onların ixracına dövlət himayəsinin artırılması, maliyyə-kredit xidmətlərinin genişləndirilməsi, daxili və xarici investisiyaların təşviqi sisteminin təkmilləşdirilməsi daxili bazarın yüksək keyfiyyətli ərzaq məhsulları ilə təmin edilməsi məqsədilə zəruri tədbirlərin həyata keçirilməsi, o cümlədən beynəlxalq tələblərə uyğun standartların hazırlanması, bu sahənin inkişafı ilə bağlı fundamental elmi-tədqiqat işlərinin dövlət tərəfindən dəstəklənməsi, həmçinin kadr potensialının gücləndirilməsi mühüm məsələ kimi qarşıda durur. Bunlarla yanaşı, kənd təsərrüfatı və emal sənayesi məhsullarının ixracını təmin edən potensial imkanların düzgün müəyyənləşdirilərək istifadə olunması, bu sahədə ekoloji cəhətdən beynəlxalq standartlara cavab verən məhsulların həcmini əsaslı şəkildə artırmaqla onların rəqabət qabiliyyətinin yüksəldilməsi məsələləri də aktuallıq kəsb edir. Bu sahədə həyata keçirilən uğurlu islahatlar nəticəsində müsbət irəliləyişlərə nail olunmuşdur.

Beləliklə, aparılan araşdırmaların nəticəsi olaraq, belə qənaətə gəlmək olar ki, innovasiya proseslərinin tətbiqi milli iqtisadiyyatın davamlı inkişafında mühüm və əhəmiyyətli rola malikdir.

İnfrastrukturların modernləşdirilməsi məqsədi ilə nəzərdə tutulan innovasiya fəa-

liyyətinin investisiyalaşması proseslərinin tənzimlənməsi bu və ya digər sahənin kreditləşdirilməsi vəziyyətindən asılıdır. Həmin kreditləşmədə dövlətin fəal iştirakı innovasiya bazarında fəallığa müsbət təsir edir. İstehsal, sosial və bazar infrastrukturlarının investisiya layihələrinə ayrılan vəsaitlərin səmərəliliyinin qiymətləndirilməsi zamanı aşağıdakıların nəzərə alınması zəruridir: bazarın konkret seqmentində konyunkturanın əsas xarakteristikaları;

– konkret sahənin məhsuluna tələbdə, buraxılan məhsulun həcmi və çeşidində baş verən dəyişikliklər;

– istehsalın resurs təminatında, o cümlədən maddi və intellektual resursların qiymətindəki tərəddüdlər;

– məhsulun və onun son istehlakçıya çatdırılması prosesinin rəqabətə davamlılığında innovasiyaların yeri və rolu;

– istehsalda miqyas effektinin reallaşması vəziyyəti, o cümlədən, məhsul buraxılışının artması müqabilində şərti-daimi məsrəflərin dəyişməsi trayektoriyası və s.

Yeri gəlmişkən, adətən, sözün həqiqi mənasında yeni keyfiyyət səviyyəsini nəzərdə tutan innovasiyaların investisiyalaşması zəruriliyini ənənəvi göstəricilər sistemi ilə əsaslandırmaq olduqca problemlidir. Odur ki, zənnimizcə innovasiyalar statistikasının daha sürətlə formalaşdırılması istiqamətində elmi-metodoloji və empirik araşdırmalar sürətləndirilməlidir. Qabaqcıl ölkələrdə innovasiya siyasətinin həyata keçirilməsi təcrübəsi göstərir ki, elmi ideyanın texnoloji reallaşması və kommersiyalaşmasının informasiya təminatının, ümumilikdə innovasiyalar statistikasının formalaşdırılmasında analogiyalara əsaslanmaq, heç də həmişə lazımi səmərə vermir. Sənayedə riskli innovasiya layihələrin həyata keçirilməsi qloballaşma proseslərinin intensivləşməsi, paralel fəaliyyətlərin nadir hal olmaması faktına xüsusi diqqət yetirməyi tələb edir. Məsələ ondadır ki, sürətlənən inteqrasiya prosesləri, çoxaspektli qloballaşma amilinə rəqabət və risk müstəvisində baxmağı həyati əhəmiyyətli məsələyə çevirmişdir. Digər tərəfdən innovasiya fəallığının qeyri-qənaətbəxş səviyyəsi sənayedə, əksər hallarda, demək olar ki, nəinki ixracyönlü inkişafa, hətta daxili bazara hesablanmış fəaliyyətə belə imkan vermir. Nəticədə daxili istehsal və resurs potensialından bu və ya digər dərəcədə istifadə prosesləri ləngiyir, ayrı-ayrı istehsalçı subyektlərin iflası təhlükəsi yaranır.

İnnovasiyalı investisiya proseslərinin dəstəklənməsində intellektual mülkiyyətin qorunması, normativlərin və standartların hazırlanması prosesinin sadələşdirilməsi, gömrük-vergi stimullaşdırılması, antiinhisar tədbirləri və haqsız rəqabətlə mübarizə istiqamətləri ön planda olmalıdır. İnnovasiya fəaliyyətinin və sənaye istehsalının innovativliyinin konseptual məsələlərinin həllində, adekvat innovasiya siyasətinin həyata keçirilməsinin elmi-nəzəri, metodoloji, texniki, texnoloji və digər aspektlərində uğurlar mükəmməl informasiya təminatı sayəsində mümkündür. Bu baxımdan ideyaların kommersiyalaşmasının bütün mərhələlərini əhatə edən informasiya xidmətinin təşkili aşağıdakı tələblərə cavab vermalıdır:

– innovativ fəaliyyətin sahə və ərazi istiqamətləri qarşılıqlı əlaqədə əsaslandırılmalı;

– ideyaların kommersiyalaşmasının texnoloji-iqtisadi mərhələlərində interaktiv rejim, istisnasız olaraq tətbiq edilməli;

– informasiya münasibətləri kreativ xarakterli olmaqla, ənənəvi informasiya sistemlərində fəaliyyət prinsipləri ilə ziddiyyət təşkil etməməlidir. Sənayedə innovativ fəaliyyət istehsal fəaliyyətinin miqyası, intensivliyi və ekoloji təmizliyi amilləri arasında münasibətlərin qarşılıqlı qiymətləndirilməsini tələb edir.

Tədqiqatlar və əldə olunmuş təcrübə göstərir ki, sadalanan amillər arasında mövcud olan qarşılıqlı əlaqələrin birmənalı şəkildə qiymətləndirilməsi heç də həmişə müm-

kün deyildir. Sənayedə miqyas və intensivlik, intensivlik və ekoloji təmizlik amillərinin ziddiyyətli təsiri heç də nadir hal deyildir. Haqqında danışılan ziddiyyətli məqamlar, əsasən resursqoruma və həyat keyfiyyəti meyarları baxımından yanaşma zamanı əyani təzahürlərə malik olur.

Yuxarıda göstərilənləri ümumiləşdirərək, qeyd edək ki:

– innovativ düşüncə tərzi qədimliklə yeniliyin üzvi vəhdətini nəzərdə tutan birgəyaşayış meyarlarının önə çəkilməsini nəzərdə tutur;

– innovasiya fəaliyyətinin səciyyələndirilməsinə sadələşdirilmiş yanaşma yolverilən deyildir. Çünki innovasiya fəaliyyəti mürəkkəb və çoxsaylı subyektlərin birbaşa və ya dolayı yolla iştirak etdiyi fəaliyyət növüdür;

– innovasiya fəaliyyətinin, sözün həqiqi mənasında bazarayönümlü olması, onun maliyyə təminatının mühüm şərtidir;

– hazırda davamlı iqtisadi inkişafın infrastruktur problemlərinin həllinə yönəlmiş innovasiya məsələlərinə diqqət artırılmalı, nəzəri və metodoloji-praktik aspektlərə vahid kontekstdə baxılmalıdır.

Ölkədə innovasiya fəallığının artırmaq və innovativ texnologiyadan istifadə etməklə infrastrukturların modernləşdirilməsini stimullaşdırmaq məqsədi ilə aşağıdakı tədbirlərin həyata keçirilməsi üçün dövlət dəstəyi ilə yanaşı müvafiq qanunvericilik bazasının yaradılması məqsədəuyğundur:

– Ölkədə davamlı iqtisadi inkişafı təmin edən innovativ infrastrukturların yaradılması məqsədi ilə elm və istehsal sahələri arasında elə münasibətlər qurulmalıdır ki, elmi araşdırmalar yalnız istehsal sahələrinin sifarişləri əsasında, istehsal ehtiyaclarının ödənilməsi istiqamətində aparılsın və əldə edilən nəticələr birbaşa istehsalata tətbiq edilsin;

– Maddi istehsal və ona xidmət edən infrastruktur sahələrinə innovativ texnologiya tətbiq etməklə, rəqabətqabiliyyətli məhsul istehsalının stimullaşdırılması təmin edilsin;

– İnnovativ sahibkarlığın inkişaf etdirilməsi və yeni fəaliyyət növlərinin və məhsullarının inkişafı üçün əlverişli mühit yaradılması ilə yanaşı, qabaqcıl texnologiyaların transferi və mənimsənilməsi istiqamətində tədbirlərin gücləndirilməsi, elmtutumlu məhsulların və texnologiyaların işlənilməsi və tətbiqi üçün texnoparklar və innovasiya zonaları yaradılması təmin edilsin;

– Qabaqcıl dünya təcrübəsindən istifadə etməklə Azərbaycanda informasiya cəmiyyətinin tələblərinə uyğun olaraq yeni bilik və texnologiyaların istifadəsini, mənimsənilməsini və yayılmasını təmin edən milli innovasiya sisteminin formalaşdırılması təmin edilsin.

Fikrimizcə, perspektivdə ölkədə infrastrukturların inkişafı və modernləşdirilməsi üçün innovasiya fəaliyyətinin stimullaşdırılması prioritet istiqamət kimi müəyyən edilməlidir.

Beləliklə, yuxarıda qeyd edilən sahələrin inkişaf etdirilməsi ölkənin sosial-iqtisadi inkişafının yeni səviyyəyə qalxmasına imkan verər və davamlı sosial-iqtisadi inkişafın təmin olunmasına şərait yaradar.

ƏDƏBİYYAT

1. Qasımlı V. İqtisadi modernizasiya. Azərbaycan Respublikası Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi. Bakı, 2014, 311 s.
2. Məmmədov İ.S., Əhmədov T.M. İnnovasiya yönümlü investisiyaların təkmilləşdirilməsi istiqamətləri // AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası, 2017, № 1, s. 45-50.
3. Əliyeva G.O. İnnovasiya və investisiya siyasətinin prioritetlərinin birgəliyi və sənayenin davamlı inkişafı //AMEA-nın Elmi əsərlər toplusu, 2015, № 2, s. 124-130.

4. Eyvazova N.K. Regionlarda innovasiyalı istehsalın təşkilinin zəruriliyi // AMEA-nın Elmi əsərlər toplusu, 2017, № 2, s. 88.
5. Alıyev İ.H. Qloballaşma şəraitində aqrar sahənin dayanıqlı inkişafını təmin olunmasının sosial-iqtisadi problemləri. Bakı: Elm, 2008, 391 s.
6. Məmmədov H.Ə. Milli iqtisadiyyatın dayanıqlı inkişafında innovasiyaların rolu // NDU, "Naxçıvan MR iqtisadiyyatının innovativ inkişaf istiqamətləri, Elmi-praktiki konfrans materialları. Naxçıvan: Qeyrət, 2015, s. 33-36.
7. www.azstat.or

Гасан Мамедов

МОДЕРНИЗАЦИЯ ИННОВАЦИОННЫМ ПУТЕМ ИНФРАСТРУКТУРЫ НА ПРЕДПРИНИМАТЕЛЬСКИХ СУБЪЕКТАХ

В статье говорится о модернизации инфраструктуры на предпринимательских субъектах инновационным путём. Здесь раскрываются инновация и модернизация, их значение и элементы содержания. Показывается, что модернизация, охватывая обновление устаревших основных средств и создание новой инфраструктуры, служит повышению конкурентоспособности экономики и улучшению социального благосостояния людей.

В то же время в статье упоминается ряд характерных особенностей политики модернизации Азербайджанского государства. Отмечается, что модернизация, включая в себя переход устаревшего к современному во всех сферах деятельности общества – экономике, политике и культуре, состоит из трансформации цивилизации в развитие.

Говорится также о влиянии политики модернизации на развитие инфраструктуры в промышленности и в сельском хозяйстве и указывается, что внедрение модернизации в промышленности и в сельском хозяйстве приводит к увеличению производительности в этих отраслях. Также отмечается, что модернизация в аграрной отрасли включает в себя обновление техники-и технологий в этой отрасли.

В итоге отмечается, что модернизируя инфраструктуру путём инновации на предпринимательских субъектах, можно обеспечить создание условий для длительного социально-экономического развития.

Ключевые слова: *Инновация, модернизация, инфраструктура, устаревание, современность.*

Hasan Mammadov

THE INNOVATIVE MODERNIZATION OF INFRASTRUCTURE ON ENTREPRENEUR ENTERPRISES

The paper is about the innovative modernization of infrastructure on entrepreneur enterprises. Here, innovation and modernization, their essence and content elements are explained. It is shown that modernization serves to improve the competitiveness of the economy and improve people's social well-being, including updating old-fashioned fixed assets and creating new infrastructure.

At the same time, the article outlines a number of specific features of the modernization policy of the Azerbaijan state. It is noted that modernization is in all spheres of activity of the society: the transformation of civilization into development, involving the transition from the old to the modernity in the fields of economics, politics and culture.

The impact of modernization of industry and agriculture on the development of infrastructure is pointed out and the application of modernization in agriculture and industry leads to increased productivity in these areas. It is also noted that modernization in the agrarian sphere involves technical and technological renewal in this area.

It is noted in the end that it is possible to create sustainable conditions for sustainable socio-economic development by modernizing infrastructure through innovation entrepreneurship.

Key words: *innovation, modernization, infrastructure, old-age, modernity.*

(İqtisad üzrə elmlər doktoru, professor Ağarza Rüstəmov tərəfindən təqdim edilmişdir)

ELTUN İBRAHİMOV
AMEA Naxçıvan Bölməsi
E-mail: eltunibrahimov@yahoo.com

SOSİAL SİYASƏTİN ƏSAS İSTİQAMƏTLƏRİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

Müasir iqtisadi şəraitdə dövlətin yerinə yetirmiş olduğu öhdəliklərin səmərəliliyi və insanların həyat səviyyəsinin yaxşılaşdırılması onun həyata keçirdiyi sosial siyasətlə müəyyən olunur. Sosial siyasət ümumi siyasətin əsas tərkibi olub mövcud iqtisadi qanunların, bu qanunları həyata keçirən dövlət orqanlarının, eyni zamanda bazar münasibətləri şəraitində əhali və təsərrüfat subyektlərinin fəaliyyətlərinin əsas göstəricilərinin effektivliyi ilə xarakterizə olunur. Bu baxımdan məqalədə sosial siyasətin əhəmiyyəti və təhlil olunması xeyli aktuallıq kəsb edir.

Açar sözlər: *sosial siyasət, həyat səviyyəsi, iqtisadi münasibətlər, iqtisadi inkişaf, dövlət.*

Dövlətin sosial siyasəti həyata keçirməkdə əsas məqsədi ölkə ərazisində müəyyən yaş qruplarına və əmək potensialına sahib olan insanların müdafiəsini təşkil etməkdir. Bu siyasət vasitəsilə insanın bütün növ ehtiyaclarının ödənilməsi, şəxsi maraqlarının, eyni zamanda konstitusion, təbii və əmək hüquqlarının qorunması həyata keçirilir. Belə bir fikir irəli sürə bilərik ki, dövlətin yerinə yetirmiş olduğu iqtisadi, siyasi, mədəni siyasətin əsas fonunda və son nöqtəsində sosial siyasət dayanır. Belə ki, sosial siyasət sırf insanların ehtiyaclarının və, hüquqlarının qorunması, istehsal olunan maddi nemət və xidmətlərin onlar arasında bərabər bölgüsünü təmin edir, bir növ insanın bioloji varlıq kimi təsəvvür olunmasından kənarlaşdırıb onun sosial varlıq kimi təqdim edir.

Sosial siyasət ümumi siyasətin bir hissəsi kimi "dövlətin cəmiyyətdəki, sosial proseslərin idarə edilməsi, maddi və mənəvi tələbatların təmini, cəmiyyətin hər bir üzvünə özünün şəxsiyyətin normal təkrar istehsalı və inkişafı üçün lazımı sosial-iqtisadi hüquqlarının realizəsinə imkan verən sosial diferensiasiya proseslərinin tənzimlənməsi üzrə fəaliyyətidir. Sosial siyasətin əsas prinsipləri hər bir cəmiyyət üzvünün minimal yaşayış səviyyəsinin təmin olunması, gəlirlərin qeyri-bərabərliyinin mümkün qədər azaldılması, əmək qabiliyyətli hər bir kəsin səmərəli iqtisadi fəaliyyəti üçün şəraitin yaradılmasından ibarətdir" [2, s. 544].

Dövlət iqtisadi münasibətləri tənzimləməklə sosial problemlərin həll olunmasına köməklik göstərir, eyni zamanda nail olduğu səmərəli sosial siyasətlə iqtisadi sistemin dayanıqlılığını təmin edir. Bunu belə izah edə bilərik ki, əldə olunmuş iqtisadi inkişaf bilavasitə dövlətin hərtərəfli güclənməsi və onun əhalisinin yaşayış səviyyəsinin yüksəlməsi deməkdir. Bununla bərabər iqtisadi və sosial cəhətdən rifah halı yaxşı olan insan qrupları keyfiyyətli əmək potensialı deməkdir ki, bu da bilavasitə dövlət üçün xeyli sərfəlidir. Bunun nəticəsində də düzgün qurulan dövlət-vətəndaş münasibətləri yaranır ki, dünya təcrübəsində bunun nümunələrinə əsasən inkişaf etmiş ölkələrdə rast gəlmək olar. Yəni, iqtisadi cəhətdən inkişaf edən ölkələrdə əhalinin həyat və yaşayış şəraiti xeyli yaxşı olur ki, bu da öz növbəsində iqtisadi cəhətdən güclü dövlətin yaranması və onun dayanıqlılığının qorunmasının əsas şərtidir.

Məlum olduğu kimi insan cəmiyyəti bir-birindən müəyyən xüsusiyyətlərinə görə fərqlənən qruplardan və təbəqələrdən ibarətdir. Sosial siyasətin də əsas məqsədi və mahiyyəti mövcud qruplar arasında münasibətlərin tarazlığını qorumaqdan ibarətdir. Əgər bu tarazlıq qorunmasa münasibətlər düzgün yöndə inkişaf etməyəcək, bu isə cəmiyyətdə müəyyən mənfi meyllərin ortaya çıxmasına və boşluqların meydana gəlməsinə səbəb olacaqdır. Beləliklə də dövlətin sosial-iqtisadi siyasətinin əsas məqsədləri kimi:

– Dövlətin düzgün xarici siyasətinin bərqərar olması. Bu zaman həm siyasi cəhətdən, həm də iqtisadi cəhətdən balanslı siyasət həyata keçirilir və xarici əlaqələrdə hərtərəfli münasibətlər ön plana çəkilir;

– Düzgün yeridilən iqtisadi siyasət vasitəsilə ixrac potensialının genişlənməsi, müsbət ödəniş balansının saxlanması və ölkə ərazisində münasib qiymət siyasətinin müəyyən olunması;

– Əmək qabiliyyəti olmayan insanların və sosial cəhətdən həssas əhali qruplarının təminatının yaxşılaşdırılması;

– Azəminatlı, yoxsul əhali kütləsinin, şəhid ailələrinin, gənc ailələrin, məcburi köçkünlərin mənzil-kommunal şəraitinin yaxşılaşdırılması, pensiya, sosial sığorta, müavinətlər və digər təzminatlar üzrə sosial müdafiənin təşkil edilməsi;

– İqtisadi artımın və tam məşğulluğun təmin olunması;

– Azad bazar iqtisadiyyatının tam təmin olunması. Dünya ölkələrinin təcrübələrindən faydalanmaqla müasir iqtisadi sistemin qayda-qanunlarının mənimsənilməsi, regional proqramların səmərəli icrasına nail olmaq, özəlləşdirmənin prinsip və metodlarına uyğun sərbəst iqtisadi bölgələrin yaradılması və s. kimi amillər müəyyən olunmuşdur.

Dövlətin sosial siyasətinin tam təmin olunması dövlət tənzimlənməsinin səmərəliliyini ortaya qoyan başlıca şərtdir. Hər nə qədər ki, müasir iqtisadi sistemin daha çox sərbəst bazar qanunları ilə fəaliyyət göstərməsinin tərəfdarları xeyli sayda çox olsa da, etiraf eləmək lazımdır ki, dövlət müdaxiləsi və tənzimlənməsi olmadan sərfəli sosial siyasətə nail olmaq qeyri-mümkündür. Çünki sərbəst və öz-özünü tənzimləyən iqtisadi sistem heç də cəmiyyət qarşısında duran vacib problemlərin və bilavasitə insanların marağında olan məsələlərin həll olunmasında tam iqtidara malik deyildir. Dövlət müdaxilə etmədiyi təqdirdə cəmiyyət böhranla mütləq üzləşəcəkdir. Ümumi götürdükdə isə böhranlar baş verərkən müxtəlif fazalardan keçir. Dünyada baş verən bütün böhranların gedişatına nəzər salsaq görərik ki, onlar əvvəlcə konkret olaraq müəyyən sahə və sferalardan başlayır, sonra tədricən öz əhatə dairələrini genişləndirib digər sahələri də əhatəyə alırlar. Bütün sosial və siyasi böhranların əvvəlində iqtisadi böhranlar dayanır. İqtisadi böhran isə iqtisadi sistemlərin əsas həlqəsi və hərəkətverici qüvvəsi olan maliyyə sistemindən başlayır. Misal üçün, əvvəlcə ipoteka böhranı ilə başlayan proses zaman keçdikcə bank böhranına, daha sonra maliyyə böhranına, son nəticədə isə qlobal iqtisadi böhrana çevrilir. Bu isə ona görə qlobal xarakter daşıyır ki, maliyyə və bank sistemi çox geniş əhatəyə və şəbəkəyə malikdir. Müasir dünyada gedən bütün proseslərin inteqrasiya ilə əlaqəli olması nöqteyi nəzərindən yanaşsaq göstərmək olar ki, maliyyə sistemi qlobal dünyada dövlətlər və şirkətlər arasında əlaqə və mütənasibliyi təmin edən ən əhəmiyyətli sistemdir. Sonda isə genişlənən qlobal iqtisadi böhran sosial sferanı əhatə edir və sosial böhranı əmələ gətirir. Bu baxımdan dövlət öncədən gedən iqtisadi prosesləri tənzimləməsə və istənilən çatışmazlığa müdaxilə etməsə iqtisadi böhran özü ilə siyasi böhranı gətirəcəkdir.

Lakin müasir dövrdə bəzi mütəxəssislər hesab edir ki, dövlət sosial sferanın inkişafı ilə bağlı olan bütün məsələlərin həllini tamamilə öz üzərinə götürməməlidir. Bu yöndə dövlət əsasən sosial xərcləri ixtisar etməli və bu nəticədə sərbəstləşən vəsaitləri

birbaşa iqtisadi fəallığın artırılmasına və stimullaşdırılmasına yönləndirməlidir. Bir sözlə, dövlətin başlıca siyasəti iqtisadi stabilliyinin qorunması və iqtisadi artımın tam təmin edilməsi olmalıdır. Çünki belə olan təqdirdə iqtisadi artıma və canlanmaya tam nail olmaq olar ki, nəticədə sosial problemlər öz həllini tapacaqdır. Yəni iqtisadi problemlərin həllinin tapılması sosial problemləri həll edəcəkdir [3, s. 12].

Dünya təcrübəsində sosial siyasətin həyata keçirilməsinin bir neçə modeli mövcuddur ki, bu modellərin də özlərinin müsbət və mənfi xüsusiyyətləri vardır. Onlar aşağıdakılardan ibarətdir:

– Paternalist model. Əsasən keçmiş SSRİ ölkələrində tətbiq olunurdu. Bu zaman dövlət əhalinin hərtərəfli sosial və iqtisadi şəraitinin yaxşılaşdırılması məsuliyyətini öz üzərinə götürür, maddi nemətlərin bərabər bölgüsünü həyata keçirir, sosial sabitliyin bərqərar olmasına şərait yaradır. Bu modelin mənfi xüsusiyyəti kimi onu göstərmək olar ki, vətəndaşların yüksək sosial vəziyyətinin təmin olunmasına tam nail oluna bilmir və maddi-sosial sərvətlərin insanlar üçün limiti müəyyənləşir;

– Sosial siyasətin İsveç modeli. Modelin müsbət cəhəti kimi sosial sferada dövlət tənzimlənməsinin hərtərəfli xarakter daşıması, dövlət məsuliyyətinin yüksək olması və əhalinin sosial müdafiəsinin tam təmin olunmasını göstərmək olar. Modelin mənfi cəhətinə sosial sferada mərkəzləşmənin yüksək olması, seçim azadlığının məhdudluğu və yüksək vergiqoymanı aid etmək olar;

– Sosial rifahın dövlət modeli. Bir növ bazar iqtisadiyyatı modelidir, vətəndaşların sosial şəraitinin sabitliyinin qorunması və sosial xidmətlərin sayının çoxluğu ilə xarakterizə olunur. Modelin mənfi cəhəti kimi xərclərin yüksək olmasını misal göstərmək olar;

– Sosial istiqamətlənmiş bazar təsərrüfatı modeli. Sağlam rəqabət prinsiplərinə və şəxsiyyətin hərtərəfli formalaşmasına xidmət edən bu model ölkə vətəndaşlarının dövlət tərəfindən yüksək sosial himayəsini əks etdirir. Dövlət tərəfindən mühüm işlər icra olunur ki, bunun da nəticəsində yoxsulluğun yüksək artımın qarşısını almaq mümkün olur. Lakin bu zaman dövlət bir növ bütün işləri və öhdəlikləri öz üzərinə götürür ki, bu da insanların özlərinin həll etməyə qadir olduğu məsələlərin dövlətin üzərinə düşməsi kimi mənfi halın meydana gəlməsinə şərait yaradır.

– Sosial bazar modeli. Bu modeldə sosial tənzimləmə birbaşa metodlarla deyil, əsasən iqtisadi metodlara üstünlük verilməsiylə baş tutur. Dövlətin himayəsinin azaldılması, sosial sfera sahələrinin dövlətsizləşdirilməsi, dövlət tərəfindən yardımların minimuma çatdırılması onun əsas xarakterik xüsusiyyətlərindəndir [4, s. 106-107].

Sosial siyasətin istiqamətləri onun məqsədləri ilə müəyyən olunur. Qeyd elədiyimiz kimi ümumi iqtisadi siyasətinin əsas tərkib hissəsi kimi dövlət tərəfindən sosial siyasətin həyata keçirilməsində ən vacib məqsəd insanların həyat səviyyəsinin yüksəldilməsi və onlar arasındakı fərqin azaldılmasına nail olunmaqdır. Bu zaman əhalinin məşğulluğu ilə bağlı problemlərin aradan qaldırılması, işsizliyinin minimuma endirilməsi, işsiz və fiziki, əqli sağlamlıq baxımından əmək qabiliyyəti aşağı olan əhalinin maddi vəziyyətinin təmin edilməsi, təhsil, səhiyyə sahəsində hərtərəfli islahatların aparılması, pensiya sisteminin daha da təkmilləşdirilməsi, miqrasiya ilə bağlı problemlərin həll edilməsi və digər məsələlər dövlətin nəzərdə tutduğu ən vacib işlərdəndir.

Ölkənin həyata keçirdiyi sosial-iqtisadi siyasətin səmərəsi aparılan tədbir və proqramların uğurlu nəticələri ilə müəyyən olunur. Ölkənin sosial-iqtisadi inkişaf proqramları isə aşağıdakıları əhatə edir:

– Əvvəlki illər üzrə sosial-iqtisadi inkişafın yekunlarının təhlili və iqtisadiyyatın müasir vəziyyətinin təhlili;

– Düzgün makroiqtisadi siyasətin aparılması;
– Səmərəli investisiya siyasəti;
– Aqrar siyasət;
– Ekoloji və regional siyasət;
– Sosial siyasət;
– Xarici iqtisadi siyasət [3, s. 23].

Göründüyü kimi sosial siyasətin də həyata keçirilməsi aparılan mühüm tədbirlər planının əsas tərkib hissələrindən biridir və əgər belə demək mümkünsə, birincisidir. Çünki qeyd elədiyimiz kimi aparılan bütün xarici, daxili, sosial və iqtisadi tədbirlərin əsas nəticəsi insan amilində yekunlaşır ki, bu da bilavasitə səmərəli sosial siyasətlə müəyyən olunur. Yerinə yetirilməli olan bütün tədbir və proqramların hər birinin əsasında dövlətin regional və coğrafi inkişafından tutmuş iqtisadi və investisiya siyasətinə qədər hər biri ölkənin sosial-iqtisadi inkişafını müəyyənləşdirir.

İnsan kapitalı hər bir dövlətin və regionun əsas potensialıdır. Dövlətin iqtisadi və siyasi gücünün, hərbi və kosmik sənayesinin, bir sözlə onun bir dövlət kimi formalaşmasının əsasında əlverişli insan kapitalı dayanır. Hər şeydən əvvəl onu qeyd eləmək lazımdır ki, yüksək insan potensialı olan ölkələrdə iqtisadi və sosial siyasət daha səmərəli və uğurla həyata keçirilir. Dünya təcrübəsinə də nəzər salsaq görərik ki, elə inkişaf etmiş ölkələr var ki, onlar əvvəllər uzun müddət çətin iqtisadi və siyasi şəraitdə, müharibə vəziyyətində olmalarına baxmayaraq son illər ərzində özlərinin iqtisadi artım templərinə görə dünyanın əksər dövlətlərini qabaqlamış və dünya iqtisadiyyatına, eyni zamanda siyasətinə özünəməxsus yön verməkdədirlər. Bunun nümunəsini dünyanın ən inkişaf edən 8 (ABŞ, Fransa, İngiltərə, Yaponiya, Almaniya, İtaliya, Rusiya və Kanada) ölkəsinin arasında da görə bilərik. Misal üçün, Almaniya hələ bir neçə il bundan öncə çətin iqtisadi vəziyyətdə və müharibədən yenicə çıxan dağılmış iqtisadiyyata malik olmasına baxmayaraq, artıq bugün dünyanın iqtisadi və siyasi xəritəsində hərtərəfli inkişafa və iqtisadi artım tempinə malikdir. Digər inkişaf etmiş dövlətlərdən biri kimi Yaponiyanı göstərə bilərik ki, məlum olduğu kimi Birinci Dünya Müharibəsində ən çox zərər çəkən ölkələrdən olmuşdur. Lakin bununla belə Yaponiya hal-hazırda dünyanın ən yaxşı inkişaf etmiş maşınqayırma, elektronika və robot sənayesinə malikdir. Eyni zamanda bu müqayisədə keçmiş SSRİ ölkələrindən də bəzilərinin adını çəkə bilərik.

Bütün bunların əsas səbəbi kimi adı çəkilən ölkələrin düzgün iqtisadi siyasət həyata keçirməsi və əlverişli insan kapitalı formalaşdırmasını göstərmək olar. İnsan kapitalına investisiya, təhsilin səviyyəsinin yüksəldilməsi elmi texniki tərəqqinin son nailiyyətlərinin əldə olunmasının başlıca meyarıdır. Bu ölkələrdə həyata keçirilən bütün növ inkişaf islahatlarında insan əsas subyekt kimi çıxış edirsə, eyni zamanda həmin islahatların və siyasətin əsas hədəf nöqtəsidir. Belə ki, artıq qeyd olunan ölkələrdə insan, dövlət və elm üçbucağının formalaşması tam başa çatmış və bir-biri ilə qırılmaz əlaqələr formalaşdırmışlar.

Beləliklə də, iqtisadi və sosial islahatların aparılması son nəticədə dövlətin sosial siyasətinin formalaşmasının əsas meyarıdır. Sosial siyasət formalaşdırılarkən ilk növbədə iqtisadi və sosial problemlər müəyyən olunmalı və bu istiqamətdə tədbirlər və islahatlar hazırlanmalıdır. Sosial və iqtisadi problemlər bir-biri ilə paralel surətdə həll edilməlidir. Cəmiyyəti düşündürən bütün problemlər vaxtında həll olunmalı, insanlar arasında mövcud bərabərsizliklər aradan qaldırılmalı, gəlirlərin ədalətli bölgüsü təmin edilməli, iqtisadi azadlıq prinsipləri gözlənilməli, bir sözlə dövlətin və cəmiyyətin bütün maraq və məqsədləri müsbət mənada qorunmalıdır. Çünki cəmiyyət öz-özlüyündə vahid bir struktur halında və təşkilatı əlaqələrlə müxtəlif fərdlərdən ibarət bir sistem halında fəaliyyət

göstərir. Buna görə də baş verən proseslərin hərtərəfli öyrənilməsi və elmi cəhətdən araşdırılması dövlətin düzgün sosial siyasətinin formalaşmasında əlverişli şərait yaradır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun rəsmi internet səhifəsi. www.sspf.gov.az/
2. Böyük İqtisadi Ensiklopediya, IV c., Bakı: Azərbaycan İqtisadçılar İttifaqı, 2012, 590 s.
3. Əhmədov N.H. Dövlət tənzimləməsinin iqtisadi mexanizmləri. Bakı: ADPU, 2011, 194 s.
4. Əhmədov M.A., Hüseyn A.C. İqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları. Bakı: İqtisad Universiteti, 2011, 120 s.

Элтун Ибрагимов

ИССЛЕДОВАНИЕ И ОЦЕНКА ОСНОВНЫХ НАПРАВЛЕНИЙ СОЦИАЛЬНОЙ ПОЛИТИКИ

В современных экономических условиях эффективность осуществляемых государством обязательств, а также улучшение уровня жизни населения определяется проводимой им социальной политикой. Социальная политика, являясь основной частью экономической политики, характеризуется эффективностью существующих экономических законов, государственных органов, использующих эти законы, в то же время эффективностью основных показателей деятельности населения и хозяйственных субъектов в условиях рыночной экономики. С этой точки зрения значение социальной политики и ее исследование отличаются большой актуальностью.

Ключевые слова: *социальная политика, уровень жизни, экономические отношения, экономическое развитие, государство.*

Eltun Ibrahimov

RESEARCH AND EVALUATION OF THE MAIN DIRECTIONS OF SOCIAL POLICY

In modern economic conditions, the effectiveness of the state's obligations, as well as the improvement of the standard of living of the population, is determined by its social policy. Social policy, being a major part of economic policy, is characterized by the effectiveness of existing economic laws, state bodies that use these laws, while at the same time the effectiveness of the basic indicators of the activities of the population and economic entities in a market economy. From this point of view, the importance of social policy and its research are highly relevant.

Key words: *social policy, standard of living, economic relations, economic development, state.*

(İqtisad üzrə elmlər doktoru, professor Zahid Məmmədov tərəfindən təqdim edilmişdir)

СОДЕРЖАНИЕ

ИСТОРИЯ

Исманл Гаджиев. О роли и месте Нахчывана в государстве Атропатена.....5
Фахреддин Сафарли. Город Нахчыван – столица исламской культуры на 2018 год.....12
Фахреддин Джафаров, Яшар Рагимов. Ход коллективизации сельского хозяйства в Нахчыване (статья I).....22
Эмин Шихалиев. Сущность политики двойных стандартов западных держав в связи с армяно-азербайджанским конфликтом.....30
Муса Кулиев. Нахчыванский ханский дворец.....38
Эльман Джафарли. Автономия Аландских островов: история создания и правовой статус.....43
Халид Ниязов. Структурные элементы государственной информационной политики.....53
Ильхами Алиев. Имам-заде в Нахчыванском регионе как памятник исламской культуры.....59
Сара Гаджиева. Садоводство и бахчеводство в Нахчыване в XVIII-XIX веках.....64
Севиндж Бабаева. Хозяйственная жизнь Нахчывана в заметках средневековых путешественников (XVI-XVII в.).....71
Асеф Оруджев. Историко-архитектурные памятники города Ордубад (XIX-XXI век).....75

АРХИОЛОГИЯ И ЭТНОГРАФИЯ

Вели Бахшалиев. Археологические исследования в поселении Нахчыван тепе.....80
Тогрул Халилов. Гончарные мастерские и горны бронзового века в Нахчыване (на основе материалов Кюльтепе I и Кюльтепе II).....89
Ведат Еврен Белли. Ассирийские источники о племенах восточной Анатолии эпохи раннего железа.....97

АЗЕРБАЙДЖАНСКИЙ ЯЗЫК

Абульфаз Гулиев. Мухаммед Шахтахтинский и тюркский романист Ахмет Мидхат Эфенди.....100
Ниджат Йагубов. Факторы, влияющие на снижение частоты употребления слов.....107
Рашад Зульфугаров. О некоторых вспомогательных частях речи в Нахчыванских диалектах и наречиях.....112
Нурай Алиева. Слова, перешедшие в лексикон нахчыванских диалектов и говоров из арабского языка.....117
Лейла Сафарова. Смещение открытых и закрытых гласных в джульфинских наречиях азербайджанского языка.....123
Кюбра Валиева. Арабский язык и его место среди мировых языков.....130
Джамила Магаррамова. Лингвистические особенности ороойконимов на территории иреванской провинции (историческая территория Нахчывана).....135
Нушабе Искандерова. Семантика текста.....141

ФОЛЬКЛОР И ЛИТЕРАТУРА

Фарман Халилов. Фельетоны Сеида Сабри.....148
Абид Тахирли. "Физули" Абая Даглы – незаурядный продукт национального чувства.....153
Эльхан Мамедов. Художественное отражение нахчыванских памятников в стихотворных циклах Мухтара Гасымзаде «Иду из Нухчыхана» и «Свет памяти».....160
Рамиз Гасымов. Стиль в азербайджанском критическом реализме и использование родного языка.....167
Чинара Рзаева. Проблема вариативности в баятах Азербайджана и других тюркских народов.....173
Назира Аскерова. Характерные особенности бытовых сказок.....179
Сабухи Ибрагимов. Историческая рукописная летопись о Нахчыване конца XIX-начала XX веков.....184
Фахреддин Эйлазов. Об одной рукописи ордубадского автора, посвященной астрологической науке.....189
Ниджабет Исламова. Фазлуллах Сади Таги Фирузабади эш-Ширази.....194
Айгюн Оруджева. Несколько слов о кейкавусе Гусейна джавида.....198
Сахаб Алиева. Турецкий период деятельности гусейна джавида и тема турции в его творчестве.....203
Али Гашимов. Две исторические повести об освободительном движении.....210

ИСКУССТВО

Али Гахраманов. Актер и режиссер Нахчыванского театра: Иса Мусаев.....216
Алекбер Гасымов. Главные режиссеры Нахчыванского театра.....224
Бриллиант Джафарли. Достойный дар бессмертию Джавида – мавзолей Гусейна Джавида.....233
Физза Гулиева. Предметы украшения эпохи поздней бронзы и раннего железа Нахчывана.....240
Нурай Бекташи. Нахчыванские национальные танцы яллы: яллы кочевников...247

ЭКОНОМИКА

Севинж Джаббарова. Сравнительный анализ экономических районов Азербайджана с Нахчыванской Автономной Республикой по индексу уровня развития.....253
Эльшан Ибрагимов. Финансовые кризисы и их влияние на устойчивое экономическое развитие.....258
Джавадхан Гасымов. Нахчыванская Автономная Республика: производственный потенциал и перспективы.....265
Магомед Сулейманов. Перспективы развития гастрономического туризма в Нахчыванской Автономной Республике.....272
Гасан Мамедов. Модернизация инновационным путем инфраструктуры на предпринимательских субъектах.....277
Елтун Ибрагимов. Исследование и оценка основных направлений социальной политики.....291

CONTENTS

HISTORY

Ismayil Hajiyev. About the place and role of Nakhchivan in the Atropatene state.....5
Fakhraddin Safarli. The city of Nakhchivan as the Islamic culture capital for 2018.....12
Fahraddin Cafarov, Yashar Rahimov. The course of agriculture collectivization in Nakhchivan (paper I).....22
Emin Shikhaliyev. The essence of the western powers' policy of double standards In connection with the Armenian-Azerbaijani conflict.....30
Musa Kuliyev. The Khan palace in Nakhchivan.....38
Elman Jafarli. Autonomy of the Aland ıslands: history of establishment and legal status.....43
Khalid Niyazov. Structural elements of state information policy.....53
Ilhami Aliyev. Imam-zadehs in the Nakhchivan region as monuments of the Islamic culture.....59
Sara Hajiyeva. Gardening and melon-growing in Nakhchivan in XVIII-XIX centuries.....64
Sevinj Babayeva. Economic life of Nakhchivan in the notes of medieval travelers (XVI-XVII centuries).....71
Asaf Orujov. Historical and architectural monuments of the city of ordubad (XIX-XXI century).....75

ARCHAEOLOGY AND ETNOGRAPHY

Veli Bakhshaliyev. Archaeological researches in the settlement of Nakhchivan tepe....80
Togrul Khalilov. Potteries and furnaces of the Bronze Age in Nakhchivan (based on the materials of Kültepe I and Kültepe II).....89
Vedat Evren Belli. The Assyrian sources about age tribes east Anatoly of early iron.....97

AZERBAIJAN LANGUAGE

Abulfaz Guliyev. Muhammad Shahtakhtly and Turkish novelist Ahmat Midhat Afandi.....100
Nijat Yagubov. Factors affecting the decrease in word use frequency.....107
Rashad Zulfugarov. About some auxiliary parts of speech used in the dialects and accents of Nakhchivan.....112
Nuray Aliyeva. Words borrowed from the Arabic language in the lexicon of Nakhchivan dialects and accents.....117
Leyla Safarova. Open and closed vowel gradations in Julfa accents of the Azerbaijanian language.....123
Kubra Valiyeva. The Arabic language and its place among the world languages.....130
Jamila Maharramova. Linguistic features of oro-oikonyms in the territory of the Irevan province (historical territory of Nakhchivan).....135
Nushaba Isgenderova. Text semantics.....141

FOLKLORE AND LITERATURE

Farman Khalilov. Seyid Sabri's feuilletons.....148

Abid Tahirli. Abay Daghli's "Fuzuli" play – the product of national sense.....153
Elkhan Memmedov. Art reflection of the Nakhchivan monuments in the verse cycles1 of Mukhtar Gasimzadeh "I'm coming from Nukhchykhan" and "the pharos of memory".....160
Ramiz Gasimov. The using mother tongue and stylistic problems in Azerbaijan critical realism.....167
Chinara Rzayeva. The problem of variability in bayats of Azerbaijan and other Turkic peoples.....173
Nazira Asgerova. Characteristic features of tales of manners.....179
Sabuhi Ibrahimov. Historical manuscript chronicle about Nakhchivan of late XIX-early XX centuries.....184
Fakhraddin Eylazov. A manuscript on astrology of an Ordubadian author.....189
Nicabet İslamova. Fazlullah Said Tagi Firuzabadi as-Shirazi.....194
Aygun Orujova. A few words about Huseyn Javid's Keukavus.....198
Sahab Aliyeva. The turkish period of Hussein Javid's activities and the subject of Turkey in his creative work.....203
Ali Hashimov. Two historical novellas about the liberation movement.....210

ART

Ali Gahramanov. The actor and producer of the nakhchivan Theatre: Isa Musayev.....216
Alakbar Gasimov. Head producers of the Nakhchivan Theatre.....224
Brilliant Jafarli. Worthy gift to the immortality of javid is the Hussein Javid's mausoleum.....233
Fizza Guliyeva. Decoration items of the Late Bronze and Early Iron age of Nakhchivan.....240
Nuray Bektashi. Nakhchivan national dances of the yalla: nomad's yallas.....247

ECONOMICS

Sevinj Cabbarova. Comparative analysis of the economic regions of Azerbaijan with the Nakhchivan Autonomous Republic on the development level index.....253
Elshen Ibrahimov. Financial crises and their impact on sustainable economic development.....258
Javadkhan Gasimov. Nakhchivan Autonomous Republic: production potential and perspectives.....265
Suleymanov Mahammad. Prospects for the development of gastronomic tourism in the Nakhchivan Autonomous Republic.....272
Hasan Mammadov. The innovative modernization of infrastructure on entrepreneur enterprises.....277
Eltun Ibrahimov. Research and evaluation of the main directions of social policy....291

MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ

1. Jurnalın əsas məqsədi elmi keyfiyyət kriterilərinə cavab verən orijinal elmi məqalələrin dərc edilməsindən ibarətdir.
2. Jurnalda başqa nəşrlərə təqdim edilməmiş yeni tədqiqatların nəticələri olan yığcam və mükəmməl redaktə olunmuş elmi məqalələr dərc edilir.
3. Məqalənin həmmüəlliflərinin sayının üç nəfərdən artıq olması arzuolunmazdır.
4. Məqalələrin keyfiyyətinə, orada göstərilən faktların səhihliyinə müəllif birbaşa cavabdehdir.
5. Məqalələr AMEA-nın həqiqi və müxbir üzvləri və ya redaksiya heyətininüzvlərindən biri tərəfindən təqdim edilməlidir.
6. Məqalələr üç dildə – Azərbaycan, rus və ingilis dillərində çap oluna bilər. Məqalənin yazıldığı dildən əlavə digər 2 dildə xülasəsi və hər xülasədə açar sözlər verilməlidir.
7. Məqalənin mətni jurnalın redaksiyasına fərdi kompyuterdə, A4 formatlı ağ kağızda, "12" ölçülü hərflərlə, səhifənin parametrləri yuxarıdan 2 sm, aşağı dan 2 sm; soldan 3 sm, sağdan 1 sm məsafə ilə, sətirdən-sətrə "defislə" keçmədən, sətir aralığı 1,5 interval olmaq şərti ilə rus və azərbaycan dilində Times New Roman şriftində yazılaraq, 1 nüsxədə çap edilərək, disketlə birlikdə jurnalın məsul katibinə təqdim edilir. Mətnin daxilində olan şəkil və cədvəllərin parametri soldan və sağdan 3,7 sm olmalıdır.
8. Səhifənin sağ küncündə "12" ölçülü qalın və böyük hərflərlə müəllifin (müəlliflərin) adı və soyadı yazılır.
9. Aşağıda işlədiyi təşkilatın adı və müəllifin E-mail adresi, "12" ölçülü adi və kiçik hərflərlə yazılır (məs.: AMEA Naxçıvan Bölməsi; E-mail: ada.nat.res@mail.ru). Daha sonra 1 sətir boş buraxılmaqla aşağıdan "12" ölçülü böyük hərflərlə məqalənin adı çap edilir. Sonra məqalənin yazıldığı dildə "10" ölçülü hərflərlə, kursivlə xülasə və açar sözlər yazılır.
10. Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır və istifadə olunmuş ədəbiyyat xülasələrdən əvvəl "12" ölçülü hərflərlə, kodlaşdırma üsulu və əlifba sırası ilə göstərilməlidir. "Ədəbiyyat" sözü səhifənin ortasında qalın və böyük hərflərlə yazılır. Ədəbiyyat siyahısı yazıldığı dildə adi hərflərlə verilir. Məs.:

   Kitablar:

   Qasımov V.İ. Qədim abidələr. Bakı: İşıq, 1992, 321 s.

   Kitab məqalələri:

   Həbibbəyli İ.Ə. Naxçıvanda elm və mədəniyyət / Azərbaycan tarixində Naxçıvan, Bakı: Elm, 1996, s. 73-91.

   Jurnal məqalələri:

   Baxşəliyev V.B., Quliyev Ə.A. Gəmiqaya təsvirlərində yazı elementləri // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2005, № 1, s. 74-79.
11. Məqalənin xülasəsində müəllifin adı və soyadı "12" ölçülü kiçik, qalın hərflərlə; mövzunun adı böyük, qalın hərflərlə; xülasənin özü isə adi hərflərlə yazılır. Xülasə məqalənin məzmununu tam əhatə etməli, əldə olunan nəticələr ətraflı verilməlidir.
12. Məqalədəki istinadlar mətnin içərisində verilməlidir. Məs.: [4, s. 15]
13. Məqalələrin ümumi həcmi, qrafik materiallar, fotolar, cədvəllər, düsturlar, ədəbiyyat siyahısı və xülasələr də daxil olmaqla 5-7 səhifədən çox olmamalıdır.
14. Məqaləyə müəlliflər haqqında məlumat (soyadı, adı və atasının adı, iş yeri, vəzifəsi, alimlik dərəcəsi və elmi adı, ünvanı, E-mail adresi, iş və ev telefonları) mütləq əlavə olunmalıdır.

QEYD: AMEA Naxçıvan Bölməsinin "Xəbərlər" jurnalına təqdim olunan məqalələrin sayının çoxluğunu və "Tusi" nəşriyyatının imkanlarının məhdudluğunu nəzərə alaraq bir nömrədə hər müəllifin yalnız bir məqaləsinin çap edilməsi nəzərdə tutulur.

AMEA Naxçıvan Bölməsinin elmi nəşri
№ 1 (51)

Baş redaktor: *Zülfiyyə Məmmədli*
Redaktor: *Sara Cəfərova*
Korrektor: *Yelena Muxtarova*
Operatorlar: *İlhamə Əliyeva, Aynur Təhməzova, Taleh Maxsudov*

Yığılmağa verilmişdir: 02.02.2018
Çapa imzalanmışdır: 27.02.2018
Kağız formatı: 70 x 108 1/16
18,8 çap vərəqi. 302 səhifə
Sifariş № 110. Tiraj: 200

AMEA Naxçıvan Bölməsinin "Tusi" nəşriyyatında çap edilmişdir.
Ünvan: *Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, 35.*
E-mail: tusinesr@gmail.com